AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
UNEC

# “ŞUŞANIN SOSİAL-İQTİSADİ DİRÇƏLDİLMƏSİ– AZƏRBAYCANIN TƏRƏQQİSININ YENİ ZİRVƏSİDİR”

***adlı ümumrespublika elmi məqalə müsabiqəsinin***

# ELEKTRON MƏQALƏ TOPLUSU

**UNEC Tədqiqat Mərkəzlərinin İşinin Əlaqələndirilməsi və Təşkili şöbəsi**
**UNEC Qarabağ iqtisadi Araşdırmalar Mərkəzi**

**BAKI - UNEC – 2022**

# Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

*05 yanvar 2022, 12:00*

Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.

Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlamış Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılmışdır.

Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu.

Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni- mənəvi dəyərini nəzərə alaraq qərara alıram:

1. 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Şuşa İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 yanvar 2022-ci il***

www.president.az - Azərbaycan Respublikası Prezidentinin Rəsmi internet səhifəsi



«8 Noyabr – Zəfər Günü»nə və «Şuşa İli»nə həsr olunmuş

# «Şuşanın sosial-iqtisadi dirçəldilməsi – Azərbaycanın tərəqqisinin yeni zirvəsidir»

ümumrespublika elmi

# MƏQALƏ MÜSABİQƏSİ

Məqalələrin son göndərilmə tarixi: 10.10.2022
Nəticələrin elanı: 01.11.2022
Email: garabagh.iam@unec.edu.az
Əlaqə: 012 492-57-31 (TMİƏT şöbəsi)
Koordinator: 99455 400-37-20 (QİAM)

## MÜSABİQƏNİN ƏSAS İSTİQAMƏTLƏRİ:

1. Şuşa şəhərinin sosial-iqtisadi dirçəldilməsinə nəzəri-metodoloji yanaşmalar və konseptual baxışlar.
2. Şuşa şəhərinin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri.
3. Şuşanın resurs potensialının təhlili və qiymətləndirilməsi.
4. Şuşada mədəniyyət iqtisadiyyatının inkişaf etdirilməsi yolları.
5. Şuşa şəhərinin dirçəldilməsinin Azərbaycanın tərəqqisinin yeni zirvəyə qaldırılmasında strateji əhəmiyyəti.

## MÜKAFATLANDIRMA:

❖ **professor-müəllim heyəti üçün:**

I yer - 500 AZN; II yer – 300 AZN;
III yer – 200 AZN

❖ **doktorant, magistr və tələbələr üçün:**

I yer - 300 AZN; II yer - 200 AZN;
III yer - 100 azn

❖ Hər iki heyət üzrə ilk 10-luğa düşən məqalələrə Sertifikatlar veriləcək.

## YAZI QAYDASI:

Məqalə 6-8 səhifə həcmində (şrift: Times New Roman, şrift ölçüsü: 12, sətirlərarası məsafə: 1.5; sol: 3 sm, yuxarı: 2 sm, aşağı: 2 sm, sağ: 1.5 sm) yazılmalıdır.
Məqalədə müəllifin SAA, vəzifəsi, əlaqə telefonu, email ünvanı qeyd olunmalıdır.

**UNEC Tədqiqat Mərkəzlərinin İşinin Əlaqələndirilməsi və Təşkili şöbəsi**
**Qarabağ İqtisadi Araşdırmalar Mərkəzi**

**Sizi “ŞUŞA İLİ” VƏ “8 NOYABR-ZƏFƏR günü”nə həsr olunmuş “Şuşanın sosial-iqtisadi dirçəldilməsi – Azərbaycanın tərəqqisinin yeni zirvəsidir” adlı ümumrespublika elmi məqalə müsabiqəsinin yekunlarına həsr olunmuş tədbirdə iştirak etməyə dəvət edirik!**

# PROQRAM

| | |
|---|---|
| 11:00 -11:05 | UNEC Şəhidlərinin xatirə tablosu önünə əklil qoyulması |
| 11:05 – 11.10 | Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi |
| 11:10 – 11:15 | Elm üzrə prorektor prof. Sakit Yaqubovun salamlama nitqi |
| 11:15 – 11:20 | Vətən Müharibəsinə həsr olunmuş videoçarxın nümayişi |
| 11:20 – 11:30 | UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri prof. Şəfa Əliyevin çıxışı |
| 11:30 – 11:40 | «QARDAŞLAR MEBEL» QSC-nin nümayəndəsinin çıxışı |
| 11:40 – 11:45 | «QARDAŞLAR MEBEL» QSC-ə məxsus videoçarxın nümayişi |
| 11:45 – 11:55 | Mükafatlandırma mərasimi |
| 11:55 – 12:00 | İştirakçılarla fotosessiya |

**Keçirilmə yeri:** Bakı ş., İstiqlaliyyət 6 (UNEC əsas tədris binası, Ağ Zal )
**Keçirilmə vaxtı:** 11 noyabr 2022/ saat 11:00
**Əlaqə nömrəsi:** +99412 492-57-31

# MÜNDƏRİCAT:

## Bölmə I. Professor-müəllim heyəti:


1. **Cabbarov Əli**
“Dark” turizm - erməni işğal sonrası Şuşa şəhərində perspektiv turizm növü kimi………….……...12

2. **Məmmədov Aqil**
Şuşa Şəhərinin Sosial-İqtisadi Dirçəldilməsinə Nəzəri-Metodoloji Yanaşmalar ve Konseptual Baxışlar……………………………………………...………………………………………..16

3. **Vəliyeva Lalə, Əliyev Şükür**
Şuşa və Azərbaycanda turizm sahəsinin inkişafında onun rolu…………………...………………20

4. **Balacayeva Təhminə**
Characteristics and distribution features of Shusha's natural resources. ……………………….………24

5. **Abdullayeva Nuranə**
Şuşa şəhərinin yenidənqurma və inkişafının Azərbaycan Respublikası üçün strateji əhəmiyyəti…………………………………………………………………………….………...28

6. **Əhmədli Fatmaxanım**
Historical-cultural monuments of Shusha and their situation after the occupation……………….……31

7. **Məmmədova Samirə**
Şuşanın resurs potensialının təhlili və qiymətləndirilməsi…………………………...………...…36

8. **Əsədova Səbinə**
Mədəniyyət sahəsinin rəqəmsallaşması: beynəlxalq təcrübə və şuşanın yeni imkanları……….....…40

8. **Bədəlov Etibar**
Şuşa şəhərinin sosial-iqtisadi inkişafının tarixi və yeni mərhələsinin xüsusiyyətləri…………….…45

9. **Bahman Huseynli, Nigar Huseynli**
Strategic Importance of Branding of Shusha City for Azerbaijan………………………….…………48

10. **Əmirov İmran, Hacıyeva Zülfiyyə**
“Qafqazın konservatoriyası - Şuşa”nın yetirmələri………………………………………………53

11. **Camalzadə Gündüz**
Karabağ Ekonomisinin Geleceğine Bakış: Sürdürebilir Kalkınma Modeli……………………….……..56

12. **Alibeyli Khayala, Sadigov Tofig, Abbasov Javid, Gafarova Mehriban, Guliyeva Gunay, Huseynova Farida**
Biomorphological characteristics and medical importance of peppermint…………………………62

13. **Alibeyli Khayala, Sadigov Tofig, Abbasov Javid, Gafarova Mehriban, Guliyeva Gunay, Huseynova Farida**
Biomorphological characteristics, phytochemical composition and medical importance of common lavender (Lavandula angustifolia L.)……………………………………………………………...64

**14. Məmmədova İntizar**
Şuşa şəhərində mədəni dəyərlərin dircəlişi və geniş kütlə üçün əlçatanlığının təmin edilməsi yolları……………………………………………………….……………………………………..67

**15. Ahənçi Pərvin**
"Şuşa nağılı" - Şuşada mədəniyyət iqtisadiyyatının inkişaf etdirilmə yollarının axtarışı kontekstində…………………………………………………………………………….…………72

**16. Məmmədova X.F., Məmmədov F.Ə.**
Qarabağ iqtisadi rayonunda yungül sənayenin uzun müddətli inkişafı…………………………...……78

**17. Hüseynova Aynur**
Şuşa şəhərinin sosial-iqtisadi inkişafinin prioritet istiqamətləri, Leucaena Pulverulenta (schltdl.) benth. növünün bioekoloji xüsusiyyətləri və iqtisadi səmərəliliyi……………………………..…82

**18. Xəlilov İlqar**
Şuşa rayonunun sosial-iqtisadi inkişafının və ekoloji vəziyyətinin tənzimlənməsi istiqamətləri………………………………………………………………………...…………..87

**19. İsayev Kamran**
Şuşa şəhərinin bərpası və sosial-iqtisadi infrastrukturunun qurulması…………….……………….90

**20. Mustafayeva Şahəstə**
Şuşa şəhərinin dirçəldilməsinin Azərbaycanın tərəqqisinin yeni zirvəyə qaldırılmasında strateji əhəmiyyəti……………………………………………………………….……………….………94

**21. Ağamalıyeva Yeganə, Salehzadə Gülçöhrə**
Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhərinin sosial-iqtisadi inkişaf perspektivində turizm………………………………………………………………….…………………...…98

**22. Rüstəmov Pərviz**
İnsan resurslarının idarə edilməsində rəqəmsal iqtısadiyyatın inkişaf istiqamətləri…………..…..103

**23. Kaşiyeva Flora**
Şuşa şəhərinin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri………………………………..…110

**24. Hacıyev Camal, Həmidov Maşallaxan**
Şuşa şəhərinin sosial-iqtiasadi inkişafının turizmə təsiri istiqamətləri…………………………….113

**25. Xəlilova Vəsilə**
Şuşa şəhərinin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri…………………….………….…….115

**26. Abbasova Sevda**
Şuşa şəhərının sosial-iqtisadi inkişafının prioritet istiqamətləri…………….…………..……………120

**27. Babaşova Əfşan**
Şuşa şəhərinin sosial-iqtisadi inkişafında turizmin rolu…………………………..…………….123

**28. Həsənova Cəmilə**
Turizm və rekreativ zonaların qurulmasında ŞUŞA şəhərinin əvəzsiz rolu…………..……..…..127

## Bölmə II. Doktorant, magistr və tələbələr:

**29. Zeynallı Afaq**
Şuşada mədəniyyət iqtisadiyyatının inkişafı potensialının dəyərləndirilməsi…………….....……..133

**30. Məmtiyeva Nərminə**
Şuşanın sosial-iqtisadi dirçəldilməsi–Azərbaycanın prioritet istiqamətlərindən biri kimi………..….135

**31. Bəxtiyarova Aidə**
Şuşa şəhərinin inkişafinin sosial-iqtisadi və strateji aspektləri...…………………………….……..139

**32. Elnura Aliyeva**
The biotechnological approaches of conservation of the symbol of Shusha……………………...…..144

**33. Rəhimova Türkan**
Şuşanın resurs potensialından "Agile İnnovation" metodu ilə istifadə imkanları……………...…..148

**34. Nəsibov Elvin**
Şuşada mədəniyyət iqtisadiyyatının inkişaf etdirilməsi yolları..…………………….……………….153

**35. Nəcəfov Rəhim**
The strategic importance of the socio-economic revival of Shusha in the progress of Azerbaijan………………………………………...………………...……………...………..157

**36. Balışova Rəvanə**
İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan – Türkiyə münasibətləri……………………..…..161

**37. Vəliyeva Yeganə**
Şuşa şəhərinin dirçəldilməsinin azərbaycanın tərəqqisinin yeni zirvəyə qaldırılmasında strateji əhəmiyyəti………………………………...…………………………………………………..…..164

**38. Muradov Nicat**
Şuşanın resurs potensialının təhlili və qiymətləndirilməsi……………………..………………166

**39. Əsgərli Vüsal**
İşğaldan azad olunmuş inzibati rayonlarin infrastruktur inkişaf problemləri və milli iqtisadiyyata inteqrasiyasının təmini……………………………………………...………………………170

**40. Balışova Ləman**
Zəngəzur dəhlizinin açılmasının gələcək iqtisadi perspektivləri…………….………………………..174

**41. Tağıyev Cəmil**
Qarabağda kreativ iqtisadiyyat və ixrac potensiali……………………………………...……178

**42. Tural İsa oğlu Əliyev**
Şuşa şəhərinin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri…….….………………….……..…182

**43. Osmanova Nübar**
Şuşa – türk dünyasının mədəniyyət mərkəzi kimi……...……………………………..…..…...185

**44. İbrahimov Təbriz**
Şuşa, sən azadsan!...........................................................................................................................189

**45. Mirzəyeva Ayan**
Şuşanın sosial-iqtisadi dirçəldilməsi – Azərbaycanın tərəqqisinin yeni zirvəsidir…….……….….192

**46. Məmmədov Hikmət**
Şuşanın sosial-iqtisadi dirçəldilməsi -Azərbaycanin tərəqqisinin yeni zirvəsidir……………..……196

**47. İsmayılov Hüseyn**
Şuşa şəhərində turizmin inkişaf potensialinin qiymətləndirilməsi………………………………200

**48. Abdullayeva Fatimə**
Qarabağ bölgəsində Şuşa şəhərinin rolu…………………………………......…………..……204

**49. Qasımova Röya**
Şuşanın sosial-iqtisadi dirçəldilməsi-Azərbaycan tərəqqisinin yeni zirvəsidir…………….……208

**50. Qasımova Səadət**
Şuşanın sosial-iqtisadi dirçəlməsi – Azərbaycan tərəqqisinin yeni zirvəsidir……………..……..211

**51. Məmmədova Kəmalə, Səmədova Aysel**
Tənəzzüldən tərəqqiyə aparan yol…………………………………………………………….213

**52. Abdullayeva Aynur**
Şuşa şəhərinin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri……………………...…...……..218

**53. Vəlieva Aytac**
Şuşa şəhəri Azərbaycanın əsrarəngiz mədəniyyət incise……………………………….….……..221

**54. Mammadzada Elchin**
Cultural Importance of Shusha and its Socio-economic Revitalization………………….….……..225

**55. Quluzadə Yasəmən**
Azərbaycan xarıcı tıcarət əlaqələrının milli iqtısadıyyata təsırının səmərəlılıyının qıymətləndırılməsı……………………………………………………………..…...……229

**56. Rəhimli Günel**
Şuşada mədəniyyət iqtisadiyyatının inkişaf etdirilməsi yolları…………………..……………..233

**57. İsgəndərova Lalə**
Şuşa……………………………………………………..…………………….....…….235

**58. Əsgərova Şəhanə**
Şuşa şəhərində mədəniyyət iqtisadiyyatının inkişafı……………………………….……..….239

**59. Əliyeva Cəmilə**
Şuşanın sosial-iqtisadi dirçəldilməsi – Azərbaycanın tərəqqisinin yeni zirvəsidir………..……..…241

**60. Məlikov Elbəyi**
Regionlarin inkişafina dair dövlət proqramları……………………………………….………....245

**61. Məmmədov Amil**
Blokçeyn Texnologiyasi……………………………………………………..…..…...…247

**62. Əmrahova Ayşə** (Elmi rəhbər: dosent Sona Məhərrəmova)
Şuşanın mədəniyyət tarixinə Cıdır düzündən məğrur baxışla.......................................................253

**63. Balayev Həmzə**
Şuşa iqtisadiyyatı: 30 illik həsrətdən çiçəklənən reallığa……………………………..………..257

**64. Həşimzadə Həmid**
Şuşa şəhərinin dirçəldilməsinin Azərbaycanın tərəqqisinin yeni zirvəyə qaldırılmasında strateji əhəmiyyəti……………………………………………………………..………..……..…..260

**65. Quliyeva Firuzə**
Şuşanın sosial-iqtisadi dirçəldilməsi – Azərbaycanın tərəqqisinin yeni zirvəsidir…………………263

**66. Heydərova Səbinə**
II Qarabağ müharibəsi:Azərbaycan-Türkiyə birliyinin regionda yaratdığı yeni geosiyasi vəziyyət..264

**67. Mirzəcanzadə Fərid**
Zəngəzur dəhlizinin açılmasının iqtisadi və siyasi əhəmiyyəti.........................................................268

**68. Hacıyeva Lamiyə**
Şuşada mədəniyyət iqtisadiyyatının inkişaf etdirilməsi yolları.......................................................272

**69. Əbdüləzimova Aysel**
İşğaldan azad edilmiş rayonların iqtisadi potensialının təhlili və qiymətləndirilməsi....................277

**Tədbirdən fotoşəkillər** ...............................................................................................282

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin 14.03.2022-ci il tarixli F-134 saylı Əmrinin "Şuşa ili" ilə bağlı Tədbirlər Planının icrasının təmin edilməsi məqsədilə Azərbaycan Dövlət İqtisad Universiteti UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzi tərəfindən keçirilən "Şuşanın sosial-iqtisadi dirçəldilməsi – Azərbaycanın tərəqqisinin yeni zirvəsidir" adlı ümumrespublika elmi məqalə müsabiqəsinin yekunu:**

## I Bölmə. Professor-müəllim heyəti üzrə:

Professor-müəllim heyəti üzrə ilk 3 yer və onluq (mükafatın məbləği - I yer - 500 azn; II yer – 300 azn; III yer – 200 azn) və Sertifikatla təltif olunanlar.

| s/s | Müəllifin S.A.A | Məqalə adı |
|---|---|---|
| **1.** | Cabbarov Əli Xeybər oğlu (i.f.d. dos."Naxçıvan" Universiteti) | Ekspert korrektəsi: İşğaldan azad edilmiş Şuşa şəhərində "Dark" turizmi - perspektiv turizm növü kimi |
| **2.** | Məmmədov Aqil Arif (UNEC Dosenti, S.e.ü.f.d) | Şuşa şəhərinin sosial-iqtisadi dirçəldilməsinə nəzəri-metodoloji yanaşmalar və konseptual baxışlar |
| **3.** | Vəliyeva Lalə Müsəllim qızı<br>Əliyev Şükür Həsən oğlu (Sumqayıt Dövlət Universiteti) | Şuşa şəhərinin Azərbaycanda turizm sahəsinin inkişafında rolu |
| **4.** | Balacayeva Təhminə Paşa qızı (Bakı Dövlət Univeriteti, müəllimə) | Characteristics and distribution features of Shusha's natural resources. |
| **5.** | Abdullayeva Nuranə Namiq qızı ("Menecment" kafedrası, laborant, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) | Şuşa şəhərinin yenidənqurma və inkişafının Azərbaycan Respublikası üçün strateji əhəmiyyəti |
| **6.** | Əhmədli Fatmaxanım Eldar qızı (Müəllim, Naxçıvan Dövlət Universiteti) | Historical-cultural monuments of Shusha and their situation after the occupatıon |
| **7.** | Məmmədova Samirə Yaşar qızı (Azərbaycan Koorperasiya Universiteti, Marketinq kafedrası, i.ü.f.d., dosent) | Şuşanın resurs potensialının təhlili və qiymətləndirilməsi |
| **8.** | Əsədova Səbinə Sadıx qızı<br>Azərbaycan Respublikası (Elm və Təhsil Nazirliyi yanında İqtisadiyyat İnstitutunun "Post-konflikt ərazilərin bərpası elmi mərkəzi"nin böyük elmi işçisi) | Mədəniyyət sahəsinin rəqəmsallaşması: beynəlxalq təcrübə və şuşanın yeni imkanları |
| **9.** | Bədəlov Etibar Sənan oğlu (c.ü.f.d., dosent. akad. H.Ə. Əliyev ad. Coğrafiya institutu) | Şuşa şəhərinin sosial-iqtisadi inkişafının tarixi və yeni mərhələsinin xüsusiyyətləri |
| **10.** | Hüseynli Bəhman Eldar oğlu, Hüseynli Nigar Firdovsi qızı (UNEC, müəllimlər) | Strategic Importance of Branding of Shusha City for Azerbaijan |

## II Bölmə. Doktorant, magistr və tələbələr üzrə:

Doktorant, magistr və tələbələr üzrə ilk 3 yer və onluq (I yer - 300 azn; II yer - 200 azn; III yer - 100 azn) və Sertifikatla təltif olunanlar.

| s/s | Müəllifin S.A.A | Məqalə adı |
|---|---|---|
| **1.** | Zeynallı Afaq Əbülfət qızı (UNEC "İmtahan mərkəzi", mütəxəssis, UNEC "Ümumi iqtisadiyyat" ixtisasında dissertant) | Şuşada mədəniyyət iqtisadiyyatının inkişafı potensialının dəyərləndirilməsi |
| **2.** | Məmtiyeva Nərminə Vüqar qızı (Azərbaycan Dövlət İqtisad Universiteti "Biznes və Menecment" fakültəsi, qrup 912) | Şuşanın sosial-iqtisadi dirçəldilməsi– Azərbaycanın prioritet istiqamətlərindən biri kimi |
| **3.** | Bəxtiyarova Aidə Ziyad qızı<br>Azərbaycan Dövlət Neft və Sənaye Unversitetinin doktorantı | Şuşa şəhərinin inkişafının sosial-iqtisadi və strateji aspektləri |
| **4.** | Əliyeva Elnurə Qənbər qızı<br>(4-cü kurs tələbəsi, Chemical Engineering, KM 19.1<br>Baku Higher Oil School) | The biotechnological approaches of conservation of the symbol of Shusha |
| **5.** | Rəhimova Türkan Fuad qızı (Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi (UNEC)<br>Layihələrin və İnnovasiyaların İdarə olunması, Qrup 222) | Şuşanın resurs potensialından "Agile innovation" metodu ilə istifadə imkanları |
| **6.** | Nəsibov Elvin Elşən oğlu<br>Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant | Şuşada mədəniyyət iqtisadiyyatının inkişaf etdirilməsi yolları |
| **7.** | Nəcəfov Rəhim Cabbar oğlu (Naxçıvan Dövlət Universiteti) | The strategıc importance of the socio-economic revival of Shusha ın the progress of Azerbaijan |
| **8.** | Balışova Rəvanə Elman qızı<br>(Sumqayıt Dövlət Universiteti, II kurs tələbəsi | İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan – Türkiyə münasibətləri |
| **9.** | Vəliyeva Yeganə Arif qızı<br>Azərbaycan Dövlət İqtisad Universiteti Türk Dünyası İqtisad Fakültəsi İşletme 270 | Şuşa şəhərinin dirçəldilməsinin Azərbaycanın tərəqqisinin yeni zirvəyə qaldırılmasında strateji əhəmiyyəti |
| **10.** | Muradov Nicat Zəfər oğlu<br>(Azərbaycan Respublikasının Prezidenti yaninda Dövlət İdarəçilik Akademiyasi magistri | Şuşanın resurs potensialının təhlili və qiymətləndirilməsi |

**Əli Cabbarov i.f.d. dos.**
"Naxçıvan" Universiteti
acabbarov@mail.ru

## "Dark" turizm - erməni işğal sonrası Şuşa şəhərində perspektiv turizm növü kimi

**Xülasə**

Turizmin inkişafı onun yerinə yetirdiyi funksiyalarla sıx bağlıdır. Turizmin ehtiyatlarından istifadə olunması ilə ayrı-ayrı turizm növlərinin inkişaf etdrilməsi nəticəsində turizm gəlirlərinin əldə olunması və onun təbliğt gücündən istifadə edilməsi bu sahədə qarşıya qoyulmuş əsas vəzifələrdəndir. Bu məqalədə işğal sonrasında "Dark" turizm növünün tətbiqi ilə Azərbaycan Respublikasının Qarabağ bölgəsində və onun Şuşa şəhərində erməni vandalizminin izlərinin dünya ictimaiyyətinə çatdırılması məsələləri araşdırılmışdır.

**Təqdimat**

Müasir turizm təbii, tarixi-mədəni və süni-antropogen ehtiyatlar əsasında inkişaf etdirilən və turistlərdə rekreasiya-sağlamılq, tanıışlıq və mənəvi zənginləşmə kimi əsas təssüratlar formalaşdıran bir fəaliyyət növüdür. Turizmin bu müsbət keyfiyyətləri onun inkişaf etdirildiyi ölkələrdə regional inkişaf və tanıtım baxımından ən yaxşı vasitə kimi dövlətlər və onların hökumətləri tərəfindən istifadə olunur. İnsan tələbatlarının artması ilə turizm növlərinin də sayının artması bu baxımdan, turizmin özünəməxsus geniş imkanları arasındadır. Belə ki, turizm səfərləri sonrası yaranan təəssüratlar əsasən müsbət yöndə olduqda bu, yeni turizm səyahətləri üçün də yeni imkanlar yaradır, eyni zamanda onun tərbiyəvi və maariflәndirici gücündən istifadəyə səbəb olur. Bu baxımdan, "Dark" turizm xüsusi bir növ kimi təbii fəlakətlər, texnogen qəzalar, terror, işğal və müharibə baş vermiş ərazilərə səfər etmiş turitslərdə təəssüf, qorxu və buna bənzər dərin düşüncə formalaşdırmaqla əslində turizmin humanitar gücünü bir daha ortaya qoymuş olur. Bu mənada, 1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarından başlayarq otuz ildən artıq müddətdə ölkəmizin Qarabağ və ona bitişik ərazilərində xalqımıza qarşı törətdiyi işğalçılıq, vandalizm, talançılıq, genosid, ekosid, urbisid hadisələrinin nəticələrini yerində görmək üçün bu bölgəyə səfər edən yerli və əcnəbi turistlərə bu motivlər əsasında turlar təşkil olunması, fikrmizcə, erməni xislətinin bütün dünyaya tanıdılması baxımından maraqlı ideya kimi səslənir. Belə ki, 30 il ərzində ermənilər Qarabağda 54 min hektar meşəni kəsib aparmışlar (11). Erməni işğalı dövründə Qarabağın yerlə yeksan olunmuş şəhər və kəndləri, talan olunmuş maddi sərvətləri, vandallığa məruz qalmış dini-mədəni obyektləri, məhv olunmuş fauna və florasından nümunələr saxlanılmaqla onların gələcəkdə maddi sübutlar kimi ölkəmizə səfər edən elm adamları, diplomatlar, mədəniyyət xadimləri və ya sadəcə həvəskar turistlərə təqdim olunmaqla ölkəmizə qarşı davam edən haqsız ikili standartlara da tutarlı cavab vermək mümkündür. İşğaldan azad olunmuş bütün ərazilərimizdə o cümlədən, gələn il bütün Türk Dünyasının mədəniyyət paytaxtı olacaq Şuşa şəhərində (14) işğal zamanı ermənilərin törətdiyi hər cür cinayətlərin dünya miqyasında ictimailəşdirilməsi məqsədilə "Dark" turizmi növü bu baxımdan, uğurlu vasitələrdən biri ola bilər.

**Diskussiya**

"Dark" turizm növü dünyada bir çox yerlərdə, əsasən də Avropa ölkələrində ötən XX əsrin sonlarından yayılıb (2). Belə ki, İtaliyanın vulkan külləri altında qalmış Pompey şəhərinin qalıqları, ikinci dünya müharibəsinin qanlı izlərinin mövcud olduğu Polşanın Osvesim həbs düşərgəsinin dəhşətli yerləri, həmçinin Almaniya, Çexiya, Macarıstandakı müharibə izləri, Yaponiyadakı atom bombası partlayışının törədildiyi Xirosiam və Naqasaki şəhərləri, 1991-1995-ci illərdə keçmiş Yuqoslaviyanın dağılması ilə baş vermiş qanlı toqquşmalar və Srebrenitsa soyqırımının izərini daşıyan yerlər "Dark" turizmə maraq göstərənlərin ziyarət yerlərindəndir (6). Günümüzdə hələ də davam edən Rusiya-Ukrayna müharibəsi nəticəsində Hostomel hava limanında məhv edilmiş məşhur AN-225-Mriya təyyarəsinin (15) qalıqları, yaxud Mariupol şəhəri və onun əfsanəvi müdafiə qalası olan Azovstal zavodu (16) da heç şübəhsiz, nə qədər təəssüflü olsa da gələcəkdə "Dark turizm" üçün

unikal yerlərdən olacaq. Müharibə səbəbindən başqa isə tarix ərzində 1912-ci ildə əfsanəvi Titanik gəmisinin batdığı yerə və ya Ukraynadakı Çernobıl Atom Elektrik stansiyasının 1986-cı ildə partlamış 4-cü reaktoruna və bütövlükdə Pripyat regionuna, Türkmənistanda "Cəhənnəm qapısı" adlandırılan yanar qaz partlayışı sonrası yaranan nəhəng kraterə baxmağa gələnlər də eyni təəssüf və qorxu hisslərini yaşayırlar. 2001-ci il 11 sentyabrında ABŞ-da dünya ticarət mərkəzinin binalarında törədilmiş terror aktı nəticəsində binaların tamamilə toza dönərək yox olmasından sonra onun yerində yaradılmış memrial kompleksə baxmağa gələnlər də eyni hissləri keçirilər. Keçmiş SSRİ ərazsində belə ziyarət yerləri kimi Belarusun paytaxtı Minsk şəhəri yaxınlığındakı Xatın memorial kompleksi və şübhəsiz ki, ermənilərin 1992-cildə törətdiyi Xocalı soyqırımının baş verdiyi yer misal göstərilə bilər (17). Son otuz il ərzində keçmiş SSRİ-nin dağılması ilə yaranan separatçılıq hərəkətləri və onların nəticəsində hələ də davam edən qanlı toqquşmaların yaratdığı dağıntı və faciələr təəssüf ki, "Dark" turizm üçün yeni destinasiyalar yaratmışdır ki, bunlardan biri də 30 ilə yaxın müddətdə erməni işğalı altında qalmış Azərbaycanın Qarabağ bölgəsidir.

İşğaldan azad olunmuş Qarabağda "Dark" turizmin təşkili üçün kifayət qədər özünəməxsus əsaslar vardır. Belə ki, Qarabağın keçmiş sovet dönəmində mövcud olmuş böyük turizm potensialı, Azərbaycan Respublikasına səfər etmiş turistlərin böyük əksəriyyətinin bu cazibədar regiona səfər etməsi burada turizmin müxtəlif növləri üçün geniş arxazəmin yaradır. Hələ 1988-ci ilə qədər Qarabağda mövcud olmuş turizm infrastrukturu, buradakı təbii və tarixi-mədəni turizm ehtiyatları hər il çox sayda turistin mənalı asudə vaxt keçirməsinə imkan yaradırdı. Füsunkar təbiət, gözəl iqlim, zəngin mədəniyyət Qarabağın ümumi turizm cazibəsini müəyyən edən amillərdən idi. Ermənistanın ölkəmizə qarış təcavüzü nəticəsində isə Qarababağın təkcə turizm potensialını müəyyən edən bu şərait deyil, bütün mülki infrasruktur, təbii və tarixi-mədəni sərvətləri tamamilə dağıdılmışdır. Mədəniyyət paytaxtımız Şuşada, Qafqazın Xirosiması adlandırılan Ağdamda, tamamilə dağıdılmış Fizulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda və digər rayonlarda törədilmiş cinayətlərin bilavastitə insanlığa nümayiş etdirilməsi üçün beynəlxalq təcrübə olan "Dark" turizmin gücünndən istifadə etmək olar.

"Dark" turizm qeyri-adi turizm növüdür. Belə ki, burada digər turizm növlərinin əksinə olaraq istirahət və rekreasiya yoxdur. Bu isə turizm sənayesinin əsas gəlir sektoru olan əyləncə sahəsinini bu turizm növündə tətbiqini zəiflədir. Bu turizm növü üzrə akdemik araşdırmalara baxdıqda burada insanların səyahətin "qara üzünə" şahidlik etmək kimi motivlərinin əsas olduğunu görürük (4). Belə ki, ölüm və fəlakətin hər yerdə ola biləcəyini, bunun üçün insanların əyləncəyönümlü asudə vaxt keçirmə istəyinin əksinə olaraq daha çox düşündürücü anlar yaşatmaq üçün turizm firmaları cəmiyyətdə hər kəsin həssaslıqla yanaşa biləcəyi yer və obyektləri seçirlər. Ona görə də beynəlxalq turizm literaturuna daxil olunmuş "Dark" turizmi üzrə motivasiya araşdırmalarına baxdıqda əsasən, insanların şəxsi səyahət motivlər ilə yanaşı universal dəyərləri də əsas götürərək riskli və təhlükəli səyahətlərə çıxdığını görürük. Bununla yanaşı, bu turizm növü üzrə məqsədli planlaşdırma və idarəetmə aparıldıqda onun mühüm təblğat mexanizmi kimi gücündən istifadə etmək mümkündür. Buna görə də "Dark" turizm üzrə beynəlxalq təcrübənin mənisənilməsi, bu sahədə xüsusi idarəetmə qaydalarının tətbiqi məqsədəuyğun hesab olunur.

Şuşa Qarabağın və bütün Azərbaycanın incisi, qədim mədəniyyət mərkəzidir. Şuşanın turizm potensialı, ümumilikdə, bütün Qarabağın turizm potensialı ilə birlikdə ölkəmizin ümumi turizm potensialının mühüm bir hissəsini təşkil edir. Keçmişə biri daha nəzər salsaq, görərik ki, Şuşanın turizm potensialı hələ erməni işğalına qədərki dövrdə yüksək tələb görmüş və təkcə Şuşaətrafı istirahət və rekreasiya komplekslərindən hər il on minlərlə yerli və əcnəbi turist istifadə etmişdir. Şuşaya olan turist marağının keçmişdə olduğu kimi indi də yüksək səviyyədə olduğunu nəzərə alsaq, işğaldan sonrakı dövrdə də burada bir çox istiqamətlərdə turizm səfərlərinin həyata keçiriləcəyini düşünmək mümkündür. Belə ki, Şuşa artıq mühüm beynəlxalq görüşlərin keçirldiyi işüzar turizm mərkəzi, dünyada şöhrət qazanan festivalların keçirildiyi yer kimi tanınmış, Azərbaycan musiqi mədəniyyətinin paytaxtı kimi çox sayda sənətçi və incəsənət xadiminin ziyarət etdiyi bir məkan hadına gəlmişdir. Ölkəmizə gəlmiş dövlət başçılarının, dipomatların və media nümayəndələrinin böyük maraqla səfər etdiyi Şuşada (9) tematik turlar kimi "Dark" turizm məkanlarının seçilməsi də səyahətini pozitiv elementlərlə zənginləşdirmək istəyənləri təəssüfləndirmək deyil, onlara bu mühüm

mədəniyyət mərkəzinin erməni işğalından görüdüyü zərərlər haqqında da gerçək məlumatlar verilməsi baxımından əhəmiyyətldir.

İşğal dövründə ermənilər Qarabağın mədəni mirasına ciddi zərər vurublar. Belə ki, rəsmi hesabatlara əsasən ermənilər Laçın rayonunda 74, Kəlbəcərdə 91, Qubadlıda 71, Cəbrayılda 93, Zəngilanda 56, Füzulidə 71, Ağdamda 140, Xocavənddə 93, Şuşada 215, Xocalıda 28 tarix və mədəniyyət abidəsinə zərər vurublar (18). 1992-ci ilin 8 mayından 2020-ci ilin 8 noyabrınadək erməni işğalında qalmış Şuşaya da ciddi zərərlər dəymiş, şəhər erməni vandalları tərəfindən dağıdılmış, buradakı Azərbaycan xalqına məxsus olmuş maddi-mədəni abidələr təhqir olunmuşdur. Guya islam dövləti ilə dostluq edən ermənilər bütün Qarabağ ərazindəki 63 məsciddə (18) olduğu kimi Şuşadakı məscidlərdə də dağıntılar törətmiş, Azərbaycanın incəsənət xadimlərinin büstlərini güllələrlə dəlik-deşik etmişlər. Şuşa şəhərində erməni vandalizminə məruz qalan qədim yaşayış binaları, tarixi-memarlıq nümunələri və mədəniyyət ocaqlarından XVIII əsrə dair Şuşa qalasının divarlarını, Pənah xanın sarayı və kitabxanasını, İbrahim xanın bürcü və qəsrini, Xan sarayı və karvansarayı, M.P.Vaqifin mədrəsəsi və türbəsini, Yuxarı məscid mədrəsəsini, Hacıqulların malikanəsini, İkimərtəbəli karvansarayı, Mehmandarovların malikanə kompleksini, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidlərini, Xurşidbanu Natəvanın evi və bulağını, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin, Xan Şuşinskinin, tarzən Sadıqcanın evlərini, Mamay bəyin evini, məscidi və bulağı, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeylərini, Şirin su hamamını və sairi göstərmək olar (8). İşğal dövründə Şuşada məskunlaşmış az sayda olan ermənilər burada müvəqqəti qalacaqların bildiyi üçün şəhərin inkişafı üçün heç bir iş görməmiş, əksinə burada əsl soyğunçuluqla məşğul olmuşlar (19).

Fikrimizcə, “Dark” turizm erməni xislətinin əsl mahiyyətinin daha geniş şəkildə üzə çıxarılması baxımından tutarlı vasitələrdən biri olar. Qarabağ probleminin artıq həll olunduğu, ancaq revanşizmə qarşı informasiya sahəsində müharibənin davam etdiyi bir zamanda qonşularına qarşı nifrət və terror ruhunda yaşayan ermənilərə bundan sonrakı dövrdə beynəlxalq aləmdə tutarlı cavab verilməsi baxımından Şuşa şəhəri üzrə yuxarıda qeyd olunan dağıdılmış yerlərin, eləcə də bütün Qarabağda və onun ətrafındakı ərazilərdə, hətta 44 günlük Vətən müharibəsi dövründə işğalçı erməni ordusunun Ermənistan ərazisindən atdığı uzunmənzilli raketlərlə Gəncədə və digər şəhərlərə mülki əhaliyə qarşı törədilmiş cinayətlərin izləri “Dark” turizm obyekti kimi ölkəmizə gəlmiş turistlərə təqdim oluna bilər.

**Nəticə**

“Dark” turizm konsepsiyası nisbətən yeni olsa da dünyanın bir çox ölkələrində baş verən hadsələr fonunda onun populyarlağı daha da artmaqdadır. Xüsusən, antropogen mənşəli qəza və fəlakətlərin təbii və texnogen fəlakətlərin daha tez-tez baş verdiyi bir dövrdə “Dark” turizmin mahiyyəti onun bir biznes növündən daha çox maarifləndici və qınama yönümlü əhəmiyyəti ilə üzə çıxır. Bu mənada, “Dark” turizm dünyanın gözəlliklərinin və xalqların mədəni nailiyyətlərinin paylaşıldığı daha sülhsevər turizm növlərinə zidd deyil, əksinə, onlarla paralel olaraq insanların bu gözəlliklərin qorunub saxlanılması üçün hər cür pis əməllərə qarşı səfərbər olunması yolunda mühüm vasitə olar. Belə ki, otuz ildən artıq biri müddətdə ərazsinin 20 faizi erməni işğalı altında qalmış Azərbaycan Respublikası öz torpaqlarını düşməndən azad etdikdən, kommunikasiyaların bərpası və sülh danışıqları istiqamətində qəti addımlar atdığı bir şəraitdə beynəlxalq ictimaiyyətin diqqətinin də erməni vandalizminin izlərinə yönəldilməsi istiqamətində işlərin aparılmasında da qərarlıdır. Bu da öz növbəsində torpaqlarımızda müharibə, qorxu, faciə və dağıntı fraqmentlərinin izlərinin yaşadıldığı nöqtələrə insanların diqqətinin cəlb olunması ilə mümkünüdür.

Bütün yuxarıda qeyd olunanları nəzərə alaraq Azərbaycanan Şuşa şəhərində “Dark” turizm növünün tətbiqi üzrə əldə olunacaq nəticələri aşağıdakı kimi göstərmək olar:

- İşğaldan sonra Şuşa şəhərində və ümumilikdə Qarabağda turizmin inkişafı prioritet məsələlərdən biliridr;
- Qarabağda, onun dilbər guşəsi olan Şuşada müxtəlif turizm növlərinin inkişafı gələcəkdə ölkəmizin 30 il ərində erməni işğalı nəticəsində itirdiyi gəlirlərə görə işğalçı dövlətə qarşı təzminat tələbini daha da qüvvətləndirən arqumentlərdən olacaq;

- Şuşada erməni işğalı nəticəsində dağıdılmış maddi-mədəniyyət nümunələrimiz və önəmli infrastruktur obyektləri “Dark” turizm növü ilə təqdim olunmaqla işğalçının əsl simasını dünyaya daha yaxşı tanıtmaq mümkünü olacaq;
- “Dark” turizm üzrə Şuşada müntəzəm turların təşkili gələcəkdə Azərbaycan və Ermənistan arasında imzalanacaq sülh müqaviləsindən sonra da davam etdirilməklə erməni revanşizminin arxazəmininə, onu bəsləyən qüvvələrə qarşı güclü zərbə olacaq.

**Ədəbiyyat siyahısı:**


1. Wayne W. Smith. Dark Tourism: The Attraction of Death and Disaster. Annals of Tourism Research· October 2002. DOI: 10.1016/S0160-7383(02)00015-4
2. Grebenar Alex. The Commodification of Dark Tourism: Conceptualising the Visitor Experience. Lancashire School of Business and Enterpris. 2018.
3. Dea Morina. Development of Dark Tourism Destinations in Central and Eastern Europe. Budapest Business School, 2021.
4. Richard Sharpley and Philip R. Stone. The Darker Side of Travel The Theory and Practice of Dark Tourism.
5. Stone, Philip. A Dark Tourism Spectrum: Towards a typology of death and macabre related tourist sites, attractions and exhibitions. Available at http://clok.uclan.ac.uk/27720/
6. Sian McQuillan. Dark Tourism Centers of Europe: Where Bad Things Once Happened.
7. Raymond Powell, Christopher Barton, Christopher Barton. Dark cities: a dark tourism index for Europe’s tourism cities, based on the analysis of DMO websites
8. Qədim Şuşada erməni vandalizmi. https://azertag.az/xeber/Qedim_Susada_ermeni_vandalizmi_FOTO_VIDEO-1837371
9. Diplomatların Füzuli və Şuşaya səfəri başlayıb https://aztv.az/az/news/13941/diplomatlarin-fuzuli-ve-susaya-seferi-baslayib .
10. Billionaire Branson visits Antonov An-225 Mriya wreckage at Hostomel Airport. https://www.aerotime.aero/articles/31457-branson-visits-destroyed-an-225-mriya
11. https://story.karabakh.center/az/qarabagda-ekosid Erməni vandalizmi urbisid Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qarabağ Dirçəliş Fondu tərəfindən yaradılmış Karabakh Center layihəsi
12. https://karabakh.center/az/urbicid Erməni vandalizmi urbisid Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qarabağ Dirçəliş Fondu tərəfindən yaradılmış Karabakh Center layihəsi
13. Babayev E. Azərbaycan məcburi köçkünlərinin pozulmuş hüquqlarına dair kompleks beynəlxalq hesabat. Bakı 2021. http://elibrary.bsu.edu.az/dbmast/komplekst_hesabat.pdf
14. Şuşa şəhəri 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” seçilib. https://aztv.az/az/news/18767/susa-seheri-turk-dunyasinin-medeniyyet-paytaxti-secilib
15. World's largest plane destroyed in Ukraine. https://edition.cnn.com/travel/article/antonov-an-225-largest-plane-destroyed-ukraine-scli-intl/index.html
16. Ukraine war: Historic defence of Azovstal steel plant in Mariupol is frustrating Putin's plans - and that matters https://news.sky.com/story/ukraine-war-historic-defence-of-azovstal-steel-plant-is-frustrating-putins-plans-and-that-matters-12606587
17. Xatını xatırlayırıq, Xocalını unutmuruq! https://azertag.az/xeber/854388
18. İsmayılov Qarabağ və ətraf rayonlarda 63 məscid tamamilə dağıdılıb https://ordu.az/az/news/177145/qarabag-ve-etraf-rayonlarda-63-mescid-tamamile-dagidilib
19. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti https://president.az/az/articles/view/50941
20. Darvaza Gas Crater - Door to Hellş Darvaza Gas Crater - the Natural Wonder of the Karakum https://www.advantour.com/turkmenistan/darvaza-gas-crater.htm

**Ali Jabbarov**
"Nakhchivan" University

**"Dark" tourism in the city of Shusha after the Armenian occupation as a prospective type of tourism**

Summary

The development of tourism is closely related to the its' functions. The tourism incomes as a result of using tourism resources and developing different types of tourism are among the main questions in this field. In this article, the issues of exposing the real face of Armenian vandalism to the world community in the Garabagh region of the Republic of Azerbaijan and its city of Shusha with the organizing of the "Dark" tourism type after the occupation were investigated.

---

**Məmmədov Aqil Arif**
UNEC dosenti, s.e.ü.f.d, aqil.arifoglu@gmail.com

# Şuşa Şəhərinin Sosial-İqtisadi Dirçəldilməsinə Nəzəri-Metodoloji Yanaşmalar ve Konseptual Baxışlar

**Xülasə**

Bu məqalədə, Şuşa şəhərinin sosial-iqtisadi inkişafının meyarlarını müəyyənləşdirmək və ümumi problemin inkişafına nəzər yetirmək üçün dövlətin təhlükəsizlik siyasətinin mahiyyətini anlamaq məqsədilə Realizm nəzəriyyəsi və onun davamı xaraxterli Neo-Realizm nəzəriyyəsinə, sosial-iqtisadi sahədə gələcək prioritetləri daha aydın formalaşdırmaq üçün Liberalizm nəzəriyyəsi və Funksional, Neo-Funksional nəzəriyyələrə diqqət yetirilmişdir.

Tədqiqatın əsas kütləsi kimi Türkiyə ilə münasibətlərin yeni mərhələsi kimi qəbul edilən Şuşa Bəyannaməsi olmuşdur. Bu məqalə, ictimai elmlərdə 'analitik-izahedici' metodologiyanın sərhədləri çərçivəsində qiymətləndirilməkdədir. Məqalədə istifadə edilən metod (disciplined configurative case study) "intizamlı konfiqurasiya nümunəsidir".

Bu metodun məqsədi müvafiq nəzəriyyəni təsdiqləyərkən araşdırılan (theory-confirming) "nəzəriyyə-təsdiqlə" işi təhlil etməkdir. İntizamdan götürülmüş ideyalar və ya mövcud nəzəriyyəyə töhfə vermək üçün orijinal töhfələr elmi qanun kimi ümumiləşdirmələrə (idiographic) idioqrafik çatmaq məqsədi daşımır. Bu tədqiqatın orijinal dəyəri ondan ibarətdir ki, o, Azərbaycanın xarici siyasətində Şuşa Bəyannaməsinin əhəmiyyətini sırf elmi prizmadan, beynəlxalq münasibətlərin əsas nəzəriyyələrini əsas alaraq izah edəcəkdir.

## Giriş

Beynəlxalq Münasibətlərin elm kimi formalaşması prosesindən başlayaraq qarşısında duran əsas məsələ müharibəni önləmək, sülhü təşviq etmək və qorumaqdır. Bütün nəzəriyyələr bu mənada fərqli yanaşmalar ortaya qoyaraq beynəlxalq siyasəti açıqlamağa çalışır. "Şuşa Bəyannaməsi"nin məkan olaraq işğaldan azad olunmuş Azərbaycanın tarixi torpağı olan Şuşada imzalanması və tarixə bu adla keçməsi təsadüfi olmamaqla yanaşı, bizi bəzi məsələləri daha dərindən araşdırmağa sövq edir. Bu yazı Bəyannamənin beynəlxalq münasibətlərin klassik nəzəriyyələri çərçivəsində tədqiq edilməsi və məsələyə elmi yanaşmanı əsaslı formada ortaya qoymağı hədəfləməkdədir.

## 1. Şuşa Bəyannaməsinin Beynəlxalq Münasibətlərin Klassik Nəzəriyyələri Çərçivəsində Analizi

### 1.1. Şuşa Bəyannaməsi və Realizm Nəzəriyyəsi

Bəyannamənin ön hissəsində də qeyd edildiyi kimi Qars müqaviləsinin əhəmiyyətindən giriş verilərək, müstəqillik sonrası iki dövlət arasında imzalanmış müqavilələrə (1994-cü il "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə", 2010-cu il Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə") referans verilərək münasibətlərin qısa tarixinə nəzər yetirilmişdir. Bəyannaməyə 13 Oktyabr 1921- ci il Qars müqaviləsi ilə giriş verilməsi regionda uzun

müddətli təhlükəsizlik problemin olduğunu və zaman dəyişsə də mahiyyət etibarı ilə eyni formada qaldığını göstərir ki, bu da bəyannamənin labüdlüyünü şərtləndirir.

Regionda müstəqilliyini itirmiş dövlətin sonradan müstəqilliyə qovuşması, müstəqilliyə qovuşduqdan sonra suverenlik problemi ilə qarşılaşaraq topraqlarının 20% hissəsini itirməsi, qərar vermə qabiliyyətinin məhdudlaşdırılması, realizmin əsas anlayışı olan təhlüksizlik probleminin əhəmiyyətini ortaya qoyur (Rösch and Lebow, 2018, s. 6).

Müqavilənin iki ölkə arasında imzalanması hələ də beynəlxalq münasibətlərdə əsas aktyorun dövlətlər olduğuna işarət edərək, əsas problemlərin həllində digər aktyorların, həlledici rolunun yetərsiz olduğunu göstərməkdədir.

Realizm nəzəriyyəsi beynəlxalq siyasəti açıqlayarkən insan təbiətinin önəmini hədsiz çox qabartdığı üçün elmi platformalarda tənqidi yazılara məruz qalsa da, dövlətlərin beynəlxalq siyasətdə oynadığı rolu aşırı formada qabardaraq bu nəzəriyyəyə tənqidi yanaşmaların nisbətən qarşısını almaqdadır (Morgenthau, 2006, 196).

Şuşa Bəyannaməsi beynəlxalq siyasətdə mövcud olan bir dövlətin digər bir dövlət ilə ittifaqını inkişaf etdirərək öz təhlükəsizliyini qoruması və suverenlik yolunda atılmış addımı ilə klasik realizmin əsas prinsipini dəstəkləməkdədir.

### 1.2. Neo-Realizm və Şuşa Bəyannaməsi

Neo Realist nəzəriyyə beynəlxalq siyasətdə realizmin əsas prinsiplərini qəbul etsə də, təhlükəsizliyin qorunması baxımından insan təbiətini deyil, sistemdəki mövcud olan problemlərə fokuslanmaqdadır (Mearsheimer, 2008, s.s. 61-62).

Bu mənada Qafqaz regionunda sülhün təmin edilməsi ayrı ayrı formada deyil, deduktiv formada yanaşmanı əsas alaraq üzümüzü burada mövcud olan sistemə baxmağa vadar edir. Burada ümumi olaraq iki cür sistemi müşahidə etmək mümkündür. Regionda Rusya-İran-Ermənistan əməkdaşlığı suverenliyimiz ilə bağlı təhditləri açıq formada ortaya qoyarkən, Azərbaycan-Türkiyə (Gürcüstanı da beynəlxalq layihələrlə öz ittifaqlarına cəlbetmə imkanları) əməkdaşlığı qarşılıqlı asılılıq (interdependence theory) nəzəriyyəsi çərçivəsində yuxarıda qeyd edilən sistemə qarşı yumuşaq formada əməkdaşlığın sistemini görə bilərik.

Bu mənada 44 günlük müharibə ilə sistemdəki dəyişimi hədəfləyən straeji addımların atılması ümumi olaraq regionda sabitliyin qorunması baxımından əhəmiyyətli hadisədir.

- (Tərəflər Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər (Azərtac, 16.06.2021). Eyni zamanda, xalqımızın işğaldan azad edilmiş ərazilərdə Rusiya sülhməramlılarından duyduğu narahatlığa da işarə edilərək burada Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətinə də referans verilərək, Qafqaz regionunda artıq Türkiyənin də varlığını ortaya qoyaraq, sistemdəki dəyişikliyi ortaya qoyan bir başqa faktdır.
- (Tərəflər Türkiyənin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətinə verdiyi töhfənin regiondakı sülhün, sabitliyin və rifahın təmin edilməsində mühüm rol oynadığını vurğulayırlar (Azərtac, 16.06.2021)).

Şuşa Bəyannaməsi neo-realist nəzəriyyənin ən çox üzərində durduğu bir məsələni də Azərbaycan xarici siyasətində göstərməklə, ümumi olaraq beynəlxalq siyasətdə akademik olaraq mübahisə edilən bir başqa problemi də aşkara çıxarmaqdadır. Buradakı əsas məsələ, beynəlxalq təşkilatların beynəlxalq siyasətdə yetərsizliyinin qeyd edilməsi, daha konkret ifadə etsək beynəlxalq təşkilatlar sistemdə suveren olan dövlətlərin mənfəətlərini qorumaq üçün yaradılmış qurumlar olduqları ifadəsi qarşımıza çıxmaqdadır. Azərbaycan-Türkiyə arasında imzalanmış bu bəyannamə sülhü qoruma missiyasını yerinə yetirən (BMT, ATƏT) kimi təşkilatlara da eyni zamanda tənqidi yanaşmadan ortaya çıxan bir mərhələdir. Qalıcı problemlərin həlli, sistemdəki dövlətlərin real gücünə əsaslanmaqdadır. Bu mənada Azərbaycan-Türkiyə arasındaki imzalanmış 15 iyul Şuşa Bəyannaməsi beynəlxalq siyasətdəki boşluğu ortadan qaldırmağa bir cəhd olaraq ortaya qoyulan zəruri bir ittifaqın göstəricisidir (Azərtac, 16.06.2021).

Neo-realist nəzəriyyənin üzərində dayandığı bir digər məsələ beynəlxalq siyasətdə hər hansı bir dövlətin atacağı addımın, yəni niyyətin bilinməməsidir. Ənənəvi siyasətin davam edəcəyi təqdirdə Şuşa Bəyannaməsi iki ölkə arasında hərbi əməkdaşlığın müasir texnologiyalar ilə davam

edəcəyinə və bir-birilərini dəstəkləyəcəklərinə işarə etməkdədir (Waltz, 2001, 8. 4, Norris, 2002, s. 18).

- (Tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq edəcəklər. Azərbaycan və Türkiyə digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklər (Azərtac, 16.06.2021).

**2. Liberal Nəzəriyyə və Şuşa Bəyannaməsi**

Şuşa Bəyannaməsi hər şeydən əvvəl ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi perspektivlərini hərtərəfli nəzərdən keçirən bir razılıq mətnidir.

Bəyannamə beynəlxalq hüququn əsas prinsipinin qorunması və suverenliyin bir dövlət üçün əhəmiyyətini ortaya qoyur.

- (Tərəflər fəxarət hissi ilə bildirirlər ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqlarını işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi (Azərtac, 16.06.2021).
- Bəyannamə eyni zamanda liberal beynəlxalq münasibətlərin əsas prinsipi kimi qəbul edilən və beynəxalq təşkilatların da əhəmiyyətli formada üzərində dayandığı ərazi bütövlüyü, işğalcı dövlətə qarşı sülhü dəstəkləyən digər dövlət kimi Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyi xüsusi qeyd edilir (Segrillo, 2012: 8-9).
- (Tərəflər regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər.
- Tərəflər bildirirlər ki, iki dövlət arasında inkişaf etdirilən və onların milli maraqlarına cavab verən hərbi-siyasi əməkdaşlıq üçüncü dövlətlərə qarşı yönəlməmişdir (Azərtac, 16.06.2021).

**2.1. Neo Liberal Nəzəriyyə və Şuşa Bəyannaməsi**

Bəyannamədə eyni zamanda liberal nəzəriyyənin üzərində həssaslıqla dayandığı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa da ayrıca vurğu edilir (Venugopal, 2015; 4).

- (Tərəflər aktual xarakter kəsb edən, qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın və ya üst-üstə düşən mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı dərinləşdirəcəklər və Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərəcəklər (Azərtac, 16.06.2021).

**3. Funkiyonal –Neo Funksional Nəzəriyyə və Şuşa Bəyannaməsi**

Şuşa Bəyannaməsinin ən vacib məqamlarından biri, hər iki dövlət arasında funksional əlaqələrin inkişaf etdirilməsi və bunun dayanıqlı formada ortaya qoyulmasıdır. Bu mənada funksional nəzəriyyənin əsas anlayışlarını Şuşa Bəyannaməsində öz əksini tapdığını görürük.

Funksional spill over anlayışına görə, müasir sənaye iqtisadiyyatının müxtəlif sahələri bir-birindən asılıdır. Fərqli sektorlardan birində başlayan inteqrasiya yönümlü fəaliyyətlərin uğurlu olması üçün digər sahələrdə də oxşar inkişaflar tələb olunur.

Siyasi spill over ise uyğunlaşma prosesidir. Bu mərhələdə gözləntilər, dəyərlər dəyişməli və millətlərarası maraqlar ortaya çıxmalıdır. Ortaq üstünlük və maraqların formalaşması, dövlətlərin ümumi siyasət yürütməkdə çətinlik çəkdikləri zaman ortaq dəyərləri qarşılıqlı imtiyazlarla qarşılamağa çalışmalarıdır. Azərbaycan və Türkiyə arasındaki münasibətlər istər funksional spill over anlayışına, istərsə də siyasi spill over anlayışını Şuşa Bəyannaməsi ilə daha da qətiyyətli formada yerinə yetirəcəyini bəyan etməklə yanaşı, regionda əsas problem olan iqtisadiyyatın şaxələndirilməsi (ramification) və yayılma təsirini (spill over) açıq formada ortaya qoyaraq, rifahın artırılmasını əsas başlıq kimi qeyd edir (Haas, 1972; 30).

Sadəcə enerji əsaslı iqtisadi münasibəti deyil, insanların ehtiyaclarını daha effektiv formada qarşılayacaq olan fundamental ikitərəfli iqtisadi-siyasi əlaqələrin qurulmasını özündə ehtiva edir. Zəngəzur dəhlizinin açılması, eyni zamanda hər iki ölkə vətəndaşları şəxsiyyət vəsiqəsi ilə səyahət etmələri haqqında razılaşma qeyd olunan sahədə əməkdaşlığa da ciddi təsir göstərərək, nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirlər (Məmmədov, 2021).

- (Tərəflər ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatlarının və ixracın şaxələndirilməsi, eləcə də perspektiv sahələrdə birgə istehsalın qurulması, investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün daha əlverişli şəraitin inkişaf etdirilməsi istiqamətində səylərini artıracaqlar. Bu xüsusda Azərbaycan və Türkiyə malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində tədbirlər görəcəklər).
- Tərəflər bir Tərəfin vətəndaşlarının digər tərəfin ərazisinə şəxsiyyət vəsiqəsi ilə səyahət etmələri haqqında əldə edilən razılaşmadan məmnunluq ifadə edirlər və həmin razılaşmanın xalqlarımız arasında yaxınlıq və insanlar arasında əlaqələr baxımından müstəsna əhəmiyyətini qeyd edərək, bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisində yaşamaq hüququ əldə etmələrini qarşılılıq prinsipinə uyğun olaraq asanlaşdırmaq üçün müvafiq tədbirlər görülməsini təqdir edirlər (Azərtac, 16.06.2021)

**Nəticə**

Məqalənin tədqiqat sferası nəzəriyyənin praktiki prosesləri açıqlama gücü ilə əlaqəndirilmişdir. Bu mənada, Şuşa bəyannaməsinin əhəmiyyəti hərtərəfli formada açıqlanmağa çalışılmışdır. Bəyannamənin istər suverenlik, istər sosial-iqtisadi prosesləri əhatə etməsi ilə beynəlxalq münasibətlərin klassik nəzəriyyələr çərçivəsində təhlili, problemə elmi yanaşma ortaya qoymaqdadır. Klassik nəzəriyyələr ayrı-ayrı problemlərə dair öz nəzəri düşüncələrini ortaya qoysalar da, ümumi mənada fokuslandıqları məsələləri bu formada xarakterizə etmək mümkündür:

Realist yanaşma – Dövlətlərin problemlərə yanaşması və dövlətlərin mühüm rolunun yenidən bərqərar edilməsi. Beynəlxalq hüququn suveren olmadığı beynəlxalq münasibətlər sistemində suverenlik, ərazi bütövlüyü kimi əsas məsələlərin güc yolu ilə həll edilməsi.

Neo-Realist yanaşma – Beynəlxalq münasibətlərdə dövlətlərin sistemi nəzərə alaraq öz rolunu möhkəmləndirməsi,

Liberal yanaşma – Anarxiya probleminin qəbul etməklə yanaşı, dövlətərarası münasibətlərin qarşılıqlı-asılılıq nəzəriyyəsinin prinsipləri ətrafında həll edilməsinin mümkünlüyü ilə beynəlxalq hüququnun əsas məsələlərdə (ərazi bütövlüyü, sosial-iqtisadi) prinsipial mövqeyinin möhkəmləndirilməsi,

Neo-Liberal yanaşma – Dövlətlərin beynəlxalq təşkilatlar vasitəsilə maksimum formada əməkdaşlıq sahələrinin formalaşdırılmasının mümkünlüyü prinsipi,

Funksional, Neo-Funksional yanaşma – Funksional nəzəriyyələr bir qayda olaraq inteqrasiya proseslərinin vacibliyini ortaya qoyaraq, regional əməkdaşlıq imkanlarını maksimum səviyyədə ortaya çıxartmağı hədəfləməkdədir. Nəzəriyyənin ilkin mərhələsi funksionalizm olaraq ortaya çıxsa da, sonraki mərhələdə daha da inkişaf etdirilərək Neo-Funksional nəzəriyyə kimi elmi ədəbiyyatlarda özünəməxsus yer tutmuşdur. Müasir dünyada inkişaf etmiş ölkələrin praktik olaraq istinad etdiyi funksional nəzəriyyələrin prinsipləri bir çox nəzəriyyələrdən əsaslı formada fərqlənməkdədir.

İnsan ehtiyaclarının prioritetləri əsasında qurulmuş olan bu nəzəriyyələr, dövlətlərin eyni zamanda sıx əməkdaşlıq etməsi üçün əsaslı formada zəmin hazırlamaqdadır. Dövlətlərin bir biri ilə əməkdaşlığa söykənən fəaliyyətləri eyni zamanda qarşılıqlı asılılıq üçün münbit şəraitin əsasını da qoymuş olacaqdır. Bu addım dövlətlərarası münasibətlərin asılılıqdan-qarşılıqlı asılılığa keçidi, əməkdaşlıq imkanları üçün yeni bir mərhələnin əsasını qoymuş olmaqlan yanaşı, dövlətlərin bir-biri ilə müharibə etmə potensialını məhdudlaşdıraraq, sülh şəraitini də təşviq etmiş olacaqdır. Daha da konkret olaraq:

- "Neo-fonksiyonalist nəzəriyyəyə görə, müəyyən bir sahədə başlayan inteqrasiya zamanla digər sahələrə təsir etməyə başlayacaq.
- İnsanların ehtiyacları və rifah səviyyələrini yüksəltmək üçün siyasi ideologiyaların deyil, teknokratik perspektivin ön planda olmasının vacibliyi qeyd edilir. Funksional nəzəriyyə özü özlüyündə bu prosesi 'şaxələnmə' (ramification) olaraq təyin etməkdədir.

- Neo funksionalizm isə spill over (yayılma) anlayışını inkişaf etdirmişdir. Spill over təsirini qısa olaraq qeyd etsek, beynəlxalq ticarətin artan inkişaf dinamikası dövlətlərin gündəmini daha çox məşğul edəcək və bununla dövlətlər siyasi olaraq bütünləşmə yolunda addımlarını atacaqlar. İqtisadi sahədə başlayan əməkdaşlıq imkanları, potensial olaraq siyasi sahədə də birləşmə yönündə təzyiqləri artıra biləcəkdir.

Əməkdaşlığın daha çox sektorlara ayrılması ilə artan ixtisaslaşma əmsalı isə dövlətlərin investisiya etdikləri təşkilatların vasitələri ilə daha məhsuldar olmasına imkan verəcəkdir. Digər tərəfdən bütün bu əməkdaşlıq zəncirlərinin faydalılığını konkret olaraq görəcək olan milli-dövlət və cəmiyyətlər də, bu inteqrasiyaya mərkəzli yeni bir imic ilə sülhü sağlamlaştıracaqlardır.

Yuxarıda sadalanan əsas nəzəri pinsiplər nəzərə alınaraq, Şuşa Bəyannaməsinin Azərbaycanın dövlət kimi inkişafında yeni mərhələnin əsasını qoymaqla yanaşı, spesifik olaraq Şuşanın gələcək inkişafı üçün də əhəmiyyətli rol oynayacağını ifadə etmək mümkündür.

**Ədəbiyyat siyahısı:**


Mearsheimer, J. (2008). "Anarchy and the Struggle for Power", Essential Readings in the World Politics, Karen A. Mingst, Jack L. Snyder (ed), New York, W.W North Company.

Morgenthau, J.H. (2006). Politics Among Nations: The Struggle for Power and Peace, McGraw Hill, 7. Edition, Boston.

Rösch, F. & Lebow, R.N. (2018). Realism: Tragedy, Power and the Refugee Crisis, Realism in Practice, Edited by, Davide Orsi, j. R. Avgustin and Max Nurnus, E-International Relations.

Waltz, N.K. (2001). The State and War – A Theoretical Analysis, New York, Columbia University Press.

Norris, A.D. (2002). Neorealism And The European Union Balance Of Power In The Post-Cold War Era, A thesis presented to the faculty of the College of Arts and Sciences of Ohio University, In partial fulfillment of the requirements for the degree of Master of Arts.

Segrillo, A. (2012). Liberalism, Marxism and Democratic Theory Revisited: Proposal of a Joint Index of Political and Economic Democracy, Brazilian Political Science Review, 6 (2).

Venugopal, R. (2015). Neoliberalism as Concept, London School of Economics and Political Science, Economy and Society Vol 44 (2) April.

Popoviciu Adrian-Claudiu. (2010), David Mitrany and Functionalism, The Beginnings of Functionalism, Revista Romana de Geografie Politica, pp. 162-172, May.

Məmmədov, Z. (2021), Şuşa Bəyannaməsinin tarixi əhəmiyyəti, Onlayn Xəbər Agentliyi.

HAAS, E. (1972), “International Integration: The European and Universal Process”, European Integration, M.Hodges (ed), Hammondsworth, Punguin Boks.

Azərtac (2021), Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi, 16.06.2021.


---


**i.f.d. Vəliyeva Lalə Müsəllim qızı**
Sumqayıt Dövlət Universiteti, İqtisadiyyat kafedrasının dosenti
lale-sdu@mail.ru
**Əliyev Şükür Həsən oğlu**
Sumqayıt Dövlət Universiteti, İqtisadiyyat kafedrasının baş laborantı
ali.sukurbayil@gmail.com


## Şuşa və Azərbaycanda turizm sahəsinin inkişafinda onun rolu


**Xülasə**

Məqalədə uzun illər erməni işğalında olmuş Şuşa şəhərinin azad edildikdən sonra yenidən milli iqtisadiyyata reinteqrasiya olunması istiqamətində bir sıra məsələlərə toxunulmuşdur. Bildiyimiz kimi Şuşa öz təbii gözəlliyi, mədəniyyət nümunələri, tarixi abidələri, mineral bulaqları ilə daim həm yerli, həmdə xarici turistlərin diqqət mərkəzində olmuşdur. Hələ Azərbaycan Sovet İttifaqının tərkibində olduğu dövrlərdən Şuşada inkişaf etmiş turizm infrastrukturu mövcud idi. Burada sanatoriyalar, müalicə mərkəzləri, mehmanxanalar, turist düşərgələri fəaliyyət göstərirdi. Bu tədqiqat

işində də Şuşa şəhərinin turizm potensialı təhlil olunmuş və dövlətimiz tərəfindən bu potensialın reallaşdırılması üçün hal hazırda görülmüş və gələcəkdə görülməsi nəzərdə tutulmuş layihələr haqqında bəhs edilmişdir.

**Açar sözlər:** Şuşa, Şuşa ili, turizm, hotel, nəqliyyat

1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən əsası qoyulmuş bu şəhər qala divarları ilə əhatə olunub və uzun illər Qarabağ xanlığının paytaxtı olub. Yarandığı gündən şəhərin əhalisi sürətlə artmış, Şuşa şəhəri güclənmiş, coğrafi mövqeyinə və müdafiə qabiliyyətinə görə ölkəmizin strateji əhəmiyyətli şəhərlərindən birinə çevrilmişdir. 1795-ci ildə bir çox ərazini öz ölkəsinin tərkibinə qatmaq istəyən Ağa Məhəmməd Şah Qacar 85 minlik ordu ilə, topla, tüfənglə alınmaz qala - Şuşanı 33 gün mühasirədə saxlamağının heç bir nəticə vermədiyini görüb öz qoşunlarını Gürcüstana yeritmişdir.

Şuşa mədəniyyət beşiyi, musiqi mərkəzi, bir çox tarixi şəxsiyyətlərin yetişməsinə ilham verən şəhərdir. Ona görə də Şuşanı “Qafqazın sənət məbədi", “Kiçik Paris” adlandırırlar.

Şuşa nadir təbiəti, gözəlliyi ilə seçilən şəhərdir. Xarıbülbülü, Topxana meşəsi, Cıdır düzü, Çətir şəlaləsi, müalicəvi bulaqları onu bütün dünyada məşhur etmişdir. Hələ yarandığı dövrlərdən xarici səyyahların diqqətini cəlb edən bu şəhəri Avropa ilə müqayisə edirdilər. 1903-cu ildə Tiflisdə çap edilmiş “Vestnik Kavkaza” jurnalının 43-cü səhifəsində “Şuşanın görünüşü orta əsr Avropa şəhərlərinə bənzəyir. Bu şəhərin tacirləri ipək-barama ticarətində böyük mövqeyə malikdirlər, Tiflis, Moskva və Marsel şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırlar” cümlələri öz əksini tapmışdır. 1980-ci illərdə burada 1600-dən çox ticarət obyekti mövcud idi. Hələ şəhər düşmən tapdağı altına düşməmişdən qabaq burada şərq musiqi alətləri fabriki fəaliyyət göstərmişdir. Bu fabrik keçmiş SSRİ-də yeganə şərq musiqi alətləri istehsal edən müəssisə idi [4,səh.8].

Şuşanın zəngin turizm potensialı vardır. Hələ Sovet İttifaqı dövründə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Şuşanın turizm potensialından səmərəli istifadə etmək və onu fəal iqtisadi dövriyyəyə cəlb etmək məqsədilə 1976-cı il noyabrın 4-də Azərbaycan SSR Nazirlər Soveti “Şuşa şəhərində kurort kompleksinin gələcək inkişafı tədbirləri haqqında” qərar qəbul etmişdir. Bu qərardan sonra Şuşada turizm sənayesinin inkişafı daha da sürətləndi. Birinci Qarabağ müharibəsinə qədər Şuşada onlarla kurort və sanatoriya fəaliyyət göstərirdi. 1000 yerlik 6 yataq korpuslu ümumittifaq əhəmiyyətli sanatoriya və 316 yerlik Şuşa istirahət evi, 130 yerlik Şəfa turist bazası, tibb korpusu, istirahət düşərgələri və s. xidmətə açılmışdır. Turşsu istirahət və müalicə zonası da burada yerləşirdi. Hər il xarici ölkələrdən, Sovet İttifaqından və ölkə ərazisindən minlərlə adam buraya axın edirdi. Lakin, 1992-ci ilin 8 may tarixində Şuşanın qəsbkar ermənilərin əsarəti altına düşməsi nəticəsində burada yerləşən bütün istehsal, xidmət müəssisələri demək olar ki, məhv edilmiş, yararsız hala salınmışdır. Şuşa 28 il düşmən tapdağı altında qalmışdır [1, səh.222].

2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edilib. Ən qısa müddətdə şəhərə, onun tarixi-mədəni irsinə, təbiətə dəymiş ziyanın inventarlaşdırılması aparılıb, bərpa işlərinə başlanılıb. Bərpa işlərinin təşkilində çevikliyi və operativliyi təmin etmək üçün Şuşada dövlət idarəçiliyinə də böyük diqqət yetirilmişdir. Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilərdəki ilk xüsusi nümayəndəsi Şuşa şəhərinə təyin edilib. Azərbaycan xalqı üçün tarixi-mədəni əhəmiyyətinə və müstəsna mənəvi dəyərinə görə Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmalıdır. Bu baxımdan Şuşada dövlət idarəçiliyinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərin tarixi-mədəni irsinin bərpasına və qorunub saxlanmasına, onun davamlı inkişafına şərait yaradılmasına xidmət edəcəkdir.

Vətənini sevən bir vətəndaş kimi Şuşanın işğaldan azad olunmasına çox sevindim və Şuşaya həsr etdiyim şerimi də bu məqalədə əks etdirdim.

*Qarabağın incisi, mədəniyyət ocağı,*
*Dağların zirvəsində sən ey pak, təmiz şəhər.*
*Adından ilham aldı vətənin övladları,*
*Səninlə doğdu günəş, səninlə gəldi zəfər.*

***

*Sən ki bu 30 ildə əyilmədin düşmənə,*
*Qorumusan ruhunu sən öz əzəmətinlə.*
*Əziz Şuşa,*

*Sən yenə də bizimsən, sən yenə də azadsan,*
*Sinə gərdin hər zaman düşmənə qüdrətinlə. (Əliyev Şükür)*

Şeirimdə də qeyd etdiyim kimi, Şuşa bu 30 ilə yaxın müddətdə öz əzəmətini, ruhunu qorudu, düşmənə əyilmədi. Azad olunmuş torpaqlarda yenidən canlanma başladı. İndi bütün dünyanın diqqəti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına yönəlib. Artıq Şuşa yenidən turizm mərkəzi kimi formalaşacaq. Bu istiqamətdə artıq dövlətimiz tərəfindən mühüm işlər həyata keçirilir.

Prezident İlham Əliyevin 7 may 2021-ci il tarixli Sərəncamı ilə Şuşanın Azərbaycanın "Mədəniyyət Paytaxtı" elan edilməsi turistlərin buraya axınına şərait yaradacaq. 30 il sonra, 12-13 may 2021-ci il tarixində Cıdır düzündə keçirilən Beynəlxalq Xarıbülbül musiqi festivalı bütün dünyanın nəzərlərini Şuşaya topladı. Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar olaraq 2022-ci ilin "Şuşa ili" elan olunması burada həyata keçirilən bərpa işləri və yeni layihələrin reallaşdırılması daha da sürətlənəcəkdir. Bir sıra araşdırmalar göstərir ki, turistlərin 65 faizdən çoxu səyahət etdikləri ölkələrin milli mətbəxinə üstünlük veririlər. 8 may 2022-ci ildə keçirilən I Beynəlxalq Kulinariya Festivalı milli mətbəximizin dünyada tanıdılmasında, həmçinin digər ölkələrin mətbəxlərinin öyrənilməsində mühüm rol oynayacaq. Məhz bu cür festivalların, mədəniyyət tədbirlərinin ard-arda keçirilməsi Şuşa turizminin intensiv inkişafına təkan verəcəkdir [2, səh.112].

Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar olaraq 2022-ci ilin "Şuşa ili" elan olunması burada həyata keçirilən bərpa işləri və yeni layihələrin reallaşdırılması daha da sürətlənəcəkdir.

Şuşada turizmin inkişafını şərtləndirən əsas faktorlardan biri də turizm infrastrukturunun yaradılmasıdır. Bu istiqamətdə Şuşa şəhərinə səyahət edən xarici və yerli turistlərin daha yaxşı istirahət edə bilmələri üçün qabaqcıl texnologiyalarla təchiz olunmuş hotellərin, restoranların tikilməsi və bərpa edilməsi prosesi sürətlə reallaşdırılır. Cənab Prezident İlham Əliyev tərəfindən 12 may 2021-ci il tarixində "Xarıbülbül" hotelinin, 29 avqust 2021-ci il tarixində "Qarabağ" hotelinin açılışı olmuş, "Otel və Konfrans Mərkəzi"-nin isə təməli qoyulmuşdur. "Qarabağ" və "Xarıbülbül" hotelləri bütün avadanlıqlarla tam təchiz olunmuşdur. "Qarabağ" hoteli 1980-ci ildə inşa edilmiş, Şuşa şəhərinin işğalı ilə 1992-ci ildən sonra fəaliyyətini dayandırmışdır. Qeyd etdiyimiz kimi, bu hotel artıq dövlətimiz tərfindən bərpa olunub. Burada müxtəlif təyinatlı otaqlar, restoran, konfrans zalı, bar, park, avtomabil dayanacağı və s. mövcuddur. "Xarıbülbül" hoteli 49 otaqdan ibarətdir. 5 ulduzlu "Otel və Konfrans Mərkəzi"-nin 2,8 hektar ərazidə tikintisi davam edir, 5 mərtəbə olmaqla 150 nömrədən ibarətdir. "Otel və Konfrans Mərkəzi" turistlərə həm istirahət, həmçinin işgüzar turizm fəaliyyətlərini reallaşdırmağa imkan verəcəkdir.

Şuşa şəhərində turistlərin daha rahat istirahət etmələri üçün butik hotellərin tikintisinə də start verilmişdir. Hal-hazlırda tikintisi davam edən "Şuşa" butik hotel 13 otaq və bir restorandan ibarət olacaqdır. Butik hotellər özünə xas memarlıq üslubu, dizaynı, daha az müştəri tutumu ilə turistlərin diqqətini cəlb edir. Həmçinin bu hotellərin inşası nisbətən ucuz başa gəlir.

Şuşa şəhərində turizm inkişafı üçün əsas faktorlardan biri nəqliyyat yollarının qurulmasır. 16 noyabr 2020 -ci il tarixində təməli qoyulan Zəfər yolunun, 7 noyabr 2021-ci il tarixində artıq açılışı baş tutmuşdur. 24 yanvar 2022-ci il tarixindən isə artıq Bakı-Şuşa-Bakı marşrutları həyata keçirilmişdir. Bu marşrutlar vasitəsilə həm xarici, həm də ölkə vətəndaşları Şuşa şəhərinə səyahət edirlər.

Şuşa şəhəri də daxil olmaqla digər işğaldan azad olunmuş ərazilərimizə turistlərin daha rahat və qısa vaxt ərzində səyahət edə bilmələri üçün Qarabağda beynəlxalq hava limanlarının tikitisi həyata keçirilir. 14 yanvar 2021-ci il tarixində əsası qoyulan Füzuli Beynəlxalq Hava Limanında 5 sentyabr 2021-ci il tarixindən ilk sınaq uçuşu həyata keçirilmiş və 26 oktyabr tarixində hava limanının açılışı baş tutmuşdur. Füzuli Beynəlxalq Hava Limanı ilə yanaşı Zəngilan, Laçın Beynəlxalq Hava limanlarının da tikintisi davam edir. Laçın Beynəlxalq Hava Limanı Laçına, Kəlbəcərə, Şuşaya gediş-gəlişi asanlaşdıracaqdır. Çünki bu hava limanından Laçın şəhərinə 30 km, Kəlbəcərə 60 km, Şuşaya isə 70 km məsafə vardır. Zəngilan Beynəlxalq Hava limanının isə 20 oktyabr 2022-ci il tarixində açılışı nəzərdə tutulmuşdur [5].

Şuşada turizmin bir çox növünün inkişafı üçün əlverişli şərait vardır. Xüsusilə sağlamlıq turizminin inkişafı üçün burada çox böyük potensial vardır. Burada bir çox mineral bulaqlar mövcuddur. Turşsu, Qotur bulağı, Şırlan, İsa bulağı və s. öz mineral tərkibinə görə müalicəvi əhəmiyyətə malikdir. Şuşa şəhərindən 17 kilometr aralıda, Zarıslı çayının dərəsində 1700 metr

hündürlükdən çıxan Turşsu bulağının suyu həm içmək üçün, həm də vanna qəbul etmək üçün faydalıdır. Bu bulağın suyu ilə qaraciyər, ürək-damar, qan azlığı, öd kisəsi, öd yolları və böyrək xəstəliklərindən əziyyət çəkənlər müalicə oluna bilərlər. Tərkibi minerallarla zəngin olan Qotur bulağın suyu duzlaşmanı aradan qaldırır, bədəndəki dəmrovun, qoturun, ləkələrin və müxtəlif yaraların sağalmasına kömək edir. Qotur xəstəliyinin dərmanı olduğu üçün bu bulağa Qotur adı verilib. Gələcəkdə tikintisi nəzərdə tutulan sanatoriyalar turistlərin daha geniş formada bu turizm növündən istifadəsini stimullaşdıracaqdır.

Tarixi-mədəni turizmin Şuşa şəhərində inkişafı üçün onlarla mədəniyyət nümunələri, abidələr mövcuddur. Məsələn, Şuşa qalasını, Vaqifin məqbərəsini, tarixi şəxsiyyətlərin ev muzeylərini (Bülbülün, Üzeyr Hacıbəylinin və s.), Yuxarı və Aşağı Gövhər ağa məscidlərini və s. qeyd edə bilərik.

Şuşada ekoturizmin inkişaf etdirilməsi məsələsi də şəhərin turizm mərkəzi kimi formalaşması üçün mühüm amillərdən biridir. Bu məqsədlə 6 aprel 2022-ci il tarixində Şuşada yerləşən Qızılqaya massivindən Daşaltı kəndi istiqamətinə yamac paraşütü uçuşu həyata keçirilmişdir. Bu ərazi dünyanın paraplan xəritəsində Şərqi Zəngəzur və Qarabağ ərazisində yamac paraşütü uçuşu həyata keçirilə biləcək yeganə yüksəklik kimi verilmişdir. Ekoturizmin inkişafı üçün gələcəkdə də bu cür addımların atılması istiqamətində işlər görüləcəkdir.

Şuşa eyni zamanda Qarabağ xalçaçılığının mərkəzlərindən biri kimi də inkişaf imkanlarına malikdir. İnanırıq ki, Milli Azərbaycan Xalça Muzeyinin Şuşa filialı Qarabağda toxunmuş incə ilməli xalçaların ekspozisiyasını yenidən Şuşada, şöhrətinə can atdığımız yerdə bərpa edəcək və bu günü səbirsizliklə gözləyirik [3, səh.5].

Şuşa ilə bağlı digər mühüm hadisə isə 2023-cü il tarixində Şuşa şəhərinin Türk dünyasının mədəniyyət paytaxtına çevrilməsi olacaqdır. Hesab edilir ki, həmin dövr ərzində Şuşa şəhərinə əsasən türk dövlətlərindən turist axını daha çox olacaqdır.

Yuxarıda göstərilən istiqamətlərdən əlavə qeyd etmək olar ki, Şuşada binalar müasir memarlıq üslubunda tikilməli, turizmin inkişafı imkanları, eləcə də şəhərin quru, təmiz hava və sağlamlıq funksiyası nəzərə alınmalıdır. Ora bir mərkəz kimi qorunmalıdır. Şəhərdə bütün növ kommunal xidmətlərin yüksək səviyyədə nümunəvi təşkili təmin edilməlidir. Çox güman ki, Şuşa şəhərinin dövlət səviyyəsində bərpası və inkişafı planı hazırlanarkən bu və ya digər xarakterli digər tələblər də nəzərə alınacaq. Bu gün onlar bir xəyal olsa da inanırıq ki, sabah reallığa çevriləcək. Lakin Şuşada həddən artıq müxtəlif istehsal və xidmət müəssisələri yerləşdirərək böyük şəhərə çevirməyə çalışmaq düzgün deyil. Bu, onun kurort kimi xarakterini və dəyərini zədələyə bilər.

Bununla belə, inanmaq istərdim ki, bu məqalədə qaldırılan məsələlər müvafiq strukturlar tərəfindən diqqətlə öyrəniləcək və diqqətlə təhlil ediləcəkdir. Düşünürük ki, bir sıra məşhur layihələrin və arzuların həyata keçirilməsi üçün müəyyən vaxt lazımdır. Qəbul edilmiş digər təkliflərin həyata keçirilməsi müvafiq sosial infrastruktur obyektləri tikildikdən və yaradıldıqdan sonra mümkündür. Bu gün həyat həmişəki kimi davam edir, Şuşada artıq yeni həyat başlayıb və uğurla davam edir. Əminliklə vurğulamaq istəyirik ki, Qarabağın tacı olan bu şəhər çox tezliklə öz tarixi gözəlliyinə qayıdacaq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, “Şuşa Azərbaycanın mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir”.

**Ədəbiyyat siyahısı:**


1. Abbasova X., Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı: biblioqrafiya / (elmi red. K.M.Tahirov; red. E.R.Nəciyev.) – Bakı, Azərbaycan Milli Kitabxanası, 2021. 600 s.
2. Hüseynov Y., Şuşa salnaməsi. Bakı – 2015. “Şuşa”nəşriyyatı , 152 s.
3. http://www.anl.az/down/meqale/medeniyyet/2020/oktyabr/72212 8.htm
   Milli Xalça Muzeyinin Şuşa filialı //Mədəniyyət.-2020.- 9 oktyabr.- S.5.
4. http://www.anl.az/down/meqale/yeni_az/2019/dekabr/26(meqale).pdf.
5. http://anl.az/down/SHUSHA.pdf.

**Shusha and its role in the development of tourism in Azerbaijan**
**Valiyeva L.M., Aliyev Sh.H**
**Summary**

The article touched upon a number of issues in the direction of the reintegration of the city of Shusha, which was under armenian occupation for many years, into the national economy after its liberation. As we know, Shusha has always been the center of attention of both local and foreign tourists with its natural beauty, cultural examples, historical monuments, and mineral springs. There was a developed tourism infrastructure in Shusha from the days when Azerbaijan was part of the Soviet Union. Sanatoriums, treatment centers, hotels, and tourist camps operated here. In this study, the tourism potential of Shusha city was analyzed and the projects implemented by our state to realize this potential were discussed.
**Keywords**: Shusha, Year of Shushi, tourism, hotel, transport

**Шуша и ее роль в развитии туризма в Азербайджане**
**Валиева Л. М., Алиев Ш.Х.**
**Резюме**

В статье затронут ряд вопросов в направлении реинтеграции города Шуша, много лет находившегося под армянской оккупацией, в народное хозяйство после его освобождения. Как известно, Шуша всегда была в центре внимания как местных, так и иностранных туристов своей природной красотой, культурными памятниками, историческими памятниками и минеральными источниками. В Шуше была развитая туристическая инфраструктура еще со времен, когда Азербайджан был частью Советского Союза. Здесь работали санатории, лечебницы, гостиницы, турбазы. В этом исследовании был проанализирован туристический потенциал города Шуша и обсуждены проекты, реализуемые нашим государством для реализации этого потенциала.
**Ключевые слова**: Шуша, год Шуши, туризм, гостиница, транспорт

---

**Tahmina Balajayeva**
Baku State University, World Economy, lecturer
tahmina.balajayeva@gmail.com

## Characteristics and distribution features of Shusha's natural resources

**Summary**

In the article, the nature of the natural resources of Shusha city, distribution features were analyzed, the issues ensuring the efficient use of resources were evaluated and the potential perspectives of the future use of these resources were investigated. In the city of Shusha, which has rich natural resources, ancient historical heritage and culture, as well as art, it is very important to explore ways of efficient use of resources. The study of the main elements that determine sustainable development and the study of their practical significance are among the main aspects that should be the focus of this development. There is a serious need to develop and support projects in this direction for the production of ecologically clean products, taking into account the protection of the environment. The author's opinions about all these issues are reflected and certain proposals are put forward.

### Introduction

Shusha is a sacred place for the people of Azerbaijan. This beautiful city was the center of all Karabakh in all historical periods. The city of Shusha is native and sacred to every Azerbaijani, regardless of where he lives. Shusha is one of the rare pearls of the urban culture of Azerbaijan. It is located 373 km from Baku, 11 km from Khankendi, at an altitude of 1400 m above sea level, on a mountain plateau surrounded by steep rocks on three sides. The city of Shusha has a rich and glorious history.




**Figure 1.** Shusha Castle

If we look at the history, we will see that the city of Shusha has a rich and glorious historical past. Shusha, a symbol of the historical traditions of the Azerbaijani people, was created in one of the oldest settlements included in the scope of the ancient Khojaly-Gadabey culture (II half of the second millennium BC - beginning of the first millennium BC) and became a permanent human settlement. The ancient settlements around Shusha, including the famous Shusha cave on the Cidir plain (on Uchmykh mountain), prove that this area is one of the oldest human camps in Azerbaijan.

British travelers and scientists J. Morye and R. Burter made valuable comments about the antiquity of Shusha. According to J. Morye, Shusha was a human settlement even before the era. R. Burter writes that "in Shusha, there are stone buildings like in European cities, wide streets with stone floors, and beautiful remains of baths reminiscent of ancient Roman baths, which are not found elsewhere in the Caucasus." All this suggests that Shusha has existed since ancient times.

As we mentioned before, Shusha is a symbol of the historical traditions of the Azerbaijani people, it is one of the oldest settlements belonging to the ancient Khojaly Gadabey culture (second half of the 2nd millennium - the beginning of the 1st millennium BC).

Independent khanates emerged in Azerbaijan in the 18th century. The establishment of the Karabakh Khanate in 1748 and Shushi becoming its capital is connected with the name of Panahali Khan Javanshir (1748-1763). In 1750, the construction of the fortress on a high, rocky mountain began and was completed in 1756-1757. Karabakh Khan Panah Ali Khan declared Shusha the capital, fortified it and turned it into a fortress city.

Formed as a typical Azerbaijani city from the 18th century, Shusha preserved its historical appearance until it was invaded by Armenian vandals in 1992.

However, as a result of the aggression of the Armenian armed forces on May 8, 1992, 25 schools, 31 libraries, 17 clubs, 8 cultural houses, 4 technical schools, 2 institute branches, 7 kindergartens, 4 cinemas, 5 cultural parks and recreation, 2 sanatoriums, tourism base, 2 hotels, a branch of the Azerbaijan Carpet State Museum, Shusha State Drama Theater, Shusha TV, Eastern musical instrument factory, State Art Gallery, children's health school were destroyed.

The city of Shusha was liberated from occupation as a result of the military operations carried out by the Azerbaijani army in the direction of liberating the lands occupied by the Armenian armed forces from September 27, 2020. The liberation of Shushi required great heroism, professionalism, and national spirit. Today has entered the history of Azerbaijan as Victory Day. Shusha was declared the cultural capital of Azerbaijan.

According to the decree of the President of the Republic of Azerbaijan dated July 7, 2021 "On the new division of economic regions in the Republic of Azerbaijan", the territory of the Republic of Azerbaijan is divided into 14 economic regions. According to the division, Shusha city is one of the 9 cities and districts located within the Karabakh economic region. [1]

The city of Shusha has an area of 0.31 thousand km2 and a registered population of 34.9 thousand people.

17.4 thousand people of the registered population of the city are economically active population, of which only about 3.3 thousand people are wage earners. The number of employed population is 15.8 thousand people. 8.3 thousand of the registered population in Shusha are young people.

Taking into account the importance of natural resources in economic development, the importance of a deep and detailed analysis of its distribution on the territory can be noted. Because

the comprehensive analysis and assessment of natural resources not only supports the economic development of the city or region, but also plays an important role in accelerating the progress in the development of the country's economy.

At this point, it is necessary to emphasize the importance of approaching the issue from several aspects, different from each other, but at the same time interacting with each other. We can list some of these aspects as follows:

- ✓ Natural resources classification aspect;
- ✓ Relief aspect;
- ✓ Aspect of soil structure and distribution;
- ✓ Climate characteristics aspect;
- ✓ Aspect of economic importance;
- ✓ Efficiency aspect;
- ✓ Transport and logistics aspect;
- ✓ The aspect of meeting domestic demand and export potential, etc.

In the scientific literature, natural resources are classified according to a number of characteristics. Although there are differences of opinion on this issue, there are also commonly accepted classification approaches.

**Different approaches to the classification of the natural resources**

Natural resources depend on their origin, area of use, geographical distribution, time of use, depletion characteristics, etc. is classified according to its characteristics. These divisions are chosen according to the purpose, task and issues of the research.

Thus, natural resources are grouped as follows, in most cases, according to their depletion characteristics:

1. Inexhaustible natural resources
2. Depleting natural resources

The classification of natural resources also determines the direction and perspectives of the use of these resources.

When analyzing the natural resources of Shusha, if we look at the types of natural resources listed above, we can mention the names of mineral, plant, animal and water resources among the most widespread compared to others.

One of the important points is the distribution of underground fresh water and mineral water on the territory. When talking about the fresh water resources of the city, it is of particular importance to mention the name of the Gargar River, which passes through the territory of Shusha. The 115 km long Gargar River passes through Shusha, Khojaly, Aghdam, Agjabedi regions and the city of Khankndi and flows into the Kura River in the Aggol swamps. The river has a large share in the fresh water resources of the mentioned administrative territorial units.

In addition to mentioning the importance of the use of fresh water resources in the household, it is necessary to touch on the therapeutic benefits of mineral waters. Because Turshsu and Shirlan mineral water deposits, when used effectively, will not only show their therapeutic side, but also increase the tourist attraction potential of the city.

There are some indicators that should be measured during the evaluation of mineral waters, which we can show as follows:

- Profitability of mineral deposits
- The total average amount of the cost of extraction, storage, transportation, packaging, processing and delivery of mineral water to the customer
- The income obtained from the sale of the final product and whether the production is efficient in comparison with the costs indicated in the previous option for its acquisition, etc.

When analyzing the mineral resources of Shusha, it would not be correct to sharply separate it from the researches related to the natural resources that belong to other administrative regions of Karabakh and Eastern Zangezur economic regions. One of the main reasons for this is the issue of transportation and logistics needed to achieve efficient use of resources.

**The role of transport and logistics services during the use of natural resources**

Proper organization of transport and logistics services during the use of natural resources of Shusha city, especially in relation to Karabakh and Eastern Zangezur economic regions, has a number of advantages shown below:

- Minimization of transport costs;
- Elimination of time loss;
- Ensuring the timely delivery of perishable supplies to the apartment;
- Gaining experience in the organization of logistics service, getting the chance to realize the development in this field;
- Achieving sustainable, sustainable and environmentally friendly production, etc.

In general, there are 19 face stone deposits in Karabakh and Eastern Zangezur economic regions, which are said to have face stone raw materials with a total volume of 18.4 million m3. On the other hand, there are limestone deposits in the mentioned region that can provide soda ash production in the volume of 129.8 thousand m3. Here there are deposits with clay reserves with a total volume of 23.2 million m3, a significant part of which, like those mentioned above, belongs to the city of Shusha.

The geographical structure and relief of the city also needs a comprehensive assessment. The highest peak in terms of absolute height in the territory of the city of Shusha, which is mountainous, is the Great Kirs mountain with a height of 2725 m. The main reason for the rich distribution of mineral resources in Shusha is the widespread distribution of Jurassic and Cretaceous sediments. The effect of the relief on the main areas of farming and employment is that animal husbandry has a special share in its economy.

A large part of the territory of the city of Shusha belongs to the cold climate types of dry summer and dry winter, which, in turn, plays a significant role in the formation of flora and fauna of the area. It is clear from the study of the distribution of animals that deer, hares, bears, wolves, pigeons, partridges, etc. are among the animals. is widespread. The variation of the average temperature index observed in the province between -1 and -19 degrees resulted in the spread of more meadows and xerophytic bushes in the low mountains and foothills, and mainly subalpine and also alpine meadows in the highlands.

The land cover of the city is mountain-forest land that is widespread in temperate and cold climate zones, which plays an important role in the rotation of plants on the territory, as well as in climatic features. Thus, the relief, climate and soil type of the city have led to the widespread distribution of forests in general, and mountain forests in particular. From this point of view, the following can be attributed to the main land types that are widespread in the city of Shusha, which has a favorable geography for tourism:

- Brown mountain-forest
- Burning mountain-forest
- Grassy mountain-forest

**Conclusion and suggestions**

- ✓ In addition to its favorable strategic-geographical position, history and culture, the natural resources of the city of Shusha are extremely valuable. Here, relief, climate, soil cover, etc. such factors have a serious effect.
- ✓ Analysis and proper assessment of the potential of resources will encourage Shusha city to become one of the main production and trade centers in the entire South Caucasus.
- ✓ Choosing a future-oriented, in-depth, sustainable and sustainable production development path ensures cost reduction and income optimization, and also optimizes the application of innovative technological innovations during the efficient use of resources.
- ✓ Relief, mineral waters, historical architectural monuments suggest that the city will be one of the main tourist centers in the future.

**References**

1. Decree of the President of the Republic of Azerbaijan dated July 7, 2021 "On the new distribution of economic regions in the Republic of Azerbaijan"
2. E. Yusifov. Socio-economic problems of nature use in Azerbaijan. "Economic development" magazine №1,2005.

3. Priority directions for economic regions for the purpose of effective deployment of funds of the Entrepreneurship Development Fund of the Republic of Azerbaijan, http://edf.gov.az/az/content/105
4. Socio-economic Development of the Regions of the Republic of Azerbaijan, State Program (2004-2008) Decree of the President of the Republic of Azerbaijan dated February 11, 2004.
5. https://e-qanun.az/framework/47788
6. http://www.geostrategiya.az/news.php?id=187
7. https://files.preslib.az/projects/azerbaijan/gl2.pdf

---

**Abdullayeva Nuranə Namiq qızı**
"Menecment" kafedrası, laborant,
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
nurane_abdullayeva_98@mail.ru

## Şuşa şəhərinin yenidənqurma və inkişafının Azərbaycan Respublikası üçün strateji əhəmiyyəti

**Xülasə**

Hər bir ölkədə davamlı inkişaf, cəmiyyətin üzləşdiyi mühüm iqtisadi problemdir. Elmi tədqiqatların yeniliklər təqdim etməsi, iqtisadiyyatda yüksək texnologiyalı sahələrin artırılmasına və inkişafına təkan verir. Məqalənin əsas məqsədi mövcud şəraitdə respublikanın işğaldan azad edilmiş ərazilərində, xüsusilə Şuşada dayanıqlı inkişaf üçün elmi əsaslandırılmış tövsiyələr hazırlamaqdır. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının əraziləri 2 il öncə Erməni işğalından azad olduğu üçün bu mövzu barədə elmi ədəbiyyatlar və praktiki məlumatların çatışmazlığı ilə bağlı tədqiqatın aparılmasında bir sıra çətinliklər yaranmışdır.

**Açar sözlər:** Şuşa, azad edilmiş ərazilər, inkişaf

**Резюме**

Устойчивое развитие является серьезной экономической задачей, стоящей перед обществом в каждой стране. Внедрение инноваций посредством научных исследований стимулирует рост и развитие высокотехнологичных направлений в экономике. Основная цель статьи – подготовить научно обоснованные предложения по устойчивому развитию на освобожденных землях республики, особенно в Шуше, в современных условиях. Следует отметить, что с момента освобождения территории Азербайджанской Республики от армянской оккупации 2 года назад возник ряд трудностей в проведении исследований в связи с отсутствием научной литературы и практических знаний по данному вопросу.

**Ключевые слова:** Шуша, освобожденные районы, развитие

**Summary**

Sustainable development is a major economic challenge facing society in every country. The introduction of innovations through scientific research stimulates the growth and development of high-tech areas in the economy. The main purpose of the article is to prepare scientifically based proposals for sustainable development in the liberated lands of the republic, especially in Shusha, in today's conditions. It should be noted that since the liberation of the territory of the Republic of Azerbaijan from the Armenian occupation 2 years ago, a number of difficulties have arisen in conducting research due to the lack of scientific literature and practical knowledge on this issue.

**Key words:** Shusha, liberated lands, development

### Giriş

"Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi", "Zaqafqaziyanın konservatoriyası" və "Azərbaycanın mədəniyyət paytaxtı" adlandırılan Şuşa şəhəri. Əvvəlki adı Pənahabad olan Şuşa şəhərinin əsası 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub. Dağ şəhəri olan Şuşa, tarix boyu düşmənlər tərəfindən hücumlara məruz qalmışdır. Bunların ən dəhşətlisi 8 may 1992-ci

ildə Şuşanın ermənilər tərəfindən işğal edilməsi oldu. Çünki, Şuşa ən böyük hərbi məntəqə idi və onun işğalı həm Laçın dəhlizi vasitəsilə Dağlıq Qarabağın Ermənistanla birləşdirilməsinə, həm də Xankəndinin işğalı prosesinin başa çatmasına səbəb oldu. Ermənilər Şuşada tarixi, dini, mədəni abidələrimizi talan etdi. Qarabağ dövlət tarix muzeyi, Şuşa tarix muzeyi, Azıx mağarası və digər dəyərli abidə və eksponatlar dağıdılmış və özünküləşdirilmişdir. Şuşa şəhəri bir gün düşmən işğalından azad olacağı ümidi ilə var olmuşdur və İkinci Qarabağ müharibəsində, yəni 2020-ci il noyabr ayının 7-də Şuşa şəhəri erməni işğalından azad oldu. Bu qələbə Azərbaycanın inkişaf strategiyası üçün çox önəmli idi [1].

Şuşa şəhəri Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonunda yerləşir. İqtisadi-coğrafi rayon ümumilikdə, heyvandarlıq, ipəkçilik (geniş yayılmış tut bağları) və şərab-spirt email sənayesi ilə uzlaşan yüksək inkişaf etmiş suvarılan əkinçiliyə malik üzümçülük, pambıqçılıq rayonudur. Həmçinin rayon təbii-müalicəvi potensiala malikdir. Şuşa mülayım isti və soyuq iqlim tipinə malik olan dağlıq şəhərdir. Şəhərdə müxtəlif növ tikinti materialları yataqları (gil, mərmər, əhəngdaşı, sement xammalı, tikinti daşı və s.) yayılıb ki, onun da əsasını Yura və Təbaşir çöküntüləri təşkil edir. Eyni zamanda şəhər mineral su bulaqları ilə də məşhurdur. Turşsu və Şırlar bunun ən gözəl nümunəsidir. Sənaye sahələrinə diqqət yetirsək burada əsasən yüngül və yeyinti sənayesi inkişafa uyğundur. Kənd təsərrüfatında əsas yeri üzümçülük, heyvandarlıq (dənli bitkilərlə), inkişaf etməkdə olan tərəvəz-kartofçuluq və meyvəçilik təşkil edir. Bundan əlavə meşə sahələrinin yayılması ağac emalı müəssisələrinin inkişafına təkan yaradır. Turizmin inkişafında əsas yeri müxtəlif ağac növləri ilə zəngin olan meşələr, müalicə əhəmiyyətli mineral bulaqlar və balneoloji ehtiyatlar tutur [2]. Bundan əlavə, Azərbaycanın İkinci Qarabağ müharibəsində Şəhid olan əsgərlərin xatirəsinin rəmzi olaraq qəbul edilən və Azərbaycan ordusunun zəfər simvolu kimi tanınan Xarıbülbül yeganə olaraq Şuşa şəhərində bitir [3].




**Qrafik 1. Dağlıq-Qarabaq ərazisində əkin sahələrinin məhsuldarlığı, min ton (1976-1987).**

Qrafik 1-dən də göründüyü kimi, 1976-1987-ci illər ərzində üzüm sahələrinin məhsuldarlığı yüksək, tütün və heyvan yemlərinin əkin sahələrinin məhsuldarlığı isə aşağı səviyyədə olmuşdur. Bu statistikaya əsasən, həmin ərazilərə yenidən baxış və qiymətləndirmə siyasəti tətbiq edib, əkinçiliyin məhsuldarlığını artırmaq olar [4,5].

**Yenidənqurma və inkişaf**

Mövcud şəraitdə davamlı inkişafın təminatı üzrə Azərbaycan dövlətinin qarşısında duran ən önəmli məsələlərdən biri işğaldan azad edilmiş ərazilərin yenidənqurma işlərini həyata keçirmək və bununla da, regionun iqtisadi potensialını layiqincə qiymətləndirməkdir. Məlum olduğu kimi, 27 ildən artıq müddətdə Azərbaycan ərazisinin iyirmi faizə yaxını işğal altında qalmışdır. Məhz bu səbəbdən, torpaqların iqtisadi potensialından istifadə etmək uzun müddət mümkün olmamışdır. Şübhə yoxdur ki, işğaldan azad olunmuş ərazilər böyük iqtisadi potensiala malikdir. İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad olunmuş torpaqlarımızda yenidənqurma işlərinə start verildi. Şuşa şəhəri də bu ərazilərdən biri idi. Ümumiyyətlə, bu ərazilərə xarici və yerli investorların cəlb olunması üçün müxtəlif tədbirlər həyata keçirilir. Bu gün, bərpa prossesində əsasən 3 ölkə iştirak edir

ki, bunlar da Türkiyə, Böyük Britaniya və İtaliyadır [6,7]. Hər bir xarici investor başqa bir ölkəyə investisiya yatırmazdan əvvəl özünəməxsus müəyyən şərtlər və tələblər irəli sürür. Qeyd etsək ki, işğaldan azad olunmuş ərazilərimiz hal-hazırda təhlükəlidir, ilk növbədə bu ərazilərdə hərbi təhlükəsizlik tam şəkildə təmin edilməlidir. Yəni, bu ərazilərdə heç bir hərbi əməliyyatın olmayacağı barədə zəmanət yaratmaq çox önəmlidir. Daha sonra bu ərazilərdə sərbəst rəqabət mühiti yaranmalıdır. Çünki, investisiya yatıran hər bir ölkə anlamalıdır ki, bu ərazilərdə rəqabət mühiti formalaşacaq. Digər tərəfdən xarici invesrtorları cəlb etməyin yolu vergi və gömrük sahəsində onlara müəyyən güzəştlərin təklif edilməsidir. Belə ki, hər hansı bir xarici şirkət investisiya yatırdığı ərazilərdə bərpa və istehsal məqsədləri üçün öz ölkəsindən müəyyən avadanlıqlar gətirəcək. Bu səbəbdən də, onlara müəyyən güzəştlər verilməli və ya tam şəkildə gömrükdən azad olunmalıdırlar. Yerli şirkətlərə gəldikdə, dövlət yerli şirkətlərin bu ərazilərdə investisiya yatırması ilə bağlı sorğu keçirmişdir və statistik məlumatlara əsasən yerli şirkətlərin də daha çox turizm, yüngül və yeyinti sənayesinə maraq göstərdiyi aydın olmuşdur. İşğaldan azad edilmiş ərazilərimizin ümumilikdə mövcud potensialını, xammal və təbii sərvətlərini və digər ehtiyatlarını nəzərə alsaq, yaxın gələcəkdə bərpa mərhələsindən bir müddət sonra bu rayonlarımızda istehsalı bir neçə dəfə artırmaq mümkün olacaqdır.

Hal-hazırda işğaldan azad edilmiş rayon və şəhərlərdə minalardan təmizlənmə, enerji yarımstansiyalarının inşası, nəqliyyat və kommunikasiya qovşaqlarının bərpası üzrə işlər həyata keçirilir. Həmin ərazilərdə yaşayışı təmin etmək baxımından, Şuşa, Füzuli və Şükürbəyli yarımstansiyaların işə salınması, Laçın rayonunda “Güləbird” SES-nın tikilməsi, Cəbrayıl rayonu ərazisində Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqların və su elektrik stansiyaları ilə bağlı işlərin tez bir zamanda sonlandırılması önəm kəsb edir.

Şuşanın turizm potensialına diqqət yetirsək, şəhərdə festivalların, beynəlxalq sərgilər və digər mədəni-kütləvi tədbirlərin təşkil edilməsi turizmin inkişafına müsbət təsir göstərəcəkdir. Bilindiyi kimi, Şuşa Azərbaycanın və İslam dünyasının mədəni paytaxtı elan olunmuşdur. Bu sahədə Şuşa şəhərinin tanıtımı və mədəni brendinin yaradılması üzrə görülən işlər şəhərin dünya səviyyəsində tanınmasına səbəb olur. Hər kəsə məlum olan Xarıbülbül festivalının Şuşada keçirilməsi Dağlıq Qarabağın mədəni inkişafı üçün çox zəruridir [8].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 fevral 2021-ci ildə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri”nin təsdiq edilməsi haqqında Sərəncamında, ilk olaraq, “2021-2025-ci illərdə sosialiqtisadi inkişaf strategiyası” layihəsinin hazırlanması nəzərdə tutulub. Sərəncamın ən mühim cəhəti, xalqın tələb və istəklərinin, eyni zamanda sosial gözləntilərinin nəzərə alınmasıdır. Qeyd edək ki, Sərəncamda dövlətin gələcək 5 ildəki məqsəd və vəzifələri şəffaf şəkildə, müzakirə və dinləmələr əsasında müəyyən ediləcəkdir. “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri” əsasında 5 mühüm istiqamət üzrə islahatların, layihə və tədbirlərin həyata keçirilməsi əsas vəzifə kimi göstərilib [9]:




**Sxem 1. “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri” əsasında 5 mühüm vəzifə.**

Ümumiyyətlə, Azərbaycan Respublikasının işğaldan azad edilmiş torpaqlarında dayanıqlı inkişafın müəyyən edilməsi və qiymətləndirilməsi çox önəmlidir. Dayanıqlı inkişaf strategiyası, iqtisadi, sosial və ekoloji problemlərin kompleks şəkildə həlli üzrə tərtib olunmalıdır.

**Nəticə**

Əminliklə demək olar ki, Şuşanın və ümumilikdə Dağlıq Qarabağın işğaldan azad edilməsi Azərbaycanın daha da inkişaf etməsinə, yaxın gələcəkdə bu ərazilərin dünya səviyyəsində tanınmasına səbəb olacaq. Şuşa şəhərində bərpa işlərinə infrasrukturun təmin edilməsi ilə başlanılmalıdır. Buraya, yanacaq, su, nəqliyyat, telekommuniksiya və s. kimi xidmətlərin təmin olunması daxildir. Məlum olduğu kimi, Azərbaycan Respublikası yanacaq enerji resurslarına malik olan dövlətdir. İşğaldan azad edilmiş ərazilərdə "yaşıl" iqtisadiyyatın genişləndirilməsi istiqamətində alternativ enerji mənbələrinin tətbiqi həm ekoloji cəhətdən təmizliyə, həm də elektroenergetikanın yeni sahəsinin inkişafına təkan verə bilər. Tədqiqatlar nəticəsində sübut edilmişdir ki, Azərbaycanda alternativ enerji mənbələrindən geniş şəkildə yararlanmaq üçün yüksək imkan gücü mövcuddur. İqtisadi inkişafa gəldikdə, onun əsas üstün tərəflərindən biri, daxili və xarici investorların bu ərazilərə marağının və bu ərazilərdən gözləntilərinin yüksək olmasıdır. Qeyd etmək lazımdır ki, zəngin flora və faunaya malik olan coğrafi rayonda iqtisadiyyatın sərbəst inkişafı prosesi hər keçən gün daha da artır. Şuşa şəhərinin bərpasında növbəti addım, ekosistemin yaxşılaşdırılması üçün innovativ layihələrin tətbiq edilməsidir. Əsas məqsəd, bu ərazidəki təbii ehtiyatlardan səmərəli istifadə edərək ətraf mühitə dəymiş ziyanı minimuma endirməkdir. Eyni zamanda, şəhər əhalisinin rifahı naminə insan inkişafının idarə edilməsi üzrə layihələr planı hazırlamaq vacibdir. Yəni, bu ərazilərdə elm, təhsil, incəsənət və digər sahələrin inkişafı təmin edilməlidir. Bundan başqa, kənd təsərrüfatının inkişafı üçün ərazidə yeni zavod və fabriklər istifadəyə verilməlidir. Fermerlər üçün şərait yaradılmalıdır ki, bununla ölkənin ərzaq ehtiyacını yerli məhsullarla təmin etmək və eyni zamanda gələcəkdə bu məhsulları xaricə idxal etmək mümkün olsun. Şuşa incəsənətin ocağı olduğu üçün, şəhərdə musiqi məktəbləri, institutları, incəsənət mərkəzləri yaradılmalıdır. Abidələr, tarixi keçmişinə ziyan vurulmadan bərpa olunmalı və şəhərdə muzey mərkəzləri inşa edilməlidir. Ümumiyyətlə, bu ərazi üçün özəl brendin yaradılması, loqo və simvolların hazırlanması turizmin dünya səviyyəsində inkişafına səbəb olacaq. Bu və bunun kimi tədbirlərin icra edilməsi Azərbaycanın inkişaf strategiyasında yeni mərhələnin başlanmasına təkan yaradacaq.

**Ədəbiyyat siyahısı:**


1. Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı: biblioqrafiya / Tərt. ed. X.Abbasova; elmi red. K.M.Tahirov; red. E.R.Nəciyev. – Bakı, 2021. – 600 s.
2. Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Bakı 2009.
3. İbrahimov E. (2019), "Dayanıqlı iqtisadi inkişafın təmin edilməsində Dövlət Büdcəsindən səmərəli istifadə yolları", "Statistika xəbərləri" elmi-praktik jurnalı, İl 5, Cild 3, səh.4-11.
4. https://yesiligdir.com/haber/detay/27788 (2022).
5. "Turan" Stratejik Araşdırmalar Merkezi, Conference Special Issue, June 2022
6. Qarabağda müştərək investisiyaların formalaşdırılması Dr. Elmir Safarli, https://youtu.be/R60hP4mQCL0.
7. Hacıyev F. (2021), "İşğaldan Azad Olunmuş Ərazilərə İnvestisiya Qoyuluşlarının Təhlili Və Qiymətləndirilməsi" Audit elmi-praktiki jurnalı, №3(33), səh 23-30.
8. Hacıyeva L. (2016). Turizmdə brend strategiyasının formalaşdırılması, Turizm və qonaqpərvərlik tədqiqatları, Beynəlxalq Jurnal, "Regional turizmin davamlı inkişaf prioritetləri" Beynəlxalq Elmi-praktiki Konfrans, Azərbaycan Turizm və Menecment Universiteti.
9. Prezident İlham Əliyevin 2 fevral 2021-ci il "Azərbaycan 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri"haqqında Sərəncamı, https://president.az/az/articles/view/50474.


---


**Fatmakhanim Eldar Ahmadli**
Nakhchivan Autonomous Republic, Azerbaijan
fatya.ahmedli@gmail.com/
Nakhchivan State University, teacher


## Historical-Cultural Monuments of Shusha and Their Situation after the Occupation

**Abstract**

The city of Shusha has been one of the important centers of the historical-cultural, social-political life of Azerbaijan, the cradle of our country's culture, the "Caucasus Conservatory". The territory of the city is rich in ancient monuments. In total, the city has 549 ancient buildings, asphalt streets with a total length of 1203 meters, 17 neighborhood springs, 17 mosques, 6 caravansaries, 3 tombs, 2 madrasahs, 2 castles and castle walls. Among them, there were 72 historical monuments, houses of statesmen and other famous people. Most of these monuments were built by the 19th century architect Karbalayi. It was tastefully designed by Safikhan Karabagi and Karbalayi, the most famous artist of that time. Based on the conducted research and records, we can say that the opening of the "Victory" road, which is a spiritual symbol of the liberation of Shusha from the enemy and the return of the population to their homeland, will be a great return to Karabakh. Like all territories freed from occupation, Shusha is coming to life before our eyes. Shusha is already the cultural capital of Azerbaijan. The city is being restored in the most modern form, keeping its historical appearance. Especially the laying of the foundation of the new mosque, which will be an example of modern architecture, is a sign of the amazing face of Shusha in the near future. Of course, all this will not only return Shusha's former glory, but even increase it many times over.

**Keywords:** Shusha, history, cultural monuments, occupation, vandalism, socio-cultural development

**Introduction**

The large number of national monuments in Shusha, their diversity in terms of color, rightfully called the city the richest cradle of our culture. Most of these monuments belong to the XVIII-XIX centuries. In Shusha, every house, street, magnificent fortress walls, mosques, tall minarets, remains of magnificent fortresses tell about our past. During the occupation of Shusha by the Armenian armed forces, 15 ethnographic samples, 5 copper products, 2 silver daggers, 1 stone pot, 20 various items decorated with jewelry and other valuable items were taken from the Shusha city museum; 5 valuable ancient carpets, 4 rugs, 5 bags, 1 rare lamp, and a portrait of Uzeyir were stolen from them. Hajibeyov and many other valuable historical objects were stolen from the Karabakh History Museum. The home museum of Mir Mohsen Nawab and Bulbul was destroyed. Valuable treasures of Shusha museums - works of painting and sculpture, carpets and rugs, samples of folk art, archeological findings, much-needed documents, memorabilia of outstanding personalities of Azerbaijan and other valuable materials were brought to Armenia. These items were sold at foreign auctions or presented to the world community as examples of Armenian culture in various exhibitions and museums. At the end of the 20th century, Shusha faced an unprecedented tragedy and was occupied. The local population was expelled from their land and martyred, but it was not broken and bent, as it had been for centuries, and Shusha still maintains its pride.

**In the period before the occupation of Shusha.** Shusha is a place where nature and culture are perfectly combined. The city of Shusha in Karabakh is an amazing sight among the mountains of the Lesser Caucasus. But although the nature and scenery here are really beautiful, there is much more. Shusha, one of the most beautiful corners not only of Karabakh and Azerbaijan, but also of the entire Caucasus, was a fortress-city built for defense. Therefore, it is no coincidence that today this ancient place is also known as "Shusha Castle". Considering the high artistic importance of the historical-architectural and urban planning monument, in 1977 Shusha became a historical-architectural reserve. [1].

The historical and architectural monuments of Shusha are: - Kurgan - Bronze Age (northwest of Shusha), Shusha and Shushakand stone box graves - Late Bronze and Early Iron Age (near Shusha), Shusha cave camp - Stone Age (south of Shusha, on the coast of the Caspian Sea ) Dashalti River) shore), Shusha stone box necropolis - Iron Age (Karabulag village), Necropolis - Late Bronze and Early Iron Age (Dolanar village), Shusha Castle - 1754, Panah Khan Palace - XVIII century, Garaböyuk Khanum Palace - XVIII century , Heydar's Tomb, Natava House - XVIII century, Upper Govhar Aga Mosque - 1768-1769, Lower Govhar Aga Mosque - XVIII century, Two-storey caravanserai - XIX century, Ibrahimkhalil Khan Palace - XVIII century, Isa spring - XIX century, Ibrahim k. , Uzeyir Hajibeyov's house museum - 19th century, Khanliq mukhtar caravanserai - 18th century, Aga Kahraman Mirsiyab oglu caravanserai - 18th century, Saatli mosque - 18th century, Ganja gate - 18th century, A. Hagverdiyev's house - 10th VIII century, Kazanchi church - 19th

century century, Y.V Chamenzamanli house - 18th century, Upper mosque madrasa - 18th century, Safarov brothers caravanserai - 18th century, Tarzan Sadigjan's house - 18th century, Khan's palace - 18th century, Shirin water bath - 18th century, Khananda Seyid Shushinsky's house - 19th century, Hava Vagif's tomb - 20th century, Gasim Bey Zakir's house - 18th century, Madrasah - 18th century, Behbudov's house - 18th century, M.M. Navvab's house - 18th century, Bulbul's house - 19th century, F.B. Kocherli's house - XIX century. century, Caravanserai - 18th century, Geray Asadov's house - 18th century, S.S. Akhundov's house - 19th century, C. Garyagdioglu's house - 18th century, Realni school building - 20th century, Girls' school - 19th century, Church remains, Tomb, Spring - 18th century century, "Lachin" reservoir 19th century, Maiden Monastery - 18th century, Mifik Leyli fortress, Suleyman Vazirov's house - 19th century, Bath - 19th century, mosque - 19th century, Novlu spring - 19th century, Administrative building - 19th century, Shore spring - 19th century, 18th century, mosque (Chukhur quarter) - 19th century, Haji Abbas mosque and caravanserai - 18th century, Mardinli mosque - 19th century, Julfalar mosque - 19th century, Mill - early 20th century, "Chole Gala" spring - 18th century, Kocherli Mosque - 19th century, Kuyu Mosque - 18th century, Bulag (Seyidli neighborhood) - 18th century, Seyidli Mosque - 18th century, Mamay Mosque - 19th century, "Hazrat Abbas Healing House" (restoration house), Mamay Spring - 19th century, Faramezov's house - 18th century, Bulag (Haji Yusifli quarter) - 18th century, Bulag (Aghadadali quarter) - 19th century, Bulag (Nomadic quarter) - 18th century, Spring (Chukhur quarter) - 18th century, Saksı spring - 18th century, etc. If we look at the history, we will see that there is a city of Shusha. rich and glorious s history. The ancient settlements around Shusha, including the famous Shusha cave (Mount Uchmikh) on the Cidir plain prove that this area is one of the oldest human camps in Azerbaijan. [2].

**During the occupation of Shusha: Armenian vandalism.** Shusha was occupied by Armenians on May 8, 1992, and since 1993, every year on May 9, Armenians celebrate the day of the occupation of Shusha as "Victory Day" in Shusha. After the first Karabakh war, the reconstruction works in Shusha were financed by the "Hayastan" pan-Armenian fund, the so-called Nagorno-Karabakh government and Armenian philanthropists. After the First Karabakh War, the process of Armenianization and falsification of historical monuments was underway in Shusha under the name of restoration of historical monuments. In order to restore Shusha, the Armenian government established the Shushi Cultural Foundation and the Shushi Publishing House in Yerevan in 2000. The purpose of creating the fund was to study the cultural heritage of Shusha, to implement various programs for the development of Shusha. studying and promoting "archival documents" in areas close to the city. Immediately after the creation of the foundation, he started the project of developing the city of Shusha as a religious and cultural center of world Armenians. Thus, within the framework of this project, it was planned to carry out repair and construction works in 5 stages. In the first stage, the construction of new tourist hotels, the restoration of the castle walls, the Khan's palace, the Khan's daughter's residence, the ancient bathhouse, as well as the creation of all kinds of conditions inside and around these monuments, and the organization of interesting entertainment should play an exceptional role in attracting tourists.

The walls of the unnamed fortress were to be decorated with plaques called "Jraberd wall". In the second stage, a conference on the establishment of a cultural center named after O. Tarkanyan, renovation of a caravanserai, a market and several houses, naming the Shusha Knowledge Society building built in the 19th century after Eren, and other events will be held. In the third phase, it was considered important to build a new stadium and a new Armenian elementary school. This Armenian school was supposed to teach the Armenian language to the children of diaspora members who came to Shusha as tourists. It was planned to rebuild the Shusha real school built at the beginning of the 19th century, rename the Marinay gymnasium and the modern Zakharyan hospital. In the fourth stage, it was planned to build rest houses and entertainment venues in Isa Bulaga and Atly Plain. In the fifth stage, the organization of the Armenian Church History Museum and Armenian Churches in Shusha, Ganjasar Monastery, and the organization of religious schools were considered important for the establishment of religion here. Apart from that, along with the restoration of other historical buildings and streets in Shusha, new tourism centers will also be built at the expense of the funds created by the Armenian government. In addition to the above, priority would be given to projects

aimed at expanding Shusha's historical and cultural heritage. The Armenian government planned to finance the following projects to further activate and expand its activities:

- Taking maps and photographs of the fort and all surrounding areas
- Drawing and dimensioning of architectural schemes of houses and buildings
- Design of architectural monuments; Submission of all five-stage projects for the reconstruction of Shusha to international tenders
- Establishment of the Shusha Archive Fund
- Publishing the results of discovered tombs and other archaeological excavations
- Study of lithographic heritage
- Conducting cave researches in and around the castle
- Establishment of the National Armenian Museum Foundation in Shusha
- Research and publication of Iranian monuments (including mosques and tombs in Azerbaijan).

The Armenian government has been implementing this concept since 2004. 525 historical-architectural monuments and rock specimens existing in Shusha and its surroundings were listed and added to the concept. During the last two years, the students of the University of Architecture and Construction of Armenia drew the schemes of the architectural structure of 220 buildings in Shusha, measured their walls, and ensured that these houses were ready for restoration. The Ministry of Education and Science of Armenia, and later the Cabinet of Ministers, reviewed and approved these concepts and projects. Since 2011, the separatist regime in Nagorno-Karabakh has opened a large number of hotels, motels and hostels in the area to attract foreign tourists to Shusha.

On November 8, 2020, Shusha was liberated from occupation by the brave army of Azerbaijan. Despite all their efforts, the Armenians could not present Shusha to the world as an Armenian city. Even though Shusha was crushed by the Armenians, he did not bend, he did not lose his dignity even though he was in captivity, despite the attempts to Armenianize him, he was able to preserve his Azerbaijani spirit. [3].

**In the period after the occupation of Shusha.** After the release of Shusha, President Ilham Aliyev and First Vice-President Mehriban Aliyeva, a group of delegations from many countries, political scientists, journalists, diaspora members, etc. visited Shusha many times and witnessed the destruction of the historical and cultural heritage of the ancient city by Armenian barbarians. During his visits to Shusha, the President said in public meetings and press conferences that the city will soon be restored. This is also confirmed by the construction works that began in Shusha after the liberation from occupation. The Heydar Aliyev Foundation, headed by the First Vice-President of Azerbaijan Mehriban Khanum, restored the mausoleum of Aliyeva Molla Panah. President Ilham Aliyev said that all work should be carried out in a planned manner, and the historical face of Shusha should be preserved. The restoration works will not harm the historical appearance of Shusha. Here, any building will be restored with a higher quality than before, the historical and cultural heritage of Shusha will be given a second life. Experts, architects, historians, residents of Shusha will tell how they want to see this city, because it is their city. Restoration of the original historical image of Shusha and ancient cultural monuments should reflect the architectural style of Azerbaijan. After all the work is done in Shusha, the townspeople will return there. Now there is a different mood in Shusha. According to the orders and recommendations of the head of state, the historical and cultural heritage of Shusha is given a second life. The cultural spirit of the city is being restored, its historical appearance is being restored. The restoration of very important examples of the cultural history of Azerbaijan here is an example of our ownership of our history, culture and monuments.

## Summary

Today, the huge construction projects carried out by the Azerbaijani state in our territories freed from occupation, including the restoration and reconstruction works in Shusha, are carried out in accordance with its original architectural style in order to restore the historical image of the city. The Heydar Aliyev Foundation is carrying out renovation works in the Lower Govhar Aga, Yukhari Govhar Aga and Saatli mosques. All three mosques are included in the list of important historical and cultural monuments of the republic. The interior of the Upper Govhar Aga Mosque was destroyed, the decoration of the minarets was damaged, and its facades were destroyed. The reconstruction of

the mosque has been completed in the first phase, and works are being continued in the second phase. At this stage, the stones of the mosque are changed according to the original design. The destroyed madrasah in the mosque will also be restored. After the occupation of Shusha by Armenia, the historical Saatli mosque in the Saatli neighborhood was seriously damaged. Currently, restoration work is being carried out in the Kazanchy Church, like all other historical and cultural monuments. It is planned to restore the Kazanchi church according to its original artistic and aesthetic appearance. It is a scientific-practical-research activity and includes a comprehensive analysis of the monument, the study of architectural and historical features. The restoration project allows to return the monument to its original appearance in the 19th century. The occupying, terrorist Armenia, which cannot accept the restoration of the Gazanchi church in Shusha, is trying to make absurd claims by slandering us. But all this is in vain and as long as our monuments will be restored within the framework of the Great Return, our historical and cultural heritage will be returned to our lands freed from occupation, the policy of the Azerbaijan state aimed at peace, development and progress will continue. The Heydar Aliyev Foundation has started another project in the city of Shusha, which was liberated from occupation. Currently, renovation works are underway at the Creative Center, Art and Carpet Gallery in the city. The Shusha Carpet Gallery will be located in the building of the former Shusha Carpet Museum. The building was seriously damaged during the occupation. At present, in addition to repair work in these buildings, the selection of works to be exhibited is also in the center of attention. In Shusha, the works of Azerbaijani artists, works reflecting images of Karabakh before and after the occupation, as well as carpet exhibits will be exhibited first.

Of course, the monuments restored with the care of Shusha's historical and cultural heritage do not end there. State care and control over the restoration of Shusha monuments is always on the agenda. In the near future, all historical, cultural and religious monuments of Shusha will be restored at a high level and returned to their former appearance, this ancient city will successfully fulfill its mission as the cultural capital of Azerbaijan. [4].

**References**

1. Scientific Work International scientific journal / Impact Factor 1.518 / Materials Of VI International Scientific Research Conference (December 17, 2021) DOI: https://www.doi.org/10.36719/026/

2. https://www.virtualkarabakh.az/az/post-item/27/96/susa.html

3. https://en.wikipedia.org/wiki/Shusha

4. Shusha - the cultural capital of Azerbaijan: bibliography / Kh. Abbasova; K. M. Tahirov; ERN Najiyev. - Baku, 2021. - 600 p.

**Фатмаханым Эльдар Ахмедли**
Нахчыванский государственный университет, преподаватель
fatya.ahmedli@gmail.com

**Историко-культурные памятники Шуши и их положение после оккупации**

**Резюме**

Город Шуша был одним из важных центров исторической, культурной, общественно-политической жизни Азербайджана, колыбелью культуры нашей страны, «Кавказской консерваторией». Территория города богата памятниками старины. Всего в городе было 549 старинных зданий, асфальтированные улицы общей протяженностью 1203 метра, 17 квартальных родников, 17 мечетей, 6 караван-сараев, 3 усыпальницы, 2 медресе, 2 замка и крепостные стены. В частности, здесь было 72 исторических памятника, дома государственных деятелей и других знаменитостей. Большинство этих памятников были построены архитектором 19 века Кербелаем Сафиханом Гарабаги и со вкусом оформлены самым известным художником того времени Кербелаем Сафарали. На основании исследований и заметок можно сказать, что открытие дороги «Победа», являющейся духовным символом освобождения Шуши от врага и возвращения населения на родину, станет великим возвращением Карабаху. Как и все освобожденные территории, Шуша оживает на глазах. Шуша уже является культурной столицей Азербайджана. Город восстанавливается в самом современном виде, сохраняя свой исторический облик. В

частности, закладка фундамента новой мечети, которая станет образцом современной архитектуры, является признаком удивительного облика Шуши в ближайшем будущем. Конечно, все это не только восстановит былую славу Шуши, но даже многократно ее приумножит.

---

**Samirə Məmmədova**
Azərbaycan Kooperasiya Universiteti, Marketinq kafedrası, i.ü.f.d., dosent
mammadzade.xanim2022@gmail.com

## Şuşanın resurs potensialının təhlili və qiymətləndirilməsi

**Xülasə**

Məqalədə Şuşa şəhərinin resurs potensialı təhlil edilmiş, bu potensialdan istifadənin prespektivləri qiymətləndirilmiş və təbii ehtiyatların təsnifatlaşdırılmasının bu dəyərləndirmədəki rolu araşdırılmışdır. Təbii ehtiiyatlarla zəngin, qədim tarixi irsə və mədəniyyətə sahib olan Şuşa şəhərinin gələcək inkişafında resurslardan səmərəli istifadənin təmin edilməsi yollarının araşdırılması olduqca önəmlidir. Davamlı inkişafın əsas ünsürlərinin tədqiq edilməsi və praktikada da təcrübi olaraq tətbiq edilməsi bu inkişafda diqqət yetirilməli olan məsələlərdəndir. Ekoloji təmiz istehsal üsullarının araşdırılması, bu yöndə layihələrin həvəsləndirilməsi və işlənib hazırlanması Şuşanın resurslarından istifadəni optimallaşdırmağa xidmət edəcəkdir. Bütün bu məsələlərlə bağlı müəllifin ortaya qoyduğu fikirlər əks etdirilmiş və müəyyən təkliflər irəli sürülmüşdür.

**Giriş**

Şuşa Azərbaycan xalqı üçün müqəddəs yerdir. Bu gözəl şəhər bütün tarixi dövrlərdə bütün Qarabağın mərkəzi olub.

Şuşa şəhəri harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı üçün doğma və müqəddəsdir. Şuşa Azərbaycanın şəhər mədəniyyətinin nadir incilərindən biridir. Bakıdan 373 km, Xankəndindən 11 km aralıda, dəniz səviyyəsindən 1400 m yüksəklikdə, üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş dağ yaylasında yerləşir. Şuşa şəhəri zəngin və şərəfli tarixə malikdir.




**Şəkil 1. Şuşanın ilk xəritəsi**
**Mənbə: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, Prezident Kitabxanasından götürülmüşdür.**

Şuşa Azərbaycan xalqının tarixi ənənələrinin simvolu, qədim Xocalı Gədəbəy mədəniyyətinə (e.ə. II minilliyin ikinci yarısı - I minilliyin əvvəli) aid olan ən qədim yaşayış məskənlərindən biridir.

XVIII əsrdə Azərbaycanda müstəqil xanlıqlar yarandı. 1748-ci ildə Qarabağ xanlığının yaradılması və Şuşinin onun paytaxtına çevrilməsi Pənahəli xan Cavanşirin (1748-1763) adı ilə bağlıdır. 1750-ci ildə hündür, qayalı bir dağda qalanın tikintisinə başlanılmış və 1756-1757-ci illərdə tamamlanmışdır. Qarabağ xanı Pənah Əli xan Şuşanı paytaxt elan etdi, onu möhkəmləndirdi və qala şəhərinə çevirdi.

XVIII əsrdən tipik Azərbaycan şəhəri kimi formalaşan Şuşa 1992-ci ildə erməni vandalları tərəfindən işğal olunana qədər öz tarixi görkəmini qoruyub saxlamışdır.

Lakin, Ermənistan silahlı qüvvələrinin 8 may 1992-ci il təcavüzü nəticəsində 25 məktəb, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi, 4 texnikum, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatr, 5 mədəniyyət parkı və istirahət, 2 sanatoriya, turizm bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, uşaq sağlamlıq məktəbi məhv edilmişdir.

Azərbaycan ordusunun 2020-ci il sentyabrın 27-dən Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqların azad edilməsi istiqamətində həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində Şuşa şəhəri işğaldan azad edilib. Şuşinin azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Bu gün Azərbaycan tarixinə Qələbə Günü kimi daxil olub. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edilib.

"Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikasının Prezidentinin 7 iyul 2021-ci il tarixli fərmanına əsasən Azərbaycan Respublikasının ərazisi 14 iqtisadi rayona bölünmüşdür. Bölgüyə əsasən Şuşa şəhəri Qarabağ iqtisadi rayonunun tərkibində yerləşən 9 şəhər və rayondan biridir [1].

Şuşa şəhəri 0,31 min km$^2$ əraziyə və 34.9 min nəfər qeydiyyatda olan əhaliyə sahib olub, həm təbiəti, həm maddi və qeyri-maddi mədəni irsi, həm də təbii ehtiyatları ilə önəmli olan şəhərlərdən biridir.

Şəhərin qeydiyyatda olan əhalisinin 17.4 min nəfəri iqtisadi fəal əhalidir ki, onların da təqribən yalnız 3.3 min nəfəri muzdla işləyənlərdir. Məşğul əhalinin sayı isə 15.8 min nəfər təşkil edir. Şuşada qeydiyyatda olan əhalinin 8.3 min nəfərini gənclər təşkil edir.

Təbii ehtiyatların iqtisadi inkişafda önəmini nəzərə alaraq onun ərazi üzrə bölgüsünün dərindən və ətraflı təhlilinin önəmini qeyd etmək olar. Çünki təbii ehtiyatların hərtərəfli təhlili və qiymətləndirməsi sadəcə olaraq şəhərin və ya bölgənin iqtisadi inkişafını dəstəkləmiş olmur, bununla yanaşı həm də ölkə iqtisadiyyatının inkişafında irəliləməni sürətləndirməkdə əhəmiyyətli bir rol oynamış olur.

Bu məqamda məsələyə bir-birindən fərqli, amma eyni zamanda bir-biri ilə də qarşılıqlı əlaqədə olan bir neçə aspektdən yanaşmağın önəmini vurğulamaq lazımdır. Bu aspektlərdən bir neçəsini aşağıdakı kimi sıralaya bilərik:

- ✓ Təbii ehtiyatların təsnifatlaşdırılması aspekti;
- ✓ Relyef aspekti;
- ✓ Torpağın quruluşu və paylanması aspekti;
- ✓ İqlim xüsusiyyətləri aspekti;
- ✓ İqtisadi əhəmiyyətlilik aspekti;
- ✓ Əməktutumluluq aspekti;
- ✓ Nəqliyyat və logistika aspekti;
- ✓ Daxili tələbatı ödəmə və ixrac potensialı aspekti və s.

**Təbii ehtiyatların təsnifatlaşdırılması**

Elmi ədəbiyyatda təbii ehtiyatlar bir sıra xüsusiyyətlərinə görə təsnifatlaşdırlır. Bu məsələdə hər nə qədər fikir ayrılıqları olsa da ortaq qəbul edilmiş klasifikasiya yanaşmaları da mövcuddur.

Təbii sərvətlər mənşəyinə, istifadə arealına, coğrafi yayılmasına, istifadə vaxtına, tükənmə xüsusiyyətlərinə və s. kimi əlamətlərinə görə klasifikasiya edilir. Bu bölünmələr isə tədqiqatın məqsədinə, vəzifəsinə və aydınlaşdırmalı olduğu məsələlərə uyğun olaraq seçilir.

Beləki təbii resurslar tükənmə xüsusiyyətlərinə görə, əksər hallarda aşağıdakı kimi qruplaşdırılır:

1. Tükənməyən təbii ehtiyatlar
- ✓ İqlim və kosmik resurslar
- ✓ Külək, qabarmalar və geometral

2. Tükənən təbi ehtiyatlar

a) Tükənən, lakin bərpaoluna bilən ehtiyyatlar
- ✓ Bitki
- ✓ Heyvan
- ✓ Su
- ✓ Hava

b) Tükənən və bərpa olunmayan ehtiyatlar
- ✓ Mineral yanacaq ehtiyatları
- ✓ Az rast gəlinən orqanizmlər
- ✓ Faydalı qazıntılar

Təbii ehtiyatların təsnifatlaşdırılması həm də bu ehtiyatların istifadə istiqamətini və prespektivlərini də müəyyənləşdirmiş olur.

Şuşanın təbii ehtiyatlarını təhlil edərkən yuxarıda sadalanan təbii ehtiyyat növlərinə nəzər saldıqda digərlərinə nisbətən ən geniş yayılanlarının arasında mineral, bitki heyvan və su ehtiyatlarının adlarını qeyd edə bilərik.

Şuşada mineral ehtiyatlardan ən çox rast gəlinənləri Sxem 1-də görə bilərik.

**Sxem 1. Şuşada yayılan mineral təbii ehtiyatlar**




**Mənbə:** Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları mövzusunda Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin 2021-ci ilə olan məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Sxemdən də aydın göründüyü kimi Şuşa ərazisində ən çox yayılan təbii mineral ehtiyatlar sırasına əhəng xammalı, üzklük daşı, gil, mineral sular və yeraltı şirin sular daxildir. Xüsusilə də tikinti sahəsində istifadə oluna biləcək bu ehtiyatlar şəhərin gələcək iqtisadi inkişafında prioritet istiqamətlərin təyin edilməsində mühüm rol oynayacaqdır.

Bir digər mühüm məqam isə yeraltı şirin suların və mineral suların ərazi üzrə paylanmasıdır. Şəhərin şirin su ehtiyatlarından bəhs edərkən Şuşanın ərazisindən keçən Qarqar çayının adını qeyd etməyin xüsusi əhəmiyyəti vardır. 115 km uzunluğu olan Qarqar çayı Şuşa, Xocalı, Ağdam, Ağcabədi rayonalrının və Xankndi şəhərinin ərazisindən keçməklə Kür çayına Ağgöl bataqlıqlarında tökülür. Çayın sözügedən inzibati ərazi vahidlərinin şirin su ehtiyatlarında payı böyükdür.

Şirin su ehtiyatlarının məişətdə istifadəsinin əhəmiyyətini qeyd etməklə yanaşı, mineral suların müalicəvi faydalarına da toxunmağa ehtiyac vardır. Çünki Turşsu və Şırlan mineral su yataqları səmərəli istifadə edildikdə özünün müalicəvi tərəfini göstərməklə yanaşı, şəhərin turist cəlbetmə potensialının artmasına səbəb olacaqdır.

Mineral suların qiymətləndirilməsi zamanı ölçülməli olan bəzi göstəricilər vardır ki, onları aşağıdakı kimi göstərə bilərik:
- ✓ Mineral yataqlarının rentabelliyi
- ✓ Mineral suların çıxarılmasına, saxlanılmasına, daşınmasına, qablaşdırılmasına, son-hazır məhsul halına gətirilməsinə və alıcıya çatdırılmasına çəkilən xərcin ümumi orta məbləği
- ✓ Son məhsulun satışından əldə olunan gəlir və onun əldə edilməsində əvvəlki variantda göstərilən xərclərlə müqayisədə istehsalatın səmərəli olub-olmadığı və s.

**Nəqliyyat və logistikanın resursların səmərəli istifadəsinə təsiri**

Şuşanın mineral ehtiyatları təhlil edilərkən onu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının digər inzibati rayonlarının payına düşən təbii ehtiyatlar ilə bağlı araşdırmalardan kəskin şəkildə ayırmaq düzgün olmazdı. Bunun əsas səbəblərindən biri də resursların səmərəli istifadəsinə nail olmaq üçün ehtiyac duyulan nəqliyyat və logistika məsələsidir.

Şuşa şəhərinin təbii ehtiyatlarının istifadəsi zamanı, xüsusilə də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ilə münasibətdə nəqliyyat və logistika xidmətinin düzgün təşkil edilməsinin aşağıda göstərilən bir sıra üstünlükləri vardır:

- Nəqliyyat xərclərinin minimallaşdırılması;
- Vaxt itkisinin aradan qaldırılması;
- Ələlxüsus da tez xarab olan ehtiyatların mənzil başına vaxtında çatdırılmasını təmin edilməsi;
- Logistika xidmətinin təşkilində təcrübə qazanaraq bu sahədə inkişafı realaşdırmaq şansınının əldə edilməsi;
- Davamlı, dayanıqlı və ekoloji təmiz istehsala nail olunması və s.

Ümumilikdə isə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 19 üzlük daşı yatağı yerləşir ki, onlarda da ümumi həcmi 18.4 milyon $m^3$ olan üzlük daşı xammalı olduğu qeyd edilir. Digər yandan da sözügedən bölgədə 129.8 min $m^3$ həcmində soda istehsalını təmin edə biləcək əhəngdaşı yataqları mövcuddur. Burada ümumi həcmi 23.2 milyon $m^3$ olan gil ehtiyatlarına sahib yataqlar vardır ki, yuxarıda adıçəkilənlər kimi onun da əhəmiyyətli bir qismi Şuşa şəhərinin payına düşür.

**Şuşanın relyefinin təbii ehtiyatların paylanmasındakı yeri**

Şəhərin coğrafi quruluşu və relyefinin də əhatəli qiymətləndirilməyə ehtiyacı vardır. Səthi dağlıq olan Şuşa şəhərinin ərazisində mütləq hündürlüyünə görə ən yüksək zirvəsi 2725m hündürlüklə Böyük Kirs dağıdır. Şuşada mineral ehtiyatların zəngin paylanmasının əsas səbəbi kimi Yura və Təbaşir dövrü çöküntülərinin geniş yayılması göstərilir. Relyefin əsas təsrrüfat və məşğulluq sahələrinə təsiri ondan ibarətdir ki, iqtisadiyyatında heyvandarlığın xüsusi payı vardır.

**İqlim xüsusiyyətləri aspekti**

Şuşa şəhərinin ərazisinin böyük bir hissəsi yayı quraq keçən mülayim-isti və eləcə də qışı quraq küçən soyuq iqlim tiplərinin payına düşür ki, bu da öz növbəsində ərazinin bitki və heyvanlar aləminin formalaşmasında ciddi önəmə sahibdir. Heyvanlarının yayılmasının tədqiqindən bəlli olur ki, heyvanlardan cüyür, dovşan, ayı, canavar, quşlardan göyərçin, kəklik və s. geniş yayılmışdır. İl ərazində müşahidə edilən orta temperatur göstəricisinin -1 və -19 dərəcə arasında dəyişməyi alçaq dağlıqlarda və dağətəyi ərazilərdə daha çox çəmənlərin və kserofit kolluqların, yüksək dağlıq yerlərdə isə əsasən subalp və həmçinin alp çəmənlərin yayılması ilə nəticələnmişdir.

**Torpaq tipi və quruluşu**

Şəhərin torpaq örtüyü mülayim və soyuq iqlim qurşaqlarında geniş yayılan dağ-meşə torpaqlarıdır ki, bu da iqlim xüsusiyyətlərində olduğu kimi bitkilərin ərazi üzrə aylanmasında mühüm rol oynayır. Belə ki, şəhərin relyefi, iqlimi və torpaq tipi ümumilikdə meşəliklərin, ələlxüsus da dağ meşələrinin geniş yayılamsına gətirib çıxarmışdır. Bu baxımdan turizm üçün əlverişli coğrafiyaya malik olan Şuşa şəhərində geniş yayılan əsas torpaq tiplərinə bunları aid etmək olar:

- ✓ Qəhvəyi dağ-meşə
- ✓ Qonur dağ-meşə
- ✓ Çimli dağ-meşə

**Nəticə və təkliflər**

1. Əlverişli strateji -coğrafi mövqeyi, tarixi və mədəniyyəti ilə yanaşı Şuşa şəhərinin təbii ehtiyatları daolduqca qiymətlidir. Burada relyef, iqlim, torpaq örütyü və s. bu kimi amillərin ciddi təsiri vardır.
2. Resursların potensialının təhlili və düzgün qiymətləndirlməsi Şuşa şəhərinin bütün Cənubi Qafqazda əsas isthesal və ticarət mərkəzlərindən birinə çevrilməsinə təkan verəcəkdir.
3. Gələcəkyönümlü, dərininə, davamlı və dayanıqlı istehsal inkişafı yolunun seçilməsi xərclərin azaldılması və gəlirlərin optimallaşdırılması təmin edir və o cümlədən, resursların səmərəli istifadəsi zamanı innovativ texnoloji yeniliklərin tətbiqini optimallaşdırır.
4. Relyefi, mineral suları, tarixi memarlıq abidələri şəhərin gələcəkdə əsas turizm mərkəzlərindən biri olacağını düşündürür.

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycanın regionları - 2021: statistik məcmuə/ Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi-Bakı, 2021
2. Azərbaycan Respublikasının inzibati ərazi bölgüsü: məlumat toplusu –Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, 2013

3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi İnkişafı, Dövlət Proqramı (2004-2008-ci illər) Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
4. Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitinin səmərəli yerləşdirilməsi məqsədilə iqtisadi rayonlar üzrə Prioritet istiqamətlər http://edf.gov.az/az/content/105
5. E.Yusifov. Azərbaycanda təbiətdən istifadənin sosial-iqtisadi problemləri. «İqtisadi inkişaf» jurnalı №1, 2005.
6. https://e-qanun.az/framework/47788
7. http://www.geostrategiya.az/news.php?id=187
8. https://files.preslib.az/projects/azerbaijan/gl2.pdf

---

**Səbinə Əsədova**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında İqtisadiyyat İnstitutunun
“Post-konflikt ərazilərin bərpası elmi mərkəzi”nin böyük elmi işçisi
sabina_esedova@mail.ru

## Mədəniyyət sahəsinin rəqəmsallaşması: beynəlxalq təcrübə və Şuşanın yeni imkanlari

**Xülasə**

Məqalə mədəniyyət sahəsinin rəqəmsallaşmasına və mədəniyyətlə iqtisadiyyat arasındakı qarşılıqlı əlaqələrin təhlilinə həsr olunub. Tədqiqat gedişində mədəniyyət sahəsinin rəqəmsallaşmasının əsas istiqamətləri araşdırılır və rəqəmsallaşmanın mədəniyyət sahəsinin innovativ inkişafı və kreativ əmtəələrin ixrac həcminin artırılmasında, həmçinin yaradıcı xidmətlərin kəmiyyətinin qiymətləndirilməsində effektiv vasitə olması əsaslandırılır. Mədəniyyət sahəsinin insan intellekti ilə sıx bağlığı nəzərə alaraq gəlinən nəticə odur ki, bu sahədə yaradılan iş yerləri digər istehsalat sahələri ilə müqayisədə rəqəmsallaşmaya daha dözümlüdür. Öyrənilən təcrübənin Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərində tədbiqi perspektivlərinə baxılır.

**Açar sözlər**: mədəniyyət, iqtisadiyyat, rəqəmsallaşma, süni intellekt, kreativ əmtəə.

### Giriş / Introduction

Azərbaycanın çoxəsrlik inkişaf tarixinə malik zəngin mədəniyyəti 44 günlük Vətən müharibəsində əldə olunan böyük Zəfərdən sonra dirçələn Qarabağın yeni iqtisadi inkişafının əsasını təşkil edəcək. Bunu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qarabağın dirçəlişinin milli və strateji məqsədlərini dəqiq müəyyən edən fərman və sərəncamlarının məzmununda görə bilərik. Belə ki, “Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1374 nömrəli Fərmanının 2.1.7-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti “Şuşa şəhərinin ərazisində qadağan olunmuş sahibkarlıq fəaliyyəti növlərinin Siyahısı”nın təsdiq edilməsi barədə qərar qəbul etmişdir. Qanuna əsasən, Şuşa şəhərinin ərazisində onun tarixi, mədəni, elmi, estetik, rekreasiya dəyərlərinə xələl gətirə bilən, abidələrə və ya təbii landşafta, ekoloji mühitə təhlükə yarada bilən sahibkarlıq fəaliyyəti növləri ilə məşğul olmaq qadağan edilmişdir. Bəlli olduğu kimi, Şuşanın yeni iqtisadiyyatı, fərqli məşğulluq sahələri qurulacaq və, şübhəsiz ki, zəngin ənənələrin və yeniliklərin irəli hərəkətini təmin edən daxili mədəni dalğalar məhz bu şəhərdən qaynaqlanacaqdır. Məhz bu səbəbdən Şuşada mövcud olacaq mədəniyyət sahəsinin yeni inkişaf pespektivlərinin araşdırılması, mədəniyyət və iqtisadiyyat arasında qarşılıqlı əlaqələrin təhlili, burdakı mədəniyyət sahəsinə ərazinin iqtisadi inkişaf amili kimi, mədəni nemətlərə isə əmtəə kimi baxıldığı yeni münasibətin formalaşması xüsusi aktuallıq kəsb edir. Hazırda mədəniyyətin sosial-iqtisadi əhəmiyyətinin qiymətləndirilməsinə, zəruri statistik alətlərin axtarışına maraq xeyli artmaqdadır. Bu kontekstdə, tədqiqatçılar mədəniyyətin iqtisadiyyata birbaşa töhfəsini kəmiyyətcə ölçməyə cəhd göstərirlər. Bu, ÜDM-in həcmi ilə nisbətdə faizlə ifadə olunur, iqtisadi artım və məşğulluq göstəricilərində öz əksini tapır. Həmçinin, onun innovasiya proseslərinə, informasiya

texnologiyalarının inkişafına, regionların turizm cəlbediciliyinin artırılmasına və s. təsir göstərən dolayı töhfəsini də ölçməyə çalışırlar. Bu baxımdan, mədəni-kreativ sektorun rolu əhəmiyyətli dərəcədə yüksəlməkdədir.

**Əsas hissə /Main part**Müasir şəraitdə iri iqtisadi rayonların fərqləndirilməsi elmi-texniki tərəqqinin inkişafı ilə şərtlənir. Bu inkişaf meylləri hər tərəfli rəqəmsallaşmadan keçir, bütün proseslər virtuallaşma ilə paralel inkişaf edir. Beynəlxalq təcrübəyə əsasən, ayrı-ayrı sahələrin yeni inkişaf imkanlarını şərtləndirən əsas amillərdən biri - rəqəmsal mühitin qurulmasıdır. Rəqəmsal mühit olmadan ayrı-ayrı sahələrin rəqəmsallaşmasını həyata keçirmək də mümkün deyil. Sözügedən mühit elə bir durumu nəzərdə tutur ki, informasiya texnologiyaları bütün sahələrdə fəal tətbiq edilir. Yalnız rəqəmsal mühit sayəsində regional rəqəmsallaşmanın tam reallaşmasına nail olmaq mümkün olur.

Rəqəmsal texnologiyalar bütün sosial quruluş sistemini fəal şəkildə dəyişdirir və mədəniyyət sahəsi də istisna deyil. Rəqəmsallaşma mədəni məkana fəal şəkildə daxil edilərək, mədəni dəyərlərlə tanışlıq formatını dəyişdirir, mədəni məzmunla qarşılıqlı əlaqədə tamamilə yeni təcrübə əldə etməyə imkan yaradır. Eyni zamanda, bir sıra tədqiqatçıların fikrincə, belə bir rəqəmsal təcrübə "ikinci dərəcəli deyil və real təcrübəni əvəz etmir. Bu sadəcə fərqli təcrübədir" [7].

Məqalənin məqsədini çatdırmaq üçün ilk əvvəl iki anlayışı aydın şəkildə ayırmaq lazımdır: rəqəmsal mədəniyyət və mədəniyyət sahəsinin rəqəmsallaşması. Rəqəmsal və ya elektron mədəniyyət unikal mədəni və sivilizasiya fenomenidir, "rəqəmsal cəmiyyətin (elektron ticarət, iqtisadiyyat, siyasət, elm, təhsil, mədəniyyət və s.) məntiqini irəlilətmək məqsədi ilə İKT əsasında təşkil olunmuş sosial institutlar məcmusudur". Tədqiqatçıların fikrincə, rəqəmsal mədəniyyət "təkcə yeni texnologiyalardan istifadə deyil, həm də cəmiyyətin bütün sahələrinin fəaliyyəti və inkişafı üçün yeni imkanların yaranması, bir sıra sosial münasibətlərdə, dəyərlərdə, normalarda, davranış stereotiplərində dəyişikliklər deməkdir" [3, c. 520]. Lakin bizim tədqiqatda rəqəmsal mədəniyyət işin əhatə dairəsi xaricindədir. Burada söhbət sırf mədəniyyət sferasının rəqəmsallaşdırılmasından gedəcək ki, bu da Şuşa şəhəri nümunəsində "insanın daxil olacağı", tarixi və mədəni dəyərləri öyrənmək, təbliğ etmək və qorumaq məqsədilə yeni mədəni mühit yaratmaq üçün texniki imkanların instrumental istifadəsini nəzərdə tutur.

Şəkildən də göründüyü kimi, ilk üç istiqamət mədəni dəyərlərin və mədəni sərvətlərin öyrənilməsi, qorunması, yaradılması, yayılması və istehlakı prosesləri ilə, yəni birbaşa mədəni fəaliyyətlə bağlıdır. Dördüncü istiqamət mədəniyyət təşkilatlarının fəaliyyətində təşkilati, iqtisadi və maliyyə-iqtisadi proseslərin təkmilləşdirilməsi üçün rəqəmsal texnologiyalardan istifadəni nəzərdə tutur. Beşinci istiqamət çərçivəsində isə mədəniyyət obyektlərinin və mədəni sərvətlərin dövlət qeydiyyatını aparmağa imkan verən ixtisaslaşdırılmış informasiya sistemlərinin yaradılması nəzərdə tutulur. Bu istiqamətlərə daxil olan tərkiblərə qısa nəzər salaq. Belə ki, rəqəmsal texnologiyalar tədqiqatçılara mədəni dəyərləri öyrənmək üçün böyük imkanlar yaradır - rəqəmsallaşdırma və arxivləşdirmədən tutmuş 3D skan, modelləşdirmə və vizuallaşdırma texnologiyalarına, həmçinin səthin məsafədən zondlanmasına qədər. Bu istiqamətə qabaqcıl təcrübələrdən biri kimi İsrail Qədim Əşyalar İdarəsi və Google Korporasiyası arasında 2010-cu ildə başlayan Kumran əlyazmaları və ya Ölü dəniz perqamentlərinin rəqəmsallaşdırılması üzrə birgə layihəni qeyd edə bilərik.

Bu kontekstdə nəzərdən keçirilən mədəniyyət sahəsinin rəqəmsallaşmasını şərti olaraq beş əsas istiqamətə (şəkil 1) bölmək olar [4].

Bu əlyazmalar hələ 1947-ci ildə Qumran mağarasında bir bədəvi tərəfindən tapılıb [6]. Göründüyü kimi, müasir dövrün ən böyük sıçrayışlarından biri olan süni intellekt (AI) tarixi sirləri açmaq qüvvəsinə malikdir. Süni intellekt, həmçinin, mədəni sərvətlərin yaradıcısı, misal olaraq, böyük bəstəkarların yarımçıq qalmış əsərlərinin davamçısı kimi də incəsənətin müxtəlif sahələrinə nüfuz edir. Bunu, 2019-cu ildə Almaniyada Lüdviq van Bethovenin anadan olmasının 250 illiyinə həsr olunmuş "Süni intellekt Bethoveni tamamlayacaq" adlı layihənin nümunəsində göstərə bilərik.




**Şəkil 1. Mədəniyyət sahəsinin rəqəmsallaşması istiqamətləri**

Sözügedən layihədə bir qrup bəstəkarlar, musiqişünaslar və İT mütəxəssisləri iştirak edib. Bəstəkarın yarımçıq qalmış 10-cu simfoniyanı tamamlamaq üçün süni intellekt səslərin sürəti, yüksəkliyi və bəstəkarın özünəməxsus müəllif üslubu haqqında məlumatlar əsasında notları müəyyən etməli idi. İlk əvvəl mütəxəssislər Bethovenin bütün əsərlərini təhlil etmək üçün alqoritm yaratdılar, sonra isə 10-cu simfoniyanın bugünə kimi saxlanılmış fraqmentləri əsasında süni intellekt çatışmayan hissələri əlavə edəcəkdi [5]. Qeyd edək ki, belə üsullar ilə rəsm əsərləri də ərsəyə gətirilir və xarici bazarlarda xüsusi rəğbətlə qarşılanır. Buna misal olaraq, 25 oktyabr 2018-ci il tarixində Nyu-Yorkda "Christie's" hərrac evi tarixdə ilk dəfə süni intellektin çəkdiyi rəsm tablosu 432,5 min dollara (ilkin qiymət 7-10 min dollara) satılmasını göstərə bilərik.

Mədəniyyət sahəsinin rəqəmsallaşmasının növbəti - "Mədəni dəyərlərin və mədəni sərvətlərin yayılması və istehlakı" istiqaməti mövcud layihələrin əksəriyyətini - virtual muzeylərin, konsert salonlarının, teatların təbliği ilə bağlı inteqrasiya olunmuş informasiya platformalarının yaradılmasını nəzərdə tutur. Hesab edirik ki, bu istiqamətin inkişaf etdirilməsi ilkin mərhələdə daha əhəmiyyətli və digər istiqamətlərlə müqayisədə daha əlçatan ola bilər. Azərbaycanda mədəniyyət sahəsinin bəzi əsas göstəricilərinə əsasən, bir çox göstəricilər qrupu üzrə (xüsusilə ziyarətçi və tamaşaçıların, eləcə də tamaşa və konsertlərin sayında) 2010-2020-ci illər intervalında tənəzzül müşahidə olunur [1]. Məlum olduğu kimi, bəzən tələb təklifi doğurur, məhz bu səbəbdən də mədəniyyət obyektlərinin ziyarətçilərinin sayının artması mədəniyyət qurumlarının inkişaf potensialını müəyyən edir.

Beynəlxalq müqayisələrin təhlili göstərir ki, mədəniyyət obyektlərinə davamiyyətin azalması bir çox MDB-yə üzv olan ölkələrdə də müşahidə olunur [1]. Bunun ən mühüm səbəblərdən biri bu obyektlərin (xüsusilə muzeylərin) çox vaxt əyləncə sənayesi ilə rəqabət aparmalı olmasıdır. İnteraktiv texnologiyalar bu vəziyyətdən çıxış yollarından birinə çevrilə bilər. Dünya muzey ictimaiyyəti ziyarətçiləri cəlb etmək və onların diqqətini artırmaq üçün daim yeni interaktiv texnologiyalardan istifadə etməyə çalışır. Bu gün muzeylər öz fəaliyyətlərində elm və texnologiyanın innovativ nailiyyətlərindən - holografik ekranlar və piramidalar, virtual bələdçi, toxunma köşkləri, interaktiv stendlər və kitablar, əlavə reallıqdan kifayət qədər geniş istifadə edirlər. Sadalanan yenilikləri yerli təcrübə də müşahidə edə bilərik. Belə ki, Respublikada muzey sahəsində 3D formatında hazırlanmış Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin "http://teatrmuzeyi.musigi-dunya.az" saytıdır. Bu sayt 10 ildir fəaliyyət göstərir, sayta daxil olan istifadəçilər muzeyin yaranma tarixi, ayrı-ayrı nadir eksponatları haqqında məlumat ala, onlayn ekskursiya vasitəsilə muzeyin ekspozisiyası ilə tanış ola bilərlər.

Mədəniyyət təşkilatlarının təşkilati-təsərrüfat və maliyyə-təsərrüfat fəaliyyətində rəqəmsal texnologiyalardan istifadə mədəniyyət müəssisələrinə gələn tamaşçıların qeydiyyatının aparmasına, elektron bilet satışının təşkilinə, uzaqdan müxtəlif sosioloji sorğuların və marketinq araşdırmalarının aparılmasına, eləcə də xidmətlərin keyfiyyətinin müstəqil şəkildə qiymətləndirilməsinə geniş imkanlar yaradır. Tədqiqatın gedişindən müəyyən olunur ki, mədəni, incəsənət və innovativ məhsul

və xidmətlərin yaradılması və bu sahədə inkişaf etmiş ölkələrin təcrübəsinin mənimsənilməsi üçün kreativ iqtisadiyyat fenomeninin də öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Çünki məhz kreativ iqtisadiyyat istehsal və xidmət sahalərinə, ticarətə, əyləncə sektoruna yeni həyat bəxş edir. İnsanların yaşamaq və rayatmaq istədikləri mühiti bütövlüklə dəyişir.

Beynəlxalq təcrübədə, kreativ məhsulların (incəsənət və sənətkarlıq nümunələri, kitablar, filmlər, rəsmlər, mahnılar, eskizlər, rəqəmsal animasiya və video oyunlar və s.) ixracı, kreativ sektorda məşğulluq səviyyəsi, kreativ əmtəə və xidmətlərin ticarətində ticari balans, kreativ sənaye sektorunda ölkələrin artım templəri, əqli mülkiyyətin satışından əldə olunan gəlir və kreativ sənaye bazarlarında ölkələrin payı kimi kateqoriyaların öyrənilməsi vasitəsilə ölkələrdə kreativ iqtisadiyyatın inkişaf reytinqi tərtib edilib. Cədvəl 1-də sadalanan kateqoriyaların əksəriyyəti üzrə yüksək göstəricilərə malik ölkələr göstərilib.

**Cədvəl 1. Kreativ iqtisadiyyaın göstəriciləri üzrə lider ölkələr**

| Ölkə | Kreativ əmtəə və xidmətlərin ixrac həcmi, milyard dollarla | Kreativ iqtisadiyyatın inkişaf tempi, faizlə | Əqli mülkiyyətin satışından əldə edilən gəlir, milyard dollarla | Ölkənin incəsənət bazarındakı payı, faizlə |
|---|---|---|---|---|
| **Çin** | 196,4 | 17,6 | 6,6 | 18 |
| **ABŞ** | 40,5 | 5,6 | 117,4 | 44 |
| **Fransa** | 34,5 | 6,6 | 16 | 7 |
| **İtaliya** | 26,7 | - | - | - |
| **İsveçrə** | 14,9 | 11,6 | 23,9 | 2 |
| **Böyük Britaniya** | 25,9 | 7,4 | 25,3 | 20 |
| **Almaniya** | 25,9 | | 36,2 | 2 |
| **Yaponiya** | - | - | 46,9 | 0 |

**Mənbə:** UNCTAD

Qeyd edək ki, cədvəldə göstərilərn dörd kateqoriyaya dair ən dolğun və dəqiq məlumatlar 2015-ci il üzrə mövcuddur. Belə ki, 2015-ci ildə Çin kreativ sənaye mallarının ən böyük ixracına malik olmuşdur. Qlobal təsviri sənət bazarı isə əslində yeddi ölkə arasında bölünüb: ABŞ, Böyük Britaniya, Çin, Fransa, İsveçrə, Almaniya və İspaniya - bütün digər ölkələr bazarın cəmi 7%-ni təşkil edir. Eyni zamanda burada bazarın 44%-nə sahib olan ABŞ sözsüz ki, üstünlük təşkil edir. İkinci yeri və bazarın 20%-ni Böyük Britaniya, üçüncü yeri isə 18%-lə Çin tutur. UNCTAD-ın gəldiyi nəticəyə görə, bir çox göstəricilərə görə birinci yerdə - Çin, ikinci – ABŞ, üçüncü yerdə isə Fransa qərarlaşdı. Daha sonrakı yerlər Almaniya, Yaponiya, İsveçrə, İtaliya, Hindistan və Cənubi Koreyaya məxsusdur [8]. 2020-ci ildə də ən böyük kreativ əmtəə ixracatçısı Çin (169 milyard dollar) oldu, ikinci yerdə ABŞ (32 milyard dollar), daha sonra isə İtaliya (27 milyard dollar) və Almaniyadır (26 milyard dollar) [9]. Ümumiyyətlə kreativ sənayenin ixracının artımında 82% inkişaf etmiş ölkələrin payına düşür (ixracın tərkibini musiqi və audiovizual məhsullar 90%, kitab nəşri – 80%, dizayn – 50% təşkil edir), 11% - inkişafda olan ölkələrə məxsusddur, 1% isə - keçid iqtisadiyyatlı ölkələrə aiddir. Lakin COVID-19 pandemiyası ilə əlaqədar olaraq kreativ əmtəələrin ixracı 2020-ci ildə 12,5%, bütün malların ixracı isə cəmi 7,2% azalıb [9].

Sual yarana bilər ki, Azərbaycanda İT sahəsində nəzərəçarpacaq inkişaf olasa da, ölkəmizin bu reytinqlərdə aşağı yerlərdə qərarlaşmasının səbəbi nədir? Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin araşdırmalarına əsasən, Azərbaycanda Yaradıcı və Mədəniyyət Sənayeləri (YMS) sahəsində mövcud bazar iştirakçılarının beynəlxalq platformalarda və ümumən ixrac platformalarında təmsilçilik və satış həcm etibarilə olduqca aşağı səviyyədədir. Bu səbəbdən, bütün YMS sahələrində fəaliyyət göstərən yerli biznes nümyandələrinin, sahibkarların, istehsalçılar və müəlliflərin elektron ticarət platformaları vasitəsi ilə ixrac imkanlarının genişləndirilməsi istiqamətində çalışmaları xüsusi əhəmiyyət kəsb edir. İnikişaf etmiş ölkələrdə kreativ əmtəə və xidmətlərin iqtisadiyyata verdiyi tövhə ÜDM-in 4-6 % təşkil edir. Nəzərə almaq lazımdır ki, kreativ sahədə yaradılan iş yerləri digər istehsalat sahələri ilə müqayisədə rəqəmsallaşmaya daha dözümlüdür, çünki insan intellekti ilə sıx bağlığı mövcuddur [10]. Cədvəl 1-

də təhlil edilən göstəricilərdən biri də məhz insan intellekti ilə əlaqədar olan əqli mülkiyyətin satışından əladə edilən gəlirlərdir, bu isə kreativ iqtisadiyyata cəlb olunan işçilərin payından asıllığı müəyyən edir. Beynəlxalq təcrübədə aparılan araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, böyük ÜDM-dəki payı olan, eləcə də böyük işçi payı olan ölkələr arasında korrelyasiya mövcuddur.

Azərbaycanda mədəniyyət və yaradıcılıq sahələri 2018-ci ildə ÜDM-in 1%-ni və ümumi məşğulluğun 3,8%-ni təmin edib. 2020-ci ildə isə bu sahələrin ÜDM-dəki payı 0,6% təşkil etmişdir [1]. Nəzərə almaq lazımdır ki, bu rəqəmlər mədəni fəaliyyətin ÜDM-ə verdiyi töhfənin azaldılmış qiymətləndirilməsidir, çünki kommersiya əməliyyatlarının əhəmiyyətli hissəsi qeyri-formal (kölgə) iqtisadiyyatında həyata keçirilir və ona görə də rəsmi statistikada öz əksini tapa bilmir. Deməli, əgər mədəniyyət və yaradıcılıq sənayesi üçün daha geniş özül diqqətə alınarsa, bu sənayenin ÜDM-də əlavə dəyəri daha yüksək olar. İnkişaf etməkdə olan ölkələr yaradıcı xidmətlərin kəmiyyətini qiymətləndirməkdə bir sıra çətinliklərlə üzləşirlər. Məlumat mövcud olsa belə, onların işlənməsi, formatlaşdırılması və dərc edilməsi qənaətbəxş deyil. Buna səbəb kimi aşağıdakılar qeyd olunur: İT sahəsinin kifayyət qədər inkişaf etməməsi, müvafiq statistik sistemlərin, maliyyə resurslarının, adekvat institusional quruluşların, kadr və mütəxəssislərin yoxluğu [9].

**Nəticə / Conclusion**

Deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, mədəniyyət, insan davranışı və iqtisadiyyat arasında sıx bağlılıq mövcuddur, bu isə iqtisadi inkişafa töhfə verən mədəniyyət göstəricilərinin müəyyən olunması zəruriyyətini yaradır. Mədəniyyət və iqtisadiyyatın daha da yaxınlaşması üçün mədəniyyət fəaliyyətinin səmərəliliyini təkcə sosial effekt, mənəvi-əxlaqi inkişaf üçün faydalılıq baxımından deyil, həm də səmərəliliyin iqtisadi kateqoriyalarında ifadə etmək lazımdır. Yalnız bu halda, regionun inkişafında mədəniyyətin bir resurs kimi təsirini müəyyən etmək mümkündür. Mədəniyyət sahəsində islahatlar baş verməkdə olan iqtisadi və siyasi dəyişikliklərin birbaşa nəticəsidir. Bir tərəfdən, mədəni dəyərlərin qorunmasını təmin etməyə, digər tərəfdən isə çağdaş iqtisadi şəraitdə mədəniyyətin səmərəli inkişafı üçün şərait yaradan iqtisadi mexanizmlər yaratmağa imkan verən qərarlar axtarışı vacibdir. Bu məsələnin nəzəri öyrənilməsi və sistemli təhlili cəmiyyətin konsolidasiyası və inkişafında sistemyaradıcı amil kimi mədəniyyət sahəsinin real əhəmiyyətini, onun ictimai-faydalı effekt dərəcəsini, tələbatın miqyasını və müasir iqtisadiyyat üçün keyfiyyətli insan resurslarının yaranmasındakı rolunu müəyyənləşdirməyə imkan yaradır. Mədəniyyət və incəsənət sahəsinin məhsullarının maddi istehsala real təsiri onların sosial və insan kapitalının formalaşması və inkişafında böyük rola malik olmasında özünü göstərir. Eyni zamanda, müasir dünyada milli iqtisadiyyatların dinamik inkişafının ən mühüm amillərindən biri kimi məhz insan kapitalının inkişafı hesab edilir. İnsan kapitalı isə xüsusilə mədəni mühitdə inkişaf edir. Məhz belə mühitin Şuşa şəhərində yaradılması və Azərbaycanın digər regionlarında tədbiq edilməsi üçün kreativ iqtisadiyyatın effektiv strategiyasının işlənməsi məqsədəmüvafiq olardı. Eyni zamanda, xarici təcrübənin təhlilindən belə nəticəyə gəlinir ki, mədəniyyət sahəsinin innovativ inkişafı və kreativ əmtəələrin ixrac həcminin artırılması, həmçinin yaradıcı xidmətlərin kəmiyyətinin qiymətləndirilməsi üçün məhz effektiv rəqəmsallaşdırmaya nail olmaq vacibdir. Belə ki, rəqəmsal texnologiyalarının mədəniyyət sahəsinə geniş tədbiqi, effektiv elektron platformaların mövcudluğu ölkədə mədəniyyət müəssisələrinin, eləcə də dövlətin mədəniyyət sahəsində fəaliyyətinin səmərəliliyini artırmağa imkan yaratmış olacaq.

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikası Dövlət statistika komitəsi / https://www.stat.gov.az/source/education/

2. "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının qanunu/ https://e-qanun.az/framework/47678.

3.Астафьева О.Н., Никонорова Е.В., Шлыкова О.В. Культура в цифровой цивилизации: новый этап осмысления стратегии будущего для устойчивого развития // Обсерватория культуры. 2018. Т. 15. № 5. – с. 516-531.

4. Губченкова А.С., Чеснова О. А., Еникеева Л. А. Проблемы цифровизации сферы культуры Российской Федерации / Петербургский экономический журнал, № 4, 2019, с.52-60.

5. Носков А. ИИ допишет неоконченную симфонию Бетховена // Хайтек. 2019, 19 декабря. hightech.plus/2019/12/19/ii-dopishet-neokonchennuyu-simfoniyu-bethovena

6. Bruce Alan Seaman. Cultural Economics: The State of the Art and Perspectives/Economía de la cultura: estado del arte y perspectiva. 2009, p.7-32.
7. Museums and Digital Culture: New Perspectives and Research /T. Giannini and J. Bowen (eds). Springer Nature Switzerland AG 2019. www.springer.com/gp/ book/9783319974569.
8. UNCTAD (2018d). Creative Economy Outlook: Trends in International Trade in Creative Industries.
9. UNCTAD (2022) / https://unctad.org/webflyer/creative-economy-outlook-2022
10. https://creative.az/az/post/10

**Digitalization of the sphere of culture: international experience and new opportunities for the city of Shusha**

**Summary**

The article is devoted to the digitalization of the sphere of culture and the analysis of the interaction between culture and the economy. The study examines the main directions of digitalization of the sphere of culture. It is also argued that digitalization is an effective tool for the innovative development of the cultural sector and increasing the volume of exports of creative goods, as well as quantifying creative services. Taking into account the close connection of the sphere of culture with human intelligence, it is concluded that jobs created in this area are more resistant to digitization than in other areas of production. The prospects for applying the learned experience in the city of Shusha, which is the cultural capital of Azerbaijan, are considered.

**Key words**: culture, economy, digitalization, artificial intelligence, creative goods.

**Цифровизация сферы культуры: международный опыт и новые возможности для города Шуша**

**Резюме**

Статья посвящена цифровизации сферы культуры и анализу взаимодействия культуры и экономики. В ходе исследования рассматриваются основные направления цифровизации сферы культура. Также утверждается, что цифровизация является эффективным инструментом инновационного развития сферы культуры и увеличения объема экспорта креативных товаров, а также количественной оценки креативных услуг. Принимая во внимание тесную связь сферы культуры с человеческим интеллектом, делается вывод о том, что рабочие места, созданные в данной сфере, более устойчивы к оцифровке, чем в других сферах производства. Рассмотрены перспективы применения изученного опыта в городе Шуша - культурной столице Азербайджана.

**Ключевые слова:** культура, экономика, цифровизация, искусственный интеллект, креативный товар.

---

**Bədəlov Etibar Sənan oğlu**
c.ü.f.d., dosent., akad. H.Ə. Əliyev ad. Coğrafiya İnstitutu
badalov.1958@mail.ru

**Şuşa şəhərinin sosial-iqtisadi inkişafinin tarixi və yeni mərhələsinin xüsusiyyətləri**

Məqalədə Azərbaycanın Şuşa şəhərinin sosial-iqtisadi inkişafının formalaşması və inkişaf xüsusiyyətləri təhlil edilir. Şəhərin dağlıq ərazidə yerləşməsi, zəngin iqlim-landşaft potensialı ilə (meşəli dağ yamacları, yayın sərin keçməsi) seçildiyi üçün, bu yerlərin istirahət və müalicə üçün kurort şəhəri kimi formalaşma əhəmiyyətinin təhlili aparılır. Bu şəhərin inkişafına təsir edən əlverişli təbii amillər araşdırılır. Şəhərin davamlı sosial-iqtisadi inkişafı və perspektiv dövrdə problemlərin həlli yolları və prioritet istiqamətləri tövsiyə edilir.

**Açar sözlər:** Şuşa şəhəri, tarixi-coğrafi inkişaf, sosial-iqtisadi inkişaf, sənaye

Şuşa şəhəri millət sevdasını ürəyində daşıyan Azərbaycan əsgərinin qəhramanlıq və zəfər, xalqımızın qardaşlıq və vəhdət məkanıdır. Azərbaycan xalqı hərb zəfəri ilə bütün dünyaya göstərdi ki, Qarabağ Azərbaycandır və bu ərazi ərənlərin bizə irs qoyduğu vətən torpağıdır.

Şuşa şəhərinin siyasi-coğrafi mövqeyinin formalaşması Qarabağ xanlığının yaranması (1747) və inkişafı ilə bağlı olmuş, 1750-ci illərin əvvələri tikilməyə başlanan şəhər 1757-ci ildən xanlığın paytaxtı olur. Şəhər Şuşa kəndinin yay otlağı olan ərazidə salındığı üçün Şuşa adlanmışdır. Şəhər ilk əvvəl Pənah Əli bəy şərəfinə Pənahabad, sonra Şuşa adlanır. Şuşa şəhəri Qarabağ xanlığının paytaxtı olmaqla bərabər, onun iqtisadi həyatında da aparıcı yer tutur və böyük sənaye və ticarət mərkəzinə çevrilmişdi. Bu şəhərin baş küçəsində böyük ticarət mərkəzləri Rast bazar, Şeytan bazar, Aşağı bazar, Bazar başı meydanlara yaxın yerdə yerləşirdi [8].

Azərbaycan xanlıqlarının paytaxt şəhərləri arasında Şuşa təbii-coğrafi gözəlliyi ilə, memarlığ abidələri zənginliyi baxımından sənətkarlıq, ticarət və mədəniyyət mərkəzi və şəhərsalma mədəniyyətinin geniş inkişaf etməsi ilə Azərbaycanın “tacı” sayılırdı. Şuşa qalasının inkişaf mərhələləri Qarabağ xanlığının siyasi, iqtisadi və mədəni inkişafı ilə sıx bağlı idi. Xanlıq dövründə şəhərin ərazisi qısa müddət ərzində xeyli böyüyüb, təbii gözəlliyi, hündür binaları və möhtəşəm qala divarları ilə əzəmətli görünüşə sahib olmuşdu. Bu şəhərin iqtisadi inkişafında Azərbaycanın hər yerindən dəvət edilən yüzlərlə sənətkarın əməyi böyük rol oynamışdır [4]. Şəhərdə toxunan xalçalar və istehsal olunan ipək parçalar nəinki Yaxın və Orta Şərqdə, habelə dünya bazarlarında böyük şöhrət qazanmışdı. Şuşa xalçaçılıq məhsullarına görə XX əsrin əvvəllərinə kimi Azərbaycanda aparıcı yer tuturdu. Şuşada ipək və pambıq toxuculuğu da inkişaf etmişdi. 1832-ci ildə Şuşada 132 dəzgahı olan 42 ipək və 28 pambıq parça toxumaq üçün toxuculuq müəssisəsi vardı [6]. Bu müəssisələrdə ipəkdən şallar, çadralar, dəsmal, parçalar, şalvar və köynək tikmək üçün qırmızı parçalar toxunurdu. Şuşa mənəvi mədəniyyətin Qarabağ xalçası, Qarabağın milli geyimlərinin, əl-tikmə işlərinin istehsal edildiyi mərkəz kimi dünyada məşhurlaşmışdı. Çoxsaylı və mahir şəhər sənətkarları arasında misgər, boyaqçı, silahsaz, bənna, dəmirçi, dabbaq, dulusçu və başqa sənətkarlar da önəmli rol oynayırdılar. Şuşa sənətkarları arasında dəmirçilər, misgərlər, silahdüzəldənlər Şeytan bazar, şirniyatçılar Rast bazar, zərgərlər İrəvanlı məhəlləsində məskunlaşırdılar [8]. Şuşanın inkişafında baş verən köklü dəyişiliklər kapitalizm münasibətlərinin inkişafı ilə bağlı olaraq baş vermişdir. Azərbaycanın XIX əsrin sonu və XX əsrin əvvəli Bakı və Gəncədən sonra ən böyük şəhərlərindən biri Şuşa idi.

Sovet hakimiyyəti dövrü isə bolşeviklərin törətdiyi cinayətlər üzündən çox sayda azərbaycanlı əhali (xüsusilə bəy, tacir, dindar və d. ailələr) İrana köç etmişdi. Bu illərdə Şuşa əhalisi dəfələrlə azalmış, şəhərin əhalisi isə 1916-cı ildə 44 min nəfərdən 1923-cü ildə 6976 n. və 1926-cı ildə 5107 min nəfərədək (9 dəfəyə yaxın) azalmışdı. Şuşanın əhalisi sovet dönəmində 1926-1989-cu illər ərzində Azərbaycanın tarixi şəhərləri arasında çox aşağı əhali artımının (5,1-14,6 min n.) olması ilə fərqlənmişdir. Sovet dönəmində Şuşanın sosial-iqtisadi inkişafı biləərəkdən maneələrlə üzləşmiş, Xankəndində 10-larla iri müəssisələr açıldığı halda burada bir neçə müəssisə fəaliyyət göstərirdi. Şəhərdə musiqi alətləri üzrə, çörəkbişirmə, ipək parça istehsalı, cihazqayırma və d. sahələr üzrə kiçik müəssisələr fəaliyyət göstərirdi [5]. Şəhərdə tikinti, sosial, nəqliyyat və d. infrastruktur sahələr də zəif inkişaf etmişdi.

1992-ci ilin 8 may ayında Şuşa işğal olunmuş, bu müddətdə şəhərdə tarixi abidələrini xeyli hissəsi dağıdılmış, milli arxitekturamızı silməyə və yenidən qurmağa cəhd etmişlər. Nadir tarix-memarlıq tikililəri, qədim abidələr, inanc yerləri, yaşayış binaları, hətta məzarlıqlar dağıdılıb, zəngin muzey və kitabxanalar talan edilmişdir. 2020-ci ildə 44 günlük II Vətən mühüribəsində qazanılan zəfər nəticəsində torpaqlarımız və Şuşa şəhəri düşməndən azad olunmuşdur.

Azərbaycanın Kiçik Qafqaz dağlıq ərazisinində yerləşən Şuşa şəhəri təbii şəraitin əlverişli olması, xüsusilə gözəl təbiəti, dağ yamacları, meşələri, saf havası və yaxınlıqda olan bulaq suları təkrarlanmayan gözəlliyinə malikdir. Hələ keçən əsrin əvvəllərində böyük çoğrafiyaçı alim İ.B. Fiqurovski Şuşa şəhərini Azərbaycanın Davosu adlandırmışdı. O yazırdı: “Şuşa Davosdan (İsveçrə) üstün iqlim göstəricilərinə malikdir” [3].

Şuşa şəhəri zəngin iqlim-landşaft potensialı ilə (meşəli dağ yamacları, yayın sərin keçməsi) seçildiyi üçün, bu yerlərin istirahət və müalicə üçün kurort şəhəri kimi əhəmiyyəti böyükdür və gələcəkdə beynəlxalq kurort yerlərinə çevrilməsi üçün geniş imkanlar yaradır. Qış aylarında bu yerlərdə günəşli saatların çoxluğu və qar örtüyünün olması qış mövsümündə də istirahət üçün geniş imkanlar yaradır. Azərbaycanın düzənlikdə yerləşən Mərdəkan kurortu ilə dağda yerləşən Şuşa ilə

arasında orta aylıq temperatur fərqi yay aylarında $6^0$ C-yə yaxın olması bir daha subut edir ki, bu şəhərlər yay istirahəti üçün böyük əhəmiyyətə malikdirlər [7]. Şuşa şəhərində məskunlaşmasının davamlı inkişafı üçün təbiətdən səmərəli istifadə yolları, ətraf mühitin ekoloji tarazlığının qorunması, aşağı mərtəbəli bədii memarlığ tikintilərinə üstünlük verilməsi məqsədəuyğun sayılardı [2]. Bu şəhərin inkişafına təsir edən əlverişli təbii amillər şəhərin inkişaf potensialını artırır.

Şəhərin davamlı sosial-iqtisadi inkişafı və perspektiv dövrdə problemlərin həlli yolları və prioritet istiqamətlərin müəyyən edilməsi üçün aşağıdakı təkliflərin dörd istiqamətdə olması məqsədəuyğundur.

1-ci istiqamət təbii ehtiyatlardan istifadə, yəni şəhər yaxınlığında olan çaylar üzərində su anbarları (Xəlfə Əli və Zarıslı çaylarında) və həmdə SES-lər tikilə bilər, bu şəhər su və enerji ilə təminatını həll etmiş olardı. Gələcəkdə su idman növlərini inkişaf edirmək mümkündür. Şəhərin şərq və cənub hissələrində qayalıq ərazilərdə Günəş ES tikilə bilər. Turşsu, Şırlan və İsa mineral bulaqlarının müalicəvi əhəmiyyəti olduğu üçün orada istirahət və müalicə mərkəzləri açıla bilər. Şuşa şəhərinin iqlimi isə yuxarı qan təzyiqi (hipertoniya) olan xəstələr üçün müalicə əhəmiyyətlidir. Sovet dönəmində bu sahə üzrə müalicə-istirahət yerləri fəaliyyət göstərirdi.

2-ci istiqamət hazırda bu şəhər Azərbaycanın mədəniyyət paytaxtı elan olunmuş və gələcəkdə Türk Dünyasının mədəniyyət paytaxtı olacaqdır. Şəhərdə sənətkarlıq sahələri üzrə ustaların dəvət olunması və emalatxanaların açılması, musiqi alətləri müəssisəsinin, həmçinin yerli xalça məhsulları, yun toxuma məhsulları, ipək paltarların istehsalının, zərgərlik məmulatlarının bərpası şəhərdə ticarət mərkəzlərinin yaranmasını sürətləndirər və keçmişimizi özümüzə qaytarardı. Şəhərin qoruq şəhər elan edilməsi və beynəlxalq turizm mərkəzi kimi formalaşması günün tələbidir.

3-cü istiqamət şəhəryaratma və şəhərəxidmət sahələrinin inkişafı ilə bağlıdır. Şəhəryaratma sənaye üzrə maşınqayırmanın elmtutumlu sahələri, kimya sənayesinin əzcazçılıq, yeyinti sənayesinin ət-süd məhsulları, şirniyyat, çörəkbişirmə sahələrinin, həmçinin toxuculuq və d. sahələrin inkişafı Şuşa şəhərinin iqtisadi potensialının güclənməsinə səbəb olardı. Şəhər yenidən qurulduğu üçün şəhərəxidmət sahələrinin yeni infrastrukturu yarana bilər.

4-cü istiqamət pilot layihə kimi Şuşa şəhərinin "ağıllı şəhər" konsepsiyası çərçivəsində qurulması turizm potensialına əlavə üstünlük verəcək. İnnovasiya layihələrinin həyata keçirilməsi şəhərin inkişafında yeni perspektivlər açacaqdır.

Şuşa şəhərinin gələcək sosial-iqtisadi inkişafı Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafında "beşik" rolu oynayacaqdır.

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikasının Ekoloji Atlası. Bakı - 2010, Xəritə fabriki.176 c.
2. Bədəlov E.S. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarinin sosial-iqtisadi inkişafinda şəhərlərin turizm potensiali. Turizm və rekreasiya xxı əsrdə: problemlər və perspektivlər" mövzusunda V Beynəlxalq elmi-praktik konfransın materiallari s.87-90.
3. Əyyubov Ə.C. Azərbaycan SSR-in kurort və istirahət yerlərinin iqlimi. Bakı-1987, Azərnəşr. 93s.
4. Əliyev F.M. Şimali Azərbaycan şəhərləri. Bakı., 1960.
5. Məmmədov N.R. Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin tarixi sovet tarixşünaslığında. Bakı-2015, Avropa.2015, 334 s.
6. Hüseynov Y.R. Şuşa şəhərinin tarixi. Bakı: - "Şuşa" nəşriyyatı, 2013, 156 s.
7. Алиев И.И. Градостроительная организация курортно-рекреационной системы в Азербайджанской ССР. Баку.: Изд-во Элм, 1989.-136 с.
8. Гаджар Ч. Старая Шуша. Баку, Шарг-Гарб, 2007, 344 с.



**Badalov E.S.**


**Characteristics of the historical and contemporary period of the socioeconomic development of the Shusha city**


The article researches the formation of the socioeconomic development and development features of the Shusha city of Azerbaijan. Since the location of the city in a mountainous area is distinguished by its wealthy climate-landscape potential (forested mountain slopes, cool summer), the importance of forming these places as resort cities for recreation and treatment were analysed. Favourable and unfavourable natural factors affecting the development of this city are investigated.

The sustainable socio-economic development of the city and expedients of discussing problems and priority directions in the prospective period were determined.

---

**Bahman Huseynli, Nigar Huseynli**
Lecturer, Department of Business Administration, Azerbaijan State University of Economics (UNEC), bahman.huseynli@unec.edu.az
Lecturer, Department of Business Administration, Azerbaijan State University of Economics (UNEC), n.huseynli@unec.edu.az

## Strategic Importance of Branding of Shusha City for Azerbaijan

**Abstract**

Marketing not only focuses on products and services but also covers cities. Creating a city's brand image by using the possibilities of marketing and branding is very important economically and socially. From this point of view, the aim of this study is to present research that will support the determination of the roadmap for the branding of the city of Shusha. In particular, the designation of Shusha as the cultural capital of Azerbaijan once again emphasizes the importance of the city for Azerbaijan. After the work on the branding of Shusha, to which the Azerbaijani people have a spiritual bond, Shusha can be turned into one of the world tourism destinations and contribute to the country's economy. It should be noted that identifying the unique brand elements of the city of Shusha is one of the most important steps in its branding strategy.

**Keywords:** branding, city branding, Shusha, Azerbaijan

### Introduction

The point of view of consumers on brand value may be determined by applying contemporary marketing techniques, and the viewpoint so formed adds value to the city or nation in question (Avcılar & Kara, 2015). Getting a brand entail standing out from the competition, being chosen above the competition in a decision-making circumstance by the target audience and achieving a greater perceived value. Similar to that, branding a city means elevating all of its assets in terms of cultural, commercial, and political perceptions within the target audience (Ailawadi & Keller, 2004).

Marketing encompasses not just goods and services but also urban areas. Although city marketing is a novel idea that has gained appeal in many developing nations, it has long been employed in several industrialized countries. In this regard, it is evident that city marketing offers significant advantages for disclosing the potentials of the city and enabling both the city and its residents to efficiently use these potentials (Liouris & Deffner, 2005). However, firms must brand their goods in order to promote them (Uzun & Erdil, 2003). City branding, the most recent place branding fad in the literature (Kavaratzis, 2005), is a very significant and ambitious endeavour in the modern world. To reach the target population who are not yet aware of the potential prospects of the city, marketing and branding initiatives are required.

Azerbaijani Turks, who migrated to other regions since 1992, had to live far from the lands where they were born and raised. The Second Karabakh War, which took place after a long silence, was the most intense and longest war since the ceasefire agreement signed in 1994. The counterattack, which started on September 27 in response to the Armenian provocation in 2020, ended in victory in 44 days. After the liberation of Shusha on November 8, this war resulted in the recapture of the occupied territories of Azerbaijan with the contract signed on November 10, 2020. The designation of Shusha as the cultural capital of the country after its liberation from occupation in 2020 once again underlines the importance of Shusha for Azerbaijan.

### 1. Literature Review

Since the idea of a brand makes it easier to sell products and services, which is one of the key marketing considerations, it has begun to play a significant role in local marketing. Within this context, the idea of the brand city has begun to take shape and lately grown in popularity (Yayla,

Kaya, & Üstün, 2021). Brands are perhaps the most significant long-term asset of businesses. Companies' brand worth may sometimes exceed the total value of all of their assets. As a result, branding is crucial to the development of businesses' economies. Companies may greatly benefit from branding (Kotler & Armstrong, 2011).

Cities nowadays are in rivalry with other enclaves and urban centres throughout the globe. Cities, particularly big cities, have taken on a central role in the interaction of geographical areas. Top city administrators are starting to understand that there is a clear link between the city's good and strong reputation and image and the fundamental factors that make the city appealing, such as decisions to visit, live in, invest in, and work in the city (Avcılar & Kara, 2015).

For effective city marketing, a city has to have an identity (identity, image, and brand). The phrase "the identity of the city" relates to what the city really is; its "brand" refers to how it wants to be known, while its "image" refers to how others perceive it. City marketing explains how these three ideas are related to one another (Hospers, 2004).

The promotion of cultural and tourism qualities, the development of dynamic marketing strategies, the growth of local and international economic linkages, the development of the culture industry, and cultural management may all be accomplished in the 21st century in tandem with a city's branding efforts. In addition to all of these, building a brand for a city also entails developing psychological and emotional ties with its citizens (Kavaratzis, 2004). According to Kavaratsiz and Ashwort (2005), more European towns are using product branding ideas and strategies. In this study, the researchers concentrated on marketing theory and its application to propose how city branding might be utilized as a valuable image-creation approach that is appropriate for modern cities.

The strengths, weaknesses, dangers, and possibilities of the city have been studied as a consequence of a Lee and Jain (2009) research on the branding of Dubai in the United Arab Emirates. Four factors were identified by DeCarlo et al. (2009) while studying the branding of Milan, Italy: cultural offers, brand symbols, brand personality, and economics. The best mental association state was identified utilizing the brand idea map approach in the research done by Zenker and Braun (2010) on the branding of the German city of Hamburg.

Toksarı, İlyas and Dağcı (2014) did research on the marketing and branding of the Turkish city of Konya. The research by Cop and Akpınar (2014) sought to understand how university students saw their place in the branding process of their respective cities. The research looked at the demographics of university students, the city's present state, their expectations of the government, their familiarity with the city, and their support for the city's branding.

Herget, Petrù, and Abrhám (2015) looked at the financial impacts of city branding on the travel industry. Due to increased global competition, cities have started to use more marketing and branding strategies to influence tourism, draw investors, encourage qualified individuals to live in the city, and accomplish other goals (Avcılar & Kara, 2015). These strategies also help to develop a strong city brand, promote urban change and renewal, and improve the quality of life in the city. In the research done by Özsöz (2018), city marketing and city branding studies were assessed separately, and the elements influencing each study's findings were identified.

## 2. Methodology

The study was prepared in accordance with the methodology of qualitative research methods. It is exploratory research. Systematic approach, synthesis and induction methods were used in the study. The aim of this study is to present research that will support the determination of the roadmap for the branding of the city of Shusha.

## 3. Analysis and Results

When compared to branding goods and services, branding a city is a considerably more challenging and intricate process. Numerous real and intangible qualities of the city, including its natural resources, its environment, its potential as a tourist destination, its infrastructure, its institutions and organizations, and the traits of its residents, all contribute to its brand. It has been observed that cities with favourable factors (climate, location, and natural resources, for example) experience economic growth and effectively address urbanization and infrastructural issues (Fan, 2006).

City branding and marketing tactics are significantly more intricate than those for selling goods and services. The target market and decision-makers' uncertainty are to blame for this (Altnbaş,

2007). Karabagh has a rich tourism potential with its magnificent landscapes, eye-catching mountains, lakes, plains and valleys and its ancient historical and cultural heritage.

The skill and propensity for painting among Shusha residents depended not only on their passion of art but also on their way of life. Many notable Azerbaijani individuals came from Shusha, and this is not unusual. Famous vocalists like Bulbul, Rashid Behbudov, Jabbar Garyaqdioglu, and many more artists were born here. Shusha was also the hometown of Uzeyir Hajibayov, a famous composer, and the father of Azerbaijani professional music. Mir Moohsun Navvab, a well-known poet, painter, music theorist, and literary critic, lived and worked in Shusha (Aliyeva, 2017).

As it is known, the surroundings of the city of Shusha are covered with dense forests and mountain meadows, but in the centre of Shusha, fruit and flower trees grew only at the end of August.

Archaeological (excavation) and historical materials prove that Azerbaijani horses have a very ancient history. From the earliest times, a large number of breeding stallions and mares were transported from Azerbaijan to Russia, Iran, Arab countries, and Europe (agro.gov.az).

In 1956, the leader of the USSR, Nikita Khrushchev, presented a Karabakh horse named "Zaman" to Queen Elizabeth II. In recent years, the President of the Republic of Azerbaijan, Ilham Aliyev, presented the Karabakh horse “Shohrat” (“Şöhrət”) to Queen Elizabeth II of the United Kingdom of Great Britain and Northern Ireland. The Karabakh horse presented to Queen Elizabeth II at the Windsor Palace and other image-forming events like this can also contribute to the branding of Shusha (www.azerbaijan-news.az). Shusha is the cradle of mugham, the carpet weaving and breeding centre of the world-famous Karabakh horses - all of which are on the UNESCO Intangible Cultural Heritage List.

As a result of the occupation of Shusha by the Armenian armed forces in 1992, it should be noted that nearly 600 historical and architectural works were destroyed and looted. After liberation from occupation in 2020, the President of Azerbaijan's designation of Shusha as the cultural capital of the country offers great opportunities for the development of cultural and creative industries in this city (Azizova, 2021 June

The history of Azerbaijani music has gained fame especially with the efforts of Mugam artists. In the 19th century, the names of Sattarhan, Haji Husu, Meshedi Isi, Ali Asker Shirin, Tarzen Mirza Sadıkjan, in the 20th century Jabbar Karyagdioghlu, Meshedi Celil Amirov, Seyid Shushinsky (from Shusha) and many other Mugham musicians brought fame to the music of Azerbaijan (Aliyeva, 2017). Shusha and Baku, two cities that served as centres of mugham activity, were home to musicians whose innovations in the structure of the tar, instrumental performance technique, and xanəndə art revolutionized mugham.

There were 95 poets, 22 musicologists, 58 singers, 12 copyists, 19 calligraphers, 16 sculptors, 8 architects, 5 astronomers, 16 doctors, up to 42 teachers, etc. in Shusha in the 19th century (Ahmadov, 2020). Khurshudbanu Natavan was born in Shusha (Karabakh) in the khan’s family in 1832. Her father, Mehdigulu khan Javanshir, was the last ruler of Karabakh. Her mother was Bedirjahan Beyim, Ganja’s ruler Javad khan’s great granddaughter.

There were 17 neighborhoods in the city, each of which had a mosque, a spring and a bathhouse. Panah Ali Khan thought to build a fortified castle to secure himself and the newly-established khanate from external threats, especially from neighboring rulers; such as the khan of Ganja, the khan of Shaki, and the meliks of Karabakh. Although two fortresses were constructed in 1748 and 1752, because these were not sufficient and strong, he ordered to build a new one in Shusha in 1757 and this fortress was called Panahabad, lending its name to the coins that were minted there: Panahabadi (Karakoç, 2011).

Karabakh carpets were manufactured in two centers–mountainous and lowland. In the mountainous manufacturing center, the town of Shusha and the villages of Dashbulag, Dovshanly, Girov, Malybeyli, Chanakhcha, Tug, Taglar, Gadrut, Muradkhanly, Gasymushagy, Gubadly, Gogaz, Mishseid, Bagyrbeyli, Khanlyg, and Tutmas dominated in the 19th century. A special feature of the mountainous center was that here commercial manufacture in the villages was less developed than in Shusha. Here such carpets were woven as “Cheliabi,” “Aran,” “Goja,” “Achma-Iumma,” “Shabalyd-buta,” “Bakhmanly,” and “Mugan” (Tagiyeva, 2009).

## 4. Discussion and Conclusion

The senior management of the city should identify a number of brand attributes of the city and foster favourable views of the city in the minds of the target audience in order to generate a strong city brand (Avcılar & Kara, 2015).

After winning the armed conflict in the autumn of 2020, Azerbaijan started to reconstruct the Karabakh region's infrastructure and develop these areas. Demining and other explosive device removal are now under way. Once again designated as the centre of Azerbaijani culture, Shusha. Numerous infrastructure and rehabilitation projects have been planned since being released from the occupation. One of Azerbaijan's smart cities, Shusha, is planned. In the Azerbaijani city of Shusha, trash management based on smart technology is proposed. The business "Temiz Shahar" (Clean City) is building a new regular landfill site for the collection, transportation, disposal, and disposal of all solid waste in the liberated city of Shusha, Azerbaijan, in compliance with global environmental standards and technical requirements. As a result, efforts have been undertaken to develop a cutting-edge technical and environmental management system for solid waste. There were 200 special garbage disposal containers brought in and deposited in specified waste places. Due to this, it is essential to use the most recent technology advancements to improve the city's environmental quality and waste management system (Aliyev, Huseynova & Mazanova, 2022).

Shusha, on the other hand, is one of the regions of the nation rich in old and distinctive architectural structures that commemorate the antiquity of Azerbaijan and its rich culture, according to an examination of the materials found in the literature. The city contained 549 historic structures before the conquest, 1203 meters of native stone-paved streets, 9 neighborhoods, 17 neighborhood springs, 17 mosques, 6 caravansaries, 3 graves, 2 madrasahs, 2 castles, and fortress walls. In addition, Shusha contains 25 schools, 31 libraries, 20 hospitals, 17 clubs, 8 cultural houses, 4 technical schools, 2 institute branches, 7 kindergartens, 4 movie theaters, 5 parks for culture and leisure, 2 sanatoriums and tourist bases, 2 hotels, and Azerbaijan Carpet. Operated in the Caucasus were a branch of the State Museum, the Shusha State Drama Theatre, Shusha Television, the State Art Gallery, the Children's Health School, and the lone manufacturer of Oriental musical instruments (Mammadov, 2022).

Along with all of this, the valiant Azerbaijani Army's liberation of Shusha from a 28-year Armenian domination and the infrastructure and repair projects that were initiated there following this Victory strengthened the city's standing even more. All of this entails laying the infrastructural groundwork for Shusha to become a recognized city. In 1977, Shusha, known as the "cradle of Azerbaijani music", was designated as a historical and architectural reserve. In 2001, the historical centre of Shusha started the process of being included to the UNESCO World Cultural Heritage List.

There are historical, literary, and socio-political studies of Shusha in the scientific literature, however there aren't any research that focus on marketing and branding. One of the findings of the study is that Shusha may be marketed as a city of art, culture, architecture, and bravery. Horses from Karabakh, flowers from Kharibulbul (Ophrys Caucasica), mugham, castles, and carpets should all be used as inspiration for brand aspects, which should then be properly positioned using the appropriate communication strategy. It is advised to take out branding initiatives for the city of Shusha to draw in cultural visitors, particularly in the areas liberated from occupation.

## References:

Ahmadov, E. (2020). Şuşa – 28 illik həsrətə son. Available at https://xalqqazeti.com/mobile/az/news/63428 Acces on 12 August 2022.

Ailawadi, K. L., & Keller, K. L. (2004). Understanding retail branding: conceptual insights and research priorities. Journal of Retailing, 80(4), 331-342.

Aliyev, M., Huseynova, A., & Mazanova, O. (2022). The leading role of digital technologies in the development of the Smart City concept in Azerbaijan. Preprints 2022, 2022070050.

Aliyeva, K. (2017, April). "Rose" Carpets, Made in Shusha, Their Connection with Oriental and Western Art. In VII. International Turkic Art, History and Folklore Congress/Art Activities. (pp. 9-16). April 2017. Baku, Azerbaijan.

Altınbaş, H. (2007). Pazarlama iletişimi ve şehir pazarlaması "şehirlerin markalaşması". Selçuk İletişim, 4(4), 156-162.

Avcılar, M. Y., & Kara, E. (2015). Şehir Markası Kavramı ve Marka Şehir Yaratma Stratejilerine Yönelik Literatür İncelemesi. Sosyal ve Beşeri Bilimler Araştırmaları Dergisi, 16(34), 76-94.

Azizova, G. (2021 June). Evaluatıon the Impact of The Development of Culture and Creatıve Industrıes on the Tourısm Sector. In 70th International Scientific Conference on Economic and Social Development. (pp. 696-704). 25-26 June 2021. Baku, Azerbaijan.

Cop, R., & Akpınar, İ. (2014). Öğrencilerin Şehirlerin Markalaşmasına Yönelik Algıları. Marmara Üniversitesi İktisadi ve İdari Bilimler Dergisi, 36(1), 69-88.

De Carlo, M., Canali, S., Pritchard, A., & Morgan, N. (2009). Moving Milan towards Expo 2015: designing culture into a city brand. Journal of Place Management and Development, 2(1), 8-22.

Fan, Y. (2006). Branding the nation: What is being branded?. Journal of Vacation Marketing, 12(1), 5-14.

Herget, J., Petrù, Z., & Abrhám, J. (2015). City branding and its economic impacts on tourism. Economics & Sociology, 8 (1), 119.

Hospers, G. J. (2004). Place marketing in Europe. Intereconomics, 39(5), 271-279.

http://agro.gov.az (2020). Qarabağ atı. Available at https://www.agro.gov.az/az/heyvandarliq/atciliq/qarabag-ati Acces on 15 September 2022.

http://azerbaijan-news.az (2022). Available at https://www.azerbaijan-news.az/index.php/az/posts/detail/britaniya-kralicasina-azerbaycan-prezidentinin-hediyye-etdiyi-sohret-adli-qarabag-ati-teqdim-olunub-1652708234 Acces on 15 September 2022.

Karakoç, E. (2011). A brief overview on Karabakh history from past to today. Journal of Human Sciences, 8(2), 1002-1026.

Kavaratzis, M. (2004). From city marketing to city branding: Towards a theoretical framework for developing city brands. Place Branding, 1(1), 58-73.

Kavaratzis, M. (2005). Place branding: A review of trends and conceptual models. The marketing review, 5(4), 329-342.

Kavaratzis, M., & Ashworth, G. J. (2005). City branding: an effective assertion of identity or a transitory marketing trick?. Tijdschrift voor Economische en Sociale Geografie, 96(5), 506-514.

Kotler, P., & Armstrong, G. (2010). Principles of marketing. Pearson education.

Lee, H., & Jain, D. (2009). Dubai's brand assessment success and failure in brand management–Part 1. Place Branding and Public Diplomacy, 5(3), 234-246.

Liouris, C., & Deffner, A. (2005). City marketing-a significant planning tool for urban development in a globalised economy. In 45th Congress of the European Regional Science Association: “Land Use and Water Management in a Sustainable Network Society”, 23-27 August 2005, Amsterdam, The Netherlands

Mammadov, J. (2022). Şuşa Azərbaycanın tarix və memarlıq abidəsidir. Available at https://science.gov.az/az/news/open/20088 Acces on 14 September 2022.

Özsöz, F. M. (2018). Şehir Pazarlamasinda Bir Marka Şehir Olarak Eskişehir'in İncelenmesi. Uluslararası Batı Karadeniz Sosyal ve Beşeri Bilimler Dergisi, 2(1), 12-34.

Tagiyeva, R. (2009). The art of Azerbaijani carpet weaving in the context of the intercivilizational dialog. The Caucasus & Globalization, 3(2-3), 133-148.

Toksarı, M., İlyas, İ., & Dağcı, A. (2014). Bir şehrin markalaşması ve pazarlanması süreci: Konya ilinde bir uygulama. Niğde Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 7(1), 328-343.

Uzun, Y., & Erdil S. T. (2003). Marka Yayma Stratejilerinde Ürün Benzerliğinin Tüketici Değerlendirmesindeki Etkisi ve Seçilen Markalarda Bir Uygulama. In 8. Ulusal Pazarlama Kongresi Bildirileri. (pp. 172-174). Erciyes Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi, 16-19 Ekim 2003-Kayseri.

Yayla, E.N., Kaya, B. & Üstün, Ö. (2021). Şehir Markasının Yönetimi. Anadolu Akademi Sosyal Bilimler Dergisi, 3(3), 549-566.

Zenker, S., & Braun, E. (2010). Branding a city: A conceptual approach for place branding and place brand management. In 39th EMAC Annual Conference 2010. Frederiksberg, Denmark.

**Əmirov İmran Balamirzə o.**
**Hacıyeva Zülfiyyə Elman q.**
Sumqayıt Dövlət Universiteti
haciyeva-zulfiyye@inbox.ru

## "Qafqazın konservatoriyası - Şuşa"nın yetirmələri

**Açar sözlər:** Şuşa şəhəri, Qafqazın konservatoriyası, musiqiçilər, mədəniyyət, sərmayə, turizm, investor

Dünyada elə şəhərlər mövcuddur ki, onlar müəyyən əlamətlərinə və özünəməxsusluqlarına görə insanların yaddaşında dərin iz qoyurlar. Belə şəhərlərdən biri "Qafqazın konservatoriyası", "Qarabağın incisi", "Mədəniyyətimizin beşiyi" kimi tanınan alınmaz qala olan – Şuşa şəhəridir. Bu şəhər musiqiçilər, şairlər, alimlər, həkimlər, ziyalılar və bir sıra dahi şəxsiyyətləri ölkəmizə və dünyaya bəxş etmişdir. Şuşanı məşhurlaşdıran və onu bütün dünyaya tanıdan əsas yetirmələri ilə tanış olmaq olduqca əhəmiyyətlidir.

Xalq arasında belə deyim məşhurdur: Şuşada doğulan körpələr "Segah üstündə ağlar", "Şahnaz" muğamında gülərlər. Şuşada doğulan, burada yaşayan insanların xəmiri eləbil musiqi ilə yoğrulub, sanki onlar doğulan gündən musiqinin incəliyinə dərindən bələddirlər. Buna misal olaraq, xanəndələrdən Hacı Hüsü, Bülbülcan (Əbdülbaqi Zülalov), Cabbar Qaryağdıoğlu, Məcid Behbudov, İslam Abdullayev, Xan Şuşinski, bəstəkarlardan Üzeyir Hacıbəyov, Zülfüqar Hacıbəyov, Zakir Bağırov, Soltan Hacıbəyov, Süleyman Ələsgərov, müğənni Bülbül (Murtuza Məmmədov), opera müğənnilərindən Əhməd Ağdamski, Əli Zülalov və s. kimi Şuşada yaşayıb və yaratmış sənətkarları göstərmək olar. Şuşada doğulan və yaşayan, bir neçə sahədə öz sözünü deyərək təsdiqləyən bir şəxsiyyətdən bəhs edək. Bu şəxsiyyət Azərbaycanın musiqişünas alimi, şairi, rəssamı, astronomu, tarixçisi və xəttatı və s. kimi tanınan Mir Möhsün Nəvvabdır. O, 1833-cü ildə dünyaya göz açmış, ilk təhsilini ruhani məktəbində almış və fars, ərəb, türk sonradan isə rus dilini mənimsəmişdir. Daha sonra Abbas Sarıcalı mədrəsəsində riyaziyyat, kimya, astronomiya və s. elmlərin əsasını öyrənmişdir. M.M.Nəvvab 1913-cü ildə Bakıda nəşr olunan məşhur musiqi traktatı "Vizuhül-ərqam"ın müəllifidir. Bu əsərdə o, müxtəlif muğamların, dəstgahların mənşəyi, onların adlarının yaranma mənbəyi haqqında məsələləri tədqiq etmiş, muğamların şeir mətnləri ilə əlaqəliliyi, ifaçı ilə dinləyici arasında qarşılıqlı münasibətləri, akustik baxımdan onların uyğun yerləşməsi məsələlərinə toxunmuşdur. Ölkəmizin bu ziyalısı ilk dəfə olaraq dəstgah terminindən istifadə edərək həmin vaxt Qarabağda məlum olan 6 dəstgahın, Qarabağ musiqiçiləri tərəfindən ifa olunan 82 mahnı və muğamların adını çəkir. Bundan başqa Mir Möhsün Nəvvab "Məclisi-fəramuşan" adlı ədəbi, "Məclisi-xanəndə" adlı musiqi məclisləri qurmuşdur. Həmçinin M.M.Nəvvab özünün çap maşınında bir çox Azərbaycan şairlərinin şeirlərini nəşr edərək yaymışdır. O, 1918-ci ildə Şuşa şəhərində vəfat edəndə artıq Azərbaycan və onun hüdüdlarından kənarda da yaxşı tanınırdı [1], [2].

Azərbaycan musiqi tarixinə adını qızıl hərflərlə yazdıran görkəmli xanəndə Cabbar Qaryağdıoğlu da Şuşada, 1861-ci ildə anadan olmuşdur. Cabbar Qaryağdıoğlu, ustad xanəndə, istedadlı şair, bəstəkar, musiqişünas və pedaqoq idi. O, Şuşada xarrat Qulunun məktəbində muğam dərsləri almış, müəllimi Mirzəli Zeynalabdin oğlundan musiqi elmini və fars dilini öyrənmişdir. Onun ilk muğam operası və simfonik muğamların yaranmasında böyük rolu olmuşdur. 1908-ci ildə premyerası olan, Azərbaycanda və Şərqdə opera sənətinin əsasını qoyan, Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasının ilk Məcnunu Cabbar Qaryağdıoğlu olmuşdur. O, bu rolu böyük məharətlə ifa edərək tarixdə bir iz qoymuşdur. İlk simfonik muğamların müəllifi Fikrət Əmirov Cabbar Qaryağdıoğlunu "xalq musiqisinin düşünən beyni" adlandırmışdı. O, xalqdan öyrəndiyi və topladığı 500-dən artıq mahnını işləmiş və həyatını klassik Azərbaycan musiqisinin inkişafına həsr etmişdir. Onun yazdığı "Ay dərya kənarında bir ev tikmişəm", "Sona xanım", "Gülə-gülə", "Bağçadan gələn nə səsdir?", "Bu gələn yara bənzər", "Dağ başında qar kimi", "Bulud üzlü, ay qabaqlı gözəlim", "İravanda xal qalmadı", "Xumar oldum", "Qalada yatmış idim" kimi mahnıları çoxumuz xalq mahnısı olaraq tanısaq da, bu mahnıların əsl müəllifi C.Qaryağdıoğlu olmuşdur. Rus şairi S.Yesenin onu "Şərq musiqisinin peyğəmbəri" adlandırmışdır [3], [4], [5].

XVIII əsrdən etibarən Yaxın Şərq ölkələrində, eləcə də Azərbaycanda xalq tərəfindən çox sevilən, yüksək dəyərləndirilən xanəndə və sazəndələrə "can" kimi yüksək ad, yaxud təxəllüs verilirdi. Bu ada layiq görülənlərdən görkəmli tarzən Mirzə Sadıq - Sadıqcan, görkəmli xanəndə Əbdülbaqi Zülalov - Bülbülcan kimi tanındılar.

Azərbaycan tarının atası adlandırılan Sadıqcan, yəni Mirzə Əsəd oğlu Sadıq 1846-cı ildə Şuşada dünyaya göz açıb. O da, əvvəlcə gözəl səsə malik olmuş və Şuşada Xarrat Qulunun məktəbində musiqi təhsili almışdır. Sonradan, yəni 18 yaşına çatanda səsi qəflətən batır. Lakin musiqiyə olan marağı və həvəsi onu musiqi alətlərində ifa etməyə təşviq edir. Ney, tütək və kamança kimi alətlərdə gözəl ifasına baxmayaraq onu ən çox özünə cəlb edən musiqi aləti tar idi. O tarda ifa etməklə qalmır, tarın təkmilləşdirilməsi üzərində işləyərək onun quruluşunu dəyişdirir. Sadıqcan, tara daha 6 sim əlavə edərək 11 simli və 17 pərdəli tar əldə etmiş olur ki, bu da tarı o dövrdə sürətlə inkişaf edən muğam sənətinin tələblərinə, çalğı imkanlarına uyğunlaşdırır. Sadıqcana qədər tar diz üstündə ifa olunurdu, lakin o ilk dəfə tarı sinədə ifa etməyə başlamış və məhz onun təkmilləşdirdiyi tar - Azərbaycan tarı olaraq dünyada tanınmağa başlamış, milli musiqimizin rəmzinə çevrilmişdir. 1880-ci ildə Təbrizdə Nasirəddin şah Qacarın oğlunun toy mərasiminə dəvət alan Mirzə Sadıq xanəndə Hacı Hüsü ilə birlikdə elə gözəl məclis aparıblar ki, Hacı Hüsü ən yaxşı xanəndə, Sadıqcan isə ən gözəl tarzən sayılaraq Nəsrəddin şah tərəfindən Şiri-Xurşid ordeni ilə mükafatlandırıldı [6]. O, həm də Tiflisdə, Şuşada göstərilən teatr tamaşalarında da tarzən kimi çıxış edirdi. 1902-ci ildə, 56 yaşında, Sadıqcan, öz doğma yurdu olan Şuşada dünyaya gözlərini əbədi olaraq yumdu.

Əsl adı Əbdülbaqi Zülalov olan, gözəl səsi və mahir ifası sayəsində Bülbülcan adını qazanan görkəmli xanəndə də, 1841-ci ildə Azərbaycanın ən gözəl yerlərindən birində - Şuşa şəhərində dünyaya gəlmişdir. O da, ilk musiqi təhsilini xarrat Qulunun məktəbində almış, məktəbi bitirdikdən sonra tarzən Sadıqcanla birlikdə Qarabağ, Şəki, Şirvan və Gəncə məclislərində, el şənliklərində çıxış etmişdir. Cabbar Qaryağdıoğlu "Keçmiş Azərbaycan musiqisi" adlı xatirələrində yazırdı: "Xarrat Qulunun şagirdi, bütün Qafqazda məşhur olan xanəndələrdən Əbdülbaqi Zülalov "Zabul" dəstgahını çox təmtəraqla oxuyardı. "Hasar"a keçəndə elə bir səda ilə oxuyardı ki, heç bir kəs bunu bacarmazdı. Çünki "hasar" zəngulə istəyən nəğmədir, Əbdülbaqi isə gözəl zənguləli səsə malik olduğundan bu muğamı layiqincə ifa edərdi". Cabbar Qaryağdıoğlu zəngulə vurmağı Bülbülcandan öyrəndiyini söyləmişdir [7].

Muğamımızın xanı – Xan Şuşinski, yəni əsl adı ilə, İsfəndiyar Aslan oğlu Cavanşir, 1901-ci il avqust ayının 20-də Şuşa şəhərində, Qarabağ xanlığının banisi Pənahəli Xanın nəvəsi Məhəmməd bəy Cavanşirin nəticəsi Aslan ağa Cavanşirin ailəsində dünyaya gəlmişdir [8]. Xan Şuşinski 16 yaşında olarkən ustadı İslam Abdullayevlə birgə iştirak etdiyi məclisdə təbrizli xanəndə Əbdülhəsən xan İqbalın yolu ilə "Kürd-Şahnaz" muğamını heyrətamiz bir tərzdə ifa etdiyinə görə müəllimi ona "Xan Şuşinski" adını vermişdir. Xan Şuşinski, 1960-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının nəznində "Muğam studiyası" yaratmış və burada gənc xanəndələrə muğam dərsi keçmiş, onlara muğamın sirrlərini dərindən öyrətmişdir. O, həmçinin Azərbaycan Dövlət Musiqi Məktəbində dərs demiş, muğam ifaçılarının yeni nəslini yaratmışdır. Xan əsl yaradıcı sənətkar kimi milli musiqi xəzinəsini yeni mahnılarla zənginləşdirirdi. Bu baxımdan onun "Qəmərim", "Şuşanın dağları" mahnıları dillər əzbəri olmuşdur. Xan Şuşinski öz yaradıcılığında bəstəkar mahnılarına da müraciət etmişdir. Bu mənada Üzeyir Hacıbəyovun "Qara göz" mahnısının ilk ifaçısı olmuş və mahnını yüksək zövqlə oxuyaraq yaşatmışdır.

Respublikamızın ərazisinin yağı düşmən işğalından azad edilməsi təkcə ərazi bütövlüyümüzün deyil, həm də milli ləyaqətimizin və mənəviyyatımızın bərpasına çevrilmişdir. Müzəffər ordumuzun 44 günlük müddətdə qonşu Ermənistan ordusunu darmadağın etməsi nəticəsində tarixi torpaqlarımız bərpa edildi. Hərbi əməliyyatların uğurla həyata keçirilməsi sayəsində müzəffər ordumuz Ali baş komandanın rəhbərliyi altında 30 il müddətində işğal altında olan ərazilərimizi geriyə qaytardı. İki il bundan əvvəl (8.11.20) 28 illik həsrətdən sonra xalqımızın ən sevimli və müqəddəs şəhəri olan Şuşa şəhərimiz düşmən tapdağından azad olundu.

Azərbaycan xalqı Şuşa şəhərinin azad edilməsilə bir daha sübut etdi ki, o yenilməz xalqdır və hər zaman özünün məğrurluğunu sübut etməyə hazırdır. Ali baş komandanın dediyi kimi: "Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!". Döyüş meydanında şücaət göstərən müzəffər ordumuz əbədi Azərbaycan torpağını, bizim mədəniyyət paytaxtımız Şuşa şəhərini də əsarətdən azad etdi. Ölkə başçısının rəhbərliyi ilə azad edilən ərazilərin minalardan təmizlənməsi,

infrastruktur obyektlərinin yenidən yaradılması və qayıdış proqramlarının həyata keçirilməsi indiki gündə də davam etdirilməkdədir.

Dünyanın gözü qarşısında Qarabağın baş tacı olan Şuşa şəhərimizdə 12.05.21-ci il tarixində “Xarıbülbül” möhtəşəm musiqi festivalı gerçəkləşdirildi. Beynəlxalq səviyyədə mədəniyyət paytaxtımızda keçirilən və H.Əliyev fondunun təşkilatçılığı ilə reallaşdırılan bu musiqi bayramında Prezidentimiz İ.H.Əliyev, ölkəmizin vitse-prezidenti və birinci xanımı M.Əliyeva ailəsi ilə iştirak edirdi. Bu festivaldakı proqramlarda milli rəqs və muğam sənəti təqdim olunmaqla yanaşı, regionlarımızı və milli azlıqlarımızı təmsil edən folklor kollektivlərinin çıxışları da həyata keçirildi. Adı çəkilən festivalda xanəndələrimiz və musiqiçilərimiz tərəfindən ayrı-ayrı illərdə Şuşa şəhərində lentə alınan ifalarından ibarət görüntülər nümayiş etdirildi və bununla da bir daha Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı olması bütün dünyaya bəyan edildi.

Qarabağ ərazisində, xüsusilə Şuşa şəhərində “Qarabağ şikəstəsi” nin səslənməsi və onun həmin şəhərin dağlıq ərazilərinə yayılması dünya əhalisi qarşısında ermənilərin səsini birdəfəlik susdurdu. Erməniləri sükuta qərq edən xalqımız təkcə Azərbaycan muğamının deyil, həm də bütün dünya xalqlarının folklor nümunələrinin əyani şahidi oldu. Bu festival Azərbaycan dövlətçiliyinin gücünü-qüdrətini, mədəniyyətini, əzmkarlığını və vətənpərvərliyini təkrar olaraq bütün dünyaya göstərdi.

H.Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şüşa Şəhəri Dövlət Qoruğu tərəfindən təşkil edilən V “Xarıbülbül” Beynəlxalq folklor festivalına dünya ölkələrindən çoxsaylı musiqiçilər, rəqs kollektivləri öz çıxışları ilə rəngarənglik qatdılar. Bu festivalın Şuşada keçirilməsi ilə Azərbaycan xalqının daimi və əbədi olaraq bu torpaqlara qayıtmasını əminliklə dünyaya göstərmiş oldu. Festivalın sonunda Cıdır düzündə bütün festival iştirakçılarının “Qarbağ Azərbaycandır” - ifadəsinin ucadan səsləndirilməsi qalib xalqımızın və dövlətimizin bir daha o torpaqlarda yaşamasını əbədi olacağını dünyaya təsdiq etdi. Şuşa şəhərinin işğaldan azad edilməsi Ulu öndər H.Əliyevin də müqəddəs arzusu idi. Müzəffər ordumuz özünün qalibiyyəti ilə bu arzunu da həyata keçirmiş oldu [9, s.2].

Hazırda “Qayıdış proqramları” çərçivəsində həyata keçirilən dövlət proqramlarımız çərçivəsində çoxsaylı tədbirlər gerçəkləşdirilməkdədir. Bu proqramlar nəinki Şuşa şəhərinin yenidən qurulmasına, hətta Ağdam, Zəngilan, Füzuli, Kəlbəcər, Laçın və digər bölgələrimizin bərpa edilməsinə və çiçəklənməsinə geniş imkanlar yaradacaqdır. Hazırda adı çəkilən ərazilərimizdə müxtəlif xarici şirkətlərin cəlb edilməsilə infrastruktur obyektləri, yaşayış binaları və s. layihələrin həyata keçirilməsi davam etdirilir. Bu ərazilərə dövlət büdcəmizdən son 2 ildə ayrılan maliyyə vəsaitinin 4,4 milyard manatdan yuxarı olması bir daha həmin bölgələrdə təsərrüfatçılığın bərpa edilməsinin nə qədər vacib olduğunu göstərir.

Şuşa şəhərində, eləcə də göstərilən digər ərazilərimizdə mövcud coğrafi-iqlim şəraitinin nəzərə alınması ilə turizmin inkişaf etdirilməsinə böyük imkanlar vardır. Biznesin müxtəlif istiqamətləri ilə yanaşı ölkəmizin bu ərazilərində yeraltı sərvətlərin olması və füsünkar təbiətin mövcudluğu bütün iqtisadi fəaliyyətlərin təşkil edilməsinə əlverişli şərait yaradır. Şuşa şəhəri isə mədəniyyət paytaxtımız olmaqla yanaşı yaxın gələcəkdə ölkəmizin əsas turizm mərkəzinə çevrilə bilər. Göstərilən məsələlər həm xalqımızın, eləcə də dövlətimizin milli maraqlarına tamamilə uyğundur. İşğaldan azad edilmiş ərazilərimizdə qayıdış proqramları çərçivəsində reallaşdırılacaq layihələr bir çox sosial-iqtisadi problemlərin aradan qaldırılmasına, məşğulluq məsələlərinin həll edilməsinə və büdcə daxilolmalarının artırılmasına gətirib çıxardacaqdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq aşagıdakı qənaətə gəlmək mümkündür:

- Şuşanın musiqili havasını, nəğməli bulaqlarının, insana ilham verən dağlarının təsirindəndir ki, burada musiqiçilər olduqca çoxdur. Belə nəticəyə gəlmək olar ki, Şuşanın təbiətinin gözəlliklərindən savayı, buranın qədim sakinləri olan xalqımızın damarlarında sanki musiqi axır. Belə ki, mənfur ermənilərin buranı işğal etdiyi dövrlərdə, burada yaşadıqları vaxtlarda bir nəfər də olsa məşhur musiqiçisi olmamışdır. Bu da onu deməyə əsas verir ki, Şuşanın bu gözəl təbiəti ancaq onun əsl sahiblərinə ilham və istedad verir;
- diqqət mərkəzi Şuşa şəhəri başda olmaqla digər bölgələrimizdə bütün iqtisadi fəaliyyətlərin bərpa edilməsi və bunun üçün xarici sərmayədarların cəlb edilməsinin gücləndirilməsi olduqca vacibdir. Xarici investorların Qarabağ ərazisindən bərpa işlərinə cəlb olunması ölkəmizin maliyyə resurslarının məhdudluğunu aradan qaldırmaqla, müxtəlif ölkələrin iş adamlarını da yenidənqurma və bərpa işlərinə marağını artıracaqdır;

- mədəniyyət paytaxtı Şuşa şəhərinin bərpası və digər ərazilərimizin yenidən qurulmasına dəstək verən bütün beynəlxalq şirkətlərə xüsusi güzəştlər nəzərdə tutulmalıdır. Bu güzəştlərin və dəstəyin verilməsi xarici yatırımların çoxalmasına, bərpa işləri ilə bağlı həyata keçirilən layihələrin tezliklə başa çatmasına təkan verəcəkdir;

- Şuşa şəhərinin inkişafı, eləcə də işğaldan azad edilmiş ərazilərimizin sürətlə bərpa edilməsi ölkəmizin sosial-iqtisadi inkişafına səbəb olmaqla yanaşı dövlətimizin iqtisadi potensialını daha da atırıracaqdır. "Qayıdış proqramları" çərçivəsində gerçəkləşdirilən layihələr həm xalqımızın, həm də dövlətçiliyimizin maraqlarına tamamilə uyğun gəlməklə dövlətimizin büdcə gəlirlərini çoxaldacaqdır.

**Ədəbiyyat siyahısı:**

1. www.virtualkarabakh.az elektron resurs istinat tarixi 05.10.22
2. www.science.gov.az elektron resurs istinat tarixi 30.09.22
3. www.portal.azertag.az elektron resurs istinat tarixi 03.10.22
4. www.melumatlar.az elektron resurs istinat tarixi 04.10.22
5. www.525.az elektron resurs istinat tarixi 29.09.22
6. www.medeniyyet.az elektron resurs istinat tarixi 05.10.22
7. www.azerbaijan-news.az elektron resurs istinat tarixi 04.10.22
8. www.xan.musigi-dunya.az elektron resurs istinat tarixi 05.10.22
9. Ümid Qara Azərbaycanın səsi Şuşadan dünyaya yayıldı. Qarabağda muğam sədası və ermənilərin sükutu Azərbaycan q/t 14.05.22 N 084(6186).

---

**Camalzadə Gündüz Şakir oğlu**
Bakı Dövlət Universiteti SABAH mərkəzinin dekan müavini,
Beynəlxalq Münasibətlər və İqtisadiyyat fakültəsi Maliyyə menecmenti kafedrasının müəllimi.

## Karabağ Ekonomisinin Geleceğine Bakış: Sürdürebilir Kalkınma Modeli

### Giriş

2020 tüm dünya ülkeleri için zor bir yıl oldu. Pandemi ve küresel ekonomik kriz, büyük ölçekli planlı politikaları ertelemek ve harcamaları dengelemek zorunda kalan çoğu ülkenin ekonomik durumu üzerinde ciddi bir etki yarattı. Ancak tüm ekonomik, sosyal ve sağlık sorunlarına, savaşın yol açtığı maddi hasara, sayısız ve çeşitli mali maliyetlere rağmen Azerbaycan devleti ve halkı pandemi paralelinde Ermeni saldırganlığını geri püskürtmüş ve özgürleşmek için bir karşı taarruza geçmiştir. onların toprakları.

Azerbaycan Cumhuriyeti'nin sosyo-ekonomik ilerlemenin niteliksel olarak yeni aşamasındaki ana hedeflerinden biri, kamu yaşamının tüm alanlarının modernizasyonu yoluyla gelişmiş ülkeler saflarına katılmaktır. Deneyimler, belirli hedeflere dayalı bir strateji ve vizyon sistemi olmadan, ekonomik alanda ve uzun vadeli hedeflerin gerçekleştirilmesinde yüksek sonuçlar elde etmenin imkansız olduğunu göstermektedir. Bu ve diğer hedeflerin başarılı bir şekilde uygulanması, derin ekonomik düşünceye sahip güçlü siyasi liderler sayesinde mümkündür.

2003 yılından bu yana milli lider Haydar Aliyev'in belirlediği kalkınma stratejisini güvenle takip eden Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, geçtiğimiz 18 yılda ülkemizi Güney Kafkasya bölgesinin en etkili devletlerinden biri haline getirdi. 2003-2020 yıllarında ülkenin siyasi ve sosyo-ekonomik yaşamında temel değişiklikler yaşanmış, ekonomi politikasında esneklik sağlanmış, paralel yapısal değişiklikler ve kurumsal reformlar belirli hedeflere ulaşmayı sağlamıştır.

Tarihi ve kültürel değerlerin yanı sıra kurtarılan alanlar zengin bir ekonomik potansiyele sahiptir. Bu toprakların ülke ekonomisine entegre edilmesiyle yaratılan yeni ekonomik değer, Azerbaycan devletinin tüm mali maliyetlerini kat kat aşacak ve tereddütsüz ve özel mali gerilimlerle devam edecektir.

Kurtarılmış bölgelerin ekonomik potansiyeli, bu bölgelerin tüm geniş potansiyeline ilişkin çeşitli çalışmalarla açıklanabilir.

**1. Azerbaycanda kurtarılmış bölgelerin ekonomik potansiyeli**

Azerbaycan hükümeti, yedi bölgenin aktif gelişiminin tüm Karabağ ülkesi için ekonomik kalkınmanın itici gücü olacağından emin.

Toprakların işgali Ermenistan'a önemli ekonomik faydalar getirmedi. Bu alanlar yer altı ve yerüstü doğal kaynaklar açısından zengin olmalarına rağmen, demir dışı metal cevherleri, altın, cıva, kromit, perlit, kireç, mermer, akik, maden suları vb. gibi geniş bir mineral yelpazesine sahiptirler. Geniş bir tatil potansiyelinin yanı sıra Ermenistan bu potansiyelden hiçbir zaman tam olarak yararlanamadı. Evet, Kelbecer ve diğer bölgelerde madenlerimiz el yapımı yöntemlerle yağmalanıyor ve çevreye zarar veriliyor. Bu nedenle sorumlulardan hesap sorulacaktır.

Yedi ilçe, 7.500 metrekareden fazla ve 1990'larda 600.000'den fazla Azerbaycanlının kaçtığı alan. Bunların yaklaşık %60'ı geleneksel olarak tarımla uğraşıyor ve çoğu potansiyel geri dönenlerin tekrar yapmak istediği şey de bu. Aynı zamanda, yetkililer henüz kapsamlı bir geri dönüş potansiyeli tahminini yerine getirmediler. Örneğin, Laçın bölgesi sakinleri Azerbaycan'ın 70 bölgesine yerleşti ve son otuz yılda birçoğu kentsel çevrede "büyümeyi" başardı. Tüm sosyal altyapı, evler ve işler görünürken, asıl soru onları geri almanın mümkün olup olmayacağı. Azerbaycanlıların büyük çoğunluğunun, birinci Karabağ savaşında terk etmek zorunda kaldıkları topraklara dönme konusundaki ateşli arzuları, bugüne kadar Azerbaycan'da bir aksiyom olarak kabul edilmektedir.

Ermenistan 2020 yılına kadar işgal altındaki topraklarda 30 küçük hidroelektrik santrali (HES) kurmayı planlasa da, bunlardan sadece 16 tanesi devreye alındı. Bu HES'lerin toplam kapasitesi, 1976 yılında işletmeye alınan 50 megavat kapasiteli Sarsang HES seviyesindedir. Sugovuşan'ın Azerbaycan Ordusu tarafından işgalden kurtarıldığını ve bölgedeki Madagiz 1 ve Madagiz 2 HES'lerinin dolaşımdan çıktığını ve mevcut kapasitenin daha da azaldığını dikkate alırsak. Genel olarak işgalden sonra Karabağ'ın enerji sistemi Ermenistan'a bağlıdır ve üretilen elektrik toplam talebin yüzde 30-40'ını karşılayabilmektedir.

Azerbaycan'da son yıllarda ekonomik alanın geliştirilmesi için yapılan birçok çalışmaya rağmen, büyük turizm potansiyeline sahip işgal altındaki Karabağ ve komşu bölgeler bu süreçlerin dışında bırakılmıştır. Ama şimdi eşsiz doğal güzellikleri, temiz havası, şifalı kaynakları ve tarihi eserleriyle topraklar nihayet özgürlüğüne kavuştu. Şaşırtıcı olmayan bir şekilde, bugün en çok tartışılan konulardan biri, bir devlet stratejisi oluşturmanın, altyapıyı ve cazibe merkezlerini restore etmenin çok önemli olduğu kurtarılmış alanlarda turizm potansiyelinin geliştirilmesidir.

Ancak Azerbaycan halkının kültürel ve tarihi eserlerinin yanı sıra doğaya karşı işlenen suçların bu topraklarda yıllardır devam ettiği bilinmektedir [1]. Ağdam'ın bu anlamda en çok etkilenen şehirlerden biri olduğu ortaya çıktı. Ağdam'da, bir zamanlar dünyanın en büyük ikinci müzesi olarak kabul edilen Ekmek Müzesi'nin bugün sadece iki duvarı kalmıştır.

Ermenistan'ın uluslararası güçlerin desteğiyle yaklaşık 30 yıl boyunca Azerbaycan topraklarının yüzde 20'sini işgal etmesi ülkemiz için bir "jeopolitik yükseliş" olarak değerlendirilebilir: çünkü Azerbaycan bu dönemde Ermeni işgalini ortadan kaldırmak için tüm kaynaklarını seferber etmiştir. Bu "jeopolitik asansörler" - petrol ve gaz ve nakliye ve lojistik projeleri - Orta Avrasya'daki "Kuzey-Güney" ve "Doğu-Batı" koridorlarında Azerbaycan'ı daha yüksek seviyelere çıkarmayı başardı. 19. yüzyılda, Napolyon'un "Kıta Kıtası" İngiltere girişimi başarısız olurken, Azerbaycan, saldırgan Ermenistan'ı barışa zorlamak için bölgesel projelerden dışlanmasını sürdürdü. Bağımsızlık üzerindeki kısıtlamalar, ödemeler dengesi ve kronik devlet bütçe açığı, büyük ekonomik kaldıraçların kaybı ve nüfusun dörtte birinin yoksulluk sınırının altında olması Ermenistan'ın Karabağ'ı işgalini sürdürmesine izin vermiyor. Azerbaycan'ın bu yıl Eylül-Ekim'deki askeri başarısı, Ermenistan için bir gerçeği ortaya çıkardı: Kayıp 30 yıl. Ermenistan tarihi bir şansı daha kaybetmemek için işgal politikasından vazgeçmelidir.

Böylece, Ermeni devletinin Azerbaycan'a karşı toprak iddialarının ve saldırganlığının asıl amacı, Azerbaycan toprakları pahasına Ermeni devletinin varlığını genişletme arzusudur.

Bu alanların restore edilip tüm ülkenin sosyo-ekonomik kalkınmasına uyarlanmaması, Rusya'da benimsenen terminolojiyi kullanarak geliştirilen alanlar olacağı açıktır. Bu yıl yetkililer, kurtarılan bölgelerin rehabilitasyonu için bütçeden 2,2 milyar manat (yaklaşık 1,5 milyar dolar) ayırdı (10 Kasım anlaşmasından sonra Bakü'nün kontrolüne giren bölgelerin resmi adı açıklandı). Ancak tabii ki bu, buzdağının sadece görünen kısmı: miktar, devlete ait şirketler tarafından yürütülen, çeşitli fonlarla finanse edilen projelerin maliyetini ve tabii ki yabancı yatırımı içermiyor.

## 2. Karabağ'da yürütülen restorasyon çalışmalarının perspektif görünümleri

Karabağ büyük bir şantiye olmayı vaat ediyor ve bu sektör kazançlı bir seçenek. Sadece son çatışmada "doğru" pozisyonu almış ülkeler bu bölgelere gelerek ve belirli faaliyetlerde bulunarak ekonomilerini geliştirebilirler. Bu, örneğin, Fransız şirketlerinin mutlaka buraya gelmeyecekleri anlamına gelir. Ama Türkler, İtalyanlar ve İngilizler zaten buradalar.

İade edilen bölgelerin tamamen restorasyonu, önümüzdeki 10 yıl içinde 100 milyar manat'a (59 milyar dolar) mal olacak. Bu miktar, petrol ve gaz sektörü nedeniyle yeterli mali kaynağa sahip bir ülke için bile çok büyük. Özellikle son dönemde Ermenistan ile yaşanan çatışmalarda zarar gören Karabağ dışındaki şehirlerin rehabilitasyonu için gereken yatırımlar dikkate alınmalıdır.

Azerbaycan tarafına göre, geçen sonbaharda Bakü'den yaklaşık 2.5-3 saat uzaklıkta bulunan Terter şehrine 16.000'den fazla top mermisi düştü. Sadece okullar ve diğer sosyal altyapı tesisleri değil, aynı zamanda konut binaları da etkilendi - yaklaşık 600 aile etkilendi. Evlerini tamamen kaybedenler, devlet pahasına yenilerini inşa ediyor ve mobilya ve gerekli ev eşyalarını satın almaları için 10.000 dolar daha veriliyor.

Altyapı hızla restore ediliyor. Karabağ toprakları, büyük mal akışlarına hizmet edecek bölgelerde madencilik ve tarımın yanı sıra işleme ve uzun vadeli turizm ve lojistik alışverişleri olduğu için ekonomik olarak karlı. Ayrıca Bakü'de belirtildiği gibi Ermenistan da karayolu ve demiryolu iletişiminin geliştirilmesinden faydalanacaktır [8].

Azerbaycan Cumhuriyeti Ekonomi Bakanı, bunun petrol endüstrisi ile ilgili olmayan iş ve alanların yaratılmasında kilit faktörlerden biri olacağından emin. Orada yapılacak her şey faizle karşılanacak ve gelecekte Azerbaycan'ın GSYİH'sının %20'sini oluşturabilir.

Ancak, bu büyük planların tam olarak uygulanması en az 10 yıl alacaktır. Ana görev, fethedilen mayın alanlarını temizlemektir. Kasım ayının sonundan bu yana, Rusya Savunma Bakanlığı'nın Dağlık Karabağ'daki Mayın Eylem Merkezi'nden uzmanlar 24.000'den fazla patlayıcı cihazı ve 1.200 hektardan fazla patlamamış mühimmatı temizledi.

İstatistiklere göre, mayın temizleme 10 yıla kadar sürebiliyor, bu da yerinden edilmiş kişilerin bu topraklarda 10 yıl boyunca tarım yapamayacakları anlamına geliyor.

Araştırma sonucunda, Ermeni işgalinin Azerbaycan'a verdiği sosyo-ekonomik zararın değerlendirilmesi amacıyla, ilgili farklı devlet kurumlarından, Azerbaycan Cumhuriyeti'nin Ermeni işgali öncesi sosyo-ekonomik potansiyeli hakkında doğru bilgi edinmeleri istenmiş ve Ermeni saldırganlığıyla yok edildi.

27 yıl boyunca, işgal altındaki toprakların düşman işgalinden kurtarılmasının müjdesi, Kasım 2020'ye kadar süren savaş sırasında alındı. Kuşkusuz bu alanların tarihi ve kültürel önemi ülkemiz için ekonomik değerlerinden çok daha fazladır.

Turizm, ülkenin ekonomik gelişimine katkıda bulunur ve otellere, restoranlara, mağazalara ve turistik yerlere dayalı "temiz" bir alan olarak değerlenir. Turizm sektörü ülkeyi ekonomik olarak geliştirmeye devam ederken, en iyi yerlere, özellikle de özel manzaralı kıyı bölgelerine artan bir talep var.

Kurtarılan bölgelerin ekonomik gücü, özgüllükleri nedeniyle diğer ülkelerden önemli ölçüde farklıdır.

1989-1993 yılları arasında Azerbaycan Cumhuriyeti sınırları içindeki Dağlık Karabağ ve çevresi Laçın, Kelbecer, Kubadlı, Zengilan, Cebrail, Ağdam (ilçe merkezi ve topraklarının bir kısmı) ve Fuzuli'de (İlçe merkezinin bir kısmı) Ermeniler tarafından işgal edildi bölgesel merkez ve bölge). İşgalin başlangıcından bu yana gerçekleştirilen yağma ve verimsiz sömürü, ülke ekonomisini alt düzeye indirdi.

Modern zamanlarda, bu nedenle gelecekteki rehabilitasyon önlemleri, ortak bir altyapı ve temel yaşam koşullarının oluşturulmasını içermiştir. Bir sonraki aşamada, ekonomik kalkınma önlemlerine geçiş planlanmaktadır.

SSCB döneminde Dağlık Karabağ, Karabağ ovaları ve Azerbaycan'ın diğer ekonomik bölgeleriyle yakın ekonomik ilişkiler kurarak gelişmiştir. Her yöne giden yollar iki bölgeyi ekonomik olarak birbirine bağlamıştır.

Dağlık Karabağ Özerk Bölgesi'nin orta kısmı olan Hankendi şehri, Azerbaycan'ın demiryollarına ve karayollarına doğrudan bağlıydı. Genel olarak, bu alan ülkenin ulaşım ve iletişim sistemi ile yakından bağlantılıydı. Hankendi'den Bakü'ye demiryolu ile uzaklık 392 km idi. Bunun bölgenin gelecekteki gelişiminde çok önemli bir faktör olduğu göz önüne alındığında, ulaşım lojistiği haritaları geçmişten

gelen altyapı çalışmalarında kullanılabilir. Ancak Ermeni saldırganlığı nedeniyle işgal altındaki topraklarda faaliyet gösteren birleşik ulaşım ve haberleşme sistemi yıkılmış ve kullanılamaz hale gelmiştir.

Gelecekte, daha fazla araştırma, buradaki birçok işletmenin gelişiminin diğer gerçek yönlerini belirleyecektir. Ön araştırmalar, su kaynakları, elektrik, rekreasyon olanakları ve zengin maden kaynaklarının kurtarılmış bölgelerin endüstriyel potansiyelinin merkezinde yer aldığını gösteriyor.

Ülkemizin işgal altındaki topraklarının ekonomik potansiyeline sahip maden suyu kaynaklarının toplam jeolojik kaynaklarının %39,6'sı işgal edilen topraklara aittir. İşgal altındaki topraklarda farklı bileşim ve tedavi edici özelliklere sahip yaklaşık 120 maden suyu yatağı bulunmaktadır [5]. Bunlar, Kelbecer bölgesindeki Yukarı ve Aşağı İstisu, Laçın bölgesindeki Keşdek, Ilığsu, Şuşa bölgesindeki Minkend, Turşsu, Sırlan ve diğer maden suyu kaynaklarıdır.

Kelbecer'deki İstisu maden suyu kaynakları, önemli gaz ve kimyasal yapı, yüksek sıcaklık ve büyük doğal kaynaklar ile karakterizedir. Ayrıca Turşsu'dan gelen su ile çeşitli iç hastalıkları tedavi edilmiş ve su temin sistemi aracılığıyla Şuşa'ya su verilmiştir [3, s. 43].

Böylece bölgenin maden suyu kaynakları, içme endüstrisinde yeni işleme tesisleri ve içme endüstrisinde modern bir merkez oluşturulmasına yardımcı olabilir. Aynı zamanda bu doğal kaynakların restorasyonu sonrasında bu kaynaklar turizmin gelişmesi için uygun koşullar yaratmakta ve bu alanlara turist akışını sağlamaktadır.

Peyzaj, doğal kaynaklar ve orman kaynakları için gelecekte tazminat talebiyle bağlantılı olarak Azerbaycan'ın kurtarılmış bölgelerinde değerlendirme çalışmaları devam etmektedir. Yakın gelecekte, bu özel korunan alanlarda koruma rejiminin uygulanmasından sonra doğal iyileşmenin devam edeceğini ve gelişeceğini umuyoruz.

Cumhurbaşkanı İlham Aliyev tarafından 4 Ocak'ta imzalanan kararname ile kurtarılan topraklarda sürdürülebilir yerleşim için modern ve nezih bir yaşam sağlamak, her alanda inşaat ve restorasyon çalışmalarını yürütmek ve güvenli güvenliği desteklemek amacıyla Karabağ Canlandırma Fonu kuruldu. yaşayan, verimli çalışma ve sürdürülebilir büyüme Kamu tüzel kişiliği kurulmuştur.

Kararname, Azerbaycan halkının topraklarını Ermeni işgalinden kurtararak tarihinin en unutulmaz ve görkemli dönemine girdiğini vurguluyor. Ülkenin toprak bütünlüğünün yeniden sağlanmasının devletimiz için uluslararası hukukun üstünlüğü ile milli ve manevi değerlerin bir göstergesi olduğu belirtilmektedir. Yaklaşık otuz yıldır maddi ve kültürel zenginlikleri Ermeni işgalciler tarafından yağmalanan topraklarımızın ihyası, ülkenin siyasi ve ekonomik egemenliğinin güçlendirilmesinin önemli ayaklarından biri olacaktır. Kurtarılan bölgelerde yerleşim, düzgün yaşam ve ekonomik faaliyet sağlanacak, bu alanlarda yapılacak inşaat ve restorasyon çalışmaları, Azerbaycan'ın yeni kalkınma sürecinde sosyo-ekonomik temellerin daha da güçlendirilmesinde önemli bir aşama olacaktır. gelişme.

Belgede ayrıca şöyle deniyor: "Kurtarılmış topraklarda yapıcı çalışmaların yürütülmesinde herkesin desteği, tarihi zaferimize, güçlü ve güçlü bir Azerbaycan için ulusal birlik fikrine, egemen ve güvenli hedefimize önemli bir katkı olacaktır. hayat. Bu alandaki tüm potansiyelin özverili seferberliği, ülkemizin kalkınmasında ortak bir başarı tarihi oluşturacak ve zaferimizi daha da parlak hale getirecektir."

**3. Kurtarılmış bölgelerin ekonomisinde kalkınma yolları**

Azerbaycan, kurtarılmış toprakları geri kazanma konusunda önemli deneyime sahiptir. Ülkemizde, misyonu restorasyon çalışmalarını koordine etmek ve ÜİYOK'lerin anavatanlarına dönüşleri için koşullar yaratmak olan Bölgelerin Rehabilitasyonu ve Yeniden İnşası Ajansı kurulmuştur.

2020'den itibaren Azerbaycan Ordusu'nun düşmandan kurtardığı topraklar buna göre restore edilecek. 1994 yılındaki başarılı Horadız harekâtının ardından Fuzuli bölgesinde 42 yerleşim yeri yeniden canlandırıldı. Nisan 2016'daki askeri zaferin ardından Cebrail bölgesindeki Jojug Mercanlı köyü Büyük Dönüş'ün başlangıç noktası oldu. Devletin dikkat ve özeni sonucunda, Jojug Marjanlı köyü hızla modern ve müreffeh bir yerleşim yeri haline geldi. Bu amaçla Azerbaycan Cumhurbaşkanı çeşitli emirler imzalamıştır [5, s. 33].

Jojuq Marjanli, işgal altındaki diğer köylerden daha müreffeh ve daha yüksek düzeyde iş ve sosyal hizmetler sağlanıyor. Bu, Azerbaycan ve Ermenistan'ın kalkınma ilişkilerinin farklılığını göstermektedir. Tatar bölgesindeki yeni kurtarılan Sugovuşan ve Talış köylerine giden 29 kilometrelik yolların yeniden yapımına başlandı. Kısacası Azerbaycan topraklarına döndükçe hayat canlanıyor. Bunun için öncelikle özgürleştirilen alanlarda mayın temizleme ve diğer mayın temizleme önlemleri

alınır, ardından iletişim kurulur ve son olarak barınma ve üretim sağlanır. Topraklar işgalden kurtulurken "Büyük Dönüş" devam ediyor.

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev'in 19 Ocak 2021 tarihli "Karabağ Canlandırma Fonu'nun Faaliyetlerinin Sağlanması Hakkında" (QDF) kararnamesi, kurtarılmış topraklarımızın modern ihtiyaçlar düzeyinde restorasyonu ve yeniden inşasının bir öncelik olduğunu teyit etti. Ülkemiz. Örgütün kuruluş amacı, kurtarılmış topraklarımızı restore etmek ve yeniden inşa etmek için alınan önlemlere maddi destek sağlamak, onları sürdürülebilir bir ekonomiye ve son derece müreffeh bir bölgeye dönüştürmektir.

2021 devlet bütçesinde topraklarımızın restorasyonu ve yeniden inşası için 2,2 milyar manat tahsis edilmesi, planlanan çalışmanın kapsamı, ölçeği ve yoğunluğunun net bir resmini oluşturuyor. Önümüzdeki yıllarda 1,5 milyar manat'tan az olmayacak bu fonların amaca yönelik, şeffaf ve hedefe yönelik kullanımının sağlanması için, olumlu bir itibara ve şeffaf bir yönetime sahip yeni bir kamu tüzel kişiliğinin oluşturulması objektif bir ihtiyaçtır. NDF Denetleme Kurulunda bir dizi ilgili devlet kurumunun başkanlarının temsil edilmesi, restorasyon ve yeniden inşa çalışmaları sırasında koordinasyonun hızlandırılmasına ve yönetimde verimliliğin artırılmasına olanak sağlayacaktır. Güney Kafkasya bölgesinde kurtarılan bölgelerin müreffeh ve modern bir bölgeye dönüştürülmesi için alınan tedbirlerin de tek merkezden uygulanması hedefleniyor.

Karabağ Canlandırma Fonu, kurtarılmış topraklarımızda büyük iş potansiyeline sahip yatırımlar için güvenilir güvenlik mekanizmaları oluşturarak yerli ve yabancı yatırımları teşvik edecektir. Kurtarılan bölgelerin restorasyonu ve geliştirilmesine kapsamlı bir yaklaşım sağlamak için faaliyetler dört aşamada planlanmıştır.

1) Özel yönetim formu ve güvenlik;
2) Stratejik olarak önemli altyapı sorunlarını çözmek;
3) Sosyal hizmetlerin sağlanması;
4) Ekonominin yeniden inşası ve sürdürülebilir kalkınma.

Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı İlham Aliyev, kurtarılmış topraklarda mayın ve patlamamış mühimmatın (UXO) temizlenmesini güvenlik ve "Büyük Dönüş" programı açısından önceliklerden biri olarak belirledi. Bu ihtiyaç, Ermenistan'ın uluslararası hukuku ihlal ederek, yaklaşık 30 yıldır sadece temas hattına yakın bölgeleri değil, tüm bölge ve şehirleri, yolları, konut binalarını ve stratejik yükseklikleri işgal etmesinden kaynaklanmaktadır [7, s. 87].

Azerbaycan defalarca mayınlı bölgelerin haritasını talep etmesine rağmen, yıkıcı Ermeni tarafı bunu görmezden geldi. Bu, saldırgan ülkenin iletişimi yeniden tesis etme, karşılıklı güven, barış ve güvenlik inşa etme konusundaki bölgesel girişimlerinde samimiyetsiz olduğunu gösteriyor. Ermenistan'ın uluslararası hukuka aykırı eylemlerine rağmen Azerbaycan, güçlü ekonomik potansiyeli nedeniyle kurtarılan toprakları mayın ve UXO'dan bir an önce temizlemeye ve büyük ölçekli peyzaj projeleri başlatmaya kararlıdır.

Azerbaycan Cumhuriyeti Mayın Eylem Ajansının Azerbaycan Cumhurbaşkanının ilgili kararnamesiyle kurulması ve işletilmesi, mayın ve UXO temizleme alanındaki çalışmaların daha iyi yürütülmesi, sivil halkın olası tehditler hakkında bilgilendirilmesi ve eğitilmesi açısından önemlidir.

Dünyanın en modern, gelişmiş mayın temizleme ekipman, makine, mekanizma ve ekipmanlarının yanı sıra mayın temizleme robotlarının ülkemize getirilmesi, bu işlemin daha güvenli ve profesyonel düzeyde yürütülmesini, hasarın daha sonraki bir aşamada değerlendirilmesini ve rehabilitasyon çalışmalarına başlanmasını sağlayacaktır.

Azerbaycan, yeni doğal kaynakları çekerek batı bölgesinin gelişmesini, madencilik endüstrisinin büyümesini ve metalurji kompleksini sağlama potansiyeline sahiptir. Metalurjinin gelişmesi, Azerbaycan'da bir dizi sanayi ile birlikte askeri sanayinin gelişimini hızlandıracaktır. Azerbaycan Ordusuna 5G teknolojilerinin sağlanmasında askeri sanayimizin de söz sahibi olması gerekiyor. Azerbaycan'ın özgürleştirdiği topraklardaki orman, su ve toprak kaynakları, tarım, işleme sanayi ve turizmin gelişmesi için büyük fırsatlar yaratmaktadır. En önemlisi, kurtarılan bölgelerin ekonomisi yeniden inşa edilecek ve ekonomiyi daha verimli hale getirecek yeni teknolojiler tanıtılacak. İkinci Dünya Savaşı'ndan sonra, en harap iki ülke olan Almanya ve Japonya, yeni teknolojilerin tanıtılması ve ekonomik üretkenliğin artmasıyla daha hızlı büyüdü. Örneğin, kurtarılmış Cebrail'in yeniden inşası için yapı malzemelerinin çoğu bu bölgededir: talaş, çakmaktaşı, inşaat kumu üretimine uygun tulus tüf, tuğla

üretimine uygun Garajalli kili, çimento üretimine uygun volkanik kül, kil, kalker, kum-çakıl, jasper, kalsedon ve orman kaynakları.

Kurtarılan bölgelerde bir "inşaat patlaması" bekleniyor. Bölgelerin kurtarılmasının bir sonucu olarak, önümüzdeki yıllarda petrol dışı sektörün gelişimine ilişkin tahminlerin revize edilmesi gerekecek. Zira Azerbaycan Ordusunun bu zaferi, petrol dışı sektörün hızlı büyümesine de ivme kazandıracaktır. Bu nedenle, toprakların işgalden tamamen kurtarılması, ekonomik kalkınmamız üzerinde büyük bir etkiye sahip olacaktır. Ön tahminlerimiz, önümüzdeki yıllarda Yukarı Karabağ ve Kelbecer-Laçın ekonomik bölgelerindeki kilit bölgelerin toplam üretiminin 2 milyar manattan fazla artabileceğini gösteriyor [6].

İşgalden önce Azerbaycan'da üretilen tarım ürünlerinin yaklaşık yüzde 35-40'ını işgal altındaki topraklar sağlıyordu. Şimdi, Ermenistan'ın işgaline rağmen, bölge Ermenistan için etkisiz kaldı. Sadece Karabağ topraklarında 250.000 hektardan fazla verimli arazi olmasına rağmen, bu alanların sadece %7'si kullanılmaktadır. Bu nedenle, nehirler ağırlıklı olarak kuzey kesimde, ekilebilir alanlar ise güneyde yer almakta ve bu alanlarda yeraltı suyu daha derindir ve işgalden önce var olan sulama sisteminin tahrip olması bu alanların kullanılmaz hale gelmesine neden olmuştur. Verim düşüktü ve hektar başına sadece 10-12 kental tahıl hasat edildi. Ancak bu rakam işgalden 21-25 cent önceydi. Azerbaycan, kurtarılmış topraklarda bağcılık, tütün, pamuk, koza, meyve ve sebze, kavun ve hayvancılığın gelişmesi için büyük potansiyele sahiptir. Aynı zamanda, işleme ve gıda endüstrilerinin gelişimi için potansiyel bulunmaktadır.

Azerbaycan topraklarının özgürleştirilmesi, ülkede gıda güvenliğinin sağlanmasına da önemli katkı sağlayacaktır. Özellikle hayvancılık ürünlerinde kendi kendine yeterlilik düzeyi artacaktır. Şu anda ülkemizde kendi kendine yeterlilik düzeyi et ve et ürünlerinde yüzde 82,5, süt ve süt ürünlerinde yüzde 86,2'dir. Tahminimize göre, kurtarılmış bölgelerde ekonomik faaliyetin yeniden başlamasından sonra bu ürünleri kendimize sağlayabileceğiz. Ayrıca Azerbaycan'da hububatta (çeltik hariç) kendi kendine yeterlilik seviyesi yüzde 70'e ulaşıyor.

**Sonuç**

İslah işlemlerinin önemli olduğu arazilerde çeşitli önlemlerin uygulanması, şema-haritaların geliştirilmesi, kurtarılmış alanlardaki arazilerin durumunu tarım ve agro-teknik bilimlere sahip personel yetiştirerek incelemek için modern bilimsel laboratuvarların düzenlenmesi, humusun ve verimliliğin arttırılması toprak kaynakları Araziler hakkında daha doğru bilgilere sahip olmak için yardımcı olabilecek ve onları tersine çevirebilecek araçlar kullanmak çok önemlidir.

Azerbaycan Cumhuriyeti'nin iş gal altındaki topraklarında, doğal kaynakların Ermeniler tarafından uygunsuz kullanımı nedeniyle, ekolojik ve mevcut doğal kaynakların (mineraller vb.) kullanımından mahrum bırakılması, ekonomik kayıplar dışında çevreye ve doğal kaynaklara başka yönlerde de yol açmıştır. kazanılmamış gelir veya kayıp kar şekli Hasar hesaplamasının ilk aşaması tamamlandı. Ancak tespit edilemeyen sonuçların varlığı bu sürecin devamını gerektirmektedir.

Bu nedenle, çalışmanın sonuçları, Azerbaycan'ın kurtarılmış topraklarında mevcut ekonomik durum hakkında araştırma yapılması gerektiğini göstermektedir. Elbette yukarıda bahsedilen endüstriyel açıdan önemli doğal kaynaklara ilişkin veriler bir anlamda görecelidir ve tüm yatakların daha sonraki bir aşamada değerlendirilmesi önemlidir. Sovyet dönemine ilişkin rakamların açıklığa kavuşturulması gerekiyor. Son 30 yılda bölgelerin ciddi şekilde yağmalandığı belirtilmelidir. Ayrıca yeni değerlendirme yöntemleri ortaya çıkmıştır. Bölgenin maden kaynaklarının da yeni jeolojik haritası çıkarılmalıdır.

Karabağ'ın kurtuluşu Azerbaycan ekonomisinin genişlemesine ve çeşitlenmesine katkı sağlayacaktır.

Şüphesiz, geleceği öngörmeden, gelişimin ana aşamalarını, yapılacak işlerin sırasını belirlemeden ve olası sonuçları hesaplamadan ciddi bir başarı elde etmek mümkün değildir. Her hükümetin geleceğe yönelik tavsiyeler ve garantiler sunabilmesi, özellikle devletin kalkınma stratejisi ve taktikleri için özel programlar ve kavramlar sunabilmesi önemlidir.

**Referanslar:**

1. Məmmədov, Q.Ş. Azərbaycan torpaqlarının ekoloji qiymətləndirilməsi. Bakı, 1998.
2. Mehdiyeva, V., F.Novruzova. Y.İbrahimov – Ekologiya. Ruscadan tərcümə dərslik, Bakı 2013
3. Müseyibov, M.A. Azərbaycanın fiziki coğrafiyası. Bakı, – 1999.

4. Quliyev, T.S. Təbiətdən istifadənin və ətraf mühitin mühafizəsinin iqtisadiyyatı. Dərs vəsaiti. Bakı: “İqtisad Univeristeti” nəşriiyyatı, 2005, s. 31.
5. Şəkuri, B.Q. Azərbaycan torpaqlarının geokimyəvi xüsusiyyətləri. Bakı, – 2011.
6. Алиев, Б.Г., Алиев И.Н. - Проблемы эрозии в Азербайджане и пути ее решения. Баку, 2000.
7. Сафаров, И.С. Важнейшие древние третичные реликты Азербайджана. Баку, – 345 s.
8. Ширинов И.Ш. Геоморфологическое строение Кура-Аракиской депрессии (морфоскультура). - Баку. Элм, 1973-215 с.
9. Çolak, A.H., Kırca S., Rotherham I., D., İnce A. (2010) Restoration and Rehabilitation of Deforested and Degraded Forest Landscapes in Turkey, ISBN: 978-605-393-049-5, İstanbul
10. http://eco.gov.az/frq-content/plugins/pages_v1/entry/20190823174831_88765600.pdf
11. https://bakuresearchinstitute.org/az/azerbaijan-2030-a-vision-of-the-future/

---

**Khayala Alibeyli, Tofig Sadigov, Javid Abbasov, Mehriban Gafarova, Gunay Guliyeva, Farida Huseynova**
Baku, Mardakan settlement, S. Yesenin street 89,
Institute of Dendrology of ANAS,
cavid1301@gmail.com

## Biomorphological characteristics and medical importance of peppermint

**Abstract**

Peppermint belongs to the Lamiaceae, the mint genus (Mentha L.), and the peppermint species (Mentha Piperita L). It is a branched perennial herbaceous plant with rhizomes up to half a meter in height. Its rhizomes branch profusely underground and produce fringed secondary roots. Its trunks are numerous, flattened, quadrangular. It has opposite petiolate leaves. Its flowers are bisexual, red-purple in color. The plant blooms from June to September. All parts of mint have a pleasant aromatic smell. The reason for its special aromatic smell is the presence of essential oils, especially menthol. Mainly mint leaves are used. The leaves are collected by hand during the flowering period of the plant. The amount of essential oil in the mint leaf (raw material) collected during this period is higher. Mentha Piperita L. - peppermint species (grown in greenhouse and open conditions) was collected in the experimental area of the Institute of Dendrology of ANAS and in the experimental area of the Fruit and Tea Station located in Bina settlement of the Ministry of Agriculture, dried in accordance with the standards in laboratory conditions. Oils were obtained from the studied Mentha Piperita L. - peppermint species. Determination of biologically active substances contained in the obtained oils was carried out in "Kristal M" gas chromatography. Based on the results of the analysis, substances containing essential oil were found in the leaves and stems of the species.

**Keywords:** Mentha Piperita L., menthol, essential oil, chromatography, biomorphology

### Introduction

Mentha Piperita L. - peppermint species (grown in greenhouse and open conditions) was collected in the experimental area of the Institute of Dendrology of ANAS and in the Experimental area of the Fruit and Tea Station located in Bina settlement of the Ministry of Agriculture, dried in accordance with laboratory conditions. Oils were obtained from the studied Mentha Piperita L. species Biomorphological characteristics of the species were studied.

Since mint leaves contain a complex of biologically active substances, it has a broad pharmacological spectrum. Preparations are made from its leaves that have reflex coronal blood vessel dilating, calming, spasmolytic, choleretic, antiseptic and pain-relieving properties. Mint preparations strengthen the secretion of the glands that digest food, increase appetite, increase the secretion of bile, eliminate spasms, reduce the tone of the stomach muscles of the intestine, biliary tract, and urinary tract. Menthol in peppermint oil has antiseptic properties. It is used for upper respiratory tract diseases (pharyngitis, laryngitis, tracheitis, gout, etc.) from menthol and other preparations of peppermint to apply to the mucous membranes, inhalation, as well as instillation in the nose in the form of drops (4). In addition to what we have shown, a menthol pencil is used for

headache, a 2% solution of menthol dissolved in alcohol or 10% oil is used as an external rubbing medicine for migraine, neuralgia and other neurological diseases. It is also used in the inhaler "Ingafen". Mint leaves and oil have phytoncide and antiseptic properties.

Since peppermint oil contains 38-65% menthol, it is considered the main raw material for buying menthol. A 3-5% alcohol solution of menthol is used in the treatment of second and third degree frostbite.

**Materials and methods**

In order to detect the biologically active substances contained in Mentha Piperita L., leaf and stem extracts were prepared, and at the same time, the component composition of the obtained essential oil was studied in "Kristal" M gas chromatography(1).

Peppermint is cultivated in most countries of the world. Peppermint is a perennial rhizomatous herb with stems up to half a meter in height. Its rhizomes branch profusely underground and produce fringed secondary roots. Its trunks are numerous, flattened, quadrangular. It has opposite petiolate leaves. Its flowers are bisexual, red-purple in color. The plant blooms from June to September (2). All parts of mint have a pleasant aromatic smell. The reason for its special aromatic smell is the presence of essential oils, especially menthol.

Mint leaves grown in Azerbaijan contain 0.5 to 2.5% essential oil, most of which (40-60%) is menthol alcohol, both free and complexed with valerian and acetic acids. contane. In addition, mint essential oil contains menthone (9-25%), pinene, limonene, pulegone, phellandrene, dipentene, cineol and other terpenes and derivatives of terpenes. In addition to what we have shown, hesperidin, ursolic and oleanolic acids, carotene, vaccination substances, trace elements, etc. were found in its leaves.



**Figure 1**. Peppermint

**Results and discussion**

Peppermint is one of the plants that are very useful for health. Mint has been widely used in medicine since ancient times (3). The composition of mint is rich in A, C, B group vitamins and trace elements, which are important for the body. In medicine, peppermint is used in the preparation of menthol ether, cardiovascular preparations, ointments, anti-inflammatory drops, and anti-cough medicines. Peppermint leaf is used as an anti-inflammatory, sedative, expectorant, choleretic, appetite enhancer, shortness of breath and vomiting.

Peppermint leaf is used not only in medicine, but also in cosmetics, aromatherapy and food industry. Its fresh and dried leaves are recommended to be taken with soup, salad, vegetables and meat products. It is widely used in teas as a choleretic and astringent, as toothpaste and powder in the food, confectionery and perfume industries (5).

The component composition of the extract and oil obtained from the stem and leaves of Mentha piperita L. species was analyzed by the "Kristal" M brand gas chromatography method.

**Conclusion**

As a result of our scientific studies, it was determined that Mentha piperita L. species develops normally when agrotechnical care is provided in Absheron conditions, and there is no need for

special care in its cultivation. The component composition of the extract and essential oil obtained from the stem and leaves of the species was studied in "Kristal" M gas chromatography. Research shows that essential oil obtained from Mentha piperita L. species is of great importance in medicine, food industry, cosmetology, and aromatherapy. Because the biologically active substances contained in essential oils have a therapeutic and psychologically positive effect on people. So, it is appropriate to use Mentha piperita L. species widely.

## References


1.Alakbarov Ramiz, Ibadullayeva Sayyara. Medicinal plants (Ethnobotany and Phytotherapy). Baku: Scientific Library of ANAS, 2013.

2.Damirov I. A., Islamova N.A., Karimov C.B., Mahmudov R.M. Medicinal plants of Azerbaijan. Baku: Azerbaijan State Publishing House, 1988.

3.Gasimov M.A. (1959). Morphology and systematics of higher plants. Baku: Golden East Printing House.

4.Mammadov T.S. “Trees and bushes of Absheron”, Baku: Science and education, 2010.

5.Taylor, Ronald J. Sagebrush Country: A Wildflower Sanctuary (rev. Ed.). Missoula, MT: Mountain Press Pub. Cho. p. 62. ISBN 0-87842-280-3, 1992.


---


**Khayala Alibeyli, Tofig Sadigov, Javid Abbasov, Mehriban Gafarova, Gunay Guliyeva, Farida Huseynova**

Baku, Mardakan settlement, S. Yesenin street 89,

Institute of Dendrology of ANAS, cavid1301@gmail.com


## Biomorphological characteristics, phytochemical composition and medical importance of common lavender (Lavandula angustifolia L.)


### Abstract

The flowers of Lavandula angustifolia L. species belonging to Lavandula L. genus of Lamiaceae Lindl. family were collected in the experimental area of Dendrology Institute and dried according to standards in laboratory conditions. The biomorphological characteristics of the species were investigated, the phytochemical composition, the possibilities of use in folk and scientific medicine were detailed. Essential oil was obtained from the flowers of the studied Lavandula angustifolia L. species by hydrodistillation. The component composition of the obtained oil was studied in "Crystal" M gas chromatography. Based on the results of the analysis, the substances alpha-pinene, beta-pinene, carene-3, alfa-terpinen, 8-cineole (eucalyptol), gamma-terpinene, terpinolene, linalool, caryophyllene, terpinen-4-ol, citronellol, estragole, kamfen, geraniol, myrtenyl acetate, citronellyl tiglate, geranyl tiglate contained in the essential oil of the species were found.



**Keywords:** Lavandula angustifolia L., essential oil, chromatography, perfumery


### Introduction

The flowers of Lavandula angustifolia L. of the Lamiaceae Lindl. family were collected in the experimental area of the Dendrology Institute and dried according to the standards in the laboratory. The biomorphological characteristics of the species were investigated, the phytochemical composition, the possibilities of use in folk and scientific medicine were detailed. Essential oil was obtained from the flowers of the studied Lavandula angustifolia L. species by hydrodistillation. The main purpose of the study is to study the biomorphological characteristics, essential oil content, phytochemical composition and medical importance of lavender [1].

The highest yielding species of the lavender plant is Lavandula angustifolia L. It is widely cultivated in France and England. The flowers and leaves of this plant are used in cooking. Lavender essential oil has bactericidal properties. Lavender essential oil is widely used in the cosmetics and

perfumery industry. In addition, lavender flowers have soothing properties due to their pleasant smell. Lavender is also a good honey-producing plant, and high-quality honey is obtained from it.

**Material and Method**

The component composition of the essential oil obtained by hydrodistillation from the flowers of Lavandula angustifolia L. species was studied in "Crystal" M gas chromatography. This species is planted and cultivated in most countries of the world [3]. The homeland of this plant is considered to be the shores of the Mediterranean Sea. Lavandula angustifolia L. is a perennial semi-shrub. Its root system is fringed, woody, and goes 2-4 m deep into the soil. Its aerial part is 40-60 cm high. Its leaves are opposite, sessile, veined, the edges are bent down, covered with hairs, 2-6 cm long, 0.2-0.6 cm wide [2]. The flowers of the plant are bisexual. They are collected in spike flower group. The flower crown is blue, light blue or purple in color and has a nice fragrance. Lavender blooms for 20-35 days starting in mid-June. The flowers are cross-pollinated. Lavender is an evergreen plant. Its leaf change occurs every two years during a period of relative calm in autumn. With proper agrotechnical care, the plant can produce for 20-25 years.

Essential oil is collected in all parts of the common lavender plant. However, its amount in flowers is more up to 0.8-3.0%. The main constituents of lavender oil are linalyl acetate (30-56%) and linalool (10-12%).

**Results and Discussion**

Lavender is one of the most beneficial plants for health. Lavender essential oil is used in medicine to treat many diseases[4]. The plant increases the body's resistance to infectious diseases. Due to its antiseptic properties, it is applied to cuts and burns, as well as fly and insect bites to prevent germs and infections on the skin. In addition, the plant is very useful for the liver and ensures the regular functioning of the liver. The plant is also widely used in the treatment of liver failure, hepatitis B and C viruses, and cleansing the liver of toxins. Lavender tea and oil, which give a person peace and comfort with the scent of the plant, are very useful. Both the scent and tea of lavender have a calming effect on people's nerves.



**Figure 1**. Lavender species

Since this plant is rich in essential oil, it destroys various viruses in the air and prevents their mass spread. When lavender oil is applied to the scalp, it prevents hair loss.

Essential oil obtained from lavender is widely used not only in the field of medicine, but also in cosmetology, aromatherapy, perfume industry, and as a spice in cooking.

The flowers of Lavandula angustifolia L. species were collected and dried according to standards in laboratory conditions. The component composition of the oil obtained from the flowers of the species was studied in "Crystal" M gas chromatography. The results are given in table 1 and diagram 1.

**Table 1.** Results obtained from "Crystal" M brand chromatography device

| Time (minutes) | Detected component | Area (%) |
|---|---|---|
| 8.751 | alpha-pinene | 4.213 |
| 9.486 | beta-pinene | 2.830 |
| 9.771 | carene-3 | 2.947 |
| 10.313 | alfa-terpinen | 3.193 |
| 10.475 | 1,8-cineole (eucalyptol) | 37.109 |
| 11.121 | gamma-terpinene | 0.396 |
| 12.937 | terpinolene | 0.298 |
| 14.157 | linalool | 13.733 |
| 14.455 | caryophyllene | 17.352 |
| 15.147 | terpinen-4-ol | 3.340 |
| 15.310 | citronellol | 0.614 |
| 16.197 | estragole | 1.902 |
| 16.358 | kamfen | 4.297 |
| 16.935 | geraniol | 0.165 |
| 17.145 | myrtenyl acetate | 0.163 |
| 19.947 | citronellyl tiglate | 0.337 |
| 20.791 | geranyl tiglate | 2.012 |



**Diagram 1**. Results obtained from "Crystal" M brand chromatography device.

**Conclusion**

As a result of our scientific research, it was determined that the Lavandula angustifolia L. species develops normally when agrotechnical care is provided in Absheron conditions, and there is

no need for special care in its cultivation. The component composition of the essential oil obtained mainly from the flowers of the species was studied in "Crystal" M gas chromatography. Based on the results of the analysis, essential oil was found to contain alpha-pinene, beta-pinene, carene-3, alfa-terpinen, 8-cineole (eucalyptol), gamma-terpinene, terpinolene, linalool, caryophyllene, terpinen-4-ol, citronellol, estragole, kamfen, geraniol, myrtenyl acetate, citronellyl tiglate, geranyl tiglate substances. Research shows that essential oil obtained from Lavandula angustifolia L. species is of great importance in medicine, cosmetology, aromatherapy, and cooking. Biologically active substances contained in essential oils have a positive psychological effect on people. So, it is appropriate to use essential oil obtained from Lavandula angustifolia L. species.

**References**

1. Fondard L. Morhological and biological research on lavender. Thesis of Sciences, Marseilles, 1923.

2.Humbatov H.S., Khalilov X.Q. (2010). Technical Plants. Baku: Aytac

3.Khotin A.A. Biological features of essential oil plants.-In the book: Essential oil cultures. Agricultural publishing.-1963.-S. 27-62.

4.Rzaev Elman (2013). The healing role of plants in the treatment of some diseases. Baku: Qanun

---

**Dos. Məmmədova İntizar İbrahim qızı**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Biznes və logistika kafedrası,
mammadovaintizar80@gmail.com

## Şuşa şəhərində mədəni dəyərlərin dircəlişi və geniş kütlə üçün əlçatanlığının təmin edilməsi yolları

**Xülasə**

Məqalənin mövzusunun aktuallığı müasir bir şəhərin obrazlı çərçivəsinin xüsusiyyətlərinin müəyyənləşdirilməsi, Şuşa şəhərin tarixi-mədəni irsinin bərpası, digər tərəfdən, şəhərin dirçəlişi üçün praktik əhəmiyyəti ilə bağlıdır. Məqalənin məqsədi şəhər mühitinin, şəhər cəmiyyətinin və şəhər mənəvi məkanının formalaşması, təşkili prinsipləri və müəyyənləşdirilməsi təhlil edilməsi və Şuşa şəhərinin dirçəldilməsində tarixi və mədəni potensialından istifadəsi baxımından tövsiyələrin hazırlamaqdır. Tədqiqatın obyekti şəhərdə sosial strukturunun inkişafı üçün prioritet əsas kimi onun tarixi və mədəni potensialıdır. Tədqiqatın yekunu olaraq, şəhər mədəniyyətinin dirçəlişi üçün təkliflər irəli sürülmüşdür.

**Açar sözlər:** şəhər, mədəniyyəti, dirçəliş, dəyərlər.

## Пути возрождения культурных ценностей в городе Шуша и обеспечения их доступности для широкой публики

**Аннотация**

Актуальность темы статьи связана с определением особенностей образного каркаса современного города, восстановлением его историко-культурного наследия города Шуша, а с другой стороны, его практического значения для возрождения города. Цель статьи проанализировать формирование, принципы организации и определение городской среды, городского социума и городского духовного пространства, а также подготовить рекомендации по использованию историко-культурного потенциала в возрождении города Шуши. Объектом исследования является его историко-культурный потенциал как приоритетная основа развития его социальной структуры в городе. В качестве заключения исследования выдвинуты предложения по возрождению городской культуры.

**Ключевые слова:** город, культура, возрождение, ценности.

**Ways of reviving cultural values in the city of Shusha and making them accessible to the general public**

**Abstract**

The relevance of the topic of the article is related to the definition of the features of the visual framework of the modern city, the restoration of its historical and cultural heritage of Shusha city, and on the other hand, its practical significance for the revival of the city. The purpose of the article is to analyze the formation, principles of organization and definition of the urban environment, urban society and urban spiritual space, as well as to prepare recommendations for the use of historical and cultural potential in the revival of the city of Shushi. The object of research is its historical and cultural potential as a priority basis for the development of its social structure in the city. As the conclusion of the research, proposals for the revival of urban culture have been put forward.

**Keywords:** city, culture, revival, values.

**Giriş**

İlk növbədə mədəniyyət sözünün mənasını izah etmək üçün onun yaranma dövrü barədə fikirlərə nəzər saldıqda "kənd təsərrüfatı"nın əhəmiyyəti ilə üst-üstə düşür. Dilçilər ehtimal edirlər ki, "mədəniyyət" sözünün mənşəyi latın dilindən əmələ gəlmişdir ki, bu da torpaq mədəniyyəti mənasını verir. "Mədəniyyət" sözünün kökü latınca "kultura"dan əmələ gəlib, işləmə, qulluqetmə, mükəmməlləşdirmə, o cümlədən tərbiyə, inkişaf, tərəqqi mənalarını bildirir [1,s.8]. Başqa bir fikir deyir ki, mədəniyyət sözü, yaşayış, təhsil və saxlama mənalarında istifadə edildiyi göstərilir [2, s.106-107]. Elmi mülahizələrdə "mədəniyyət" məfhumu əsasən varlığın və şüurun bütün sahələrində bəşəriyyətin predmetləşdirmə (sərvətlər, normalar, işarə sistemləri yaradılması və s.) və predmetsizləşdirmə (mədəni irsin mənimsənilməsi) proseslərinin mübarizə əsasında birləşməsindən ibarət, reallığın yenidən dəyişdirilməsinə, cəmiyyətin tarixi zənginliyinin şəxsiyyətin daxili zənginliyinə inteqrasiyası, insanın inkişaf etdirilməsinə yönəldilmiş sosial-mütərəqqi yaradıcı fəaliyyəti kimi izah edilir [3, s.25].

Mədəniyyətin kökü uzun zaman əvvəllərə təsadüf etsə də, bütün ibtidai və müasir cəmiyyətlərdə mövcuddur. Mədəniyyətin iki əsas yanaşma üzərində formalaşdığına bütün cəmiyyətlərdə şahid olmaq mümkündür. Burada mədəniyyətin maddi və mənəvi tərifini yanaşmaların məzmununu əks etdirir. Maddi mədəniyyət ümumiyyətlə əsas ehtiyaclarımızı ödəmək üçün inkişaf etdirilən əlaqələrdən yaranır. Bu səbəbdən, bütün insanlar maddi mədəniyyət elementləri üzərində həmfikirdirlər. Bu elementlərə mənzil, yemək (qidalanma), geyim, evlilik, nitq, dini ehtiyaclar, incəsənət, əyləncə və s. daxildir. Məhz bu baxımdan mədəniyyət, cəmiyyətlərin bu ehtiyacları qarşılama üsulu olaraq ortaya çıxan bir anlayışdır. Ona görə də hər bir cəmiyyətin öz ehtiyaclarını ödəməkdə göstərdiyi fərqlər həmin cəmiyyətin milli mədəniyyətini meydana gətirmiş olur [4, s. 357].

**Şuşa şəhərinin xüsusiyyətləri**

Şuşa Dağlıq-Qarabağın mərkəzində, Qarabağ silsiləsinin ətəklərində, dəniz səviyyəsindən 1368 m yüksəklikdə, Yevlax-Goris-Naxçıvan magistral yolunun üstündə, Xankəndi şəhərindən 11 km cənubda və Ağdam 37 km cənub-qərbdə yerləşir [9]. Şuşanın qədim tarixinin izləri şəhərdə və onun ətrafında olan çoxsaylı qədim abidələrdə qorunub saxlanılır. Onlardan ən təsirlisi XVIII əsrdə paytaxtı Şuşa olan Qarabağ xanlığının banisi Pənah Əli xan tərəfindən tikilmiş və Xanlığın Rusiya imperiyasının tərkibinə daxil olduğu 1748-ci ildən 1822-ci ilə qədər mövcud olmuş Şuşa qalasıdır [10].

Maddi və mənəvi irs insanın əsrlər boyu özündən sonra qoya biləcəyi ən böyük dəyərdir və biz onları qorumağa borcluyuq ki, gələcək nəsillər üçün qorunsun. Mədəni irs obyektinin ictimai əlçatanlığı və qavranılması üçün bir fürsətdir. Şəhər mədəniyyətinin tərkib hissəsi sayılan muzeylər, kitabxanalar, parklar, musiqi məkanları, qalereyalar və s. kifayət qədər olması şəhər imicinin tanıdılmasında müstəsna əhəmiyyət kəsb edir. Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşada turistləri cəlb edən müxtəlif memarlıq abidələri, Azərbaycanın dini və mədəni irsi var. Bunlara daxildir [10]:

1. Yuxara Gövhər ağa məscidi.
2. Saatlı məscidi.
3. Azərbaycan klassik musiqisinin banisi Üzeyir Hacıbəylinin evi.
4. Son Qarabağ xanının şairə qızı Xurşidbanu Natəvanın evi.

5. Bülbülün evi.
6. Şair Mola P. Vaqifin dəfn olunduğu yerdəki məqbərə.

Şəhərin görkəmində əsas ticarət, idarəetmə və dini məntəqələri diqqət mərkəzində olan nöqtələrdəndir. Hal-hazırda bu məntəqələrin şəhərlərin daha çox funksionallığı baxımından əhəmiyyəti böyükdür. Şəhərlər, xəbərlər, mallar, kapital, insanlar və s.elementlərin dəyişməsində çox təsirli rol oynayır. Başqa bir mühüm şey də vaxt və məkan təsir edir.

**Şəhər mədəniyyəti və mədəni siyasətin planlaşdırılması**

Vahid mədəni mühitin yaradılması zəruri şərti-inteqrasiya edən dəyərlər sisteminin formalaşdırılması ilə əlaqədardır. Ərazinin mədəni siyasətin planlaşdırılmasında tomlumun sosial-mədəni dircəlişini prinsipcə yeni əsaslarının nəzəri cəhətdən dərk edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu, ilk növbədə, mədəni siyasətin qeyri-mərkəzləşdirməyə, üfüqi mədəni strukturların sürətli inkişafına, ayrı-ayrı mədəni qrupların artırılmasına və s. istiqamətə yönləndirilməsidir.

Şəhər elə bir tomlumun yerləşdiyi ərazidir ki, burada bütün sosial qrupların nümayəndələrinə, yerli mühitdən olan insanlara və yad adamlara, digər etnososial formasiyaların, şəhərlərdə daim toplanan fərqli mədəniyyətin nümayəndələrinə daimi olaraq bir-biri ilə ünsiyyət qurmaq imkanı verir [5,s.30].: “Şəhər” tarixi inkişafın amili kimi ümumbəşəri əhəmiyyətli və yerli şəkildə təzahür edən mərhələyə xas xüsusiyyətlərin, səviyyə xüsusiyyətlərinin müəyyənləşdirilməsini nəzərdə tutur. Bu baxımdan “şəhər” anlayışının müvəqqəti tərifi ilə bağlı suallar xüsusi diqqət mərkəzində olmuşdur.

Müasir “şəhər” sivilizasiyası ətraf mühiti, sosial institutları və gündəlik həyatı sürətlə dəyişdirir. Bu baxımdan şəhər innovativ mərkəz kimi xüsusi maraq doğurur. Şəhər əmələ gətirən obyektlər şəhərin inkişafının ilkin amilidir. Şəhər əmələ gətirən baza özündə sahə, müəssisə, təsisat və təşkilatlar məcmusunu birləşdirir. Həmin müəssisə və təşkilatların fəaliyyəti konkret şəhərin hüdudlarından kənara çıxan funksiyaların, o cümlədən yerli əhalinin məğşulluğunun və istər bu şəhərin, istərsə də digər yaşayış məntəqələrinin əhalisi üçün əmtəə istehsalının təmin edilməsinə dair funksiyalar icrası məqsədi daşıyır.

“Şəhər mədəniyyəti” termini insanların mövcudluğu və özünü dərk etməsi üçün yaratdığı süni mühiti ifadə edən ümumiləşdirilmiş kateqoriyadır. Şəhər mədəniyyəti iri və orta qeyri-kənd təsərrüfatı yaşayış məntəqələrinin, adətən iri sənaye və inzibati mərkəzlərin mədəniyyətidir. Bu, fiziki, simvolik obyektlərin, texnologiyaların, normativ və dəyər formalaşmalarının mütəşəkkil məcmusudur. Müasirləşmə prosesi şəhər mədəniyyətinin inkişafı ilə sıx bağlıdır. Şəhər nə qədər böyükdürsə, onda mədəni-mənəvi dəyərlər bir o qədər fəal olar.




**Şəkil 1. Şəhərdə mədəni-mənəvi dəyərlər.**

Cəmiyyətin həssas hisslərini təcəssüm etdirən mədəni-mənəvi dəyərlər müəyyən məkanda mövcud olan tomlumun kütləvi cəhətlərini özündə cəmləşdirir. Mədəni həssaslıq mədəniyyət haqqında yeni düşüncə tərzidir. Bu, öz mədəniyyətinizin ideyaları, inancları və dəyərləri ilə ziddiyyət təşkil edə biləcək yeni ideyalara açıq olmaq və bu fərqləri bərabər görə bilmək deməkdir. Məsələn, bir çox mədəniyyətlərdə mənəvi inanclar ümumi rifahın vacib hissəsidir.

Müasir şəhərlərdə mədəniyyət siyasəti və ya mədəni planlaşdırma dedikdə şəhər rəhbərliyinin mədəniyyətin inkişafı yolu ilə şəhərin inkişafına yönəlmiş ifadəli, praktiki olaraq həyata keçirilən səylərini nəzərdə tutulur [6, s.51]. Şəhərin mədəniyyət siyasətini məqsədyönlü peşə fəaliyyəti kimi anlamaq üçün üç yanaşmanı nəzərdən keçirilir. Birincisi, konseptual və ideoloji yanaşmadır. Bu yanaşma kənardan qoyulur və mədəniyyətin növündən asılıdır. Bizim halımızda Burada şəhərin şəhərsalma, tarixi ənənələri, ideologiyası kimi mədəni elementlər şəhərin inkişafının tərkib hissələrindən biri kimi çıxış edir.

İkincisi, sosial siyasətin mühüm tərkib hissəsi sosial-mədəni yanaşma və mədəniyyət siyasətidir. Sosial-mədəni proseslər bir-biri ilə mürəkkəb və ziddiyyətli qarşılıqlı əlaqədə olan indikatorlar toplusudur: təhsil, ideya, etno-millət, dini konfessiya, dünyagörüşü, mənəvi-mədəni, dəyərli-yönümlü. Postsovet Belarus və Rusiya cəmiyyətinin aparılmış təhlili göstərdi ki, əhali sosial-mədəni dəyişikliklərin mürəkkəb, dəyişkən və xaotik inkişaf edən mənzərəsidir. Sosial-hüquqi dövlətin formalaşmaması şəxsiyyətin sosial və mənəvi inkişafında, cəmiyyətin rifahında və stratifikasiya quruluşunda öz əksini tapır [7,s.129].

Şuşa şəhərində əhaliyə mədəni və istirahət xidmətlərinin mövcudluğunun təmin edilməsi yolları aşağıdakı formada ola bilər:

1. Əhalinin mədəniyyət və istirahət müəssisələri ilə təmin edilməsi üçün sosial normalar və standartlar nəzərə alınmaqla mədəniyyət və istirahət müəssisələri şəbəkəsinin rasional yerləşdirilməsi.
2. Mədəniyyət xidmətlərinin mobil formalarında istifadəsi. Bu tip mədəniyyət xidmətləri müxtəlif növ səyyar xidmət sektoru olan stasionar klub müəssisələri tərəfindən həyata keçirilir.
3. Şəhərdə əhaliyə göstərilən bütün xidmətlərin maliyyə əlçatanlığını təmin edilməsi üçün pulsuz və pullu xidmətlərin balanslaşdırılmış və iqtisadi cəhətdən əsaslandırılmış nisbəti ilə təklif edilməsi.
4. Şəhərdə sosial, siyasi, bədii, yaradıcı, mədəni və əyləncə xarakterli peşə fəaliyyətləri ilə məşğul olan “həvəskar assosiasiyalar”ın yaradılması. Bu çür birliklər əhalinin asudə vaxtının mənalı təşkilinə töhfə verməsinə xidmət edə bilər.
5. Şəhərdə sosial və ictimai rifahin yüksəldilməsi. Sosial rifah ilk növbədə əhalinin həyat keyfiyyətini təsvir edir. Sosial rifah şəxsin istək və üstünlüklərdən məmnunluğunu ifadə edir. İctimai rifah dedikdə isə, cəmiyyət üzvlərinin ümumi faydalılığının maksimallaşdırılmasından nəzərdə tutulur.

**Mədəniyyət dövlət siyasətinin tərkib hissəsi kimi**

Mədəniyyət siyasətinin həyata keçirilməsi dövlət idarəetmə orqanlarının ictimai həyat fəaliyyətinin sosial sferasında ən mühüm fəaliyyət istiqamətlərindəndir. Cəmiyyət üzvlərinin mədəni tələbatlarının ödənilmə dərəcəsi və deməli, əhalinin həyat keyfiyyəti əsasən idarəetmə orqanları tərəfindən mədəni fəaliyyətin təşkili və həyata keçirilməsinin müvəffəqiyyət səviyyəsindən asılıdır.

Mədəniyyət öz potensialında dövlətin inkişafı üçün ən mühüm strateji resursdur. Mədəni dəyərlərin geniş əhali üçün əlçatanlığı müasir cəmiyyətdə həyat keyfiyyətinin ən mühüm göstəricilərindən birinə çevrilir. Mədəniyyətin fundamental xüsusiyyəti ondan ibarətdir ki, mədəni fəaliyyətin ən mühüm nəticələri sosial effektdə ifadə olunur və intellektual potensialın artmasında, insanların dəyər oriyentasiyalarının və davranış normalarının dəyişməsində təzahür edir ki, bu da son nəticədə cəmiyyətdə sosial dəyişikliklərə vadar edir.

21-ci əsrin sosial-mədəni institutları kimi dövlət mədəniyyət müəssisələrinin əsas funksiyalarına milli mədəniyyətin nailiyyətlərini, mədəni fəaliyyətin ənənəvi formalarını qorumaq və inkişaf etdirmək; həvəskar bədii yaradıcılığın bütün təzahürlərini təkmilləşdirmək; yaradıcı şəxsiyyətləri və istedadları aşkar etmək və dəstəkləmək; vətəndaşların intellektual və yaradıcı potensialının reallaşmasına və mənəviyyatının yüksəlməsinə şərait yaratmaq; ictimai birliklərin, o cümlədən milli mədəniyyətlərin inkişafına kömək edən ictimai əhəmiyyətli yaradıcı təşəbbüsləri dəstəkləmək; sosial-mədəni sahədə fəaliyyət göstərən təşkilatların fəaliyyətinin daha dolğun informasiya və metodiki təminatına yardım etmək daxildir. Dövlətin mədəniyyət müəssisələrinin yaradıcıq imkanlarına insanların həyatını dəyişə bilən sosial-iqtisadi resurs kimi baxılır. Mədəniyyət şəhərin ruhudur. O, insanları bir araya gətirə, mədəni anlaşma üçün körpülər qura və icma şəxsiyyəti və imkan hissini təmin edə bilər. Şəhərin mədəniyyət siyasətinin prinsipləri aşağıdakı kimi müəyyən edilir:

1. Şəhərin bütün sakinlərinin mədəniyyət hüququ vardır. Mədəniyyət hər kəs üçün vacibdir. Onu müəyyən elitaya mənsub hesab etmək olmaz, o, "bütün sosial qrupların yaradıcılıq fəaliyyətini və

təxəyyülünü stimullaşdırmaq vasitəsidir. Mədəni demokratiyanın universallığı İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 27-ci maddəsində təsbit olunub [12].
2. Şəhərlərdə mədəni layihələrinin icrası ərazinin mədəni və sosial dircəlişinə təkan verir. Mədəni dircəliş məsələsi milli dövlətlərin imkanlarının və məsuliyyətinin, iqtisadi reallıqların və müxtəlif ictimaiyyət tərəfindən ifadə olunan sosial tələbatın dəqiq qiymətləndirilməsinə əsaslanan dövlət siyasətinə yeni yanaşma tələb edir. Beləliklə, açıq iqtisadiyyat kontekstində mədəni inkişaf məsələsi demokratiya məsələsidir, çünki mədəni inkişafı insanların ictimai həyatda iştirak etmək üçün zəruri olan fərdi və kollektiv resursları əldə etməsi prosesi kimi müəyyən etmək olar [13]. Mədəniyyət siyasəti iqtisadi inkişafa, cəmiyyət hissinin yaranmasına səbəb olur. Bu siyasət cəmiyyətin işlərinin idarə olunması ilə ictimaiyyətin məşğulluğa təsir edi və əhalinin ən az qorunan seqmentlərinin sosial canlanmasına kömək edə bilər. Beləliklə, bu siyasət şəhərin hərtərəfli siyasətinin əsas elementidir və şəhərlərdə yaşayışın keyfiyyətini yaxşılaşdırmaq və insan hüquqlarının təmin edilməsi üçün ümumi siyasətin tərkib hissəsidir.
4. Mədəniyyətin nailiyyətlərini əhalinin mədəni tələbatının ödənilməsinə yönəldilməsi prinsipi. Mədəni inkişafa nail olmaq üçün əsas vasitə şəhər mədəniyyətinin infrastrukturudur. Bu infrastruktur əsasən əhaliyə xidmət etməli və öz fəaliyyətində sosial effektivliyin keyfiyyətinə diqqət edilməlidir.
5. Müxtəlif yaş və sosial statuslu şəhər sakinlərinin ehtiyac və maraqlarının daim nəzərə alınması prinsipi. Bu prinsiplərin həyata keçirilməsi o demək deyil ki, biz özümüzü peşəkar mədəniyyət xadimlərindən uzaqlaşdırırıq. Nəhayət, onlar öz peşə oriyentasiyalarına yenidən baxmalı, sosial tərəfdaşlıq və şəhər dialoqu şəraitində öz yaradıcı və peşəkar potensiallarından istifadə etməyi öyrənməli olacaqlar. Ona görə də mədəniyyət müəssisələri şəhər ictimaiyyətinin ehtiyaclarına daha çox uyğunlaşacaq, onların inkişafında daha dinamik olacaq. Vətəndaşlar özləri onlar üçün məqbul olan yenilikləri seçib şəhər mədəniyyətinə inteqrasiya edəcəklər. Sosial mədəni inteqrasiya dedikdə qəbul edən ölkənin mədəni məkanına və sosial münasibətlərinə dolğun, fəal nüfuz edə bilməyi nəzərdə tutur. Gündəlik həyatda fəal iştirak, yerli infrastrukturla qarşılıqlı inteqrasiya bu səviyyədə gerçəklənir. Son nəticədə inteqrasiya ictimai həyatın bütün sahələrində tamhüquqlu iştirak etmək deməkdir [8, s.103].
6. Mədəni dircəliş təkcə yerli özünüidarəetmə orqanlarının məsuliyyəti deyil. Bu, müxtəlif vasitələrlə, vergi daxilolmaları ilə şəhərin sənaye və ticarət təşkilatları ilə bağlı ola bilər. Bu, həm peşəkar incəsənətin, həm də həvəskar yaradıcılığının daha fəal iştirakı və dəstəyi ilə həyata keçirilir.

Şəhər mədəniyyətinin əsasını əhalinin dinamik dəyişməkdə olan tələbatını ödəyən sahələr təşkil edir. Şəhərin mədəni-təsərrüfat sistemi aktual məqsədlərə nail olunmasına və qarşıya qoyulan məsələlərin yönəldilən bir sıra funksional və təminedici yarımsistemləri özündə birləşdirir. Belə yarımsistemlər arasında, özündə şəhər əhalisinin xidmətlərlə təminatının vacib sferasını ehtiva edən şəhərin mədəni sisteminin tərkibində xüsusi yer tutur. Şuşa şəhərinin mədəniyyətinin inkişafı istiqamətində dövlət siyasətinə uyğun olaraq prioritet vəzifələrə aşağıdakıları aid etmək olar:

- gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi, innovativ mədəniyyətə cəlb edilməsi və yaradıcılığın həvəsləndirilməsi;
- sakinlərin yaradıcı potensialının inkişafı, bütün sosial təbəqələrin milli və dünya mədəniyyəti dəyərlərinə geniş çıxışının təmin edilməsi;
- şəhərdə məskunlaşacaq sakinlərin mədəni dəyərlərinin və adət-ənənələrinin, maddi və qeyri-maddi mədəni irsinin qorunması və ondan mənəvi və iqtisadi inkişaf üçün bir mənbə kimi istifadə edilməsi;
- xarici ölkələrdə Şuşa şəhər mədəniyyətinin yüksək nüfuzunun saxlanılması və beynəlxalq mədəni əməkdaşlığın genişləndirilməsi;
- mədəni xüsusiyyətlərin və təcrübələrin müəyyən edilməsi yolu ilə icma yaradıcılığı və birliyinin təşviq edilməsi.

**Nəticə**

Şuşa şəhəri kapitalın cəlb edilməsi məqsədi ilə yüksək səviyyədə və iqtisadi cəhətdən sərfəli bir yerdədir. Cəlbedicilik baxımından mədəni, tarixi və geosiyasi mövqeyi şəhərdə mühüm rol oynayır. Şəhərdə beynəlxalq turizm fəaliyyətin cəlb edilməsi üçün lazımi infrastruktur mövcuddur.

Şuşa şəhəri işğaldan azad edildikdən sonra sosial-iqtisadi inkişafının layihələndirilməsi və itirilmiş mənəvi dəyərlərin dirçəldilməsi üçün kompleks tədbirlərin icrası olduqca əhəmiyyətlidir. Şuşa şəhərində mədəni potensialın dircəlişi üçün bir sıra tədbirlər həyata keçirməsi zəruridir:

1) Şuşa şəhərinin mədəni irs obyektlərinin təhlükəsizliyinin təmin edilməsi;
2) mədəniyyət, incəsənət, tarixi-mədəni irsin qorunması və istifadəsi məsələləri üzrə regionlararası və beynəlxalq əlaqələrin inkişafı;
4) Şuşa şəhərində mədəniyyətin dircəlişinin əsas istiqamətlərinin proqnozlaşdırılması və mədəniyyət və incəsənətin inkişafına, o cümlədən tarixi və mədəni irsin qorunması və istifadəsi ilə bağlı fəaliyyətlərə kömək edən qurumlar və təhsil müəssisələri şəbəkəsinin yaradılması;
5) Şuşa şəhərinə məxsus tarixi və mədəni irs obyektləri (tarix və mədəniyyət abidələri) üzərində məlumat yazılarının və işarələrinin quraşdırılmasının həyata keçirilməsi, və mədəni irs obyektlərinin mühafizəsi üzrə təhlükəsizlik orqanları ilə razılaşma;
6) mədəni məkanın və mədəni dəyərlərin əhalinin bütün təbəqələri üçün əlçatanlığının təmin edilməsi və effektiv imic siyasətinin təmin edilməsi, yaradıcılığın, innovasiyaların və sosial rifahın inkişafı.
7) İnformasiya ötürülməsinin "pre-elektron" kanalları (vizual incəsənət, ifaçılıq sənəti, muzeylər və irs), habelə müasir mədəniyyət sahələri (filmlər, video, səs yazısı, televiziya yayımı, nəşrlər, dizayn, moda) ilə bağlı geniş müəssisə və insan kütlələrinə çatdırılmasının asanlaşdırılması [14].
8) İctimai binaların təmiri, yeni təhsil və mədəniyyət sahələri üçün uyğunlaşdırılmış təkrar istifadə yolu ilə ictimai məkanların estetikası yaxşılaşdırılması.

**Ədəbiyyat siyahısı:**


1. M.J.Manafova, N.T.Əfəndiyeva və S.A.Şahhüseynova, "Mədəniyyət tarixi və nəzəriyyəsi".Dərslik.Bakı 2010;
2. Raymond Williams, Anahtar Sözcükler: Kültür ve Toplumun Sözvarlığı. (S.Kılıç, Çev.), İletişim Yayınları. İstanbul, 2005 (əsli 1976-cı ildə yayımlanmışdır);
3. Namiq Abbasov. Mədəniyyət siyasəti və mənəvi dəyərlər. Bakı, 2009;
4. Muhammet Kürşat, "Hukuk ile kültür ilişkisi", TAAD, Yıl:7, Sayı:28 (Ekim 2016);
5. В.Л.Глазычев, Г.А.Гольц, С.П. Карпов, Т.Б. Князевская, Э.В. САЙКО, А.Л. ЯСГРЕБИЦКАЯ, "Город как социокультурное явление исторического процесса", М
6. Д.В.Галкин, "Стратегии культурного развития городов: современные подходы", журнал социологии и социальной антропологии 2005 том №4;
7. М.А. Ласточкина, А.Н. Ласточкин, "Социокультурный подход к анализу стратификации современного общества", Проблемы развития территории, 2 (88) – 2017
8. Aslanova R.N. XXI asr: Yeni mədəniyyət məkanına inteqrasiya. Bakı, "Nurlan" nəşriyyatı, 2007.
9. https://www.ens.az/az/susanin-tarixi-tarixin-susasi
10. https://azerbaijan.travel/poezdka-v-shushu
11. https://azerbaijangid.ru/shushinskiy-rayon-azerbaydzhana/
12. https://www.un.org/ru/documents/decl_conv/declarations/declhr.shtml
13. https://cjc.utpjournals.press/doi/10.22230/cjc.1994v19n3a822
14. https://www.ens.az/az/susanin-tarixi-tarixin-susasi


---


**Pərvin Ahənçi**
t.ü.f.d., dosent
Tarixi araşdırmalar üzrə mütəxəssis
Biznesin İdarəedilməsi kafedrası
Bakı Ali Neft Məktəbi
parvin.ahanchi@bhos.edu.az


## "Şuşa nağılı" - Şuşada mədəniyyət iqtisadiyyatının inkişaf etdirilmə yollarının axtarışı kontekstində

### Xülasə


Məqalənin müəllifi ömrünün ən mənalı birinci qərinəsini (1963-1988) məhz dağların zirvəsində ucalmağa layiq olan əsrarəngiz dogma Şuşada yaşayıb. Təqdim edilən məqalədə müəllif uşaqlıq və gənclik xatirələrindən canlanan Şuşanın sağlamlıq mərkəzi, cəlbedici turizm məkanı olmasından və yerli, əcnəbi turisltərin şəhərə səyahhətlərindən söhbət açır. Zəngin təbii bitki

aləminin məhsulundan "Yaşıl Aptek" şəbəkəsinin yaradılması, kompüter "mausları" xalçacıklarının toxunması, qurama el sənətinin bərpa edilməsi, Turşsu mineral suyunun qablaşdırılması, Cıdır düzündə el oyunları, "Xarıbülbül" festivallarının beynəlxalq formatda ilbəil keçirilməsini və bir sıra başqa məqamları hazırkı müdrik yaşının spektrindən təhlil edərək, Şuşada mədəniyyət iqtisadiyyatının inkişafına təkan verə biləcəyi mühüm amillərdən bəhs edir.

**Açar sözlər:** "Şuşa ili", mədəniyyət iqtisadiyyatı, Şuşanın turizm potensialı, "Yaşıl Aptek" şəbəkəsi, qurama el sənəti, Turşsu mineral resursu, el oyunları, "Xarıbülbül" festivalı.

**Giriş**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2022-ci il Azərbaycan xalqının tarixi salnaməsinə mədəniyyət paytaxtı "Şuşa ili" kimi həkk edildi. Şuşa, zamanla çarpışaraq, Zəfərin ən əzəmətli zirvədə bərqərar olduğu tacı yenidən qürurla daşımağa layiq oldu. Sücaətli Azərbaycan oğulları bu mötəbər, yenilməz tacı onun "başı dumanlı, qırmızı koftalı, yaşıl tumanlı" qürurlu dağların başına fəxarətlə ucaltdılar. Bu gün Azərbaycan xalqı Şuşanın Zəfər dağlarından önə çıxmış ən yeni, şərəfli, zəfərli tarixini yazır.

Hazırda Azərbaycan hökuməti minalanmış ərazilərin təmizlənməsi ilə yanaşı, Qarabağın erməni işğalından azad edilmiş ərazilərində genişmiqyaslı tikinti-bərpa işləri aparır. Rayonun iqlim xüsusiyyətləri və təbii sərvətlərinin potensialı nəzərə alınmaqla kənd təsərrüfatı və sənaye komplekslərinin dirçəldilməsi üçün çoxvektorlu layihələr həyata keçirilir. Bundan əlavə, "ağıllı şəhərlər və kəndlər" qabaqcıl rəqəmsal layihələri çərçivəsində Qarabağın onilliklər ərzində dağıdılmış infrastrukturunun formalaşdırılması istiqamətində işlər aparılır. Bu möhtəşəm layihələrin tərkib hissəsini Şuşada geniş formatda reallaşdırılan tikinti-bərpa işləri təşkil edir.

Söyləyəcəyim "Şuşa nağılı" bütün nağılların ilk misralarından başlayır... Biri var idi, biri yox idi, Uca Tanrının bəxş etdiyi zəngin təbiət, gözəllik, saf, təmiz hava, şəffaf çaylar, mineral sular, yaşıl, qoynu müxtəlif agaclarla dolu meşələr, bənövşəli, laləli, xarıbülbüllü, növruz güllü çəmənlər, dünya şöhrətli Qarabağ atlarının məharət meydanı - Cıdır düzü, Pənahabad Qalasından dünyaya göz açmış Şuşa adlı cazibədar bir şəhər var idi... Bu şəhərin, onu qurub-yaradan və daha da çox gözəlləşdirən, qürurlu, mehriban, nəsilli-nəcabətli insanları – qalalılar, şuşalılar var idi...

Şuşada qış fəsli çoxlu miqdarda qar yağıntıları, sərt soyuq hava ilə müşahidə olunurdu. Yollar buz bağlayırdı, bulaqlar donurdu, dağların dumanından magistral yollarda hərəkət çətinləşirdi. Sakinlər, bu qarlı-buzlu, dumanlı-çiskinli havanın (sanki heç zaman bitməyəcək!) bitməsini, ardınca baharın gəlişini xüsusi bir səbirsizliklə gözləyirdilər.

Ulu əcdadlarımızdan ərməğan qalmış Novruz bayramının şənliklərinin keçirilməsindən sonra Yay fəsli Şuşaya qonaq gəlirdi. Şuşalılar çoxlu sayda yerli və əcnəbi turistlərin ziyarətinə yerli muzeylərin qapılarını hər zaman açırdılar.

Yay Şuşasının obrazı arasıkəsilməyən turistlər, qonaqlar və "gəlmələrlə" assosiasiya olunurdu. Məktəblilər tətillərə çıxanda, aran rayonlarda (ata-babalarımızın sözlərilə, "aşağı rayonlarda") isti havaların başlanmasından sentyabr ayının birinə kimi şəhər "gəlmələrin", turistlərin gəlişilə canlanırdı. "Gəlmələr" Şuşanın sərin havasına, bol nemətinə, qonaqpərvər insanlarına vurğun idi. Bu münasibətlər ənənəvi olaraq əsrlərcə davam edirdi.

Qonaq və turistlərin gəlişilə şəhərdə atraksionlar, gözəl parklar, Turşsu bulaq-fəvarələri, füsunkar Cıdır düzü, İstirahət evi, sanatoriyalar, "Şəfa" turist bazası, məktəblilər üçün istirahət düşərgələri, dahi sənətkarlarımız Üzeyir Hacıbəyli və Bül-Bülün ev-muzeyləri, Şuşa tarix və Xalça muzeyləri, rəsm qalereyası cəlbedici məkanlara çevrilirdi. Şuşanın möcüzəli İsa bulağı, Turşsu, Səkili bulağı, Xan qızı bulağı, Soyuqbulaq, Yüzbulaq, Qırxbulaq, Çarıqbulaq insanların seçdikləri ən gözəl yerlər idi.

Şirin, şəkər xatirələrə günbəgün həkk olunan Şuşa nağılı öz axarı ilə davam edərdi, əgər bir gün mənfur qatı erməni millətçiləri Qarabağ tac-tağının zirvəsindən Şuşanı işğal etməsəydilər...

Dağlıq Qarabağ münaqişəsi və Birinci Qarabağ müharibəsi nəticəsində Şuşa şəhərinin sakinləri ata-babalarının əsrlərcə yaşadıqları doğma torpaqlarını məcburən tərk etməyə vadar oldular. Hadisələrin sürətlə gərginləşməsi, şəhərin mütəmadi atəşə tutulması evlərin, idarələrin dağıntılara məruz qalması, yüzlərlə insanın ölümü, sakinlərin öz mülklərini tərk edib zirzəmilərdə sığınacaq tapmaqları ilə nəticələndi. İnsanlar kitablardan oxuduqları, filmlərdə izlədikləri, heç ağıllarına belə gətirmədikləri müharibə şəraitində yaşamaq məcburiyyətində qaldılar.

Xankəndində dislokasiya olunmuş sovet 366-cı motoatıcı alayı separatçı qüvvələri hərbi ləvazimatla, o cümlədən “Kristall”, “Alazan” raketlərilə təmin etməsi Şuşanın yollarında, ətraf kəndlərində, eləcə də şəhərin daxilində sabit həyata son qoydu. Davamlı gərginlik, qeyri-müəyyənlik, stress, qorxu, erməni ultramillətçi qruplarının günahsız insanlara qarşı törətdikləri terror hadisələri ümumilikdə bütün Şuşa rayonunun sakinlərini məcburən yaşadıqları əraziləri tərk etməyə məcbur etdi.

8 may 1992-ci ildən Şuşa nağılının qap-qara rəngə boyanmış qaranlıq səhifələri başladı. Onun saf bulaqlarının göz yaşları sellərə qovuşaraq 28 il ərzində bu kəlmələri deyirdi:

*Şuşanın dağları qara dumandır*
*İsa bulağı gözləri qandır.*
*Gəlmə, ey Bahar, gəlmə amandı!*
*Şuşamın bağrı talan-talandır...*

Şuşanın cəsur oğulları onun müdafiəsinə qalxsalar da lakin onu müdafiə edə bilməmişdilər, lakin qeyrət andı içmişdilər ki, bir gün Şuşanın zirvəsinə Azərbaycan bayrağını sancacayıq.
8 noyabr 2020-ci il Şuşa fatehlərinin sücaəti, cəsurluğu sayəsində Şuşa erməni taptağı altından əbədi azad oldu.

Azadlığına qovuşan Şuşam 28 il ərzində düçar olduğu dərin mənəvi, fiziki sarsıntılardan bir başa dirçəliş yoluna əminliklə qədəm qoydu. Bu dirçəliş yolları onun azadlığı üçün bütün Azərbaycan xalqını əzəmətli “Dəmir yumruq” ətrafında birləşdirmiş Prezident başda olmaqla qələbə əzmindədir.

Şuşa şəhərində mədəniyyət iqtisadiyyatının inkişaf etdirilməsinin yolları müəllif tərəfindən ilk dəfə olaraq bir sıra orijinal təkliflərlə aşağıda kimi verilir:

**1. Turizm fəaliyyətini geniş formatda inkişaf etdirilməsi**. Şuşada XX-ci əsrin 30-cu illərindən əsası qoyulmuş turizmin fəaliyyətini geniş formatda davam etdirmək önəmli əhəmiyyət kəsb edir. Öncəki əsrdə fəaliyyət göstərmiş Şuşa “Turşsu”, “Şəfa” turist bazalarını, Səyahətlər və Ekskursiyalar Bürosunun turizm potensialını önə çəkərək beynəlxalq və yerli turistlərin səyahətlərinin genişləndirilməsi Şuşa şəhərinin büdcəsinə ciddi gəlir gətirən mənbə olacaq.

**2. Kiçik həcmli kompüter “maus”-xalçacıkların (“mouse-pad”) toxunması**. Şuşada, Azərbaycanın başqa bölgəri ilə bərabər xalçaçılıq da inkişaf etmişdi. İşğalçılar insan kapitalı ilə bərabər tək ərazi bütövlüyünə deyil, həmçinin mədəniyyət abidələrinə qarşı dağıdıcı mövqe nümayiş etdirmişdilər. Bütün bu dövrü Şuşa xalçaları ermənilərə məxsus olan mədəniyyət inciləri qismində təqdim olunurdu. Hazırda erməni iş adamları tərəfindən Azərbaycan xalçaları nümunələrindən hazırlnamış və özününküləşdirilmiş “mouse-pad” formatında məmulatlar nəhəng beynəlxalq aeroportlarda satışa çıxarılıb. Kiçik həcmli xalçacıklardan Şuşada “mous-pad”ların toxunması böyük töhfə olardı. Bu xalçacıkların üzərində Pənah Əli xanın və sonrakı davamçıların Natəvanın, Nəvvabın və b., Şuşanın tarixi-mədəni abidələrinin nümunələrini, gözəl təbiət mənzərələrini, xarıbülbül, Cıdır düzü, İsa bulağı, Alban Qazançı monastrının, Gövhər Ağa məscidlərinin və s. görkəmli tarixi obyektlərin təsvirlərini verməklə onun marketinqini yüksək səviyyədə təşkil edərək, şəhərin büdcəsinə əhəmiyyətli və dayanaqlı gəlir əldə etmək olar.

**3. Şuşada qurama el sənətinin inkişaf etdirilməsi.** İşğaldan öncəki dövrlərdə Şuşada qurama el sənəti inkişaf etmişdi. Məcburi köçkün və qaçqınların xilas edilmiş inciləri bü gün də insanları bu sənətin incəliklərinə valehlə baxmağa vadar edir. Qurama sənəti Azərbaycan xalqının el sənəti kimi bütün tarixi Azərbaycan ərazisi boyunca məhşurdur və geniş yayılmışdır.




Şək. 1. Qurama. Döşəkcə üzlüyü. Şuşa, 1977. Müəllif: Kərimi Lətifə (1927-1992).
Şək. 2. Qurama. Döşəkcə üzlüyü. Şuşa, 1977. Müəllif: Kərimi Lətifə (1927-1992).



Şək. 3. Qurama. Kürsü, divan, böyük sandıq üstü örtüyü. Şuşa, 1980. Müəllif: Kərimi Lətifə (1927-1992).



Şək. 4. Qurama. Döşəkcə üzlüyü. Şuşa, 1985. Müəllif: Kərimi Lətifə (1927-1992).



Şək. 5. Qurama. Döşəkcə üzlüyü. Şuşa, 1985. Müəllif: Kərimi Lətifə (1927-1992).

Təbrizdən, Ərdəbilə, Mərənddən, Astaraya, Gəncədən və İsmayıllıdan Şuşaya qədər yayılmış xanımların yüksək zövqlə, titrək qəlblərindən kiçik parçalara süzülən gözəl, rəngarəngliyilə seçilən mozaika əsərləridir.

Azərbaycan qadınları şəhər və kəndlərdə mövcud olan qurama sənətinin incəlikərini ənənəvi olaraq nəsildən-nəsilə, qız övladlarına ötürürdülər. Nənələrin, anaların sevgi və qayğısı ilə neçə-neçə gözəl arzularının rəngarəng parçacıqlarda bəndlənmiş bu məmulatları qızlarının cehizinə əlavə edirdilər, gəlinlərinə hədiyyə verərdilər.

Qurama sənəti müxtəlif çeşidli xırda həcmli parçaları bir-birinə tikilərək yer üstü, kürsü üstü, döşək və yastıq üzü tikilirdi. Parça qırıqları həndəsi formada, müxtəlif ölçüdə (dördkünc, üçkünc, dairəvi) kəsilirdi, sonra bu parçalar simmetrik şəkildə yerləşdirilərək, tikilirdi. Quramalar böyük həcmdə hazırlanaraq qonaq otağının divarına, girəcəyinə asılırdı, yaxud yerə sərilirdi.

Evin girəcəyində divara vurulmuş asılqanlardan asılmış üst geyimlərinin üstündən asılırıdı. Beləlikə, quramalar evin xanımının səliqə-sahmanına və estetik cəhətdən otaqların gözəl görünüşünə malik olduqlarından bəhs edirlər.

Müəllifin Şuşa məcburi köçkün ailələri arasında apardığı çöl-tədqiqatları nəticəsində qurama sənətinin bir sıra nümunələrinin müəyyən edilməsinə nail olmuşdu. Şuşa sakini Kərimi Lətifə xanımın şəxsi əl işlərinin kolleksiyası mərhumun övladları tərəfindən saxlanılaraq, tarixi, etnoqrafik bir mənbə əsəri kimi böyük maraq və əhəmiyyət kəsb edir. Burada illüstrativ material kimi əlavə edilmiş qurama nümunəsi yaxın zamanlarda yaradılacaq Şuşa tarixi-etnoqrafik muzeyinə verilməsi planlaşdırılır.

Kürsü, divan və böyük sandıq üstü üçün nəzərdə tutulmuş və istifadə olunmuş qurama nümunəsinin astar hissəsi parça materialından ibarətdir. Bu üslubda hazırlanmış qurama məmulatı onu daha dayanaqlı və istifadədə rahatlığını təmin edir.

Müxtəlif çeşidli quramalar cehizlik, yataq örtükləri, mitəkkə və döşəkçələr üzlüyü, oturacaq stulların üzərinə sərilərək istifadə edilirdi. Bu incə bir zövqlə yaradılmışdır, quramalar adətən orijinallığı ilə seçilir, bir-birini təkrarlamırdılar.

Qurama el sənətinin Şuşada inkişaf etdirilməsi mədəniyyət iqtisadiyyatının inkişaf etdirilməsi istiqamətində böyük əhəmiyyət kəsb edə bilər. Hazırlanacaq qurama əsərlərinin nümunələrini turist marşrutları üzərindəki köşklərdən satışının təşkil edilməsi məqsədəuyğun ola bilər. Layihəyə cəlb olunacaq insanlar yaşayış yerlərindən ayrılmadan bu istiqamətdə çalışa biləcək, bu isə öz növbəsində onların sosial-iqtisadi rifahının da yaxşılaşmasına qulluq edəcək.

**4. Turşsu mineral suyunu qablaşdırıb yerli və dünya bazarlarında satışa çıxarılmasının təşkili.** Şuşanın sosial-iqtisadi dirçəldilməsində böyük əhəmiyyət kəsb edə biləcək prioritet istiqamətlərindən biri ola bilər. Şuşada mədə-bağırsaq xəstəliklərinin müalicəsi və profilaktikası sanatoriyasının fəaliyyəti dönəmində tibbi personalın qiymətləndirilməsi, turşsudan müalicəvi vasitə kimi istifadə etmiş minlərlə insanların eləcə də Şuşa sakinlərinin bu mineral suyun tətbiqi onların sağlamlığının bərpası istiqamətində ciddi dönüş yaratdığını qeyd ediblər.

**5. “Yaşıl aptek” şəbəkəsinin yaradılması.** Şuşa ətrafı kəndlər yaşıl meşələrlə zəngindir. Zoğal, əzgil, qoz, fındıq, itburnu, çobanyastığı, kəklikotu, pencər, bağayarpağı, qırxbuğum, çaytikanı, əvəlik, yemlik, turşəng, quzuqulağı, çiriş, baldırğan, şomu, keşniş, cincilim, göbələk, yarpız, yonca və bir çox başqa bitki növləri xalq təbabətində geniş yer tuturlar. İnsan orqanizminin müxtəlif xəstəliklərinin müalicəsi üçün faydalı olan bu bitkilərdən geniş şəkildə istifadə etmək çox vacib məsələlərdən biridir.

Bu layihənin təşkili bir sıra tədbilrərin həyata keçirilməsindən keçir: 1) Şuşanın ətraf kəndlərində kiçikhəcmli xüsusi farmaseft müəssisələri yaratmaq, 2) məhsulların fəsili yığımının təşkil edilməsi, 3) yığılmış məhsulun farma-müəssisələrinə verilməsinin təşkil edilməsi, 4) “Yaşıl aptek” şəbəkəsini yaradılması vasitəsilə təbii (orqanik) bitki dərmanlarını daxili və xarici dərman bazarlarına çıxarılmasının təmin edilməsi.

6. **Şuşanın tarixini, mədəniyyətini əks etdirən müxtəlif həcmli təsvirlərdən geniş çeşidli ölçülərlə təmsil edilən suvenirlərin hazırlanması**. Şuşanın tarixi-arxitektur incilərinin nümunələrindən, təbiət mənzərələrindən, tarixi şəxsiyyətlərin təsvirlərindən müxtəlif həcmli suvenirlərin hazırlanmasının və onların muzeylər, turizm marşrutları ətrafındakı köşklərdə turistlərə satışını təşkil etməsi Şuşanın şəhər büdcəsinə davamlı gəlirin gətirilməsini təmin edə biləcək əhəmiyyətli bir fəaliyyətdir. Nəzərdə tutulan bir sıra mövzuları qeyd etmək faydalı ola bilər: Şuşa qalası, Pənahəli xan, Natəvan, Gövhər Ağa məscidləri, Xarıbülbül, bənövşə, lalələr, Cıdır düzü, Şuşa qala divarları və girişi, Karvansaray, Qazançı Alban monastrı, Xan qızı bulağı, Mamayı bulağı, İsa bulağı, Vaqifin məktəbi-məscid, “Qarabağ” və “Xarıbülbül” otelləri və s. müxtəlif formada və geniş çeşidli materiallardan təklif edilən suvenirlərin, həmçinin maqnitlər üzərində hazırlanması da geniş satış şəbəkəsinin təşkilinə səbəb ola bilər.

**7. Məşhur sənətkarların elektron daşıyıcıları formatında səs yazılarının satışının təşkil edilməsi**. Məşhur sənətkarlar Bülbül, Xan Şuşinskinin CD, yaxud başqa elektron daşıyıcıları formatında konsert ifalarından audio və video yazıların satışının təmin edlməsi şuşalı dahi musiqi sənətkarlarını Azərbaycanın hüdudlarından kənarda tanınması mümkün olar.

**8. “Şuşa fatehlərinin yolu ilə” Şuşa dağlarına dırmaşma yarışının təşkil edilməsi.** Mütamadi olaraq 8 noyabr - Zəfər Bayramı günü “Şuşa fatehlərinin yolu ilə” Şuşa dağlarına dırmaşma yarışının təşkili və qaliblərin müəyyən edilməsi gənclərin vətənpərvərlik ruhunda böyüməsi üçün tərbiyəvi əhəmiyyət kəsb etməklə bərabər, həmçinin Şuşanın mədəniyyət iqtisadiyyatının inkişafına təkan verə biləcək amildir.

**9. Xankəndindən Şuşaya kanat xəttinin çəkilməsi** və gələcəkdə turistlərin, qonaqların istifadəsinə verilməsi Şuşa şəhərinin büdcəsinə dayanaqlı gəlir mənbəsini təmin edə biləcək mühüm konstruktiv layihəyə çevrilə bilər.

**10. “Cıdır düzündə el oyunlarının festivalı”nın ilbəil təşkili.** Pəhlivanların güləşi, atçılıq yarışlarının keçirilməsi ata-baba el adətlərinin qorunması, yaddaşlarda bir daha yaşanmasıdır. İşğaldan öncə Şuşada Novruz Bayramı tədbirlərində əhali tərəfindən ən çox sevilən qədim türk xalqlarının el şənliklərinin müxtəlif növlərini seyr etmək idi. Şuşada keçirilən bayram şənliklərinə Xəlifəli kəndindən dəvət olunmuş cəsur cavanlar Qarabağ atlarını çapar, musiqinin müşayiətilə at oynadardılar, pəhləvanlar məharət və güclərini nümayiş etdirərdilər.

Növruz bayramı şənliklərinin ən parlaq iştirakçısı pəhlivan Qaçay və oğulları idi. Şuşada (eləcə də ətraf kəndlərdə) pəhləvan Qaçayı hamı tanıyırdı, o həm də oğlanlarını da güclü, cəsarətli böyüdürdü. Bu tədbirlərdə pəhləvan ata və oğulları maraqlı, valehedici çıxışlar edərdilər. Onlar güləşər, ağırlıqlar qaldırar, avtomobili onların üstündə hərəkətə gətirərdilər və s.

Beləliklə, Azərbaycan xalqının etno-mədəni yaddaşında olan qədim el-adət ənənələri sovet dönəmində də Şuşada qorunub saxlanırdı və nəsillərdən-nəsilə ötürülürdü. Cıdır düzündə el oyunlarının festivalının keçirilməsi ənənəsinin bərpası Şuşanın mənəvi diriçəlişi üçün də böyük əhəmiyyət kəsb edəcək.

**11. “Xarıbülbül” festivalının beynəlxalq formatında ilbəil keçirilməsi** Şuşanın mənəvi dirçəlməsilə bərabər həmçinin mədəniyyət iqtisadiyyatinin inkişaf etdirilməsində sanballı töhfə olacaq.

**Məmmədova X.F., Məmmədov F.Ə.**
Azərbaycan Texnologiya Universiteti

## Qarabağ iqtisadi rayonunda yungül sənayenin uzun müddətli inkişafı

**Açar sözlər:** yüngül, toxuculuq, material, iqtisadi, əyrici, xammal

Azərbaycanda yüngül sənaye məmulatları ən qədim vaxtlardan hazırlanır. Azərbaycan dünyanın ən qədim xalçaçılıq mərkəzidir. Uzaq keçmişlərdən Azərbaycan xalçaları nəinki valehedici bir əşya olaraq qalmış, eyni zamanda hərtərəfli öyrənilmişdir. Azərbaycan xalçaları haqqında ilk məlumatlara eramızdan əvvəl V əsrdə yaşamış qədim yunan alimi Ksenofontun əsərlərində rast gəlinir. Sonralar xalçalarımız haqqında qiymətli məlumatları orta əsrlərdə Azərbaycanda olmuş ərəb və İran tarixçiləri, daha sonra isə Avropa səyahətçiləri verirlər. Son zamanlarda əldə edilən məlumata görə (Meksikada) insanlar hələ 8 min il bundan əvvəl bitki liflərinən parça hazırlamışlar. Müəyyən vaxt keçdikdən sonra parçaların boyanması və naxışlanması ortaya çıxır. Parçaların bəzədilməsində ilk üsul boyaq işidir. Parçaların boyaq üsulu ilə bəzədilməsinin vətəni Hindistan və Çindir. Bizim eramızdan əvvəl yenə də V əsrdə yaşamış yunan tarixçisi Heradotun verdiyi məlumata görə Qafqazda yun parçaların boyanmasında bitki boyaqlarından istifadə olunmuşdur. Beləliklə, çox qədim dövrlərdən bütöv Azərbaycanın müxtəlif əyalətlərində yüngül sənaye xammalı və məmulatları kustar yolla hazırlanaraq yaxın və uzaq xarici ölkələrdə satılırdı /1/.

1913–cü ildə Azərbaycanda 300 ton xam ipək, 22 min ton pambıq mahlıcı, 4 mln ton yun istehsal edilmişdir ki, bu da ümumrusiya istehsalının müvafiq olaraq 79%, 10% və və 2%-ni təşkil edirdi. Azərbaycanın böyük əmək ehtiyatlarına malik olmasına baxmayaraq, o iri xammal ixrac edən ölkə hesab edilirdi. Fabrik – zavod toxuculuğu, tikiş, trikotaj məmulatlarının, ayaqqabının sənaye istehsalı ucuz xammal bazasını itirməkdən qorxan rus fabrik sahibləri tərəfindən süni sürətdə ləngidilirdi. Azərbaycanda ilk dəfə yeganə toxuculuq müəssisəsi ”Qafqaz səhimdar cəmiyəti”nin Hacı Zeynalabdin Tağıyevə məxsus olan əyirici-toxucu fabriki fəaliyyətə başlamışdır. XIX əsrin sonlarından Hacı Zeynalabdin Tağıyev tərəfindən inşasına başlanan bu fabrik 1900-cü ilin birinci yarısında istifadəyə verilmişdir.

Sovet hakimiyyəti dövründə Azərbaycanda Yüngül sənaye böyük vüsətlə inkişaf etməyə başlamışdır. Bu inkişaf dövrünü şərti şərti olaraq iki yerə bölmək olar. İkinci Dünya Müharibəsinə qədər olan və İkinci Dünya Müharibəsindən sonrakı dövrlər. Birinci dövrdə - 1925-ci ildə Gəncədə mahud fabriki istifadəyə verilmişdir. Tut bağlarının salınması və baramaçılığın inkişafı sayəsində Azərbaycanda ipək sənayesi formalaşmış və ipəkçiliyin mərkəzi iqlim şəraitinə görə Şəki şəhəri seçilmişdir.1931-ci ildə Şəkidə ipək kombinatı fəaliyyətə başlamışdır. Yüngül sənaye məhsulları istehsalının təşkil edilməsi respublikada yüngül sənaye kompleksinin yaradılmasına gətirib çıxarmışdır. Ötən əsrdə sənayenin təmərküzləşməsi yüngül sənayenin sürətli inkişafına təkan vermişdir: bir neçə pambıqtəmizləmə zavodları (Yevlax, Gəncə, Ucar, Salyan, Bərdə), Şəki və Xankəndində ipək kombinatları, Bakıda corab-trikotaj kombinatı, iki tikiş və bir ayaqqabı fabriki tikilib istifadəyə verilmişdir. Müharibədən sonrakı illərdə bir neçə iri müəssisələr tikilmişdir: Mingəçevirdə toxuculuq kombinatı, Sumqayıtda xovlu iplik, üst trikotaj və tikiş fabrikləri, Gəncədə xalça kombinatı və tikiş fabriki, Bakıda ayaqqabı, tikiş, gön-qalanteriya fabrikləri, Ordubadda baramaaçan fabrik, Naxçıvanda alt trikotaj, tikiş və xalça fabrikləri, digər şəhərlərdə tikiş fabriklərini qeyd etmək olar.

Sovet İttifaqı dövründə respublikada pambığın ilkin emalından tutmuş, ondan hazır məhsul istehsalına qədər texnoloji prosesi özündə cəmləşdirən kompleks müəssisələr mövcud idi. Belə ki, 19 zavodu və bunlara təhkim olunmuş 106 tədarük məntəqəsini özündə birləşdirən pambıqtəmizləmə sənayesinin ümumi istehsal gücü 1.300000 ton idi. Yüngül sənaye məhsullarının istehsalı üzrə ixtisaslaşmış müəssisələrdən “Sumqayıt Toxucu”, “H.Z.Tağıyev adına toxuculuq tikiş kombinatı”, “Mingəçevir Toxucu”, “Gəncə Xalçaçılıq Kombinatı”, “Gəncə Toxucu”, “Gəncə-tikiş”, “Bakı Toxuculuq Qalantereya”, “Xırdalan-Xəz”, “Sumqayıt Xovlu İplik”, “Puta-Əyrici”, “Şəki Toxucu Xırdavat”, “Bakı Toxucu”, “Bakı Tikiş Evi”, “Bakı-Toxucu”, “Bakı Toxucu-Tikiş”, “Bakı ayaqqabı -1”, “Bakı ayaqqabı-2”, “Şəki-tikiş”, “Bakıxanov Trikotaj” və digər müəssisələr yüngül sənaye məhsullarının istehsalında önəmli yer tuturdular.

Dünyada yüngül sənayenin bəzi sahələrinin hazırkı durumu barədə statistik məlumatlar göstərir ki, bu əsas sahələrin inkişafı dinamik xarakterlidir və bu inkişaf əsasən 2006-cı ildən etibarən Asiya və digər üçüncü dünya ölkələrin ixracatları hesabınadır. Belə ki, Ümumdünya Ticarət Təşkilatının 1974-cü ildən 2005-ci ilə kimi qüvvədə olmuş Müxtəlif lif tərkibli (və ya qarışıq lif tərkibli) Parça Sazişi (MFA - Multi-Fiber Agreement) üçüncü dünya ixracının tənzim- ləməsini həyata keçirirdi (1995-2005-ci illərdə MFA ÜTT - tekstil və geyim sazişi kimi əvəz edilmişdir). Sazişə uyğun olaraq hər bir üçüncü dünya ölkəsi ilə inkişaf etmiş ölkələr arasında ikitərəfli kvotalar danışıqları üzrə sənədlər imzalanırdı. Bunun nəticəsində Dünya Bankının hesablamalarına 1974-2005-ci illər ərzində üçüncü dünya ölkələri ildə 40 milyard ABŞ dolları gəliri və təqribən 27 milyon iş yeri itirmişlər.

1980-ci ildə dünya tekstil və geyim ixracı 40 milyard, ayaqqabı, qalanteriya və xəz ixracı 28 milyard ABŞ dolları təşkil edirdisə, 2014- cü ildə dünya tekstil və geyim ixracı 786 milyard, ayaqqabı, qalanteriya və xəz ixracı təqribən 145 milyard dollara çatmışdır. (İnternational Trade Statistics /WTO/).

Geyim ixracında Çin 37%, tekstil ixracında 34%, ayaqqabı və qalanteriya ixracatında 41%, xəz ixracatında 75% payla liderdir. ABŞ-da parılmış tədqiqatlar göstərir ki, dünyada inkişaf etmiş ölkələrdə hər bir nəfər bir ildə ortalama (iqlim zonaları nəzərə alınmaqla) təqribən 28-32 kq, inkişafda olmaqda olan bəzi ölkələr üzrə bu rəqəm iqlim zonaları nəzərə alınmaqla 18-20 kq kostyum (bütün geyim növləri, ayaqqabı, kəmər, corab və s. olmaqla) istifadə edirlər. Ona görədir ki, Avropa İttifaqı və ABŞ 2014- cü ildə dünyanın iri geyim, ayaqqabı və qalanteriya idxalçıları olmuşlar (uyğun olaraq dünya üzrə 34% və 17% paylarla). Beynəlxalq Əmək Təşkilatının hesabatına uyğun olaraq 2014-cü ildə tekstil, tikiş, ayaqqabı və qalanteriya sənayelərində dünya üzrə təqribən 78 milyon nəfər işçi çalışır.

Azərbaycanda Yüngül sənayenin hazırda mövcud durumu haqqında aşağıdakıları bildirməyi lazım bilirik. Bu sahədə aparılan iqtisadi islahatlar nəticəsində respublikada mövcud olan bütün yüngül sənaye müəssisələri özəlləşdirilməyə açıq elan edilmiş, onların bazasında səhmdar cəmiyyətlər yaradılmış, bəziləri tam olaraq özəlləşdirilmişdir. Lakin bu müəssisələrin əksəriyyəti yeni təsərrüfatçılıq şəraitində fəaliyyət göstərməyə uyğunlaşa bilməməyi, avadanlıqların aşınmaya məruz qalması, özəlləşmədə olan yanlışlıqlar, subyektiv səbəblədən müəssisə avadanlıqlarına qəstlər və sair səbəblərdən öz fəaliyyətlərini tam və ya qismən dayandırmışlar. 1990-2005-ci illərdə yüngül sənayedə ən ciddi geriləmələr baş vermişdir. Qeyd edilən dövrdə yüngül sənaye məhsulu 14 dəfə və bu sahədə çalışan işçilərin sayı isə 97,4 min nəfərdən 8-9 min nəfərə qədər azalmışdır. O cümlədən, toxuculuq sənayesində məhsul istehsalı 1990-2005-ci illərdə 11 dəfə, xəzin bəzədilməsi və istehsalı sahəsində 13 dəfə, dəri, qalanteriya və ayaqqabı istehsalı 5 dəfə azalmışdır. Ölkə əhalisinin istehlak etdiyi geyim məmulatlarının əksər hissəsini isə idxal olunan hazır məhsullar və yaxud idxal edilmiş xammallar əsasında ölkədə fəaliyyət göstərən kiçik sexlərdə tikilmiş məhsullar təşkil etmişdir/2/.

Lakin son illərdə həyata keçirilən tədbirlər yüngül sənaye sahəsinin inkişafında mühüm nailiyyətlər əldə edilməsinə imkan vermişdir. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004 –2008-ci illər)”nda və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən Azərbaycan Respublikasının regionlarında yüngül sənayenin inkişafı üzrə önəmli tədbirlər nəzərdə tutulmuş və bu tədbirlər icra edilmişdir. Proqramın icrası toxuculuq, tikiş və ayaqqabı sənayesinin inkişafına müsbət təsir göstərmişdir. Proqramın icrası nəticəsində regionlarda çoxsaylı sənaye müəssisələri fəaliyyətə başlamış, bəzi sənaye müəssisələrinin fəaliyyəti yenidən qurulmuşdur.

1992-2014 cü illər ərzində Azərbaycanda fəaliyyət göstərən sənaye müəsisələrinin mülkiyyət formalarindan asili olmayaraq miqdarı və sənaye məhsulunun (işlərin xidmətlərin) həcmi (fəaliyyətdə olan qiymətlərdə) tam arşdırılmış və aşağıdakılar müəyyən edilmişdir. 2014-cü ilin məlumatına görə, ölkəmizdə yüngül sənayesi sahəsində 221 müəssisə fəaliyyət göstərir ki, onların 43-ü orta və iri, digərləri isə kiçik müəssisələrdir. 2014-cü ildə yüngül sənayedə istehsalın ümumi həcmi 97,5 milyon manat təşkil etmişdir. Bu isə Azərbaycanın ümumi emal sənayesində olduğu kimi yüngül sənayedə də inkişafın olduğundan xəbər verir. Aşağıda son illərdə Azərbaycanda açılmış yüngül sənaye müəssisələrinin adları verilmişdir:

**2006** - Yevlax rayonunda “Lalə-Tekstil” MMC tikiş fabriki, Lənkəran tikiş fabriki;

**2007** - Yevlax rayonunda “Gilan-Dəri” MMC-nin dəri emalı fabriki;

**2008** - “Akkord” şirkətlər qrupunun Ağstafadakı tikiş fabriki, Şirvan şəhərində pambıqtəmizləmə zavodu, Bakıda MKT İstehsalatı, Kommersiya MMC-nin Bakı iplik fabriki, Salyanda “Atanur” firmasının yun emalı zavodu;

**2009** - “Şəki ipək” ASC-nin nəzdində yeni baramaaçan sexi,Qax şəhərində istehsalat sahələrində çalışanlar üçün xüsusi geyimlər istehsal edən yeni tikiş sexi;

**2010** - Daşkəsən rayonunda yeni tikiş sexi, Sumqayıt şəhərində “İntertekstil” ASC;

**2011** - Saatlı rayonu ərazisində İplik Fabriki;

**2013** - İsmayıllıda tikiş fabriki, “Gilan” Tekstil Parkı;

**2014** - “Bakı Tikiş Evi” ASC, Horadiz Tikiş Fabriki, Gilan Tekstil Parkı İplik fabriki, Gian Tekstil Parkı İplik boyama fabriki, Gilan Tekstil Parkı Parça toxuma fabriki, Gilan Tekstil Parkı Parça hörmə fabriki, Gilan Tekstil Parkı Dəsmal Fabriki.

Qeyd etməyi lazım bilirik ki, 2015-ci ildə Bakı şəhərində və regionlarda sonuncu nəsil avadanlıqlarla təhciz edilmiş bir neçə yeni yüngül sənaye müəssisələrinin açılması nəzərdə tutulur.

Azərbaycanda yüngül sənaye niyə populyar deyil sualına cavab olaraq Respublikanın aparıcı mütəxəssisləri o, cümlədən “İqtisadiyyat və sənaye” nazirliyinin aparıcı mütəxəssisləri bildirirlər ki, hazırda Azərbaycanda emal sənayesinin inkişafı ilə bağlı ciddi problem yoxdur. Azərbaycanda ipəkçilik, ipəkdən məhsulların hazırlanması və emalı, pambıqçılıq, pambıqdan məhsulların hazırlanması və emalı, yun, yundan məhsulların hazırlanması və emalı, gön, göndən olan məmulatların hazırlanması və emalı həmçinin xalçaçılıq ənənəvi sahələrdir. Ancaq yüngül sənayedə rəqabət olduqca yüksəkdir. Yüngül sənaye ağır sənayedən fərqli olaraq daha az kapital intensivlidir (kapital / işçi qüvvəsi nisbəti kiçikdir) və əl əməyindən daha böyük miqyasda istifadə edilir. Digər fərq ondan ibarətdir ki, yüngül sənaye daha böyük dərəcədə müştəri yönümlüdür. Sahənin gəlirləri nisbətən aşağı olur. Digər tərəfdən yüngül sənaye daxili bazar üçün o qədər də populyar deyil. Bizim tərəfimizdən aparılmış analitik tədqiqatlar və iqtisadi hesablamalardan məlum olmuşdur ki, Azərbaycanın yüngül sənaye müəssisələrinin rentabelli və fasiləsiz fəaliyyəti istehsal edilən dünya standartlarına uyğun son əmtəəlik məhsullarının 55-60%-inin xarici bazarlara çıxarılarması ilə müəssisələrin valyuta qazana bilmələrindən asılıdır.

Azərbaycanda yüngül sənayenin inkişaf perspektivlərini real konteksdə qiymətləndirmək üçün bu sənayeyə daxil olan sahələrin xarakterik iqtisadi özəlliklərini ayrı-ayrılıqda araşdırmaq lazımdır. Dünya təcrübələrinə, sahənin aparıcı mütəxəssislərinin rəylərinə, şəxsi müşahidə və təcrübə nəticələrinə əsasən aşağıdakıları qeyd etmək mümkündür.

**Tekstil sənayesi sahələrini xarakterizə edən iqtisadi özəlliklər:**

- İri kapital tələb edir və ya kapital intensivlidir;
- Çox böyük torpaq və istehsalat sahəsi tələb edir;
- Olduqca böyük ölçülü, enerji - metal tutumlu və daşınması (yerdəyişdirilməsi) çətin olan avadanlıq parkı tələb edir;
- İstehsal etdiyi malların dünya və yerli bazarlara girməsi çətin və iqtisadi olaraq risklidir;
- Yerli infrastrukturun lazimi səviyyədə olmasını tələb edir;
- Ətraf mühitin qorunması xərclərini tələb edir;
- Yerli və xarici yüngül sənayenin digər sahə (tikiş, trikotaj, ayaqqabı, qalanteriya və s.) müəssisələrindən sifarişlərin qəbulunu tələb edir;
- Müəsisələrin yaradılması üçün əsasən dövlət yaxud ölkədaxili və ya xarici iri şirkətlərin investisiyalarını tələb edir;
- Sahə müəssisələrinin normal fəaliyyətini təmin etmək üçün orta və yüksək ixtisaslı menecerlərin (əsasən ixtisaslı mühəndislərin) olmasını tələb edir.

**Tikiş, trikotaj, toxunmayan poloto, ayaqqabı və qalanteriya sənayesi sahələrini xarakterizə edən iqtisadi özəlliklər:**

- Əmək intensivlidir - əsasən qadın əməyi tələb edir;
- Tekstil sənayesi sahələrinə nisbətdə az kapital intensivlidir;
- Müəssisələrin yaradılması üçün şəxsi, dövlət, bank yaxud digər invistisiya mənbələrindən istifadə etmək mümkündür;
- İstehsal gücü (böyük, orta və kiçik) müxtəlif olan çevik istehsalatlar yaradılmasını tələb edir;

- Daha mobil (daşınması, dəyişdirilməsi və yerdəyişdirilməsi asan olan) maşın və avadanlıqlar parkı tələb edir;
- Yerli infrastrukturun lazimi səviyyədə olmasını tələb edir;
- İstehsal etdiyi material və məmulatların dünya və yerli bazarlara girməsi asan və iqtisadi olaraq az risklidir;
- Sahə müəssisələrinin normal fəaliyyətini təmin etmək üçün orta və yüksək ixtisaslı menecerlərin (əsasən ixtisaslı dizaynerlərin və mühəndislərin) olmasını tələb edir.

Yüngül sənaye sahələrini xarakterizə edən iqtisadi özəllikləri və digər mümkün imkanları nəzərə almaqla Respublikamızda bu sahənin inkişafını şərtləndirən imkanlar araşdırılmışdır.

**Yüngül sənaye sahələrinin gələcək inkişafı üçün ölkəmizdə mövcud olan əsas şərtlər:**

- Yüngül sənaye məhsullarının hazırlanması üçün zəngin yerli xammal bazasının olması;
- Yüngül sənaye sahələrinin əmtəəlik məhsullarının istehsalı üzrə tarixi ənənələrin olması;
- Azərbaycanda mərkəzi və regional yüngül sənaye sahələrini inkişafı üçün lazimi infrastrukturun və insan resurslarının olması;
- Məhsulların avtomobillərlə daşınması üçün (beynəlxalq ticarət yollarından istifadə etməklə) əlverişli iqtisadi-coğrafi imkanların olması;
- Ölkənin potensial ixrac bazarlarına həmçinin mərkəzi Asiya və Xəzər regionuna birbaşa çıxışın olması;
- Ölkədə yüngül sənaye müəssisələrində özəlləşmənin əsasən başa çatması və yeni özəl müəssisələrin müasir avadanlıq parkına malik olması;
- Yüngül sənaye sahələri üzrə orta və yüksək ixtisaslı mütəxəssislərin həmçinin texniki-peşə ixtisaslı fəhlələrin hazırlanması təcrübələrinin olması;
- Ölkədə məhsul istehsalı, keyfiyyətinə nəzarət, məhsulun daxili və xarici bazarlara çıxarılması üzrə qanunverici bazanın olması;
- Ölkədə yeni yüngül sənaye müəssisələrinin qurulması üçün əlverişli investisiya şəraitinin olması;
- Ölkədə pambıqçılığın, ipəkçiliyin, yun emalının, gön istehsalının və xalçaçılığın müfəssəl inkişı üçün iqtisadi əhəmiyyət kəsb edən imkanların olması;
- MDB, Avropa İttifaqı və digər ölkələr tərəfindən Azərbaycan üçün bütövlükdə yüngül sənaye məhsullarına heç bir kvotanın tətbiq edilməməsi.

Beləliklə, Azərbaycanda yüngül sənayenin göstərilən ənənəvi sahələrinin inkişafı üçün dövlət dəstəyinə böyük ehtiyac vardır. Azərbaycanın müstəqillik dövründə inkişaf tarixi sübut etdi ki, dövlət yaxşı iqtisadçıdır, çox yaxşı istehsalçıdır və səfərbəredicidir. Lakin, bizim bir millət kimi gələcəyimiz azad bazar iqtisadiyyatının daha geniş inkişafından keçir. Bundan sonra da dövlət dəstəyi olmadan Azərbaycanda yüngül sənayenin inkişafı cox çətindir. Yaxşı olardı ki, Azərbaycanda yüngül və yeyinti sənayelərinin inkişafı üçün iki mərhələdən ibarət “Dövlət proqramı” hazırlansın. Birinici mərhələ 2016-2020 -ci illəri, ikinci mərhələ 2021-2025-ci illəri əhatə etsin. Dövlət proqramında ərzaq təhlükəsizliyi ilə bağlı kənd təsərrüfatı və ərzaq malları istehsalı üzrə yeyinti sənayelərinin inkişafı layihəsi ilə birlikdə tekstil, tikiş, ayaqqabı, gön və qalanteriya malları istehsalı üzrə yüngül sənayenin inkişaf layihəsi müfəssəl şəkildə işlənməlidir. Qarabağ iqtisadi rayonunda yüngül və toxuculuq sənayesinin inkişafı üçün hər cür şərait vatdır. Belə ki, Qarabağ torpaqları olduqca pambıqçılıq üçün münbitdir. Digər tərəfdən həmin iqtisadi rayonda upəkçiliyin inkişafına geniş şərait vardır. Heyvandarlıq sahəsi Qarabağ iqtisadi rayonunda xüsusi yer tutur. Bildiyimiz kimi istər iri buynuzlu və istərsə də xırda buynuzlu heyvanların yunu və dərisi yüngül sənaye məmulatları üçün əsl xammal mənbəyidir. Yüngül sənaye sahəsi üçün işçilərin kütləviliyini nəzərə alsaq, görərik ki, gələcəkdə həmin iqtisadi rayonda iş problemi minimuma enəcəkdir.

Azərbaycanın yüngül sənayesinin inkişaf layihəsində əsasən aşağıdakıların nəzərə alınmasını məqsədəuyğun hesab edirik:

- Azərbaycanda tekstil sənayesinin inkişafını təmin etmək üçün suvarma sistemlərinin təkmilləşdirilməsi ilə ən mütərəqqi pambıqyetişdirmə üsullarından istifadə edilməsi;
- Fermerlərin bu sahəyə maraqlarının artırılması üçün maliyyə, aqrotexnika, gübrə-dərman maddələrinə təlabatın ödənilməsi dəstəklərinin göstərilməsi;
- Yerli xammal istehsalatlarının (dəri, yun və barama) fasiləsiz keyfiyyətli xammala təminatını üçün yerlərdə tam təminatlı tədarük məntəqələrinin təşkil edilməsi;

- İlkin emal və mahlıcdan iplik emalı sənayesinin iqtisadi və texnoloji cəhətdən yaxşılaşdırılması, məhsulun tədarükü, saxlama, qablaşdırma, daşıma, marketinq və s. sistemlərinin təkmilləşdirilməsi;
- İlkin emal və emal sənayesi avadanlıqlarının və ehtiyat hissələrinin hazırlanması Respublika maşınqayırma sənayesində həyata keçirilməsi üçün tədbirlər görülməsi;
- Azərbaycan iqtisadiyyatının inkişafında tekstil sənayesinin əhəmiyyətli rolunu nəzərə almaqla, yeni tələblərə cavab verən emal sənayesinin qurulması üçün ən mütərəqqi texnika və texnologiyanın tətbiqinin həyata keçirilməsi;
- Yüngül sənayedə hazır məmulat istehsalı üzrə sənaye müəssisələrinə güzəştli şərtlərlə kredit verilməsinin dəstəklənməsi;
- Yüngül sənaye məhsullarının xaricə çıxarılmasında müəyyən gömrük güzəştlərinin və müəssisələrin ilkin fəaliyyət dövrü üzrə müəyyən müddətdə vergi güzəştlərinin tətbiq edilməsi;
- Kadr hazırlığında dünyada təcrübədən keçmiş ən qabaqcıl tədris proqramlarından istifadə edilməklə, müəllim və tələbə mobilliyinin günün tələbləri səviyyəsinə çatdırıması və xaricdə təhsil proqramlarında yüngül sənaye ixtisaslarının həcminin artırılması;
- Azərbaycanın elm mərkəzlərində (ARMEA-da, univeesitetlərin müvafiq kafedralarında elmi-tədqiqat institutlarında və s.) yüngül sənaye məhsulları istehsalatı üçün innovasiyalı texnika və texnologiyaların, idarəetmə və biliyə əsaslanan iqtisadiyyatın formalaşması üçün geniş elmi-praktik tədqiqatlara start verilməsi;
- Azərbaycanda yüngül sənaye müəssisələrinin mülküyyət formasından asılı olmayaraq, onların işlərinin koordinasiyasını və maliyyə dəstəyinin təminatına düzgün qərar verə biləcək "İqtisadiyyat və sənaye" nazirliyinin nəzdində komitənin (xüsusi bank və bank filialları olmaqla) yaradılması.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasində iqtisadiyyatın şaxələndirilməsinin vacibliyi qırmızı xətlə keçir/3/. Orada deyilir: " Hazırkı mərhələdə qarşıda duran əsas vəzifə iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, neft gəlirlərinin səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunun yüksək inkişaf tempini gələcək illərdə də qoruyub saxlamaq və onun ixrac imkanlarını genişləndirməkdir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında ixrac yönümlü iqtisadi model əsas götürülmüşdür və nəzərdə tutulur ki, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsi qeyri-neft ixracının artımına səbəb olacaqdır. Qeyri-neft sənayesinin sürətli inkişafı ilə yanaşı, innovasiya fəaliyyətinin təşviqi və genişləndirilməsi ölkədə biliyə əsaslanan iqtisadiyyatın formalaşması üçün əlverişli zəmin yaradacaqdır".

**Ədəbiyyat siyahısı:**


1. İ.A.Hacıyev. Azərbaycanda sənaye dizaynının təşəkkülü və inkişaf istiqamətləri. Monoqrafiya, "Təknur", 2011, – 224 s.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi: müxtəlif illərdə ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri, Bakı şəhəri.
3. "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.



**Mammadova K.F., Mammadov F.A.**
Azerbaijan Technological University


**Restoration and development prospects of the light and textile industry in the Karabakh economic region**


The article analyzes the current state of the light and textile industry in Azerbaijan and proposals and recommendations are given along with prospects for the restoration and development of this area in the Karabakh economic region.



**Key words:** light, weaving, material, economic, spinner, raw material



**Мамедова Х.Ф., Мамедов Ф.А.**
Азербайджанский технологический университет

**Восстановление и перспективы развития легкой и текстильной промышленности Карабахского экономического района.**

В статье анализируется современное состояние легкой и текстильной промышленности Азербайджана и предлагаются предложения и рекомендации наряду с перспективами восстановления и развития этого сектора в Карабахском экономическом районе.

**Ключевые слова:** легкий, текстиль, материал, экономичность, прядильщик, сырье.

---

**Aynur İrşad qızı Hüseynova**
AMEA Dendrologiya İnstitutu
aynur.huseynova.1968@mail.ru

## Şuşa şəhərinin sosial-iqtisadi inkişafinin prioritet istiqamətləri, Leucaena Pulverulenta (schltdl.) benth. növünün bioekoloji xüsusiyyətləri və iqtisadi səmərəliliyi

### Xülasə

Azərbaycanın Respublikasının ərazisi bənzərsiz zəngin flora örtüyünə malikdir. İşğaldan azad olunan ərazilərimizdə aparılan abadlıq-quruculuq işləri ölkəmizin iqtisadi qüdrətini bir daha ortaya qoyur. İşğaldan azad olunmuş ərazilərimizə "Böyük qayıdışın" təmin edilməsi, dayanıqlı məskunlaşma, müasir və layiqli həyatın təmin edilməsi üçün Azərbaycan dövləti tərəfindən bütün sahələrdə quruculuq-bərpa, abadlıq, yaşıllaşdırma işlərinin aparılması, kənd təsərrüfatının bərpası və inkişafı kimi fəaliyyətlərə başlanılıb.

Ekoloji balansın saxlanılması, kənd təsərrüfatının inkişafı istiqamətində istər dövlət siyasətində, istərsə də qlobal miqyasda davamlı addımlar atılır. Bu inkişaf insan resusunun tələbatını tam ödəməli, həmçinin də ekoloji balansın saxlanılmasında rol oynamalıdır.

Şuşa və ətraf ərazilərin bioloji müxtəlifliyin qorunub saxlanılması, florası və onların bərpası, mühafizəsi, introduksiya və reintroduksiya məsələləri hazırda qarşımızda duran əsas vəzifələrdəndir. Qarabağın təbiəti, landşaft örtüyü, torpaqları, iqlim şəraiti, coğrafi mövqeyi yaşıllıqların bərpası, kənd təsərrüfatının inkişafı üçün böyük imkanlar yaradır. Şuşa və ətraf ərazilərin torpaq-iqlim xüsusiyyətlərini nəzərə alaraq Leucaena pulverulenta (Schltdl.) Benth. növünün yaşıllıq ərazilərin bərpasında, mühafizəsində əkin materialı kimi istifadəsi mümkündür. Tərəfimizdən araşdırılmış, Abşeron şəraitində introduksiya olunmuş Leucaena pulverulenta (Schltdl.) Benth. - (Ağbaşcıqlı mimoza) yaşıllaşdırmada, kənd təsərrüfatında, torpaq qoruyucu örtüklərin salınmasında istifadəsi onu prespektivli növ kimi ön plana çəkir. Yetişdirilmiş əkin materiallarından meşə əkini, ətraf şəhər və qəsəbələrin, magistral şose yolları kənarlarının, çay və su hövzələri ətraflarının yaşıllaşdırılması nəzərdə tutulur.

**Açar sözlər:** introduksiya, bioekoloji xüsusiyyətlər, yaşıllaşdırmada, kənd təsərrüfatı, iqtisadi səmərə.

### Giriş

Ekosistemdə deqradasiya prosesinin dərinləşməsi meşə landşaftını kökündən dəyişir, təbiətin sadələşməsinə gətirib çıxarır. Qoruq sahələrin yaradılması və landşaft qoruyucu növlərin tətbiqi təbii qruplaşmaların suksessiya sıralarını bərpa etməkdə mühüm mənbə sayılır. Təbii bitki genefondu ilə yanaşı mədəni dendrofloranın tətbiqi və torpaq-iqlim şəraitinə davamlı yeni növlərlə zənginləşdirilməsi çox vacibdir.Yaşıl zolaqların davamlılığı və uzun ömürlülüyü üçün daha çox qiymətli dekorativ xüsusiyyətlərə malik olan bitkilərdən istifadə etmək məqsədəuyğundur.

Leucaena pulverulenta (Schltdl.) Benth. - (Ağbaşcıqlı mimoza) kənd təsərrüfatında, yaşıllaşdırmada, yerli iqlim şəraitinə tam uyğunlaşan, iqtisadi baxımdan ucuz və keyfiyyətli, asan başa gələn bir bitki növüdür. Bitki genofondunun artırılması, təbii ehtiyatlardan səmərəli istifadə istiqamətində növün kənd təsərrüfatında tətbiqi məqsədəuyğundur.

Leucaena pulverulenta (Schltdl.) Benth. - Texasdan Peruya qədər yayılmış təxminən 24 növ ağac və kolları əhatə edən Fabaceae - fəsiləsinə, Leucaena L. cinsinə aid olan bir bitki növüdür.

Asanlıqla toxum və vegetativ yolla çoxalır, sürətlə böyüyür, torpağa tələbkar deyil. Ətraf mühit dəyişkənliklərinə tez uyğunlaşır, quraqlığa dözümlülüdür.

**Material və metodika:** Tədqiqat 2020-2022-ci illərdə AMEA Dendrologiya İnstitutunun təcrübə sahələrində aparılmışdır. Abşeronda introduksiya edilmiş Leucaena pulverulenta (Schltdl.) Benth. növü mübadilə yolu ilə əldə edilib (Padua Mərkəzi Nəbatat Bağı, İtaliya ). Tədqiqat işində - introduksiya N.A. Bazilevskaya [1], bioloji xüsusiyyət İ.V.Sokolova [2], prespektivliyinin qiymətləndirilməsi Q.Ş. Məmmədov, M.Y. Xəlilov [3], bioekoloji xüsusiyyətlər M.R.Qurbanov, E.O.İsgəndərov [4], iqtisadi səmərə [5], [6], ədəbiyyat materialları və metodologiyalarına uyğun olaraq öyrənilmişdir.

**Təhlil və müzakirə:** Leucaena pulverulenta (Schltdl.) Benth. - hündürlüyü 20 m-ə qədər olan boz-qəhvəyi qabıqlı həmişəyaşıl kol və ya ağac növüdür. Yarpaqları qoşaləlәkli, uzunluğu 30 sm-ə qədər, 3-10 cüt birinci dərəcəli yarpaqlardan, öz növbəsində 10-20 cüt ikinci dərəcəli yumşaq lansetvari yarpaqlardan ibarətdir. Çiçəklərin diametri təxminən 2 sm olan yaşılımtıl-ağ rənglidir. Meyvələr 20 sm uzunluğa və 1,5-2 sm eninə qədər yastı düz və ya bir qədər aypara formalı paxladan sonunda ucludur. Yetişmiş paxla meyvələrinin qabığı nazik, qəhvəyi və kövrək olur. Hər paxla meyvədə 6-10 mm diametrli, yetişdikdə tünd qəhvəyi rəngdə olan 16-18 qədər yumurtavari toxum var [2].



**Şəkil 1.** Leucaena pulverulenta (Schltdl.) Benth.

2020-ci ildə Leucaena pulverulenta (Schltdl.) Benth.- Ağbaşcıqlı mimoza növünün toxumları təcbübə salərarinə səpilmişdir. Bitkinin bioloji xüsusiyyətləri araşdırılmış və ona uyğun torpaq nümunəsinə toxumlar səpilmişdir və çox gözəl nəticələr əldə edilmişdir. Səpilmiş toxumların cücərməsi 60-65% olmuşdur. Hal- hazırda bitkilərin hündürlüyü 200-350 sm-dir. Bitki çox sürətlə inkişaf edir. Hətta ikinci ildən çiçəkləyir və meyvə əmələ gətirir. 2022-ci il bitkidən əldə edilmiş toxumlardan təcrübə sahəsinə səpilmiş və yaxşı nəticələr əldə edilmişdir.

Bitkilərin introduksiyası və iqlimləşdirilməsində ən yüksək göstərici onların toxumları vasitəsi ilə öz-özünə bərpası sayılır. Bitkilərin öz-özünə toxumdan bərpa olunması xarici mühit amillərinin təsirindən və növlərin bioloji xüsusiyyətindən çox asılıdır.

İntroduksiya olunmuş və yaxud introduksiya edilən bitkilərin toxum əmələ gətirmək qabiliyyəti və toxumun məhsuldarlığı introduksiyada ən əsas göstərcilərdən biri sayılır. İntroduksiya olunan bitkilərdən bir çoxu vegetativ yol ilə çətinliklə və bəzən isə heç çoxalmırlar. Belə vaxtda toxumlarla çoxaltma iqtisadi cəhətdən xeyirli olmaqla çox saylı əkin materialı əldə etməyə imkan verir. Bitkilərin bir yerdən başqa yerə köçürülməsində təkcə iqlimə uyğunlaşması deyil, onların çiçək açıb toxum vermələri ən vacib və ümdə məsələlərdən biridir. Bitkilərin introduksiya olunma dərəcəsini müəyyənləşdirərkən bitkilərin toxum əmələ gətirmə qabiliyyətini və onların məhsuldarlığını nəzərə alınmalıdır [1].

Leucaena pulverulenta – Ağbaşcıqlı mimoza tropik, subtropik iqlimlərdə yaxşı böyüyür. Asanlıqla toxum və vegetativ yolla çoxalır, sürətlə böyüyür, torpağa tələbkar deyil. Bununla belə, böyüdükcə yerli bitki örtüyünü asanlıqla üstələyir. Sərt toxumları 20 ilə qədər keyfiyyətini itirmir. İdeal şəraitdə, kifayət qədər istilik və su ilə, bütün il boyu çiçək açır və meyvələr çiçəkləndikdən 9-11 həftə sonra yetişir, bitki əkildikdən sonra ilk ildə də meyvə verə bilər. Çox vaxt ağacda çiçəklər,

yetişməmiş və yetişmiş meyvələr eyni vaxtda görünür. Ağbaşcıqlı mimoza ildə iki dəfə (aprel-iyul və avqust-oktyabr) çiçəkləyib, meyvə əmələ gətirir. Bu növ kök düyünlərində yaşayan və atmosfer azotunu fiksasiya edən Rhizobium cinsinin torpaq bakteriyaları ilə simbiotik əlaqəyə malikdir, onların bir hissəsi bitki tərəfindən istifadə olunur, qalan hissəsi isə torpağı zənginləşdirir [2].

Leucaena pulverulenta (Schltdl.) Benth. növünün perspektivliyi araşdırılmışdır. Dekorativ, yanğından və küləkdən mühafizə zolaqların salınmasında, səhralaşma, eroziya kimi qlobal problemlərin tüğyan etdiyi müasir dövrdə Leucaena pulverulenta ətraf mühitin qorunması istiqmətdə görülən tədbirlərə tam cavab verən növdür. Tərk edilmiş, əvvəlcə becərilən sahələrin və ya kəsilmiş meşə boşluqlarını Leucaena pulverulenta növü ilə tez bir zamanda yaşıllaşdırmaq olar.

Leucaena pulverulenta şaxtaya, yanğınlara dözümlüdür. Meşə yanğınları zamanı tamamilə məhv olmur, yandıqdan sonra sağ qalan köklər yenidən bərpa olur. Budandıqdan sonra, yarpaqlar çox tez yenilənir. Dərin kökü sıxılmış yeraltı təbəqələrin parçalanmasına kömək edir, beləliklə suyun nüfuzunu yaxşılaşdırır və səth axınını azaldır. Şoran yeraltı suların, səthə çıxmasının qarşısını alır. PH 8-ə qədər əhəngli qumlu torpaq ilə tam günəşli bir sahə tələb olunur. Kontur zolaqlarda yetişən Leucaena pulverulenta dik yamaclarda eroziya nəzarətə kömək edir. Külək zərərlərinin qarşısını alır. Tropik rütubətli və ya yarı quraq iqlimlərdə, 650 ilə 3000 mm orta illik yağıntıya, 6-7 ballıq quraqlığa dözür. 35 - 38 °C arasında temperaturda inkişaf edir,soyuq dövrlərdə böyüməsini dayandırır [3].

Leucaena pulverulenta (Schltdl.) Benth. növünün Abşeron şəraitində istiyə, işığa,rütubətə, soyuq hava axınına, torpaq qidalanmasına tələbləri öyrənilmişdir. Tədqiqatın nəticələri cədvəl 1-də verilmişdir.

**Cədvəl 1.**

**Leucaena pulverulenta(Schltdl.) Benth. növünə təsir göstərən əsas ekoloji amillər**

| Növ | Ekoloji mühit amilləri | | | | | |
|---|---|---|---|---|---|---|
| | istilik | işıq | | rütubət | soyuq hava | Torpaq |
| **Leucaena pulverulenta(Schltdl.) Benth.** | + | + | | + | - | ± |

**Qeyd:** (+) yüksək dərəcədə tələbkar, (-) aşağı dərəcədə tələbkar, (±) nisbi dərəcədə tələbkar.

Leucaena leucocephala növü ekoloji mühit amillərinə böyümə və çiçəkləmə, meyvəəmələgətirmə dövründə ekoloji mühit amillərinə qarşı yüksək tələbkar, dinclik dövründə isə az tələbkardır [4].

Leucaena pulverulenta (Schltdl.) Benth. növünün qida və kənd təsərrüfatında əhəmiyyətliliyi araşdırılmışdır. Gənc tumurcuqları, cavan yarpaqları və toxumları öz vətənində insan qidalanmasında tərəvəz kim, toxumları qəhvə əvəzi kimi istifadə olunur. Leucaena yüksək bal vermə qabiliyyətinə malikdir ki, bu da arıçılıqda istifadəsinə imkan yaradır. Yetkin və ya yetişməmiş, yaşıl və ya quru istehlak edilmiş mal-qaranın yemi üçün əla protein mənbəyi kimi qiymətləndirilir. Qida dəyəri yoncaya bərabər və ya daha üstünür. Ağac sərt və ağırdır, yanacaq və ya kömür üçün istifadə olunur. Kiçik mebel və kağız sellülozunun hazırlanmasında istifadə edilir. Taxta mebel və digər sənətkarlıq istehsalında istifadə olunur, tikinti materialı və yanacaq kimi, həmçinin kağız istehsalı üçün istifadə olunur. Yüksək antioksidant xüsusiyyətlərə malikdir. Toxumların ekstraktı qurd tökücü xüsusiyyətləri vardır [5], [6].

**Nəticə**

Bitki isti və işıqsevən olub, 2-3 il ərzində hündürlüyü 2,5-3 m, gövdəsinin diametri isə 11-15 sm, yan budaqlarının uzunluğu 85-90 sm-dir. Özünübərpa, tez məhsul vermə qabiliyyəti, bu növün daha asan çoxaldılıb, tez bir zamanda yaşıllıqların salınmasına imkan verir. Bitkidən xüsusilə kömür və kağız istehsalında, asan emal oluna bilən, suda həll olunan qoruyucu maddələrə qədər məsaməli, qurutma zamanı deformasiyaya uğramayan, yüngül konstruksiyalar və yeşiklər, müxtəlif növ hasarlar, mebellər hazırlanır. Həmçinin kölgəlik yaratmaq üçün, torpağı azotla zənginləşdirmək üçün istifadə olunur. Leucaena pulverulenta (Schltdl.) Benth. - (Ağbaşcıqlı mimoza) növündən istehsal olunan xeyli miqdarda biokütləni və ətraf mühitin qorunmasındakı rolunu nəzərə alsaq, onun təsərrüfatlarda istifadəsi arzuolunandır. Heyvandarlıqla bağlı ən mühüm problemlərdən biri qeyri-

adekvat qida təchizatıdır. Mal-qaranın bəslənməsi üçün yaxşı bir protein qaynağı olaraq, alternativ zülal mənbəyi kimi təqdim ediləcək bir növ ola bilər.

Leucaena pulverulenta (Schltdl.) Benth. - (Ağbaşcıqlı mimoza) növünün çox dekorativ və xarici mühit amillərinə davamlılığını, adaptasiya imkanlarını, bioloji və dekorativlik xüsusiyyətlərni, perspektivlik kriteriyalarını, kənd təsərrüfatında, eyni zamanda müalicəvi və qida əhəmiyyətliliyini nəzərə alınaraq, Şuşa və ətraf ərazilərin bioloji müxtəlifliyin qorunub saxlanılmasında, florası və onların bərpasında istifadəsi məqsədəuyğundur.

**А.И. Гусейнова**
Институт Дендрологии НАНА.
aynur.huseynova.1968@mail.ru

## Приоритетные направления социально-экономического развития г. Шуша, биоэкологическая характеристика и экономическая эффективность вида Leucaena Pulverulenta (schltdl.) Benth.

Территория Азербайджанской Республики имеет уникальную богатую растительность. Работы по благоустройству и строительству, проводимые на освобожденных от оккупации территориях, еще раз свидетельствуют об экономической мощи нашей страны. В целях обеспечения «Великого возвращения» на наши освобожденные от оккупации земли, устойчивого заселения, современного и достойного проживания, Азербайджанское государство во всех сферах приступило к строительно-восстановительным работам, благоустройству, озеленению, восстановлению и развитию сельского хозяйства.

Предпринимаются непрерывные шаги в направлении сохранения экологического баланса и развития сельского хозяйства, как в государственной политике, так и в глобальном масштабе. Это развитие должно полностью удовлетворять потребности населения, а также играть роль в поддержании экологического баланс.

Сохранение биологического разнообразия, флоры и их восстановление, вопросы защиты, интродукции и реинтродукции город Шуша и прилегающих территорий являются одними из основных задач, стоящих перед нами сейчас. Природа Карабаха, ландшафтный покров, почвы, климатические условия, географическое положение создают большие возможности для восстановления зелени и развития сельского хозяйства. Leucaena pulverulenta (Schltdl.) Benth. Возможно использование этого вида в качестве посадочного материала при восстановлении и защите зеленых насаждений. Leucaena pulverulenta (Schltdl.) Benth, интродуцированная в условиях исследованного нами Абшерона. - (мимоза белоголовая) ее использование в озеленении, сельском хозяйстве и создании почвозащитных покровов выдвигает ее на передний план как перспективный вид. Из выращенного посадочного материала планируется лесоразведение, озеленение близлежащих городов и поселков, автомобильных дорог, рек и водоемов.

**Ключевые слова:** интродукция, биоэкологические характеристики, экологизация, сельское хозяйство, экономическая эффективность.

## PRIORITY DIRECTIONS OF SOCIO-ECONOMIC DEVELOPMENT OF THE CITY OF SHUSHA, BIOECOLOGICAL CHARACTERISTICS AND ECONOMIC EFFICIENCY OF THE SPECIES LEUCAENA PULVERULENTA (SCHLTDL.) BENTH.

**A.I. Huseynova**
Institute of Dendrology of ANAS
aynur.huseynova.1968@mail.ru

The territory of the Republic of Azerbaijan has a unique rich vegetation. The landscaping and construction works carried out in the territories liberated from occupation once again testify to the economic power of our country. In order to ensure the “Great Return” to our lands liberated from occupation, sustainable settlement, modern and decent living, the Azerbaijani state has started construction and restoration work, landscaping, landscaping, restoration and development of agriculture in all areas.

Continuous steps are being taken towards maintaining the ecological balance and developing agriculture, both in public policy and on a global scale. This development must fully meet the needs of the population, as well as play a role in maintaining the ecological balance.

Preservation of biological diversity, flora and their restoration, issues of protection, introduction and reintroduction of the city of Shusha and adjacent territories are among the main tasks facing us now. The nature of Karabakh, landscape cover, soils, climatic conditions, geographical position create great opportunities for the restoration of greenery and the development of agriculture. Leucaena pulverulenta (Schltdl.) Benth. It is possible to use this species as planting material in the restoration and protection of green spaces. Leucaena pulverulenta (Schltdl.) Benth, introduced under the conditions of the Absheron studied by us. - (white-headed mimosa) its use in landscaping, agriculture and the creation of soil protection covers brings it to the fore as a promising species. From the grown planting material, afforestation, landscaping of nearby cities and towns, roads, rivers and reservoirs are planned.

**Keywords:** introduction, bioecological characteristics, ecologization, agriculture, economic efficiency.

---

**Dos. İlqar Bəylər oğlu Xəlilov**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
"İctimai idarəetmə və sosial innovasiyalar" kafedrası
xalilov.ilqar@inbox.ru

## Şuşa rayonunun sosial-iqtisadi inkişafının və ekoloji vəziyyətinin tənzimlənməsi istiqamətləri

270 illik tarixə malik olan və 1930-cu ildən etibarən inzibati rayon statusu almış Şuşa, hazırda Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir. Şuşa rayonu ərazisinin sahəsi 290 km2, əhalisinin sayı 2021-ci il statistikasına əsasən 34,6 min nəfərdir. İşğaldan əvvəl rayon ərazisində 1 şəhər, 1 qəsəbə (Turşsu), 37 kənd olmuşdur. Şuşa rayonu 1992-ci il may ayının 8-də erməni hərbi birləşmələri tərəfindən işğal edilmiş və 28 il müddətində erməni əsirliyində qalmışdır. 8 noyabr 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin və azərbaycanın igid oğullarının qətiyyəti, canı-qanı sayəsində Şuşa şəhəri erməni vandallarının işğalından azad edildi və həmin tarix "Zəfər ili" kimi Azərbaycan tarixinə düşdü. Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 2022-ci il tarixli Sərəncamı ilə isə 2022-ci il Azərbaycanda "Şuşa İli" elan edilmişdir [8,9].

Fiziki-coğrafi baxımdan Şuşa rayonu Kiçik Qafqazda, Qarabağ sıra dağları yamaclarında yerləşir. Rayon ərazisinin ən yüksək zirvəsi Böyük Kirsdir (2725 m.). Yura və Tabaşir yaşlı çöküntülər rayon ərazisinin əsasını təşkil edir. Şuşa rayonu ərazisindən Qarqar çayı axır. Torpaqları qəhvəyi dağ-meşə və çimli dağ-çəməndir. Yüksək dağlıq sahədə subalp və alp çəmənliklərinə rast gəlinir.

Rayon ərazisi daxilində faydalı qazıntılardan müxtəlif növ tikinti materialı yataqları və mineral su bulaqları (Şırlan, Turşsu) vardır. Bunlardan Şuşa üzlük daşı yatağı, Keçəldağ gil yatağı (ehtiyatı 397 min m3), mineral sulardan Şırlan (istismar ehtiyatları 389 min m3/gün) və Turşsu (ehtiyatı 70 min m3/gün) yataqları fərqlənirlər [1,2,5].

Şuşa rayonu ərazisi qiymətli ağac növlərindən ibarət meşələr və digər təbii komplekslərlə də zəngindir. Bunları mühafizə etmək məqsədi ilə hələ 1988-ci ildə 450 hektar sahədə nadir təbiət komplekslərini qorumaq üçün Daşaltı Dövlət Təbiət yasaqlığı yaradılmışdır. Havasının təmizliyi, saflığı və müalicə əhəmiyyəti baxımından Şuşa dağ-kurort şəhəri hesab edilir. Hazırda işğaldan azad edilmiş Şuşa şəhərində bərpa və yenidənqurma işlərinə başlanılıb və sürətlə davam etməkdədir. Şuşa şəhəri azad edildikdən sonra şəhərdə infrastrukturun yenidən qurulması həyata keçirilməyə başlamış, şəhərdə mövcud olan tarix və mədəniyyət abidələrinin bərpasında idarəetməni təmin etmək üçün Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır [7].

Şuşa şəhərinin qeyd edilən sahələrdə aparılan yenidənqurma işləri ilə yanaşı şəhərə qayıdacaq əhalinin işlə təminatı məsələsi də aktualdır. Bu məqsədlə şəhərdə bölgənin təbii-resurs potensialından istifadə etməklə yeni təsərrüfat sahələrinin yaradılması hesabına yerli əhalini işlə təmin etmək olar. Bunun üçün Qarabağ iqtisadi rayonu üçün planlaşdırılan bir çox infrastruktur tədbirlərinin həm

dövlət tənzimlənməsi və ya dəstəyi, həm də xarici və daxili investisiyaları cəlb etmək yolu ilə Şuşa şəhərində yaradılması məqsədəuyğun hesab edilir.

Şuşa rayonunun sosial-iqtisadi inkişafının tənzimlənməsi mexanizminin formalaşdırılmasında əsas məqsəd bütövlükdə rayon üzrə və bilavasitə hər hansı bir təsərrüfat sahəsi üçün səmərəli fəaliyyət proqramının işlənib hazırlanması yolu ilə məhdud resurslar şəraitində idarəetmə proseslərinin istiqamətini müəyyən etməkdir ki, bu da son nəticədə rayon iqtisadiyyatının keyfiyyətcə yeni inkişaf səviyyəsinə keçidinə kömək edəcəkdir. Rayonun sosial-iqtisadi inkişafının tənzimlənməsi mexanizminin formalaşdırılması bu gün inzibati ərazi vahidində idarəetməsinin səmərəliliyinin artırılması və modernləşməsi, mərkəzsizləşdirmə və regional iqtisadi siyasətin müəyyən edilmiş məqsədlərinə nail olmaq baxımından son dərəcə aktual problem kimi görünür.

Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı statusunu nəzərə alaraq onun sosial-iqtisadi inkişafının dövlət tənzimlənməsi birbaşa və dolayı üsullarla həyata keçirilməlidir. Birbaşa tənzimləmə yolu ilə rayonun sosial-iqtisadi inkişafını idarə etmək üçün inzibati üsullardan istifadə olunur ki, bunlara aşağıdakı istiqamətlər aiddir:

– şəhərin yenidən bərpasına maliyyə dəstəyi üçün dövlət büdcəsindən cari ehtiyaclar üçün vəsaitlərinin ayrılması və vergilərdə güzəştlərin müəyyən edilməsi;
– şəhərdə yeni yaradılması planlaşdırılan təsərrüfat sahələrinin ehtiyaclarının təmini üçün xammal tədarükündə dövlət sifarişinin müsabiqə əsasında aparılması;
– investisiya layihələrinin maliyyələşdirilməsində dövlətin iştirakı.

Şuşa şəhərinin sosial-iqtisadi inkişafında dolayı tənzimləmə iqtisadi metodların tətbiqindən ibarətdir.

Beləliklə, Şuşa şəhərində sosial-iqtisadi inkişafın dövlət tənzimlənməsi mexanizminin əsas məqsədi sosial-iqtisadi proseslərə təsir göstərən yenidənqurma tədbirlərinin siyahısının formalaşdırılması, ardıcıllığının müəyyənləşdirilməsi və həyata keçirilməsi əsasında şəhərin sosial-iqtisadi inkişafının prinsipcə yeni səviyyəsinə və keyfiyyətinə nail olmaqdan ibarətdir. Bunun nəticəsində şəhərdə sosial-iqtisadi inkişafın yeni idarəetmə sistemi formalaşdırılır ki, burada bir tərəfdən, cari xərclər əsasən sosial öhdəliklər toplusu hesabına təmin edilir, digər tərəfdən, sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni şərtləri, şəhərin sosial-iqtisadi inkişafı və iqtisadi təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş mühit formalaşır.

Şuşa şəhərində əhalinin məşğulluq siyasətinin funksional inkişaf yolu aşağıdakılardır:

- əmək qabiliyyətli əhalinin məşğulluq sahələrinə (hasilat,emaledici,xidmət) səmərəli cəlb olunmasını təmin etmək;
- iş yerlərinin sayına və keyfiyyətinə uyğun olaraq ərazidə coğrafi əmək bölgüsünü həyata keçirmək;
- məşğulluğun mümkün olan ən yüksək səviyyədə saxlanmasını və şəhərdə iqtisadiyyatın real sektorlarının dinamik inkişafını təmin etmək;
- rayon iqtisadiyyatının bazar sistemi münasibətində davamlı fəaliyyət göstərməsi üçün şəraiti formalaşdırmaq.

Bu məqsədlə Şuşada şəhəryanı kənd təsərrüfatı, sənətkarlıq, yüngül və yeyinti sənaye müəssisələri, elm tutumlu sahələr, turizm və digər xidmət sahələrinin inkişaf etdirilməsi məqsədəuyğun hesab edilir. Şuşa şəhərinin yaxın gələcəkdə Azərbaycanın turizm və mədəniyyət mərkəzi rolunu oynayacağını nəzərə alaraq şəhərə gələcək çoxsaylı turistlərin və digər qonaqların tələbatlarını yerli, ekoloji təmiz kənd təsərrüfatı məhsulları ilə təmin etmək üçün ət-süd emalı, müxtəlif şirələr və təbii mineral su istehsalı sahələrinin yaradılmasını məqsədəuyğun hesab edirik. Eyni zamanda şəhərdə xalçaçılıq, tikiş və sənətkarlığın inkişafı və həmin müəssisələrdə şəhərin tarixi, mədəniyyət və dini abidələri, tarixi şəxsiyyətlərin və mədəniyyət xadimlərinin əks olunduğu suvenirlər, kiçik ölçülü xalçalar istehsal edərək onların satışını təşkil etmək bir növ həmin məhsulları alan turistlər vasitəsilə Qarabağın və bütövlükdə Azərbaycanın xarici ölkələrdə təşviqi ola bilər. Fikrimizcə, həmin məhsullar şəhərdə innovasiyalı sahibkarlığın inkişaf etdirildiyi kiçik və orta istehsal sahələrində istehsal edilməlidir. Belə müəssisələrdə elektron, cihazqayırma və radio-elektron məhsulların hissələrinin istehsalı da yerli əhalinin məşğulluq problemlərini həll edə bilər. Şuşa şəhərində musiqi və turizm ixtisasları üzrə mütəxəssislər hazırlayan kolleclərin və ya universitetlərin filiallarının açılması da məqsədəuyğun hesab edilir.

Şuşa şəhərində əlverişli yaşayış mühitinin yaradılması üçün effektiv vasitələrdən biri də “yaşıl infrastruktur”un formalaşdılmasıdır. “Yaşıl infrastruktur” anlayışının yaranması yol şəbəkələri, kommunikasiyalar, bina və tikililər, digər ictimai obyektlər daxil olmaqla, süni şəkildə yaradılmış

infrastruktura bir növ əks tarazlığın formalaşdırılması zərurətindən irəli gəlir. Şəhər əhalisinin həyat keyfiyyətinin qiymətləndirilməsi bu keyfiyyəti müəyyən edən, bir-biri ilə əlaqəli olan iqtisadi, sosial və ekoloji amillərin hərtərəfli öyrənilməsini tələb edir. Eyni zamanda, şəhərdə ekoloji vəziyyət çox vaxt inkişafın əsas amilinə çevrilir və təkcə əhalinin sağlamlığının səviyyəsinə deyil, həm də iqtisadi inkişafa təsir göstərir.

Şuşa şəhərində iqtisadiyyatının inkişafı üçün yeni imkanların axtarışı zərurəti yaranmışdır ki, burada gələcək planların işlənib hazırlanmasında əsas şaxələndirmə istiqamətindən biri kimi turizm sənayesinin inkişafı götürülməlidir. Buna başlıca səbəb işğaldan əvvəl Şuşa şəhərində kurortların, istirahət və müalicə müəssisələrinin olması, əhalinin bu sahədə tarixi məşğulluğunun mövcud olmasıdır. Mövcud bazanın yenidən qurulması, dünya standartlarına uyğun modernləşdirilməsi, imkanlarının genişləndirilməsi və müasir infrastrukturun təşkili, eləcə də turizmin yeni növlərinin, o cümlədən bütün mövsümlər üzrə turizminin inkişafı şərti ilə şəhərin davamlı sosial-iqtisadi inkişafı təmin edilə bilər. Bu baxımdan şəhərin "yaşıl infrastrukturu"nun optimallaşdırılması da rayonda iqtisadiyyatın şaxələndirilməsi strategiyasının həyata keçirilməsi üçün əlavə stimul rolunu oynaya bilər. Ümumiyyətlə, şəhərsalma praktikasında ekoloji vəziyyətin tənzimlənməsi məqsədi ilə funksional rayonlaşdırmadan geniş istifadə olunur [3,4].

Bu baxımdan yenidən bərpa edilən Şuşa şəhərinin qiymətləndirilməsi şəhər ərazisinin zonalaşdırma strukturu ilə bağlı aparılması məqsədəuyğundur. Deməli, Şuşa şəhərində aşağıdakı funksional zonalar: yaşayış, ictimai, biznes, sənaye, kommunal, anbar və rekreasiya zonaları fərqlənməlidir. Şuşa şəhərində rahat yaşayış mühitinin yaradılması da əhalinin cəlb edilməsində müəyyənedici amillərdən birinə çevrilməlidir. Şuşada "Yaşıl infrastruktur"un əsası kimi ekoloji çərçivələr şəhərin baş planına şəhərsalmanın məcburi elementi kimi daxil edilməlidir və bu işdə istifadə olunan yanaşmadan həm də şəhər ərazilərinin iqtisadi, ekoloji və sosial inkişafı planlarının işlənib hazırlanmasında istifadə oluna bilər.

Şuşa şəhəri tarixən inkişaf etmiş mədəniyyət xüsusiyyətlərinə, müəyyən əmək bölgüsü prosesinə, coğrafi mövqeyinə, habelə yerinə yetirdiyi funksiyalara, o cümlədən, qonşu rayonlar və kəndləri arasında ünsiyyət funksiyasına malik olsa da, bölgənin və şəhərin işğalı, dağıdılması səbəbindən baş verən sosial-iqtisadi dəyişikliklərin təsirindən bütövlükdə şəhərdə həyat öz funksiyalarını itirmişdir. Şuşa şəhərinin yeni baş planına istehsal və istehlak tullantılarının və məhsullarının təkrar emalı, ekoloji cəhətdən təmiz nəqliyyat növlərindən istifadənin inkişafı daxil edilməlidir. Çünki, şəhər bunun üçün böyük potensiala malikdir. Qeyd edildiyi kimi, Şuşada iqtisadiyyatın müxtəlif sahələrinin, xüsusən də kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi yolu ilə şəhərdə kənd təsərrüfatı məhsullarının emalı və sənətkarlıq sahələrinin inkişafı üçün imkanlar vardır.

Ümumiyyətlə yeni çağırışlara effektiv cavab vermək və davamlı inkişafı təmin etmək üçün fikrimizcə, Şuşa şəhəri üçün yeni yanaşmalar hazırlanmalı və tətbiq etməlidir. Bu yanaşmalar içərisində ən əsası "ağıllı" şəhər konsepsiyasını tətbiq etməkdir. 1993-cü ildən ortaya çıxan "ağıllı" şəhər insan cəmiyyətinin inkişafına, yaşayış üçün rahat və ekoloji cəhətdən təmiz olmasına yönəlib. Burada ekoloji təmizlik o deməkdir ki, şəhərdə ekoloji siyasətə böyük diqqət yetirilir, yaşıl texnologiyalar inkişaf etdirilir, ətraf mühitin mühafizəsi, resurslardan təkrar istifadə üsulları işlənib hazırlanır, vətəndaşların fiziki və psixi sağlamlığına qayğı göstərilir. Belə "ağıllı" şəhərdə yüksək keyfiyyətli məktəblər və münasib iş yerləri, yaşayış yeri, rahat nəqliyyat, vətəndaşların mədəni tədbirlərlə dincəlməsi üçün açıq yer olmalıdır. Bütün bunlar isə enerjidən istifadəni və karbon emissiyalarını azaltmalıdır [3].

Beləliklə, Şuşada "ağıllı" şəhərin inkişafı onun "yaşıl" texnologiyalardan geniş istifadə edəcəyini və şəhərin özünün rahat və səmərəli şəkildə təşkilini nəzərdə tutduğundan, bu, sərf edilməli olan resurslardan istifadənin azalmasına səbəb olacaqdır. Şuşa şəhəri üçün təklif etdiyimiz müasir "ağıllı" şəhər konsepsiyasına davamlı inkişaf məqsədilə təbiətə əsaslanan texnologiyaları tətbiq etmək mümkündür. Belə texnologiyalardan biri ekoloji bərpadır. Ekoloji bərpa şəhərdə pozulmuş ekosistemin yenidən bərpasına əsaslanır. Bu zaman ekoloji mühəndislikdən də geniş istifadə edilməlidir. O, təbii və insan tərəfindən süni şəkildə yaradılan ekosistemləri birləşdirmək cəhdinə əsaslanır. Ekoloji mühəndisliyin vəzifələrinə quru və su ekosistemlərinin bərpası, biomüxtəlifliyin qorunması yollarının tapılması, ekoloji risklərin qiymətləndirilməsi və kənd təsərrüfatı məhsulları istehsalının davamlılığının artırılması daxildir. Eyni zamanda, ekoloji mühəndislik təkcə ekosistemi

bərpa etməyi deyil, həm də onu ətraf mühit şəraitinə ən davamlı hala gətirəcək şəkildə sıfırdan qurmaqdan ibarətdir.

Şuşa şəhəri və ətraf ərazilərin meşə landşaftının bərpası, deqradasiyaya uğramış və meşəsizləşmiş ekosistemlərin ilkin formasına qaytarılması da nəzərdə tutulmalıdır. Meşələrin və parkların bərpasında ən başlıca məqsəd şəhərin ekoloji vəziyyətini yaxşılaşdırmaqdır. Yaşıllığın bərpası iqlim dəyişikliyinin təsirlərini, təbii fəlakət riskini və vurduğu zərərləri azaldır, turizmin inkişafına müsbət təsir göstərir. Şuşa şəhərinin ekosistemlərinin davamlı idarə olunması, onların bərpası və yerli sakinlər üçün sosial, iqtisadi və mədəni faydalar üçün istifadə edilməsinin zəruriliyi də nəzərə alınmalıdır.

Şuşa şəhərində və ətraf ərazilərində təbii ərazi komplekslərinin mühafizəsi oradakı növlərin və ekosistemlərin qorunub saxlanmasını, onların kənar təzyiqə qarşı müqavimətinin artırılmasını və yeni şəraitə uyğunlaşmasını asanlaşdırmaq məqsədi daşıyan şəhər ekomühitinin mühafizəsi fəaliyyətidir. Ekosistemin mühafizəsi və onun idarə edilməsinin əsas məqsədi yenidən bərpa edilən Şuşa şəhərinin həm orada yaşayacaq insanlar, həm də digər canlılar üçün daha əlverişli etməkdir. Burada əsas çətinlik, qəbul edilən qərarların şəhər ekosistemlərinə təsirinin nəticələrini nəzərə almaqdır. Yəni, uğurlu idarəetmə üçün bioloji müxtəliflik, suyun keyfiyyəti, torpağın deqredasiyası kimi yalnız fiziki parametrləri nəzərə almaq kifayət deyil. Şəhər ekosistemlərində nəqliyyatın, sosial institutların, insani dəyərlərin harada yerləşdiyini anlamaq da vacibdir [4,6]. Şəhər mühiti əhalini, iqtisadiyyatı, ətraf mühiti, su və havanın keyfiyyətini dəyişir və şəhər rəhbərliyi ekosistemdə bu cür dəyişiklikləri qabaqcadan görməli və nəzərə almalı, qərar qəbul edərkən ehtiyatlı olmalı, təsirlərin azaldılması imkanlarını axtarmalıdır.

**Ədəbiyyat siyahısı:**


1. Müseyibov, M.A. Azərbaycanın fiziki coğrafiyası. Bakı, 1998.
2. Cəfərov, M.İ., Babayev, A.Ş., İbrahimov, Z.A. Azərbaycanın təbii sərvətləri və onlardan səmərəli istifadə (Monoqrafiya) Gəncə – 2005. –290 s.
3. Устойчивое развитие территорий: монография / под науч. ред. О.В. Кудрявцевой. – М.: Экономический факультет МГУ имени М. В. Ломоносова, 2021.– 492 с.
4. Устойчивое развитие регионов и городов Поволжья: монография / под редакцией С.М. Никонорова, С.В. Соловьевой, К.С. Ситкиной. – М.: Экономический факультет МГУ имени М.В. Ломоносова, 2020. –255 с
5. Valida Mehdiyeva, Ilgar Khalilov. Ekological and economic aspects of the use of natural resource potential in sustainable development of the Republic of Azerbaijan. 37th International Scientific Conference on Economic and Social Development – "Socio Economic Problems of Sustainable Development" - Baku, 14-15 February 2019 s.142-152.
6. Afag Hajiyeva. Risks and Threats Emerging Due to Anthropogenic Transformations on the South-Eastern Slope of the Greater Caucasus. Journal of Agriculture and Life Sciences, Vol.2. No1. June-2015,USA. Pc.173-180.
7. www.eko.gov.az
8. www.stat.gov.az
9. https://files.preslib.az/projects/azerbaijan/gl2.pdf


---


**İsayev Kamran Hidayət oğlu**
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Menecment" kafedrasının dosenti,
iqtisad elmləri namizədi
kamranisayev75@mail.ru


## Şuşa şəhərinin bərpası və sosial-iqtisadi infrastrukturunun qurulması

Azərbaycan Respublikasının təsərrüfatının ərazi təşkilinin təkmilləşdirilməsi, regionların sosial-iqtisadi inkişaf səviyyələrinin tənzimlənməsi istiqamətlərində dövlətin həyata keçirdiyi ardıcıl

regional siyasət böyük əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının regionlarının, iri şəhərlərinin sosial-iqtisadi inkişafı, turizm, ərzaq təhlükəsizliyi, sahibkarlığa kömək, ekoloji vəziyyətin yaxşılaşdırılması və sairə ilə bağlı iri dövlət proqramları, layihələr həyata keçirilmişdirlər. Bu siyahıya "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı", "Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Proqram", "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasının ekoloji vəziyyətinin yaxşılaşdırılmasına dair kompleks tədbirlər planı" daxildirlər. Bunlardan başqa, Azərbaycanın regionlarının şəhər və inzibati rayonlarının sosial-iqtisadi inkişafına, azad iqtisadi zonaların təşkilinə və sairəyə dair əlavə tədbirlər haqqında qərarlar qəbul olunmuşdurlar. Göstərilən proqrammların əksər hissəsi həyata keçirilmişdir, digər hissəsi isə icra mərhələsindədir.

Regional Dövlət proqrammlarının əsas məqsədi inzibati-ərazi vahidlərinin potensialından səmərəli istifadə etməklə iqtisadi fəaliyyət sahələrinin inkişafına, ixracat yönümlü məhsul istehsalının artırılmasına, əhalinin məşğulluq səviyyəsinin və həyat şəraitinin yüksəldilməsinə və sairələrinə nail olmaqdır. Göründüyü kimi, proqrammlar qarşısında kompleks xarakterli məqsədlər qoyulmuşdurlar.

Qarabağ ərazisinin böyük hissəsi (88 %-ə qədəri) uzun illərdən bəri işğal altında olduğundan sosial-iqtisadi cəhətdən zəif inkişaf etmişdir. 1991-ci ildən 2021-ci ilə qədər Yuxarı Qarabağ iqtisadi rayonu adlandırılırdı. İqtisadi rayon Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli inzibati rayonlarını və Xankəndi şəhərini əhatə edirdi. 1994-cü ildən Tərtər, Xocavənd, Xocalı və Şuşa rayonunun bir hissəsi və Xankəndi şəhəri Rusiya sülhməramlılarına hərbi nəzarətə verilmişdir.

Ərazisi müxtəlif təbiət abidələri, nadir bitki və heyvan aləminin biomüxtəlifliyi, yeraltı və yerüstü sərvətləri və sair kimi zəngin iqtisadi potensialı ilə diqqəti cəlb edir. Sənaye əhəmiyyətli faydalı qazıntı mənbələrinin ən əhəmiyyətliləri növbətilərdir: Ağdərə rayonunda – "Dəmirli", "Qızılbulaq", "Canyataq" və "Gülyataq" mis-qızıl yataqları, Mehmanada sink-qurğuşun, müxtəlif tikinti materiallarının təbii mənbələri, Şuşa rayonunda tikinti daşı karxanası, Şırlan və Turşsu mineral bulaqları. Xocalı, Ağdam, Cəbrayıl inzibati rayonlarının əraziləri mişar və üzlük daşları, qum-çınqıl, gəc, gil, sement xammalı və sair tikinti materialları ilə zəngindirlər. Qarabağ yeraltı və yerüstü su ehtiyatları, xüsusi ilə, böyük müalicəvi əhəmiyyəti olan mineral su ehtiyatları ilə zəngindir. Belə su mənbələrinin ən iriləri Şuşa rayonu ərazisində yerləşən Turşsu və Şirlan bulaqlarıdırlar. Qarabağ Azərbaycan Respublikasının meşəli ərazilərindəndir. Vaxtı ilə ərazisinin meşəlik sahəsi 150 min hektar (ha) təşkil edirdi ki, bu da ölkənin ümumi meşə fondunun 15 %-nə bərabər idi.

Hazırda Qarabağ iqtisadi rayonu – Azərbaycan Respublikasının 14 iqtisadi rayonundan biridir.

Qarabağ iqtisadi rayonu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07 iyul 2021-ci il tarixli – "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" – fərmanı ilə qurulmuşdur.

Tərkibinə Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocavənd, Şuşa, Tərtər inzibati rayonları və Xankəndi şəhəri daxildirlər. Sahəsi 7330 km²-dir. 2020-ci ilin əvvəlində respublikanın müxtəlif coğrafi nöqtələrində yerləşmiş Qarabağ iqtisadi rayonunun əhalisinin sayı 900,3 min nəfər idi ki, bu da Azərbaycan Respublikasının ümumi əhalisinin 8,94 %-ni təşkil etmişdir.

Qarabağ iqtisadi rayonunun əsas təbii sərvətlərini polimetal filizləri, neft, təbii qaz, müxtəlif tikinti materialları (mərmər, sement xammalı, tikinti daşı) təşkil edirlər. Meşələrdəki müxtəlif ağac növləri ağac emalı müəssisələrinin fəaliyyətinə yararlıdır.

Sənayesi yerli kənd təsərrüfatı xammalının emalına əsaslanmışdır. Qida sənayesinin əsas qolları şərabçılıq, müxtəlif kənd təsərrüfatı məhsulları və konserv məhsullarının istehsalı olmuşdurlar.

Qarabağ iqtisadi rayonunda kənd təsərrüfatının üzümçülük, taxılçılıq, meyvəçilik, pambıqçılıq və tütünçülük kimi sahələri inkişaf etmişdirlər. Bölgədə meyvə, kartof, bağçılıq bitkilərinin də yetişdirilməsi, heyvandarlığın, əsasən, yüksək dağlıq ərazilərdə ətlik və südlük heyvandarlığın, ət və yun heyvandarlığının inkişaf etdirilməsi üçün münbit təbii şərait vardır. Bölgədə ipəkçiliyin inkişafına kömək edən tut bağları geniş yayılmışdır.

Təbii balneoloji ehtiyatlar, meşələr, mineral bulaqlar (Turşsu, Şirlan) istirahət və müalicə-sağlamlıq turizmi üçün əlverişlidirlər [5].

Şuşa rayonu Azərbaycan Respublikasında inzibati-ərazi vahididir. Rayon 1930-cu ildə təşkil edilmişdir. Kiçik Qafqazda Qarabağ silsiləsi ərazisində yerləşir. Ərazisi 289 km²-dir. 01 yanvar 2016-cı il tarixinə əhalisi 32,8 min nəfərdir. Şuşa rayonunun ərazisinə bir şəhər və 31 kənd daxildir. İnzibati mərkəzi Şuşa şəhəridir. 1992-ci ildən rayon erməni silahlı dəstələri tərəfindən işğal olunub. Şuşa şəhəri Qarabağ müharibəsinin gedişində hərbi əməliyyatlar zamanı qismən dağıdılmışdır. Şəhər İkinci Qarabağ müharibəsində, 8 noyabr 2020-ci il tarixdə düşməndən azad edilmişdir [6].

Şuşa şəhərinin təbii landşaftı səthi dağlıqdır. Ən yüksək zirvəsi Böyük Kirs dağıdır (dəniz səviyyəsindən 2725 metr yüksəklikdə). Ərazisinin əksər hissəsi yay mövsümü quraqlıq keçən mülayim isti və qış mövsümü quraq keçən soyuq iqlim tiplərinə aiddir. Orta temperatur yanvar ayında −4 °C-dən −1 °C-yədək, iyul ayında 16–19 °C-dir. İllik yağıntı 700–800 mm-dir. Ərazisindən Qarqarçay axır. Torpaqları qəhvəyi və qonur dağ-meşə, çimli dağ-çəmən tiplidir. Yüksək dağlıq sahələr subalp və alp çəmənlikləri ilə örtülüdür. Alçaq dağlıq və dağətəyi sahələrdə qırılmış meşələrin yerində çəmənlər və kserofit kolluqlar vardır. Heyvanat aləminə ayı, canavar, tülkü, boz dovşan, cüyür, kəklik, göyərçin və s. aiddirlər.

Şuşa şəhəri Qarabağ regionunun sosial-iqtisadi, ictimai-mədəni və tarixi həyatında əsas yeri tutur. Şəhərin yenidən Qarabağın mədəni, aqrar-sənaye, təhsil mərkəzinə çevrilməsi Azərbaycan Respublikasının inkişafında prioritetli vəzifələrdəndir.

Azərbaycan Respublikasının “Mədəniyyət paytaxtı” – Şuşa şəhərinin bərpasının əsas istiqamətləri tikinti-abadlaşdırma , tədricən, hazırki tarixi dövrün tələblərinə cavab verəcək şəhər mühitinin formalaşdırmasıdır. Bu istiqamətlər üzrə hökümətin tədbirlərinin gerçəkləşdirilməsi Şuşa şəhərinin işğaldan sonrakı dövrdə əhalinin hərtərəfli həyat fəaliyyəti üçün rahat şəraitin, əlverişli həyat mühitinin yaradılması vəzifələrini daşıyır.

Hazırda Şuşa şəhərinin əhalisakinliyinə dair hökümət tədbirlərinin yeni mərhələsi davam etdirilir. Hökümət tədbirlərinin çərçivəsində şəhərin əsas, həyati vacib infrastruktura elementləri ilk növbədə bərpa olunmuşdurlar (elektrik enerjisi, içməli su, təbii qaz təchizatı), bəzi icra-idarəetmə orqanlarının fəaliyyəti artıq paytaxdan – Bakı şəhərindən və respublikanın müxtəlif coğrafi məntəqələrindən deyil bilavasitə, Şuşa şəhərindən və ya daha yaxın məsafədəki ərazilərdən idarə olunur.

Təxminən 30 təqvim ili ərzində Şuşa şəhərinin hərbi, təbii-iqlim təsirlərinə məruz qalması tarixi-memarlıq abidələrinin, təhsil ocaqlarının, mülki və sənaye tikililərinin, müxtəlif təyinatlı müəssisələrin inzibati binalarının az və çox dərəcədə sıradan çıxmasına, bəzən , tamami ilə məhv olunmasına gətirib çıxarmışdır. Bu mənada şəhərin mülki və iqtisadi fondunun kompleks bərpası, rekonstruksiyası və texniki cəhətdən yenilənməsinin rolu böyük əhəmiyyət kəsb edir. Çoxmərhələli proses müasir şəhərsalma prinsiplərinə və şəhərin tarixən formalaşmış görkəminin qorunması şərtlərinə uyğun həyata keçirilməlidir.

Şuşa şəhərinin əvvəlki əzəmətinin geri qaytarılması üçün dövlət səviyyəsində işlər görülməkdədir. Bu məqsədlə işçi qrupu yaradılıb. Hazırda işçi qrupun qarşısında duran əhəmiyyətli vəzifələrdən biri Şuşa şəhərinin bütövlükdə ərazi və şəhərsalma vəziyyətinin, tarixi, mədəni və dini abidələrin durumunun, binaların arxitektura görünüşünün, infrastrukturun dəyərləndirilməsi ilə bağlı təkliflərin hazırlanmasıdır.

Azərbaycan Respublikasının Milli Məclisində keçirilən iclaslarda “Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında Qanun” layihəsinin ikinci oxunuşu müzakirə edilmişdir. Müzakirələrdə Şuşa şəhərinin infrastrukturu, nəqliyyat sistemi barədə məsələlərin müzakirəsi öz əksini tapıb.

Şuşa şəhərində bərpa işlərinin sürətləndirilməsi ilə bağlı tanınmış memar , Müstəqil Memarlar Assosiasiyasının rəhbəri Zemfira Budaqova qeyd edib ki : “..... işğaldan azad olunmuş torpaqlarımızda şəhərsalma işi ilə əlaqədar ilk növbədə peşəkar mütəxəssislərin cəlb olunması daha məqsədəuyğundur.....” [7]. O, hesab edir ki, işğaldan azad olunmuş şəhərlərdə quruculuq bölgənin tarixinə uyğun aparılmalıdır, yəni təbii görünüş pozulmadan müasir tikililər inşa olunmalıdırlar. Şuşa şəhərinə özünəməxsus relyefinə uyğun binalar tikilməlidir, relyefə görə 4-5 mərtəbədən artıq hündür bina tikilməməlidir, yəni, şəhərsalma və bərpa işləri elə aparılmalıdır ki, Şuşa gözoxşayan təbii mənzərəsi, qədimliyi və müasirliyi ilə dünyanın da diqqətini çəksin.

“......Hesab edirəm ki, Qarabağın incisi adlandırdığımız Şuşa qədimliyi, milli-mənəvi dəyərləri, incəsənət mərkəzi olduğu üçün orada şəhərsalma planlı və düşünülmüş formada həyata

keçirilməlidir. Əgər Şuşada tikilən binalar müasir üslubda olarsa, o zaman qədimliyi əks etdirən ornamentlərlə zəngin olmalıdır. Ümumiyyətlə, burada özünəməxsus ornamentlərdən daha çox istifadə edilməlidir.....” [7].

Şuşa şəhərinin bərpası və rekonstruksiyası işlərində sosial, iqtisadi, şəhərsalma amilləri nəzərə alınmalıdırlar. Sosial amillər bərpa olunacaq və yaxud tikiləcək mülki yaşayış fondunun yüksək istismar xarakteristikalarına cavab verməsi; şəhərsalma amilləri – şəhərin inzibati ərazisinə aid torpaq sahəsinin səmərəli istifadə edilməsi; iqtisadi amilləri – şəhərin yüksək dərəcədə investisiya cəlbediciliyi ilə əlaqələndirmək lazımdır.

Şəhərin rekonstruksiyası və bərpasının əsas xətti ilkin istismar müddətini başa vurmuş mülki və digər təyinatlı tikililərin etibarlıq və “uzunömürlük” göstəricilərinin yüksəldilməsidir [4]. Şuşa şəhərinin təbii-iqlim və coğrafi-məkan yerləşməsini nəzərə alaraq bu vəzifə aktualdır.

Strateji nöqteyi-nəzərdən şəhərin abadlaşdırılmasının aşağıda göstərilən istiqamətlərini vurğulamaq olar:

- şəhərin “tarixi zona”-sının kompleks rekonstruksiyası , yəni, şəhərin ilkin plan quruluşu, məkanları, landşaftı və tikililəri gözlənilməklə müəyyən ərazilərin sosial və iqtisadi cəhətdən bərpası;
- radikal rekonstruksiyası, yəni, “şəhərin tarixi zonası” istisna edilməklə şəhərə aid torpaq sahələrində köklü dəyişikliklər və ərazinin funksional istifadə edilməsi;
- mülki mühitin yaxşılaşdırılması. Buraya şəhərin küçələrinin, məhəllələrinin abadlaşdrılmasını, o cümlədən, estetik parametrlərinin modernləşdirilməsini, ticarətin inkişafını, təhlükəli təbii proseslərdən mühafizəyə dair rekonstruktiv tədbirləri aid edə bilərik
- sonradan şəhər mühitinin renovasiyası isə yuxarıda sadaladığımız tədbirlərin icrasını əhatə etməlidir;
- piyada və nəqliyyat kommunikasiyalarının rekonstruksiyası. Şəhərin əhalisakinliyi artması göstəricilərindən irəli gələrək küçələrin abadlaşdırılması və yaşıllaşdırılması işləri ilə bərabər əhali üçün təhlükəsiz “piyada keçidləri”-nin, avtomobil dayanacaqlarının yerləşdirilməsi və nəqliyyatın məhdud sürətlə hərəkətinin planlaşdırması tədbirləri.

Şəhərin bərpası planlarında şəhər mühitinin inkişafını və optimallaşdırılmasını təmin edə biləcək aşağıda göstərdiyimiz şərtlər nəzərə alınmalıdırlar:

1) tarixi mühiti formalaşdırmış azmərtəbəli binaların qorunub-saxlanması;

2) əhaliyə mədəni-məişət xidmətləri edəcək müəssisələr şəbəkəsinin təşkili və genişləndirilməsi.

Şəhərin kompleks abadlaşdırılması və bərpası, qismən rekonstruksiyası zamanı yüksək effekt göstəricilərinə nail olmaq üçün, az əhəmiyyətli olmayan, növbəti meyarlara riayət edilməsini vacib hesab edirik:

-təmir, bərpa, abadlaşdırma və qismən rekonstruksiya fəaliyyətinə şəhərin funksional və memarlıq strukturunda daha vacib, əhəmiyyətli olan tikinti obyektlərindən, həmçinin, şəhərin qənaətbəxş funksional vəziyyətdə olmayan hissələrindən başlamaq lazımdır;

- qismən rekonstruksiya prosesində mülki yaşayış fondunun yaxşılaşdırılması, əhalinin asudə vaxtının və mədəni-məişət xidmətinin təşkili, əhalinin məşğulluq göstəricilərinin yüksəldilməsi vəzifələri həllini tapmalıdırlar.

Tarixi mühitin yenilənməsi və səmərəli istifadə edilməsi Şuşa şəhərinin sosial-mədəni potensialının qorunub-saxlanmasını və genişləndirilməsini təmin etməlidir.

**Ədəbiyyat siyahısı:**


1. Барбаш Н.Б. Методика изучения территориальной дифференциации городской
2. среды. – М., 1989.
3. Владимиров В.В. Расселение и окружающая среда. – М., 1992. – С. 312.
4. Аналитика рынка недвижимости евроазиатского пространства [Электронный ресурс]. –
5. Режим доступа: http://www.klichko.com.
6. Клуб профессиональных строителей [Электронный ресурс]. –
7. Режим доступа: http://www.baurum.ru.
8. https://az.wikipedia.org/wiki/Qaraba%C4%9F_iqtisadi_rayonu#cite_note-4
9. https://az.wikipedia.org/wiki/%C5%9Eu%C5%9Fa_rayonu#cite_note-3
10. https://sivil.az/az/

**Mustafayeva Şahəstə Zahid qızı**
Beynəlxalq münasibətlər ixtisası üzrə fəlsəfə doktoru
shahestemustafayeva@gmail.com

# Şuşa şəhərinin dirçəldilməsinin Azərbaycanın tərəqqisinin yeni zirvəyə qaldırılmasında strateji əhəmiyyəti.

**Xülasə**

Şuşa bütün dövrlər üçün Azərbaycanın Azərbaycanın ayrılmaz hissəsi olub. Şuşanın yerləşdiyi coğrafi mövqe olduqca əhəmiyyətlidir. "Mədəniyyət paytaxtımız" olan şəhər erməni işğalı altında olduğu dövrdə çox ciddi dağıntılara məruz qalmışdır. Vaxtı ilə Azərbaycanın ən inkişaf etmiş sosial-iqtisadi şəhərlərindən biri olan Şuşanın erməni tapdağından azad edilməsinin vacib olduğu kimi onun post müharibə dövründə yenidən bərpası, inkişaf etdirilməsi və bu barədə tədqiqatların aparılması olduqca zəruridir.

**Açar sözlər:** UNESCO, BMT, İSESCO, İƏT

## Giriş

Mədəni irs hər bir cəmiyyətin və ya millətin keçmişinə aid maddi və mənəvi ünsürlərini özündə birləşdirir. Həmin cəmiyyətin hazırkı özünəməxsusluğunu ehtiva edən və bunu gələcək nəsillərə ötürə biləcək vasitədir. Azərbaycanın Qarabağ bölgəsi dünyanın ən qədim insan məskənlərindən biri olmaqla yanaşı, mədəni irsin ən bariz nümunəsidir. Məhz ona görə də Şuşa Ermənistan kimi işğalçı dövlətin daim marağında olmuşdur.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən Şuşa şəhəri də tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biridir. Şuşa qalası onun banisi olan Qarabağ xanı Pənahəli xanın şərəfinə 1752-ci ildə Pənahabad qalası adlandırılmışdır. Bir müddət sonra xalq qalanı Şuşa qalası, sonrakı dövrdə isə sadəcə Şuşa adlandırmışdır{1}.

XVIII əsrin əvvəllərindən başlayaraq Şuşa Qarabağ xanlığının, eləcə də Azərbaycanın ən mühüm mədəniyyət mərkəzlərindən birinə çevrilir, qonşu ölkələrdə isə özünə "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi", "Zaqafqaziya konservatoriyası" kimi adlar qazandırır. Və o dövrlərin nə tarixi sənədlərində, nə ədəbiyyatlarda "erməni" sözünə rast gəlinmir{2}.

1805-ci il mayın 14-də Qafqazdakı rus qoşunlarının baş komandanı Pavel Sisiyanovla İbrahimxəlil xan arasında Qarabağ xanlığının Rusiyanın tərkibinə keçməsini, xanlığın Rusiya tərəfindən birmənalı şəkildə müstəqil dövlət olaraq tanınmasını, İbrahimxəlil xanın və onun varislərinin xanlığın yeganə sahibi olduğunu təsdiq edən Kürəkçay müqaviləsi imzalanır. İbrahimxəlil xanın imzası həmin sənədlərin artikullarında öz əksini "Şuşalı Qarabağlı İbrahim xan" kimi tapır {3}.

1828-ci ilin 10 fevral tarixində Rusiya və İran arasında bağlanmış Türkmənçay müqaviləsinə əsasən, Qarabağa köçürülən erməni tayfaları Rusiya imperiyasının regionda apardığı xristianlaşdırma siyasətinə uyğun şəkildə Şuşanı, eləcə də digər qədim Azərbaycan torpaqlarını özününküləşdirmək iddiasıyla fəaliyyətə başlayırlar. Həmin dövrlər erməni əsilli rus generalı Valerian Qriqoryeviç Madatovun Şuşaya komendant təyin olunmasıyla ermənilərin bu ərazilərə yerləşdirilməsi daha intensiv xarakter alır. 1865-ci ilin mayında Şuşaya səyahət edən məşhur rus rəssamı Vasili Vereşşaginin Şuşanın təsvirləri əks olunan silsilə rəsmləri şəhərin o dövrlərə aid mənzərələrini əbədi olaraq tarixə həkk edir. "Şuşa məscidi", "Şuşada məhərrəmlik", "Müsəlman məktəbi", "Şuşada varlı azərbaycanlının qonaq evi" və s. kimi adlar daşıyan bu tablolar indi də muzeylərdə saxlanır {4}.

1977-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmiş, Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. XIX yüzilliyin sonlarında kapitalizmin inkişafı nəticəsində müxtəlif sahələrdə baş verən dəyişikliklər Azərbaycanın mədəniyyətinə də ciddi təsir göstərmiş və xalqın mədəni inkişaf sferasına istiqamətlənməsinə şərait yaratmışdı. Bu dövrdə Azərbaycanda maarifçilik inkişaf edirdi. Maarifçiliyin inkişafı nəticəsində dini təhsil sistemindən dünyəvi təhsil sisteminə keçid gücləndi. Bunun nəticəsi olaraq məktəb, maarif işinin inkişafına görə də Şuşa digər şəhərlərdən öndə idi. 1886-cı ildə Şuşada Qız məktəbi yaradıldı. Yeni açılan bu

məktəblərdə ədəbiyyatın tədrisinə xüsusi diqqət yetirilirdi. Şuşanın Azərbaycanın digər şəhər mərkəzlərindən fərqli bir statusu vardır. Musiqi mədəniyyətimizin beşiyi sayılan Şuşada xanəndə və çalğıçıların professional məktəbi yaranmışdı. Şuşa ifaçıları ölkə hüdudlarından kənarda belə şan-şöhrət qazanmışdır. İlk musiqi məktəblərinin yaranması ilə Şuşada xalq musiqisi ənənələri yayılır və zənginləşirdi. 1897-ci ildə Şuşada Ə.Haqverdiyev Füzulinin «Leyli və Məcnun», 1902-ci ildə isə Nizaminin «Xosrov və Şirin» poemalarını səhnələşdirmişdi.

1988-ci ildə erməni separatçılarının Azərbaycanın Dağlıq Qarabağ torpaqlarına ərazi iddiaları ilə düzənlənən mitinqlərin ardınca Azərbaycan ərazilərinə silahlı hücumlar başlamışdır. Qədim Azərbaycan şəhəri Şuşa məhz həmin bu hücumlar zamanı – 1992-ci il mayın 8-də rus-erməni hərbi birləşmələri tərəfindən işğal olundu.

Şuşadan Azərbaycan izlərinin itirilməsi məqsədilə 600-ə qədər milli memarlıq abidəsi və tarixi ərazilər, o cümlədən Qarabağ xanlığının yarandığı dövrdən cıdır yarışlarının və yerli türk əhali tərəfindən Novruz bayramlarının keçirildiyi Cıdır düzü erməni işğalçılarının tapdağı altında qalmışdı. Pənahəli xanın sarayı, Yuxarı Gövhər Ağa məscidi, Aşağı Gövhər Ağa məscidi, Şərqin məşhur şairi xan qızı Xurşidbanu Natəvanın evi, Qarabağ xanlığında vəzir olmuş klassik Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsi, professional Azərbaycan simfonik musiqisinin, eləcə də Şərqin ilk operasının yaradıcısı dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli, dünya şöhrətli opera müğənnisi Bülbül, məşhur tarixçi, rəssam, musiqişünas Mir Möhsün Nəvvabın ev muzeyləri vəhşicəsinə dağıdılmış, milli muzey fondlarından 10 mindən çox eksponat, Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi və Dövlət Qarabağ Tarixi Muzeyindən 1000-dən çox əşya qarət edilərək Ermənistana daşınmışdır. Ümumilikdə 60-dan çox kitabxana, muzey, musiqi məktəbi və şəhərin qədim müsəlman qəbiristanlığı məhv edilmişdir {5}.

Sosial-mədəni həyatda ədəbiyyat əsas tərbiyə vasitəsi kimi xalqı yetişdirmək qüdrətinə malik idi. Şuşada ilk məktəb- Şuşa Realnı məktəbi açılanda 159 şagird təhsil almışdır. 1992-ci ildə Şuşa işğal olunduqdan sonra Şuşa Realnı məktəbi yandırılaraq məhv edilib {6 }.

Azərbaycana qarşı başlatdığı hərbi təcavüz nəticəsində Ermənistan Respublikası 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etmiş və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirmişdir. Azərbaycanın rəsmi məlumatına görə, Şuşanın işğalı zamanı 195 nəfər həlak olub, 165 nəfər yaralanıb. Bundan başqa 55 nəfər əsir düşüb və ya ya girov götürülüb. İşğal nəticəsində 22 minə yaxın insan məcburi köçkün düşüb {7}.

1992-ci ildə, Şuşa işğal olunmamışdan öncə şəhərdə şərq musiqi alətləri fabriki, istehsalat kombinatı, Bakı "Radioqurma" istehsalat birliyinin müəssisəsi, Qarabağ ipək kombinatının toxuculuq sexi və digər istehsal müəssisələri var idi. Şuşada eyni zamanda inşaat materialları istehsalı üzrə də müəssisələr fəaliyyət göstərirdi {8}.

Şuşa Tarix-Memarlıq Qoruğunun 2001-ci ildə UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına daxil edilməsi Ulu Öndər Heydər Əliyevin istiqamətdə atdığı mühüm addımlardan sadəcə biri idi. İSESCO, BMT və İƏT kimi beynəlxalq əhəmiyyətli təşkilatların da Şuşa barədə mövqeləri olduqca əhəmiyyətlidir.

**Şuşanın azad edilməsi**

Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz işğal olunmuş torpaqlarımızın azad edilməsi üçün uğurlu hərbi əməliyyatlar həyata keçirmiş, 30 ilə yaxın düşmən tapdağında olan ərazilərimiz həqiqi sahibinə geri qaytarılaraq, tarixi ədalət bərpa edilmiş və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunmuşdur. Təəssüflə qeyd olunmalıdır ki, özü bütövlükdə böyük bir abidə olan Şuşa şəhərində 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi, 25 orta məktəb, 40 tibb müəssisəsi, 24 tarixi abidə viran edilmişdir {9}.

İşğal olunmuş ərazilərimizdə erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması, eləcə də xatirə muzeylərinin qarət edilməsi “Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” 1954-cü il Haaqa Konvensiyasına, “Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” UNESCO-nun 1972-ci il Konvensiyasına zidd olsa da, dünya birliyi başda BMT olmaqla, Qarabağda baş verən erməni vandallığına göz yumdu. Hələ üstəlik İrəvandan üzübəri Azərbaycanın tarixi torpaqlara yerləşəndən sonra hər şey “mənimdir” amalı ilə yaşayan və dəfələrlə soydaşlarımızı dədə-baba torpaqlarından qovan, dəhşətli soyqırımlar törədən erməni-daşnak faşizminə dəstək verən “demokratik” dövlətlər də 30 ilə yaxın davam edən işğalın yalnız hərbi yolla həllinə rəvac verdilər {10}.

2020-ci il 8 noyabr Azərbaycan xalqının tarixinə "Zəfər günü" kimi daxil oldu. Şuşa şəhəri azad edildikdən sonra 2021-ci il may ayının 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" Sərəncam imzalamışdır. Bu, möhtərəm prezidentimizin işğalçılardan azad edilmiş Şuşaya həsr edilmiş ilk sərəncamıdır {11}.

İşğal altında olarkən dağıdılmış, talan edilmiş abidələrindən biri Cıdır düzündə yerləşən Şuşa mağarası bu yerlərin Azərbaycan ərazisində ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir. Cıdır düzündən 200 metr aşağıda axan Daşaltı çayı dərəsinə və Kiçik Qafqaz dağlarına açılan möhtəşəm mənzərəni seyr etmək olar. Qədim dövrlərdən bu düzənlik cıdır yarışlarının, çövkən oyununun, Novruz bayramı şənliklərinin keçirildiyi məkan olmuşdur. Şuşa şəhəri işğaldan azad olunduqdan sonra 2021-ci ilin may ayında Cıdır düzündə uzun illərdən sonra yenidən "Xarı bülbül" musiqi festivalı təşkil edilmişdir.

Eyni zamanda Şuşanın tarixi və etnik memarlıq mənzərəsini müəyyən edən karvansaray, məscid, bulaq, qalalar və bir çox mədəniyyət abidələri vardır. Bunlara Uğurlu bəy karvansarası, İbrahimxəlil xan məscidi, Xan qızı bulağı, Pənahəli xan sarayı kimi mədəni irsin nadir incilərini sadalamaq olar.

Şəhərin əsas tarixi abidələri arasında memarlığı ilə seçilən qədim məscidlər xüsusi yer tutur. Onlardan Yuxarı Gövhərağa və Aşağı Gövhərağa məscidləri öz görkəmi ilə fərqlənirlər. Hər iki məscid 19-cu əsrdə İbrahimxəlil xanın qızı Gövhərağanın sifarişi ilə Qarabağda əksər məscidlərin memarı olmuş Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmişdir. Yuxarı Gövhərağa məscidinin minarələrinin naxışlarını isə digər qarabağlı məşhur Mir Möhsün Nəvvab işləmişdi. Memarlıq üslubu və minarələri ilə diqqət çəkən məscidlər erməni təcavüzü nəticəsində dağıntıya məruz qalmışdır. 2021-ci ilin may ayında Şuşada təməli qoyulan yeni məscidin ümumi görünüşü şəhərin azad olunduğu günün – 8 noyabr tarixinin şərəfinə səkkiz rəqəmini, minarələri isə on biri xatırladacaq {12}.

Azərbaycan xalçaçılıq sənətinin qədim mərkəzi olan Şuşada Qarabağın əsrarəngiz təbiətindən ilhamlanaraq toxunan parlaq rəngli, zərif naxışlı xalçaların şan-şöhrəti uzaq ölkələrə qədər yayılmışdır. Şuşada ötən əsrin 80-ci illərində Qarabağ xalçaçılıq ənənələrinin yaşadılması məqsədilə Mehmandarovlar nəslinə məxsus XVIII əsr abidəsi olan malikanədə xalça muzeyi yaradılmışdır. Təəssüf ki, Şuşanın işğalı zamanı muzeydə qorunan eksponatların yalnız bir qismini xilas etmək mümkün olmuşdur. Uzun müddət Bakıda Azərbaycan Xalça Muzeyində saxlanılan bu eksponatlar artıq öz doğma evinə qaytarılır {13}.

Bu gün işğaldan azad olunmuş ərazilərimizdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən nəhəng yenidənqurma işləri, o cümlədən Şuşada aparılan bərpa və quruculuq prosesi şəhərin tarixi simasının bərpa edilməsi məqsədilə, Şuşanın orijinal memarlıq üslubuna uyğun olaraq gerçəkləşdirilir. Şuşanın mədəni ruhu geri qayıdır, tarixi görkəmi bərpa edilir. Şəhərin Azərbaycan mədəniyyət tarixinin çox vacib örnəklərinin bərpa olunması, şübhəsiz ki, öz tariximizə, mədəniyyətimizə, abidələrimizə sahib çıxmağımızın nümunəsidir {14}.

**Şuşa şəhərinin dirçəldilməsinin Azərbaycanın tərəqqisinin yeni zirvəyə qaldırılmasında strateji əhəmiyyəti.**

Şuşa şəhərinin dirçəldilməsinin çox mühüm əhəmiyyəti vardır. Müharibə dövründə Milli ordumuzun şücaəti, şəhidlərimizin qanı, əsgərlərimizin qəhrəmanlığı hesabına azad edilmiş bu tarixi, doğma torpağın dirçəldilməsi bir dövlət- xalq olaraq, bizim şərəf borcumuzdur. Bununla yanaşı, daima ziyalılar yetişdirən bu zəngin torpağın altı da üstü qədər zəngindir. Çox sevindirici haldır ki, dövlətimiz artıq bu istiqamətdə çox əhəmiyyətli və iri miqyaslı tədbirlər görməyə başlayıb. Bir doktorant olaraq, mən Şuşanın dirçəldilməsi ilə bağlı müəyyən subyektiv düşüncələrimi paylaşmaq istərdim:

1. İlk növbədə Şuşanın elektrik, qaz, alternativ enerji ilə tam təchiz olunması ilə bağlı məsələlərin tam həlli,
2. Elektrik kabellərinin ən son texnologiya ilə hava xətləri ilə deyil, yeraltı izolə edilmiş kabellərlə təchiz edilməsi,
3. Şuşa şəhərinə gedən yol və infrastruktur tam bərpa olunması,
4. Sürətli internetlə təchiz edilməsi, məşhur mağazaların filialların açılması,

5. Nəqliyyat və kommunal problemlər olmadan vətəndaşlarımızın öz doğma yurd-yuvalarına qaytarılması,
6. Ən müasir məktəblərin açılması, təhsilin gözlə görünən inkişafının təmin edilməsi,
7. Şəhərdəki bütün tarixi abidələrin yenidən bərpası, Erməni işğalçılığını tənqid edən, 2020-ci il Şuşa fədakarlarının xatirələrini ölümsüzləşdirən abidələrin yaradılması,
8. Şuşada dünyanın qabaqcıl universitetləri ilə bərabər sayılacaq qabaqcıl universitetlərin açılması, bu universitetlərlə daimi tələbə-müəllim mübadiləsinin aparılması,
9. Tarixiliyinə toxunmadan turistik ərazilərin yaradılması, turistlərin axınının təmin edilməsi,
10. Dünyanın qabaqcıl kinomatoqrafçılarının dəvəti, burada həm tarixi-sənədli, həm də aksion filmlərin çəkilişinin təmin edilməsi,
11. Holivood ulduzlarının dəvəti, dünyanın və regionun ən vacib, öz sözünü demiş kino, musiqi festivallarının, məşhur müğənnilərin konsertlərinin məhz burada keçirilməsi,
12. İdman yarışlarının, olimpiadaların keçirilməsinə ev sahibliyinin təmin edilməsi,
13. Şuşa şəhərinə ən yaxın mümkün məsafədə və ya özündə birbaşa hava limanın tikintisi,
14. Dünya əhəmiyyətli siyasi görüşlərin, tədbirlərin, forumların burada keçirilməsi, ən məşhur dövlət xadimlərinin dəvət edilməsi,
15. Şuşanın tarixi haqqında xarici dillərdə çoxlu cizgi-animasiya filmlərinin, tarixi filmlərin çəkilişi,
16. Çoxlu və müxtəlif növ iş yerlərinin açılışı,
17. Xarici şirkətlərin filiallarının açılışı (məişət tullantıları üstünlük təşkil edən şirkətlər istinadır)
18. Xarici dövlətlərdə Şuşa ilə bağlı məqalə, hekayə, şeir müsabiqələrinin keçirilməsi, müəyyən cəzbedici hədiyyələrin təqdimi,
19. Xarici və yerli investisiyaların cəlbi və s.

**Nəticə**

İnformasiya əsrində yaşadığımız bir dövrdə bu cür mübarizənin düzgün qurulması və uğurlu siyasətin həyata keçirilməsi şərtdir. Enerji mənbələri əldə etmək uğrunda müharibənin getdiyi bu qlobal dünyada iqtisadi, mədəni və siyasi sahədə düzgün siyasət qurmaq şərtdir. Bu siyasətin başında da ən əsası təhsilli, sağlam bilikli cəmiyyət yaradıb, qoruyub saxlamaq ən vacib nüanslardan biridir. Nəinki iqtisadiyyat, mədəniyyət, eyni zamanda təhsillə bağlı da ciddi addımlar atılmalı, şəhərin yenidən qurulması ilə bağlı Tədbirlər Planı hazırlanmalıdır. Bu tədbirlərin icrası ilə bağlı son tarixlər (deadline) müəyyən edilməlidir. Biz Şuşanı yenidən turizmin və mədəniyyətin beşiyinə çevirsək, dünya dövlətlərinin və beynəlxalq ictimaiyyətin diqqətini və külli miqdarda investisiya cəlb etmiş olarıq. 30 illik həsrət və itirilmiş zaman geri qaytarıla bilməsə də, bütün dünyaya Ermənistan dövlətinin necə işğalçı bir dövlət olduğunu, dövlətimizə və xalqımıza qarşı törətdikləri amansız işğalçılıq siyasətini hər fürsətdə çatdırmalıyıq.

Mərhələlərlə, işğaldan azad olunan ərazilərimizdə kommunikasiyalar bərpa olunacaq, yaşayış və iqtisadiyyat canlandırılacaq. Şuşanın işğaldan azad edilməsi isə Azərbaycan dövlətinin, cəmiyyətinin və iqtisadiyyatının intibah dövrünə qədəm qoyması deməkdir. Ali Baş Komandanın rəhbərliyilə torpaqlarımız azad olunduqca, bərpa olunan tarixi ədalət inkişafımıza əlavə stimul verir, cəmiyyətdə inamı və özgüvəni artırır. İnam və özgüvən isə hər bir inkişafın əsasında dayanır" {15}.

Sevindirici haldır ki, Şuşa artıq azaddır.Sonda nə xoşbəxt gənclik və elmə xidmət edən şəxslərik ki, bizə artıq azad Şuşamızın inkişafı barədə yazmaq qismət olub!

**Ədəbiyyat siyahısı:**


1. https://az.wikipedia.org/wiki/%C5%9Eu%C5%9Fa_qalas%C4%B1
2. https://az.wikipedia.org/wiki/
3. http://www.virtualkarabakh.az/az/post-item/32/52/kurekcay-muqavilesi.html
4. https://ru.wikipedia.org/wiki/Şuşa
5. https://az.wikipedia.org/wiki/
6.http://webcache.googleusercontent.com/search?q=cache:oBZydhidc14J:anl.az/down/medeniyyet2008/may/medeniyyet2008_may_347.htm&cd=1&hl=az&ct=clnk&gl=az
7. https://www.bbc.com/azeri/azerbaijan-54856785
8. https://azvision.az/news/237086/-susanin-boyuk-iqtisadi-potensiali-var--vuqar-bayramov--.html
9. http://shusha.cls.az/more/text/13611
10. https://ikisahil.az/post/azad-shusha-dunen-bu-gun-ve-sabah

11. https://anl.az/down/zeferimizin-tentenesi.pdf&cd=1&hl=az&ct=clnk&gl=az
12. https://azerbaijan.travel/susa
13.http://azhistorymuseum.gov.az/uploads/books/files/2022/04/azhistorymuseum.gov.az_689_Tarix_toplu_2020.pdf
14. https://respublika-news.az/news/susada-azerbaycanin-azad-edilmis-erazilerinde-aparilan-berpa-ve-yenidenqurma-islerine-hesr-olunmus-konfrans-kecirilib

**Yeganə Çərkəz qızı Ağamalıyeva**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
"Dizayn" kafedrasının dosenti
yegana.ch.aghamaliyeva@gmail.com
**Gülçöhrə Saleh qızı Salehzadə**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
"Dizayn" kafedrasının baş müəllimi
salehzade.gulya@gmail.com

## Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhərinin sosial-iqtisadi inkişaf perspektivində turizm

*Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilsin*
*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*

2020-ci il noyabr 8 tarixində Azərbaycan mədəniyyətinin mehrabı, ötən əsrin 90-ci illərinədək zəngin tarixi-memarlıq irsini qoruya bilmiş "Qarabağın döyünən ürəyi" - Şuşa şəhəri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin başçılığı altında həyata keçirilən 44 günlük II Qarabağ müharibəsi nəticəsində 28 illik işğaldan azad edildi. Qeyd etmək lazımdır ki, əsrarəngiz memarlıq simasına coxsaylı ağır dağıdıcı zərbələr vurulan Şuşa şəhərində 1992-ci il 8 may tarixinədək müxtəlif əhəmiyyətə malik 549 qədim bina, uzunluğu 1203 metr çay daı ilə döşənmiş tarixi küçə, 17 məscid və bulaq, 6 karvansara, 2 mədrəsə, 3 türbə, Qala divarları və 2 qəsr, habelə 72 tarixi abidə, məşhur şəxsiyyətlərin imarət, malikanə və yaşayış evləri mövcud olmuşdur.

**Şuşa şəhərinin inkşaf yolu.** XVIII əsrin II yarısında Araz və Kür çayları arasında Qarabağ xanlığı yaranmışdır. Qarabağ xanlığının mərkəzinə çevrilən təbii strateji mövqeə malik qala–şəhəri Şuşa 1167–cı h.ilində Pənahxanın əmri ilə şimaldan terraslı kəsik konusu xatırladan, yüksək dağ üzərində, təbii–müdafiə xüsusiyyəti ilə seçilən yaylada inşa edilmişdi. Tezliklə böyüyən qala–şəhər əvvəlcə Pənahabad, yaxınlıqda yerləşən Şuşa kəndinin adı ilə Şuşa adlandırılmışdır. Şuşanın memarlıq–plan quruluşu 3 mərhələdə yaranmışdır. XIX əsrin əvvəllərində şəhər canlı ticarət və sənətkarlıq mərkəzinə çevrilmişdir. Şəhərin iqtisadi inkişafı onun tikinti səviyyəsinə birbaşa təsir göstərirdi. İqtisadi irəliləyiş yaşayış evlərinin, əhalinin gündəlik tələbatını ödəyən məscid, hamam, mədrəsə kimi ictimai tikintilərin genişlənməsinə də təsir edirdi.

Xaotik, ilk baxışdan sistemsiz şəkildə səpələnmiş malikanələrin sıx yaşıllıqlarla ahəngdarlığı, unikal bədiiliyi olan Şuşanın zəngin memarlıq irsi abidələrinin böyük əksəriyyəti XX əsrin sonlarınadək çatmışdır. Tarixi mühitini qoruyub saxlayan şəhərin bu hissəsi Azərbaycan SSR Nazirlər Sovetinin 1977–ci ildə təsdiqlənmiş qərarı ilə Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir.

**Şuşa şəhərində tarixi hissənin memarlıq təhlili.** Təbii landşaftla üzvi surətdə əlaqələnən və qala divarları daxilində genişlənən şəhərin memarlıq–planlaşma quruluşunun bədii vəhdəti uğurla yaradılmışdır. Fərdi bədii–memarlıq simasına malik, 350 ha ərazini əhatə edən Şuşa şəhəri zəngin təbii sərvətləri və iqlim–kurort kefiyyətlərinə malikdir. Azərbaycanın bu cənnət guşəsi erməni işğalına qədər qaynar turizm mərkəzi olmuşdur. Qarabağ sıra dağları ilə əhatələnən şəhərin ən qiymətli, əsrarəngiz sərvətlərindən biri onun mülayim sərin iqliminin təmiz və sağlam havası hesab oluna bilər. Sovetlər dövründə müasir Şuşa şəhəri üç hissədən: yeni yaşayış, sanatoriya–kurort və tarixi-qoruq zonalarından ibarət idi. Hər üç zona bulvar vasitəsi ilə əlaqələnirdi.

Azərbaycan şəhərsalma sənətinin nadir nümunələrindən olan Şuşa bir vaxtlar qala divarları ilə əhatə olunurdu. Yerləşdiyi ərazidə qayanin təbii formasının nəzərə çarpmayan keçidlərini özündə əks etdirən Şuşa qalasının uzunluğu 2.5 km idi. Dövrümüzə hissələrlə çatmış qalanın 4 qapısından zəfər tağını xatırladan şimal–Gəncə qapısı daha yaxşı vəziyyətdə qalmışdır. (şəkil 1)

Tarixən formalaşan Şuşanın memarlıq–plan kompozisiyasının əsasını ümumşəhər quruluşunda dəqiq xətlərilə seçilən ictimai–ticarət mərkəzi təşkil edir. İşgüzar mərkəzin əsas elementini – başlanğıcını Gəncə qapıları yaxınlığından götürərək cənuba doğru istiqamətlənən Rastbazar (300 m) və bir növ onun davamı olan Şeytanbazar (100 m) küçəsi təşkil edir. Bu magistraldan şərqə doğru üç küçə ayrılır. Şəhər mərkəzinin əsas xətti– Rastbazar küçəsi iki iri şəhər meydanını birləşdirir. Magistralın şimalında yerləşən Divanxana meydanı, XIX əsrin II yarısında Bazarbaşı adını almışdır (1, s.33). Keçmişdə Bazarbaşı meydanı ticarət funksiyası daşımışdır. Rastbazar və ona paralel olan Saatlı məhəllə küçəsinin açıldığı bu meydanın qərb tərəfində Ağa Qəhrəman Mirsiyab oğlu və Xanlıq Muxtar karvansarayları yerləşir. (şəkil 2) Muxtəlif ölkələrdən gələn müsafirlərin yaşayış tələbatlarını təmin etmək məqsədi daşıyan karvansaralar da, ticarət mübadiləsində iştirak edirdi.

Bazarbaşı meydanından Saatlı məscidinin effektli baxılan hündür minarələri görünür. Minarələrin bol ornamental tərtibatı Qarabağ xalılarını xatırladır. Saatlı məscidi baş fasadda həkk olunmuş yazılardan məlum olduğu kimi 1883–cü ildə Kərbəlai Səfixan tərəfindən inşa edilmişdir (2, s.80). Abidə ilk dəfə 1982–ci ildə bərpa olunmuşdur. Hazırda dağıntılara uğramış məscid binası arxiv materialları və burada yaşayan, köçkünlük həyatı yaşayan yerli əhalidən alınan məlumatlar əsasında bərpa edilir.

Bazarbaşı meydanının şərq küncündən başlanan Rastbazar küçəsi vaxtilə şərq və qərbdən sütunlu eyvanlar və magistral boyu əkilmiş ağac cərgələri ilə örtülü olmuşdur. XX əsrdə magistral üzrə müasir hündürmərtəbəli binaların müntəzəm düzülüşü bu hissənin tarixi ahəngini pozmuşdur. Şimaldan kiçik mailliklə cənuba istiqamətlənən bu küçə şəhərin baş meydanına açılır. Tarixi şəhərin əsas plan özəyi–Meydanın memarlıq ansamblını dominant Yuxarı Gövhərağa məscidi olmaqla mədrəsə kompleksi, Hacı Malikin evi (XVIII əsr), Səfərov qardaşları və Məşədi Şükür Mirsiyab oğlu karvansaraları (XIX əsr) təşkil edir. Bura yaxınlıqda yerləşən Xoca Mircanlı məhəllə məscidi və bulaq kompleksi də aiddir.





**Şəkil 1 . Şuşa qalası Şəkil 2. Ağa Qəhrəman Mirsiyab oğlu karvansarayı**

Meydanın cənubunda ucalan Yuxarı Gövhərağa məscidi XIX əsrdə ümumşəhər memarlıq–məkan kompozisiyasına dominantlıq etmişdir. (şəkil 3, a) Abidə 1970–ci illərdə bərpa olunduqdan sonra ölkəşünaslıq muzeyi kimi fəaliyyət göstərmişdir. Ümumşəhər memarlıq–plan quruluşunun məsuliyyətli fraqmentinin baş aksenti Yuxarı Gövhərağa məscidi bu gün də bərpa olunaraq öz funksiyası üzrə fəaliyyətini davam edir.

Meydan ansamblının dağıntıları bərpa edilərək tam həyata qaytarıldıqdan sonra abidələr öz təyinatlarına uyğun müasir funksiya sahələri ilə təmin olunmaqları məqsədə uyğun hesab edilə bilər. Şuşanın digər gözəl dini memarlıq abidəsi - Aşağı Gövhərağa məscidinin minarələrin silindrik korpusu İranın Ərdəbil şəhərində yerləşən Şeyx Səfi (XV əsr), Naxçıvanın Qarabağlar kəndində yerləşən Qarabağlar türbələrində olduğu kimi “Allah” sözünün çoxsaylı təkrarı ilə dekorlaşdırılmışdır (şəkil 3, b)

Beləliklə, təkcə şəhər mərkəzinin tədqiqi Şuşa şəhərinin, bütövlükdə Azərbaycanın tarixi–memarlıq irsi ilə zəngin şəhərsalma incisi olduğunu sübut edir.



a b

**Şəkil 3. Yuxarı Gövhərağa məscidi (a) və Aşağı Gövhərağa məscidi (b)**

Şəhər quruluşunda ayrı–ayrı məhəllələrin şəhərin ictimai–ticarət mərkəzi ilə əlaqəsinin çətinliyi, yerli relyefin mürəkkəbliyi hər bir məhəllədə dini-ictimai təyinatlı abidələr (məscid) və tarix, memarlıq və şəhərsalma baxımından nisbətə az əhəmiyyətli hamam, bulaq, bəzən ticarət köşklərinin yaranmasını tələb etmişdir. Məhz bu tikililər əhəmiyyətli abidə tikililəri üçün zəruri mühiti təşkil edir (3, s.15). Şuşanın küçələri mənzərəli, dolanbaclı, sıldırımlı enişli, eni tez-tez dəyişən, çoxlu çıxılmaz küçələrə malikdir. (4, s.83)



**Şəkil 4. Mehmandarov qardaşlarının malikanəsi**



**Şəkil 5. 28 illik erməni əsirliyində qalan şəhərin mənzərəsi**

Şəhərin giriş qapıları yaxınlığında yerləşən imarət tipli Xan evi (XVIII əsr), Əsədbəyin (XVIII əsr), Natəvanın (XVIII əsr) və Uğurlubəyin (XVIII əsr) yaşayış evlərinin, həmçinin Mehmandarov qardaşlarının (şəkil 4) interyer və eksteryerində Şəki şəhərində yerləşən XVIII əsrə aid məşhur Nuxa Xan sarayı ilə, eləcə də eksteryerində Şəkinin Yuxarı karvansarası ilə oxşar bədii-kompozisiya həlli izlənilir. Hazırda, dağıntılara uğramış Şuşanın yenidən qurulması zamanı öz həcm–məkan kompozisiyaları ilə şəhərin memarlıq mühitinin yaradılmasında fəal iştirak edən XVIII–XIX əsrlərə aid yaşayış binalarının bərpasına xüsusi diqqət yetirilir.

**II Qarabağ müharibəsindən sonra mədəniyyət mərkəzi Şuşa şəhərinin sosial-iqtisadi inkişafında turizm amili.** Məlum olduğu kimi, 1992-ci ildə ermənilərin növbəti dəfə həyata keçirdiyi işğalçılıq siyasətinin qurbanına çevrilən Şuşa şəhərində aparılan erməniləşdirmə siyasətinin acı nəticələri tarixi–memarlıq abidələrindən də yan ötməmişdir. Belə ki, XVIII–XIX əsrlərə məxsus müsəlman dini eləcə də, digər təyinatlı abidələrə ciddi ziyanlar vurulmuş və onlar yerlə–yeksan edilmişdir. "Özününkiləşdirmə" siyasətinin qurbanına çevrilən tarixi Şuşa şəhərinin memarlıq–şəhərsalma mühitinə edilmiş sərt müdaxilələr, dağıntılar əsrlər boyu formalaşmış məkan quruluşunun düşünülmüş şəkildə dəyişməsinə xidmət etmişdir. Tapdaq altında qalan Şuşanın tarixi mühitinə erməni qəsbkarları tərəfindən vurulan ziyanlar Azərbaycan tarixinin memarlıq səhifəsini "qoparmışdı" (şəkil 5).

2020-ci il 8 noyabr tarixində Azərbaycan mədəniyyətinin mehrabı və "Qarabağın döyünən ürəyi" - Şuşa şəhəri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Heydər oğlu

Əliyevin uzaqgörən siyasəti və başçılığı altında həyata keçirilən II Qarabağ müharibəsi nəticəsində işğaldan azad edilmişdir.

...tarixi abidələrini qoruya bilməyən millət dünya tarixinin səhifələrindən asanlıqla silinməyə məhkumdur. Tarixi tikililərin qorunub saxlanılması probleminə lazımi diqqət yetirilməməsi insan həyatının həm maddi, həm də mənəvi sferasına mənfi təsir göstərir (5, s.6). Ona görə də şəhərin tarixi memarlıq mühitinin qorunub saxlanılması müasir cəmiyyətin qarşısında duran ən mühüm vəzifələrdən biridir (6, s.7). Şəhər strukturunda yerləşən abidələr reallıqda bədii və tarixi informasiyaların daşıyıcısıdır. Milli memarlıq sərvətlərimiz olan abidələr keçmiş dövrlərin mədəni inkşaf səviyyəsini və incəsənət meyarlarını açıqlayırlar. Bu isə abidələrlə zəngin, nəfis tarixi-memarlıq irsinə malik Şuşanın yüksək turizm potensialından xəbər.

Xüsusən qeyd etmək lazımdır ki, işğaldan azad olunmuş ətraf bölgələrimiz, xüsusilə Qarabağın döyünən ürəyi - Şuşa tarixi-mədəni dəyərləri, füsünkar təbiəti yanaşı, bir çox sərvətlərlə, zəngin iqtisadi potensialla, geniş turizm imkanlarıyla iqtisadi potensiala sahibdir. Buna görə də, turizm Şuşada sektoral inkişaf çərçivəsində iqtisadi inkişaf modelinin mərkəzi komponenti olmalıdır. Bu ərazinin sektoral inkişafın əsas parametrlərinə diqqət yetirsək görmək mümkündür ki, Ermənistanın istismarı, talanı nəticəsində bölgənin infrastrukturu sıfır səviyyəsinə qədər enmişdir. Ümumən işğal olunmuş bölgələrdə minlərlə hektar torpaqlar hərbi tullantılarla çirkləndirilib, Azərbaycan iqtisadiyyatı və dünyanın genofondu üçün milyardlarla manat ziyan vurulub. Azad edilmiş ərazilərdə mərhələli iqtisadi inkişaf layihələrin həyata keçirilməsi dövrümüz üçün aktual məsələlərdəndir. Şuşada sektoral inkişaf istiqamətində bir sıra addımlar atılmışdır ki, bu istiqamətdə hazırlanılan layihələrdən bəziləri uğurla həyata keçirilib, bəziləri isə ilkin mərhələdədirlər.

2021-ci ildən başlayaraq Şuşa şəhərində bir sıra abidələrin bərpa işləri həyata keçirilməyə başlamışdır. Məsələn, məşhur Cıdır düzündə ucalan Molla Pənah Vaqifin muzey–məqbərəsinin yenidənqurma–bərpa işləri birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən, İsa bulağı Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən yerinə yetirilmişdir. 1992-ci ildən didərginlik həyatı sürən dahi şəxsiyyətlərin (Xan qızı Natəvan, Bülbül, Üzeyir Hacıbəylinin) güllələnmiş və köçkün həyatı sürən büstləri vətəninə qovuşmuşdur.

2021-ci il 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü çıxışında Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Şuşa şəhərinin (1752) yaranmasından 270 il ötdüyünü bildirərək, 2022-ci ildə bu yubileyin təntənəli qeyd ediləcəyini bildirmişdi. Bu şanlı tarixi nəzərə alaraq və işğaldan azad olunmuş şəhərin bərpasını sürətləndirmək məqsədilə 2022-ci ili “Şuşa ili” elan etmişdir.(7).

Hazırda ölkə başçısının tapşırığı ilə Şuşa məscidləri, karvansara binaları, bulaqlar və s. tarixi əhmiyyət daşıyan tikililər bərpa olunur, şəhərdə bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilir. Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən İsa bulağı, H.Əliyev Fondu üç dini-abidənin - Yuxarı Gövhərağa məscidi, Aşağı Gövhərağa məscidi, Saatlı məscidinin bərpa-təmir işləri həyata keçirilir. Tarixi Şuşa şəhərində ötən ilin may ayında “Xarıbülbül” musiqi festivalı keçirilmiş, avqust ayında isə Vaqif Poeziya Günlərinə start verilmişdir. Bu arada qeyd edək ki, Şuşa şəhərimizdə bitən xarı bülbül Qarabağın rəmzi hesab edilir. Unikal bitki növü artıq Vətən müharibəsində şəhidlərimizin ruhuna ehtiram simvolu olaraq anılır.

Beləliklə, sektoral inkişafın bir hissəsi olaraq Şuşa şəhərində yerləşən memarlıq və maddi mədəniyyət abidələrinin bərpası zamanı əsas məqsəd, o cümlədən tarixi mühitinə vurulan ağır zərbələri aradan qaldırmaq, erməniləşdirilmə siyasətinin nəticəsində dağıtılara uğramış mədəniyyət ocağına əvvəlki bədii-memarlıq görkəmini qaytarmaqdan ibarətdir. Mədəniyyət paytaxtında yerinə yetirilən layihələr “tarix+müasir”liyin uğurlu bədii vəhdəti üzərində qurulmuşdur. İlkin tarixi görünüşü qaytarıldıqdan sonra şəhərin muzey eksponatına deyil, keçmiş qaynar həyatı bərpa edilələrək gözəl təbiət qoynunda yerləşən şəhərin respublikanın canlı turizm nöqtəsinə çevrilməsi üçün üç əsas amilin təmin edilməsi vacibdir: təhlükəsizlik, əhalinin geri qayıtması və infrastrukturun yaradılması. (8) Əlbətdə hazırda bu sahə üzrə azad olunan torpaqlarda böyük addımlar atılır. Onlar tam həllərini tapdıqdan sonra zəngin mədəniyyət və təbii gözəlliyə malik Şuşa Azərbaycan turizmində ən yüksək pilləni tutacaq. Dünya turizm mərkəzlərinə çevrilmiş tarixi Avropa şəhərlərinin əksəriyyəti memarlıq orijinallığını, tarixi ənənələrini və etnoqrafik mənsubiyyətini qoruyub saxlamağa çalışır. (9, s.107) Bu məqsədlə tarixi mühitin, iqtisadi inkşafın tərkib hissəsi olan turizm industriyası hesabına qorunmasın təcrübəsindən istifadə olunur. Azərbaycanın 2001–ci ildən

Beynəlxalq Turizm şəbəkəsinə daxil olduğunu nəzərə alaraq bu cür təcrübənin Şuşa şəhərinə tətbiq edilməsi məqsədəuyğun hesab oluna bilər. Turizm mərkəzinə çevrilən şəhərdə tarixi abidələrin turizm infrastrukturuna uyğunlaşdırılması - abidələrin ilkin təyinatına (məs., məscidlərin dini, karvansaraların otel və ticarət funksiyası və s.), yaxud yerli əhali və xarici qonaqlara xidmət edə biləcək digər funksiyalarla (məs., yaşayış mülklərinin muzey və s.funksyalarla) təmin edilməsi vacibdir. Düşmənin işğalı nəticəsində şəhərdə talan edilən muzeylərin bərpası prosesi, yeni muzeylərin yaradılması, həmçinin Azərbaycan Ordusunun Şuşadakı şanlı qələbəsini əks etdirən böyük muzey kompleksinin təşkil edilməsi əhəmiyyətli olardı.

Tarixi şəhərdə turizmin inkişafı prosesində bir məsləyə də diqqət yetirmək lazımdır. Məlum olduğu kimi yüksək bədiiliyə malik olan bu şəhərdə turistik səfərdə olan qonaqlar şəhərin tarixi memarlığı və mədəniyyəti ilə təmasda olaraq Şuşa haqda böyük təəsüratlara malik olacaqlar. Lakin burada nəzərdə tutulan turistik səfərlərin uzun müddətli olması məqsəduyğun deyil. Şuşa ərazisinin böyük olmaması, şəhərin qonaqlarla yüklənməsinə səbəb ola bilər. Bu baxımdan turizmə ayrılan göstəricilər diqqətlə hesablanmalıdır.

Artıq qeyd etdiyimiz kimi, sovetlər dövründə Şuşa şəhərində möcud olmuş sanatoriya–kurort zonasında yenidənqurma və bərpa işləri aparılaraq, bu ərazidə fəaliyyət göstərən böyüklər, eləcə də kiçik yaş kateqoriyasına aid olan uşaqlar üçün müalicəvi sanatoriyaların istifadəsini yenidən təmin etmək də məsədə uyğun hesab edilə bilər. Həmçinin Şuşada dağ turizmi (ekstremal turizm), ekoturizm, “yaşıl” turizm, mədəni və müalicəvi turizm növlərini inkişaf etdirmək mümkündür. Xüsusilə qeyd etmək lazımdır ki, ötən əsrin 80-ci illərində Şuşada turizm məqsədilə üç istiqamətdən ibarət kanat yollarının çəkilməsini nəzərdə tutan layihə hazırlansa da həyata keçirilməmişdir. Ekstemal turizm çərçivəsində bu layihənin müasir texnologiyalarla həyata keçirilməsi əlverişli hesab etmək olar.

Turizm mərkəzinə çevriləcək Şuşa şəhərində bir sıra mədəni tədbirlərin - azərbaycanlı, eləcə də xarici modelyerlərinin milli və müasir geyim kolleksiyalarının defilesi, musiqi yarışmaları, Qarabağ mətbəxinə dair kulinariya günləri və s. keçirilməsi tarixi şəhərə gələn turistlərin böyük marağına səbəb olar. Beləliklə, müxtəlif ölkələrdən gələn qonaqlar əsrarəngiz təbiətə malik mədəniyyət paytaxtı - Şuşanın tarixi, memarlığı ilə yanaşı Azərbaycan geyim sənəti, incəsənətin müxtəlif sahələri ilə də yaxından tanış ola bilərlər.

Şuşa şəhərində ermənilər tərəfindən dağıntılara məruz qalmış memarlıq abidələrimiz tam bərpa olunaraq həyata qaytarıldıqdan sonra, onların bədii görkəmində istifadə olunan bəzək ünsürlərindən müasir geyim sahəsində də uğurla istifadə etmək mümkündür. Bu zaman Azərbaycan geyim mədəniyyətinin dünya xalqlarına çatdırılması sahəsində atılan addımlar sırasında Rüfət İsmayılın yaradıcılığında izlədiyimiz təcrübəni tətbiq etmək olar. Qeyd edək ki, 2021-ci ildə məşhur azərbaycanlı dizayner Rüfət İsmayıl Parisdə “AFFFAIR” brendinin Azərbaycan xalçalarına, mədəniyyətinə həsr etdiyi "Sumax" adlanan etnik üslublu geyim kolleksiyasını, 2022-ci il iyun ayında isə Bakıda “Baku Fashion Expo-2022” çərçivəsində “Xarıbülbül” adlı Haute-Couture kolleksiyasını təqdim etmişdir. Qeyd olunan kolleksiyaların defilesinin məhz tarixi Şuşada təşkili yerli geyim ənənələrinin insanlara ötürülməsini və milli ruhda tərbiyyə prosesini daha da gücləndirə bilər.

Beləliklə, qeyd olunan məsələlərin, Şuşada turizm sektorunun təşkili üçün kompleks layihələr planı həyata keçirilməsini bu bölgədə təhlükəsizlik təmin edilməsindən, infrastruktur yenilənməsindən və demoqrafik məsələlərin həll olunmasından sonra real hesab etmək olar. Bu platforma üzrə dövlət, özəl sektor və ölkənin alimlərinin birgə səyi nəticəsində turizm sektoru potensialı işlənib hazırlanmalı, o cümlədən də təbii və antropogen turizm sektoru üçün resurslar bir daha nəzərdən keçirilməlidir. Düşünmək olar ki, işğaldan azad edilən Şuşa təbiətinin qədimliyinə, zənginliyinə və tarixi-mədəni abidələrinin çoxluğuna görə turizm sektoru etnoturizm, ekoturizm, qismən ekstremal turizm zonası olaraq inkişaf edəcək və gözəl turistik məkana sahib şəhər olacaq. Şuşada ermənilər tərəfindən saxtalaşdırılan müxtəlif təyinatlı abidələrin bərpa olunaraq öz tarixlərinə qovuşaması ilə yanaşı erməni vandalizminin və faşizminin izlərini bəşər tarixində maddiləşdirmək üçün xarabalığa çevrilmiş, dağıdılmış binaların bəzi nümunələri bölgədə tarixi eksponat kimi saxlanmalıdır. Düşmənin işğalçılıq siyasətlərindən saysız-hesabsız cinayətlərinin hər biri tarixi sübutlar kimi gələcək nəsillər və dünyadakı soydaşlarımız üçün saxlanmalı və ümumən dünya ictimaiyyətində erməni faşizminin mahiyyəti əyani formada açıqlanmalıdır (10).

Şuşada, eləcə də ümumən azad olunan torpaqlarımızda yaradılacaq yeni iqtisadi dəyərimiz Azərbaycan dövlətinin maliyyə xərclərini olduqca üstələyəcəkdir. Ərazilərin bərpası nəticəsində bir çox yeni iş yerləri açılacaqdır. Yeni infrastruktur layihələrinin reallaşdırılması vətəndaşlarımızin işlə təmin olunmasında müsbət təsirlər göstərəcəkdir. Həmçinin müzəffər ordumuzun qələbəsi nəticəsində işğaldan azad olunan bölgələrdə, o cümlədən Şuşada qeyri-neft sektorunun inkişafına, Azərbaycan iqtisadiyyatının daha çox çiçəklənməsinə təkan verəcəkdir. Beləkilə, təbii sərvətlərlə zəngin Şuşada əhalini geri qaytarılması prosesinin həyata keçirilməsi, abidələrin bərpası və turizm infrastrukturuna uyğunlaşdırılması, ümumən turizmin inkişafı Azərbaycanın bu dilbər guşəsinin sosial-iqtisadi yüksəlişinə öz töhvəsini vermiş olacaq.

**Ədəbiyyat siyahısı:**


1. Саламзаде А.В., Авалов, Е., Салаева, Р.Д. Проблемы сохранения и реконструкции исторических городов Азербайджана, Баку: Елм, 1979, 139 с.
2. Авалов Е. В. Архитектура города Шуша и проблемы сохранение его исторического облика. Баку: Елм, 1977, 111 с.
3. Bahamon A., Campello A. (2006) Ultimate landscape design. Te Neues Pub Group.2006,527 p.
4. Çingiz Qacar. Köhnə Şuşa. Bakı, "Şərq-Qərb", 2019, 344 s.
5. Meier H.R., Wohlleben M. Bauten und Orte als Träger von Erinnerung. Die Erinnerungsdebatte und die Denkmalpflege. vdf Hochschulverlag AG an der ETH. Zürich. 2000. 230 p.
6. Лисицына А.В. (2014) Историко-архитектурная среда средних и малых городов Нижегородского Поволжья как феномен культурного наследия//Архитектон: известия вузов. 2014. № 45
7. https://president.az/az/articles/view/55195
8. https://www.trend.az/business/tourism/3376498.html
9. Мухитов Р.К. Реконструкция объектов градостроительного наследия: Учебное пособие/ Р.К. Мухитов. – Казань: Изд-во Казанск. гос. архитект.-строит. ун-та, 2018, 111 с.
10. Rəşid L. (9 Dekabr, 2020), "İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri", Xalq qəzeti, səh.9



**Rüstəmov Pərviz Hacı oğlu**
Azəbaycan Dövlət İqtisad Universitetinin (UNEC) «Biznes və logistika» kafedrasının baş müəllimi, iqtisad üzrə fəlsəfə doktoru, Bakı, Azəbaycan
rustamovparviz@yahoo.com


## İnsan resurslarinin idarə edilməsində rəqəmsal iqtisadiyyatin inkişaf istiqamətləri


**Xülasə**

Məqalənin əsas məqsədi – insan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsinin elmi-nəzəri və praktiki yanaşmalarını araşdırmaqdır. Azərbaycan alimlərinin iqtisad elmlər doktoru, professor T.Ə.Quliyev, iqtisad elmlər doktoru, professor K.A.Şahbazov, iqtisad elmlər doktoru, professor H.S.Həsənov, iqtisad elmlər doktoru, professor İ.M.Abbasov, iqtisad üzrə fəlsəfə doktoru, dosent M.Ə.Əliyev, iqtisad üzrə fəlsəfə doktoru, dosent H.İ.Həmidov, iqtisad üzrə fəlsəfə doktoru, dosent R.F.Sadıqov iqtisad üzrə fəlsəfə doktoru, dosent M.H.Məmmədov, E.D.Əzizova, Z.İ.Mustafayeva, S.R.Bayramova, R.A.İsgəndərovun insan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsinə verdikləri töhfələri üzə çıxartmaq və tədqiq etməkdir. Elmi məqalənin əsas tədqiqat metodologiyası – insan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsininə Azərbaycan və dünya alimlərinin yanaşmalarını sistemli və kompleks araşdırmaqdır. Çünki bu yanaşmalar insan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsinin təşkili, idarə edilməsi və inkişafına çox böyük təsir göstərməkdədir. Bütün bunlar insan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsinə, innovasiyalı yanaşmasına, bu sahənin sistemli inkişafına, davamlı və dayanıqlı fəaliyyətinə səbəb olacaqdır. Elmi məqalənin əsas nəticələri – insan resurslarının idarə edilməsində

rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsi, bu sahədə konseptual nəzəri yenilikləri özündə əks etdirir. Tədqiqatın nəticələri insan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsinin tətbiqinə, həmin sahənin təkmilləşdirilməsinə və inkişafına xidmət göstərməkdədir. Elmi araşdırmanın orijinallığı və elmi yeniliyi – ondan ibarətdir ki, insan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsi Azərbaycan və dünya alimlərinin elmi yanaşmaları əsas elmi-nəzəri istiqamətləri tədqiq edilmiş, bu sahənin elmi-praktiki istiqamət kimi formalaşması barədə nəzəri-praktiki yanaşmalar, nəzəriyyələr araşdırılaraq ümumiləşdirmələr edilmiş və onun zəruri elmi-nəzəri aspektləri araşdırılmışdır. Bu baxımdan, elmi məqalədə insan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsinin təşkilində və idarə edilməsində elmi yanaşmaların tədqiqi baxımdan təqdirəlayiq hesab edilə bilər.

**Açar sözlər:** Müasir idarəetmə sistemi, insan resursların idarə edilməsi, insan resursların idarə edilməsi sistemi, rəqəmsal iqtisadiyyat, rəqəmsal iqtisadiyyatın idarə edilməsi.

**Keywords**: Modern management system, human resource management, human resource management system, digital economy, digital economy management.

**Summary**

The main goal of the article is to examine the scientific-theoretical and practical approaches to the development of the digital economy in the management of human resources. Azerbaijani scientists doctor of economic sciences, professor T.A. Guliyev, doctor of economic sciences, professor K.A. Shahbazov, doctor of economic sciences, professor H.S. Hasanov, doctor of economic sciences, professor I.M. Abbasov, doctor of philosophy in economics, Docent M.A. Aliyev I.M., doctor of philosophy in economics, associate professor H.I. Hamidov, doctor of philosophy in economics, associate professor R.F. Sadigov, doctor of philosophy in economics, associate professor M.H. Mammadov, E.D.Azizova, Z.I.Mustafayeva, S.R.Bayramova, R.A.Iskandarov's contributions to the development of the digital economy in the management of human resources. The main research methodology of the scientific article is to systematically and comprehensively examine the approaches of Azerbaijani and world scientists to the development of the digital economy in the management of human resources. Because these approaches have a great influence on the organization, management and development of the development of the digital economy in the management of human resources. All this will lead to the development of the digital economy in the management of human resources, innovative approach, systematic development and sustainable operation of this field. The main results of the scientific article - the development of the digital economy in the management of human resources, reflect conceptual and theoretical innovations in this field. The results of the research serve the application of the development of the digital economy in the management of human resources, the improvement and development of that field. The originality and scientific innovation of the scientific research is that the main scientific-theoretical directions of the development of the digital economy in the management of human resources have been studied, the theoretical-practical approaches and theories of the formation of this field as a scientific-practical direction have been studied and generalizations have been made and its necessary scientific-theoretical aspects were investigated. In this regard, the study of scientific approaches in the organization and management of the development of the digital economy in the management of human resources in a scientific article can be considered commendable.

## Giriş

Məlum olduğu kimi, dünyada dayanıqlı inkişaf edən rəqəmsal iqtisadiyyatda idarəetmə sistemləri nə qədər tərəqqiyə çatsa da, insan resurslarının idarə edilməsi hər zaman öz aktuallığını sağlayacaqdır. Sənaye müəssisələrin sürətli inkişaf etməsində, bu inkişafın hansı formada məqsəd və vəzifələrin müəyyən edilməsində, onun iş sisteminin motivasiya edilməsində, müəssisənin təşkilati strukturun təkmilləşdirilməsində, təşkilatda insan resurslarının idarə edilməsinin xüsusi əhəmiyyəti vardır. Müasir dünyamızda elmi-texniki tərəqqinn və informasiya texnologiyalarından yaxşı istifadə edə bilən, savadlı, yüksək bacarıqlı innovatorlara və bu məsələləri dərindən bilən menecerlərə insan resurslarının idarə edilməsi sistemində xüsusi üstünlük verilməlidir. Yeni iqtisadi münasibətlər şəraitində insan resurslarının idarə edilməsi yüksək səviyyədə inkişaf etmiş innovasiya proseslərini tətbiq etməklə texnoloji və idarəetmə kommunikasiya vasitələrindən istifadə edə bilən,

kompüterlərdən və informasiya texnologiyaları ilə birgə hər cür texnikadan istifadə etməyi bacaran gənc menecerləri cəlb etməklə nail olmaq mümkündür. Bunun üçün bu məsələdə rəqəmsallaşdırılmış insan resurslarının idarə edilməsi təcrübələrinin sənaye müəssisələrin fəaliyyətinə təsiri araşdırılmalı və təhlil edilməlidir. Həmçinin aparılan tədqiqatların nəticələri qiymətləndirilməlidir. Burada rəqəmsal iqtisadiyyatın insan resurslarının idarə edilməsinə, nəticə etibarilə bu araşdırmaların işçilərin təşkilati fəaliyyətinə müsbət təsir göstərdiyi müəyyən edilməlidir. Bu baxımdan, insan resurslarının idarə edilməsi araşdırmaları işçilərin təşkilati motivasiyasını artıracaq, fərd və müəssisə arasında səmərəli əlaqə yaradacaq və əsas məqsədlərə uyğun hərəkət edərək sənaye müəssisənin əmək məhsuldarlığına böyük təsir göstərəcəkdir. Beləliklə, rəqəmsal iqtisadiyyatda insan resurslarının idarə edilməsi təcrübələrinin proseslərə səmərəli şəkildə daxil edilməsi insanların təşkilati motivasiyasının inkişafına səbəb olacaqdır. Elmi məqalədə əldə edilən nəticə və irəli sürülən təkliflərlə Qarabagda işğaldan azad olunmuş müqəddəs Azərbaycan torpaqlarında dayanaqlı və dinamik inkişafa nail olacayıq. Müstəqil Azərbaycanın torpaqları Azərbaycan xalqına və dövlətinə məxsusdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: «Qarabağ Azərbaycandır!»

## 1. İnsan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyatin inkişaf etdirilməsinin məqsəd və prinsipləri

Məlum olduğu kimi, sənaye müəssisəsində insan resurslarının idarə edilməsi şöbəsinin məqsədləri digər şöbələrin məqsədlərindən daha mürəkkəbdir. Çünki, onun fəaliyyət sahəsinin əsasında insan amili durmaqdadır. Buna görə də, insan resurslarının idarə edilməsinin əsas məqsədləri çoxşaxəlidir. Belə ki, ümumi mənada insan resurslarının idarə edilməsi sənaye müəssisələrdə çalışan insanların müxtəlif tələbatlarını ödəməyə yönəldilmişdir. Sənaye müəssisələrində çalışan insanların tələbatlarını qarşılamaqla təşkilatın məqsədlərinə çatması təmin edilməkdədir. Sənaye müəssisələrində işə qəbuldan, təlim və inkişaf prosesindən, iş yerinə bağlılıqdan, əmək haqqının tənzimlənməsindən, motivasiyanın qiymətləndirilməsindən, maddi və sosial tələbatlarını qarşılanmasından və s. işlərdən tutmuş bütün proseslər insan resurslarının idarə edilməsinin təcrübələri çərçivəsində həyata keçirilməlidir.

Bildiyimiz kimi, strateji işçi qüvvəsi planını təşkilat üçün zəruri hala gətirərək, insan resurslarının idarə edilməsini inkişaf edən innovasiya dəyişikliklər nəticəsində insanlarda yeni bilik çatışmazlığını aradan qaldırmağı, insanın və təşkilatın inkişafını təmin etməyi qarşıya əsas məqsəd qoymaqdadır. Belə ki, təşkilati idarəetmə sistemində insan resurslarının idarə edilməsini bütövlükdə nəzərdən keçirməklə təşkilati inkişafı insan mərkəzli idarəetmə tərzi ilə təmin etmək əsas məqsədlərdəndir.

Müasir idarəetmə sistemində insan resurslarının idarə edilməsinin əsas prinsiplərini nəzərdən keçirək. Beləki, sənaye müəssisələrində insan resurslarının idarə edilməsi ilə bağlı iş proseslərini müəyyən bir mərhələlər ilə, sabitlik və sistemli şəkildə tamamlamaq üçün bəzi prinsiplərdən istifadə edilməkdədir [1]. Bu prinsiplər əsasən aşagıdakılardan ibarətdir:

1. Səmərəlilik prinsipi. Təşkilatların ən əhəmiyyətli amillərindən olan insan resurslarının idarə edilməsinin qiymətləndirmələri arasında olan əmək məhsuldarlığı, sənaye müəssisələrin diqqət etməli olduğu vacib bir məsələdir [2, s. 20].

2. Bərabərlik prinsipi. İnsan resurslarının idarə edilməsi təşkilatdakı işçiləri dilinə, dininə, siyasi dünya görüşünə, cinsinə, məzhəbinə, irqinə, etnik mənşəyinə görə deyil, bərabər şəkildə qiymətləndirərək cəmiyyətdə və ölkənin qəbul edilmiş qanunlarına uygun qərarlar verilməlidir. [1].

3. Ləyaqət (Səriştə) prinsipi. Müasir idarəetmə sistemində insan resurslarının idarə edilməsindən danışarkən tez-tez istifadə etdiyimiz ləyaqət anlayışıdır. Burada layiq olmaq, münasib və bacarıqlı görünmək ifadələrindən istifadə edilir. Belə ki, ləyaqət sözü, "İnsanın işə yararlılığı, uyğunluq vəziyyəti, dəyəri" kimi də istifadə edilməkdədir.

Sənaye müəssisələrində təşkilati formalaşma strukturuna, işçilərin bacarıq və səriştəsi, rəhbərliyin işçılərə davranış və yanaşması, elmi-mədəni səviyyələrdə olması təşkilatların imicini artırılmasında xüsusi rol oynayır. Sənaye müəssisələrində iş yerində olan inam, ünsiyyət, ləyaqət, əməkdaşlıq, innovasiya menecmenti, strateji menecment, hesabatlılıq, birgə işi və ictimai əlaqələrin idarə edilməsi təşkilatın inkişaf etdirilməsində xüsusi rol oynayır. Ləyaqət prinsipi təkcə sənaye müəssisələrində ilk daxil olanları deyil, həm də sonradan fayda gətirəcək fəaliyyətləri əhatə etməlidir. Belə ki, dil, din, irq, ailə vəziyyəti, cinsiyyət və bu kimi fərqlər fərdlərin biznesə girişi və ya vəzifə

yüksəlişi üçün meyar kimi qəbul edilməmədir. Burda yalnız bacarıqlar, vərdislər nəzərə alınmaqla əmək haqqı, mükafatların ödənilməsində hüquq və bərabərliyə diqqət yetirilməlidir. [1, s. 23].

4. Açıqlıq prinsipi. İnsan resurslarının idarə edilməsi baxımından bütün təcrübə və prinsiplər vacib rol oynamaqdadır. Bununla belə, açıqlıq prinsipi sənaye müəssisələrin idarə edilməsində insan resurslarının idarə edilməsinin uğuru üçün böyük əhəmiyyət kəsb edir. Sənaye müəssisələrində işəgötürənlərin və şirkətlərin təcrübələri baxımından açıqlıq prinsipi işçiyə aydın, şəffaf və təfərrüatlı açıqlama tələblərini aşılamaqdadır. [2, s.22].

5. Gizlilik (məxfilik) prinsipi. Yuxarıda qeyd olunan açıqlıq prinsipinə əsaslanaraq, təşkilatı şəffaf bir şəkildə informasiya ilə təmin etmək üçün insan resursların idarə edilməsi zamanı böyük məsuliyyət düşməkdədir. O, həmçinin təşkilata və onun üzvlərinə qarşı bəzi mühüm və zəruri informasiyaların məxfiliyini təmin etmək üçün ciddi məsuliyyət daşımaqdadır. [2, s.21].

## 2. İnsan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyatin inkişaf etdirilməsinə töhfə vermiş Azərbaycan alimlərinin yanaşmaları

Müasir idarəetmə sistemində iqtisad üzrə fəlsəfə doktoru, dos. M.Ə.Əliyev və iqtisad üzrə fəlsəfə doktoru, dos. H.İ.Həmidov özlərinin "İnsan resurslarının idarə edilməsi" adlı dərs vəsaitində yazırlar ki, əvvəllər işçi qüvvəsinin idarə edilməsi adı ilə ədəbiyyatda yer alan, fərdlərlə bağlı olan elm, bu gün İnsan Resurslarının İdarə Edilməsi adı altında ifadə edilməkdədir. [3, s.13]. Göstərilən müəlliflər tərəfindən 2013-cü ildə nəşr edilmiş "Biznesdə insan resurslarının idarə edilməsi" adlı dərslikdə qeyd edilir ki, iş yerində insanlarla əlaqəli bütün işləri və prosesləri əhatə edir. Müəssisə daxilində insan resurslarının planlaşdınıması, bunun üçün lazımi iş analizlərinin və öhdəliklərin müəyyənləşdirilməsi, insan resurslarının seçilməsi üçün iş elanlarmın verilməsi, iş üçün müraciət edənlərin qəbul edilməsi, görüşlərin apanıması, işə uyğunlaşma, təhsil və karyera işləri, uğur və iş qabiliyyətinin ölçülməsi, vəzifədə yüksəlmə, iş dəyişdirmə, işdənçıxarılma, işi qiymətləndirmə, əməkhaqqı, nizam-intizam, sosial-mədəni fəaliyyətlər, tibbi xidmət və başqa oxşar işləri koordinasiya edir. [4, s.13].

İnsan resurslarının idarə edilmsində "Əməyin iqtisadiyyatı və sosiologiyası" dərsliyinin müəllifləri iqtisad elmləri namizədləri E.D.Əzizova, Z.İ.Mustafayeva və S.R.Bayramova hesab edirlər ki, işçi qüvvəsi insanın nemətlərin və xidmətlərin istehsalı üçün istifadə edilən fiziki və əqli enerjisinin toplusudur. İşçi qüvvəsi cəmiyyətin aparıcı məhsuldar qüvvəsidir. Beləliklə, əmək prosesinə istehlak dəyərlərinin yaradılması məqsədilə onların məhsuldar istehlakı və istehsalat vasitələri ilə işçi qüvvəsinin birləşməsi prosesi kimi tərif vermək olar. [5, s. 9].

Müasir idarəetmə sistemində professor Tofiq Quliyevin "İnsan resurslarının idarə edilməsi" [6, s. 1] və "Əməyin iqtisadiyyatı" [7, s. 1] dərsliklərində heyətin iqtisadiyyatı, heyətin menecmenti, insan resurslarının idarə edilməsi sferasında menecment, kadr menecmenti, insan resurslarının idarə edilməsi sferasında siyasət, heyətin idarə edilməsi, rəqəmsal iqtisadiyyat və s. kimi məsələlər geniş şərh olunmuşdur.

Müasir idarəetmə sistemində professor Abbasov İ.M., dos. Sadıqov R.F. "Menecment" [8, s. 1] və professor Şahbazov K.A., professor Həsənov H.S., dos. Məmmədov M.H., "Menecment" adlı [9, s. 1] dərsliklərində insan resurslarının idarə edilməsi məsələlərinə konseptual və sistemli yanaşmalar edilmişdir.

Müasir idarəetmə sistemində R.A.İsgəndərov özünün "Heyətin idarə edilməsi" kitabında, müəssisə və təşkilatlarda işin səmərəliliyi əməyin iyerarxik bölgüsünün iqtisadi mahiyyətindən asılı olmaqla, idarəetmə sahəsində rəhbər işinin funksional bölmələrinin səmərəli fəaliyyəti və icrasından bəhs edilir. [10, s. 9]. Bu cümlədə daha sonra bütün kitabda olduğu kimi heyətin idarə edilməsi idarəetmə heyətinin inzibatlaşdırılması ilə eyniləşdirilir, bununla da onu təşkilati və funksional şəkildə bütün heyətə qarşı qoyura, sonuncunu müstəsna olaraq, məqsədə nail olmada texnokratik vasitə kimi təsvir edir. [10, s. 62-63].

## 3. Rəqəmsal iqtisadiyyatda insan resurslarının inkişafında liderliyin rolu

Bildiyimiz kimi, XXI əsrin dəyişən və mürəkkəb dünyasında sənaye müəssisələrini idarə etməyin ənənəvi metodları kifayət deyildir. Müasir idarəetmə sistemində korporativ liderlər və menecerlər təşkilatları səmərəli idarə edilməsi üçün daha yeni metodlara və bacarıqlara tələbat duyulmaqdadır.

Müasir idarəetmə sistemində yeni texnologiyaların inkişafı insan resurslarının idarə edilməsində bir çox dəyişikliklərə səbəb olmuşdur. Belə ki, bu kimi dəyişikliklər və

transformasiyalar sənaye müəssisələrinə və onların fəaliyyətinə sürətlə təsir göstərmiş, həmçinin bu təşkilatlar üçün bir sıra yeni problemlər və onların həll edilməsi imkanlarını yaratmışdır. Bu baxımdan, sənaye müəssisələrinin yeni imkanlardan maksimum istifadə etmək və çətinliklərlə yaxşı çıxış etmək üçün yeni strategiyalara ehtiyacı vardır [11, s. 68-69]. Çünki sənaye müəssisələrinin fəaliyyətin əhəmiyyəti o dərəcədədir ki, yüksək rəqabətin olduğu rəqəmsal iqtisadiyyat əsrində təşkilatların inkişafını və ya iflasını müəyyən edə bilməkdədir.

Sənaye müəssisələrində liderliyin əsas funksiyaları əsasən aşağıdakılardan ibarətdir:

- Menecerlərin davranış bacarıqlarının artırılması;
- Menecerlərin liderlik bacarıqlarının artırılması;
- Yaradıcılıq və innovasiyaya önəm verilməsi;
- Təşkilati öyrənmə və dəyişikliyə önəm verilməsi;
- Strateji idarəetməyə önəm verilməsi;
- Ümumi keyfiyyətin idarə edilməsi;
- Təhsilin və insan kapitalın inkişafına önəm verilməsi;
- Təşkilati effektivliyə önəm verilməsi;
- Müştəri məmnuniyyətinə diqqət yetirilməsi;
- İştirakçı idarəetmə və komanda işinə diqqət yetirilməsi;
- Biznes və bazar problemlərində liderlik məsələsinə diqqət yetirilməsi;
- Rəqabətli təşkilat mədəniyyətinin inkişaf etdirilməsi;
- Hökumətin dəstəkləyici siyasətinə diqqət yetirilməsi;
- İdarəetmə və liderlikdə elmiliyə önəm verilməsi.

İnsan resurslarının idarə edilməsində liderliyin əsas funksiyaları üzrə elmi tədqiqat işlərinin aparılması üçün aşağıda qeyd olunanları tətbiq etmək daha məqsədə uyğun olardı:

- İnsan resurslarının idarə edilməsində işçilərin səlahiyyətlərinin artırılmasına diqqət yetirilməsi;
- İnsan resurslarının idarə edilməsində işçilərin motivasiyasına diqqət yetirilməsi;
- İnsan resurslarının idarə edilməsində işçilərin öhdəliklərinə diqqət yetirilməsi;
- İnsan resurslarının idarə edilməsində işçilərin iş məmnunluğuna diqqət yetirilməsi;
- İnsan resurslarının idarə edilməsində dəyişiklik və transformasiyada liderlik məsələsinə diqqət yetirilməsi;
- İnsan resurslarının idarə edilməsində təşkilati effektivliyə diqqət yetirilməsi;
- İnsan resurslarının idarə edilməsində etibar mədəniyyətinin formalaşdırılması;
- İnsan resurslarının idarə edilməsində xidmətdaxili təlimlərə diqqət yetirilməsi;
- İnsan resurslarının idarə edilməsində təşkilati effektivliyə diqqət yetirilməsi;
- İnsan resurslarının idarə edilməsində müştərilərin ehtiyac və gözləntilərinə diqqət yetirilməsi;
- İnsan resurslarının idarə edilməsində maliyyə və iqtisadi sistemdə sabitliyə diqqət yetirilməsi;
- İnsan resurslarının idarə edilməsində dövlət dəstəklədiyi qanun və prinsiplərə diqqət yetirilməsi;
- İnsan resurslarının idarə edilməsində çətin qaydaların aradan qaldırılması və yeni qaydalara innavasiya proseslərin tətbiqinə önəm verilməsi;
- Biliklərin idarə edilməsi;
- Məhsul istehsalı və xidmətlərin göstərilməsində keyfiyyətin idarə edilməsinə diqqət yetirilməsi;
- İnsan resurslarının idarə edilməsində işçilərin, menecerlərin münasibətinin öyrənilməsi və onların yeni qaydalara uyğun dəyişdirilməsi;
- Sənaye müəssisələrində mənfəətin artırılmasına önəm verilməsi;
- İnsan resurslarının idarə edilməsində müştərilərin inamının və loyallığının yüksəldilməsi;
- İnsan resurslarının idarə edilməsində maliyyə və inzibati korrupsiyanın azaldılması;
- Sənaye müəssisələrində təkmilləşdirililmiş məhsulun ixrac siyasətinə önəm verilməsi;
- Sənaye müəssisələrində qanunlarının dəyişdirilərək təkmilləşdirililməsinə diqqət yetirilməsi;
- İnsan resurslarının idarə edilməsində menecerlərin seçimi zamnı ləyaqətə diqqət yetirilməsi;
- Sənaye müəssisələrində menecerlərin ünsiyyət bacarıqlarının artırılması;
- Sənaye müəssisələrində aydın məqsəd və missiyaların müəyyənləşdirilməsi;
- Sənaye müəssisələrində insanlararası münasibətlərin və davranışların etik qaydalara uyğun dəyişdirilməsi;
- Sənaye müəssisələrində rəhbərlərin strateji düşüncəsinin inkişaf etdirilməsinə diqqət yetirilməsi;
- Sənaye müəssisələrində işçilərin məşğulluğunun artırılmasına önəm verilməsi;

- Sənaye müəssisələrində insan resurslarının məhsuldarlığının artırılmasına diqqət yetirilməsi;
- Sənaye müəssisələrində maliyyə bacarıqlarının artırılmasına önəm verilməsi;
- Sənaye müəssisələrində üst rəhbərliyin dəstəklənməsi;
- Sənaye müəssisələrində menecerlərin liderlik biliklərinin artırılması;
- Sənaye müəssisələrində effektiv fəaliyyətin yaradılması təşkilati əlaqələrin inkişaf etdirilməsinə önəm verilməsi;
- Sənaye müəssisələrində insan resursların idarə edilməsinə ümumi baxışın müəyyən edilməsi;
- İnsan resursların idarə edilməsində milli-mənəvi dəyərlərin inkişaf etdirilməsinə önəm verilməsi;
- İnsan resursların idarə edilməsində etik prinsiplərə diqqət yetirilməsinə önəm verilməsi;
- İnsan resursların idarə edilməsində bürokratik strukturların dəyişdirilməsi;
- İnsan resursların idarə edilməsində strateji planlaşdırılmanın aparılmasına diqqət yetirilməsi;
- İnsan resursların idarə edilməsində müştərilərin açıq və məxfi tələbatlarının ödənilməsinə diqqət yetirilməsi;
- Sənaye müəssisələrində xərclərin idarə edilməsinə önəm verilməsi;
- İnsan resursların idarə edilməsində Müştərilərlə Münasibətlərin İdarə Edilməsinə diqqət yetirilməsi;
- İnsan resursların idarə edilməsində qərar vermə zamanı işçilərin fikirlərinə önəm verilməsi;
- İnsan resursların idarə edilməsində biznes liderliyinin inkişaf etdirilməsinə önəm verilməsi;
- İnsan resursların idarəetmə sistemində təşkilati strukturunua diqqət yetirilməsi;
- İnsan resursların idarəetmə sistemində işçilər arasında münasibət və davranış bacarıqlarının təkmilləşdirilməsinə önəm verilməsi;
- İnsan resursların idarəetmə sistemində sahibkarlığın dəstəklənməsinə diqqət yetirilməsi;
- İnsan resursların idarəetmə sistemində yeni metodlardan istifadənin təkmilləşdirilməsinə diqqət yetirilməsi;
- İnsan resursların idarə edilməsində işçilərin problemlərinin həllində yaradıcılıq və iştirak zəminlərinə diqqət yetirilməsi;
- İnsan resursların idarə edilməsində elmi liderlik prinsiplərinə diqqət yetirilməsi;
- İnsan resursların idarə edilməsində qrup davranışının idarə edilməsi;
- İnsan resursların idarə edilməsində münaqişələrin idarə edilməsi;
- İnsan resursların idarəetmə sistemində strategiyanın səmərəli həyata keçirilməsinə önəm verilməsi;
- İnsan resursların idarə edilməsində nəzarət strategiyasının rolunun artırılması;
- İnsan resursların idarə edilməsində effektiv liderliyin əhəmiyyətinin artırılmasına önəm verilməsi;
- İnsan resursların idarəetmə sistemində mənəvi inkişafın inkişafının həyata keçirilməsinə önəm verilməsi;
- İnsan resursların idarə edilməsində strategiyanın dəyişdirilməsinə önəm verilməsi [11, 89-97 s.].

**Nəticə**

Məqalədə aşağıda qeyd olunmuş nəticələr əldə olunmuşdur:

1. İnsan resursların idarə edilməsində əmək platformaları çox tərəfli quruluş və fəaliyyət baxımından oxşar xüsusiyyətlərə malik olsalar da, öz daxilində mürəkkəb bir quruluşa malikdirlər. Bu, rəqəmsal iqtisadiyyatda insan resursların idarə edilməsi ilə bağlı araşdırmalarda rast gələnən mühüm problemdir. Beləliklə, rəqəmsal iqtisadiyyatda platforma işçiləri həm də bacarıq səviyyəsi, işə nəzarət səviyyəsi, əmək haqqı və s. bir çox cəhətdən fərqli xüsusiyyətləri özündə birləşdirməkdədir. Qısaca ümumiləşdirsək, aşağıda qeyd olunmuş meyarların nəzərə alınması məqsədə uyğundur:

- Təqdim edilən xidmətin rəhbərin əmr və təlimatlarından asılı olmayaraq öz işənə məsuliyyət ilə yanaşılması;
- İş prosesində tapşırıqları yerinə yetirmək üçün lazımi avadanlıqlar ilə təmin edilməsi;
- İş prosesində mənfəət və ya zərər imkanının fərdin öz idarəetmə bacarıqlarından asılı olub-olmamasın müəyyən olunması;
- Sahibkarın öz təşkilatında hər kəsdən artıq çalışması.

2. İnsan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyatin inkişaf etdirilməsinə töhfə vermiş Azərbaycan alimlərinin yanaşmaları xüsusi yer tutmaqdadır. İnsan resurslarının idarə

edilməsində rəqəmsal iqtisadiyyatin inkişaf etdirilməsində Azərbaycan alimlərindən iqtisad üzrə elmlər doktoru, professor T.Ə.Quliyev, iqtisad üzrə elmlər doktoru, professor K.A.Şahbazov, iqtisad üzrə elmlər doktoru, professor H.S.Həsənov, iqtisad üzrə elmlər doktoru, professor İ.M.Abbasov, iqtisad üzrə fəlsəfə doktoru, dos. M.Ə.Əliyev İ.M., iqtisad üzrə fəlsəfə doktoru, dos. H.İ.Həmidov iqtisad üzrə fəlsəfə doktoru, dos. Sadıqov R.F. iqtisad üzrə fəlsəfə doktoru, dos. M.H. Məmmədov, E.D.Əzizova, Z.İ.Mustafayeva, S.R.Bayramova, R.A.İsgəndərovun apardıqları elmi, nəzəri, praktiki tədqiqatların rolu bu gün və gələcəkdə bu sahənin dinamik inkişafı üçün böyük əhəmiyyət kəsb etməkdədir.

3. Məqalənin nəticəsində müəyyən olunmuşdur ki, sənaye müəssisələrində insan resurslarını səmərəli idarə olunması üçün rəhbərlik bir sıra funksiyaları həyata keçirməlidir. Bunlar əsasən aşağıdakılardan ibarətdir:

- Perspektivlərin yaradılması və səmərəli inteqrasiyanın müəyyən olunması;
- Emosional transformasiya müəyyən olunması;
- İşgüzar menecer rəhbərliyin müəyyən olunması;
- Sənaye müəssisələrində komanda işinin təkmilləşdirilməsi;
- Sənaye müəssisələrində kadrlarla işdə motivasiyanın təkmilləşdirilməsi;
- Sənaye müəssisələrində işçilərin səlahiyyətlərinin artırılması;
- Sənaye müəssisələrində struktur islahatların aparılması;
- Yüksək peşəkar təşkilat mədəniyyətinin təşkili və inkişaf etdirilməsi;
- Effektiv missiya və məqsədləri təyin edilməsi.

Məqalədə aşağıda qeyd olunmuş təkliflər irəli sürülmüşdür:

1. İnsan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyatın inkişafı zamanı, bazar şərtlərinin və müəssisə əməkdaşlarının maraqlarının nəzərə alınması vacibdir.
2. İnsan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyatın optimallaşdırılması üçün yeni metodlardan, eləcə də, "İkiqat Səmərə" və "Avtomatlaşdırma" metodlarından istifadə edilməsi məqsədyönlü hesab edilir.
3. İnsan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyatın motivləşdirilməsi sistemi təkmilləşdirilməli və müasir rəqabət şəraiti, yerli və xarici təcrübələr nəzərə alınaraq daha müasir metodlar tətbiq edilməlidir.
4. İnsan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyatın rolu artmaqla bərabər, onun iş fəaliyyətində dəyişikliklər baş verir. Buna görə də kadr xidmətinin fəaliyyətində köklü dəyişikliklər edilməli, kadr işinin ənənəvi formasından, insan resurslarının idarə edilməsinin kompleks sisteminə keçilməlidir.
5. Rəqəmsal iqtisadiyyatd insan resurslarının idarə edilməsi mərkəzinin işçilərinə qoyulan ixtisas tələbləri mütəmadi olaraq dəyişir. Bu mərkəzin işçiləri sosialogiya, psixologiya və hüquq üzrə kompleks biliklər sisteminə sahib olmalıdırlar.
6. İnsan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyata keçidlə və kadrlar sahəsində praktik biliklərin kifayət qədər olmaması ilə əlaqədar olaraq, inkişaf etmiş bazar münasibətlərinə malik olan ölkələrin təcrübəsinin öyrənilməsi və tətbiq edilməsi böyük əhəmiyyət kəsb edir.
7. İnsan resurslarının idarə edilməsində rəqəmsal iqtisadiyyat firmanın daxili fəaliyyəti və reklam kompaniyaları müəssisənin imicinin yüksəldilməsinə yönəlməlidir.

**Ədəbiyyat siyahısı:**


1. Yüksel, Ö. (2003). İnsan Kaynakları Yönetimi. Ankara: Gazi Kitabevi.
2. Sabuncuoğlu, Z. (2012). İnsan Kaynakları Yönetimi. İstanbul: Beta Basım Yayım.
3. Əliyev, M.Ə., Həmidov H.İ. (2002). İnsan resurslarının idarə edilməsi. Bakı, Nurlan.
4. Əliyev, M.Ə., Həmidov H.İ. (2013). Biznesdə insan resurslarının idarə edilməsi(dərslik). Bakı: "İqtisad Universiteti" Nəşriyyatı.
5. Азизова, Э.Д., Мустафаева З.И., Байрамова С.Р. (2010). Экономика и социология труда. Баку.
6. Quliyev, T.Ə. (2003). Əməyin iqtisadiyyatı. Bakı.
7. Quliyev, T.Ə. (2013). İnsan resurslarının idarə edilməsi. Bakı.
8. Abbasov, İ.M., Sadıqov R.F. (2013). Menecment. Bakı: Bakı Biznes Universitetinin

nəşriyyatı.
9. Şahbazov, K.A., Məmmədov M.H., Həsənov H.S. (2005). Menecment. Bakı: «Təhsil» EİM.
10. İskəndərov R.Ə. (2009). Heyətin idarəedilməsi. Bakı.
11. Dijital çağda kurumsal yönetişim, sosyal sorumluluk ve sosyal girişimcilik. Editör: Doç. Dr. Duygu Hıdıroğlu. Dərslik İstanbul: KARADENİZ KİTAP LTD. ŞTİ., 2021.

---

**i.e.n.,dos. Kaşiyeva Flora Şamil q.**
Azərbaycan Dövlət İqtisad Universiteti
"Maliyyə ve audit" kafedrasının
flora seadet@mail.ru

## Şuşa şəhərinin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri

*“Qarabağ Azərbaycandır!”*
*(Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev)*




Artıq hamıya bəllidir ki, 30 ilə yaxın müddət idi doğma Azərbaycanımızın əbədi, əzəli torpağı olan gözəl Qarabağımızı qəddarcasına işğal edən Ermənistana qələbə qazandıq. İllərdir arzusunda olduğumuz, bir an belə unutmadığımız, daima dualarımızda olan, gözlədiyimiz Cənab Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 08 noyabr “Zəfər günü” elan edildi. Məhz buna görə II Qarabağ müharibəsində dövlətimizin güclü, şanlı, rəşadətli, yenilmək nədir bilməyən ordumuzun qəhrəmanlığı, insanlarımızın, xalqımızın birliyi nəticəsində əldə etdiyimiz bu qələbə münasibətilə xalqımızı təbrik edir, qanı, canı bahasına başa gələn yaralı qazilərimizə uca Allahdan sağlamlıq, heç bir zaman unuda bilməyəcəyimiz və hər zaman qürür və ehtiramla yad edəcəyimiz müqəddəs Şəhidlərimizə rəhmət diləyirik.

Qeyd edək ki, fərəh doğuran hallardan biri odur ki, Azərbaycanımızın iqtisadi əsasları getdikcə güclənir, möhkəmlənir, iqtisadiyyat dinamik inkişaf edir, yeni müəssisələr, iş yerləri açılır, güclü iqtisadi potensial formalaşır, beynəlxalq iqtisadi birliklərdə, arenalarda Azərbaycan böyük, uğurlu layihələrə imza atır, dünya ölkələri ilə sıx əməkdaşlıq edir, qürur duyduğumuz üçrəngli bayrağımız Birləşmiş Millətlər Təşkilatının ofisinin qarşısında dalğalanır, qələbə sevinci yaşadan güclü ordumuz formalaşır və s. onu göstərir ki, 90-cı illərin əvvəllərində xalqın birbaşa tələb və təkidi ilə Azərbaycana hakimiyyətə qayıdan həmişəyaşar milli liderimiz Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əməyinin, zəhmətinin, xalqına, dövlətinə, ölkəsinə göstərdiyi rəğbətin, sevginin, inamın, qayğının bariz nümunəsidir, göstəricisidir.

Aydın məsələlərdən biri odur ki, işğalçı dövlət olan Ermənistan işğal etdiyi ərazilərə külli miqdarda maddi ziyan vuraraq vəhşilik törətmiş, yaşayış evlərini dağıtmış, əraziləri minalamış, bütün təbii sərvətlərimizi məhv etməklə, meşələri yandırmaqla kifayətlənməmiş hamımızın ümid yeri olan, səcdə və dua etdiyimiz müqəddəs məscidlərimizi də yerlə yeksan etmişdir. Dünya təcrübəsi göstərir ki, müharibədən sonrakı bərpa, quruculuq, yenidənqurma işləri müəyyən vəsait və zaman tələb edir. Bu isə qaçılmazdır, vacibdir, zəruridir. Bu da bir həqiqətdir ki, gözəl Qarabağımızın ərazisi çox mühüm əhəmiyyətə malik ərazidir. Bu isə, həqiqətən, Uca Yaradan tərəfindən verilən bir nemətdir. Zəngin təbiətə, maddi, faydalı resurslara malik, bitib-tükənməyən təbii sərvətlər, iqlim şəraiti, bərəkətli münbit torpaqlar bizə vəd edir ki, Qarabağ torpaqlarında hər bir dünya ölkələri üçün mühüm əhəmiyyətə malik kənd təsərrüfatını, turizmi, (yeri gəlmişkən, dünya ölkələrinin vətəndaşları üçün Qarabağ torpağı çox maraqlıdır) dağmədən sənayesi, mineral ehtiyyatlar mədənləri, qeyri-neft sektoru üçün vacib əhəmiyyət kəsb edən sahələr, iqtisadi dirçəliş üçün istehsal sahələrinin inkişafı, ən əsası, illərdir səbirsizliklə “Böyük qayıdış” məcburi qaçqın və köçkünlərimizin (ümidvaram “məcburi qaçqın və köçkün” ifadələri artıq lüğətimizdən belə silinəcək) öz dədə-baba yurdlarına qayıtması bizi çöx gözlətməyəcəkdir. Həqiqətən də, ölkəmizdə aparılan iqtisadi islahatlar, görülən işlər xüsusilə sahibkarlığın, biznesin inkişafı hər zaman dövlət başçımızın diqqət mərkəzində olmuş, diqqətdən kənarda qalmamış və uğurlar əldə edilmişdir. Bu baxımdan, Qarabağ ərazisi, onun zəngin torpaqları həm yerli sahibkarlar, investorlar, iş adamları, həm də xarici dövlətlərin yatırımları üçün əlverişli və faydalı ola bilər. İşğaldan azad olunmuş ərazilərdə bərpa, yenidənqurma işləri, yeni infrastrukturun yaranması istiqamətində aparılacaq işlərdən ilki, əlbəttə ki, əraziləri minalardan dəqiqliklə təmizləmək, yaşayış və həyat üçün vacib olan yeni infrastrukturun qurulmasıdır. Bunlarla yanaşı, kənd təsərrüfatı ilə əlaqədar yeni fəaliyyət sahələrinin, xidmət, ticarət, tikinti, nəqliyyat və s. sahələrinin yaradılması və inkişafı mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda görüləcək işlər konkretləşdirilməli, dəyən zərər və bu zərərlərin həlli üçün həm dövlət tərəfindən atılan addımlar, həm də cəlb edilən investisiyalar dəqiq müəyyən edilməlidir. Yeri gəlmişkən, Ölkə Prezidenti 06 noyabr 2020-ci il tarixində sentyabr ayının 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına və s. dəymiş ziyanın aradan qaldırılması və qiymətləndirilməsini təmin etmək məqsədilə xüsusi olaraq Dövlət Komissiyası yaratmış və tapşırmışdır ki, dəymiş ziyanı qiymətləndirərək, zərər dəymiş obyektlərin tam bərpası ilə əlaqədar tələb olunan maliyyə vəsaitləri ilə bağlı Prezidentə təqdim edilsin. Əlbəttə, istehsal sahələrinin inkişaf etmə sürəti artdıqca o zaman xidmət, ticarət sahələrinin də dinamik tempi artacaqdır. Bu dinamik iqtisadi göstərici artdıqca da əhali üçün yeni iş yerlərinin açılması ümid doğurur ki, bu da müsbət nəticələrdən biri olacaq. Xüsusilə ərazilərdə kənd təsərrüfatı sahələrinin məhsullarının istehsalı onu göstərir ki, bu sahə iqtisadi fəaliyyət növlərindən biri olacaq. Çünki məcburi köçkün və qaçqın düşmüş əhalimizin, vətəndaşlarımızın geri qayıtması baxımından məşğulluğun təmin edilməsi də vacib məsələlərdən biridir. Bu baxımdan, işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının dinamik inkişafı dəqiq sistemləşdirilmiş şəkildə həyata keçirilməlidir.

İşğaldan azad olunmuş ərazilərimizdən biri, torpqalarımızın tacı olan misilsiz gözəlliyə, zəngin təbiətə, təbii resurslara, yüksək mədəniyyətə və s. malik doğma Şuşamız və onun sosial-iqtisadi inkişafıdır. Şuşada aparılacaq və həyata keçiriləcək bərpa və quruculuq işləridir.

Xoş hallardan biri odur ki,Şuşamız cənab İlham Əliyev tərəfindən 05 yanvar 2022-ci il Sərəncamı ilə 2022-ci ili ‘Şuşa ili’ elan edilib. Bu əlamətdar tarixi,bu əlamətdar ili nəinki Azərbaycanımız eləcə də Türk dünyası, İslam dövlətləri yekdilliklə gözəl Şuşamızın 270-ci illiyini qeyd edir. Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində Ermənistan 1992-ci il may ayının 8-də doğma Şuşamızı işğal etmişdir. Rəşaditli, güclü, əzmkar, mərd ordumuzun ən qətiyyətli qüvvəsi mübarizəsi nəticəsində 2020-ci il 8 noyabr tarixində doğma Şuşamız işğaldan azad edildi.

Fərəhverici hallardan biri odur ki, 07 may 2021-ci il tarixli Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir.



Həqiqətən Şuşada bu gün həyata keçirilən quruculuq,abadlıq işləri göz önündədir və danılmaz faktlardan biridir. Şuşada həyat dirçəlir. Qeyd etmək istərdim ki, bu gün Ermənistanı narahat edən məsələlərdən biri Şuşanın çox sürətlə Azərbaycanın iqtisadi həyatına inteqrasiya etməsidir. Çünki reallıq ondan ibarətdir ki, Şuşada yeni iqtisadi nəhəng möcüzələr planlaşdırılır və həyata keçirilir. Şuşada həyata keçirilən sosial iqtisadi inkişafın bariz nümunəsidir ki, bu gün artıq “Zəfər yolu” istifadəyə verilir. Füzuli şəhəri ilə Şuşanı birləşdirən 101 km-lik bir neçə zolaqlı bu yol birbaşa məhz Şuşayadır!

Həqiqətən də Şuşa yaradıcı sənaye nöqteyi-nəzərindən də böyük potensiala malikdir. Şuşa Sovet dövrünün turizm mərkəzi sayılırdı və şəhərə çoxlu sayda turist axını vardı. Gedişat göstərir ki, Şuşada quruculuq,bərpa işlərindən sonra turist axının qarşısını almaq mümkün olmayacaq. Eyni zamanda ərazilərdə həyata keçirlən nəqliyyat infrastruktur layihələri bu imkanlardan istifadəni daha da tezləşdirəcək. “Zəfər yolu” və Füzuli Beynəlxalq Hava Limanı və hazırda inşası davam edən Əhmədbəyli-Füzuli-Şuşa yolunun tikilməsinə və sürətlə davam etdirilməsi nəticəsində bu ərazilərdə həm beynəlxalq həm də daxili turizmin inkişafına şərait yaradacaqdır ki, bununla da nəticəsində bütün dünya əhalisi birbaşa Şuşaya gələcəklər. Şuşamızın sosial iqtisadi inkişafının prioritet istiqamətləri əlbəttə ki,çoxdur. Bu prioritet istiqamətlərindən biri və ən başlıcası odur ki, artıq Şuşanın baş planı təsdiq edilmiş, yaşayış binalarınn inşasına başlanmışdır. Həqiqətən də cənab prezidentimiz İlham Əliyevin dediyi kimi:

**“Şuşa Qarabağın tacıdır!”**

Qeyd etdiyim kimi, Şuşa zəfərindən dərhal sonra şəhərdə yeni infrastrukturun qurulmasının bariz nümunəsidir ki,bu gün Şuşada iri, nəhəng, uğurlu layihələr həyata keçirilir. Yeri gəlmişkən qeyd etmək yerinə düşərdi ki, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı demişdir: “Gəldik, gördük. Bərpa və tikinti işləri çox sürətlə davam edir.” Artıq canlı şahidiyik ki, bütün dövlət infrastrukturları, mütəxəsisslər Şuşanın bərpası ilə əlaqədar öz fəaliyyətlərini və ilkin araşdırmalarını davam etdiririlər.Şuşada hansı işlər görülməlidir?, Nələrə diqqət edilməlidir?, Nələrə ehtiyac var? İşıq, qaz təchizatı, enerji və s. kimi əsas aktual məsələlər araşdırılaraq öz həllini tapmışdır. Bütün infrastruktur yenilənir.

Doğma Şuşamızda həyat qaynayır, dirçəlir. Bu dirçəlişin nəticəsidir ki, Şuşa məscidinin bərpası, bu məscidlərdə ilk azanın verilməsi, dualarla dolu namazların qılınması, Şuşamızda təşkil edilən poeziya günləri, festivallar, mədəni tədbirlər, bayrağımızın ən uca zirvələrdə dalğalanması və s. xəbər verir ki, Şuşa bizi çox gözlətməyəcək. Ali Baş komandanın bəyan etdiyi kimi “Biz bu gün Şuşadayıq və bundan sonra da Şuşada əbədi qalacayıq !”

Artıq könül rahatlığı ilə deyə bilərəm ki, hər zaman ürək yanğısı ilə dinlədiyimiz bir nəğmənin misrasında daha deməyəcəyik :

*Qarabağda bağım qaldı.*
*Neçə şirin cağım qaldı.*
*Közərmiş ocağım qaldı,*
*Evim oldu talan, kül !*

*Qarabağım qara bağlar,*
*Yanar sinəm yanar ağlar.*
*Nalə çəkib Şuşam ağlar,*
*Dərdi mənə qalan gül !*

Bu gün Azərbaycan doğma vətənimizdə həyat dəyişir, insanların rifah halı yaxşılaşır, həm paytaxtda, həm də bölgələrdə yeni-yeni sosial layihələrə imza atılır, tikilən göydələnlər, nəhəng körpülər, rahat yollar və s. müstəqil Azərbaycanımızın getdikcə artan iqtisadi qüdrətindən xəbər verir. Fərəhverici hallardan biri də odur ki, bu məsələlərin həlli ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı əsasında Qarabağ Dirçəliş Fondu yaradılmışdır. Əlbəttə ki, ərazilərdə bərpa işləri ilə əlaqədar xərclər, resurslar lazım olacaq.

"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!"

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin zamanında söylədiyi bu fikri bizə tam əminlik verir ki, güclü iqtisadiyyata, dünya ölkələri arasında böyük nüfuza, hər zaman xarici investorların diqqət mərkəzində olan, rəqabətə dayanıqlı, yenilməyən, 30 ilə yaxın müddətə "Zəfər Günü"nü səbrlə gözləyən bir xalq, bir dövlət yeni-yeni layihələrin, uğurlu atılacaq addımların öhdəsindən layiqli şəkildə gələcəkdir İnşaAllah. Azərbaycanımızın dövlət müstəqilliyi, qələbəmiz xalqımızın tarixi nailiyyətidir. Dövlətimizin qədrini bilmək, onu qorumaq, inkişafımız üçün əlimizdən gələn köməyi, yardımı, sevgini göstərmək hər bir Azərbaycanlının borcudur!

---

**Hacıyev Camal Cəlil oğlu**
ATMU–nin İqtisadiyyat kafedrasının dosenti i.ü.f.d.
jamalhajiyev@vandex.ru
**Həmidov Maşallaxan Təbriz oğlu**
ATMU –nin magistr tələbəsi,
masallahhmidov@gmail.com

## Şuşa şəhərinin sosial-iqtiasadi inkişafının turizmə təsiri istiqamətləri

**Xülasə**

Şuşa şəhəri Azərbaycanın səfalı guşələrindən biri olmaqla yanaşı, özünün qəribə coğrafi mövqeyi ilə fərqlənir. Şəhərin təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub və ilk çağlarda şəhəri Şuşa adı ilə yanaşı xanın şərəfinə Pənahabad da adlandırırdılar. Şuşa öz gözəlliyi və füsunkar təbiəti ilə daim hərkəsin diqqətini cəlb etmişdir. 1992-ci il may ayının 8-i Şuşanın işğal olunması nəticəsində oranın butun sahələrindəki infrastrukturu məhv edilmişdir.2020-ci il noyabrın 8-i işğaldan azad olunduqdan sonra Şuşanin yenidənqurulması və bərpası ilə əlaqədar genişmiqyaslı işlər görülmüşdür Məqalədə Şuşa şəhərinin təbiəti, sovet dövründə Şuşada yerləşən yerləşən turizm obyektləri,hazırda burdakı turizm potensialı və görülən yenidən qurma işləri araşdırılmış və təhlil edilmişdir.

**Açar sözlər:** turizm, turizm potensialı, yenidənqurma işləri.sosial-iqtisadi inkişaf

Qarabağda, ilk növbədə, Şuşada turizm sahəsində görülən əsaslı tədbirlər nəticəsində əldə olunan müvəffəqiyyətlər Azərbaycanda turizm potensialı olan yeni ərazilərin mənimsənilməsində və Azərbaycanda turizmin inkişafının ən yüksək səviyyəyə çatdırılmasında stimul rolunu oynaya bilər. Bunun baş verməsi isə Azərbaycanda daxili turizmin artmasına həmçinin ölkədəki turizm sahəsinə xarici investisiyaların cəlb edilməsi və turizm sahəsində əlverişli investisiya mühitinin formalaşmasına təkan verəcək. Bunların nəticəsində isə turizm sahəsində yeni iş yerləri açılacaq, iqtisadi fəallıq artacaq və iqtisadi canlanma baş verəcək. Bu səbəbdən işğaldan azad olunmuş ərazilərin turizm potensialı düzgün və dəqiq qiymətləndirilməli və muvafiq addımlar atılmalıdır. Hal-hazırda Şuşa və Şuşanın timsalında işğaldan azad olunmus ərazilərdə görülən işlər də məhz bunun göstəricisidir ki, ölkə turizm potensialının fərqindədir və bunu ortaya qoymaq üçün mühüm addımlar atılır.

Qeyd edək ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərinə ciddi ziyan dəymiş, şəhərin infrastrukturu dağıdılmış və turizm-rekreasiya potensialı zəiflədilmişdir. Şuşaya dəyən zərərin məbləği 2011-ci ilin sonyna olan məlumata görə 4.257.474.000$ olmuşdur (Cədvəl 1.).

Qeyd olunan məlumatlardan məlum olur ki,Şuşada turizm sahəsi üzrə böyük prioritetlər və perspektvlər vardır. Umumiyyətlə, qeyri-neft sektorunun inkişafı fonunda turizmin inkişafı və ÜDM-də turizm məhsul və xitmətlərinin artımı üzrə planlı işlər görülməsi daha məqsədə uyğundur. Öncəki dövrlərdə bu sahənin əsaslı fəaliyyəti və inkişafına əsas maneə kimi Turizm potensiali böyük olan Qarabağın həmçinin haqqında danışdığımız Şuşanın düşmən işğalında olması göstərilirdi. Lakin Qarabağ Müharibəsində düşmən üzərindəki şanlı zəfərimizdən sonra istər Qarabağda, istərsə də Azərbaycanda turizmin maksimum səviyyədə inkişafına maneə törədən əsas səbəb də aradan götürülüb.

**Cədvəl 1.**

**İşğal dövründə Şuşa şəhərinə dəyən ziyanın açıqlaması (2011-ci ilin sonuna)**

| Dağıdılan obyektin növü | Sayı,uzunluğu | Zərərin dəyəri |
|---|---|---|
| **Yaşayış evləri mənzillər** | 6800 ədəd | 1.020.000.000$ |
| **Sənaye obyektləri** | 35 ədəd | 179.000.000$ |
| **Kənd təsərrüfatı obyektləri (texnika,nəqliyyat və s.)** | 183 ədəd | 50.000.000$ |
| **Səhiyyə müəssisələri** | 34 ədəd | 144.040.000$ |
| **Körpülər (avtomobil ,dəmiryolu və s.)** | 25 ədəd | 75.000.000$ |
| **Tədris müəssisələri (məktəblər,texnikumlar)** | 37 ədəd | 362.000.000$ |
| **Məktəbəqədər müəssisələr(bağçalar)** | 7 ədəd | 14.000.000$ |
| **Kanalizasiya sistemləri** | 35 km | 25.800.000$ |
| **İstilik sistemləri** | 1 ədəd | 8.000.000$ |
| **Rabitə obyektləri telemərkəz** | 15 ədəd | 93.000.000$ |
| **Mədədniyyət müəssisələri** | 75 ədəd 6500 eksponat | 104.200.000$ |
| **Su anbarları** | 2 ədəd | 4.000.000$ |
| **Avtomobil yolları** | 300 km | 450.000.000$ |
| **Magistral su xətləri (kanalları)** | 550 km | 82.500.000$ |
| **Magistral qaz boru xətləri** | 620 km | 35.300.000$ |
| **Texnika nəqliyyat,mexanizmlər** | 1050 ədəd | 50.400.000$ |
| **Eleketrik xətləri** | 850 km | 25.500.000$ |
| **Digər maddi dəyərlər** | --- | 1.510.000.000$ |

İşğaldan azad olunmuş ərazilərdə biznes fəaliyyətinətinin təşkili və inkişafına da diqqət yetirilməlidir. 4 iyun 2022-ci il tarixinə olan statistikaya əsasən bu ərazilərdə biznes qurmaq istəyən sahibkarlardan İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznes İnkişafı Agentliyinə (KOBİA) 1152 müraciət daxil olub.Müraciətlərdən 747-si yerli 405-i xarici şirkətlərə məxsusdur. Xarici müraciətlər sırasında ABŞ, Avropa ölkələri, Çin və İndoneziyadan müraciətlər də var.

Bütün qeyd olunanlar əsasında məlum oldur ki, Şuşa da daxil olmaqla işğaldan azad olunmuş ərazilərin çox böyük iqtisadi prespektivləri vardır. Məhz bu prespektivlərdən istifadə nəticəsində ölkə iqtisadiyyatı güclənəcək, nəticədə işsizlik azalacaq, əhalinin gəlirləri və rifah səviyyəsi əhəmiyyətli dərəcədə artacaq.

**Nəticə və təkliflər**

Şuşada turizmin inkişafı Azərbaycan iqtisadiyyatına nəzərəçarpacaq inkişaf vəd edir. Burada görülən tədbirlər, bərpa quruculuq işləri nəticəsində Şuşanın əvvəlki turizm potensialından tam səviyyədə istifadə olunmalı. Turizm sektoru üzrə ixtisaslaşma baş verəcək və neftdən aslılıq azalacaq. Bir sıra təklifləri irəli sürmüşük:

- Kəlbəcər-Laçın-Şuşa azad iqtisadi zonasının yaradılması bununla yanaşı turizm fəaliyyəti ilə məşğul olan biznes subyektlərinə stimullaşdırıcı olaraq dövlətin müəyyən etdiyi müddətdə müəyyan faiz və qaydalar çərçivəsində vergi güzəştlərinin tətbiq edilməsi;
- dövlət dəstəyinin gücləndirilməsi;
- turizm bankçılığının tətbiq edilməsi;
- zamanla inkişaf edən turizm standartlarına cavab verə bilən personalın hazırlanması üçün turizm təlimlərinin və kurslarının təşkili;
- inkişaf edən turizm sənayesində komfortun təmin olunması və bu məqsədlə turizm sənayesinin elektronlaşması və s.

**Ədəbiyyat siyahısı:**


1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.
2. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı" 2021 ci il 7 iyul.
3. Şuşa ili elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı 05 yanvar 2022-ci il.
4. https://news.milli.az/country/948533.html
5. https://president.az/az/articles/view/52389
6. https://modern.az/qarabag/351292
7. https://az.trend.az/business/3604805.html
8. https://news.day.az/azerinews/1495959.html



**Summary**

The city of Shusha is one of the most picturesque corners of Azerbaijan and differs with its strange geographical position.The foundation of the city was laid by the Khan of Karabakh Panahali Khan in 1752, and in the early ages, along with the name of Shusha, the city was also called Panahabad in honor of Khan. Shusha has always attracted the attention of everyone with its beauty and charming nature. As a result of the occupation of Shusha on May 1992, 8, the infrastructure in all areas of Shusha was destroyed.After the liberation of Shusha from the occupation on November 2020, 8, large-scale work was carried out in connection with the reconstruction and restoration of Shusha, the nature of the city of Shusha, the tourist facilities located in Shusha during the Soviet period, the tourism potential and the reconstruction work carried out here are examined and analyzed in the article.



**Keywords:** Keywords: tourism, tourism potential, reconstruction works, socio-economic development.


---


**Vəsilə Xəlilova**
vasila.khalilova@gmail.com


## Şuşa şəhərinin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri

*"Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün,vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir,əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir"*

*Heydər Əliyev*
*Ümummilli Lider*

*"Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir"*

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

2020-ci il noyabrın 10-da imzalanmış tarixi Bəyanatla Azərbaycanın siyasi və iqtisadi suverenliyinin təmini işğaldan azad edilmiş ərazilərin mövcud iqtisadi potensialından xalqımızın rifahı üçün tam istifadə olunmasına geniş imkanlar yaradır. Əldə edilmiş qələbə qarşıdakı illərdə sistemli və davamlı islahatlarla yeni imkanlara çevriləcəkdir [1]. 2020-ci il sentyabrın 27-dən başlayan 44 günlük müharibə Böyük Qarabağ zəfəri ilə nəticələndi və Azərbaycan xalqı üçün tarixi hadisə baş verdi. İşğalçı Ermənistan təslimçilik sazişini imzalamağa məcbur oldu və mənfur düşmən diz çökdü. Azərbaycan xalqının və Ali Baş Komandanın, rəşadətli ordumuzun bir yumruq kimi birləşməsi hiyləgər və xain düşmənin başını əzməklə nəticələndi, torpaqlarımız işğaldan azad olundu.

İşğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi və sosial simasında tarixi mövqeyi bərpa edilməlidir. Regionun dayanıqlı inkişafı burada iqtisadiyyatın ehtiyaclarının doğru resurslarla təmin edilməsindən asılı olacaq, təbii resurs bolluğu və qazanılan tarixi imic bu ərazilərə sərmayə cəlbinə imkan verəcəkdir [2].

Nəhayət, ölkənin sosial-iqtisadi inkişafında tarixi dönüş dövrü və yeni strateji mərhələ olan işğaldan azad edilmiş ərazilərin bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyası əsasında bu regiona böyük qayıdış təmin ediləcəkdir.

Məlumdur ki, işğaldan azad olunan digər ərazilərimiz kimi, Şuşanın bərpası da bu gün cənab Prezident İlham Əliyevin xüsusi önəm verdiyi və diqqət mərkəzində saxladığı vacib məsələdir. Ölkə Prezidentinin müvafiq sərəncamı ilə 2022-ci ilin "Şuşa ili" elan edilməsi də Şuşaya verilən böyük dəyərin bariz nümunəsidir. Hazırda şəhərdə bərpa işlərinə start verilib və şəhər tarixi simasını saxlamaqla ən müasir formada bərpa edilir.Burada müasir turizm infrastrukturu yaradılır. Xüsusən də modern memarlıq nümunəsi olacaq yeni məscidin təməlinin qoyulması Şuşanın yaxın gələcəkdəki heyrətamiz simasının işartılarıdır. Şuşa tezliklə cənab Prezidentin vurğuladığı kimi dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

Şuşa Azərbaycanın qədim şəhərlərindən biridir. Tarixə nəzər salsaq, bu şəhər Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. Tarixi mənbələrdə Şuşanın hətta XIII əsrdə də Azərbaycanın məşhur şəhərlərindən biri olması haqqında faktlar vardır [3]. Şuşa qalası tarixən Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur. Şəhərin əsasının qoyulması Qarabağ xanlığının banisi Pənahəli xanın adı ilə bağlıdır.

1747-ci il iyun ayının 20-də İran şahı Nadir şah Xorasan yaxınlığında yerləşən Xabuşan yaylağında öz yaxın adamları tərəfindən qətlə yetirildikdən sonra, onun yaratdığı imperiya dağıldı. Qarabağ xanlığnın banisi Azərbaycanın görkəmli dövlət xadimi və sərkərdəsi Pənahəli xan (1693-1763) idi. Pənahəli xan Cavanşirlər tayfasının indiki Ağdam rayonunun Sarıcalı oymağından idi. Pənahəli xan 1738-ci ildə Nadir şahın sarayını tərk edib, doğma vətəninə-Qarabağa gəlir və 1747-ci ildə Qarabağ xanlığının əsasını qoyur. Pənahəli xanın yaratdığı xanlığın siyasi mərkəz şəhəri yox idi. Ona görə də o, dövrünün siyasi hadisələrinə cavab verə biləcək mərkəz, şəhər inşa etdirmək məcburiyyətində idi. Pənah xan Bayat və Şahbulaq qalalarını inşa etdirdi. Lakin həmin qalalar Qarabağ xanlığının etibarlı siyasi mərkəzi ola bilməzdi. Pənah xan Qarabağ xanlığının yeni - üçüncü paytaxtını inşa etdirmək üçün tədbir gördü. Bu siyas-inzibati mərkəz Şuşa qalası idi. Paytaxt-qalanın xeyli hissəsi inşa edildikdən sonra, məmurların və din xadimlərinin məsləhəti ilə xanın şərəfinə ona Pənahabad adı verilir. Pənahabad Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir incisidir. Bu inci təkrar olunmaz olaraq, onun əzəmətli tarixinə həkk olunmuşdur. Sonradan Pənahabad Şuşa toponimi ilə əvəz olunmuşdur. Qarabağ xanlığının sayca üçüncü paytaxtı olan Şuşa qalasının ərazisi yalnız hərbi-strateji baxımdan deyil, eyni zamanda iqtisadi cəhətdən də əlverişli idi [4].

2022-ci ilin yanvar-iyun aylarında Şuşa rayonunda iqtisadiyyatın əsas sahələri üzrə (sənaye, kənd təsərrüfatı, tikinti-quraşdırma işləri, nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə, ticarət və xidmət) məhsul buraxılışı əvvəlki ilin müvafiq dövrünə nisbətən 108,3 faiz artaraq, 7583,3 min manat olmuşdur. İstehsal edilmiş məhsulun rayon əhalisinin hər nəfərinə düşən dəyəri 216,4 manat təşkil etmişdir [5]. Məhsulun 1449,8 min manatı sənayedə, 2688,4 min manatı kənd təsərrüfatında, 50,0 min manatı tikintidə, 128,4 min manatı nəqliyyat və anbar təsərrüfatı sahələrində, 3266,7 min manatı isə ticarət və xidmət sahələrində olmuşdur.

Bütün bunlarla yanaşı Şuşanın sosial-iqtisadi inkişafına dair aşağıdakı prioritet istiqamətlərin reallaşdırılması məqsədəuyğundur: 1.Elm və təhsil. 2.Mədəniyyət.3.Turizm. 4.Yeni iş yerlərinin

açılması və əhalinin məşğulluğunun təmin olunması. Şuşada təhsil sisteminin inkişafı mühüm prioritet istiqamətlərdən biridir. Təhsilin keyfiyyətinin yüksəldilməsi, müəllim-pedaqoq heyətinin təkmilləşdirilməsi,müasir texnologiyaya əsaslanan təhsil infrastrukturunun yaradılması əsas amillərdəndir. Normativ-hüquqi bazanın təkmilləşdirilməsi, maddi-texniki təminat istiqamətində geniş tədbirlərin həyata keçirilməsi və təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi genişləndirilməlidir.

**2022-ci ilin yanvar-iyun ayları faktiki (*min manatla*)**




**Şəkil 1. 2022-ci ilin yanvar- iyun dövrü üzrə ümumi məhsul buraxılışı**

Təhsil müəssisələrində İKT əsaslı infrastrukturun inkişaf etdirilərək, rəqəmsal biliklərin öyrədilməsinin ön plana çəkilməlidir. Artıq bu istiqamətlərdə müvafiq addımlar atılıb. Bu sahənin inkişafına göstərilən dövlət qayğısı, maliyyə vəsaitlərinin ayrılması sözügedən sahənin uğurlu gələcəyindən xəbər verir. Şuşada ilk təhsil ocaqlarından birinin, Şuşa rayon 1 nömrəli tam orta məktəbinin yenidən inşasına başlanılıb, tezliklə yüksək səviyyədə şagirdlərin ixtiyarına veriləcək. Digər ümumtəhsil məktəblərinin də tədricən bərpa olunaraq fəaliyyət göstərəcəyi də hədəflərdəndir [6]. Məktəbəqədər təhsilin keyfiyyətinin yaxşılaşdırılması və əhatəliliyinin genişləndirilməsi, təmayül və inklüziv təhsil yönümlü müəssisələrin yaradılması da məqsədəuyğundur.

Məlumdur ki, işğaldan əvvəl Şuşada ali və orta ixtisas təhsil müəssisələri fəaliyyət göstərib. Bu təhsil ocaqlarının kontengenti respublikanin bir çox bölgələrindən ibarət idi, məzunları arasında bir çox tanınmış ziyalıların, dövlət və elm xadimlərinin, məşhur sənətkarların olması çox təqdirəlayiqdir. Bu baxımdan Şuşada dünya səviyyəli universitet anlayışı tətbiq edilən təhsil ocaqlarının yaradılması, Beynəlxalq ikili diplom proqramlarının əhatə dairəsinin artırılması, ali təhsildə tətbiq olunan yeni məzmunlu proqramların əhatə dairəsinin və keyfiyyətinin artırılması da vacib məqamlardandır.

Müasir standartlara cavab verən tədqiqat mərkəzlərinin yaradılması, sanballı tədqiqat işlərinin aparılması ilə yanaşı, əqli mülkiyyətin də rolunu artıracaqdır. Bu isə özlüyündə böyük ziyalı potensialına malik olan Şuşanın elmin gələcək uğurlarına öz töhfəsini verməsinə zəmin yaradacaq.

Əmək bazarı və təhsil sistemi daima qarşılıqlı əlaqədə işləməyi tələb edir. Belə ki, ehtiyac duyulan ixtisaslar əmək bazarında araşdırılaraq müəyyən edilir və proqnazlaşdırılır, yeni ixtisasların yaradılması, mövcud ixtisasların məzmununa yenidən baxılması, müvafiq təhsil proqramlarının işlənib hazırlanması prosesi əmək bazarının tələbləri əsasınada həyata keçirilməlidir. Bu baxımdan müasir təminatlı və yeni məzmun əsasında əlavə peşə təhsil mərkəzlərinin yaradılması, peşə təhsili üzrə əmək bazarının tələblərinə cavab verən və nəticə əsaslı təhsil proqramlarının hazırlanması, bu prosesə işəgötürənlərin və sahibkarların cəlb edilməsi çox önəmlidir.

Şuşa Azərbaycanın qədim mədəniyyət mərkəzi kimi xalqımızın yaradıcılıq qüdrətini, istedadını, bacarığını ifadə edib. Təsadüfi deyil ki, Azərbaycan mədəniyyətinə Üzeyir Hacıbəyovu, Bülbülü, Niyazini, Əfrasiyab Bədəlbəylini, Rəşid Behbudovu, Seyid Şuşinskini, Sadıqcanı, Qurban Primovu, Xan Şuşinskini, Zülfü və Vasif Adıgözəlovları, Süleyman Ələsgərovu və adlarını sadalamaqla bitməyən yüzlərlə dahi sənət adamlarını bəxş edib. Azərbaycan musiqi tarixinə qızıl hərflərlə həkk olunan bu korifeylərin ilham mənbəyi məhz bu əsrarəngiz diyar olub.

Təkcə XIX əsrdə istedadlar məskəni olan bu şəhərdə 95 şair və ədib, 22 musiqişünas, 38 xanəndə, 12 nüsxəbənd, 19 xəttat, 18 memar, 5 astronom, 16 həkim, 42-yə qədər müəllim və şairə

olmuşdur. Bu böyük ziyalı dəstəsi Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə və inkişaf etdirməkdə böyük rol oynamışdır.

Firidun Şuşinski belə yazırdı: "Şuşa Qafqazın konservatoriyası, həm də vokal məktəbi kimi də bütün Yaxın və Orta Şərqdə məşhur idi. İtaliya vokal məktəbi Avropa musiqi mədəniyyəti tarixində hansı mövqeyi tutursa, Şuşa vokal məktəbi də Şərq musiqi mədəniyyəti tarixində eyni zirvədə dayanır [7].

XIX əsrin ortalarında Şuşada yaradılan bir sıra ədəbi, musiqi və incəsənət məclislərinin-musiqişünaslar məclisi ( M.M.Nəvvab), xəttatlar məclisi (Kərbəlayı Səfərəli), xanəndələr məclisi (Hacı Hüsü), nüsxəbəndlər məclisi (Məşədi Əkbər), nəqqaşlar məclisi (Kərbəlayi Səfərəli və Nəvvab), memarlar məclisi (Kərbəlayı Səfixan) fəaliyyəti nəticəsində Şuşa şəhəri böyük incəsənət və musiqi mərkəzinə çevrilmişdir. Elə Şuşada ilk musiq məktəbinin yaradılması da XİX əsrin ortalarına təsadüf edir.Bütün bu tarixi faktlar azad və gözəl Şuşanın gələcək uğurlu inkişafında mədəniyyət sahəsinə önəm verilməsini, bu sahədə uğurlu islahatlar aparılmasını zəruri edir.İlk əvvəl müasir standartlara cavab verən mədəniyyət mərkəzinin, musiqi yönümlü innovativ təhsil ocaqlarının açılması həlli vacib məsələlərdəndir. Ənənəvi musiqi festivallarının keçirilməsi, sələflərinin yolunu davam etdirəcək yeni istedadların yetişdirilməsi ilə məşğul olan müvafiq qurumların yaradılması da bu sahədə atılan uğurlu addımlardandır. Məlumdur ki, işğaldan əvvəl Şuşada milli musiqi alətlərinin istehsalı ilə məşğul olan Şərq musiqi alətləri fabriki fəaliyyət göstərirdi . Bu fabrikin fəaliyyətinin yenidən bərpa edilməsi musiqinin inkişafına xidmət etməklə bərabər, həm də əhalinin məçğulluğunun təmin olunması baxımınadan mühüm əhəmiyyət kəsb edir.

Dağlıq Qarabağ və ətraf rayonların işğalı ilə ölkəmiz təkcə ərazi baxımından deyil, həm də iqtisadi, sosial və mədəni itkilərlə üzləşdi. O cümlədən turizm sektorundakı maddi və mənəvi itkilərimiz də bu qəbildəndir. Azərbaycann tarixi-mədəni mərkəzlərindən biri olan Qarabağ gözəl təbiəti ilə xüsusilə seçilirdi. İsabulağı,Turşsu, Səkili bulağı, Soyuq bulaq, Yüzbulaq, Qırxbulaq, Çarıqbulaq və digər nadir təbiət möcüzələri gözəlliklər diyarı Şuşanın geniş turizm imkanlarından xəbər verirdi.

İşğaladan əvvəl, keçmiş sovetlər zamannda burada yaradılmış kurort zonaları, istirahət zonaları, istirahət və əyləncə guşələrinə hər il dünyanın bir çox yerindən minlərlə turist gəlirdi. Turistləri cəlb edən Qarabağın saf, təmiz havası, müalicəvi suları, əsrarəngiz təbiəti idi. Şuşadakı "Şuşa sanatoriyası", istirahət evləri, məktəblilərin yay tətilində dincəldiyi pioner düşərgələri və digər turizm məskənləri də bu qəbildən idi.

Tarixə nəzər salsaq, Şuşa şəhərində turizm fəaliyyətinin rəsmi təşəkkülü 1935-1936-cı illərə təsadüf edir. Belə ki, Şuşada ilk istirahət evi 1936-cı ildə, pansionat isə 1964-cü ildə yaradılaraq, 1970-ci ildən mədə-bağırsaq xəstəliklərinin müalicəsi ilə məşğul olan sanatoriyaya çevrilib. Şuşa Turşsu turist bazası da 1970-ci ildən fəaliyyətə başlayıb və tez bir zamanda SSRİ məkanında məskunlaşıb. 1972-ci ildə istifadəyə verilmiş, Şuşa "Şəfa" Turist Bazası, 1984-cü ildə yaranan Şuşa Səyahətlər və Ekskursiyalar bürosu da bunların məntiqi davamıdır. Turist marağı baxımından dünyada çox populyar olan Xarıbülbülü Şuşada canlı olaraq seyr etmək Qarabağın turizm cazibədarlığını xüsusi olaraq artırırdı. Vaxtilə Şuşa və Ağdam rayonlarında yerləşən məşhur "Şuşa", "Gülablı" sanatoriyaları, Şuşanın istirahət evləri, məktəblilərin yay tətilində dincəlməsini təmin edən düşərgələr görülən yenidənqurma işlərindən sonra öz füsunkar görkəmlərini tamamilə dəyişəcəkdir. Azərbaycan mədəniyyətinin incisi Şuşa şəhərinin tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verir [8].

Göründüyü kimi, Qarabağ regionu tarix boyu turistləri özünə cəlb edən əsas turizm məkanlarından biri olub. Burada turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. Alban məbədləri, Qarabağ xanlığının irsi, İpək yolu kimi mədəni turizm məhsulları buranın zəngin mədəni turizmin mövcudluğunun göstəricisi hesab edilir. Şuşada aparılan yüksək quruculuq-abadlıq işləri, flora və fauna müxtəlifliyi, müasir infrastruktur bundan sonra da burada turizmin inkişafı üçün güclü imkanların olmasından xəbər verir. Qarabağ bölgəsi turizm biznesi üçün cəlbedici, turistlər üçün əlçatan, unikal, keyfiyyətli və rəqabətli turizm xidmətləri təklif edən turizm destinasiyası olacaqdır [9].

Əmək qabliyyətli keçmiş məcburi köçkünlərin məskunlaşmadan sonrakı dövrdə yeni mühitə sosial adaptasiyası və sosial statusunun yüksəldilməsinə şərait yaradılması sahəsində məqsədyönlü işlərin görülməsi zəruridir. İrqindən, milliyytindən, cinsindən, sosial mənşəyindən, siyasi və dini

baxışlarından, təhsil səviyyəsindən asılı olmayaraq hər bir insanın əsas hüquqlarından biri əmək hüququdur. Bu hüququn reallaşdırılmasına şəraitin yaradılması üçün isə sosial siyasətin mühüm tərkib hissəsi olan fəal məşğulluq siyasətinin həyata keçirilməsi zəruridir. Dövlətin bu istiqamətdə apardığı siyasətin əsas məqsədi bu insanların potensial imkanlarından tam istifadəsinə və işədüzəlməsinə lazimi şərait yaratmaqdır.

İşğaldan azad olunmuş digər ərazilərimiz kimi Şuşada da əhalinin layiqli iş yerləri ilə təmin edilməsi və işədüzəlmə imkanlarının maksimum yaxşılaşdırılması məsələlərinə kompleks və sistemli yanaşma təmin olunmalıdır və bununla əlaqəli bir sıra məsələlər yüksək prioritetlik səviyyəsinə qaldırılmalı və nəzərə alınmalıdır:

–Qarabağ zəfərindən sonra regionun dirçəlişi və “Böyük qayıdış”ın təmin edilməsi ilə bağlı strateji yanaşmalar və prioritet vəzifələr əsas götürülməklə, 2030-cu ilədək fəaliyyətdə olan Məşğulluq Strategiyasının hədəfləri yenidən baxılmalı və təkmilləşdirilməlidir;

–2030-cu ilədək olan milli prioritetlər üzrə hədəflər nəzərə alınmaqla, əhalinin məşğulluq problemlərinin həlli məsələlərinə yeni yanaşmalar təmin edilməli və bununla bağlı müvafiq mexanizmlər hazırlanmalı və tətbiq olunmalıdır;

–İşsiz vətəndaşların vahid elektron bazasının yaradılması, təsnifləşdirilməsi, əmək bazarının tələblərinə uyğun modelləşdirilməsi, onların işədüzəlməsi ilə bağlı xüsusi proqram təminatının işlənib hazırlanması məqsədəuyğundur;

–İşğaldan azad olunmuş ərazilərdə “ağıllı kənd”, “agıllı şəhər”, digər yüksək texnologiyaların tətbiqinin prioritetliyi nəzərə aləmaqla, işsiz gənclərin intellektual səviyyələrin artırılması, texnoloji yanaşmaların və biliklərin mənimsənilməsi, yüksək texnologiyalar əsaslı iş yerlərində hazırlıqlı olmaları üçün məqsədli kursların, təlim və treninqlərin təşkil olunması vacibdir;

–Məşğulluq yalnız gəlir mənbəyi deyil, həm də insanın əmək qabiliyyətinin, intellektual potensialının reallaşması prosesi və forması olmaqla həm iqtisadi, həm də sosial təbiətə malikdir. Məşğulluğun sosial təbiəti əhalinin hərtərəfli inkişafının təmin edilməsindən ibarətdir. İnsanlar cəmiyyət həyatında təkcə istehsal amili, iqtisadi və sosial vəzifələrin yerinə yetirilməsi aləti, vasi təsi kimi deyil, həm də yüksək mənəvi dəyərlər və ictimai tərəqqinin məqsədi kimi çıxış edir [10].

**Ədəbiyyat siyahısı**:


1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı, Bakı, 2 fevral 2021-ci il, № 2469
2. 2 Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər
3. Azərbaycan qəzeti, Bakı, 08 may 2020
4. Hüseynov Y.R. Şuşa şəhərinin tarixi. Bakı, Şuşa nəşriyyatı, 2015, 152 s
5. 2022-ci ilin yanvar-iyun aylarında Şuşa rayonunun sosial, iqtisadi inkişafı haqqında, Şuşa rayon Statistika İdarəsi, Bakı, 2022
6. Ağamirov M. “Nəğmə dolu Şuşam mənim!” Bakı,“Nurlar”Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2013.264 s
7. Bəşirqızı Z, “Qarabağın turizm potensialı heyranedicidir”, Xalq qəzeti, 25 noyabr 2021
8. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası
9. V.Xəlilova, Məcburi köçkünlərin işədüzəlməsi onların sosial statusunun bərpasının əsas vasitəsi kimi,“Kooperasiya” elmi-praktiki jurnalı. Bakı, 2017, № 3 (46), səh. 258-264.
10. Huseynova, A., & Mazanova, O. (2021). Expanding the application of cloud and mobile technologies for information exchange in the use of e-learning management systems. Economic and Social Development. P.99–103.



**Xülasə**

Məqalədə Şuşanın Azərbaycan xalqı və dövləti üçün xüsusi əhəmiyyət kəsb etməyindən,qədim və zəngin tarixi keçmişindən , Şuşada aparılan bərpa işlərindən bəhs olunur. Şuşşanın sosial-iqtisadi inkişafında mühüm rol oynayan prioritet sahələr ön plana çəkilir.Azərbaycanın güclü və dinamik inkişafı fonunda Şuşanın tezliklə dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəyi xüsusilə vurğulanır.



**Açar sözlər**: sosial-iqtisadi, prioritet, mədəniyyət, təhsil, turizm, məşğulluq, məskunlaşma, bərpa, işğal, qələbə, inkişaf, ərazi, tarix

**Summary**

The article deals with particular importance of Shusha for the people and state of Azerbaijan, it's ancient and rich history and ongoing restoration works which are carried out in Shusha. The priority fields which play an important role in socio-economic life of Shusha are emphasized. In the background of stronq and dynamic development of Azerbaijan, it's especially stressed that Shusha soon will become one of the most beautiful cities in the world.

**Key words** : socio-economic, priority, culture, education, tourism , employment, settlement., restoration, invasion , victory, development, territory, history

---

**Abbasova Sevda İsmayıl qızı**
Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) İqtisadiyyat
kafedrasının baş müəllimi, Bakı, Azərbaycan
abbasova-1975@bk.ru

## Şuşa şəhərinin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri

**Xülasə**

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə Azərbaycan Respublikasının müzəffər ordusunun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edilmiş və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunmuşdur. Şuşanın düşmən əsarətindən geri qaytarılması bu ərazilərdə post-konflikt bərpa prosesinin başlanmasına zəmin yaratdı. Şəhərə, onun tariximədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır. Bərpa-quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilmişdir.

**Açar sözlər:** Şuşa, böyük qayıdış, bərpa işləri, sosial-iqtisadi inkişaf.

2022-ci il sentyarın 27-dən başlayan Vətən müharibəsi 44 gün ərzində nəinki Azərbaycan tarixində, habelə dünya savaş tarixində görünməmiş bir sürətlə torpaqlarımızı erməni işğalından azad etdi və Azərbaycan xalqı doğma yurduna qovuşdu. 2020-ci il sentyabrın 27-də Prezident, Ali Baş Komandan İlham Əliyev işğal altında olan torpaqlarımızın azadlığı uğrunda başladığımız Vətən müharibəsinin ilk anında xalqa müraciətində qətiyyətlə dedi: "Bu gün Azərbaycan ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir… Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" [1, s.7].

Ali Baş Komandanın Vətən müharibəsinin ilk saatlarında verdiyi bu tarixi vəd görünməmiş bir uğurla nəticələndi. Müharibənin gedişi dövründə mübariz ordumuzun hər qələbəsi Prezidentin xüsusi müraciəti ilə xalqa çatdırıldı. Onun bu müqəddəs müraciətlərində oktyabrın 4-də Cəbrayıl şəhəri və onun 9 kəndinin, oktyabrın 9 da Hadrud qəsəbəsinin və bu rayonun 8 kəndinin, oktyabrın 17-də Gəncə və Mingəçevir şəhərlərinə düşmənin vəhşi raket atəşlərini, bu vəhşi dövlətin yüzlərlə hərbi texnikasının ordumuz tərəfindən məhv edildiyini, oktyabrın 20-də Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının və oradakı neçə-neçə kəndin… və nəhayət qələbəmizin zirvəsi sayılan Şüşa şəhərinin işğaldan azad edildiyini qürur hissilə xalqa elan etdi [2,s.8].

Vətən müharibəsi dövründə Prezident, Ali Baş Komandan İlham Əliyevin Şuşanın yağı düşməndən azad edilməsi ilə bağlı informasiyası qələbə müjdəsinin sonuncusu idi. Bu müraciətində İlham Əliyev demişdi: - Əziz həmvətənlər, əziz bacılar və qardaşlar!

Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm! Daha sonar Ali Baş Komandan davam edir:"İyirmi səkkiz il yarım

işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır [3,s.9]. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!" Ali Baş Komandan Şuşanın Azərbaycan üçün necə qiymətli olduğunu bu müraciətində qürurla dilə gətirir: "… Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlərboyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir" [4,s.4].

Bu yerdə Prezident bizim mövzumuzu aktual edən bir vacib fikir səsləndirir: "Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir" [5.s.6]. Və müraciətin sonunda Prezident, Ali Baş Komandan indi Azərbaycan mediasının loqosuna çevrilmiş bu sözləri deyir: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" Prezidentin son cümlələri həmin andan reallaşmağa başladı: Şuşanın social-iqtisadi inkişafının bütün parametrləri Prezidentin fəaliyyəti üçün prioritet məsələyə çevrildi.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərimizdə sosial-iqtisadi inkişafın sürətlə aparılmasını xüsusi nəzarətdə saxlayır. Prezident belə bir vəzifəni öz çıxışlarında dönə-dönə təkrar edir: "Prioritet vəzifəmiz qüdrətli dövlətin və yüksək rifah cəmiyyətinin yaradılmasıdır" [6,s.3].Bu istiqamətdə Qarabağ regionu ayrıca rol oynayır. Prezident bu regionun ən vacib məkanı olan Şuşanı ölkəmizin mədəniyyət paytaxtı elan etdi. Artıq tarixə çevrilən Qarabağ müharibəsi, müharibədən sonrakı iqtisadi, siyasi quruculuq işləri xüsusi bir mövzu kimi "ciddi elmi araşdırmaların aparılmasını qarşımıza məqsəd qoyur" [7,s.2]. Bu vəzifələr uğurla yerinə yetirilməkdədir. Şuşanın sosial-iqtisadi inkişafı bir neçə cəhətdən zəruri hesab edilir. Əvvəla, Şuşa Vətən müharibəsindəki qələbəmizin simvoludur, ikincisi, Şuşa Türk Ölkələri Birliyinin Mədəni Mərkəzi elan edilib, üçüncüsü, Şuşa ciddi strateji dayaq nöqtəsidir və s. Ona görə də, Prezidentin şəxsi təşəbbüsü ilə Füzulidə inşa edilən və sürətlə tikilib istifadəyə verilən Beynəlxalq Hava Limanı və bu limandan Şuşaya çəkilən ayrıca yol xətti, Kəlbəcərdə, Laçında tikilən hava limanları daha çox hərbi məqsədlərə xidmət etsə də, ölkəmizin və o cümlədən Şuşanın iqtisadi, sosial problemlərinin həllinə də çox ciddi müsbət təsir göstərir və göstərəcəkdir.

Bu gün Qarabağda həm də Şuşanı elektrik enerjisilə təmin etmək üçün artıq bir neçə elektrik stansiyası və ötrücülər inşa edilmişdir. Bu regionda iqtisadi inkişaf üçün xarici investorlar cəlb edilməkdədir. "Qarabağın "yaşıl enerji" zonasına çevrilməsi çərçivəsində Energetika Nazirliyi ilə Yaponiyanın TEPSCKO şirkəti tərəfindən hazırlanmış tədbirlər planı artıq təsdiq olunmaq üzrədir" [8,s.5]. Şuşaya aparan Füzuli –Şuşa magistralını Prezident haqlı olaraq "Zəfər yolu" adlandırdı. İndi bu yollara hətta təhlükəsizlik kameraları da quraşdırılıb.

Bu faktlardan da aydın olur ki, dövlətimiz Şuşanın sosial-iqtisadi inkişafını özünün prioritet vəzifəsi hesab edir. Bu məqsədlə Şuşanın inkişafı ilə bağlı baş plan ətrafında xüsusi dayanmaq lazımdır. Əvvəlcə onu qeyd edək ki, azad olunmuş ərazilərdə quruculuq işlərinin dürüst və sürətli aparılması üçün Prezidentin Xüsusi Nümayəndəsi İnstitutu yaradılmışdır. 2021-ci ilin yanvarında yaradılan bu vəzifəyə ilk təyinat Şuşaya olmuşdur. Prezident İlham Əliyev 2021-ci il yanvarın 27-də Şuşaya özünün xüsusi nümayəndəsi kimi təyin etdiyi Aydın Kərimovu video formatda qəbul zamanı demişdi: "Birinci təyinat məhz Şuşa rayonuna olan təyinatdır. Bu da təbiidir. Şuşa Azərbaycan xalqının qəlbində xüsusi yerə malikdir. Şuşa Qarabağın tacıdır, Şuşa təkrarolunmaz şəhərdir" [9,s.4]. Prezidentin bu qəbulda dediyi sözlər Şuşanın yenidən qurulması ilə bağlı rəsmi bir plan kimi qəbul edilir: "…Şuşanın bərpası, dirçəlməsi hamımızın işidir. Əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol vermək olmaz. Mən artıq bir müddət bundan əvvəl Şuşaya mütəxəssislərdən ibarət böyük bir qrup ezam etmişdim. Onların arasında siz də var idiniz və vəziyyətlə tanış oldunuz. Bu qrup bir neçə gün Şuşada qalıb, bütün təftiş, təhlil işlərini aparıb və mənə məruzə edib. Şuşanın bərpası bunun əsasında aparılacaq." Prezidentin bu sözlərindən də aydın olur ki, artıq Şuşanın dirçəldilməsinin planı hazırdır. Bu plana Prezidentin aşağıdakı sözləri istiqamət verir və bu istiqamətdə Şuşanın sosial inkişafı əsas yer tutur: "Bərpadan sonra Şuşada həyat qaynamalıdır. İnsanlar qayıdandan sonra Şuşanın çox zəngin mədəni həyatı olmalıdır. Həm ölkə daxilindəki tədbirlər, eyni zamanda, bir çox beynəlxalq tədbirlər -

festivallar, müsabiqələr, qastrollar orada keçirilməlidir. Yəni, Şuşa nəinki Azərbaycanın, əminəm ki, bölgənin mədəniyyət paytaxtı adına layiq olacaqdır” [10.s.8-40]. Prezidentin fərmanı ilə yaradılan “Qarabağ Dirçəliş Fondu” Şuşanın sosial-iqtisadi quruculuq işlərinə güclü dəstək verir. Əlbəttə, bütün bu təşəbbüslərin önündə Birinci Vitse-prezident, H.Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın güclü fəaliyyəti dayanır.

“2021-ci il martın 31-də Türk Şurası toplantısında türkdilli dövlətlərin lideri, xüsusi olaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qarabağın, o cümlədən Şuşanın dirçəldilməsi üçün hər bir kömək göstərməyin vacibliyini qeyd edib [11, s.7]. Şuşanın Mədəniyyət paytaxtı, Türkdilli dövlətlərin Mədəniyyət Mərkəzi kimi elan olunması onun sosial-iqtisadi problemlərinin də həllini vacib edir. Prezidentin Şuşaya təyin etdiyi xüsusi nümayəndə tapşırıqlar almışdır ki, mədəniyyət tədbirləri Şuşada keçirilsin. Buna missal olaraq “Xarı bülbül” festivalını, Vaqif poeziya günlərini qeyd etmək olar. Şuşa işğaldan azad olan kimi düşmənin bu şəhərdə törətdiyi vəhşiliklər aradan qaldırılmağa başladı. Düşmənin güllələrə məruz qoyduğu heykəllər - Üzeyir Hacıbəylinin, Bülbülün ev muzeyi təcili şəkildə əvvəlki vəziyyətinə qaytarıldı. Dünyaca məşhur olan jurnalist Mixail Qusman Real tv-də jurnalist Mir Şahinlə müsahibəsində Şuşanı “muzeylər şəhəri” adlandırdı və bu şəhərə “Xarı bülbül” festivalında iştirakı zamanı gördüyü quruculuq işlərindən heyranlıqla danışdı. Bu müsahibəni təhlil edən bir yazıda deyilir: “Mixail Qusman müsahibəsində Azərbaycanın öz torpaqlarının azadlığı uğrunda apardığı Vətən müharibəsindəki qələbənin mahiyyətini Allaha şükranlıqla dilə gətirir, Prezident İlham Əliyev diplomatiyasının uğurları ilə bağlı fikirlərini xüsusi sevgi ilə söyləyir. Qusman Şuşanı "Rəmzlər şəhəri" adlandırır” [12,s.35]. Bütün bunlar artıq Şuşanın beynəlxalq miqyasda tanındığına sübutdur.

Bütün bunların fonunda “Şuşa bəyannaməsi” adlandırılan bir anlayış var. Bu bəyannamə 2021-ci il iyunun 25-də Mədəniyyət paytaxtımız Şuşa şəhərində rəsmi şəkildə imzalandı. Bu sənəd Azərbaycan-Türkiyə münasibətlərinin bir çox sahələrdə - o cümlədən hərbi, sosial-iqtisadi, siyasi sahələrdə birgəliyini rəsmiləşdirdi. “2021-ci il iyunun 15-də Şuşada Azərbaycan Respubilkasının Prezidenti İlham Əliyevin və Türkiyə Respubilkasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşündən sonar “Azərbaycan Respubilkası ilə Türkiyə Respubilkası arasında müttəfiqlik münasibətləri haqqında “Şuşa bəyannaməsi” imzalanıb” [13,s.36]. Bu sənədin mahiyyəti belədir: “Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Türkiyə və Azərbaycan qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək eyni mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi ilə yanaşı, həmçinin BMT, ATƏT, Avropa Şurası, TDƏŞ, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla, beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək verirlər.

Sənəddə birgə milli mənafelər baxımından siyasi, hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş və birgə fəaliyyətlərin təşviq edilməsi də xüsusi yer tutur. Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərməsi” xüsusi qeyd olunur. Yuxarıda qeyd etdik ki, Prezident İlham Əliyevin bir dövlət başçısı kimi Qarabağın yenidən dirçəlməsi planında Şuşa şəhəri öndə gedir. Prezidentin təklif etdiyi və həyata keçirilməsinə nail olduğu “Ağıllı kənd” konsepsiyası ilk növbədə Şuşa şəhərinə aid edilmişdir. “Şuşanın “Ağıllı şəhər” konsepsiyasında qurulması planı” ilə bağlı media platformasında özünü göstərən yazılar bu planın əsas mahiyyətini, o cümlədən sosial-iqtisadi məsələləri gündəmə gətirir [14,s.39]. Daha bir ciddi məsələ Prezidentin göstərişi ilə yaradılan “Şuşa ilə bağlı tədbirlər planı”dır. Azərbaycan Prezidenti 2022-ci il 5 yanvar tarixli Fərmanı ilə Nazirlər Kabinetinin ona təqdim etdiyi bu planı təsdiqləmişdir. 2021-ci il avqustun 29-da Prezident İlham Əliyev və Vitse-prezident Mehriban xanım Əliyevaya təqdim olunan “Şuşa şəhərinin baş planı” təsdiq edilib.

Göstərdiyimiz bu faktlar ölkəmizdə çox ciddi milli və ictimai maraq kəsb etdiyindəndir ki, bütün media sistemi-qəzetlər, telekanallar, xəbər portalları bu mövzuları prioritet və aktual məsələ kimi əsas səhifələrinə çıxarmış və 44 günlük Vətən müharibəsindəki müzəffər ordumuzun qələbəsindən sonra Prezidentimizin mədəniyyət paytaxtı adlandırdığı Şuşamızda planlı şəkildə inkişaf etdirilən sosial-iqtisadi quruculuğun bəhrəsindən qürur duyurlar.Hər şeydən əvvəl Vətən, hər şeydən əvvəl torpaq, xalq əmanəti.

Və müqəddəs Ramazan bayramı günlərinin Şuşa səfəri! Bu, bir tarix oldu. Prezidentimizin şəxsən öz ssenarisi və rəhbərliyi ilə ortaya qoyulan "Xarı bülbül" festivalının dirçəlməsi və bu formatda keçirilməsi ən böyük vətən sevgisi kimi qiymətləndirildi.

Şuşa duyğuları, Şuşa sözü, əslində, Vətən sözünün sinonimi kimi səslənirdi. "Xarı bülbül" festivalı Şuşa səfəri hamının yaradıcılığının zirvəsi kimi qəbul olundu.Hamısının vətən sevgisinə qoşuluruq və onlara yeni yaradıcılıq uğurları arzulayırıq" [15, s.2].

Beləliklə, faktlara diqqət etdikdə aydın şəkildə görürük ki, işğaldan azad olunmuş bütün torpaqlarımızda, o cümlədən doğma Şuşa şəhərindəki quruculuq planında sosial-iqtisadi məsələlər prioritet fəaliyyət kimi dövlətimizin-onun başçısı Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzindədir.

**Ədəbiyyat siyahısı:**


1. Cahangir Məmmədli, Mixail Qusman REAL TV-də "525-ci qəzet", 7 sentyabr 2022, s.7
2. Elmira Bayramova "Şuşanın "Ağıllı kənd" konsepsiyasında qurulması planı" "Yeni Müsavat" qəzeti, 29 aprel 2022, s. 8
3. Günel Mehdizadə "çağdaş Azərbaycan mediasında Vətənə sevgi motivləri", "525-ci qəzet", 17 may 2021, s.9
4. "Xalq qəzeti", 2 avqust 2022, s.4
5. Prezident.az 29 avqust 2021, s.6
6. "Şuşada xüsusi nümayəndə" "525-ci qəzet", 28 yanvar 2021, s.3
7. Tarixi Şuşa bəyənnaməsi "525-ci qəzet", 17 iyun 2021, s.2
8. "Türk Şurası toplandı" "Azərbayca" qəzeti, 1 aprel 2021, s.5
9. "Yeni Azərbaycan" qəzeti, 28 yanvar 2021, s.4
10. Zəfər yolu. 44 günlük Vətən müharibəsi zamanı Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışları səh. 8-40
11. Zəfər yolu. 44 günlük Vətən müharibəsi zamanı Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışları səh. 7-8
12. Zəfər yolu. 44 günlük Vətən müharibəsi zamanı Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışları səh. 35
13. Zəfər yolu. 44 günlük Vətən müharibəsi zamanı Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışları səh. 36.
14. Zəfər yolu. 44 günlük Vətən müharibəsi zamanı Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışları səh. 39
15. "525-ci qəzet", 22 iyun 2022, s.2.


---


**Babaşova Əfşan Ağazayıd**
Sumqayıt Dövlət Universiteti
Coğrafiya və onun tədrisi metodikası kafedrası, müəllim
**efsan_73@mail.ru**


## Şuşa şəhərinin sosial-iqtisadi inkişafinda turizmin rolu


**Xülasə**

Məqalə işğaldan yeni azad olunmuş torpaqlarımızda təsərrüfatın bərpasına və turizm-rekreasiya imkanlarının araşdırılmasına həsr edilmişdir. Məqalədə Şuşa şəhərinin təbii ehtiyatları, karvansara, qala və qəsrləri, tarixi memarlıq abidələri və turizm-rekreasiya potensialı təbii sərvətlərindən bəhs edilir. İşğaldan azad olmuş qədim mədəniyyət şəhəri Şuşanın kurort-rekreasiya potensialı, tarixi mədəniyyət abidələrinin zənginliyi, gözəl təbii-meşə landşaftları, müalicəvi suları, təmiz dağ havası,

dağlıq və düzən relyefi turizmin müxtəli növlərini inkişf etdirmək üçün xeyli geniş imkanlar açır. Qədim Alban tikililəri, Şuşa qalası və oradakı digər tarixi-memarlıq abidələri turizm obyektləri kimi qonaqpərvərlikdə çox mühüm əhəmiyyətə malikdirlər. Bu qiymətli tarixi-memarlıq abidələri Qarabağa səfər edənləri milli-mədəni və tarixi irsimizlə tanış etməklə onlarda əhatəli təəssürat yaratmış olacaqdır.

**Açar sözlər:** turizm-rekreasiya imkanları, iqtisadi-coğrafi rayon, tarixi-mədəni abidələr, təbii landşaft kompleksləri, təbii ehtiyat potensialı

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında cari ilin əvvəli 05 yanvar tarixində sərəncam imzalamışdır. Sərəncamda Şuşa şəhərinin yaranma tarixi, şəhərin işğaldan azad olunması və görüləcək bərpa işləri və həyata keçiriləcək layihələr haqda qısa məlumat verilir: "Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır. Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir."

Hazırda işğaldan təmizlənmiş ərazilərin bərpa edilməsi, bundan sonrakı dövrdə inkişafının təmin olunması, sənaye və sosial infrastrukturun yaradılması və ən əsası qaçqın əhalinin doğma torpaqlarına qayıtması istiqamətində tədbirlər həyata keçirilməkdədir. Həmin torpaqların zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədə müvafiqliyi ərazisi işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.

Şuşa şəhəri Azərbaycan Respublikasının yeni iqtisadi rayonları bölgüsündə Qarabağ iqtisadi-coğrafi rayonu (keçmiş Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonu) ərazisində təşəkkül tapır. Keçmiş Yuxarı Qarabağ (indiki Qarabağ iqtisadi rayonu) iqtisadi-coğrafi rayonu zəngin təbii sərvətlərə malikdir. Burada mühüm polimetal filiz yataqları, vulkanik mənşəli rəngarəng tikinti daşları yayılmaqla yanaşı, regionun mineral və müalicə suları, kurort-rekreasiya ehtiyatları kimi potensial iqtisadi inkişaf imkanları mövcuddur. Düşmən tapdağından azad olduqdan sonra iqtisadi bölgənin çox böyük inkişaf etmə potensialı vardır.

İşğaldan azad olmuş iqtisadi rayonlarımızın kurort-rekreasiya potensialı, tarixi mədəniyyət abidələrinin zənginliyi, gözəl təbii-meşə landşaftları, müalicəvi suları, təmiz dağ havası, dağlıq və düzən relyefi turizmin müxtəli növlərini inkişf etdirmək üçün xeyli geniş imkanlar açır. Qədim Alban tikililəri, Şuşa qalası və oradakı digər tarixi- memarlıq abidələri turizm obyektləri kimi qonaqpərvərlikdə çox mühüm əhəmiyyətə malikdirlər. Bu qiymətli tarixi-memarlıq abidələri Qarabağa səfər edənləri milli-mədəni və tarixi irsimizlə tanış etməklə onlarda əhatəli təəssürat yaratmış olacaqdır. Təbiət abidələri də elmi, tarixi, mədəni estetik əhəmiyyətə malik olub təbiəti mühafizə formalarından biridir.

Şuşa şəhərinin və onun ətrafının bolneoloji iqlimi, füsunkar şəfalı təbiət kompleksi yalnız Şuşadan deyil, onun ətraf ərazilərindən də sanatoriya-kurort, turizm məqsədləri üçün geniş istifadə etməyə tam imkan verir. Bütün bunlara əsasən Daşaltı yasaqlığının, Şuşa tarixi qoruğunun və şəhərdəki sanatoriyaların bazası əsasında Murovdağ milli parkının Şuşa sahəsini təşkil etmək çox faydalı tədbir olmalıdır. Belə milli park ərazidən sanatoriya-kurort kimi tam istifadə etməyə, təbii ərazi komplekslərini və qiymətli tarixi obyektləri qorumağa, rekreasiya və turizmi xeyli inkişaf etdirməyə, yerli təbii sərvətlərdən səmərəli istifadə etməyə tam imkan verərdi.

**Şuşanın təbii sərvətlərinin ermənilər tərəfindən məhv edilməsi.** Şuşa 1992-ci il mayın 8-də erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Ərazisinin 20 faizini meşələr təşkil edən Şuşa şəhərinin ümumi sahəsi 29356 hektardır. Şuşanın ətrafındakı meşə və dərələrdə müxtəlif müalicə əhəmiyyətli mineral sular, dərman bitkiləri və çiçəklər geniş yayılmışdır. Şuşa ərazisində təsdiq edilmiş ehtiyatları 1143 min kubmetr olan və işğala olunana qədər istismara cəlb edilən Şuşa üzlük daşı yatağı, ehtiyatları 397 min kubmetr olan kərpic-kirəmid istehsalına yararlı Keçəldağ gil yatağı,

istismar ehtiyatları 50 min kubmetr/gün olan Şuşa yeraltı şirin su yatağı, müalicəvi əhəmiyyətə malik 60 min kubmetr/gün və 25 min kubmetr/gün olan Şirlan və Turşsu mineral su yataqları vardır.

1988-ci ildə Şuşa və Əsgəran ərazisində nadir təbiət komplekslərini qorumaq üçün təşkil edilən Daşaltı Dövlət Təbiət Yasaqlığı 450 hektar ərazini əhatə edirdi. 1992-ci ildə işğala məruz qalan yasaqlıq hazırda tamamilə məhv edilmişdir. Şuşanın "Haça yal" adlanan sahəsində bitən 2000 ədəd palıd ağacı ermənilər tərəfindən doğranaraq aparılmışdır. Şuşanın Topxana meşəsinin qoruq zonasında meşə sahəsi qırılaraq geniş düzənlik açılmış və orada inşaat işləri aparılmışdır. Eyni zamanda, Şuşa şəhərindən cənubda, dəniz səviyyəsindən 1365 metr hündürlükdə yerləşən uzunluğu 114 metr olan "Xan Mağarası", 200-ə yaxın müxətlif növ iri diametrli çoxillik ağacları kəsilib amansızlıqla məhv edilmişdir.

**Şuşa şəhərinin relyef və coğrafiyası haqda qısa məlumat**. Ərazisi dağlıqdır (Qarabağ dağ silsiləsi). Ən yüksək zirvəsi Böyük Kirs dağıdır (2725m.). Rayonun şərq hissəsi Keçəldağ aşırımı ilə hüdudlanır. Əsasən, Yura və Tabaşir çöküntüləri yayılmışdır. Ərazinin əksər hissəsi qışı quraq keçən mülayim isti və qışı quraq keçən soyuq iqlim tiplərinə aiddir. Orta temperatur yanvarda -4 °C-dən, -1 °C-yə qədər, iyulda isə müsbət 16-19 °C, illik yağıntı 700-800 mm olur. Ərazisindən Qarqar çayı axır. Torpaqları əsasən, qəhvəyi dağ-meşə, çimli dağ-çəməndir tiplidir. Yüksək dağlıq sahədə subalp və alp çəmənlikləri ilə örtülüdür. Alçaq dağlıq və dağətəyi sahələrdə qırılmış meşələrin yerində çəmənlər və kserofit kolluqlar mövcuddur.

**Şuşa şəhərinin təbii ehtiyatları və təsərrüfatı haqda.** Şuşa üzlük daşı yatağı; ehtiyatları 397 min m3 olan kərpic-kirəmit istehsalına yararlı Keçəldağ (Lesoqor) gil yatağı; istismar ehtiyatları 389 min m3/gün olan Şuşa yeraltı şirin su yatağı; 342 min m3/gün və 70 min m3/gün olan Şrlan və Turşsu, İsa bulağı zəngindir. Əsas çayları Qarqarçayın qolları olan Zarıslı, Xəlfəli çaylarıdır. Heyvanat aləminə ayı, canavar, tülkü, boz dovşan, cüyür, kəklik, göyərçin və s. aiddirlər. Şuşanın ətrafındakı meşə və dərələrdə bunlardan başqa müxtəlif müalicə əhəmiyyətli mineral sular, dərman bitkiləri və çiçəklər geniş yayılıb. Müxtəlif növ tikinti materialı yataqları və xeyli irili-xırdalı mineral bulaqları var. Ən iri mineral bulaqları Turşsu və Şirlandır. Meşələrində şərq fıstığı, iberiya palıdı, qafqaz vələsi üstünlük təşkil edir. Çirişli dağının aşağı hissəsində dəniz səviyyəsindən 1160–1210 m yüksəklikdə yamacın şimal baxarında meşəlikdə bir-birindən təxminən 100 m-ə qədər aralı məsafədə 30-a yaxın şabalıd ağacları bitir. Burada şabalıd ağacları palıd — vələs meşəliyinin tərkibinə daxil olur. Meşə altında müxtəlif kol cinsləri — fındıq, murdarça, alça, göyəm, gərməşov, yemişan, əzgil, itburnu və s. bitir. Meşələrdə həmçinin vələs, ağcaqayın,gilas, göyrüş və palıd növləri yayılmışdır.

**Şuşa şəhərinin tarixi memarlıq abidələri və turizm-rekreasiya potensialı təbii sərvətləri** ilə də zəngindir. Daşaltı Dövlət Təbiət Yasaqlığı, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu və s.. Dini-tarixi abidələrindən: Alban kilsəsi, Rus kilsəsi, Hacı Yusifli məscidi(XVIII), "Çöl Qala"məscidi(XVIII əsr), Xoca Mərcanlı məscidi(XVIII əsr), Quyuqluq məscidi(XVIII əsr), Seyidli məscidi(XVIII əsr), Mərdinli məscidi(XIX əsr), Aşağı Gövhər məscidi(1874–1875), Culfalar məscidi(XIX əsr), Yuxarı Gövhər Ağa məscidi (XIX əsr), Mamay məscidi(XIX əsr), Köçərli məscidi(XIX əsr), Malıbəyli məscidi, Qaybalı məscidi, Şırlan məscidi və s.. şəhərin ən məşhurlarıdır. Tarixi memarlıq abidələrindən: Qala divarı (uzunluğu 8 kilometr), Qala divarı üzərində tikilmiş bürclər (17 ədəd), qədim üslubda salınmış 17 məhəllə, Turşsu Qalereyası, Karvansara (4 ədəd), Gəncə qapısı, Əfsanəvi Leyli qalası, Molla Pənah Vaqifin poeziya evi, Molla Pənah Vaqifin məqbərəsi, Xan qızı Xurşudbanu Natəvanın sarayı, Xan qızı Xurşud Banu Natəvanın tikdirdiyi "Qarama", Gövhər Ağa məscidini və başqalarını misal göstərmək olar. Karvansaralarından: İkimərtəbəli karvansara (1888–1889-cu illər), Zarıslıda Korun və s.. tarixi əhəmiyyətli karvansaraları mövcuddur. Şuşa şəhərinin qədim qəsrləri və qalaları da çoxdur**.** Ən məşhur qalaları:"Pənahabad" Şuşa qalası (1750–1757-ci illər), Leyli qayası, Bayat qalası(1748-ci il), Şahbulaq qalası və s.. Muzeylərindən Xalça muzeyini, Tarix-diyarşünaslıq muzeyini, Qarabağ dövlət tarixi muzeyi, Rəsm qalereyası və s.. ən məşhurlarıdır. Turizm sektorunun inkişafı üçün geoloji təbii muzeylər də gələn qonaq turistlər üçün maraqlı yerlərdən olacaqdır. Geoloji təbiət abidələri: Daşaltı kəndində karst mağaraları, Şuşada Şahnəzər mağarası, Şuşa şəhəri yaxınlığında Daşaltı kanyonu, Böyük Kirs dağı, Keçəldağ aşırımı, Üçmıx dağı və s.. gələcəkdəki turistlərimiz üçün maraqlı təbiət muzeyləridir. Zəngin tarixilik baxımından arxeoloji abidələrin də xarici ölkələrdən gələn turist və qonaqlarımızın böyük marağına səbəb olacaq məkanlardan biridir. Arxeoloji abidələrdən: Şuşa Şahnəzər mağarasının (uzunluğu 125 m, eni 20 m,

hündürlüyü 10m), Mağaradan Paleolitə aid iki kobud daş çapacaq, Mezolitə aid mikroiit bıçaqlar, b.e.ə. V–IV minilliyə aid Eneolit gil qablar, Tunc, Dəmir Dövrləri və orta əsrlərə aid saxsı məmulat qalıqları, müsəlman qəbri tapılmışdır. Bunlar qədim tarixi məkan turizmi səyahətçiləri üçün çox qiymətli nümünələrdir. Tarixi-mədəni abidələrə Daşaltı kəndində müdafiə qalası, İbrahimxəlil xanın tikdirdiyi sığınacaq evi (XVIII əsr), tövlə, hamam qalıqları və s.. nümünələri göstərmək olar.

**Nəticə**

Bu baxımdan işğaldan azad edilən torpaqlarımızda, həm Şuşa kimi qədim tarixi və musiqi mədəniyyəti ocağı olan şəhərimizin milli-mədəni sərvətlərini, təbii coğrafi obyektlərini də beynəlxalq turist marşrutlarına daxil etməklə ərazinin inkişafına, çiçəklənməsinə və iqtisadi-sosial inkişafına nail olmaq olar. Burada dağ-idman turizmi, ekoloji turizm, ekskursiya turizmi, müxtəlif mədəniyyətləri öyrənmək məqsədli ziyarət turizmi, istirahət-kurort məqsədli rekreasiya turizmi və s. turizm növlərini inkişaf etdirmək üçün fürsət yaranmışdır. Təbii, sosial-mədəni, tarixi-memarlıq, sağlamlıq kimi sadalanan turizm resurslarının bolluğu və məcmusu bölgəni turizm regionuna çevirmək imkanları açacaqdır. Xüsusi estetik sərvət olan səciyyəvi nadir təbii landşaftların həm qorunması həm də istirahət-kurort kimi istifadəsi üçün milli parkların yaradılması da vacib məsələlərdən biridir. Yeni azad olunmuş iqtisadi rayonlarımızda yaradılması vacib olan mill parklar xüsusi mühafizə olunacaq yerlərin relyefini, bitki və heyvanat aləmini, həmin yerlərdəki nadir təbii kompleksləri, tarixi mədəniyyət abidələrini qorumaqla yanaşı, ərazidə əhalinin və gələn turist qonaqların istirahətini təşkil etmək və onlara xidmət göstərməklə yeni iqtisadi imkanlar açmış olacaq. Turizm sektorunun Suşa şəhəri kimi qədim tarixi-mədəni diyarda inkişafı ilkin olaraq sənaye və sosial infrastrukturun həmin ərazilərdə ən birinci növbədə isə Qarabağ iqtisadi-coğrafi rayonununda bərpa edilməsindən sonra turizm infrastrukturunun yaradılmasından başlayır. Qaçqın və məcburi köçkünlərin azad olunmuş ərazilərimizə qaytarılmasından sonra regionda kənd turizminin inkişafı üçün də xeyli imkanlar yaranacaqdır. Bu həm də orda yaşayacaq əhalinin maddi gəlirlərinin də artmasına fürsət verəcək və həmin ərazilərdə daha sıx məskunlaşmasını stimullaşdıracaqdır.

**Ədəbiyyat siyahısı:**


1. Babaşova Ə. A., İşğaldan azad edilmiş ərazilərimizdə turizm və rekreasiya potensialının inkişaf istiqamətləri. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Qarabağın tarixi: siyasi, iqtisadi, mədəni aspektlər-Beynəlxalq Elmi Konfransın materialları, SDU-2022. 510s. səh.309-312, https://www.ssu-conferenceproceedings.edu.az
2. İbrahimov T.O., Azərbaycanın qoruq və yasaqlıqları. Dərs vəsaiti. Bakı-2019. 392s. səh.51-63.
3. Zəfərimizin təntənəsi - 2022-ci il Şuşa ilidir., Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, metodik vəsait. Azərbaycan Milli kitabxanası., Bakı-2022, 42 s.[1]
4. Soltanova H.B., Hüseynova Ş.H., Turizmin əsasları. BDU. Dərs vəsaiti. Bakı-2007. 316s. səh.6-10.
5. https://az.wikipedia.org/wiki/%C5%9Eu%C5%9Fa_rayonu
6. http://www.shusha-ih.gov.az/az/page/13.html
7. http://anl.az/down/SHUSHA.pdf, Turizmlə bağlı məlumat bazası. səh.65
8. https://azertag.az/xeber/18_ILDIR_KI_SUSANIN_TABII_SARVATLARI_ERMANILAR_TARAFINDAN_DAGIDILIR-477792
9. https://az.trend.az/azerbaijan/karabakh/1872179.html



**Babashova A.A.**

**Abstract**

**The role of economy and tourism in the socio-economic development of Shusha city**

The article is dedicated to the restoration of the economy in our newly freed lands from occupation and to the investigation of tourism and recreation opportunities. The article talks about the natural resources of Shusha city, caravansary, castles, historical architectural monuments and tourism-recreational potential natural resources. The resort-recreational potential of Shusha, an ancient cultural city freed from occupation, the wealth of historical cultural monuments, beautiful natural-forest landscapes, healing waters, clean mountain air, mountainous and plain terrain open up a lot of opportunities for the development of various types of tourism. Ancient Albanian buildings, Shusha Castle and other historical-architectural monuments there are very important in hospitality as tourist

objects. These valuable historical-architectural monuments will make a comprehensive impression on the visitors to Karabakh by introducing them to our national-cultural and historical heritage.

**Keywords:** tourism-recreation opportunities, economic-geographic region, historical-cultural monuments, natural landscape complexes, natural resource potential

**Бабашова А.А.**

**Резюме**

**Роль экономики и туризма в социально-экономическом развитии города Шуша**

Статья посвящена восстановлению хозяйства на наших вновь освобожденных от оккупации землях и исследованию туристско-рекреационных возможностей. В статье рассказывается о природных богатствах города Шуши, караван-сарая, замков, исторических памятников архитектуры и туристско-рекреационного потенциала природных ресурсов. Курортно-рекреационный потенциал Шуши, освобожденного от оккупации древнего культурного города, богатство историко-культурных памятников, красивые природно-лесные ландшафты, целебные воды, чистый горный воздух, горно-равнинный рельеф открывают широкие возможности для развития различные виды туризма. Древние Албанские постройки, Шушинский замок и другие историко-архитектурные памятники имеют большое значение в сфере гостеприимства как туристические объекты. Эти ценнейшие историко-архитектурные памятники произведут на гостей Карабаха всестороннее впечатление, познакомив их с нашим национально-культурным и историческим наследием.

**Ключевые слова:** туристско-рекреационные возможности, экономико-географический район, историко-культурные памятники, природно-ландшафтные комплексы, природно-ресурсный потенциал

---

**Həsənova Cəmilə Vaqif qızı,** t.ü.f.d.
Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC
cemile.hasanova@unec.edu.az

## Turizm və rekreativ zonaların qurulmasında ŞUŞA şəhərinin əvəzsiz rolu

**Xülasə**

Məqalədə Azərbaycanın ayrılmaz diyarlarından biri olan, Qarabağ torpaqlarının baş tacı Şuşa şəhərindən danışılır. Tarix boyu düşmənlər hər cəhdlə Şuşa şəhərini ələ keçirməyə çalışırdılar. Bunun səbəbi Şuşa şəhərinin əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi mədəniyyət nümunələri ilə əhatə olunmasıdır. 30 illik həsrətdən sonra biz yenidən öz doğma diyarlarımıza qovuşduq. İndi isə qarşıda duran məqsəd bu torpaqları yenidən dirçəltmək və hər kəsin üzünə açıq etməkdir. Bildiyimiz kimi, Qarabağ torpaqları qədim yaşayış məntəqələri və qəbir abidələri ilə zəngindir. Bu abidələri, tarixi məkanları bərpa edərək bu əraziləri tarixi turistik məkanlara çevirmək mümkündür. Məqalədə bu yaşayış və qəbir abidələri haqqında məlumat veriləcək. Şuşa şəhərinin potensialı və tarixindən, eyni zamanda müalicəvi məkan olaraq əhəmiyyətindən danışılacaq. İşğaldan azad edilmiş rayonlarda dövlətin mühüm idarəetmə strukturlarının fəaliyyətinin bərpası, bu ərazilərdə başlanmış yol infrastruktur işləri, hidroenergetika və meliorasiya məqsədi ilə Xudafərin ərazisindəki su anbarlarından istifadə, Füzulidən Şuşaya 101 kilometrlik yolun və Füzuli aeroportunun tikilib istifadəyə verilməsi üçün vəsaitin ayrılması Azərbaycan Respublikasının Prezudentinin Sərəncamı ilə həyata keçirilir.

### Giriş

2020-ci il noyabrın 8-də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə cəsarətli ordumuz tərəfindən tarixi, mədəni və strateji əhəmiyyətə malik olan, Qarabağın baş tacı Şuşa şəhərinin işğalçılardan azad edilməsi tarixi bir faktdır. Azərbaycanın ordusunun Qarabağ diyarında başladığı və 44 gün ərzində apardığı uğurlu əks-hücum əməliyyatları sırasında ən mühüm tarixi hadisə və böyük hərbi qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə qədim Şuşa şəhərinin rəşadətli

ordumuz tərəfindən işğaldan və işğalçılardan azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə həlledici təsir göstərdi. Məhz bu gün tariximizə Zəfər günü kimi yazıldı.

Azərbaycan Respublikasının Prezidenti, Cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə cəsarətli Azərbaycan Ordusu 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün Vətən müharibəsinin 44 günü ərzində beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini - öz ərazilərini azad etmək hüququnu əldə rəhbər tutaraq uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirtdilər. Düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifologiyasını dağıtmaqla yanaşı, yalan üzərində qurulmuş bütün təbliğat şüarlarına ağır zərbə vurdular. Bu da son nəticədə Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi. Dövlət başçısı İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində biz hərb meydanında olduğu kimi, həm də diplomatiya meydanında da qalib gəldik.

**Qədim yaşayış məskəni kimi - Şuşa mağara düşərgəsi**

Azərbaycanın Qarabağ ərazisində aparılan kompleks arxeoloji tədqiqatlar nəticəsində qədim dönəmə dair zəngin maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Dünya əhəmiyyətli arxeoloji abidə, dünyada dördüncü tapıntı sayılan Azıx mağara düşərgəsi Xocavənd rayonunun Azıx kəndində, Tuğ çökəkliyində, Quruçayın sol sahilində dəniz səviyyəsindən 900 metr, çayın müasir yatağından 100 - 120 metr yüksəklikdə yerləşir. 1968-ci ilin iyun ayında Azərbaycanın arxeoloq alimi M.M.Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası Azıx mağara düşərgəsinin V təbəqəsinin III layında daş məmulatı və heyvan sümükləri ilə bərabər qədim insana məxsus 350-400 min il yaşı olan alt çənə sümüyü aşkar edilmişdir.

Bu baxımdan, davamlı aparılan elmi tədqiqatlar zamanı Azərbaycanın Qarabağ ərazisində ən qədim ibtidai insanların uzun müddət məskən salıb, formalaşması elmi əsaslarla sübuta yetirilmişdir. Bu heç də təsadüfi deyil. Çünki, Azərbaycanın bu diyarı bol sulu çaylar ilə, təbii bulaqlar ilə, meşə örtükləri ilə zəngindir. Tarixə nəzər salsaq, görərik ki, qədim Şuşa şəhəri də zəngin və şanlı tarixi keçmişə malikdir. Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən məşhur Cıdır düzündəki Şuşa mağarasını (Üçmıx dağında) misal göstərə bilərik. Hansı ki, bu ərazi Azərbaycannın ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir. Şuşa ərazisində qədim insanların 200-250 min il bundan əvvəl yaşamağa başlamaları və bu diyarın qədim sivilizasiya mərkəzlərindən biri olması sübuta yetirilmişdir.

Azərbaycanın arxeoloq alimi M.M.Hüseynovun rəhbərliyi altında 1971-1975-ci illərdə Mil-Qarabağ arxeoloji ekspedisiyası Qarabağın dağlıq hissəsində paleolit düşərgələrini aşkar etmək üçün bu ərazilərdə arxeoloji tədqiqat işləri aparmışdırlar. Aparılan arxeoloji qazıntılar nəticəsində Şuşa şəhəri yaxınlığında, Cıdır düzünün aşağı hissəsində paleolit mədəniyyətinə aid qədim insan düşərgəsi aşkar olunmuşdur. Bu da bir daha Şuşa şəhərinin qədim mədəniyyət ocaqlarından olduğunu sübuta yetirir. Paleolit mədəniyyətinə aid maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Bunlar daş məmulatı içərisində 4 ədəd kobud çapma aləti, 5 ədəd qaşov tipli alət, 2 ədəd mustye və levallua itiucluları və 6 ədəd qəlpə tapılmışdır. Düşərgənin daş məmulatı içərisində 7 ədəd istehsal tullantısı da qeydə alınmışdır. Bu isə düşərgənin qədim sakinlərinin əmək alətlərini mağarada hazırladıqlarını göstərir.

Düşərgə Şuşa şəhərinin ərazisində tapılmışdır. Bu üzdən mağaraya Şuşa mağarası adı verilmişdir. Mağara Daşaltı çayının sol sahilində, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə, çayın müasir yatağından 80 metr hündürlükdə yerləşir. Düşərgənin eni 20, uzunluğu 100, hündürlüyü isə 7 metrə bərabərdir. Şuşa mağarasında aparılan tədqiqatlar zamanı çöküntülərdə 5 təbəqə müəyyən olunmuşdur. Deməli, qədim Şuşa ərazisində olan mağara düşərgəsində ibtidai insanlar hələ qədim dönəmdən buraya məskunlaşmışdılar və bu mağarada həyat durmadan davam etmişdir. Düşərgədə aparılan arxeoloji qazıntılar zamanı daş məmulatı ilə yanaşı, ovlanmış heyvan sümükləri də tapılmışdır. Bu da düşərgədə yaşayan qədim insanların ovçuluqla məşğul olmalarını göstərir. Maraqlıdır ki, Şuşa mağarasının qabağında və ətraf ərazilərdə antik dövrə aid qala divarlarının qalıqları aşkar olunmuşdur. Demək ki, mağarada insanlar antik dönəmdə də istifadə etmişlər. Buna dair yazılı mənbələrdə var.

İngilis səyyah və alimləri C.Morye və R.Burter Şuşanın qədimliyi ilə bağlı dəyərli fikirlər söyləmişlər. C.Moryenin fikrincə, Şuşa hələ eradan əvvəl insan məskəni olmuşdur. Tarixi mənbələrdə Şuşanın hətta XIII əsrdə də Azərbaycanın məşhur şəhərlərindən biri olması haqqında faktlar vardır.

**Qarabağ xanlığının paytaxtı Şuşa şəhəri və Şuşa qalası**

Şuşa qalası uzun illər boyu Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur. Bu da heç də təsadüfi deyil. Qarabağ xanlığının əsasının qoyulması və Şuşa şəhərinin onun paytaxtına çevrilməsi Pənahəli xanın (1748-1763) adı ilə bağlıdır. Qarabağ xanı Pənahəli xan Cavanşirlər tayfasının Sarıcanlı oymağından idi. Bu Azərbaycan tayfası Qarabağın qədim sakinlərindən olmuş və uzun müddət bölgənin ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Pənahəli xan xanlığın sərhədlərini qorumaq üçün qalalar inşa etdirmişdir. Şuşa qalasının salınması 1750-1751-ci illərdən başlanılmışdır. Tarixi mənbələrə görə, 1750-ci ildə hündür, sıldırım dağ üstündə qalanın inşasına başlandı və 1756-1757-ci illərdə tikilib başa çatdırıldı. Şuşa qalası inşa edildikdən sonra Qarabağ xanı Pənahəli xan Şuşanı paytaxt elan edib, oranı möhkəmləndirmişdir. Qalanı-şəhərə çevirmişdir. Şəhər bir müddət Pənahəli xanın şərəfinə "Pənahabad", sonradan isə "Şuşa qalası" və "Şuşa" adlandırılmışdır.

XVIII əsrin ikinci yarısından başlayaraq şəhərin əhalisi sürətlə çoxalmış və Şuşa Azərbaycanın mühüm, strateji əhəmiyyətli şəhərlərindən birinə çevrilmişdi. Hələ Pənahəli xanın dövründə şəhərdə böyük tikinti işləri aparılmış, sonra İbrahimxəlil xanın (1763-1806-cı illər) dövründə isə Qarabağ xanlığı daha da gücləndi. Xanlığın ərazisində Əsgəran, Ağoğlan qalaları, Şuşa qalasının divarları və s. diqqətəlayiq, strateji əhəmiyyətli qalalar tikilmişdi. Bu da təsadüfi deyildi. Çümki yadelli yürüşləri, işğallardan qorunmaq üçün Qarabağ xanları şəhərin müdafiəsinə xüsusi diqqət yetirirdilər.

Şəhər qısa müddət ərzində xeyli böyümüş, təbii gözəlliyi, hündür binaları və möhtəşəm qala divarları ilə diqqəti cəlb etmişdir.

Şəhərdə 17 məhəllə mövcud idi. Hər məhəllənin özünün məscidi, bulağı və hamamı mövcud olmuşdur. Bu məhəllələrin salınması Pənahəli xanın hakimiyyəti illərində (1747-1763) başlanılmış, daha sonra İbrahimxəlil xanın dönəmində də davam etmişdir. Belə ki, şəhərin salınmasının ilkin mərhələsində şəhərin relyefinə uyğun olaraq "Aşağı məhəllə" adlandırılmışdır. "Aşağı" məhəllə 9 məhəllədən təşkil olunmuşdur: Seyidli, Çöl Qala, Çuxur Məhəllə, Quyuluq, Dördlər Qurdu, Qurdlar, Merdinli, Hacı Yusifli, Culfalar. Şuşanın bir şəhər kimi formalaşmasının ikinci mərhələsi İbrahimxəlil xanın hakimiyyəti illərinə (1763-1806) təsadüf edir. Bu mərhələdə "Yuxarı məhəllə" adlanan ikinci məhəllə formalaşmışdı. "Yuxarı" məhəllə 8 məhəllədən təşkil olunmuşdur: Saatlı, Mamayı, Köçərli, Xocamircanlı, Ağadədəli, Dəmirçilər, Təzə Məhəllə, Hamamqabağı.

**Şuşa - şəhərsalma mədəniyyətinin nadir nümunəsi kimi**

Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biridir. Eyni zamanda Şuşa iqtisadi əlaqələrin inkişafı üçün zəmin yaradan əsas şəhərlərdən biridir. Şuşada "Bazarbaşı" deyilən yerdən "Şeytanbazara" qədər uzanan üstüörtülü ticarət mərkəzi və şəhərin əsas küçəsi "Rastabazar" adlandırılırdı. "Rastabazar" sıra ilə düzülən və daşları bir-birinə qurğuşunla bərkidilən sütunlardan ibarət idi. Üzəri örtülü olduğundan ilin bütün fəsillərində quru və təmiz qalırdı. Küçənin ortası ilə nəqliyyat vasitələri hərəkət edirdi. Orta əsr Şərq üslubunda zövqlə tikilən bu bazar həm də şəhərə xüsusi gözəllik verirdi. Şuşanın ticarət mərkəzinin bənzərsiz görkəmi ona bitişik olan iri bazar meydanı ilə tamamlanırdı. Şəhərin "Meydan" deyilən əsas meydanı "Rastabazar" küçəsi boyunca tikilmiş ibadətgah və ticarət tikililərdən, birmərtəbəli dükanlardan, ikimərtəbəli karvansaraydan və qoşa minarəli yaraşıqlı Cümə məscidindən ibarət idi. XX əsrin əvvəllərində şəhərdə 1464 dükan qeydə alınmışdı ki, bunların da bazarlarla birlikdə illik ticarət dövriyyəsi 6 milyon rubla çatmışdı.

XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni, iqtisadi və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. XVIII əsrin 80-ci illərində şəhərin dövrəsinə möhtəşəm qala divarları çəkilib başa çatdırıldı. Bu dövrdə şəhərdə çoxsaylı sənətkar məhəllələri yaranır, ticarət daha sürətlə inkişaf edirdi. Şuşalı tacirləri dünyaca məşhur idilər. Belə ki, onlar Təbriz, Tehran, İsfahan, İstanbul, Bağdad, Səmərqənd, Moskva, Leypsiq, London, Mançester, Marsel və başqa şəhərlərlə ticarət əlaqələri saxlayırdılar. Şəhərdə "Pənahabadi" adlı gümüş sikkələr zərb edilirdi. Bu da xanlığın azad, müstəqil şəkildə idarə edilməsini bir daha sübuta yetirirdi.

Qeyd etmək lazımdır ki, XVIII əsrin sonu - XIX əsrin əvvəllərində artıq Şuşada çoxlu sayda manufakturalar və 2 mindən çox sənətkar fəaliyyət göstərirdi. 1809-cu ilin məlumatına görə, o dövrdə Şuşada 1500 toxucu dəzgahı fəaliyyət göstərirdi. Bu da ən azı 1500 sənətkar demək idi. XIX əsrin 60-cı illərində Şuşada ipəksarıma fabrikləri fəaliyyət göstərməyə başladılar. Əgər ilk əvvəl onların illik ticarət gücü 78 milyon rubla bərabər idisə, çox keçmədən həmin müəssisələrin illik istehsal gücü 117 milyon rubla çatmışdı.

Artıq XX əsrin əvvəllərində Şuşa şəhəri haqqında xarici mətbuatlarda da yazmağa başladılar. 1903-cü ildə Tiflisdə nəşr olunmuş “Vestnik Kavkaza” jurnalının 43-cü səhifəsində qeyd edilirdi ki, “Şuşanın görünüşü orta əsr Avropa şəhərlərini xatırladır. Bu şəhərin tacirləri

ipək-barama alverində üstün mövqeyə malik olub, Tiflis, Moskva və Marsel şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırlar”. Bundan əlavə, “Qafqaz” qəzetinin icmalçısı 1868-ci il 24 may tarixli şərhində göstərirdi: “Şuşa gündən-günə yox, saatdan-saata böyüyür, onun ticarəti inkişaf edir, şəhər əhalisi varlanır. Buraya hər tərəfdən dəstə-dəstə adam axışıb gəlməkdədir. Beləliklə, şəhərdə 25 min əhalinin yaşadığını cəsarətlə söyləmək olar”.

1873-cü ildə Vyana şəhərində beynəlxalq sərgi açılmışdır. Həmin sərgidə Şuşanı təmsil edən nümayəndələr sərgidə nümayiş etdirdikləri eksponatlar xaricilərdə dərin maraq oyatmışdı. 1882-ci ildə İ.Drozdov “Kavkazski sbornik” kitabında yazırdı: “Şuşa Yelizavetpol quberniyasının qabaqcıl şəhərlərindəndir. O, ticarətdə və gözəllikdə Tiflislə rəqabət aparır. Yelizavetpol əyalətində yaşayan 625 min 599 insanın 24 min 522 nəfəri Şuşanın payına düşür”.

Bununla yanaşı, Şuşanın gözəl təbiəti, əlverişli coğrafi mövqeyi, xüsusilə çox mühüm strateji əhəmiyyətli qala olmasını bir sıra tədqiqatçılar dəfələrlə bildirmişlər. Məşhur klimatoloqlar Şuşa şəhərinə səyahət etmişdilər. Səyahət etməkdə məqsəd buranın iqlimini, fauna və florası öyrənmək idi. Dəniz səthindən 1403 metr hündürlükdə yerləşən mühüm əhəmiyyətli şəhərin iqlim şəraitini, fauna və florasını dəqiq yoxladıqdan sonra mülayim təbiətli Şuşanın böyük müalicəvi əhəmiyyətli bir şəhər olduğunu söyləmişdilər. 1854-cü ildə şəhərdən cənubda, 18 kilometr aralı “Turşsu” deyilən səfalı guşədə mədən suyunun çıxması da alimlərin mülahizəsini doğrultdu. Şuşa havasının təmizliyi, saflığı və müalicə əhəmiyyəti baxımından kurort şəhəri kimi tanınmışdır. Bu baxımdan, nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da Şuşa öz səfalı yerləri, istirahət guşələrinə görə məşhur idi. Bu üzdən bu gün yenidən Şuşa şəhərini bərpa edərək həm müalicəvi məkan kimi, həm də tarixi turistlik bir yer kimi dünya dövlətlərinin üzünə açıla bilər.

Şuşa dağları xüsusi gözəlliyi ilə seçilir. Eyni zamanda bu dağlarda dünyanın heç bir yerində bitməyən “Xarı bülbül” adlı gül bitir. Bu endemik gül həm gözəl, həm də müalicəvi əhəmiyyət kəsb edir. Bu gül may-iyun aylarında çiçək açır. Bu nadir çiçəyə ən çox Cıdır düzündə, Topxana meşəsində, Üçmıx zirvəsində, dağ yamaclarında, çay kənarlarında rast gəlinir. Qəribəsi budur ki, bu gül yalnız Şuşa dağlarında bitir.

**Şuşanın görkəmli şəxsiyyətləri**

Azərbaycanın qədim diyarı yalnız gözəlliyi, iqlimi, təbii-coğrafi şəraiti ilə deyil, həm də yetişdirdiyi görkəmli şəxsiyyətləri ilə də məşhurdur. Artıq XIX əsrin ikinci yarısında Şuşa şəhər əhalisinin sayı tanınmış alim və sənətkarlar da daxil olmaqla 25 minə çatmışdı. Azərbaycan Milli Elmlər Akademiyasının məlumatına görə, təkcə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Bu böyük ziyalı təbəqəsi, Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə, burada elmi, təhsili və mədəniyyəti inkişaf etdirməkdə çox böyük rol oynamışlar.

Şuşa şəhəri Azərbaycanın tanınmış elm və mədəniyyət xadimlərinin vətəni hesab edilir. Heç də təsadüfi deyildir ki, Xurşidbanu Natəvan, Molla Pənah Vaqif, Mir Möhsün Nəvvab, Əbdürrəhim bəy Haqverdiyev, Qasım bəy Zakir, Süleyman Sani Axundov, Nəcəf bəy Vəzirov, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Həmidə xanım Cavanşir, Bədəl bəy Bədəlbəyli, Əhməd bəy Ağayev, Ceyhun bəy Hacıbəyli, Səməd bəy Mehmandarov, Fərəc bəy Ağayev, Yaqub Quliyev və onlarla dünya şöhrətli xadimlərin məhz Şuşa diyarının yetirmələridirlər.

Şuşa şəhəri eyni zamanda XVIII əsrin II yarısından musiqi mərkəzinə çevrilmişdir. Həmin dönəmdə məhz bu şəhər Azərbaycan musiqisinin yüksəlişinə səbəb olmuşdur. Hacı Hüsü, Məşədi İsi, Əbdülbaği Zülalov (Bülbülcan), Cabbar Qaryağdıoğlu, Məşədi Məmməd Fərzəliyev, Keçəçi oğlu Məhəmməd, Sadıqcan, Məşədi Zeynal, Məşədi Cəmil Əmirov, Əhməd Ağdamski, Segah İslam, Zabul Qasım, Məcid Behbudov, Mütəllim Mütəllimov, Xan Şuşinski, Qurban Pirimov, Seyid Şuşinski, Bülbül, Rəşid Behbudov və digər görkəmli nümayəndələri bütün Yaxın Şərqdə məşhur olan xanəndə və sənətkarlardır.

Şuşa eyni zamanda orada doğulmuş, bütün dünyada şöhrət qazanmış bəstəkarların vətəni kimi də məşhurdur. Belə ki, Azərbaycan musiqi mədəniyyəti tarixində yeni bir mərhələnin əsasını qoymuş Üzeyir bəy Hacıbəyovun adı ilə bağlıdır. Üzeyir bəy dahi bəstəkar, Azərbaycan opera musiqisinin banisi olmaqla yanaşı, istedadlı publisist və ictimai-siyasi xadim kimi də tanınmışdır. Bundan əlavə,

Fikrət Əmirov, Zülfüqar Hacıbəyov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Zakir Bağırov, Mehdi Məmmədov, Süleyman Ələsgərov eləcə də, görkəmli rəssam və memarlardan Lətif Kərimov, Cəlal Qaryağdı, Nadir Əbdürrəhmanov, Toğrul Nərimanbəyov və bir çox başqa xadimlərin Azərbaycan mədəniyyətində müstəsna rol oynamışdılar.

**Nəticə**

Şuşa şəhəri Azərbaycanın ən qədim yaşayış məkanlarından biridir. Bunu sübut edən məqalədə qeyd edilən kimi qədim mağaralar və yaşayış məskənləri mövcuddur. Şuşa elə qədim dönəmlərdən müasir dönəmə kimi qəhrəmanlar diyarıdır. Tarix boyu Azərbaycan xalqı Şuşa şəhərinin azadlığının qorunması üçün vuruşub. Biz bunu bir daha 44 günlük II Qarabağ müharibəsində sübuta yetirdik. Heç də təsadüfi deyil ki, məhz Şuşa şəhərinin azad edilməsi ilə mənfur düşmənlər sülh istədilər. Bu tarixən belə olub. Şuşa şəhərinin azad edilməsi bütün Qarabağ torpaqlarının taleyini həll edirdi.

Bu gün biz Şuşa şəhərinin qədim abidələrini, yaşayış və qəbir abidələrindən istifadə edərək dünya dövlətlərini bu əraziyə gəlmələrinə maraq yarada bilərik. Dünyanın 4-cü tapıntısı məhz Qarabağ torpaqlarında Azığ mağarasında olmuşdur. Kurqan abilərini açıq muzey kimi insanlara təqdim etmək bizim torpaqlarımızın bir daha qədimliyini sübuta yetirəcək.

Eyni zamanada Şuşa şəhəri müalicəvi məkan kimi də istifadə edilə bilər. Kəlbəcər və Şuşa şəhərlərində mövcud olan müalicəvi sular buranın müalicəvi potensialını bir daha yüksəldir. Ən əsası bu torpaqlar bizimdir və daimada bizim olaraq qalacaq.

**Ədəbiyyat siyahısı:**


1. Ashurov S., Bakhsaliyev V., Ristvet L. 2009/ The chronology of Kura-Araxes Sites. International Symposium. Baku, p. 82-84.
2. Javakhishvili A.I. 1973/ Construction and architecture of the South Caucasus settlement V-III millennium BC NS. Tbilisi: Metzinereba, 24 p.
3. Jafarov G.F. 1986/ Archaeological research in the basin of the Terterchay river // AEIA (1980-1981). Baku, p. 56-61.
4. Jessen A.A. 1965/ Excavations of a large burial mound in the Uch-tepe tract // MIA SSSR, No. 125, Moscow-Leningrad: Nauka, p. 153-192.
5. Jafarov H.F. 2000/ Azerbaijan the end of the 4th millennium BC At the beginning of the first millennium. Baku: Elm, 187 p.
6. Jafarov H.F. 1985/ The Early Bronze Age barrow in Borsunlu. / Azərb. SSR EA News (history, law, philosophy series). Baku, № 3, p. 79-88.
7. Joan Aruz. 2009/ Art of the first cities. New York, 540 p.
8. Ilknur Ozgen, Jean Ozturk. 1996/ The Lydian Treasure. Istanbul, 247 p.
9. Eric H.Cline 2012/ The Oxford Handbook of. The Bronze Age Aegean. USA, 930 p.
10. Hasanova J.V. 2016/ Early bronze age cremation ceremony burial in Borsunlu. Nice knowledge, collection of articles, XIII international conference Kharkiv, Ukraine, May 19, p. 16-18.
11. Hummel Ya.I. 1939/ Excavations in the Nagorno-Karabakh Autonomous Region in 1938 // Az FAN USSR, No. 4, pp.77-89.
12. Hummel Ya.I. 1948/ Some monuments of the early Bronze era of Azerbaijan // Brief reports of the Institute of the History of Material Culture (KSIIMK). no. XX, p. 15-28.
13. Kushnareva K.Kh. 1973/ On the question of the social interpretation of some burials in the South Caucasus // Brief communications of the Institute of Archives of the USSR Academy of Sciences (CSIA). Issue 134, p. 11-19.
14. Kushnareva K.Kh. 1954/ Monuments of the Copper Age in Nagorno-Karabakh // SA, v. XX, p. 165-180.
15. Munchaev R.M. 1975/ Caucasus at the dawn of the Bronze Age. Moscow: Nauka, 415 p.
16. Narimanov I.G. 1987/ The culture of the most ancient agricultural and cattle-breeding population of Azerbaijan. Baku: Elm, 260 p.
17. Piotrovsky B.B. 1949/ Archeology of Transcaucasia since ancient times. Leningrad: Leningrad State University, 134 p.
18. Petrov V.A. 1940/ Ethnobotany of Nagorno-Karabakh / Izvestia of the Azerbaijan branch of the Academy of Sciences of the USSR (Publishing house of FAN) Baku, p. 150-168.



# II Bölmə

# DOKTORANT, MAGİSTR VƏ TƏLƏBƏLƏR

# II Bölmə. Doktorant, magistr və tələbələr:

**Zeynallı Afaq Əbülfət qızı**
UNEC "İmtahan mərkəzi", mütəxəssis
UNEC "Ümumi iqtisadiyyat" ixtisasında dissertant
zeynalli.afaq18@gmail.com

## Şuşada mədəniyyət iqtisadiyyatının inkişafı potensialının dəyərləndirilməsi

### Xülasə

Məqalə Azərbaycanın mədəniyyət baxımından ən önəmli bölgələrindən biri olan milli qələbəmizin simvolu Şuşanın mədəniyyət iqtisadiyyatının hansı üsullarla inkişaf etdirilməsindən, Şuşa şəhərinin Qarabağ iqtisadi rayonunun inkişafında oynaya biləcəyi roldan və bunun əhəmiyyətindən bəhs edir. Bu gün dünya iqtisadiyyatında çəkisi getdikcə artan mədəniyyət iqtisadiyyatının Şuşanın dirçəlişində oynaya biləcyi rol və sahələrin perspektivi məqalədə araşdırılmışdır. Bölgənin potensialı mədəniyyət iqtisadiyyatının dirçəlməsi üçün çox əlverişli olduğundan məsələyə bu aspektdən yanaşmaq böyük qayıdış baxımından da vacibdir.

1992-ci il 8 may tarixində erməni işğalçıları tərəfindən işğal olunan və 8 noyabr 2020-ci ildə 44 günlük müharibənin nəticəsində şanlı Azərbaycan ordusu tərəfindən işğaldan azad olunan Şuşa şəhərinin Azərbaycanın incisi olduğu hər kəsə məlumdur. Öz strateji, coğrafi, mədəni əhəmiyyətinə görə digər bölgələrdən seçilən və məhz bu səbəbdən düşmənlərin diqqətini çəkən Qarabağın ən gözəl guşəsi də Şuşadır. Şuşa təkcə şəhər yox, həm də Azərbaycanın qələbəsinin, tarixi torpaqlarımıza qayıdışın rəmzidir.

Zəngin Azərbaycan mədəniyyəti dedikdə onu Qarabağdan ayrı düşünmək mümkün olmadığı kimi Qarabağ mədəniyyəti dedikdə də Şuşanı xüsusi vurğulamamaq olmaz. Böyük qayıdışın təməl halqalarından biri də mədəniyyətə xüsusi diqqətin ayrılması ilə bağlıdır. Məsələ burasındadır ki, bu gün bütün dünyada mədəniyyət iqtisadiyyatı öz əhəmiyyətinə görə tarixinin ən yaxşı dövrünü yaşayır. Harvard Universitetinin iqtisadiyyat və tarix üzrə professoru David Landers uzun illər öncə mədəniyyətin rolunu bu cür qiymətləndirmişdi "İqtisadi inkişaf tarixindən öyrəndiyimiz bir şey varsa o da, tək fərqi mədəniyyətin yaratmasıdır" (Özbuğday, 2019). Mədəniyyət iqtisadiyyatı mədəni sahələrə sərmaye qoymaqla ondan qazanc əldə etməyi hədəf qoyur və kreativ iqtisadiyyat da bu prosesin vacib halqalarındandır.

Azərbaycan Respublikası prezidentinin 2021-ci il 7 may tarixli fərmanı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir. Prezidentin 31 may 2021-ci ildə verdiyi növbəti qərarla Şuşa şəhərinin sərhədləri daxilində Şuşa şəhəri Dövlət qoruğu yaradılmışdır. Bu sərəncamda qeyd olunur ki, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dünya təbbi və mədəni irs siyahısına daxil edilmiş, həmçinin milli mədəni və təbii irsimizə aid dövlət mülkiyyətində olan abidələrin özəlləşdirilməsinə yol verilmir.

Bu gün mədəniyyət sadəcə xalqların maddi-mənəvi irsi deyil, eyni zamanda iqtisadiyyatlarının bir parçasıdır. Məsələ burasındadır ki, tarix səhnəsində sözünü demiş xalqların hamısı həm də özünəməxsus mədəniyyətləri ilə diqqəti cəlb etmiş və bu səbəbdən də öz mədəni dəyərlərini başqa xalqlara qəbul etdirə bilmişdirlər. Zəngin mədəniyyətə malik Azərbaycan xalqının mədəniyyət baxımından ən qiymətli bölgələrindən olan Qarabağın incisi Şuşada mədəniyyət iqtisadiyyatını dirçətlmək bu günkü yenidənqurma işinin ən təməl halqalarından olmaqla yanaşı həm də tarixi borcumuzu yerinə yetirməyə xidmət edir. Texnologiyanın çox sürətli inkişafı iqtisadi və s. siyasi hadisələrə yeni baxış tələb edir. Ötən dövrlərdə sadəcə bir əsr dəyişdiyi üçün fərq edən proseslər bu gün 30ildən də az sürətlə dəyişirlər. Bu gün mədəniyyəti digər xalqlara təqdim etmək əvvəlki dövrlərdən daha asandır. İnternetin bizi dünyanın ən uc nöqtəsində olan insanlarla birləşdirməsi həm də mədəniyyətimizi onlara çatdıra bilmək üçün daha geniş imkanlar bəxş edir.

Böyük qayıdışdan sonra heç şübhəsiz, şəhərsalma mədəniyyətinin bərpası, tarixi abidələrin restavrasiyası, memarlıq ənənələrinin dirçəlişi, turistlər üçün diqqətçəkən məkanların yaradılması kimi məsələlər gündəmə gəlmişdir. 1992-ci ilin 8 may tarixində erməni vandalları tərəfindən işğal

edildikdən sonra Şuşada mədəniyyət və təhsil ocaqları - 8 muzey, 32 kitabxana, 17 klub, 8 mədəniyyət evi, 25 orta məktəb, 40 tibb müəssisəsi, 241 tarixi abidə dağıdılmış, viran edilmişdir (Zahid Abbasov, 20). İşğaldan əvvəl rayonda dövlət tərəfindən qorunan 248 tarixi abidə mövcud olub. Şuşadan Azərbaycan izlərinin itirilməsi məqsədilə 600-ə qədər milli memarlıq abidəsi və tarixi ərazilər Pənahəli xanın sarayını, Yuxarı Gövhərağa məscidini, Aşağı Gövhərağa məscidini, Şərqin məşhur şairi xan qızı Xurşudbanu Natəvanın evini, Qarabağ xanlığında vəzir olmuş klassik Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, o cümlədən Şuşa Tarix Muzeyi, Azərəbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini, dağıtmış, buradakı nadir sənət incilərini talamışlar. (N.Tahirova, L.Qafarova, 14)

Fikrimcə, Şuşada mədəniyyət iqtisadiyyatını inkişaf etdirmək üçün aşağıdakı məsələlərə diqqət yetirilsə, faydalı olar.

1. **Kreativ iqtisadiyyatın dirçəldilməsi.**

Kreativ iqtisadiyyat ən yeni sahələrdən biridir, hətta termin ilk dəfə 2000-ci ildə “Business week” jurnalı tərəfindən işlədilmişdir. İfadənin müəlliflərindən sayılan Hovkins və Floridaya görə kreativ iqtisadiyyat elmi tədqiqat, nəşr işləri, televiziya və radio, musiqi, dizayn, kino, memarlıq, incəsənət kimi sahələri əhatə edir (Kamran İmanov, 6). Şuşaya nəzərən danışdığımız üçün buradakı sahələri ayrı-ayrılıqda da təhlil edə bilərik. Bu cür sahələrin inkişafını mədəniyyət iqtisadiyyatı nöqteyi-nəzərindən dəyərləndirəndə məlum olur ki, əslində əldə olan potensialla yaxşı nəticələr əldə etmək mümkündür. Kreativ iqtisadiyyatı dirçəltmək üçün bir neçə sahəyə xüsusi diqqət ayırmaqda fayda var.

- **Kino və serial sənayesinin inkişafı**. İlk baxımdan Azərbaycanda bunun ciddi inkişafı qeyri-real görünə bilər. Ancaq qonşu Türkiyənin bu prosesə bir neçə il öncə başlamasından sonra böyük uğur əldə etməsi onu deməyə imkan verir ki, dövlət büdcəsindən ayrılan yaxşı maliyyə dəstəyi ilə peşəkar insanların bir araya toplaşıb Şuşanın fəthi, Qarabağdakı hadisələr ilə bağlı çəkə biləcəyi film və serialın dünyanın digər ölkələrinə satılması büdcə üçün əlbəttə, faydalı olar və belə təcrübə digər ölkələrdə artıq mövcuddur. Araşdırmalara əsasən, 2003-2014-cü illərdə Azərbaycanda kreativ industriyanın gəliri 13 dəfə artmışdır, (K.İmanov 26) bu rəqəm ölkənin kreativ iqtisadiyyat potensialının kifayət qədər yüksək və rəqabətqabiliyyətli olduğunu göstərməklə yanaşı, həm də bu sahənin inkişafına xüsusi diqqət ayırmağından mühümlüyündən xəbər verir. Həmin dövrdə ölkənin ÜDM-si 8,2 dəfə artmışdır (K.İmanov 26). Digər tərəfdən Şuşanın mənzərəsi, təbiəti də xarici rejissorlar üçün ən azından Qafqaz və MDB məkanında hər hansı bir filmin çəkilişində rol oynaya bilər. Bunun üçün ərazi ilə bağlı lazımi təbliğat işləri aparmaq vacibdir.
- **Musiqi festivallarının təşkili.** Heç şübhəsiz ki, Şərqin musiqi konservatoriyası sayılan Şuşanın mədəniyyət iqtisadiyyatında oynaya biləcəyi rol da müstəsna əhəmiyyətə malikdir. Azərbaycan xalqına çox böyük sənətkarlar bəxş etmiş Şuşada “Xarıbülbül” musiqi festivalı ilə yanaşı VIII muğam müsabiqəsinin finalı da təşkil olundu. Ancaq bunu mədəniyyət iqtisadiyyatı nöqteyi nəzərindən qiymətləndirmək üçün festivallar beynəlxalq səviyyədə təşkil olunmalı və qonşu ölkələrin diqqətini çəkməlidir. Məsələn, son illər Qəbələdə keçirilən caz festivalları kifayət qədər diqqətçəkən olmuş və xarici turistlərin də ölkəyə gəlişinə təsir etmişdir. Bubaxımdan milli musiqimizin beşiyi olan Şuşada beynəlxalq muğam festivalları ilə yanaşı müasir musiqi ənənələrini əks etdirən tədbirlərin təşkili vacibdir.

2. **Turizm potensialının yüksəldilməsi.** Turizm sahəsinin müasir dünyadakı əhəmiyyəti danılmazdır. Turizmin inkişafı mədəniyyət sahəsindən gələn gəlirlərin artmasına birbaşa təsir edir. Belə ki, dünyanın turistlər üçün cəlbedici olan bütün bölgələrində mədəniyyət abidələri, tarixi məkanlar üstünlük təşkil edir. Bu baxımdan da Şuşada aparılan işlər turistləri nəzərə alaraq aparılmalı və xüsusən də bu sahədə reklamlara diqqət ayırılmalıdır. Turist turist gətiridiyi üçün sadəcə başlanğıc mərhələdə bu prosesə dəstək vermək lazımdır. Əlbəttə, burada hədəf təkcə qonşu ölkələr Türkiyə, Gürcüstan, İran və Rusiyadan gələn qonaqlar yox, həm də ölkəmizə maraq göstərən avropalılar olmalıdırlar. Turist axınını təşkil etmək üçün bu bölgədə hər hansı məşhur rejissorun çəkə biləcəyi bir film, yaxud beynəlxalq səviyyədə keçiriləcək festivallar vacib rol oynaya bilər. Yaxud da son illər

Avropa liqalarında çox uğurla çıxış edən “Qarabağ” komandasının ev oyunlarını keçirəcəyi stadionun Şuşada inşası, müasir tələblərə cavab verməsi və sayı çox olan tamaşaçılar üçün nəzərdə tutulması Şuşanı avropalıların diqqət mərkəzinə çevirərək, turist sayının artmasında əhəmiyyətli ola bilər.

Beləliklə, bu qənaətə gəlmək olar ki, Şuşa tarixi və müasir mədəniyyət ənənələri ilə Azərbaycanın mədəniyyət iqtisadiyyatının inkişafında bütün digər bölgələrdən daha çox rola malik olmaqla mədəni irsimizin iqtisadi gəlirə çevrilməsində də mayak ola bilər. Bunun üçün rasional dövlət proqramı, onun smart layihələrlə həyata keçirilməsi, müasir texnologiyanın imkanlarından maksimum istifadə çox vacibdir.

**Ədəbiyyat siyahısı:**


1. Kamran İmanov (2016), kreativ iqtisadiyyat və Azərbaycan iqtisadiyyatının inkişafı, Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi, 76 s.
2. Özbuğday, F.C (2019). Kültür ve ekonomik başarı, Ankara Yıldırım Beyazit Universitesi, 45 s.
3. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 7 may, 2021.
4. Zahid Abbasov (2010), Şuşa Azərbaycanın mədəniyyət və tarix incisidir.
5. Nazilə Tahirova, Leyla Qafarova (2021), Şuşa Azərbaycanın mədəniyyət paytaxtı, 49 s.


---


**Məmtiyeva Nərminə Vüqar qızı**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
“Biznes və Menecment” fakültəsi, qrup 912
narminamamtiyeva@gmail.com
**i.ü.f.d., müəl.S.S.Məmmədova**
UNEC, “Biznes və logistika” kafedrası
Simuzar_Mammadova@unec.edu.az


## Şuşanın sosial-iqtisadi dirçəldilməsi - Azərbaycanın prioritet istiqamətlərindən biri kimi


**Xülasə**

Məqalədə Şuşa şəhərinin sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinə nəzər yetirilmişdir. Bunlara Şuşa Şəhəri Dövlət Qoruğunun yaradılması; Şuşa şəhərində yerləşən tarix və mədəniyyət abidələrinin həcm-planlaşdırma quruluşunun qorunmasını və toxunulmazlığını, habelə bərpasını, öyrənilməsini, məqsədyönlü istifadəsini təmin etmək; şəhər həyatının bütün sahələrində innovativ həllərdən istifadəni dəstəkləmək; tarixi, mədəni, turizm və istirahət potensialından tam yararlanmaq üçün əlverişli şərait yaratmaq; sahibkarlıq fəaliyyətinin canlanmasını və inkişafını təmin etmək; mənzil fondunun idarə edilməsi; Şuşa şəhərinin ərazisində nəqliyyatın təşkili və s. şamil olunur.HabeləAzərbaycanın işğaldan azad edilmiş torpaqlarından biri olan Şuşada Ermənistanın törətdiyi kütləvi ekoloji terror su mənbələrimizin korlanması, meşələrimizin qırılması, regionun ekoloji tarazlığının pozulmasına ciddi təsir göstərməsi kimi məsələlər işıqlandırılıb.



**Açar sözlər:** Şuşanın sosial-iqtisadi vəziyyəti, Cıdır düzü, İsa bulağı, Turşsu yaylaqları, Qarabağda yeni iqtisadiyyat quruculuğu.


### Giriş

Xalqın böyük istəyi və təkidi ilə hakimiyyətə qayıdan Ümummilli liderimiz Heydər Əliyevin verdiyi uzaqgörən, müdrik qərarlar vəyeritdiyi siyasətin nəticəsində Azərbaycan Respublikası ən çətin dövrlərini geridə qoya bilmiş, dirçəlməyə başlamışdı. Ulu öndərin yolunu layiqli şəkildə davam etdirən cənab İlham Əliyevin sayəsində dinamik və davamlı inkişaf edən Azərbaycan Respublikası qalibiyyətləri sayəsində regionun lider dövlətlərindən birinə çevrildi. Şübhəsiz ki, 44 günlük Vətən müharibəsi nəinki Azərbaycan xalqının yaddaşına, müstəqillik tariximizin ən şanlı səhifələrinə qızıl hərflərlə yazıldı.

### 1. Şuşa şəhərinin sosial-iqtisadi dirçəldilməsinə konseptual baxışlar.

Uzaqgörən siyasətilə bütün dünyada tanınan Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və şanlı ordumuzunigidliyi, qəhrəmanlığı, vətənə olan məhəbbəti sayəsində28 illik həsrətə son qoyularaqAzərbaycanınmədəniyyət paytaxtı adlanan Şuşa şəhəri işğaldan azad olundu. Tez bir zamanda genişmiqyaslı bərpa və dirçəliş işlərinə başlanıldı.Demək olar ki, Şuşada bütün infrastruktur artıq bərpa edilmiş, işığın, suyun verilməsi təmin olunmuş, istilik təchizatı sisteminin layihələndirilməsi ilə bağlı bir sıra qərarlar qəbul edilmişdir. Digər tərəfdən ermənilər tərəfindən darmadağın edilmiş milli-mədəni abidələrimiz bərpa edilir, abadlaşdırma işləri aparılır. Eyni zamanda əhalinin öz doğma yurdlarına qayıda bilməsi üçün evlər, məktəblər, bağçalar və s.inşa edilməyə başlamışdır [2].

Respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun vəsaiti hesabına əsaslı təmir olunan M.P.Vaqifin məqbərəsini, Şuşa şəhərinin rəsm qalereyasını, ötən əsrin 80-ci illərinin əvvəllərində inşa edilmiş "Qarabağ" mehmanxanasını, Şuşa Xalça Muzeyini bu siyahıya aid etmək olar. Bundan əlavə Şuşada "üç", "dörd" və "beş" ulduzlu otellərin yaradılması nəzərdə tutulur.İstismar müddəti bitmiş "xruşşovka"larla bağlı tədbir görülür. O cümlədən ermənilər tərəfindən baxımsız qaldığı üçün uçulub dağılmaqda olan xristian məbədlərinin bərpa edilməsini Azərbaycan dövlətiöz üzərinə götürüb. Bununla yanaşı, Pənahəli xanın sarayı, Yuxarı Gövhər Ağa məscidi, Aşağı Gövhər Ağa məscidi, Şərqin məşhur şairi xan qızı Xurşidbanu Natəvanın evi, Qarabağ xanlığında vəzir olmuş klassik Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsi, professional Azərbaycan simfonik musiqisinin, eləcə də Şərqin ilk operasının yaradıcısı dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli, dünyaşöhrətli opera müğənnisi Bülbül, məşhur tarixçi, rəssam, musiqişünas Mir Möhsün Nəvvabın ev muzeylərinin vəhşicəsinə dağıdılmasına baxmayaraq ölkəmiz bu abidələrin yenidən bərpası üçün əlindən gələni edir [9].




Şuşa təkcə şuşalılar, qarabağlılar, azərbaycanlılar üçün deyil, bütün türk dünyası üçün dəyərli, sevimli bir şəhərdir. 2022-ci ilin "Şuşa İli" elan edilməsi mədəniyyətimizin beşiyi, Qarabağımızın incisi sayılan Şuşanın inkişafına böyük təkan verəcək. Məhz elə əsas məqsədlərdən biri də bölgənin iqtisadi inkişafına nail olmaq, ən yaxın gələcəkdə qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına geri dönməsini təmin etməkdir.

**2. Şuşanın resurs potensialının təhlili və qiymətləndirilməsi.**

Şuşa xalqımızın qədimliyini, tarixini, zəngin mədəniyyətini özündə hər zaman əks etdirmişdir. Buna görə də təəccüblü deyil ki, Azərbaycan işğal olunmuş ərazilərarasında ilk bərpa və quruculuq işlərinə elə məhz Şuşa şəhərindən başlamışdır. Şuşa şəhəri Azərbaycan xalqının ən dəyərli, müqəddəs və əziz bir diyar olması danılmaz faktdır. Çünki, Şuşa tarix boyu hər zaman çətinliklərlə üzləşmiş, boyun əyməmiş və daim mübarizə aparmışdır [5].

Hələ o dövrdə təbiəti, müalicəvi əhəmiyyətə malik olması, havasının təmizliyi, saflığı hər kəsi heranetmişdi. Cənnət kimi tanınan bu gözəl guşəmiz nəinki ölkəmizdə, sərhəddən kənarda da böyük

marağa səbəb olmuş və bura gəlib görən hər kəsi öz füsunkar gözəlliyi ilə məftun etmişdi. Ən məşhur yerlərinə misal çəkməli olsaq Cıdır düzü, İsa bulağı, Turşsu yaylaqlarını deyə bilərik. Çünki, qədim də turistlərin ən çox gedib görmək istədikləri ərazilər məhz bu ərazilər idi. Dünyada ən uzun mineral su kəmərinin – Narzan tipli Şırlan turşsuyunun otuz iki kilometrlik məsafədən birbaşa şəhərə çəkilməsi isə Şuşanın kurort şöhrətini daha da artırmışdı [15].

Elə buna görə də tarixən Şuşa nəinki Azərbaycanın, Cənubi Qafqazın ən gözəl guşəsi hesab olunmuşdur. İctimai-siyasi həyatın zənginliyi, tarixi-mədəni dəyərləri, keçdiyi tarix yolu xalqımızn milli-mənəvi dəyərləri baxımından daima önəmli yeri tutmuşdur. Şuşa şəhəri tarixən təkrar olunmaz inciləri özündə saxlayan müqəddəs bir diyardır. Tarixi araşdırmaların aparılması nəticəsində hətta burada ən qədim insanların yaşadığı faktlarla sübut olunmuşdur.

Şuşa şəhərinin sıldırım qayalar üzərində yerləşməsi, keçilməz qalalarla əhatə olunması onu həm strateji mövqe baxımından, həm də hərbi-siyasi baxımından hər zaman əlverişli hesab olunmuşdur. Tarixə nəzər salsaq görə bilərik ki, bir çox dövlətlər buraya hücumetmiş, lakin o məşhur qalaları keçə bilməyərək məğlub olmuşlar. Bununla yanaşı, ingilis səyyah və alimləri C.Morye və R.Burter Şuşanın qədimliyi ilə bağlı dəyərli mülahizələr söyləmişlər. C.Moryenin fikrincə, Şuşa hələ eradan əvvəl insan məskəni olmuşdur. R.Burter isə yazır ki, "Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır". Bütün bunlar Şuşanın hələ çox qədimdən mövcud olması haqqında fikir söyləməyə əsas verir [15].

Şuşa şəhəri yalnız təbiəti və gözəlliyi ilə tanınmırdı. Onun yetişdirdiyi böyük şəxsiyyətlər, dünya xadimləri, elmi, ədəbi və s.fikirləri ilə tanınan görkəmli şəxsiyyətlər də burada böyüyüb, boya-başa çatmışlar. Azərbaycan musiqi sənətində izburaxmış xanəndələr, ifaçılar, bəstəkarlar, tanınmış şəxsiyyətlər məhz elə burada doğulmuşlar. Xan Şuşinskinin, Bülbülün, Üzeyir Hacıbəylinin, Niyazinin, Fikrət Əmirovun və digər tanınmış, sevilən sənətkarların doğma vətəni Şuşadır.




**3. Şuşada mədəniyyət iqtisadiyyatının inkişaf etdirilməsi yolları.**

Şuşada mədəniyyət iqtisadiyyatının inkişaf etdirilməsi üçün bir çox yollardan istifadə olunur. Bu müxtəlif konfrans, iclaslarda gün üzünə çıxarılır və geniş miqyaslı müzakirələr aparılır. Qarabağda yeni iqtisadiyyat quruculuğu və mədəniyyət sahələrinin inkişafı, Şuşada kreativ iqtisadiyyatın formalaşdırılması kimi mövzular əsas mövqe tutur. Çıxışlarının birində Q.Paşayevə vurğulayıb ki, mədəniyyət iqtisadiyyatına təkcə gəlir mənbəyi kimi baxılmamalıdır. Bu fikrə qatılmağımızın əsas səbəblərindən biri də H.Əliyevin daima vurğuladığı kəlamıdır: “Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir” [10].

İnkişaf və tərəqqi üçün sistemli yanaşma əsas məqamdır. Azərbaycanın mədəni-tarixi mirasının necə böyük olduğunu nəzərə alsaq, onun qorunması və inkişafı üçün müxtəlif layihələrin hazırlanması, fikirlərin, planların sistemli şəkildə həyata keçirilməsi əsas məsələ kimi daim qalacaqdır. Bununla paralel digər ölkələrlə mədəni əlaqələrin qurulması mədəniyyət iqtisadiyyatının inkişafına yol açan əsas nüanslardan biridir. Mədəniyyətimizi digər xalqlara göstərmək, tariximizi izah etmək nəinki turizm sahəsində dirçəlməyimizə gətirib çıxaracaq, eyni zamanda digər ölkələrin bizi daha yaxşı tanımağına da vəsilə olacaqdır.

Azərbaycan xalqı Şuşanı hər zaman özünün mənəvi paytaxtı hesab edib, tarixinin, mədəniyyətinin beşiyi sanıb, onunla öyünüb. Cənab İlham Əliyevin Qarabağa səfərində vurğuladığı kimi, ermənilərin 30 ildə qurutduğu bulaqları bizlər bərpa edəcəyik.

Məlumdur ki, Azərbaycanda (Naxçıvan MR istisna olmaqla) mövcud olan 623 kəhrizdən 332-si 30 ilə yaxın müddətdə işğal altında olmuşdur. Hesablamalara görə, Ağdam rayonunda 98 kəhrizdən il ərzində 64,333 milyon kubmetr, Füzuli rayonunda 71 kəhrizdən 19, 016 milyon kubmetr, Cəbrayıl rayonunda 111 kəhrizdən 34,658 milyon kubmetr, Qarabağın dağlıq hissəsində 52 kəhrizdən 4,225 milyon kubmetr, ümumilikdə isə Qarabağ ərazisindəki kəhrizləri bərpa etməklə il ərzində 122 milyon kubmetr su əldə etmək mümkündür. Bölgənin ekoloji cəhətdən təmiz enerji mənbəyi olan yeraltı termal sulardan istifadəsi isə böyük əhəmiyyət kəsb edir. Qeyd edək ki, Azərbaycanın işğaldan azad olunan ərazilərində su ehtiyatlarının bərpası istiqamətində mühüm işlər həyata keçirilir, ərazidəki su obyektlərinin səmərəli istifadəsi və mühafizəsi üzrə dövlət nəzarəti təşkil edilir. İşğal nəticəsində infrastrukturu sıradan çıxarılan hidrometeoroloji məntəqələrdə tezliklə müasir avtomatlaşdırılmış sistemlərin tətbiqi ilə müşahidələrin bərpası planlaşdırılır.Buradakı zəngin yerüstü və yeraltı su ehtiyatlarından həm əhalinin içməli su ilə təminatında, həm də kənd təsərrüfatının inkişafı və elektrik enerjisi istehsalı üçün böyük istifadə potensialı var. Qarabaqda 14 əsas çay, 9 su anbarı, bir neçə böyük göl və təbii mineral bulaqlar yerləşir [14].

Qarabağda ümumilikdə 24 su anbarı var və bunlardan 3 su anbarı qəzalı vəziyyətdədir. 22 meliorasiya təyinatlı su anbarından 7-si, həmçinin balıqçılıq məqsədləri üçün istifadə edilir. Meliorasiya təyinatlı su anbarları qondarma qurumun “kənd təsərrüfatı qurumu”nun tabeliyindədir. Bu qurum su sisteminin idarə olunması, istifadəsi və siyasətinin hazırlanması məsələləri ilə məşğuldur. Digər 2 su anbarı isə enerji mənbəyi təyinatlıdır. Hidroenerji təyinatlı su anbarları ilə qondarma qurumun “iqtisadiyyat və istehsalat qurum”u məşğuldur [16].

Vətən torpaqlarının işğaldan azad edilməsi nəticəsində Qarabağın yeraltı və səth sularının mövcud vəziyyətinin öyrənilməsi, su mənbələrinin bərpası, inkişaf etdirilməsi və təhlükəsizliyinin təmin olunmasına da çox böyük ehtiyac yaranmışdır.Respublikanın bəzi dağlıq və dağətəyi ərazilərində, xüsusən Naxçıvan və Qarabağ regionlarında içməli su ilə bağlı problemlərin həllində təbii bulaqlarla yanaşı, ilin bütün fəsillərində əhalini içməli və suvarma suyu ilə təmin edən kəhriz sistemləri də əhəmiyyətli rol oynaya bilər [14].

Şuşa hələ o dövrdə Azərbaycanın qədim şəhərləri sırasında mövqesini tutmuşdu. Türküstana, Yaxın Şərqə və Avropaya gedən karvan yollarının ayrıcında yerləşməsi onun inkişafına təkan vermişdi. Şuşanın xalçası, yunu, ipəyi, dərisi, çini qabları dünya bazarlarına çıxmışdı. Kənd təsərrüfatı və istehsal etdiyi məhsullarla Səmərqənd, Bağdad, Tehran, İstanbul kimi böyük şəhərlərdə şöhrət qazanmışdı. Burada aparılan istehsal prosesləri sosial vəziyyətə kömək etmiş, iqtisadiyyatın möhkəmlənməsinə gətirib çıxarmışdı. Qədimdən bu günə kimi gəlib çıxan abidələr, tikililər, məscidlər elə məhz bu cür qazancların köməyilə tikilmiş və bizlərə miras qalmışdır [11], [12].

Şuşada ticarət mərkəzinin görkəmli yerlərində sayılan bazarlar bənzərsiz görünüşü ilə bura gələn hər kəsi heyran edirdi. Burada tikilən karvansaralar, binalar, ticarət məqsədli tikililər görənləri məftun edirdi. Qeyd etmək lazımdır ki, Şuşanın gözəl təbiəti, coğrafi mövqeyi, xüsusilə çox mühüm strateji əhəmiyyətli qala olmasını bir sıra tədqiqatçılar dəfələrlə bildirmişlər.

Tarix - istər uzaq olsun, istərsə də yaxın - təkcə səlnaməçilərin keçilən yol kimi yaddaşa köçürmələri üçün gərəkli olan zaman kəsiyi deyil, həm də nəticə çıxarmaq üçün ən önəmli vasitədir. Bəli, ona görə qədimdə Şuşa şəhərinin necə inkişaf etdiyinə nəzər salaraq onu təkmilləşdirilmiş üsullarla təkrar dirçəltməliyik. Axı biz Şuşamıza 28 il sonra nəhayət ki, qovuşa bilmişik.

Cənab Prezident İlham Əliyev qeyd edib ki, ermənilərin bütün cəhdlərinə baxmayaraq, onlar Şuşanı dünyaya erməni şəhəri kimi təqdim edə bilməmiş, 28 il ərzində buna çalışmış, lakin nail ola bilməmişlər. Ancaq Şuşa ermənilər tərəfindən dağıdılsa da, əyilmədi, əsirlikdə olsa da öz ləyaqətini itirmədi, erməniləşdirmə cəhdlərinə məruz qalsa da Azərbaycan ruhunu qoruyub saxlaya bildi [1].

**Nəticə**

Şuşa bizim üçün təkcə bir mədəniyyət mərkəzi deyil, hərbi-siyasi bir istehkamdır. Vətən müharibəsi bitdikdən sonra bu regionda geosiyasi vəziyyət əhəmiyyətli şəkildə dəyişmişdir. Mühim strateji əraziləri ələ keçirmək, dəyərli və qədim tarixə sahib torpaqlarımızı geri qaytarmaq bir sıra yeni əməkdaşlıqlara yol açdı. Türkiyə ilə olan əlaqələrimiz bu dövrdə daha da üzə çıxaraq bütün dünyaya qardaş dəstəyi və sevgisini göstərmiş oldu. Bununla yanaşı, Şuşa ilə bağlı bir çox form və tədbirlər keçirilib. Bu formda Qırğızıstan Respublikasının Ticarət və Sənaye Palatası Şurası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında

Azərbaycan-Qırğızıstan Biznes Şurasının yaradılması haqqında Saziş imzalanıb, Özbəkistanın Sahibkarlığın İnkişafı Agentliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) arasında birgə tədbirlərin həyata keçirilməsinə dair Yol Xəritəsi təsdiq olunub. Həmçinin, "Azərbaycanda Qadın Sahibkarlığın İnkişafı Assosiasiyası" İctimai Birliyi və Türkiyənin "Kut Ticarət və Marketinq Məhdud Şirkəti", "Bakı Tekstil Fabriki" MMC və Türkiyənin "İnmak Şirkətlər Qrupu" arasında anlaşma memorandumları imzalanmışdır. Form iştirakçılarına daha sonra Şuşa Qalasına, Cıdır Düzünə, Vaqifin muzey-məqbərə kompleksinə baş çəkmiş, Azərbaycanın tanınmış şəxsiyyətlərinin işğal zamanı güllələnmiş büstləri ilə tanış olublar. Bunların hər biri Şuşanın inkişafı və Qarabağın Azərbaycan torpağı olmasının sübutu üçün aparılmış işlərdir.

Beləliklə, azad Şuşa – Mədəniyyət paytaxtımızın abadlaşdırma, bərpa-quruculuq işləri tam sürətlə davam edir. Daim olduğu kimi indi də inkişaf planları hazlanır, tətbiq edilir. Bizlər artıq qürur hissi ilədeyə bilərik ki, mədəniyyət incisi, qədim, tarixi şəhərimiz olan Şuşa şəhəri azaddır!

Böyük şəxsiyyətlərimizin, ən əsası isə uğrunda canından keçən şəhidlərimizin ruhları bu gün azad, firəvan və günü-gündən çiçəklənən, müasirləşən Şuşanı gördükcə sevinir və rahatlıq tapırlar.

Şuşa tez bir zamanda nəinki regionunun, hətta dünyanın ən cəlbedici şəhərlərindən birinə çevriləcəyinə əminik. Mədəniyyət paytaxtımız Cənubi Qafqazın mədəni, tarixi, ictimai-siyasi strateji rol oyanamaqla yanaşı, həm də Türk dünyasını inkişafına böyük töhfə verəcək.

Şuşa adətən bir günəş kimi bütün dünyaya öz işığını saçacaq!

**Ədəbiyyat siyahısı:**


1. Xalq qəzeti. Şuşa–tarixi, mədəni və strateji əhəmiyyətli şəhər. Əliqismət Bədəlov,"Xalq qəzeti"
2. Trend News Agency. Elçin Mehdiyev
3. 525-ci qəzet. Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin sektor müdiri**.** Aydın Tağıyev
4. Azərtac. Ətrabə Rzayeva
5. Coşqun Məmmədov, AMEA Rəyasət Heyəti Vitse-prezidentin xidmətində Elmi katib / www.science.gov.az
6. Bakı-Xəbər ictimai-siyasi qəzet. İradə Sarıyeva
7. AR-nın İqtisadiyyat Nazirliyi Yanında Dövlət Vergi Xidməti / Media / Xəbərlər
8. Yeni Azərbaycan / Mübariz Abdullayev
9. Azərbaycan Dövlət Tərcümə Mərkəzi / aztc.gov.az
10. Xalqqəzeti / ZərifəBəşirqızı
11. XəzərTVİnformasiyaAgentliyi / Nurlan Muradov
12. Azərtac / 8 may / azertag.az
13. "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanunu
14. Yasin RÜSTƏMOV, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun icraçı direktoru, texnika elmləri doktoru / Respublika qazeti
15. Azərbaycan Respublikası Şuşa Rayon İcra Hakimiyyəti / shusha-ih.gov.az
16. Ordu.az / Alpər Mövludoğlu
17. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri / medeniyyet.az.


---


**Aidə Bəxtiyarova**
Azərbaycan Dövlət Neft və Sənaye Unversitetinin doktorantı,
aida.baxtiyarovaa1@gmail.com


## Şuşa şəhərinin inkişafının sosial-iqtisadi və strateji aspektləri

**Xülasə**


Məqalədə Şuşa şəhərinin sosial-iqtisadi inkişafının tarixi-iqtisadi aspektləri və müasir aktual problemləri tədqiq olunmuşdur. Şuşa şəhərinin inkişaf prosesləri təhlil edilmiş və bununla bağlı strateji məsələlər fərqləndirilmişdir. Şuşa şəhərinin spesifik inkişaf istiqamətləri araşdırılmış,

sənətkarlıq sahələrinin və digər məşğulluq imkanlarının potensialı açıqlanmışdır. Keçmiş SSRİ dövründə Şuşa şəhərinin Qarabağın mərkəzi statusundan zəiflədilməsi prosesləri baxılmışdır. Müasir dövrdə Şuşa şəhərinin Qarabağın dirçəldilməsində strtaeji rolu üzrə ümumiləşdirmələr aparılmış və təkliflər verilmişdir.
**Açar sözlər:** Şuşa, Qarabağ, Şuşa şəhərinin strateji əhəmiyyəti, Şuşa şəhərinin inkişaf xronologiyası, Şuşa şəhərinin inkişaf istiqamətləri.

**Резюме**

**Социально-экономические и стратегические аспекты развития города Шуша**

В статье исследованы исторические-экономические аспекты и современные актуальные проблемы социально-экономического развития города Шуша. Особо отмечены стратегические вопросы городского строительства и анализированы процессы развития города Шуша. Рассмотрены специфические направления развития города Шуша и раскрыт потенциал сферы искусства и других отраслей занятости. Анализированы процессы ослабления статуса города Шуша в качестве центра Карабаха в период бывшего СССР. Обобщены и подготовлены предложения по стратегической роли города Шуша в возрождении Карабаха.
**Ключевые слова:** Шуша, Карабах, стратегическая важность города Шуша, хронология развития города Шуша, направления развития города Шуша.

**Summary**

**Socio-economic and strategic aspects of the development of the city of Shusha**

The article explores the historical-economic aspects and modern current problems of the socio-economic development of the city of Shusha. Strategic issues of urban construction were especially noted and the development processes of the city of Shusha were analyzed. Specific directions of the development of the city of Shusha were considered and the potential of the art sphere and other employment sectors was revealed. The processes of weakening the status of the city of Shusha as the center of Karabakh during the former USSR were analyzed. Proposals on the strategic role of the city of Shusha in the revival of Karabakh are given in the end.
**Keywords**: Shusha, Karabakh, strategic importance of the city of Shusha, chronology of the development of the city of Shusha, direction of development of the city of Shusha.

Azərbaycanın tarixində qədim ənənələrinin formalaşmasında, mədəniyyət incilərinin yaradılmasında və inkişaf etdirilməsində, eyni zamanda milli ruhun inkişafında və onun dərinləşdirilməsində, qorunub saxlanılmasında Şuşa qədər ikinci strateji əhəmiyyət kəsb edən şəhərin olduğunu təsəvvür etmək çətindir. Şuşa bütün Azərbaycanlılar üçün müqəddəs yer hesab olunur və milli qəhrəmanlıq, milli şücaət, igidlik simvolu kimi baxılır.

Ona görə də, keçmiş SSRİ-nin süqutu ilə əlaqədar, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkədə baş verən xaotik proseslərdən, hərc-mərclikdən, səbatsızların dövlət strukturlarında rəhbər işlərə gəlmələrindən və idarəçilikdə olanların təcrübəsizliyindən, beynəlxalq səviyyədə, yəni diplomatik sahədə təcrübələrinin olmamasından və bununla bağlı regional dünyəvi siyasətin bazis sütunlarının qorunmasını bacarmadıqlarından, həmin dövrdə Azərbaycan regionda çox güclü təzyiqlərlə, təhlükələrlə üzləşdi və son nəticədə işğala məruz qaldı. Özlərinin xarici havadarlarından, xaricdən maliyyə yardımı alan və onların köməyi, eyni zamanda bir sıra böyük dövlətlərin dəstəyi ilə ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərinin 20 faizini işğal etdi. On minlərlə insanlarımız əlil oldular və əsasən əliyalın döyüşən gənclərimiz, igidlərimiz şəhid oldular. 4 mindən çox insanlarımız itkin düşdülər. Erməni qəsbkarları ağına-bozuna baxmadan qəddarcasına insanlarımızı qətlə yetirdilər. Qocaları, uşaqları amansızcasına və işgəncələrlə öldürdülər.

Bütün bunlar, əlbəttə Azərbaycan xalqı üçün, yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan dövləti üçün olduqca kədərli və faciəvi bir tarixdir, amma tarix faciələr ona görədir ki, onlardan düzgün nəticələr çıxarıb, onun qürurunun alçaldılmasına yol verilməməsi üçün cəsarətli addımların atılması təmin edilməlidir. Bu baxımdan, Şuşa ruhu, Şuşanın bir müqəddəs yer kimi bütün dünya Azərbaycanlılarını birləşdirmək ruhu həlledici rol oynamışdır.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra dövlət atributlarının gücləndirilməsi, bütün sahələrdə islahatların aparılması, eyni zamanda ordu quruculuğunun həyata

keçirilməsi, ordunun demək olar ki, yenidən qurulması Azərbaycanda sosial iqtisadi inkişafın sabitləşdirilməsi tədbirləri nəticəsində mümkün olmuş və Azərbaycan xalqının inamını özünə qaytarmışdır. Belə ki, ölkəmizdə, ümumiyyətlə dünya Azərbaycanlıları içərisində heç kəs Şuşanın işğalı ilə barışmayıb və bu isə Şuşanın azad olunacağı, düşmən tapdağından təmizlənəcəyi ilə bağlı inam hissini gücləndirməyə imkan vermişdir. Bütün bunların nəticəsində ölkəmizdə son iyirmi-otuz ildə vətənpərvər gənc nəsil yetişmiş, onların içərisindən kifayət qədər hazırlıqlı, bacarıqlı zabit korpusu formalaşmış və müxtəlif qoşun növləri üzrə igid, həm də şücaətli oğullarımız yetirmişdir [1, s.69].

Azərbaycan dövləti gücləndikcə, iqtisadi qüdrətini artırdıqca torpaqlarımızın sülh yolu ilə azad edilməsini əsas prioritet kimi nəzərdə tutmuşdur və uzun illər ərzində bununla bağlı danışıqlar aparılmış, beynəlxalq təşkilatlarla birgə iş görülmüş, bütün mümkün beynəlxalq platformalarda Azərbaycan özünün haqq səsini qaldırmış və torpaqlarımızın işğaldan azad edilməsi üçün səylər göstərmişdir [3, s.24]. Təəssüf doğuran fakt ondan ibarətdir ki, BMT-nin erməni qoşunlarının Azərbaycan ərazisindən çıxarılması və torpaqların azad edilməsi ilə bağlı dörd qətnaməsinin hələ 1992-ci ildən qüvvədə olmasına baxmayaraq, onun nə icra mexanizmi təmin edilmiş, nə də bununla bağlı səylər göstərilmişdir.

Bu dünya səviyyəsində beynəlxalq təşkilatlar səviyyəsində ikili standartın bariz nümunəsidir və Azərbaycanın suverenliyinə, haqq səsinə laqeyidliyin ifadəsidir. Məhz bu cür münasibətlərin nəticəsində Azərbaycan torpaqları işğal olunmuş və 30 ilə yaxın işğal altında qalaraq dağıdılmşdır [2, s.671]. Dövlət başçısının dediyi kimi, erməni vandalları burada daşı-daş üstünə qoymamışdır. Azərbaycanın dilbər guşələri olan yaşayış məntəqələrimiz, o cümlədən bir çox şəhərlərimiz yerlə yeksan olunmuş və dağıdılmşdır. Qarabağın strateji əhəmiyyət kəsb edən rayonlarından olan Ağdam və Füzuli demək olar ki, tamamilə viran olmuşdur. Qeyd edək ki, bu şəhərlərdə bir dənə də olsun ictimai və ya istehsal binası, yaxud sosial infrastruktur salamat qalmamışdır, hər yer vəhşicəsinə dağıdılmış, daşlar sökülərək satılmışdır. Ən dəhşətlisi isə bundan ibarətdir ki, insanlarımızın məhv edilməsi üçün burada erməni faşistlərinin izləri hələ də murdar əməlləri, yəni minalanmış ərazilər qalmaqdadır. Şübhəsiz bütün bunlar uzun illər davam edə bilməzdi, Azərbaycan ordusu, müqəddəs torpaqlarımızın azadlığı uğrunda döyüşə can atan minlərlə zabit və əsgərlərimiz, xalqımızın azadlıq ruhu və öz torpaqlarına sahib çıxma hüququ öz sözünü dedi. Ali Baş Komandanın rəhbərliyi altında 27 sentyabr 2020-ci ildən başlayaraq, 44 günlük Böyük Qarabağ savaşında erməni faşistlərinin murdar ayaqları torpaqlarımızdan təmizləndi və ermənistan rəhbərliyi təslimçilik aktını imzaladı. Nəticədə, bu tarixi hadisələr müasir zəmanəmizin yeni obyektiv reallıqlarını ortaya çıxarmışdır.

Artıq zəfər çalmış şücaətli ordumuz regionda fərqli mənzərə yaratmış və yeni reallıqlar formalaşdırmış, regionun siyasi-iqtisadi sabitliyinə əlavə stimullar vermiş və yaxın perspektivdə bu ərazilərin dirçəldilməsi üçün sosial-iqtisadi inkişafın təmin edilməsindən ötrü güclü zəmin diqqət çəkir [4, s.151]. Revanşist xülyalarla yaşayan separatçılar və ermənistan heç bir halda bundan sonra Azərbaycan torpaqlarını işğal etmək iqtidarında deyillər, çünki onların ağır təslimçilik aktına qol çəkməsi və biyabırcasına məğlub olması, eyni zamanda çökmüş iqtisadiyyata malik olmaları yaxın perspektiv vəd edə biləcək heç bir fəaliyyət istiqamətlərinin olmaması və regionda dağıdıcı dekonstruktiv xülyalar altında yaşayan bir dövlətin milli ruhu bu gün dəmir yumruq kimi birləşmiş Azərbaycan xalqının və cəsur Azərbaycan ordusunun dərhal daha kəskin olaraq cavabını görəcəkdir.

Qeyd edək ki, Qarabağın dirçəldilməsi və yenidən qurulması proseslərində Şuşa şəhərinin rolu xüsusilə ön plana çıxıb. İlk növbədə Şuşanın bərpa edilməsi, bütün Azərbaycanlıların bir müqəddəs ziyarət yerinə çevrilməsi, Qarabağın ruhunu – Azərbaycanlı ruhunu, ümumilikdə milli ruhun özümüə qaytarılmasında kifayət qədər ciddi əhəmiyyət kəsb edir [6, s.91]. Artıq on minlərlə Azərbaycanlılar və dünyanın müxtəlif ölkələrindən siyasətçilər, görkəmli şəxslər, məhşur insanlar, səyahətçilər Qarabağda və Şuşada olmuş, eyni zamanda Qarabağın dağıdılmış ruhlar şəhəri adlandırılan, hətta Yaponiyanın atom bombası nəticəsində darmadağın olmuş və boz küllüyə çevrilmiş Xirosima ilə müqayisə edilən Ağdama səfərlər edilmişdir. Bundan əlavə, digər dağıdılmış, viran qalmış rayon mərkəzlərində, şəhərlərində, kəndlərində olan səyahətçilər erməni vandallarının törətdiyi cinayətləri, o cümlədən, qatı hərbi cinayətləri və insanlığa qarşı vandalizmləri bütün dünyaya çatdırmaqdadılar. Ən başlıcası Azərbaycanlılar öz doğma torpaqlarına, soydaşlarımız öz əzəli torpaqlarına və yurdlarına qayıtmaq imkanı əldə etmişlər. Artıq Qarabağda bunun ilk cücərtiləri vardır. Belə ki, Zəngilanın 3 Ağalı kəndinin bazasında yaradılan "ağıllı kənd" layihəsində artıq ilk ailələr rahat, hər

cür şəraiti olan, yüksək texnologiyalar əsasında idarə edilən, sosial infrastruktura malik doğma kəndlərinə qayıtmağa başlamışlar. Amma bütün bunlarla bərabər, Şuşanın dirçəldilməsi, Şuşada mövcud olan tarixi abidələrin, mədəniyyət ocaqlarının bərpa edilməsi, dağıdılmış infrastrukturun yenidən qurulması, Şuşanın yeni Baş Planı əsasında yaşayış massivinin salınması, müasir təhsil və səhiyyə müəssisələrinin tikintisi böyük sürətlə getməkdədir.

Bunlarla bərabər, Şuşanın turizm-rekreasiya imkanlarını nəzərə alaraq, hələ sovetlər birliyi dövründə burada Şuşa iqtisadiyyatının əsasını təşkil edən turizmin, turizm-rekreasiya imkanlarının reallaşdırılmasında önəmli rol oynayan Şuşa sanatoriyasının müasir texnologiyalar əsasında yenisinin tikilməsinin təməlqoyma mərasimi baş tutmuşdur. Eyni zamanda, otellər tikilir, ictimai yaşayış obyektləri istismara verilir və artıq onların bir qrupu fəaliyyətə başlamışdır. Şuşa şəhərinin iqtisadiyyatının qurulması, onun strukturunun müəyyənləşdirilməsi spesifik xarakter daşıyır [5, s.267]. Fikrimizcə, Şuşa şəhərinin iqtisadiyyatını formalaşdırarkən, insanların ənənəvi məşğulluq fəaliyyəti istiqamətləri, o cümlədən qədim sənətkarlıq sahələrinin inkişaf etdirilməsi və burada muxtəlif musiqi alətlərinin və suvenirlərin hazırlanması üzrə kiçik və orta müəssisələrin yaradılması, daha çox fərdi emalatxanaların təşkilini vacib hesab edirik.

Şuşada fərdi sahibkarlığın, yəni mikrosahibkarlığın inkişafı daha çox ciddi önəm təşkil etməlidir. Belə ki, zaman öz sözünü demiş və artıq müasir texnologiyalar dövrüdür. Ona görə də, Şuşa tam qədimdən bu yana qoruyub saxladığı ənənəvi məşğulluq sahələri və əhalinin gəlirlərinin formalaşdırılması üçün olan mənbələrlə yanaşı yeni intellektual resurslar, bilik iqtisadiyyatı əsasında innovasiyalar, rəqəmsal texnologiyalara söykənmiş iqtisadiyyat sahələri formalarından real olaraq istifadə etməlidir. Məhz bütün bunların həyata keçirilməsi nəticəsində Şuşanın inkişaf etdirilməsi, onun sosial-iqtisadi inkişafının daha intensiv olaraq təmin olunması və yaxın perspektivdə Şuşanın regionun yüksək investisiya cəlbedici və dünya Azərbaycanlıların müqəddəs yeri və ocağı kimi səyahət etmələrindən ötrü hər cür şəraitin yaradılacağını əminliklə söyləmək olar. Bütün bunların ciddi əsasları vardır və hazırda Qarabağın işğaldan azad olunmuş ərazilərində, ilk növbədə Şuşada bunlarla bağlı ciddi işlər görülməkdədir.

Şuşa şəhərinin iqtisadiyyatının formalaşdırılması xüsusi yanaşmalar təmin edir. Bununla bağlı dünya təcrübəsinin dərindən öyrənilməsi, mürəkkəb relyefdə yerləşən şəhərlərin iqtisadiyyat quruculuğu ilə bağlı məsələlərə xüsusi diqqət yetirilməlidir. Dünya təcrübəsi nəzərə alınmaqla, məsələn, dünyanın bir çox ölkələrində dağlıq ərazilərdə mürəkkəb relyefdə yerləşən şəhərlərdə əsas etibarilə xidmət sahələri və ilk növbədə, turizm çox güclü inkişaf etdirilir. Bu Şuşa üçün yeni trend deyildir və Sovetlər Birliyi dövründə Şuşaya turistlər fəal olaraq gəlirdi, burada olan sanatoriyada müalicə alırdı. Həm də çoxlu sayda respublikamızın sakinləri Şuşaya səfərlər edərdilər və orada müxtəlif bulaqların ətrafında dincələrdirlər. Ümumiyyətlə, Şuşada turizm-rekreasiya imkanları genişdir və bu resurslardan müasir dövrün texnologiyaları əsasında istifadə olunması, turizim-rekreasiya komplekslərinin yaradılması, otel brendlərinin tikilməsi, sanatoriyalar şəbəkəsinin genişləndirilməsi mümkündür. Yəni burada bir sanotoriya ilə əlbəttə kifayətlənmək məqsədəuyğun deyildir. Eyni zamanda, Şuşa şəhərinin sosial infrastrukturunun yenidən qurulmasında şəhərin qədim özəlliklərinin saxlanılması ilə yanaşı, müasir elementlərin və azərbaycanlı – Şuşa ruhuna xas olan elementlərin işlənməsi şərtilə şəhərin inkişaf etdirilməsi olduqca vacibdir. Şuşanın yüksək texnologiyalar, o cümlədən "ağıllı" texnologiyalar əsasında idarə olunması, kifayət qədər çevik və səmərəli ictimai nəqliyyat sisteminin yaradılması, xidmət sektorunun formalaşdırılması, əhalinin tam məmnunluğuna səbəb ola biləcək kommunal xidmətlərin göstərilməsinin təmin edilməsi mühüm məsələlər kimi diqqət çəkirlər. Çünki kiçik bir əraziyə malik olan şəhərin abad və cəlbedici olmasında bu amillərin böyük rolu vardır.

Şuşanın böyük üstünlüklərindən biri burada mədəniyyət sahələrinin qədim ənənələrinin olması və eyni zamanda müxtəlif festivalların keçirilməsi üçün gözəl iqlimin və münbit şəraitin mövcudluğu ilə yadda qalır. Bu baxımdan, burada həm mədəniyyət, həm kommersiya xarakterli xidmətlər turizm paketlərinə daxil ola bilər. Müvafiq və rahat turizm infrastrukturu, otellər – xidmət şəbəkəsi formalaşdırılması müqabilində həmin xidmətlərin həm teatr, kino, yeni incəsənət formalarının, nümunələrinin yaradılmasının gələcəkdə turizm paketlərinə daxil edilməsi və böyük təbliğatının aparılması da vacibdir.

Şuşa iqtisadiyyatının əsasında xidmət sektoru şübhəsiz əsas yer tutmalıdır və xidmət sektorunun mühüm sahələrindən biri də intelektual resursların xidmət sahələrinə çevrilməsidir.

Əhalinin rahat yaşaması üçün burada insanların mümkün məşğulluq formalarının təmin edilməsindən ötrü daha intensiv tədbirlərin görülməsinə xüsusi ehtiyac vardır. Eyni zamanda, Şuşada daimi əlavə dəyər formalaşdıran və layiqli iş yerlərinin yaradılmasına imkan verən adekvat iqtisadiyyat sahələrinin yaradılması daha düzgün olardı. Məsələn, Şuşada ilin müxtəlif fəsillərində dünya ölkələrindən məşhur incəsənət kollektivlərinin, muzeylərin, teatrların daimi fəaliyyət göstərən truppalarının təşkili səmərəli ola bilərdi. Bu xidmətlərin potensial turistlərin turizm paketlərinə əlavə edilməsi və bu cür məsələlərin ətrafında turizm və mədəniyyət iqtisadiyyatının inkişaf etdirilməsi, bunlarla bağlı Şuşa iqtisadiyyatının sahəvi strukturun təkmilləşdirilməsi tələb olunur. Əlbəttə, bu istiqamətdə dövlət dəstəyi, dövlətin yatırdığı məqsədli investisiyalar, əsaslı kapital qoyuluşu ilə yanaşı, özəl sektorun bu sahədə fəallığının artırılması zəruridir. Ona görədə Şuşada kiçik və orta sahibkarlığın, əvvəldə qeyd etdiyimiz kimi, ilk növbədə fərdi sahibkarlığın, mikro sahibkarlığın inkişafı üçün daha fərqli mexanizmlər, dövlət dəstəyi mexanizmləri, güzəştlər və maddi-texniki təminatın gücləndirilməsi, infrastrukturun yaradılması, sahibkarlıq və biznes subyektlərinin qeydiyyatının sadələşdirilməsi, sahibkarlığın inkişafına mane ola biləcək hallara yol verilməməsi olduqca vacib amillərdəndir.

Biz sənətkarlıq sahələrinin inkişafı ilə bağlı məsələlərə toxunduq, amma onların reallaşdırılması üçün kiçik və orta sahibkarlığın inkişaf etməsinə böyük ehtiyac vardır. Digər tərəfdən, əhali resurslarından və məhsuldar qüvvələrdən səmərəli istifadə etməklə, bank-kredit sisteminin formalaşdırılması Şuşada maliyyə xidmətləri bazarının inkişafına təkan verə bilər. Belə ki, Şuşa kifayət qədər cəlbedici bir şəhərdir və əvvəldə bildirdiyimiz kimi dünyanın hər tərəfindən soydaşlarımızı bura cəlb edə biləcək bir yerdir. Ona görə də burada maliyyə bazarlarının, maliyyə-kredit infrastrukturunun, yüksək texnologiyalar və rəqəmsal əsaslı bank-kredit infrastrukturunun yaradılması məsələsi həll edilməlidir.

Hesab edirik ki, relyefin mürəkkəbliyi və eyni zamanda mümkün risklərin də nəzərə alınması baxımından, sığorta xidmətlərinin geniş seqmentinin Şuşada tətbiq olunması gecikdirilmədən təmin edilməlidir və bununla bağlı zəruri tədbirlər görülməlidir. İnvestisiyaların Qarabağa, ilk növbədə Şuşaya cəlb olunması, sahibkarlığın və biznes strukturlarının marağının təmin edilməsi, bazar iştirakçılarının səmərəli fəaliyyət göstərmələri üçün dövlət dəstəyi mexanizmlərinin işlənilməsi və tətbiqi nəticəsində yaxın perspektivdə Şuşanın sosial-iqtisadi dirçəldilməsinin yeni, daha intensiv bir mərhələyə keçəcəyini proqnozlaşdırmaq olar.

Nəticədə Şuşa özünün qədimliyini, mədəni irsini və gözəlliyini, füsünkarlığını qorumaqla bərabər, müasir dövrün ən cəlbedici elementlərini özündə ehtiva edəcək, dinamik inkişaf edən, milli ruhda olan doğma Şuşamız bütün dünya Azərbaycanlılarının müqəddəs şəhəri olaraq inkişaf edəcəkdir. Bunlar həm də Şuşanın sosial-iqtisadi inkişafının sabitləşdirilməsinə və Şuşanın daha intensiv dirçəldilməsinə, bununla bağlı işlərin kompleks şəkildə həyata keçirilməsinə, ümumilikdə Qarabağın sosial-iqtisadi inkişafına və ölkə iqtisadiyyatı ilə inteqrasiyasının sürətləndirilməsinə, regionun cəlbedici, dinamik inkişaf edən bölgəsinə çevrilməsinə əlavə stimullar verəcəkdir və s.

**Ədəbiyyat siyahısı:**


1. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri // Jurnal "Geostrategiya", Bakı, 2021, №4. – s. 67-72.
2. Səmədzadə, Z.Ə. Qarabağ iqtisadiyyatı 100 ildə. V cild, Bakı, 2022. – 854 s.
3. Алиев, Т.Н. Восстановление экономики Карабаха и Восточного Зангезура на основе концепций устойчивого и инклюзивного развития // The Scientific Heritage. 2022. №82-4. –с.19-33.
4. Алиев, Ш.Т. Стратегическая важность возрождения Карабахского и Восточно-Зангезурского экономических районов Азербайджана// «Вопросы Истории» (Москва), № 6, 2022. – с. 148-155.
5. Ahmadov, F., Adgüzelli, F. Şuşa şehrinin markalaşması üçün için yol haritası. / Qarabağda biznes mühiti və kiçik orta biznesin inkişafı. İSCEMR 2022, UNEC. – s. 257-293.
6. Mammadov, A., Gurbanli, N. Shusha as the main geographical location in the strategic development of Karabakh./ Qarabağ və Şərqi Zəngəzur iqtisadi inkişafında investisiyaların rolu. İSCEMR 2022, UNEC. – s. 86-106.

**Elnura Aliyeva**
Chemical Engineering, KM 19.1
Baku Higher Oil School
Baku, Azerbaijan
Email: elnura.aliyeva.std@bhos.edu.az

## The biotechnological approaches of conservation of the symbol of Shusha

**Abstract**

One of the first things that comes to mind when Shusha is mentioned is Khari Bulbul. This flower is turned into a symbol of Shusha. As it grows only in the Shusha region of the South Caucasus, it is known as endemic flower. Plant species that are endemic are typically more susceptible to manmade threats and natural changes, which increases their risk of extinction. Of course, Khari Bulbul is immortalized by its name being used by local music bands and its image being found in the ornaments on traditional Azerbaijani rugs and even on the manat, the national currency, but Khari Bulbul itself must be preserved by us. Since it is indigenous to our nation and contributes to our identity, this native plant makes our nation distinctive. Khari Bulbul's preservation is a serious worry, and in situ protection by itself will not ensure its conservation. Ex situ conservation methods are required to help ensure the survival of Khari Bulbul, and seed banking is the most effective and economical approach. When seed banking is not an option, different strategies should be taken into account. The use of biotechnological tools for the conservation has grown significantly over the past few years. These techniques offer new and complementary choices for short-, medium-, and long-term strategies. The state of using biotechnology-based strategies for the preservation of endemic plant is discussed in this article. Cryopreservation is given special consideration since it is the only long-term ex situ conservation approach that can support and complement other conservation efforts. It is explored why it is difficult to cryopreserve Khari Bulbul, and new approaches are suggested to make it easier and generate more interest in the subject. As Khari bulbul is also an endemic plant the methods of conservation endemic plant species are applicable for Khari Bulbul.

**Keywords:** Khari Bulbul, endemic flower, ex situ conservation, seed bank, cryopreservation, slow growth, in vitro propagation.

### Endemic plant's conservation

For life to exist on earth and to function properly in all ecosystems, plants are essential. Despite their significance, plant biodiversity is under danger worldwide, and every year the number of vulnerable species skyrockets [1]. Natural population declines or even the extinction of entire species are frequently caused by human overexploitation, habitat destruction, and more recently, genetic variety loss brought on by pollution and climate change [2-4]. Numerous of these species are endemic, making them rare, and frequently only a few, small natural populations are able to survive [4,5].

in situ conservation, or the conservation of ecosystems and biodiversity in their natural habitats, is the most suitable conservation strategy for the preservation of species, particularly endemic species Because it protects the original genetic and geographic centers of biodiversity [6,7]. However, additional tactics and techniques should be used to supplement and assist in situ protection in order to create a more comprehensive and effective conservation program [7]. As a matter of fact, ex situ conservation, or the preservation of biodiversity outside of its natural habitats, is occasionally the only viable choice for the preservation of rare and endemic species [4,5,6]. The best strategy for ex situ conservation of plant germplasm is conventional seed bank storage (dry storage at 20 °C), which is also the simplest and most effective method and preserves genetically varied material [8]. Not all plant species, nevertheless, can be kept using this method. Only orthodox seeds (desiccation-tolerant) can withstand desiccation conditions and cold storage without losing viability in species with recalcitrant (desiccation-sensitive) and intermediate (relatively desiccation-tolerant) seeds [6]. In addition, certain plant species are vegetatively propagated rather than producing seeds. Additionally, some are extremely heterozygous despite being able to generate seeds. Field collections are the

standard ex situ conservation technique for these plant species [6,9]. The drawbacks of this approach include the fact that it frequently necessitates huge amounts of land, is labor-intensive, and leaves collections vulnerable to pestilence and other calamities [9]. Additionally, crop species are primarily preserved through field collections. Therefore, it's crucial to use alternate strategies, including biotechnology techniques, to protect these species. However, the employment of alternative conservation techniques should not just be taken into account for species that are vegetatively propagated and non-traditionally seeded. In some instances, complementary tactics must be used in addition to conventional conservation techniques to improve the chances of survival, even for species with conventional seeds that can be easily stored in seed banks.

**Biotechnological Methodologies**

The goal of biotechnology's significant contribution to plant conservation is to enhance and supplement existing techniques rather than to replace them (Figure 1) [6,10]. Biotechnology for plant conservation includes managing, characterizing, and using (in a sustainable way) plant genetic resources as well as conserving them [10]. Particularly, in vitro conservation (the preservation of plant germplasm in culture collections using tissue culture technology) may make it simple to assess, use, and safely interchange plant material [4,6,7]. Plant germplasm is kept in culture collections for either short-term (using normal tissue culture) or medium-term (slow growth), which is accomplished by limiting growth. The cryopreservation of plant material in liquid nitrogen (LN) is referred to as long-term storage [6]. A few reviews address the use of biotechnological techniques for the preservation of rare and endangered species, either by providing an overview of the topic [4,5,6] or by concentrating on a particular area/nation [11,12] or class of plants [13].

The goal of this review is to provide a global overview of the conservation of endemic plant species with small populations and limited distribution using in vitro culture techniques, taking into account the significant advancements in the use of biotechnological tools and their significance to supplement other ex situ methods. Since cryopreservation is the sole method that allows for long-term conservation, it will be covered in more detail because, as far as our literature study can tell, there isn't a thorough analysis of how it may be used to conserve narrow endemic plant species, also known as endemic plant species. In vitro propagation is regarded as an excellent substitute for the traditional propagation methods since it enables the recovery of several plants in a little amount of time and restricted space and makes the transportation of propagation material easier [6]. This is especially helpful for rare and endangered species and plants that are hard to propagate using conventional methods or have slow rates of propagation. The fact that this method only requires tiny amounts of mother plant material for mass propagation with no negative influence on wild ecosystems is an additional benefit [6].




**Figure 1. Different conservation tactics are represented schematically, with a focus on biotechnological-based methods (adapted from [10]).**

**Medium- (Slow Growth) and Short- Term Preservation (In Vitro Propagation)**

One effective strategy for lowering the danger of extinction of threatened species or populations is the reinforcement of wild plant populations using individuals produced ex situ [14]. As a result, the creation of efficient propagation techniques is crucial to conservation projects. As a crucial stage for both direct plant propagation and the use of medium - (slow growth) and long-term conservation approaches, in vitro culture under normal growth circumstances enables the short-term (active state growth) conservation of genetic material of uncommon and endangered plants (cryopreservation).

It takes a lot of work and money to keep in vitro cultures in active growth (short-term conservation), which entails transferring cultures to fresh media on a frequent basis for short periods of time (a few weeks). In order to reduce plant growth and the number of sub-cultures necessary without compromising the viability of the explants, slow growth storage is a technique for the medium-term conservation of in vitro plant germplasm. This method allows cultures to be kept in the same medium without subculturing for a number of months. Inducing osmotic stress, employing growth inhibitors, decreasing oxygen partial pressure, or modifying the media composition (e.g., growth regulators, minerals) and/or ambient circumstances (e.g., lowering temperature and/or light) are all ways to reduce growth [15]. When compared to standard in vitro propagation, the use of this technique for plant germplasm conservation significantly lowers costs and labor time by reducing the number of subcultures, but it still needs a lot of storage space and ongoing maintenance, and the risk of soma clonal variation still exists. There are numerous papers on using slow growth as a medium-term conservation approach, although they tend to concentrate mostly on crops that are significant economically. Studies on endemic plant species are few [16,17], perhaps as a result of efforts and resources being focused on other tactics, like cryopreservation, which will be covered in more detail in the following section of this review.

**Cryopreservation**

Long-term ex situ conservation techniques like cryopreservation retain live biological resources at extremely low temperatures like those of liquid nitrogen (LN) (-196 C) and/or its vapor phase (-150 C) [6,18,19]. Theoretically, different types of plant cells, tissues, and organs can be cryopreserved without losing their viability since metabolic processes stop at these extremely low temperatures, preventing changes and/or degeneration of plant material [6,19]. In addition, the material is shielded from contamination, stored in a compact area, and only minimal maintenance is

needed. The genetic stability of plant material can be preserved using cryopreservation procedures on a variety of genotypes without the need for routine subcultures [6,20,21].

Plant cells must be able to be chilled and recovered from extremely low temperatures without suffering damage in order to carry out an effective cryopreservation technique. The transformation of water into ice, which results in ice crystals, during the cooling process is the primary factor in cellular damage [22]. Due to their cellular makeup and high-water content, the majority of plant cells and structures are very susceptible to intracellular freezing [6,19]. Cells must be sufficiently dehydrated and treated to cryoprotectant solutions before freezing in LN in order to avoid the development of ice crystals. The exceptions are, for instance, orthodox seeds and dormant buds, which can be directly cryopreserved without pretreatment since they can tolerate desiccation better [6].

Different species and even varying clonal lines of the same species have different capacities for surviving cryopreservation. To achieve the highest recovery rates following cryostorage, protocols must be carefully tailored for each species/clone and explant type [12,23]. Due to their worth and the extensive understanding of their growing circumstances, there are much cryopreservation research involving crops or commercially significant plant species [6,24]. The majority of endemic and wild species are very variable, and there is little knowledge available about their biology, making the process of creating a cryopreservation technique more difficult.

**Synopsis and Future Perspectives**

A potent method is developed by combining cryopreservation and in vitro propagation. To ensure Khari Bulbul propagation after the recovery of the stored plant material, regardless of the in vitro technique used, the creation and optimization of in vitro propagation protocols are essential. Ex situ-raised plant can then be used for various purposes, such as breeding programs, or to reinforce or restore natural depleted populations. Theoretically, cryopreservation keeps the plant material safe in cryobanks indefinitely for use in future plant production, including re-introduction in the wild [18]. Considering their global distribution and abundance, however, there are currently only a small number of articles on the cryopreservation of indigenous plant species in international journals. Overall, it can be said that there is still a lot that can be done to utilize cryopreservation for the benefit of future efforts to conserve this rare plant.

## References

1. FAO. The State of the World’s Biodiversity for Food and Agriculture. In FAO Commission on Genetic Resources for Food and Agriculture Assessments; Bélanger, J., Pilling, D., Eds.; FAO: Rome, Italy, 2019. Available online: plants-09-00345-v2.pdf (accessed on 08.10.2022).
2. Corlett, R.T. A Bigger Toolbox: Biotechnology in Biodiversity Conservation. Trends Biotechnol. 2017, 35, 55–65.
3. Cuttelod, A.; García, N.; Abdul Malak, D.; Temple, H.; Katariya, V. The 2008 Review of the IUCN Red List of Threatened Species; Vié, J.-C., Hilton-Taylor, C., Stuart, S.N., Eds.; IUCN: Gland, Switzerland, 2008; p. 1.
4. Reed, B.M.; Sarasan, V.; Kane, M.; Bunn, E.; Pence, V.C. Biodiversity conservation and conservation biotechnology tools. In Vitro Cell. Dev. Biol.-Plant 2011, 47, 1–4.
5. Sarasan, V.; Cripps, R.; Ramsay, M.M.; Atherton, C.; Mcmichen, M.; Prendergast, G.; Rowntree, J.K. Conservation in vitro of threatened plants—Progress in the past decade. In Vitro Cell. Dev. Biol.-Plant 2006, 42, 206–214.
6. Engelmann, F. Use of biotechnologies for the conservation of plant biodiversity. In Vitro Cell. Dev. Biol.-Plant 2011, 47, 5–16.
7. Maxted, N.; Ford-Lloyd, B.V.; Hawkes, J.G. Complementary conservation strategies. In Plant Genetic Conservation: The In Situ Approach; Maxted, N., Ford-Lloyd, B.V., Hawkes, J.G., Eds.; Chapman and Hall: London, UK, 1997; Chapter 2; p. 15.
8. Pritchard, H.W. Cryopreservation of desiccation tolerant seeds. In Cryopreservation and Freeze-Drying Protocols; Day, J.G., Stacey, G.N., Eds.; Humana Press Inc: Totowa, NJ, USA, 2007; Chapter 13; p. 183.
9. González-Benito, M.E.; Clavero-Ramírez, I.; López-Aranda, J.M. Review. The use of cryopreservation for germplasm conservation of vegetatively propagated crops. Span. J. Agric. Res. 2004, 2, 341–351.

10. Benson, E.E. An Introduction to Plant Conservation Biotechnology. In Plant Conservation Biotechnology; Benson, E.E., Ed.; Taylor & Francis: London, UK, 1999; Part 1; Chapter 1; p. 3.
11. González-Benito, M.E.; Martín, C. In Vitro Preservation of Spanish Biodiversity. In Vitro Cell. Dev. Biol.-Plant 2011, 417, 46–54.
12. Streczynski, R.; Clark, H.; Whelehan, L.; Ang, S.-T.; Hardstaff, L.; Funnekotter, B.; Bunn, E.; Offord, C.A.; Sommerville, K.; Mancera, R. Current issues in plant cryopreservation and importance for ex situ conservation of threatened Australian native species. Aust. J. Bot. 2019, 67, 1–15.
13. Barnicoat, H.; Cripps, R.; Kendon, J.; Sarasan, V. Conservation in vitro of rare and threatened ferns—Case studies of biodiversity hotspot and island species. In Vitro Cell. Dev. Biol.-Plant 2011, 47, 37–45.
14. Bowes, B.G. A Colour Atlas of Plant Propagation and Conservation; Manson Publishing Ltd.: London, UK, 1999.
15. Reed, B.M.; Gupta, S.; Uchendu, E.E. In Vitro Genebanks for Preserving Tropical Biodiversity. In Conservation of Tropical Plant Species; Normah, M., Chin, H., Reed, B., Eds.; Springer: New York, NY, USA, 2013; Chapter 5; p. 77.
16. Iriondo, J.M.; Pérez, C. Micropropagation and in vitro storage of Centaurium rigualii Esteve (Gentianaceae). Isr. J. Plant Sci. 1996, 44, 115–123.
17. Martin, K.P.; Pradeep, A.K. Simple strategy for the in vitro conservation of Ipsea malabarica an endemic and endangered orchid of the Western Ghats of Kerala, India. Plant Cell Tissue Organ Cult. 2003, 74, 197–200.
18. Benson, E.E. Cryopreservation of Phytodiversity: A Critical Appraisal of Theory & Practice. Crit. Rev. Plant Sci. 2008, 27, 141–219.
19. Matsumoto, T. Cryopreservation of plant genetic resources: Conventional and new methods. Rev. Agric. Sci. 2017, 5, 13–20.
20. Harding, K. Genetic integrity of cryopreserved plant cells: A review. CryoLetters 2004, 25, 3–22.
21. Walters, C.; Wheeler, L.; Stanwood, P.C. Longevity of cryogenically stored seeds. Cryobiology 2004, 48, 229–244.
22. Fuller, B.J. Cryoprotectants: The essential antifreezes to protect life in the frozen state. CryoLetters 2004, 25, 375–388.
23. Reed, B.M. Plant Cryopreservation: A Practical Guide; Springer: New York, NY, USA, 2008.
24. Ciringer, T.; Martín, C.; Šajna, N.; Kaligariˇc, M.; Ambrožiˇc-Dolinšek, J. Cryopreservation of an endangered Hladnikia pastinacifolia Rchb. by shoot tip encapsulation-dehydration and encapsulation-vitrification. In Vitro Cell. Dev. Biol.-Plant 2018, 54, 565–575.

---

**Rəhimova Türkan Fuad qızı**
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi
Layihələrin və İnnovasiyaların İdarə olunması, qrup 222

## Şuşanın resurs potensialından “Agile İnnovation” metodu ilə istifadə imkanları

Dünya təcrübəsindən də gördüyümüz kimi müharibədən çıxan ölkələr bir sıra problemlərlə üzləşirlər. Bu ölkələr öz qısamüddətli və uzunmüddətli strateji planlarını hazırlayarkən diqqət etməli olduqları əsas məsələ ondan ibarətdir ki, post-müharibə dövründə bütün daxili və xarici amillərə eyni anda diqqət yetirilsin. Onlar həm siyasi, həm mədəni, həm də iqtisadi inkişafa önəm verməlidirlər. Burada əsas məsələ bütün bu sahələr arasındakı balansı qorumaqdır. Ölkənin qarşısında duran məqsədləri aşağıdakı kimi ümumiləşdirib sadalaya bilərik:

1. Sülhü qorumalı və siyasi təhlükəsizliyi təmin etməli;
2. Əhalini yenidən cəmiyyətə inteqrasiya etməli;
3. İnfrastruktur və digər ictimai institutları bərpa etməli;
4. Maliyyə rejimini dirçəltməli və ölkənin iqtisadi aktivlərinə nəzarət etməli;

5. İş imkanı yaratmalı, bərabərsizlikləri aradan qaldırmalı, insanların güzəranını artırmalı və s.

Müharibə ölkənin resurslarını istehsaldan məhvə doğru yönləndirir. Münaqişənin iqtisadi nəticəsi aktivlərin məhv edilməsi və ölkənin iqtisadi istehsalının müvafiq olaraq azalmasından ibarətdir. Bu zaman həmin bölgə investorların etimadını doğrultmaqdan uzaqlaşdığı üçün əksər "yükləri" dövlət sektorunun daşımasına gətirib çıxarır. Kənddən tutmuş maliyyə birjalarına qədər bazarlara ciddi şəkildə təsir göstərir və iqtisadi fəaliyyətin dağılmasına, inkişafın dayanmasına gətirib çıxarır.

Dünya Bankı münaqişədən sonra iqtisadiyyatın bərpasını cəmiyyətin sosial-iqtisadi çərçivəsinin yenidən qurulması və dinc cəmiyyət üçün əlverişli şəraitin bərpası, o cümlədən idarəetmə və qanunun aliliyini əsas komponentlər kimi açıq şəkildə müəyyən edir. Bununla belə, ölkə müharibədən əvvəlki gəlir səviyyəsinə və artıma çatdıqda, münaqişədən sonrakı iqtisadi bərpa uğurlu olaraq sayılmır, əksinə, artım əvvəlkindən daha yüksək səviyyəyə çatdırılmalıdır. Yəni ölkənin məqsədi müharibədən sonra bölgəni əvvəlki halına geri gətirmək yox, ondan daha da yaxşı vəziyyətə gətirmək olmalıdır.

Müharibədən sonra iqtisadiyyatın bərpası mövzusu təkcə ölkələrə geniş miqyaslı təsirlərinə görə deyil, həm də ona görə çox maraqlıdır ki, bu məsələ bizə ölkənin iqtisadi inkişafı üçün tamamilə yeni model hazırlamağa imkan verir. Bu, bizə makroiqtisadiyyatın əsl mahiyyətini anlamağa, onun bizə verdiyi alətlərdən istifadə etməyə şərait yaradır. Münaqişədən sonrakı iqtisadi bərpa prosesi qəti və konkret deyil, daha çox yeniliklərə açıq və ani dəyişikliklərə cavab verə biləcək şəkildə elastik olaraq hazırlanmalıdır. İqtisadiyyatı təşkil edən müxtəlif amilləri nəzərə alınmalı və böyümə üçün mümkün olan ən yaxşı modeli inkişaf etdirməyə çalışılmalıdır.

Bu məqalənin məqsədi müharibədən sonrakı iqtisadi bərpa prosesinin müxtəlif makroiqtisadi və mikroiqtisadi atributlarını öyrənmək və müasir dünya ssenarisində onları tənqidi təhlil etməkdir. Həmçinin, layihə müasir dövrün aktual problemini daha yaxşı başa düşmək və ona daha yaxşı həllər təqdim etmək məqsədi daşıyır. Ümumiyyələ, bu məqalədə sizə Şuşanın işğaldan öncəki iqtisadi potensialı və vəziyyətinin, davamında işğal müddəti ərzindəki iqtisadi proseslərin təhlilini, sonra isə hazırda bu potensialdan necə səmərəli istifadə edərək iqtisadi-strateji plan hazırlaya biləcəyimizlə bağlı araşdırmalarımı təqdim edəcəyəm.

Hamımızın yaxşı bildiyi kimi, Şuşa və digər işğaldan azad olunmuş ərazilərimiz tarixi, mədəni dəyəri, heyranedici təbiəti ilə bərabər yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına və xüsusilə qeyd etməli olduğumuz, zəngin iqtisadi potensiala malikdir. İstər aqrar üstünlüyü, istərsə də həm hasiledici, həm də emaledici sənayesi baxımından olduqca əlverişlidir. Sektor olaraq yanaşmaq lazım gələrsə, Şuşa üçün əsas üç sektoru vurğulamaq istərdim. Bunlar ticarət sektoru, aqrar sektor və mütləqdir ki, turizm sektorudur. Gəlin indi keçmişə nəzər salaq və görək işğaldan əvvəl bu sektorlar hansı vəziyyətdə idi.

Başlamaq istərdim ötən əsrlərdə Şuşada ticarətin vəziyyətindən. Qeyd edim ki, ötən əsrin əvvəllərində burada 1700-dən çox ticarət obyekti olduğu məlumdur. Onların bazarlarla bir yerdə illik ticarət dövriyyəsi təxminən 6 milyon rubla qədər çatmışdır. Digər tərəfdən aqrar sektora nəzər saldıqda isə görə bilərik ki, Şuşada 20.9 min hektara qədər yararlı torpaq sahəsi mövcuddur. Bu da öz növbəsində kənd təsərrüfatının inkişafına təkan verir. Azırbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2019-cu ildə burada 14 milyon 88 min manat məbləğində məhul istehsal olunub. Bunun əsas hissəsi isə kənd təsərrüfatı məhsullarının payına düşüb. Turizmə gəldikdə isə o Şuşanın iqtisadiyyatında xüsusi yer tutur. Füsunkar təbiəti, göz oxşayan mənzərələri, Turşsu yaylaqları, İsa bulağı, Cıdır düzü bir sözlə havası da, suyu da, torpağı da əvəzolunmazdır. Bədnam qonşularımızın Şuşanı dağıtmasında əvvəl, 1992-ci ilə qədər burada Turşu istirahət və müalicə mərkəzi fəaliyyət göstərirdi. Bu mərkəz Laçın yolunun üstündə və Daşaltı çayının yaxınlığında idi. Həmçinin Turşu müalicəvi vannaları ilə də tanınırdı. Gözəlliyi ilə dillər əzbəri olan Cıdır düzündə 1992-ci ilə qədər hər il may ayında "Xarı-Bülbül" mahnı festivalları keçirilirdi. Bunlardan əlavə qeyd edə bilərik ki, Şuşa işğal olunmazdan əvvəl burada Bakı "Radioqurma" istehsalat birliyinin müəssisəsi, şərq musiqi alətləri fabriki, Qarabağ ipək kombinatının toxuculuq sexi və istehsalat kombinatı, inşaat materialları istehsalı üzrə müəssisələr də vardı.

Gördüyümüz kimi, işğaldan öncə Şuşanın kifayət qədər iqtisadi potensialı vardı və dövrün tələblərinə uyğun olaraq düzgün şəkildə bu potensial və resurslardan istifadə olunurdu. Lakin o dəhşətli hadisələrdən sonra nə Şuşa əvvəlki kimi güllük-güzəranlıq oldu, nə də bizlər. Bütün bu ağrılı-acılı illər hər mənada, hər sektorda özünü göstərdi. Anasından ayrı düşən övladın cılızlaşdığı kimi kiçildi, parçalandı bizim əzəmətli Şuşamız. Maddi olaraq da, mənəvi olaraq da dağıdıldı, inkişafı dayandırıldı.

Necə deyərlər, zər qədrini zərgər bilər. Nə bilsin quldur bizim Şuşamızın qədrini. Amma artıq keçdi, geridə qaldı o günlər. Şanlı ordumuzun sayəsində yenə bizimlədir əzəli və əbədi torpaqlarımız. İndi isə sıra Şuşanı çiçəkləndirməkdədir. İndi sıra bizlərdədir. Ali baş komandanımızın da dediyi kimi, həyat və gülüş çox qisa zamanda Azərbaycanın bu qədim şəhərinə də qaydıcaq. Qarabağ Azərbaycandır!

Yurdumuzun bu qədim və əzəmətli şəhərinin keçmişinə nəzər saldıqdan sonra, indi isə sıra bu günü təhlil etməkdədir. Ticarətin dayandığı, sənaye müəssisələrinin fəaliyyətini sonlandırdığı, turizmin əlçatmaz olduğu, mədəniyyət abidələrinin dağıdıldığı, bir sözlə, bütün infrasturukturunun məhv edildiyi bir haldadır. Amma hələlik. Bəli hələlik, çünki biz qayıtdıq! Bütöv Azərbaycan olaraq illərdir bizdən ayrı düşən torpaqlarımızda yenidən yurd-yuva salmağa gəlmişik. İqtisadiyyatımızı bərpa etməyə, infrasturukturumuzu dirçəltməyə gəlmişik.

Burada qarşımızda duran əsas məsələ Şuşanın resurs potensialından düzgün istifadə etmək üçün bütün metodologiyaları nəzərdən keçirmək və günümüzün şərtlərinə uyğun olaraq bizə maksimum fayda verə biləcək həll variantını seçməkdir. Məqalənin əvvəlində qeyd etdiyim kimi, münaqişədən sonrakı iqtisadi bərpa prosesi qəti və konkret deyil, daha çox yeniliklərə açıq və ani dəyişikliklərə cavab verə biləcək şəkildə elastik olaraq hazırlanmalıdır. İqtisadiyyatı təşkil edən müxtəlif amilləri nəzərə alınmalı və böyümə üçün mümkün olan ən yaxşı modeli inkişaf etdirməyə çalışılmalıdır.

Bəs sizcə, yaranması keçən əsrə gedib çıxsa da, xüsusilə son on illikdə məşhurlaşan və günümüzdə bir çox sahədə tətbiq olunan “Agile” metodu ilə Şuşanın resurs potensialından maksimum dərəcədə faydalana bilərikmi? Niyə də olmasın. Gəlin indi birlikdə bunu araşdıraq və həll yollarını nəzərdən keçirək.

Əvvəlcə onu qeyd edim ki, Agile yaratmaq və dəyişikliklərə cavab vermək qabiliyyətidir. Bu, qeyri-müəyyən və təlatümlü bir mühitlə mübarizə aparmağın və nəticədə uğur qazanmağın bir yoludur.

Agile ideologiyasının müəllifləri bütün bu ideyanın etiketi kimi “Agile”-ni seçdilər, çünki bu söz onların yanaşması üçün çox vacib olan dəyişikliyə uyğunlaşma və reaksiyanı təmsil edirdi.

Bu, həqiqətən də bu gün içində olduğunuz mühitdə baş verənləri necə başa düşə biləcəyinizi, hansı qeyri-müəyyənliklə qarşılaşdığınızı müəyyənləşdirə biləcəyinizi və irəlilədikcə buna necə uyğunlaşa biləcəyinizi düşünməkdən ibarətdir.

Bildiyiniz kimi, günümüzdə makroiqtisadi amillər olduqca sürətlə dəyişir. Pandemiya kimi bir məhfumun həyatımıza daxil olması, Avropa və Asiyada müharibələrin yenidən alovlanması, texnologiyaların bir göz qırpımında yenilənməsi və bu kimi səbəblərdən maliyyə sahəsində saatbasaat dəyişiklərin özünü göstərməsi bizi daha çevik olmağa vadar edir. Artıq zəmanə bütöv və uzun bir plan hazırlayıb illərlə onu tətbiq etməyi tələb etmir. Hazırda daha çevik olmalı, baş verən proseslərə sürətli şəkildə reaksiya verməli, dəyişən mühitə tez adaptasiya olmalıyıq. Tam da bu Agile prinsiplərinə uyğun gəlir.

Resursların planlaşdırılması, ümumiyyətlə, istifadə olunan layihənin idarə edilməsi metodlarından asılı olmayaraq hər hansı bir təşkilatın böyüməsində mühüm bir rıçaqdır. Bununla belə, bir qayda olaraq, resurs planlaması deterministik yanaşmalarla birləşən bir konsepsiyadır. Bəs bunun Agile layihə idarəetməsi ilə nə əlaqəsi var? Həqiqət budur ki, Agile layihələrə gəldikdə, resurs planlaması hələ də çox vacibdir. McKinsey-dən Santiago Comella-Dorda deyir: “Agile təşkilatlar planlamasını sürətləndirmək üçün sabit və dinamik elementlərin innovativ qarışığına güvənir”. Bu o deməkdir ki, Agile (Çevik) olmaq mütləq əvvəlcədən planlaşdırılmamış və ya ixtiyari qərarlarla idarə olunduğu anlamına gəlmir. Bunun əvəzinə çevik təşkilatlar onilliklər ərzində dövriyyədə olan idarəetmə üsullarından istifadə edir, yalnız çevik komandaların işlədiyi tempə uyğunlaşdırmaq üçün onları tənzimləyirlər. Bu "Agile-də sabitlik elementi" daha dəqiq potensial planlaması və resurs bölgüsü qərarları qəbul etməyə kömək edir və bütün cəlb olunmuş resursların məhsuldar şəkildə yerləşdirilməsi üçün resursları daha yaxşı idarə etmək yollarını təqdim edir. Üstəlik, Agile resurs idarəetməsi sizə “çevik” olanı bir yana qoyaq, istənilən layihə növünə xas olan resursla bağlı risklər haqqında məlumat verir. Resurs planlaşdırma strategiyaları mövcud olduqda, Agile komandaları layihəni durğunlaşdırmadan və ya tamamilə relsdən çıxarmazdan əvvəl potensial riskləri proqnozlaşdıra və qarşısını ala bilər.

Xüsusilə diqqət yetirməli olduğumuz digər bir məsələ isə bu prosesdə innovasiyalardan istifadədir. İşğaldan azad olunmuş ərazilərimizdə yenidənqurma tədbirlərinə nəzər salsaq görə bilərik ki, burada da innovativ layihələrdən istifadə olunur. “Ağıllı şəhər”-lərin, “Ağıllı kənd”-lərin və bunun kimi bir çox layihələrin təməlində təbii ki innovasiya strategiyası durur. Bütün bu qeyd etdiklərimi nəzərə alaraq

Şuşanın resurs potensialından istifadə imkanlarımızı genişləndirmək və maksimum fayda qazanmaq üçün “Agile” metodologiyası və innovasiya strategiyasını birləşdirmək, zənnimcə, yaxşı seçim olardı.

Şirkətlər və ya digər təşkilatlar qeyri-müəyyən mühitlərdə dəyər yaratmaq üçün artan innovasiya fəaliyyətlərini getdikcə daha uğurlu olması üçün innovasiya layihələri ilə birləşdirir. Bu, bu gün “Agile innovation - çevik innovasiya” konsepsiyasının inteqrasiyasında özünü göstərir. Çeviklik texnoloji, iqtisadi, sosial və mədəni mühitdə qarşılıqlı əlaqədə olan bütün qurumlar kimi başa düşülən, təşkilatın öz ekosisteminə effektiv şəkildə daxil olmaq qabiliyyəti kimi müəyyən edilə bilər. Buna görə də aidiyyatı strukturlar müxtəlif ehtiyacların başa düşülməsini sürətləndirmək və bununla da onlara xüsusi cavab verən yenilik və əlavə dəyər yaradılmasını inkişaf etdirmək üçün sistematik olaraq bütün maraqlı tərəfləri yeni məhsulların və xidmətlərin inkişafına cəlb edir. İnnovasiya baxımından bu yetkinlik səviyyəsinə çatmaq üçün təşkilatlar öz strategiyalarını, biznes modellərini, layihələrini uyğunlaşdırmalı və hətta öz “ekosistemləri” daxilindəki rollarını yenidən müəyyənləşdirməlidirlər. Yaranma və inkişaf kontekstindən asılı olmayaraq, bu vəziyyətlər həm innovativ layihələrin həyata keçirilməsində, həm də onların uğur perspektivlərində yüksək dərəcədə qeyri-müəyyənlik yaradır. Buna görə də çevikliyin məqsədi təşkilatlara dəyişiklik və əməkdaşlıq mədəniyyətini inkişaf etdirməklə əməliyyatlarını daha çevik etməklə dəyər yaratmağa imkan verməkdir. Beləliklə, çeviklik təşkilatları üç səviyyədə dəyişir:

1. Çevik metodlardan bəhrələnən innovativ layihələrin həyata keçirilməsi, çünki qorxu və qeyri-müəyyənlikləri birbaşa dizayn və inkişaf proseslərinə inteqrasiya etməklə azaltmağa və onları tərəqqi üçün imkanlar hesab etməyə imkan verir;
2. Başlanğıc ideyanı innovativ məhsula çevirməyə, onu təkmilləşdirməyə, müştərilərin və ya bazarların inkişaf edən tələblərinə uyğun formalaşdırmağa imkan verəcək yaradıcı mühitin və innovasiya sürətləndiricisinin yaradılması;
3. Təşkilati modeli və ya hətta çevikliyi qəbul edən təşkilatın inteqrasiya olunduğu təchizat zəncirini dəyişdirə bilən innovasiya prosesinin özünün daha effektiv idarə edilməsi və qiymətləndirilməsi.

Qeyd etdiyimiz bu üç səviyyənin tətbiqi ilə yenidənqurma işlərinin daha da sürətli və səmərəli həyata keçməsinə şərait yarada bilərik. Sadaladığımız bu komponentlərin hər birini bir çox alim araşdırmış, fərqli yönlərdən yanaşmalar irəli sürərək konsepsiyalar təqdim etmişlərdir. Christian Dianoux, Sandrine Heitz-Spahn, Béatrice Siadou-Martin, Géraldine Thevenot və Hélène Yildiz aşağı qiymətin çevikliklərini artırmaq üçün onlardan istifadə edən təşkilatların bacarıqlarını necə gücləndirdiyini təsvir edir. Stéphane Goria yaradıcılıq və iqtisadi monitorinq arasındakı əlaqəni araşdırır. O, çevikliyini qiymətləndirmək üçün OODA döngəsindən (Müşahidə, Orientasiya, Qərar, Fəaliyyət) istifadə etməyi təklif edir. Laurent Dupont, Joëlle Mastelic, Nathalie Nyffeler, Sophie Latrille və Éric Seulliet, enerji sahəsində birgə dizaynın çoxsaylı nümunəli təhlilindən istifadə edərək, Living Lab-da maraqlı tərəflər arasında etimadın tərəfdarı olan çevik tərəfləri müəyyən edirlər. Nəhayət, Brunelle Marche, Vincent Boly, Laure Morel, Frédérique Mayer, Roland Ortt innovativ təchizat zəncirinə diqqət yetirərək, həm çevik tədarük zəncirinin, həm də çevikliyin konsepsiyasını vurğulayırlar, təchizat zəncirinin innovasiyasını dəstəkləyir. Bütün bu konsepsiyalardan yola çıxaraq Şuşanın resurs potensialından yaralana bilmək üçün hazırlamalı olduğumuz layihə planında addım-addım nələrə diqqət yetirməli olduğumuza nəzər salaq.

1. Aşağı qiymət səviyyəsini müəyyənləşdirmək
2. Qiymətləndirmə üçün OODA-dan istifadə etmək (Observation, Orientation, Decision, Action)
3. Çoxsaylı dizayn nümunələri təklif etmək
4. Stajeholderləri-layihədə maraqlı tərəfləri müəyyənləşdirmək
5. Çevik təchizat zəncirinə diqqət yetirmək

Ümumiyyətlə, çevik yanaşmalar təşkilati performansı artırır və onlar ölçülə bilən iqtisadi nəticələrə gətirib çıxarır. Buna görə də biz Şuşanın resurs potensialından istifadə layihəsi hazırlayarkən Agile bizə bir sıra üstünlüklər qatacaqdır. Birinci məsələ odur ki, bu sayədə bizim xərcimiz 4 dəfə azalacaqdır. Aparılan araşdırmalra göstərir ki, Agile metodologiyası ilə hazırlanan layihələr 4 dəfəyə qədər daha ucuza başa gəlir. İkincisi isə, bu layihələrin uğur qazanma ehtimalının 3 dəfə çox olmasıdır. Bu da bizə bilavasitə daha yaxşı resurs bölgüsündə üstünlük qazandıracaqdır. Üçüncü məqam isə investisiyaların qaytarılması üçün 10 qat daha sürətli olmasıdır. Bildiyimiz kimi, işğaldan azad olan ərazilərimizə investorların marağını çəkmək bizə olduqca vacibdir. Agile metodu sayəsində investorların diqqəti də bu istiqamətdə yönələcəkdir. Çünki onlar bilirlər ki, belə layihələrdə

investisiyalarının qayıtması 10 qat daha sürətlidir. Bu səbəbdən də bu ərazilərə maraqları daha da artacaqdır.

14-cü İllik Çevik Vəziyyət Hesabatında göstərildiyi kimi, yüksək performanslı təşkilatlar Agile ilə əhəmiyyətli dərəcədə yaxşı nəticələr əldə edirlər. Dəyərin daha sürətli çatdırılması, sürətləndirilmiş öyrənmə və daha az sərf olunan səylər aydın iqtisadi faydalara gətirib çıxarır, o cümlədən:

1. Vaxt və səydən daha səmərəli istifadə edərək bazara daha sürətli daxil olur
2. Artan diqqət və azaldılmış tullantı nəticəsində məhsuldarlıq artır
3. Daha qısa və daha ardıcıl çatdırılma dövrlərindən təkmilləşdirilmiş proqnozlaşdırıla bilənlik mövcuddur
4. Daha tez-tez buraxılışlardan və uğur qazanmaq imkanlarından işçilərin məmnuniyyətinin artmasına səbə olur
5. Daha sürətli geribildirim və daha sürətli qüsurların aşkarlanması ilə yüksək keyfiyyətli həllər təqdim edir
6. Aşağı əlavə məsrəflərdən ümumi xərclərin azaldılması və özünütəşkilatın artmasına gətirib çıxarır
7. Qısaldılmış tədarük müddətindən aşağı çatdırılma riski yaradır
8. Müştəri ehtiyaclarının daha dəqiq müəyyən edilməsindən biznes riskinin azaldılmasına yola açır

Bütün bu sadaladıqlarımız yenidənqurma işlərini həyata keçirərkən Agile metodundan istifadə nəticəsində yarana bilər. Təkmilləşdirmək, inkişaf etdirmək istədiyimiz hər sahəni bu sayədə daha da az xərclər, daha yüksək səmərə ilə əldə edə bilərik.

Agile-in iqtisadi faydaları həmişə dərhal görünmür, çünki ənənəvi mühasibat metodları ən böyük inkişaf xərclərini, gecikmiş çatdırılma səbəbindən əldən çıxan fürsəti kəmiyyətcə hesablaya bilmir. Aşağıdakı misalı nəzərdən keçirək. Təklif işini asanlaşdırmaq və analitiklərin həftədə 4 saat sərf etdiyi vaxtı azaltmaq üçün yeni alət nəzərdən keçirilir. İşi 20 analitik yerinə yetirməklə həftədə cəmi 80 saata qənaət ediləcək. 100 ABŞ dolları / saatda bu, həftədə 8000 ABŞ dolları iqtisadi fayda deməkdir. Hər həftə alət əlçatan deyil, biz bu faydanı itiririk. $8,000/həftə gecikmənin dəyəridir. İnkişaf yanaşmalarının iqtisadi təsirini dəqiq qiymətləndirmək üçün bu məsrəf kəmiyyətcə qiymətləndirilməlidir.




Qrafikimizdən də aydın olduğu kimi bu metod sayəsində xərclərimizi azaldaraq iqrisadi səmərmizi artıra bilərik. Bu da resurslarımızı maksimum dəyərləndirməyə bizə imkan yaradar. Bu sayədə işğaldan azad olunmuş ərazilərimizin iqtisadi və maliyyə vəziyyətini yaxşılaşdırmaqda, investorların diqqətini çəkməkdə, yenidənqurma işlərinin sürətinin artmasında digər methodlara nisbətdə daha çox üstünlük qazanmış olarıq.

Təbii ki “Agile İnnovation” metodunun tətbiqi zamanı qazancağımız üstünlüklərlə bərabər müəyyən risklərlə də qarşılaşacağıq. Düşünürəm ki, ümumi analiz üçün SWOT (Strenght, Worsth, Opportunity, Threat” – GZİT (Güclü tərəflər, Zəif tərəflər, Üstünlüklər, Təhlükələr) yaxşı seçim olardı. Gəlin birlikdə Şuşanın resurs potensialından yaralanmaq üçün “Agile İnnovation” metodundan istifadənin GZİT analizinə nəzər yetirək.

| Güclü tərəflər | Zəif tərəflər |
|---|---|
| • Real zaman müddətində uyğunlaşma edilə bilindiyi üçün xarici amillərdən asılılıq azalır<br>• Dəyişikliklər və yenilənmələr problem yaratmadığı üçün yeniliklərin tətbiqi rahatdır<br>• Tapşırıq bölgüsü aparıldığı üçün bir çox işi eyni anda aparmaq mümkündür<br>• Resursları idarəetmə baxımından daha sürətli vasitədir<br>• Əraziyə investorların diqqətini çəkmək qabiliyyətinə malikdir | • Bir çox iş eyni anda olduğu üçün danışıqlar zamanı problemlər yarana bilər<br>• Çox dəqiq planlaşdırma tələb edir<br>• Layihə böyük olduğu üçün komandalar arasında kommunikasiyada çətinliklər olur |
| **İmkanlar** | **Təhlükələr** |
| • Digər metodlara nisbətdə daha az xərc tələb etdiyi üçün dövlət büdcəsindən ayrılan vəsaitin qalanını başqa sahələrə yönəltmək mümkün olacaq<br>• İnvestisiya üçün uyğun format olduğundan investorlarınn özlərinə qayıdan gəlirlərini yenidən investisiya etməsi üçün təşviq yarada bilər | • İşğalçı qonşularımız tərəfindən sülh şəraitinin pozulması nəticəsində layihə müddətindən geridə qalmaq<br>• Pandemiya dalğasının yenidən yüksəlməsi şəraitində işçi sayında azalmaların olması<br>• Regionunda müharibələr səbəbindən investorların<br>• bu əraziləri yüksək risk qrupuna aid olaraq görməsi |

**Ədəbiyyat siyahısı:**


1. https://www.cmswire.com/information-management/how-resource-management-works-in-an-agile-environment/
2. https://www.runn.io/blog/agile-resource-planning
3. https://doi.org/10.1007/978-3-540-68255-4_1
4. https://doi.org/10.1016/j.giq.2016.07.004
5. https://www.researchgate.net/publication/337342412_MoneyPit_the_true_cost_of_a_project
6. https://www.standishgroup.com/sample_research_files/CHAOSReport2015-Final.pdf
7. https://stateofagile.com/?_ga=2.4953331.1733311656.1594733857-1144585938.1594733857#ufh-i-615706098-14th-annual-state-of-agile-report/7027494
8. https://www.amazon.com/Principles-Product-Development-Flow-Generation/dp/1935401009


---


**Nəsibov Elvin Elşən oğlu**
Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant
nasibovelvinn@gmail.com


## Şuşada mədəniyyət iqtisadiyyatının inkişaf etdirilməsi yolları


**Xülasə**

2020-ci ildə 44 gün davam edən Vətən müharibəsində qazanılmış şanlı zəfər ilə 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımız azad edildi. Heç şübhəsiz ki, azad edilən ərazilər, rayon, şəhər, kənd və qəsəbələr arasında Şuşanın xüsusi yeri var. Şuşanın tarixi əhəmiyyəti, strateji mövqeyi, eləcə də iqtisadiyyatımız üçün qazandıra biləcəyi imkanlar önəmlidir. Belə ki, şəhər digər ərazilər ilə müqayisədə daha az dağıntılara məruz qalmış, müəyyən mənada öz tarixi ruhunu saxlamışdır. Elə ona görə də 2021-ci ildə Şuşa ölkənin mədəniyyət paytaxtı elan edilmişdir. Burada olan mədəniyyət abidələri və eləcə də yaradılacaq infrastruktur iqtisadiyyata əlavə dəyər qata bilər. Məqalədə də məhz bu imkanlar təhlil edilir, dünya ölkələrində olan nümunələr araşdırırlır.



**Açar sözlər:** Şuşa, mədəniyyət, iqtisadiyyat, inkişaf, ÜDM

**Giriş**

Tədqiqatın məqsədi – mədəniyyət iqtisadiyyatının dünya təcrübəsində tətbiqi, nümunələrini araşdırmaqla əldə olunan nəticələrin Şuşa üzərində tətbiqi imkanlarını qiymətləndirməkdir.

Tədqiqatın metodologiyası – tədqiqat zamanı sintez, analiz və müqayisəli təhlil kimi üsullardan istifadə edilmişdir.

Tədqiqatın nəticələri – müxtəlif mənbələrdən toplanan məlumatlar üzərində aparılan təhlillər əsasında Şuşada mədəniyyət iqtisadiyyatının hansı üsullarla canlandırıla bilinəcəyi, ümumən iqtisadiyyatın bu sahəsinin potensial imkanları dəyərləndirilmişdir.

Tədqiqatın praktiki əhəmiyyəti – Qarabağda aparılan sürətli abadlıq və quruculuq işləri düşünülmüş plan əsasında olmalıdır. Dövlət öz imkanları hesabına böyük bir ərazini yenidən qurur. Ona görə də minimum xərclərlə maksimal işlərin görülməsi, qoyulan hədəflərin tam icrası önəmlidir. Belə tətdiqatlar da dövlətin iqtisadi fəaliyyəti üçün vacibdir. Məqalənin təkliflər hissəsində də Şuşada hansı layihələrdə rentabelliyin yüksək ola biləcəyi qeyd olunur.

**Mədəniyyət iqtisadiyyatının nəzəri əsasları**

Son on il ərzində bir çox ölkələrin sənaye profili yeni yaradıcı və ya mədəni iqtisadiyyat istiqamətinə hiss olunan şəkildə yönəlmişdir. Bəzi ölkələrdə hazırda mədəniyyət iqtisadiyyatı həqiqətən də istehsalın və məşğulluğun genişləndirilməsinin əsas elementlərindən biridir. Yanaşma tərzində baş verən belə dəyişiklik müasir kapitalizmdə yeni iqtisadiyyatın dirçəlişidir. Yeni iqtisadiyyat dedikdə, əməliyyat xüsusiyyətləri yüksək səviyyədə təşkilati idarəetməni ehtiva edən istehsal, xidmət sektorlarının toplusu və texnoloji çeviklik, əməliyyatlarla intensiv firmalararası əlaqələr və dizayn intensiv məhsulların istehsalı nəzərdə tutulur. Yüksək texnoloji istehsal, biznes və maliyyə xidmətlərinin əhəmiyyətli seqmentləri və ən uyğun olaraq indiki məqsədlər üçün mədəniyyət iqtisadiyyatı bu təsvirə uyğun gəlir və onların hamısı yerli iqtisadi inkişaf və artım potensialı baxımından indiki dövrdə ciddi araşdırma obyektləridir. (Lash və Urry 1994; Scott 2000 a; Healy 2002).

Müasir mədəniyyət iqtisadiyyatı geniş şəkildə utilitar məqsədləri ilə müqayisədə subyektiv mənası, daha konkret ifadə ilə istehlakçı üçün mənəvi dəyəri yüksək olan əmtəə və xidmətlər istehsal edən sektorlar (alternativ olaraq mədəni-məhsul sənayeləri) ilə təmsil oluna bilər. Bourdieu (1971) bu kimi sektorların məhsul və xidmətinə sosial simvolik məna daşıyan kimi istinad edir. Beləliklə, mədəniyyət iqtisadiyyatı məhsul və xidmətləri konkret terminlərlə istehlakçıların fərdilik, özünü təsdiqləmə və sosial nümayişin fərqli üsullarını nümayiş etdirdiyi əyləncə, təhsil və məlumat (məsələn, kinofilmlər, yazılmış musiqi, çap mediası və ya muzeylər) və istehsal məhsullarına fokuslanan xidmətlər təklif edən sektorlar ansamblı kimi ifadə edilə bilər (məsələn, dəbli geyim və ya zərgərlik). Deməli, mədəniyyət iqtisadiyyatı sənayelərin kifayət qədər qeyri-bərabər toplusunu təşkil edir, baxmayaraq ki, bunlar bizim məqsədlərimiz üçün üç mühüm ümumi əlamətlə bir tədqiqat obyekti kimi bir-birinə bağlıdır. Birincisi, onların hamısı bu və ya digər şəkildə estetik və semiotik məzmunun yaradılması ilə məşğuldur. İkincisi, onlar ümumiyyətlə Engels Qanununun təsirlərinə məruz qalırlar, yəni birdəfəlik gəlir genişləndikcə bu məhsulların istehlakı qeyri-mütənasib şəkildə daha yüksək sürətlə artır (Beyers 2002). Üçüncüsü, onlar tez-tez rəqabət təzyiqlərinə məruz qalırlar ki, bu da ayrı-ayrı firmaları sıx ixtisaslaşmış klasterlərdə və ya sənaye məhəllələrində birləşməyə sövq edir, eyni zamanda onların məhsulları qlobal bazarlarda artan rahatlıqla dövr edir.

**Şuşada mədəniyyət iqtisadiyyatının inkişafı imkanları**

Şuşa şəhərinin işğaldan azad edilməsi daxili iqtisadiyyat üçün əlavə fürsətlər yaratdı. Şəhər 2021-ci ildə Prezidentin sərəncamı əsasında Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Şuşanın belə bir status alması daxili iqtisadiyyat üçün də yeni bir imkan formalaşdırdı. Elə həmin ildə Şuşa Dövlət Qoruğunun yaradılması haqqında da sərəncam verilmişdir ki, bu da kompleks tədbirlərin icrası və nəzarəti baxımından olduqca əhəmiyyətlidir. Qoruğun yaradılması icra hakimiyyəti strukturundan fərqli olaraq daha konkret planların icrası və idarəedilməsinə yönəlir. Şuşa Şəhəri Dövlət Qoruğunun da əsas olaraq dörd fəaliyyət istiqaməti var: (1)

1.Şuşa şəhərinin ərazisində yerləşən abidələrin həcm-planlaşdırma quruluşunun qorunmasını və toxunulmazlığını, habelə bərpasını, öyrənilməsini, məqsədyönlü istifadəsini təmin edilməsi;

2.Şuşa şəhərinin bərpasını, yenidən qurulmasını, öyrənilməsini, inkişafını və təbliğinin təmin edilməsi;

3.Müvafiq ərazidə mədəniyyət fəaliyyətini və mədəniyyət xidmətlərinin təşviq edilməsi;

4.Şuşa şəhərinin tarixi, mədəni, turizm və istirahət (rekreasiya) potensialından tam yararlanmaq üçün əlverişli şəraitin yaradılması;

Şəhərin ərazisi çox kiçik olsa da hər kvadrata düşən tarixi abidə və mədəni irs nümunələri ilə olduqca zəngindir. Bu da mədəni turizmin inkişafı üçün münbit şərait yaradır. Sıldırım qaya üzərində, meşəlik ərazidə yerləşməsi Şuşanın təbii gözəlliyini də şəkilləndirir ki, bu da bölgədə təbiət turizmini cəlbedici edir. Yuxarıda qeyd olunduğu kimi qoruğun yaradılması da məhz bu iki sahənin inkişafı və təşviqinə xidmət edir.

Şuşa üzrə təhlildən öncə mədəniyyət iqtisadiyyatının ölkə üzrə vəziyyətini araşdırmaq lazımdır. Buna əsasən 2 kateqoriyaya - mədəniyyət sahəsinin ÜDM daxilində çəkişi, sahə üzrə çalışanların ümumi məşğulluqda çəkisinə baxılır. Sonda isə təhlil olunmuş məlumatlar əsasında konkret olaraq Şuşa ilə bağlı datalar nəzərdən keçirilir. Ölkə üzrə ÜDM-in daxilində mədəniyyət sahəsinin çəkisi ən az 3 sektordan biridir. Belə ki, 2021-ci ildə 93 mlrd. manata yaxın ÜDM tərkibində istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət istiqamətinin payı sadəcə 0.58% olub (541100000 manat). Avropa Birliyinin Statistika Mərkəzinin məlumatlarına əsasən mədəniyyət iqtisadiyyatı sahələri aşağıdakılardır:

- Yazılı medianın çapı və reproduksiyası
- Musiqi alətlərinin istehsalı
- Kitabların, dövri nəşrlərin nəşri və digər nəşriyyat fəaliyyəti
- Kino, video və televiziya proqramlarının istehsalı, səs yazısı və musiqi nəşri fəaliyyəti
- Proqramlaşdırma və yayım fəaliyyəti
- İxtisaslaşdırılmış dizayn fəaliyyəti
- Fotoqrafiya fəaliyyəti
- Tərcümə və tərcümə fəaliyyəti
- Yaradıcılıq, incəsənət və əyləncə fəaliyyəti
- Kitabxanalar, arxivlər, muzeylər və digər mədəni fəaliyyətlər

Məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsünə əsasən 2021-ci ildə istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət göstərənlərin ümumi məşğulluqda çəkisi sadəcə 1.6% olmuşdur. Avropa Birliyi üzrə bu göstərici 3.7% kimi qeydə alınmışdır. Daha detallı müqayisə üçün Avropa Birliyinə üzv olan, ÜDM göstəricisi Azərbaycan ilə bənzər 9 Avropa ölkəsi seçilmişdir. Göründüyü kimi Azərbaycan digər dövlətlərdən olduqca geri qalmışdır (Qrafik 1). Onu da qeyd etmək vacibdir ki, Azərbaycanda statistik hesablama istirahət, əyləncə və incəsənət sahələri birgə nəzərə alınmaqla aparılır. 01.07.2022-ci il tarixindən etibarən vətəndaşların Şuşaya səfəri hər gün təşkil edilir. Gündəlik reyslərin hər birində maksimal 49 nəfər ola biləcəyi və hər reysin tam heyətlə edilməsi onu deməyə əsas verir ki, oktyabr ayına qədər 4410 nəfər mədəniyyət paytaxtına səfər etmişdir. 1 iyul tarixinə qədər də Şuşa, Ağdam və Füzulini 8857 nəfər ziyarət etmişdir. Ortalama olaraq hər bölgə üçün təqribən 2952 nəfər. Beləliklə, Şuşa şəhərinə vətəndaşların səfərinə icazə verildiyi tarixdən bəri bu qədim şəhəri demək olar ki, 8000 nəfərə yaxın şəxs ziyarət etmişdir. Orada müəyyən dövrlərdə təşkil olunan layihə və tədbirləri də nəzərə alsaq bu say minimum 10000 nəfər edir. Belə bir məhdudiyyət və xüsusi icazələrlə reallaşan ziyarət çərçivəsində səfər edən şəxslərin bu sayda olması şəhərə olan böyük diqqətin göstəricisidir. Xüsusi bilet alaraq Şuşaya səfər edən şəxslərin 21 manat ödədiyini nəzərə alsaq 8000 nəfər ziyarətçinin bilet üçün 168000 manat xərclədiyini hesablamaq mümkündür.




**Qrafik 1. Mədəniyyət sahəsi üzrə məşğulluğun ümumi məşğulluqda çəkisi**
**Mənbə: Avropa Birliyinin Statistika Mərkəzi (Eurostat / https://ec.europa.eu/eurostat/statistics-explained/index.php?title=Culture_statistics_-_cultural_employment)**

Dövlət Statistika Komitəsinin mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin iqtisadi rayonlar üzrə gəlirləri məlumatına əsasən 2021-ci ildə Şuşa üzrə qeydə alınan məbləğ 503 min manata yaxın olmuşdur. 2021-ci ildə hələ vətəndaşlar üçün marşrut xəttinin istifadəyə verilmədiyi, qeyd olunan göstəricinin sadəcə bir otel çərçivəsində formalaşdığını nəzərə alınmaqla Şuşa şəhər və rayonlar arasında müvafiq göstərici üzrə 19-cu olub. Ölkə üzrə ümumi gəlir təqribən 21 mln. manat, mehmanxanalarda yerləşdirilmiş şəxslərin sayı 1172123 nəfər olmuşdur. Yəni ortalama olaraq bir nəfər şəxs 178.89 manat fayda vermişdir. Şuşada isə 502800 manat 996 nəfər üzrə formalaşmışdır ki, buna əsasən adambaşına düşən məbləğ 504.8 manat edir. Qeyd olunan müddət ərzində Şuşaya edilən səfərlərin biznes məqsədli olması da bu göstəriciyə təsir edən amildir.

**Dünya təcrübəsində nümunəvi modelin Şuşada tətbiqi**

Şuşanın mədəniyyət iqtisadiyyatının inkişaf etdirilməsi üçün beynəlxalq təcrübədə bənzər modellər nəzərdən keçirildi. Nümunə modeli olaraq İtaliyanın Neapol şəhəri seçildi. Bir çox mütəxəssisə görə Neapol şəhəri də əsasən tarixi abidələri ilə seçilərək açıq hava muzeyini xatırladır. Turizm sahəsi bu şəhərin də ən böyük iqtisadi sektorlarından biridir. Neapolu fərqləndirən əsas xüsusiyyətlərdən, turizm məhsullarından biri qeyri-ənənəvi görüş və konfrans məkanlarıdır. Otel və konfrans mərkəzlərindən başqa şəhərin tarixi, mədəni irsini dünyaya tanıtmaq, təbliğ etmək məqsədi ilə tarixi binalar, kilsələr, qalereyaları da görüş və konfrans məkanı olaraq istifadə edilir. Şuşada da bənzər modelin tətbiqi mədəniyyət iqtisadiyyatının canlanmasına böyük təkan olar. Belə ki hazırda da şəhərdə bir sıra festival, tədbir, konfrans, layihə və görüşlər keçirilir. Bu tip görüşlərin Neapol şəhəri modelində olduğu kimi müasir otel və konfrans salonlarında deyil, digər tarixi abidələr daxili, ətrafı və ya açıq hava şəraitində təşkili şəhərə diqqəti daha da artıra bilər. Bakı şəhərinin sürətli inkişafında da sosial-mədəni tədbirlərin, idman yarışlarının təşkili önəmli rol oynayır. Şuşada da şəhərin tarixi ruhuna uyğun tədbirlərin, beynəlxalq konfrans və görüşlərin qeyri-ənənəvi məkanlarda təşkili uğurlu nəticələnər.

2022-ci ildə Nazirlər Kabinetinin "Şuşa İli" ilə bağlı Tədbirlər Planına əsasən Şuşada bir sıra yerli və beynəlxalq layihələr reallaşdırıldı. "Xarıbülbül" beynəlxalq folklor festivalı, "Vaqif Poeziya Günləri", Qoşulmama Hərəkatına üzv olan ölkə şəhərlərinin "Şuşa Assambleyası", "Dünya məşhurları Şuşada", "Wonderland -Azerbaijan 2022" beynəlxalq skaut düşərgəsi, Şuşa beynəlxalq velosiped turniri ən diqqətçəkən layihələrdən oldu. Belə layihələrin davamlı olması və daha da artırılması, yəni sadəcə "Şuşa İli" üzrə məhdudlaşdırılmaması labüddür.

**Nəticə**

Məqalədə ilkin olaraq mədəniyyət iqtisadiyyatının nəzəri əsasları araşdırıldı, ümumən bu anlayış hansı istiqamətləri özündə birləşdirir sualına cavab tapıldı. Avropa Birliyi tərəfindən əsas götürülən, üzv dövlətlərlə bağlı statistikaların hazırlanmasın zamanı istinad edilən mədəniyyət iqtisadiyyatının alt sahələri öyrənildi. Təhlillər nəticəsində bəlli oldu ki, hazırda ölkədə istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət ÜDM-in yalnız 0.58%-ni təşkil edir. Nəticə onu qeyd etməyə əsas verir ki, bazar payının böyüdülməsi istiqamətində bir çox işlər icra olunmalıdır. Şuşa şəhəri bu istiqamətdə lokomotiv rolunu oynaya bilər. ÜDM-də çəkisinin az olması məşğulluq göstəricisinə də təsir edib. Mədəniyyət sahəsində fəaliyyət göstərənlərin ümumi məşğulluqda çəkisi (1.6%) üzrə Azərbaycan Avropada ən aşağı göstəriciyə malikdir. Daha əvvəl qeyd olunduğu kimi Şuşanın mədəniyyət iqtisadiyyatı sahəsində inkişafın lokomotivi olması ölkədə məşğulluq səviyyəsinə də müsbət təsir edə, Şuşada yerli əhali arasında işsizləri minimal səviyyədə saxlaya bilər. Şuşaya vətəndaşlar tərəfindən edilən səfərlər də vacib indikatorlardan biridir. İqtisadiyyatın hərəkətverici qüvvəsi olaraq insanlar olmadan hər hansı bir məkanda inkişafdan, canlanmadan söhbət gedə bilməz. Hesablamalar onu ortaya çıxardı ki, Şuşada yaradılacaq və istehsal olunacaq xidmət və məhsul təklifinin tələb qarşılığı olacaq. Sadəcə təklif və tələbi qarşılaşdıracaq uyğun bazarın yaradılması şərtdir. Dünyada bənzər şəhər modellərinə də nəzər yetirildi. İtaliyanın qədim Neapol şəhəri modelinin Şuşada tətbiqi araşdırmadan ortaya çıxan əsas təklifdir. Neapolda olduğu kimi qeyri-ənənəvi görüş və konfrans məkanlarının mövcud tarixi abidələrdə, açıq hava yerlərində yaradılması yalnız fiziki şəxslərin deyil, hüquqi şəxslər, şirkət və holdinqlərin, rəsmilərin də diqqətini çəkə bilər.

## Ədəbiyyat siyahısı:


1. Şuşa Şəhəri Dövlət Qoruğunun rəsmi saytı / https://shusha.gov.az/az
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Turizm sahəsi üzrə göstəriciləri /https://stat.gov.az/source/tourism/
3. https://www.emeoutlookmag.com/industry-insights/article/521-naples-a-slice-of-italian-culture
4. Cultural-Products Industrıes and Urban Economic Development / Prospects for Growth and Market Contestation in Global Context / ALLEN J. SCOTT / University of California, Los Angeles
5. Medium and Small Cities, Culture and the Economy of Culture. A Review of the Approach to the Case of Spain in Light of International Scientific Scholarship / Diego Barrado-Timón, Antonio Palacios and Carmen Hidalgo-Giralt


---


**Rahim Jabbar Najafov**
rahimnajaf@hotmail.com
Nakhchivan State University, Diplomacy and International Relations, Master
Nakhchivan Autonomous Republic, Azerbaijan
info@ndu.edu.az


# The strategic importance of the socio-economic revival of Shusha in the progress of Azerbaijan


## Abstract

The city of Shusha, one of the important cities of Azerbaijan, entered the world markets with its carpets, silks, fabrics and porcelain dishes and thus gained great fame. Shusha, one of the capital cities of Azerbaijan in the 18th century, was formed as a typical Azerbaijani city and preserved its historical appearance until it was invaded by Armenian vandals in 1992. The names of all neighborhoods, streets, historical monuments, buildings, springs in the city belong to the Azerbaijanis who created this city and are its aboriginal population.



**Keywords:** Azerbaijan, Shusha, liberation of Shusha from occupation, socio-economic development


## Introduction

National leader Heydar Aliyev said about this pearl of culture: "Shusha is a dear city, a dear land, a dear fortress, a dear monument, not only for the people of Shusha, but for all Azerbaijanis, for every citizen who loves his homeland and nation."

Shusha is an extremely sacred place for the people of Azerbaijan, as dear as a shrine. This charming city has been the center of the entire lowland-steppe Karabakh in all historical periods. All the mosques, caravansaries, baths, springs, castles, famous palaces and mansions that define the ethnic and historical-architectural landscape of Shusha as a city belong to the Azerbaijani people and are its historical past. As one of the most important centers of Azerbaijani culture, Shusha produced prominent thinkers, poets and prose writers who played an important role in the development of Azerbaijani literature. The question of the literary assemblies operating in Shusha had a great echo beyond its borders. Shusha also gained fame with his musicians. Shusha is rightly called the natural conservatory of Azerbaijan, the cradle of musical art.

## Occupation of Shusha by Armenian armed forces and Armenian vandalism

In the 1970s and the first half of the 1980s, under the leadership of national leader Heydar Aliyev, attention was paid to the economic and cultural progress of DQMV, several special decisions were made for the development of the city of Shusha, historical monuments of the city were restored, new museums were created, multi-storey residential and administrative buildings were built, Shusha city became a resort city of the All-Union level. In the late 80s and early 90s of the 20th century, due to the patronage of the leadership of the USSR to the Armenians, the events became more and more complicated, and the Republic of Armenia started an open aggression by

injecting military force into the territories of Azerbaijan. Starting from the beginning of 1992, the armed forces of Armenia occupied the last settlements of Azerbaijanis in Nagorno-Karabakh one after another. [1]

As a result of the occupation of Shusha by the Armenian armed forces on May 8, 1992, 25 schools, 31 libraries, 17 clubs, 8 cultural houses, 4 technical schools, 2 institute branches, 7 kindergartens, 4 cinemas, 5 culture and recreation parks, 2 sanatorium, tourist base, 2 hotels, branch of Azerbaijan Carpet State Museum, Shusha State Drama Theater, Shusha Television, Eastern musical instrument factory, State Art Gallery, Children's health school were looted, burned and destroyed. In addition, before the occupation, there were more than 850 residential buildings and 300 cultural and historical monuments in Shusha, which were considered architectural monuments. Among them are Shusha and Shushakand stone box tombs, which are considered to be the last bronze and first iron age monuments, Shusha cave camp which is a stone age monument, the walls of the Shusha fortress dating back to the 18th century, Ganja gate, Panah Khan's palace and library, Ibrahim Khan's tower and castle, Khan's palace and caravansary, M.P. Vagif's madrasa and tomb, Upper mosque madrasa, Hajiguls' mansion, Two-story caravanserai, Mehmandarovs' mansion complex, Govhar agha, Khoja Marjanli, Haji Abbas, Mardinli, Saatli, Kocherli mosques, Khurshidbanu Nateva's house and spring, A.B. Houses of Hagverdiyev, G.B. Zakir, M.M. Navvab, S.S. Akhundov, N.B. Vazirov, Y.V. Chamanzaminli, Mamay bey's house, mosque and spring, houses of Behbudovs, Faramazovs, Zohrabbeyov, Bahman Mirza, houses-museums of Uzeyir bey Hajibeyli, Bulbul, Khan Shushinsky, Tarzan The houses of Sadığcan, Realni school building, Girl's school, Shirin water bath, Meydan spring, Isa spring, etc. historical culture samples were looted, destroyed and destroyed by the Armenian invaders.

**Liberation of Shusha from occupation on November 8 - Victory Day**

As a result of military operations conducted by the Azerbaijani army since September 27, 2020 for the liberation of lands occupied by the Armenian armed forces, the city of Shusha was liberated from occupation on November 8. Liberation of Shusha from occupation required great heroism, professionalism, and national spirit. That day was recorded as a holiday in the history of Azerbaijan as Victory Day. The city of Shusha was declared the cultural capital of Azerbaijan. On January 14, 2021, President Ilham Aliyev said during his visit to Shusha: "We are a victorious nation. The last time I came to Shusha was 39 years ago. I came twice 39 years ago and the first time was on January 14th. Look, today, January 14, we are here again. This time I have come as the Commander-in-Chief of the victorious Azerbaijan Army. I came as the Commander-in-Chief of the Army that broke the back of the enemy, and here under the holy flag, in front of the heroic soldiers, I say that we will live forever in these lands! We will restore Shusha and all our other cities and villages that were destroyed. We will restore all our destroyed historical monuments”. [2]

**The new stage and socio-economic revival of the city of Shusha after liberation from occupation**

In the decree signed by President Ilham Aliyev on May 7, 2021 regarding the declaration of the city of Shusha as the cultural capital of Azerbaijan, it is emphasized that the restoration of the historical appearance of the city, the return of its former glory and its return to its traditional full cultural life, as well as It is important to promote Azerbaijan's centuries-old rich culture, architecture and urban planning art in the international world. At the same time, this important document shows that Shusha should be treated with special care and sensitivity due to its historical and cultural importance and exceptional moral value for the people of Azerbaijan. On May 12-13, 2021, the "Kharibulbul" music festival was held again after 29 years in a sacred place for every Azerbaijani, in Shusha, the cultural capital of Azerbaijan, on the unique and fascinating Cıdır plain. The magnificent "Kharibulbul" music festival, dedicated to the dear memory of the heroic martyrs who died for the homeland, was also a response to the enemy and elements alien to this holy city. As a result, the city of Shusha became the cultural capital of Azerbaijan, and the Nightingale became a symbol of the freedom of Karabakh. On August 29-30, 2021, a number of events were held in Shusha with the participation of President of Azerbaijan Ilham Aliyev and First Vice-President Mehriban Aliyeva, and the master plan of Shusha city was presented. [3]

It is important to note that the mausoleum of Molla Panah Vagif, a genius Azerbaijani poet and public figure, which was opened with great ceremony on January 14, 1982 in the presence of

national leader Heydar Aliyev, was destroyed by Armenians after the occupation of Shusha on May 8, 1992 was destroyed. On August 29, the museum-mausoleum complex was opened in Shusha after repair, restoration and reconstruction works, and the bust of the poet, who was subjected to Armenian vandalism, was erected again at the place of his house. At the same time, familiarization with the works to be carried out in the house-museum of Uzeyir Hajibeyli, the founder of professional music art, outstanding composer, public figure, who rendered great services in the development of Azerbaijani musical culture, as well as the genius Bulbul, who played an important role in the formation and evolution of his destroyed statue, as well as the vocal school. The house-museum in Shusha was opened after restoration works. On the same day, the operation of the "Karabagh" hotel, built in the 70s of the 20th century, where the reconstruction works were completed in Shusha, the cultural capital of Azerbaijan, was resumed. [4]

On August 30, the Foundation Poetry Days, held for the first time in 1982, 39 years ago, were reorganized for the first time by the Heydar Aliyev Foundation after the liberation of Shusha from occupation. President of Azerbaijan Ilham Aliyev and first lady Mehriban Aliyeva held "Karabakh is the pearl of Azerbaijani culture" within the framework of the Vagif Poetry Days held in Shusha on the same day, as well as "Again in the native land" presented by the National Carpet Museum of Azerbaijan under the organization of the Heydar Aliyev Foundation at the restored and renovated Carpet Gallery in Shusha. They got acquainted with the "art pearls of Karabakh" exhibition. In addition, within the framework of the Foundation Poetry Days, "Memory" which embodies the ancient history, rich culture, beautiful nature and traditions of Azerbaijan will be presented in Shusha In the photo exhibition "Photographic history", acts of vandalism against our cultural heritage, historical-architectural examples, historical-cultural objects, religious centers were destroyed by the enemy, a number of regions and cities were razed to the ground in the territories occupied by Armenia at the time, as well as from the occupation. photos of atrocities and destruction caused by Armenians in the liberated regions and cities were also presented. Photos depicting the crimes committed by Armenia against the civilian population during the Patriotic War were also shown at the exhibition.

On September 18, 2021, the concert of Uzeyir Hajibeyli XIII International Music Festival was held for the first time in Shusha as part of the National Music Day. This event, celebrated every year on the birthday of great Azerbaijani composer Uzeyir Hajibeyli, was organized in Shusha, in the park where his statue is erected. It should be recalled that the statue of the composer erected in Shusha in 1985 on the occasion of the 100th anniversary of Uzeyir Hajibeyli was completely destroyed by Armenian vandalism in 1992 during the First Karabakh War. In the city of Shusha, which has already been freed from occupation, the statue of the famous composer Uzeyir Hajibeyli was erected in its former place. During their visit to Shusha on November 7, President of Azerbaijan Ilham Aliyev and first lady Mehriban Aliyeva first participated in the opening of Victory Road in Fuzuli district, and then laid the foundations of a mosque, Shusha Radio-Television broadcasting tower, and Shusha District Central Hospital in Dashalti village. At the same time, in Shusha, President Ilham Aliyev and First Lady Mehriban Aliyeva got acquainted with the restoration works carried out by the Heydar Aliyev Foundation in the Ashagi Govhar Agha Mosque and the mansion complex of the Mehmandarovs. Then the head of state and the first lady met and talked with the participants of the 8th Global Baku Forum and visited the Cıdır plain. [5]

## Summary

Shusha, the crown of Karabakh, is a sacred and dear place for our people. Love for Shusha is an integral part of the spiritual existence of every Azerbaijani. On November 8, 2020, the brave Azerbaijani Army liberated the city of Shusha during the 44-day Patriotic War we waged for the cause of justice. The victory of Shusha, which paved the way for the capitulation of Armenia, became a celebration of the heroic spirit of our people and was engraved in our history as a Victory Day. Immediately after the victory of Shusha, in addition to the construction of infrastructure in the city, the restoration of historical and cultural monuments was started, in order to ensure flexibility and efficiency in the organization of construction works, great attention was paid to state management, and the Shusha City State Reserve Department was established. In Shusha, which has

been declared the cultural capital of Azerbaijan, huge projects are being implemented today to restore the true historical face of the city. In a short time, the preparation of the Master Plan of Shusha, the restoration of the bust of the mighty poet Molla Panah Vagif and the museum-mausoleum complex to its original appearance, the opening of the house-museum of Bulbul and the statue of Uzeyir Hajibeyli, as well as the process of restoration of historical, religious and architectural monuments here are part of the complex works in the cultural capital of our country. . The revival of the tradition of organizing the "Kharibulbul" music festival and the Vagif Poetry Days in front of the magnificent mausoleum of Vagif on the Cdir plain also shows that Shusha is on the way to quickly reviving and returning to its former full cultural life.

**References**

1. Introductory speech of Ilham Aliyev at the conference dedicated to the results of the first year of the implementation of the "State Program of Socio-Economic Development of the Regions of the Republic of Azerbaijan in 2019-2023"/ https://president.az/az/articles/view/35705/videos/3
2. Decree of the President of the Republic of Azerbaijan on the declaration of 2022 as the "Year of Shusha" in the Republic of Azerbaijan/ https://president.az/az/articles/view/55197
3. Presidential library of the Affairs Department of the President of the Republic of Azerbaijan/ https://files.preslib.az/projects/shusha/az/b7.pdf
4. Naghisoylu.M, Karimov.R, Rahimov.M., (2017), “Shusa in Azerbaijan press”, Baku-Science development Fund, P.200
5. SHUSHA - the historical cultural center of Azerbaijan, the main crown of Karabakh and an ancient city of military and strategic importance/ http://www.shusha-ih.gov.az/az/news/672.html

**Рахим Джаббар Наджафов**
Нахчыванская Автономная Республика, Азербайджан
Нахчыванский государственный университет,
Дипломатия и международные отношения, магистр
rahimnajaf@hotmail.com

## Стратегическое значение социально-экономического возрождения Шуши в развитии Азербайджана

**Резюме**

Шуша, венец Карабаха, священное и дорогое место для нашего народа. Любовь к Шуше – неотъемлемая часть духовного существования каждого азербайджанца. 8 ноября 2020 года храбрая Азербайджанская Армия освободила город Шуша в ходе 44-дневной Отечественной войны, которую мы вели во имя справедливости. Победа под Шушей, которая открыла путь к капитуляции Армении, стала праздником героического духа нашего народа и вошла в нашу историю как День Победы. Сразу же после победы Шуши, помимо строительства инфраструктуры в городе, было начато восстановление памятников истории и культуры, для обеспечения гибкости и оперативности в организации строительных работ большое внимание уделялось государственному управлению, создан Шушинский городской государственный заповедник. В Шуше, объявленной культурной столицей Азербайджана, сегодня реализуются масштабные проекты по восстановлению подлинного исторического лица города. В короткие сроки были подготовлены Генеральный план Шуши, восстановлены бюст великого поэта Молла Панах Вагиф и музейно-мавзолейный комплекс в первозданный вид, открытие дома-музея Бюль-Бюля и памятника Узеира Гаджибейли, а также происходящий здесь процесс реставрации исторических, религиозных и архитектурных памятников являются частью комплекса работ в культурной столице нашей страны. . Возрождение традиции проведения музыкального фестиваля «Харибюльбюль» и Дней поэзии Вагифа перед величественным мавзолеем Вагифа на равнине Чдыр также свидетельствует о том, что Шуша находится на пути к быстрому возрождению и возвращению к прежней полноценной культурной жизни.

**Ключевые слова:** Азербайджан, Шуша, освобождение Шуши от оккупации, социально-экономическое развитие.

**Balışova Rəvanə Elman qızı**
Sumqayıt Dövlət Universiteti, Fakültə: Filologiya, Kurs: II, Qrup: 941
Elmi rəhbər: B/m. Rəfiyeva Afət İlyas qızı
balishovarevane200325@gmail.com

## İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan – Türkiyə münasibətləri

### Xülasə

1991-ci ildə müstəqilliyini əldə edən Azərbaycan Respublikasının ən böyük dəstəkçisi Türkiyə Cümhuriyyəti olmuşdur. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətdir. Müstəqilliyinin ilk günündən Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan Dağlıq Qarabağı və 7 rayonunu itirib. BMT Təhlükəsizlik Şurasının bir çox qətnamələrində Ermənistanın işğal etdiyi ərazilərdən çıxması qərara alınıb, lakin Ermənistan işğalını davam etdirib. Sentyabrın 27-də başladığı əks-hücum nəticəsində torpaqlarını işğaldan azad etməyə nail olub. 2020-ci il noyabrın 10-da imzaladığı bəyannamə ilə müharibədə uduzan tərəf kimi Ermənistan Azərbaycanın şərtlərini qəbul etməli oldu və hərbi gücünü işğal etdiyi ərazilərdən çıxarmağa razı oldu. Türkiyə bu müharibədə Azərbaycana hərbi, siyasi və diplomatik dəstək verən ən mühüm dövlət olub. Müharibədən əvvəl iki dövlət arasında münasibətlər həm iqtisadi, həm də siyasi baxımdan strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdi. İki dövlətin təşəbbüsü ilə bir çox birgə iqtisadi layihələr həyata keçirilib. Tərəflər arasında hərbi sahədə imzalanmış müqavilələr Azərbaycanın müharibədə qələbə qazanmasında mühüm amil olub. Azərbaycanın ikinci Qarabağ müharibəsində qələbəsi Cənubi Qafqazda davamlı sülhün bərqərar olması üçün çox vacibdir. Bu vəziyyət Türkiyə üçün yeni imkanlar yaradacaq və onun Cənubi Qafqazda mövqelərini gücləndirəcək. Xüsusilə Naxçıvanla Azərbaycan arasında dəhlizin açılması Türkiyəni Azərbaycan və Xəzər dənizi vasitəsilə birbaşa Orta Asiya ilə birləşdirəcək. Nəticə etibarı ilə Türkiyə həm siyasət, həm iqtisadiyyat, həm də hərbi baxımdan daha aktiv bir faktyora çevriləcək.

**Açar sözlər:** Türkiyə Cümhuriyyəti, Azərbaycan Respublikası, Dağlıq Qarabağ, üçtərəfli bəyannamə, beynəlxalq münasibətlər.

Uzun müddətdir aralarında problemlər yaşayan Azərbaycan və Ermənistan dövlətləri arasında gərginlik 2020-ci ilin sentyabr ayından etibarən yeni miqyas almışdı. 2020-ci il sentyabrın 27-də səhər saatlarında Azərbaycan ordusu işğal olunmuş torpaqlarını azad etmək üçün atəşkəsi dəfələrlə pozan Ermənistan ordusuna qarşı əks-hücum əməliyyatına başladı. Bu müharibədə Rusiya və Fransa kimi böyük dövlətlərin bütün dəstəyinə baxmayaraq, Ermənistan Azərbaycan ordusunun hücumlarına ancaq 44 gün dözə bildi. 44 gün ərzində Azərbaycanın sürətli və hərbi cəhətdən yaxşı qurulmuş hücumları Ermənistanın böyük itkilər verərək işğal etdiyi rayonlardan nizamsız olaraq geri çəkilməsinə səbəb oldu. Noyabrın 10-nun ilk saatlarında Ermənistanın təslim olması mənasını verən və Azərbaycanın tələblərini özündə əks etdirən atəşkəs bəyannaməsi imzalanması ilə Dağlıq Qarabağa bitişik və Ermənistan tərəfindən işğal olunmuş yeddi rayon qeyd-şərtsiz tam şəkildə azad edildi. Ərazilər erməni əsgərləri və Azərbaycanın bu rayonlarına icazəsiz məskunlaşmış dinc əhalidən azad edildi. Bundan başqa, Dağlıq Qarabağ bölgəsinin bəzi yaşayış məntəqələri, xüsusilə də Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən Şuşa şəhəri Azərbaycanın nəzarətinə keçərək erməni ünsürlərindən təmizləndi. İmzalanmış "Üçlü Bəyannamə"yə əsasən, Dağlıq Qarabağın qalan hissəsindəki erməni əsgərlərinin bölgəni tərk etmələri və bölgənin silahlı ünsürlərdən tamamilə təmizlənməsi razılaşdırıldı. Rusiya sülhməramlı qüvvələri bu prosesin əməliyyatında mühüm vəzifələri öz üzərinə götürəcək, Türkiyə-Rusiya birgə hərbi komandanlıq mərkəzi isə sülh prosesinə nəzarətdə iştirak edəcəyini öhdələndi.

Sülh müqaviləsi təkcə Azərbaycanın hərbi uğuru kimi tarixə düşməyib. Azərbaycan diplomatiyasının uzunmüddətli və şüurlu səyləri də bu böyük qələbəyə öz töhfəsini verdi. 30 ildən artıqdır ki, aparılan işlər sayəsində Azərbaycan öz tezisini bütün dünyaya bəyan edə bilmiş, bir çox dövlətlərin dəstəyini qazanmış və Ermənistanın beynəlxalq təşkilatlarda işğalçı dövlət kimi tanınmasını təmin etmişdir. Bu diplomatik təşəbbüslər nəticəsində Azərbaycan tədricən Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün hüquqi və siyasi baza formalaşdırdı [3, səh. 61]. Digər

tərəfdən, Ermənistan təkcə hərbi deyil, həm də siyasi, diplomatik və dünya ictimai rəyinə təsir gücünə görə müharibəni uduzdu.

İkinci Qarabağ müharibəsi ilə 28 ildir Dağlıq Qarabağ münaqişəsində Azərbaycana tətbiq olunmağa çalışılan status-kvo dərindən sarsıldı. Türkiyə-Azərbaycan qardaşlığının sahədə necə nəticə verə biləcəyi bütün dünyaya, xüsusilə Ermənistana göstərildi. Qarabağda yeni dövrə qədəm qoyan bu müharibənin təkcə Qarabağ və ya Qafqaz kontekstində deyil, həm də qlobal miqyasda öz təsirləri oldu. Azərbaycan öz suverenliyi altında olmasına baxmayaraq, işğal altındakı torpaqlarını azad etmək üçün hər cür diplomatik, hüquqi və siyasi əsaslar yaratmış, meydanda Ermənistan ordusu üzərində mütləq üstünlük əldə etdiyi bir vaxtda Rusiyanın atəşkəs tələbinə və tələbinə müsbət cavab vermişdir. Bu vəziyyət Azərbaycanın sülhsevər dövlət imicini daha da gücləndirdi.

Türkiyə Qarabağ münaqişəsində hər zaman Azərbaycanın haqlı davasının yanında olub. İqtisadi, diplomatik, texniki və hərbi dəstək verməklə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün böyük səylər göstərib və etməkdə davam edir. Türkiyə 44 günlük müharibədə siyasi, diplomatik və hərbi imkanları ilə Azərbaycanı ən yüksək səviyyədə dəstəklədi.

İki ölkə arasındakı birgə təlimlərlə Azərbaycan ordusunun manevr qabiliyyətini təkmilləşdirən Türkiyə verdiyi texniki dəstəklə Azərbaycana böyük hərbi üstünlük qazandırdı. Müdafiə sənayesində böyük uğurlara imza atan Türkiyə ilə hərbi əməkdaşlıq Azərbaycana çox mühüm qazanclar gətirdi. Türkiyə Böyük Millət Məclisində 2020-ci il noyabrın 17-də türk əsgərlərinin Azərbaycana göndərilməsi ilə bağlı təklif qəbul edilib [5, səh. 97].

Müharibə zamanı Türkiyənin verdiyi siyasi, diplomatik və hərbi dəstəkdən əlavə, türk xalqı tərəfindən Azərbaycana böyük sosial dəstək verildi. Evlərində, iş yerlərində Azərbaycan bayrağını asan türk xalqı azərbaycanlı qardaşlarının yanında olduğunu göstərdi. Ermənistanın hücumlarını pisləyən toplantılar keçirilib və Azərbaycana humanitar yardım göndərilib. Şərtsiz dəstək bir daha göstərdi ki, Türkiyə beynəlxalq aləmdə Azərbaycanın əsl müttəfiqidir.

Türkiyə Azərbaycana açıq dəstəyi ilə sübut etdi ki, Cənubi Qafqazda sülhün qurulmasında mühüm faktordur. İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin münasibəti "Rusiya icazə vermədikcə Qarabağ problemini həll etmək mümkün deyil" düşüncəsinə səbəb oldu.

İkinci Qarabağ müharibəsi iki ölkə arasında möhkəm təməllərə söykənən münasibətləri fərqli müstəviyə daşıdı. Ona görə də İkinci Qarabağ Müharibəsi Türkiyə-Azərbaycan münasibətlərində mühüm yol ayrıcıdır və dönüş nöqtəsidir. Azərbaycan və Türkiyənin epik əməkdaşlığının qazandığı Qarabağ zəfəri bir çox cəhətdən önəmlidir. Bu zəfər hər şeydən əvvəl torpaqları qeyri-qanuni işğal altında olan dövlətlərə, xüsusilə türk və İslam dünyasına bu vəziyyətin sonsuza qədər davam etməyəcəyi mesajını verdi. Bu zəfər Türk Dünyası üçün daha əhatəli əməkdaşlığa zəmin açılmasına töhfə verəcək. Şübhəsiz ki, bu qələbə iki ölkə arasında iqtisadi, siyasi və hərbi inteqrasiya prosesini daha da sürətləndirəcək. Ermənistanın işğal etdiyi torpaqların azad edilməsi bu rayonların Azərbaycan iqtisadiyyatına inteqrasiyasına gətirib çıxaracaq və yeni investisiya sahələri yaranacaq.

İkinci Qarabağ Müharibəsi Türkiyənin Cənubi Qafqazda mövqelərini gücləndirdi və bir daha sübut etdi ki, Türkiyə Cənubi Qafqazda həlledici faktorlardan biridir. İkinci Qarabağ Müharibəsi bütün regional və qlobal faktorlara göstərdi ki, Cənubi Qafqazda Türkiyə istisna olmaqla, həll mümkün deyil. Türkiyə ilə Azərbaycanın müttəfiqliyinin regionun taleyinin həllində əsas rol oynadığı üzə çıxdı. Türkiyənin regionda fəal faktor kimi mövcudluğunu sübut etməsi, şübhəsiz ki, Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir. 2020-ci ilin noyabrında müharibəni bitirən bəyannamənin maddələrinin həyata keçirilməsi üçün Türkiyənin varlığı da çox önəmlidir. Bundan başqa, Türkiyənin Qafqazın geosiyasətində fəal faktor olması Rusiyanın regionda monopoliyasının qırılması baxımından son dərəcə əhəmiyyətlidir. Gürcüstan və Ukrayna kimi ölkələr də Türkiyəni Rusiyanı Qara dənizdə balanslaşdıra biləcək müttəfiq kimi qəbul etməyə başlayıblar.

Türkiyə-Azərbaycan əlaqələrinin yeni və səmərəli dövrə qədəm qoyduğu bu prosesin ilk addımı olaraq Prezident Rəcəb Tayyib Ərdoğan 9-10 dekabr 2020-ci il tarixlərində Azərbaycanda səfərdə olub. Səfər çərçivəsində Azərbaycan prezidenti İlham Əliyevlə görüşən Ərdoğan Bakıda keçirilən Zəfər Paradında iştirak edib [4].

Prezident Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi ilə Türkiyə adından Prezident Administrasiyasının Kommunikasiyalar direktoru Fahrettin Altun və Azərbaycan tərəfindən vitse-prezident Hikmət Hacıyev tərəfindən imzalanan "Media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu" ilə iki ölkənin mövcud dostluq əlaqələrini

gücləndirmək və media sahəsində mövcud əlaqələri gücləndirmək məqsədi daşıyır. [4]. Əməkdaşlığın yaxşılaşdırılması üçün “Ümumi Media Platforması”nın yaradılması iradəsi rəsmiləşib.

Birgə Media Platforması çərçivəsində media sahəsində məlumat, bilik, təcrübə və resurs mübadiləsi ilə iki ölkənin media sahəsində fəaliyyət göstərən rəsmi qurumlarının sağlam medianın yaradılması məqsədilə birgə araşdırmalar aparması nəzərdə tutulur.

İnkişaf edən əməkdaşlığın nəticəsi olaraq beynəlxalq aləmdə rast gəlinən dezinformasiyaya qarşı birgə mübarizə aparmaq, dünya ictimai rəyinin düzgün məlumatlarına uyğun işləyəcək platforma vasitəsilə televiziya və kino sahələrində birgə araşdırmalar aparmaq, müxtəlif media və sənaye nümayəndələri ilə tərəfdaşlıq qurmaq, peşə təhsili və mübadilə proqramlarının təşkili və iki ölkənin rəy liderləri ilə görüşlərin keçirilməsi nəzərdə tutulmuşdu.

Kommunikasiya direktoru Fahrettin Altun sözügedən əməkdaşlığı iki ölkə arasında “iki dövlət, bir millət” şüarına “ortaq media” elementinin əlavə edilməsi kimi qiymətləndirib.

Xüsusilə Qarabağa nəzər saldıqda Ermənistanın işğaldan azad edilmiş torpaqlarda illərdir davam etdirdiyi işğalçılıq siyasətinin izlərinin silinməsi baxımından Türkiyə-Azərbaycan əməkdaşlığının qısa müddətdə hansı nəticələrə gətirib çıxaracağı görünəcək. Və erməni qüvvələrinin geri çəkildiyi zaman yaranmış dağıntıların aradan qaldırılması, işğaldan azad edilmiş torpaqlarda yolların, infrastrukturun yaradılması, tarixi irsin bərpası istiqamətində işlər aparılır. Bununla da köçkün düşmüş azərbaycanlıların qısa müddətdə azad edilmiş torpaqlarına qayıtması təmin olunacaq.

Regional nöqteyi-nəzərdən, bölgədə yenidən formalaşdırılan tarazlığın sülh və sabitlik gətirməsi və bütün faktorların yeni dövrdən faydalanması mümkündür. Hazırda Ermənistan istisna olmaqla, regionda bir çox sabitləşmə təşəbbüsləri var. Nəqliyyat və enerji nəqli infrastrukturu regionda böyük irəliləyiş əldə etmişdir. Ermənistan otuz il ədalətsiz və qanunsuz işğalını davam etdirərək bu cəhdlərdən kənarda qaldı. 1915-ci il hadisələrinin ədalətli xatirəsini rədd edən bir diskursla Türkiyə və antitürk əhval-ruhiyyəsindən yapışan diasporun gündəmini girov götürən Ermənistan uzun illər təcrid və regional əməkdaşlıq təşəbbüslərindən kənarda böyük yoxsulluğun məngənəsində yaşadı. [1, səh. 74]. Regional faktorlarla harmoniya və əməkdaşlığı inkişaf etdirmək üçün Ermənistanın bu ədalətsiz işğala son qoymasının zəruriliyi əvvəllər də dəfələrlə qeyd edilib.

Yeni dövrdə Ermənistan administrasiyasının qarşısında iki yol var: ya yeni təxribatlar əlavə etməklə təcavüzkar siyasətini davam etdirəcək, ya da öz xalqının rifahını, regionun təhlükəsizliyini və sabitliyini düşünərək təcavüzkar siyasətinə son qoyacaq həllinə gətirib çıxaracaq. İrəvan administrasiyası birincini seçərsə, 44 günlük müharibədə baş verənlərə nəzər salmaqla onun hansı nəticə ilə üzləşəcəyinə dair ipucları asanlıqla başa düşülə bilər. Əgər ikinci yolu seçərsə, bölgədə sülh və əmin-amanlıq mühiti yaranar və bu vəziyyətdən ən çox faydalanan ölkələrdən birinə çevrilər. Ermənistanın ikinci variantı seçməsi üçün Türkiyə və Azərbaycan prezidentləri 2020-ci il noyabrın 10-da keçirdikləri mətbuat konfransında Altı Platformanı təklif ediblər [2]. Cənubi Qafqazda sabitliyin təmin edilməsinə dair bu təklif Türkiyə və Azərbaycanın yeni dövrdə regiona baxışlarını ortaya qoyur. Əslində, hələ də işğal altında olan Azərbaycan torpaqları olsa da, Ermənistan regional sabitlik üçün açıq qalıb və “Beş platforma” əvəzinə “Altılıq” platforması təklif edilib. İkinci Qarabağ müharibəsinin nəticələri qlobal səviyyədə öz əksini tapdı. Əvvəla, Türkiyə ilə Azərbaycan arasında sahədə əməkdaşlığın əməli nəticələri təkcə ikitərəfli əlaqələr və ya region baxımından deyil, həm də qlobal miqyasda məna kəsb edir. Torpaqları işğal altında olan xalqlar və dövlətlər baxımından ədalətsiz və qanunsuz torpaq işğalının əbədi davam etməyəcəyi mesajı alınıb. Başda BMT və Minsk Qrupu həmsədrləri olmaqla bir çox faktorun problemi illərdir yarımçıq qoymasına baxmayaraq, problemə alternativ həll yollarının tapıla biləcəyi və lazım gəldikdə tənlikdən kənarda qala biləcəyi nümayiş etdirildi [2].

Azərbaycan bütün dünyaya sübut etdi ki, öz torpaqlarını işğaldan azad etmək üçün kifayət qədər hərbi gücə malikdir, lakin regionda problemin həlli üçün sülh prosesinə üstünlük verir. Müharibə zamanı öz mülki əhalisinə davamlı və birbaşa hücum olmasına və bu istiqamətdə təxribata məruz qalmasına baxmayaraq, heç bir şəkildə mülki əhalini hədəf almamış, qeyri-mütənasib güc tətbiq etməmişdir. O, idarə olunan və sülh yönümlü proses idarəçiliyini həyata keçirmişdir. Azərbaycanın bu münasibəti regionun gələcəyi üçün mühüm addımdır. Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi çərçivəsində atdığı addımlar regionda Ermənistanın da iştirak edəcəyi yeni çoxtərəfli əməkdaşlıq mühitinin əsasının qoyulmasına öz töhfəsini verib. Çünki regionda daimi sülh və əməkdaşlıq prosesinin reallaşması region ölkələrinin ərazi bütövlüyünün təmin edilməsi və bir-

birinin suverenlik qanunlarına hörmətlə yanaşması çərçivəsində mümkün olacaq. Bu reallığı ən yaxşı görən və anlayan ölkələr Türkiyə və Azərbaycandır. Bu araşdırma qondarma İkinci Qarabağ müharibəsindən əvvəl və sonra Türkiyə-Azərbaycan münasibətlərinin ölçüsünə yönəlib. Bu çərçivədə müharibə nəticəsində bölgədə formalaşacaq yeni hüquqi, siyasi və fiziki atmosferdə Türkiyə və Azərbaycanın birgə hərəkətinin təsirləri müzakirə edilib. Bununla belə, baxılan problemlərə ümumi qiymət verilərək, iki ölkə arasındakı münasibətlərin beynəlxalq təsirləri haqqında proqnozlar verilmişdir və s.

**Ədəbiyyat siyahısı:**

1. Akif Nağı; Qarabağ müharibəsi (qısa tarix); Bakı – 2014.

2. Qarabağ savaşı – Azərbaycan və Türkiyə qardaşlığının növbəti təntənəsi: https://ikisahil.az/post/258983-qarabag-savashi-azerbaycan-turkiye-qardashliginin-novbeti-tentenesi-fotolar

3. Soğuk savaş sonrası sosyal, ekonomik ve siyasal gelişmeler bağlamında Güney Kafkasya; İzmir – 2021.

4. Türkiyə - Azərbaycan münasibətlərinin tarixi və inkşaf yolu: https://www.trt.net.tr/azerbaycan/turk-dunyasi/2022/05/16/turkiy-az-rbaycan-munasib-tl-rinin-tarixi-v-inkisaf-yolu-1827437

5. Yukarı Karabağda 44 günde gelen zafer: Türkiye – Azerbaycan kardeşliğinin nişanesi; İstanbul – 2021.

---

**Yeganə Vəliyeva Arif qızı**
Azərbaycan Dövlət İqtisad Universiteti Türk Dünyası İqtisad Fakültəsi İşletme 270
yegane.veliyeva2002@gmail.com

## Şuşa şəhərinin dirçəldilməsinin Azərbaycanın tərəqqisinin yeni zirvəyə qaldırılmasında strateji əhəmiyyəti

### Giriş

Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz bir parçasıdır (İlham Əliyev). [1]

Bu məqalədə Şuşa şəhərinin dirçəlməsinin Azərbaycan tərəqqisini yeni zirvəyə qaldırıılmasında strateji əhəmiyyətindən bəhs edilmişdir. Məqalədə ilk öncə işğaldan öncə ki Şuşadan daha sonra, Şuşanın işğalından, son olaraq işğaldan azad olunmuş Şuşanı inkişaf etdirəcək amillərdən və bunların Azərbaycan iqtisadiyyatına təsirindən bəhs olunmuşdur.

**Açar sözlər:** Şuşa, iqtisadiyyat, turizm, mədəniyyət, inkişaf,

### 1.Şuşa 1752-1992 ci illərdə

Şuşa şəhərinin əsası 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulmuşdur. XVIII əsrdə isə Azəbaycanın ən mühüm şəhərlərindən birinə çevrilmişdir. Bu dövürdə Şuşa xeyli inkişaf etmiş və onun ətrafına böyük və güclü səd çəkilmişdir. Azərbaycan xalqının mədəniyyət tarixində ilk dəfə olaraq teat, sirk tamaşaları, Avropa və Şərq konsertləri, musiqi, elm, maarif və bir çox sənət məclisləri, bunan əlavə mətbəə, kitabxana , realni uçiliş, seminariya və bir sıra mədəni-maarif müəssəsələri məhz Şuşada yaranmışdır. XIX əsrin 40-cı illərindən başlayaraq Şuşada incəsənətin müxtəlif sahələrini inkişaf etmişdir. Yerli teatr həvəskarları tərəfindən teatr tamaşaları göstərilmişdir[2].

Şuşa şəhərinin iqtisadiyyatında heyvandarlıq əsas yer tuturdu. 5 sovxoz vardı. Kənd təsərüfatına yararlı torpaqlar 20,9 min ha-dır(1986). Bunun 3,8 min ha-ı şum yeri, 0,1 min ha-ı çoxillik bitkilər, 0,3 min ha-ı biçənəklər, 16,7 min ha-ı otlaqlardır. Suvarılan torpaqlar 0,1ha-dır. 3,4 min ha əkin sahəsinin 41% -ə dənli və dənli- paxlalı bitkilər (buğda, arpa, qarğıdalı), 6%-ində tərəvəz-bostan bitkiləri və kartof, 53%-ində yem bitkiləri əkilir. Meyvəçiliklə məşğul olunurdu. 5,2 min qara mal, 15,2 min davar var (1986). Quşçuluqlada məşğul olunurdu. Şərq musiqi alətləri f-ki, istehsalat kombinatı, çörəkbişirmə müəssisəsi, Bakı “Radioqayırma” birliyinin 1№-li istehsalı, Qarabağ ipək

kombinatının sexi, elektrik şəbəkəsi, k.t. texnikası təmiri müəssisəsi və s. vardı. Kurort təsərüfatı inkişaf etmişdir. Yevlax-Naxçıvan avtomobil yolu və qaz kəməri Şuşa rayonundan keçirdi[3].

2. **Şuşanın işğalı dövrü**

Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycan qarşı hərbi təcavüzə başlamış Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılmışdır. Bu dağıdılan abidələr arasında 25 məktəb, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi, 4 texnikum, 2 institut filialı, 7 uşaq baxçası, 4 kinoteatr, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazarı, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatırı, Şuşa Televiziyası, Şərq musiqisi alətləri fabriki, Dövlət Rəsm qaleriyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır[4].

3. **İşğaldan azad olunduqdan Şuşa**

Şuşa xidmət sektorunun geniş bir şəkildə inkişaf etdirilməsi üçün çox əlverişli bir şəhərdir. Burada xidmət sektorunu bir çox istiqamətdə inkişaf etdirmək mümkündür.

Təhsil: Şuşa işğaldan azad olunduqdan sonra orada yeni məktəblər və Universitetlər açılması nəzərdə tutulmuşdur. Burada yeni universitetlərin açılması və xaricdən tələbə qəbul olunması Şuşanı fərqli ölkələrdə daha yaxşı tanıtmağa və xarici investorların bura yönləndirilməsində müsbət rol oynaya bilər. Bu isə Şuşada beynəlxalq şirkətlərin yadılması və Azərbaycana daha çox xarici valyuta girişinə səbəb olar ki, bu da manatın dəyərini artırar.

Otel xidmətləri: Şuşa turistik məkan olduğu üçün burada böyük otellərin tikilməsi həm Azərbaycanın müxtəlif bölgələrindən olan insanların, həm də xarici turistlərin böyük marağına səbəb ola bilər. Hətta, turistlərin bu otellərə marağını artırmaq üçün otellərdə Şuşa uğrunda şəhid olmuş qəhrəmanlara aid sərgilər xüsusi muzeylər yaradıla bilər. Bu həm turistlər üçün maraqlı olar həm də şəhidlərimiz buraya gələn insanlara tanıdılar.

Bank sektoru: Azərbaycanın böyük banklarının burada yeni filyalları açıla bilər və bu da Azərbaycanda bank sektorunun inkişafına səbəb olar.

Şuşa şəhərin təbiəti və mədəniyyəti burada turizmin müxtəlif cəhətlərdən inkişafına təkan verir.

Səhiyyə turizmi: Şuşada olan əlverişli resrusların ( mineral sular və dağ havası) mövcudluğundan istifadə edilərək yeni müalicəvi müəssəsələr yaradıla bilər.

Qış turizmi: Dağlıq relyefə sahib olması burada güclü qış turizmi yaradılması üçün güclü təməl yardır. Böyük Qafqazda yaradılmış Şahdağ, Tufandağ və. s böyük qış turizmi mərkələrinin bənzərləri burada da yaradıla bilər.

Konfrans turizmi: Qarabağ həmçinin Şuşa tarixi və mədəni keçmişi ilə məlumat və müzakirə etmək üçün konfranslar üçün ən uyğun yerlərdəndir. Azərbaycanda keçirilməsi nəzərdə tutulan Beynəlxalq konfransların burada keşirilməsi bu turizmin inkişafında böyük əhəmiyyət daşıyar.

Tarix, mədəniyyət turizmi: Tarix və mədəniyyət baxımından Şuşa turizm şəhəridir. Burada müxtəlif muzeylərin açılması və festivalların keçirilməsi bunu inkişaf etdirə bilər. Cıdır düzü belə festivalların keçirilməsi üçün çox əlverişli bir mövqey daşıyır.

Aqroturizm Şuşa üçün həm turistlərin bura cəzb olunmasına həm də bu ərazilərə yeni məskunlaşmağa çalışan Şuşanın yerli əhalisinin işlə təmin olunmasına böyük kömək olacaqdır. Burada aqroturizm üşün xüsusi bölgələr ayrıla bilər və bu ərazilərin inkişafı üçün xüsusi diqqət göstərilsə aqroturizmin tez bir zamanda inkişafına səbəb ola bilər.

Ölkə başçısının göstərişi ilə Şuşanın Baş Planı üzərində iş çərçivəsində şəhərin yaşıllıq və landşaft stratgiyasına xüsusi diqqət ayrılır.

Xezerxeber.az-ın xəbərinə görə, bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev "Facebook" da bildirib.

O qeyd edib ki, Şuşanın təbii meşə və parkları bərpa olunacaq, yeni yaşıl koridorlar, o cümlədən 8 km-dən çox şəhərətrafı yaşıl halqa yaradılacaq.

A.Quliyev qeyd edib ki, Şuşada 36,2 km yol bərpa olunacaq, 17,6 km yeni yol salınacaq: "Baş Plan üzərində iş çərçivəsində şəhərin funksional zonalaşdırılması aparılıb, buna əsasən nəqliyyat infrastrukturunun yenilənməsi, küçələrin kateqoriyalaşdırılması, ictimai nəqliyyatın təşkili və s. üzrə təkliflər hazırlanıb[5].

Şuşa əsasən dənli bitkilərin və kartofun yetişdirilməsi üçün daha çox əlverişlidir. İntensiv əkinçilikdən istifadə edilərək daha çox məhsul əldə edilə bilər. Bunun nəticəsində Azərbaycan daxili tələbatını öz hesabına qarşılaya bilər.

Bütün bu inkişaf etdirici amillər Şuşada bir çox yeni iş yerlərinin açılmasına və məşğulluğun artmasına səsbəb olacaqdır.

YAP-IN verdiyi məlumatlara əsasən Şuşa üçün hazırlanan yeni lahiyələrdə Azərbaycanın qadın sahipkarlarıda yer almaqdadır.

**Nəticə**

Şuşanın işğaldan azad olunması və inkişafı Azərbaycanın Ümumi Daxili Məhsulunun artmasında böyük rola sahibdir. Bundan əlavə ölkəyə daha çox xarici valyuta gəlməsinə səbəb olar ki bu da Azərbaycanın inkişafı və manatın dəyər qazanması üçün əlverişli zəmin yaradar. Təbii ki bunun üçün ilk öncə yetərli investisiya ayrılmalıdır. Şuşanın işğal və müharibə dövründə dağıdılmış olan əraziləri bərpa olunmalıdır ki, bunun üçün artıq prizdent İham Əliyev tərəfindən lazımi tədbirlər görülməyə başlamışdır. Bir neçə il sonra Şuşa Azərbaycanın müasir inkişafa malik şəhərlərindən birinə çevriləcəktir.

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://president.az/az/articles/view/55197
2. Virtual qarabağ. https://www.virtualkarabakh.az/az/post-item/25/44/qarabag-musiqi-tarixi.html
3. Azərbaycan Respublikası Şuşa rayon icra hakimiyyəti http://www.shusha-ih.gov.az/az/page/14.html
4. Azərtac https://azertag.az/xeber/Susa___Azerbaycanin_tarixi_ve_strateji_ehemiyyetli_medeniyyet_paytaxti-1921706
5. Xəzər Xəbər https://www.xezerxeber.az/news/gundem/342175/susanin-yasilliq-ve-landsaft-strategiyasina-xususi-diqqet-ayrilir


---


**Muradov Nicat Zəfər oğlu**
Azərbaycan Respublikasının
Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
İnzibati idarəetmə kafedrası
Heyətin idarə edilməsi ixtisası
Qrup: HİE 211. Magistr
nicat.muradov1111@gmail.com


## Şuşanın resurs potensialının təhlili və qiymətləndirilməsi.


**Xülasə**

Azərbaycan xalqı tarixin ən şərəfli, yaddaqalan günlərini yaşayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin istər ölkə daxilində, istərsə də, beynəlxalq aləmdə yürütdüyü siyasət nəticəsində və strateji rəhbərliyi ilə Azərbaycan Ordusu mənfur düşmən üzərində qələbə çalaraq otuz illik vətən həsrətimizə son qoyaraq, torpaqlarımızı düşmən işğalından azad etmişlər. Biz həmin ərazilərin resurs imkanlarını analiz edərək, bir çox fəaliyyət sahəsinə işıq tuta bilərik.

Xüsusiylə bunu qeyd edə bilərik ki, əlverişli biznes sahəsi yardaraq qeyri-neft sektorun inkişafına bir zəmin ola ola bilərik. Bu ərazilərin zəngin təbii resursları məhz gələcək inkişafına ayrı bir özəllik qatır.

Məqalə üç hissədən ibarətdir. Birinci hissədə ərazinin iqlimi, təbii şəraiti, relyefi, coğrafi mövqeyi, sosial-iqtisadi tərəfi haqqında bəhs edilir. Həmçinin tarixi ilə bağlı məlumatlar qeyd olunmuşdur.

İkinci hissədə resurs potensiallarının təhlili və qiymətləndirilməsi, davam edən və istifadə olunan resursların analizi və təkmilləşdirilməsi üçün yeni ideyaların qeyd olunması.

Üçüncü hissədə yaradıla biləcək fəaliyyət növləri, araşdırmanın nəticələri və qarşıya qoyulan təkliflər yer almaqdadır.

**Abstract**

The people of Azerbaijan are living the most glorious and memorable days of history. As a result of the policy carried out by the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, both within the country and internationally, and with the strategic leadership, the Azerbaijan Army won victory over the hated enemy, ended our thirty-year longing for the homeland, and freed our lands from enemy occupation. We can shed light on many areas of activity by analyzing the resource potential of those areas.

In particular, we can note that by creating a favorable business area, we can be a basis for the development of the non-oil sector. The rich natural resources of these areas add a special feature to their future development.

The article consists of three parts. The first part talks about the area's climate, natural conditions, relief, geographical position, and socio-economic aspects. Also information about the history is mentioned.

In the second part, the analysis and assessment of resource potentials, the mention of new ideas for the analysis and improvement of ongoing and used resources.

The types of activities that can be created in the third part, the results of the research and the proposals presented are included.

**Giriş**

Şuşa Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində yerləşir və Qarabağ iqtisadi rayonunun mərkəsində yerləşir. Şəhər ərazisi əsasən dağlıq relyefə məxsusdur. Əvvəlki adı Pənahabad olması, 1752-ci ildə Qarabağ xanı Pənahəli xanla bağlıdır ki, şəhərin təməli onun göstərişi ilə qoyulmuşdur. Lakin əvvəllər də bu ərazilərdə yaşayışın olması qədim tarixçilər tərəfindən təsdiqlənmişdir.

Şuşa şəhəri qədim tarixə söykənən, mədəniyyətin beşiyi sayılan, təbiəti ilə göz oxşayan Azərbaycanın ən gözəl güşələrindədir. Eramızın II əsrindən qədim səyyahlar Şuşanın varlığı haqda məlumatlar tarixdə öz yerini tapmışdır. Adı ilə bağlı bir çox fikirlər mövcuddur ki, assimliyasiyaya uğruyaraq "Şuşa" adına gəlib çıxmışdır. Şuşanın gözəl təbiəti, təmiz havası, göz yaşından təmiz suyu sanki orda yaşayıb, boya başa çatanlara ayrı bir ilham mənbəyi olmuşdur. Bir çox tanınmış şəxsiyyətlər – Qasım Bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Hacı Hüsü, Bülbülcan, Nəcəf bəy Vəzirov, Cabbar Qaryağdı oğlu, Əbdürrəhim bəy Haqverdiyev,Süleyman sani Axundov və sayaraq bitməyəcək bir çox incəsənət və mədəniyyət xadimləri məhz bu gözəl torpaqlarda gözlərini açmışlar.

Şuşanı gözəlliyi bəlkə də, onun başına bir bəla olmuşdur ki, belə bir gözəl yurdu mənfur düşmənlərin ayaqları altında 28 il tapdalanmışdır. Lakin artıq biz öz doğma yurdumuza, Şuşamıza qayıtmışıq və Şuşanı yenidən dirçəltmək və bunun üçün əlimizdən gələni əsirgəməməliyik.

Dağlıq Qarabağın abadlaşdırılması yönündə bir çox layihələr irəli sürdürülür ki, bu da öz növbəsində həmin ərazilərdə yenidən yaşayışın təmin olunmasıdır. Yol infrastrukturları, rabitə və texnologiyaların yerləşdirilməsi, müxtəlif fəaliyyətli obyektlərin tikilməsi, tarixi abidələrin bərpası, yaşayış məskənlərinin salınması və s. kimi prosedurlar davam etməkdədir. Həmin ərazilərin mümkün potensialları araşdırılaraq inkişafına yönəlik fikirlər və yeni ideyalar çıxarmaq mümkündür.

Tarix boyu keçilməz , dağılmaz bir qala kimi Şuşa qalası dəfələrlə feodal müharibələrinə öz möhkəmliyini göstərmişdir. Xanlıqlar dövründə Qarabağ xanlığının düşmənlərin hücumlarında qorunmaq üçün ən qorunaqlı, strateji cəhətdən uyğun olaraq məhz Şuşada bu qulanın təməli qoymuşlar.

Şuşanın şəhər kimi inkişafı məhz bununla göstərmək olar ki, burada yerləşən 17 məhəllə, hansı ki hər məhəllədə bulaq, hamam, məscid yerləşirdi. Həmin məhəllələrdən Saatlı, Xoca Mərcanlı, Seyidli, Culfalar, Dörd çinar, Köçərli, Dəmirçilər və digərlərinin adını çəkmək olar.

**1. Şuşanın iqlimi, relyefi, coğrafi mövqeyi, sosial-iqtisadi tərəfləri, tarixi.**

Azərbaycanın ən dilbər guşələrindən sayılan Şuşa öz zəngin təbiəti ilə insanı valeh edir. Şuşa Kiçik Qafqaz dağlarının cənubunda və dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşir. Şuşanın

təbiətini təsir edən onun iqlim şəraiti əksər hissədə yayı sərin , qışı az sərt keçməsidir. Qış aylarında -4C-dən -1C-yə qədər düşür. Yay aylarında isə 15-20 dərəcəyə arasında dəyişir. İllik yağıntı miqdarı 700-800 mm aralığında olur. Şuşa Qarabağ iqtisadi rayonunun tərkibinə daxildir.

Şuşanın adının mənbəyi haqqında məlumatlar eramızın II əsrlərində yaşamış Qədim Roma tarixçisi Tasit Kornelli tərəfindən öz tarixçələrində yer almışdır və adı Sosu olaraq qeyd olunmuşdur. Bəzi tarixçilərə görə Şuşa sözünü yüksək, uc, şiş kimi sözlərdən əmələ gəlməsini burda terk dilli xalqların məskunlaşmasını ifadə edirlər.

Tarix boyu keçilməz , dağılmaz bir qala kimi Şuşa qalası dəfələrlə feodal müharibələrinə öz möhkəmliyini göstərmişdir. Xanlıqlar dövründə Qarabağ xanlığının düşmənlərin hücumlarında qorunmaq üçün ən qorunaqlı, strateji cəhətdən uyğun olaraq məhz Şuşada bu qulanın təməli qoymuşlar.

Şuşanın şəhər kimi inkişafı məhz bununla göstərmək olar ki, burada yerləşən 17 məhəllə, hansı ki hər məhəllədə bulaq, hamam, məscid yerləşirdi. Həmin məhəllələrdən Saatlı, Xoca Mərcanlı, Seyidli , Culfalar, Dörd çinar, Köçərli, Dəmirçilər və digərlərinin adını çəkmək olar.

**2. Şuşada yarada biləcək fəaliyyət obyektləri.**

Bir çox dünya ölkələrin təcrübəsinə əsaslanaraq yenidənqurma , quruculuq , bərpa işlərinin görülməsi bir qədər vaxt və vəsait tələb edir. Bu hal bizim üçün də keçərlidir ki, xain düşmənlərimiz ərazilərə son anlarında belə ziyan vurmaqları, onun təbii meşələrində yanğınlar törətməyi, ağacların kəsilməsi və s. kimi hadisələr müəyyən qədər zərərə uğramağıza yol açmışdır. İlk öncə həmin ərazilərin minalardan tamamilə azad edilməsinə təmin etmək, düşmənlərin yarada biləcəyi hər cür təxribatın qarşısını alma şəraiti, yol infrastrukturunun tam təkmilləşməsi və təhlükəsizliyinin təmin edilməsi, tele-komnikasiyaların yaradılması, yaşam üçün vacib olan infrastrukturların qurulması. Şuşanın zəngin mədəniyyəti tarixən hər kəsə bəllidir.

Şuşa dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşir və Azərbaycanın mədəniyyət incisidir. Şuşanı “Qafqazın Parisi”, Azərbaycan musiqisinin beşiyi, Qafaqazın incəsənət məbədi adlandırlır. İşğaldan öncəki zamanlarda fəaliyyət göstərən bir çox yay düşərgələri, istirahət mərkəzləri, sağlamlıq mərkəzləri, Şuşa sanatoriyası kimi turizm üçün əhəmiyyətli fəalliyyət obyektləri yerləşməkdə idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bir çox tapşırıq və göstərişləri əsasında, yenidənqurma işlərində Şuşada turizmin inkişafına yenidən önəm vermək lazım olduğunu bildirmişdir. Şuşada xüsusi potensiala malik olan ərazilərdən xüsusilə bir-birinin ardıyca uzanan üç təpədən ibarət olan Cıdır düzü kimi heyrətamiz ərazini xüsusilə qeyd etmək olar. Bu ərazidə bir çox dünya festivallarını, konsertlər, yarışlar keçirərək dünyanın gözünü Şuşaya çəkə bilərik.

**Cədvəl 1. Qarabağ iqtisadi rayonu üzrə işğaldan azad olunmuş ərazilərdə 2021-ci ilin yanvar-sentyabr ayları üçün iqtisadi fəalioyyətin əsas sahəhələri üzrə məhsul buraxılışının fiziki həcm indeksi, əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə**

| | Sahələr üzrə cəmi | sənaye kənd təsərrüfatı meşə təsərrüfatı | tikinti | nəqliyyat və anbar təsərrüfatı | informasiya və rabitə | ticarət nəqliyyat vasitələrin təmiri |
|---|---|---|---|---|---|---|
| Qarabağ iqtisadi rayonu - cəmi | 104,4 | 104,8 | 105,6 | 4,0 d. | 87,2 | 118,1 |
| Şuşa rayonu | 101,3 | 109,5 | 109,8 | 83,0 | 91,0 | 108,3 |

**Mənbə: Azərbaycanın səanyesi AR DSK https://www.stat.gov.az/source/industry/, 2022.**

Dövlət Statistika Komitəsinin Cədvəl 1. yer alan məlumatlarına əsaslanaraq onu qeyd edə bilərik ki, bu ərazidə ticarət, hər cür nəqliyyat vasistələri üçün təmir fəaliyyət növləri çoxluq təşkil etməkdədir. Bundan başqa kənd təsərrüfatı, meşəçilik, balıqçılıq, sənaye və tikinti də prioritet sahələr kimi inkişaf etdirilə bilər.

| Cədvəl 2. 2020 – ci ildə Şuşada sənaye məhszulunun (işlərin xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, min manat) | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2015 | 2016 | 2017 | 2018 | 2019* | 2020* |
| Şuşa rayonu | 12 | 17 | 7 | 8 | 8 | 15 |

**Mənbə: Azərbaycanın səanyesi AR DSK https://www.stat.gov.az/source/industry/, 2021.**

Bundan Şuşanın mədəniyyətini bərpa etmək üçün bir çox incəsənət yönümlü fəaliyyət obyeklərinin burada planlaşdırılması məqsədə uyğun sayılır.

**Nəticə**

Araşdırmalarıma əsaslanaraq Şuşada insan məskunlaşmasını artırmaq, yaşayış məskəni salmaq üçün aşağıdakı fəaliyyət obyektələrinin əsası qoyulması məqsədə uyğundur:

- Milli Konservatoriyanın Şuşada yeni bir filialının açılması, müasir standartlara cavab verən çox təyinatlı musiqi məktəblərinin fəaliyyəti, Muğam evinin tikilməsi və digər musiqi fəaliyyətini inkişaf etdirə biləcək təlim, tədris müəssisələrinin açılması
- Asan Xidmət və Dost mərkəzlərinin fəaliyyəti.
- Qarabağ ərazisində ehtiyac duyulan ixtisaslı kadrların yetişdirilməsi üçün "Qarabağ Dövlət Universiteti"nin açılması
- Turizmin inkişaf etdirilməsi üçün dağ turizmi, ekoturizm, ov turizmi, sağlamlıq turizmi fəaliyyətlərinin yaradılması
- Çox funksiyalı ssənaye obyektləri parklarının yaradılması burada əhalinin işlə təmin olunmasında problemlərin aradan qalxamsına köməklik edəcəkdir.
- Tarixi obyektlərin restarvasiyası, digər dini məbədlərin də yenidənqurma işlərinin aparılması, dini icma birliklərinin yeni mərkəzlərinin burada qurulması digər xalqlar tərəfindən də xoşa gələn bir aura yaradacağına əminlik bildirə bilərəm.

## Ədəbiyyat siyahısı:


1. AR-nın işğaldan azad olunmuş ərazilərində məslələrin mərkəzləşdirilmiş qaydada həll edilməsi vasitəsilə əlaqədar Əlaqələndirmə Qərargahının yaradılması barəsində Azərbaycan Respublikasını Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı.
2. Cəfərov, A. (2021) Rayonlarımızın işğaldan azad olunması Azərbaycan iqtisadiyyatına hansı faydalar verəcək?
3. Dövlət Statistika komitəsinin web saytı (https://www.stat.gov.az/).
4. Kaşiyeva, F. (2021) İşğaldan azad olunmuş ərazilərdə infrastrukrun bərpası.
5. Əlirzayev, Ə.Q., (2010), Turizmin iqtisadiyyatı və idarəedilməsi.
6. Hüsynov, İ., Əfəndiyeva N., (2007) Turizmin Əsasları , Bakı
7. Şuşanın tarixi (https://web.archive.org/web/20170706202536/http://karabakhinfo.com/12439)
8. Şuşanın tarixi abidələri (https://web.archive.org/web/20171011175859/http://shusha.az/susanin-tarixi-v%C9%99-memarliq-abid%C9%99l%C9%99ri/)

**Əsgərli Vüsal**
Azərbaycan Dövlət İqtisad Universiteti
Biznes və menecment fakultəsi
Marketinq ixtisası (qurp 974)
esgerlivusal003@gmail.com

## İşğaldan azad olunmuş inzibati rayonlarin infrastruktur inkişaf problemləri və Milli iqtisadiyata inteqrasiyasının təmini

Dağlıq Qarabağ konfliktinin Azərbaycan iqtisadiyyatına və sosil-mədəni həyatına vurduğu zərərin miqyası kifayət qədər böyükdür. Onun qiymətləndirilməsi və aradan qaldırılması istiqamətində ciddi araşdırmaların aparılmasını xüsusilə aktuallaşdırır.

Məlum olduğu kimi, Azərbaycanın işğaldan zərər çəkmiş əraziləri, Naxçıvan Muxtar Respublikası da daxil olmaqla, Ermənistanla bütün sərhəd boyu uzanır. Buraya, 45-i şəhər statusuna malik olmaqla, 1 765 yaşayış məntəqəsi daxildir. Qarabağın məskunlaşma sahəsində 1 268 yaşayış məntəqəsi vardır (bunların 34-ü şəhər statusuna malikdir). Qarabağın işğal altındakı ərazilərində 764 yaşayış məntəqəsi var idi. İndi onların mütləq əksəriyyəti, demək olar ki, tam dağıdılmışdır. Beləliklə də, bu araşdırmanın mövzusu Azərbaycanın Dağlıq Qarabağa bitişik yeddi bölgəsi – Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarıdır. Onların ümumi sahəsi 8 874 km2, əhalisi 615 min nəfərdir.

Ölkənin iqtisadi rayonlara bölünməsi baxımından məlumdur ki, idarəetmənin səmərəliliyini yüksəltmək nöqteyi-nəzərindən inzibati ərazi bölgüsünün optimal variantının təşkili böyük əhəmiyyət daşıyır. Azərbaycan ərazisinin 10 iqtisadi rayona bölünməsi Azərbaycan Respublikası Prezidentinin sərəncamı əsasında “2004-2008-ci illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramının icrası zamanı təsbit olunmuşdur.

07 iyul 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fərman imzalamışdır. Bu fərmana uyğun olaraq respublikada rayonların yenidən iqtisadi bölgüsü müəyyənləşdirilişdir:

I. Bakı iqtisadi rayonu (Bakı şəhəri);

II. Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları);

III. Abşeron-Xızı iqtisadi rayonu (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları);

IV. Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları);

V. Gəncə-Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları);

VI. Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);

VII. Qazax-Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları);

VIII.Quba-Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları);

IX. Lənkəran-Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları);

X. Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları);

XI. Mil-Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları);

XII. Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları);

XIII. Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları);

XIV. Şirvan-Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları). [1]

Tədqiqat mövzusu olan ərazi bu iqtisadi rayonların ikisində təmsil olunur. Yuxarı Qarabağ iqtisadi regionuna 7 inzibati rayon – Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Füzuli və Cəbrayıl rayonları, habelə Xankəndi şəhəri daxildir.

Cəbrayıl, Ağdam və Füzuli rayonları keçmiş DQMV-nin inzibati sərhədlərindən kənarda yerləşir. Kəlbəcər-Laçın iqtisadi regionuna 4 inzibati rayon – Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonları daxildir.

İşğaldan azad edilmiş rayonlarımızın, işğaldan əvvəlki vəziyyətlərinə nəzər salaq

Ağdam rayonu- Qarabağ silsiləsinin şimal-şərq ətəklərini və Kür-Araz ovalığının qərb hissəsini əhatə edir. Əsasən düzən relyeflə səciyyələndirilən Ağdam qismən dağlıq relyefə də malikdir. İqtisadiyyatı potensialı baxımından inkişaf etmiş aqrar rayonu olmuşdur. Bu sahəyə əsasən üzümçülük, pambıqçılıq, heyvandarlıq, taxılçılıq, eləcə də baramaçılıq daxildir. Sənaye sektorunda ağır, yüngül və qida-yeyinti sənayesi müəssisələri pay çoxluğu təşkil edir. İşğala yaxın dövrdə daş karxanaları, ət kombinatı, konserv və şərab zavodları, yağ-pendir, və bir sıra başqa istehsal təyinatlı müəssisələr fəaliyyət göstərirdi.

Füzuli rayonu- əsas etibarı ilə, Araz çayına uzanan alçaq maili düzənlik, qərb tərəfdə isə alçaq dağlıq relyefə malikdir. Bakı-Şirvan-Naxçıvan magistralının üstündə yerləşir. İqtisadiyyatının əsas sahəsi, yetərincə yüksək səviyyəli suvarma sisteminə malik olan kənd təsərrüfatı olmuşdur. Kənd təsərrüfatının başlıca sahələrinə taxılçılıq, heyvandarlıq, quşçuluq, üzümçülük, həmçinin baramaçılıq daxil edilir. İşğaldan əvvəlki yaxın zaman periodunda qaramal-kökəltmə və qoyunçuluq kompleksləri fəaliyyət göstərirdi. Sənayedə aqrar sənaye sahəsi önəmli aspektdən çıxış edir belə ki, toxuculuq fabriki, yağ-pendir məmulatları, pambıqtəmizləmə, dəmir-beton məhsulları zavodları, bir neçə üzüm emalı zavodu, daş karxanaları və digər zavod və fabriklər fəaliyyət göstərmişdir.

Cəbrayıl rayonu- əsasən, maili düzənlik, şimalda alçaq dağlıq relyef xüsusiyyətlərinə malik olmaqla, Bakı-Şirvan-Naxçıvan magistral yolunun üzərində yerləşir ki, təsərrüfat sahələrinin əsasında – kənd təsərrüfatı (üzümçülük, tütünçülük, heyvandarlıq və taxılçılıq) dayanır. Sənaye sektoru xalçaçılıq yönümlü inkişaf etmişdir. Bundan əlavə olaraq, emal sənayesində üzüm emalı zavodu, çörək istehsalı təyinatlı zavodlar fəaliyyət göstərirdi.

Zəngilan rayonu –Mürəkkəb relyefə malik bu rayon Kiçik Qafqazın Arazboyu ərazisində yerləşir. Rayon coğrafi və iqtisadi əlverişli mövqedə yerləşirdi ki, bunun da səbəbi Bakı-Şirvan-Naxçıvan magistralının və Bakı-İrəvan dəmir yolu (Mincivan-Qafan qolu ilə) vəİmişli-Laçın magistral şose yolunun üzərində yerləşməsi idi.

İqtisadiyyatının aparıcı sektoru – kənd təsərrüfatı olub ki, burada ənənəvi olaraq taxılçılıq, üzümçülük eləcə də tütünçülük inkişaf etmişdir. Rayon iqtisadi potensialının bir hissəsində də turizm üçün əlverişli olması dayanır.

Qubadlı rayonu - Bakı şəhərindən 401 km aralıda, ölkənin cənub-qərb zonasında, Qarabağ silsiləsinin cənub-qərb ətəklərində yerləşən dağətəyi və dağlıq relyefə malikdir. İqtisadiyyatında aparıcı sektor– aqrar sektor olmuşdur. Müharibədən əvvəlki illərdə sənaye sürətlə inkişaf yolunu almışdır ki, rayon ərazisində yağ-süd və asfalt zavodları, 2 ilkin üzüm emalı zavodu, balıq yetişdirmə vətəgəsi, daş karxanası, inkubatorquşçuluq fabriki, mərmər sexi fəaliyyət göstərmiş, "Neftqazavtomat" təcrübə zavodunun Qubadlı filialının tikintisi tamamlanmaq üzrə olmuşdur.

Laçın rayonu- Dağlıq relyefə sahib olan Laçın rayonu ölkənin cənub qərbində yerləşən Bakıdan 401 km məsafədə iqtisadi əhəmiyyəti olan bir ərazidir. Başlıca iqtisadiyyat sahələri ənənəvi olaraq heyvandarlıq və əkinçilikdir ki, əkinçilik istiqamətində taxılşılıq və maldarlıq ilə bağlı olan yem istehsalı əsas sahələr hesab edilir. Aqrar sahədə xammal emalı üzrə müəssisələr arasında yağ-pendir və çörək kombinatları, süd zavodu mühüm mövqedə dayanır. Sənaye və infrastruktur, 1970-ci illərdən inkişaf etdirilməyə başlanılıb. İnfrastrukturun təşkili üçün əhəmiyyətli hesab olunan 23 inşaat materialları müəsisəsi fəaliyyətdə idi ki, bunlara afsalt-beton zavodu, daş karxanaları, mərmər emalı müəssisələrini nümunə göstərmək olar. Bunlardan əlavə toxuculuq sexləri, alüminium və maşınqayırma zavodlarının filialları, məişət xidməti kombinatı və s. 16 sənaye müəssisəsi var idi.

Kəlbəcər rayonu –Respublikanın qərbində Böyük Qafqaz dağlarında Tərtər çay vadisində yerləşən Kəlbəcər rayonu ərazisinə görə ölkənin ən böyük rayonudur ki, buradan rayonun iqtisadi və sosial aspektdən mühüm rolu aydın olur. Belə ki, zəngin bitki və heyvanat aləminə sahib olduğundan bu rayon təbiət muzeyi adlanır .[2]

İşğaldan azad olunmuş ərazilərimizin, işğaldan əvvəlki dövrdə ixtisaslaşdığı sahələr, və iqtisadi vəziyyəti haqqında olan yuxarıda sadaladığımız ümumi məlumatlar ,bizə həmin ərazilərin iqtisadi dövriyyəyə hazır vəziyyətə gətirilməsi mərhələlərində yardımçı rolu oynamaqla bərabər ,strateji plan hazırlanmasına da öz töhfəsini verəcəkdir.

**İşğaldan azad olunmuş ərazilərin iqtisadi dövriyyəyə daxil edilməsi məsələləri əhəmiyyətli dərəcədə aktualdır.**

Hərbi qələbəmizdən sonra, Qarabağ regionun ölkədəki inkişaf trendinə reinteqrasiyası prezidentin tapşırığına uyğun olaraq Azərbaycan iqtisadi siyasəti strateji idarəetmə çərçivəsi əsasında həyata keçirilir. Reinteqrasiya strategiyası vaxt ardıcıllığı və regionun iqtisadi, sosial və mədəni xarakteristikası nəzərə alınmaqla həyata keçiriləcəkdir.

Ərazidə əsas infrastruktur sistemlərinin, yəni, nəqliyyat, elektrik, su, qaz, meliorasiya – irriqasiya, sistemlərinin yenidənqurulması və inkişaf etdirilməsi qarşıda dayanan əsas məsələdir. Buna paralel olaraq ərazidə sosial infrastrukturun bərpası da zərurəti var ki, burada əsas olaraq təhsil və səhiyyənin eləcə də digər xidmət sektorlarının yaradılmasından söhbət gedir. Digər prioritet məsələ isə idarəetmə orqanlarının fəaliyyətinin tam təmin olunması, məşğulluq məsələləri və iqtisadi rəqabətə davamlı sahələrin yaradılmasıdır.[3]

Azərbaycanın bu sahədə uğurlu təcrübəsi kimi Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində qısa zamanda yerdiənqurma və bərpa işlərinin başa çatdırılması, tarixi torpaqlarımıza Böyük Qayıdışın başlanğıcı hesab oluna bilər. Görülən işlərin hər biri biznes infrastrukturunun inkişafına böyük imkanlar yaradır.[4]

Böyük Qayıdış prosesində diqqət edilən başlıca məsələ infrastruktur layihələrinin icrasıdır ki, əvvəla qeyd edilməlidir ki, işğal zamanı təkcə Laçın rayonunda 5 su elektrik stansiyası dağıdılıb. Ziyan vurulan bütün obyektlərin bərpasının qısa müddət ərzində başa çatdırılması planlaşdırılır. Regionda enerji potensialının böyük potesialı olduğundan azad olunmuş ərazilərin “yaşıl enerji” zonasına çevriləcəyi gözlənilir.

Zəngilan rayonunda yaradılan “Ağıllı kənd” layihəsi 5 komponenti - yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı”, alternativ enerji sahələrini özündə birləşdirir ki, bu da Azərbaycanın təşəbbüsləri həyata keçirən ölkə olduğunu sübut edir.

Qaytarılan ərazilərin kənd təsərrüfı potensialı ölkədəki aqrar iqtisadiyyatın inkişafına dəstək olacaqdır.[5]

Qarabağ və Şərqi Zəngəzurdakı iqtisadi potensialının qiymətləndirilməsi istiqamətində AMEA-nın tərkibindəki İqtisadiyyat İnstitutu və “Boston Consulting Group” şirkəti ilə ortaq tədqiqat işləri həyata keçirilir ki, qarşıya qoyulan əsas məsələlərdən biri də müqayisəli üstünlük sahələrinin müəyyənləşdirilməsidir. Tədqiqatlar əsasında hazırlanan strateji təhlil sənədində şirkət tərəfindən hazırlanan tarazlıq modeli əsasında proqnozlaşdırılması məsələləri öz əksini tapır.

İlkin inventarlaşmanın bütün informasiyaları Qarabağ Rəqəmsal Geoinformasiya Sisteminə daxil olunmuşdur ki, 14618 daşınmaz əmlakın (11685 ədəd tikili və 2933 ədəd infrastruktur obyekti) çöl inventarlaşdırma prosesləri tamamlanmışdır. Hazırda bu sistemə 20 dövlət qurum və təşkilatının qoşulması təmin edilmişdir. Biznes fəaliyyətinin reallaşdırılması ilə bağlı 791 müraciət daxil olub ki, bu da ərazidə biznes təşkilinə maraqların olduğunu göstərir.

Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsinin açıqlamasına əsasən, sözügedən ərazilərdə 14347 hektar sahədə şumlama işləri həyata keçirilmişdir ki, şumlanan torpaqlarda taxıl əkini planlaşdırılır. Kəlbəcər və Laçın rayonundakı yaylaqlara 3568 arı ailəsi və cəmi 69 arıçı köçürülmüşdür. Onu da vurğulamaq yerinə düşər ki, qazanılan qələbədən bu günku günə qədər olan dövr ərzində Füzuli ərazisində 288.8 hektar torpaqda şəkər çuğunduru əkilib. Belə ki hər hektardan şəkərlilik faizi 15-16 faiz göstərici ilə 55-60 ton məhsul toplanılıb və tədarük edilən məhsulun miqdarı 1800 tona yaxındır.

Otelçilik və turizm fəaliyyətlərinin təşkili istiqaətində 11 investisiya layihəsinin ilkin dəyərləndirilməsi aparılıb ki, bu barədə Dövlət Turizm Agentliyinin nümayəndəsi icmaiyyəti məlumatlandırıb. Agentliyin nümayəndəsinin məlumatlarına əsasən strateji əhəmiyyətə malik olan Xocavənd rayonu mərkəzi olan Hadrut qəsəbəsinin turizm mövqeyindən qiymətləndirlməsi ilə bağlı hesabat hazırlanmışdır .[6]

Paralel olaraq həyata keçirilən bu yenidənqurma işlərinin hamısı onu göstərir ki, azad olunan regionda "tikinti bumu” gözlənilir. Qeyri-neft sektorunun inkişafı ilə bağlı verilən proqnozlar ordumuzun qələbəsilə yenidən işlənəcəkdir ki, bu da inkişaf potensialının artması ilə əlaqəlidir tədqiqatların ilkin nəticələrinə əsasən növbəti illərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında məhsulun ümumi buraxılışı 2 milyard manatdan artıq ola bilər.

Qaytarılan tarixi torpaqlarımızda dirçəliş məsələsi bir çoxpilləli prosesdir ki, ilk növbədə kooperasiya əlaqələrinin qurulması tələb olunur ki, bu həm region daxilində onu əmələ gətirən rayonlar arasında, daha sonra bu rayonlardakı müəssisələr arasında kommunikasiya əlaqələrinin güclənməsində əhəmiyyətli faktordur. Buna paralel olaraq, bir neçə aşağı tərtibli nəticələr gözlənilir. Burada ilk olaraq repatriantların iqtisadi cəhətdən təminatı və maliyyələşdirilməsi məsələləri dayanır. Beləliklə, zəfər qazanılan torpaqların iqtisadi dövriyyəyə daxil edilməsi zamanı əsas aşağıdakı məsələlərin diqqət mərkəzində olması vacibdir:

İlkin olaraq qeyd edilməlidir ki, dirçəlmə prosesinin əsasında davamlı iqtisadi inkişafın təməlinin qoyulması dayanır ki, bu da görülən işlərin uzun müddətli olacağını yəqin edir. İkinci yerdə isə resurslarla təminat məsələsi dayanır ki, burada təkcə maddi resurs və ya maliyyə vəsaitləri yox, insan resurslarının cəlb edilməsi və kadr potensialının yetişdirilməsi məsələsindən söhbət gedir. Həmçinin dövlətin maliyyə resurslarından əlavə özəl investisiyaların cəlb edilməsi, xüsusilə torpaqlarından köçürülən əhali arasından çıxan iş adamlarının bölgədə sahibkarlıq fəaliyyəti ilə məşğul olması yönündə stimullaşdırmaq, yerli əhalinin məşğulluq məsələlərinin optimal variantı kimi biznes və ixtisas kurslarınını təşkili lazım gələcəkdir. Regionun dirçəlişi üzrə layihələr, dayanıqlı iqtisadiyyat üçün yeni inkişaf ocaqlarının təməlinin qoyulmasına köklənməlidir. Son illərdə reallaşdırılan hökumət proqramları, Şərqi Zəngəzur və Qarabağ ərazisinin resurs potensialının iqtisadi dövriyyəsinə daxil olunması ilə öz məntiqi ardıcıllığını tamamlamış hala gələcəkdir. Milli iqtisadiyyatda daha bir əhəmiyyətli irəliləmə qeydə alınması gözlənilir ki, bu da iqtisadiyyatın diversifikasıyası məsələsidir. Beləki iqtisadiyyatın neftdən asılılığının gələcək dövrlərdə xeyli azalması gözlənilir. Konfliktsonrası reabilitasiya ərzində, makroiqtisadi tənzimlənmənin bir sıra mütərəqqi modelini sınaqdan keçirmək də mümkün olacaq. Yerli və xarici özəl şirkətləri cəlb etmək məqsədi stimullaşdırma metodlarına xüsusi diqqət də dövlətin iqtisadi siyasətinin bir parçasıdır. Biznes fəaliyyəti həyata keçirən əhalinin peşəkarlıq səviyyəsini yüksəltmək məqsədi ilə icra edilən layihələr, vergi güzəşləri və s iqtisadi güzəştlər çox vacibdir. Dövlətin maliyyə resurslarının dövriyyəyə cəlb olunmasında şəffaflığın təmin edilməsi üzrə bir sıra metodların həm ayrı-ayrılıqda, həm də kombinə edilmiş şəkildə tətbiqi prinsipial əhəmiyyət daşıyır. İqtisadi dirçəliş bir neçə fundamental prinsiplərin üzərində qurulacaq ki, bunlardan ən vacibi və ilk sırada dayananı, regionun dirçəlişinin ümumi olaraq ölkənin çoxillik strateji hədəflərinə uyğunlaşdırılmasıdır. Belə ki, burada əsas məsələ təkcə regiondaxili inkişaf yox, dövlət miqyaslı məqsədlərin gerçəkləşdirilməsidir. Burada ən çox diqqətə alınmalı məsələ nəqliyyat infrastrukturunun ən beynəlxalq səviyyədə inkişaf etdirilməsidir. Çünki, bu beynəlxalq nəqliyyat daşımaçılığının üstün templə inkişafına xidmət edəcəkdir. Digər baxımdan ölkənin başqa bir strateji məqsədi ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi məsələsidir ki, işğaldan azad edilmiş ərazilərdə bu məqsədə çatmaq üçün yaradılan müəssisələr dövlət himayəsində saxlanılmalıdır. Növbəti prinsipial məsələ isə sahəvi inkişafdırkı, burada kənd təsərrüfatı və turizm resurslarının fərqləndirilməlidir. Digər araşdırılmalı olan məsələ isə yenidənqurma işlərinə cəlb olunacaq işçi qüvvəsidir ki, kadr ehtiyatı repriantlar arasından seçilib cəlb olunmalıdır.

"Böyük Qayıdış" proqramının həyata keçirilməsi zamanı qarşıya qoyulan ilk iş prioritet sahələrin tədqiq edilməsidir. O sözügedən sahələr növbəti illərdə regionun iqtisadiyyatının müqayisəli rəqabət üstünlüklərini yaradacaqdır. Bütün bunlar nəzərə alınaraq, aşağıdakılara diqqət edilməlidir:

Müqayisəli rəqabət üstünlüyü nəzəriyyəsinə əsasən inkişaf etdiriləcək sahələr seçilərkən ölkənin gələcək potensialı nəzərə alınmalıdır. Region iqtisadiyyatına ölkənin öz dövlətlərarası-regional və qlobal iqtisadi funksiyalarını həyata keçirməsində vasitəçi olan müqayisəli rəqabət üstünlüyü verən müəssisələr salınmalıdır.

• Bu müəssisələrin fəaliyyəti, daha çox yerli xammal və təbii ehtiyyatlar potensialına əsaslanmalıdır.

• Həmçinin belə müəssisələr işğaldan azad olunan ərazilərdə yaşayan insanların məşğulluq probleminin həllinə köklənməlidir.

"Böyük Qayıdış" proqramı çərçivəsində diqqət mərkəzində saxlanılan bir məsələdə əhalinin gəlirlərinin müəyyənləşdirilməsidir. Belə ki, burada əmək haqqının aşağı həddi qismində, ölkə

üzrə orta əmək haqqını götürmək uyğun olardı ki, qayıdış prosesi stimullaşdırılmış olsun. Nəticə etibarı ilə istər bərpa ediləcək müəssisələr, istərsə də yenidən yaradılacaq müəssisələrin

siyahısı müəyyənləşdirilərkən, onların vacibliyinin əsaslandırılması şərtdir. Buna görədə ilkin meyar qismində müəssisələrin rəqabət qabiliyyəti anlayışından istifadə olunması məqsədəuyğundur:

• Perspektivli müəssiələrin istehsal etdiyi məhsullar beynəlxalq, regional və yerli bazarda rəqabətə davamlı olsun. Bir məsələ də qeydə alınmalıdır ki, bu və ya digər müəssisənin xidmət və məhsulları insanların həyat təminatı sistemləri ilə hər hansı bir formada əlaqəli olduğu halda (daha spesifik yanaşsaq, repatriasiya dövrünün başlanğıc mərhələsində), bu xüsusiyyət müəssisənin prioritetlilik dərəcəsini kəskin surətdə artırır. İndiki mərhələdə azad edilmiş rayonların resurs potensialını öyrənərkən rayonun iqtisadiyyatında sistem qurucusu rolu ola biləcək sahələr fərqləndirilməlidir. Həmin sahələrə aid oluna bilənlərə : Aqrar sahədə taxılçılıq, heyvandarlıq, xüsusilə atçılıq, yüngül sənayedə xalçaçılıq, gön-dəri istehsalı, ağır sənayedə inşaat materialları sənayesi, qida sənayesində ət-süd məhsulları sənayesi, şərabçılıq sənayesi, xidmət sektorunda turizm, musiqi və s aiddir.

**Ədəbiyyat siyahısı:**


1. Əliyev.M, http://diaspor.info/siyaset/14721-musteqil-iqtisadiyyatimiza-qalan-miras-ve-yeni-realliqlar.html, 2021
2. https://az.wikipedia.org/wiki/B%C3%B6y%C3%BCk_Qay%C4%B1d%C4%B1%C5%9F
3. https://news.milli.az/economy/895026.html, 2020.
4. http://www.shirvan-ih.gov.az/news/1945.html ,2021.
5. https://azertag.az/xeber/Isgaldan_azad_edilmis_erazilerin_iqtisadi_potensialinin_qiymetlendirilmesi1_istiqametinde_muvafiq_isler_aparilir-1891585 , 2021.


---


**Balışova Ləman Elman qızı**
Universitet: Sumqayıt Dövlət Universiteti
Fakültə: Tarix və coğrafiya, Kurs: IV, Qrup: 827
Elmi rəhbər: b/m. Əsədova Aytən Vaqif qızı
lemanbalishov@gmail.com


## Zəngəzur dəhlizinin açılmasının gələcək iqtisadi perspektivləri


**Xülasə**

2021-ci il iyunun 15-də imzalanmış Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi Zəngəzur dəhlizinin adının çəkildiyi ilk beynəlxalq sənəd olub. Sənəddə dəhlizin açılması həm Türkiyə ilə Azərbaycan arasında regional əməkdaşlıq, həm də ümumilikdə strateji əhəmiyyət kəsb edir. Zəngəzur dəhlizindən istifadənin iqtisadi, siyasi və təhlükəsizlik kimi sahələrdə ciddi nəticələri olacaq. Dəhliz coğrafi baxımdan həm Cənubi Qafqaz, həm də Türk dünyası üçün böyük əhəmiyyət kəsb edir. Bu araşdırmada Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi əlaqələr ümumi mənada araşdırıldıqdan sonra planlaşdırılmış Zəngəzur dəhlizinin Azərbaycan və Türkiyə arasında beynəlxalq ticarətə mümkün təsirləri araşdırılmışdır.



**Açar sözlər:** Zəngəzur dəhlizi, Qarabağ, Üçtərəfli saziş, Şuşa bəyannaməsi, beynəlxalq ticarət


Türkiyənin Azərbaycan və Naxçıvala quru əlaqəsi 1920-ci ildə Sovet hakimiyyətinin qurulması ilə kəsildi [1, səh. 166]. I Qarabağ müharibəsi bitdikdən sonra 30 ilə yaxındır ki, Azərbaycala Naxçıvan MR-sı arasında sovet dövründə yaradılmış nəqliyyat marşrutlarından istifadə olunmur.

Sovet Rusiyası dövründə Zəngəzur rayonunun Azərbaycandan alınaraq Ermənistana verilməsini açıq şəkildə görə bilərik. Bu, bəlkə də Rusiya XXİK-nın müavini Çiçerin Qarahanın erməni olması və Çiçerin azərbaycanlılara qarşı yurisdiksiya yarada bilməsi ilə əlaqədar idi. Sovetlərin erməniləri itirməsi qorxusu və hakimiyyətdə ermənilərin hakim gücü o qədər güclü idi ki, onlar N.Nərimanova təzyiq edərək Zəngəzurun Ermənistana verilməsini təkid edirdilər [1, səh. 8].

Nəticədə Zəngəzur 1921-ci ildə Qərb və Şərq olmaqla iki yerə bölündü. Zəngin cücərti yataqlarına malik Qərbi Zəngəzur Ermənistana verilmiş və Naxçıvanı Azərbaycandan ayıraraq İranla Ermənistan arasında sərhəd təşkil etmişdir. Naxçıvanla əlaqəni pozmamaq üçün Zəngəzur dəhlizi (Meğri dəhlizi) yaradıldı və Sovet İttifaqı dövründə fəal şəkildə istifadə edildi [2, səh.121]. 1987-1988-ci illərdə Ermənistanın ərazi iddialarının yenidən güclənməsi, Ermənistanda yaşayan türk-müsəlman əhaliyə qarşı törədilən qırğın və təzyiqlər [5, səh. 57], hadisələrin artması və əhalinin köçkün düşməsi nəticəsində dəhliz tədricən öz funksionallığını itirib. Qarabağ müharibəsinin baş verməsi ilə ermənilərin tabeçiliyinə verilməyərək bağlandı [2, səh. 130].

Azərbaycanla Naxçıvan arasında nəqliyyat və dəmir yolu dəhlizi olan Zəngəzur dəhlizi regionda təhlükəsizlik və əməkdaşlığa yol açır, regionda infrastrukturu canlandırır. Dəhliz Ermənistan ərazisindən keçsə də, razılaşma əsasında Azərbaycan administrasiyası Naxçıvanla nəqliyyat və dəmir yolu əlaqələrini bərpa etməyi öhdəsinə götürüb. Bu dəhliz açıldıqda Anadolu və Naxçıvan Azərbaycan və Xəzər dənizi vasitəsilə Orta Asiyaya birləşdiriləcək. Bu gün Azərbaycandan Naxçıvana İran üzərindən yalnız hava və avtomobil nəqliyyatı var. Dəhlizin açılması məsafəni azaldacaq və gömrük rəsmiləşdirilməsi üçün əlverişli şərait yaradacaq. Dəhliz bölgədəki ölkələr arasında kommunikasiyaya yüksək təsir göstərəcək və Azərbaycanla Türkiyə arasında yol məsafəsini 400 kilometrə qədər azaldacaq.

Azərbaycanı Ermənistan üzərindən Türkiyə ilə birləşdirən Zəngəzur dəhlizinin yaradılması, danışıqlar masasında yer alması ilə Azərbaycan da döyüş meydanlarında qazandığı qələbəni diplomatik müstəviyə daşıdı.

İlk növbədə bunu demək lazımdır ki, təklif olunan Zəngəzur dəhlizi, Xəzər regionu, Mərkəzi Asiya, Ermənistan və Azərbaycanı Türkiyə ilə birləşdirən sosial, iqtisadi, siyasi və strateji xüsusiyyətlərə malikdir. Ona görə də dəhliz Azərbaycan, Türkiyə, Rusiya və Ermənistan arasında dəmir yolu şəbəkəsini genişləndirəcək və regional ticarətə müsbət təsir göstərəcək. Zəngəzur dəhlizinin gələcəkdə Cənubi Qafqazda iqtisadi və siyasi əməkdaşlığın qurulmasında mühüm rol oynayacağına ümid edilir.

Bu dəhliz nəzərdə tutulduğu kimi yaradılarsa, İranla Ermənistan arasında dənizə çıxışı olmayan Azərbaycan xarici zonası yaradacaq və Türkiyə ilə dar sərhəd əlaqəsini təmin edəcək. Dəhliz; Azərbaycan, Türkiyə, Rusiya, Ermənistan və İran arasında dəmir yolu nəqliyyatının genişləndirilməsi fürsətini təmin etməklə yanaşı, o, həmçinin Asiya - Sakit okean hövzəsindən Türkiyəyə Mərkəzi Asiya, Xəzər regionu, Azərbaycan və Ermənistanı birləşdirən bir çox ticarət yolları açacaq.

Zəngəzur dəhlizinin açılışı "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat dəhlizini, Xəzər Nəqliyyat Şəbəkəsini və "Şərq-Qərb" dəhlizini daha da gücləndirəcək. O, həmçinin Xəzər dənizindən Avropaya qədər uzanan Neft və Qaz Boru Kəməri Sisteminin istismarını asanlaşdıracaq. Dəhlizin açılması artıq Avropa İttifaqı (Aİ), ABŞ (ABŞ), Rusiya və Çinin enerji təchizatı xətləri üçün mühüm rol oynayan regionun tranzit imkanlarını artıracaq.

27 sentyabr 2020-ci ildə Qarabağ bölgəsində baş verən ikinci Qarabağ müharibəsində Azərbaycan 44 gün ərzində qalib gəlib. Lakin Cənubi Qafqazdakı vəziyyəti tam həll etmək üçün xüsusi razılığa ehtiyac var [3, səh.100]. Bu məqsədlə RF-nın Prezidenti Vladimir Putinin sülh təşəbbüsü ilə 10 noyabrın 2020-ci ildə Moskvada İ. Əliyev və N. Paşinyan arasında atəşkəs sazişi imzalanıb. Dağlıq Qarabağ bölgəsində müharibəyə və hərbi münaqişələrə son qoyan üç liderin imzaladığı sazişə əsasən, Ermənistan Respublikası Kəlbəcər rayonunu 2020-ci il noyabrın 15-dək, Ağdam rayonunu 2020-ci il 20 noyabr tarixinədək, Laçın rayonunu isə 2020-ci il dekabrın 1-dək Azərbaycan Respublikasına qaytaracaq [4,səh.68]. Yaxın üç il ərzində Dağlıq Qarabağ və Ermənistanı birləşdirəcək Laçın dəhlizi (eni 5 km) boyunca yeni giriş yolunun tikintisi də planlaşdırılır. Razılaşmada iki ölkə vətəndaşlarının nəqliyyat vasitələrinin və mallarının regionda sərbəst hərəkətinin təhlükəsizliyinə zəmanət verən bənd də yer alıb. Sazişin sonuncu maddəsində qeyd olunurdu ki, Azərbaycanın Qərb rayonları ilə Naxçıvan MR-sı arasında yeni nəqliyyat əlaqəsi qurulacaq.

Uzaqgörən lider və ustad "strateq" kimi İ.Əliyev Zəngəzur dəhlizinin strateji əhəmiyyətini müxtəlif beynəlxalq və regional forumlarda, məsələn, BMT-nin Sakit Okean və Asiya üzrə 77-ci İqtisadi və Sosial Komissiyasında qeyd etmişdir. Yeni Azərbaycan Partiyası sözügedən dəhlizi Asiya ilə Avropanı Azərbaycan üzərindən birləşdirən və Azərbaycanın Avrasiyanın nəqliyyat və logistika

mərkəzi kimi yerləşdirilməsini nəzərdə tutan "Şərq-Qərb dəhlizi"nin "birləşdirici" elementi kimi təqdim edib. Bundan əlavə, Əliyev Zəngəzur dəhlizini Azərbaycanın milli, tarixi və gələcək maraqlarının qarantı kimi təqdim edib; O, həmçinin dəmir yolu və yol tikintisi üçün lazım olan bütün resursları təmin edəcəyinə söz verib. Üstəlik, Azərbaycan prezidenti dövlət xadimi məsuliyyəti ilə Ermənistana sülh təklifi təqdim edib və dəhlizin üçtərəfli sazişə daxil edilməsini Bakı administrasiyası üçün mühüm siyasi uğur kimi qiymətləndirib.

Ümumilikdə, Zəngəzur dəhlizinin modernləşdirilməsinin Qars-Gümrü dəmir yolu xətti ilə həyata keçirilməsi planlaşdırılır. Bu layihəyə əsasən, Qars-Gümrü-Naxçıvan-Meğri-Bakı dəmir yolu xəttinin tikintisinin ümumi dəyəri 434 milyon ABŞ dollarıdır. Bu layihə reallaşarsa, 13 ildən sonra marşrut üzrə yükdaşıma qabiliyyəti 10 milyon tona çata bilər. Bölgədəki ölkələr arasında münasibətlər yaxşılaşarsa, Ermənistanla Türkiyə arasında ticarət həcmi ümumi ticarətin 3%-dən 13%-ə qədər artım ola bilər. Eyni vaxt ərzində, Azərbaycan Respublikasının ixracı 1,2 milyard manata çatmaq potensialına malikdir. Aparıcı sektorlar arasında ümumi daxili məhsulun 3%-nə ekvivalent artım ehtimalı emal sənayesində, 2,7%-lə mədənçıxarma sənayesində, 2%-lə xammal sektorunda gəlir. Bütövlükdə, Qarabağ bölgəsinin müstəqilliyi ortamüddətli perspektivdə Azərbaycan iqtisadiyyatının inkişafına yeni təkan vermiş, kənd təsərrüfatı sektorunu 10,4 %, turizm sektorunu 5,5 %, mədənçıxarma sənayesini 5,3 %, nəqliyyat xidmətlərini 5,3 %-ə çatdırmışdır. Emal sənayesi - 4,3%, digər xidmətlərin isə 1,4% artım potensialı var. Ona görə də qeyri-esas sektorlardan əldə olunan gəlirlər ÜDM-in 5,1%-i civarında gəlir əldə etmək imkanı əldə edə bilər.

Zəngəzur dəhlizi Çinlə Mərkəzi Asiyanı, eləcə də Ermənistan və Avropanı, eləcə də Azərbaycanı daha asan birləşdirə biləcək mühüm sosial, iqtisadi, siyasi və strateji layihə kimi xarakterizə olunur. Regionda hərbi və siyasi münaqişələrin azalması ölkələr arasında ticarət dövriyyəsinin artmasına səbəb olacaq. Azərbaycan, Türkiyə, İran, Rusiya və Ermənistan arasında dəmir yolu şəbəkəsinin genişləndirilməsi ilə yanaşı, Qafqaz regionunda ticarət həcmini artıracaq bir çox ticarət yollarının açılmasını da sürətləndirəcək. Azərbaycanın Avrasiyanın nəqliyyat qovşağına çevrilməsi ilə Qafqaz regionunda avtomobil və dəmir yolları regionun tranzit təhlükəsizliyini artıracaq, yeni rəqabət və yeni imkanlar yaradacaq. Təbii ki, bu kontekstdə Şimali-Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin tikintisi və marşrutları, Xəzər dənizindən Avropaya uzanan neft-qaz kəmərləri sisteminin tikintisi yeni inkişaflar gətirəcək. Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin əhəmiyyəti daha da artacaq. İpək Yolunun üzərində yerləşən Azərbaycan Avropa ilə Asiya arasında logistika mərkəzi kimi hərtərəfli işlər görür. Şərq-Qərb dəhlizi ilə Çinin Mərkəzi Asiya və Azərbaycan üzərindən Avropaya maneəsiz çıxışı nəticəsində ölkələr arasında ticarət nisbəti artacaq. Məsələn, 2019-cu ildə Avropa İttifaqı və Çin arasında ticarət dövriyyəsi 720,8 milyard ABŞ dolları təşkil edib. Çin və Avropa İttifaqı arasında yeni investisiya sazişləri artıq Orta Dəhliz vasitəsilə ticarətdə müsbət tendensiyalar göstərir.

Rusiya və Çin üçün strateji əhəmiyyət kəsb edən, Avropa ilə Asiyanı əlaqələndirən bu nəqliyyat dəhlizinin həyata keçirilməsi regionun bütün ölkələrinə iqtisadi fayda verəcək. Bu kontekstdə dəhliz regionun bütün ölkələri üçün böyük iqtisadi əlaqə imkanı yaratmaq qabiliyyətinə malikdir.

Zəngəzur dəhlizi Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərində Azərbaycanın mövqeyini xeyli gücləndirəcək, çünki Azərbaycan "Tarixi İpək Yolu" üzərində yerləşir və Avropa ilə Asiya arasında logistika mərkəzinə çevrilməyi hədəfləyir. Şərq-Qərb dəhlizi Çin və Aİ üçün böyük əhəmiyyət malikdir. 2019-cu ildə iki aktorun ümumi ticarət həcmi 560 milyard avro olub və yeni imzalanmış "Çin-Aİ İnvestisiya Sazişi"ndən sonra ticarət əlaqələrinin daha da dərinləşməsi gözlənilir.

2018-ci ildə Çinin Azərbaycanla ticarət həcmi 898,2 milyon ABŞ dolları təşkil etdiyi halda, 2019-cu ildə bu rəqəm 1,4 milyard dolları ötüb. 2019-cu ildə Türkiyə ilə Çin arasında ticarət həcmi 21,8 milyard ABŞ dollarına çatıb, 2020-ci ilin pandemiya dövrünə baxmayaraq, ticarət dövriyyəsi 24 milyard dollara çatıb və 2021-ci ilin ilk üç ayında bu rəqəm ötən ilin eyni dövrü ilə müqayisədə 44 faiz artıb 8 milyard dollara çatdı. 2021-ci ilin birinci rübündə Bakı-Tbilisi-Qars və Mərkəzi Dəhliz üzrə yükdaşıma 2019-cu ilin ilk üç ayı ilə müqayisədə 104% artaraq 396 778 tona çatıb ki, bu da Mərkəzi Dəhlizin tələbatının və tutumunun hər il artırıldığını göstərir. Müharibə başa çatdıqdan sonra Cənubi Qafqazda Azərbaycan və Türkiyə və regionun qonşu dövlətləri arasında birgə əməkdaşlığın qurulması məqsədilə "3+3" modeli (Azərbaycan, Ermənistan, Gürcüstan + Türkiyə, İran, Rusiya)

müzakirə edilib. Şərq-Qərb dəhlizi, Dəmir İpək Yolu, Avro-Qafqaz Nəqliyyat Dəhlizi tarixi İpək Yolu marşrutu üzrə uzanan layihələr regionda layihələrin reallaşması üçün çox vacibdir. Zəngəzur dəhlizi Çin-Avropa Mərkəzi Dəhlizi boyunca Cənubi Qafqaz və Mərkəzi Asiya iqtisadiyyatına müsbət təsir göstərəcək.

Bu istiqamətdə Şərq-Qərb nəqliyyat dəhlizinin tikintisi nəticəsində dəmir yolları və avtomobil yollarının çəkilməsi Naxçıvanın inkişafına imkanlar yaradacaq. Cənubi Qafqaz daşımalarının əhəmiyyətinin artması ilə Avropa və Asiyanı birləşdirmək imkanları inkişaf edəcəkdir. Gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolu xəttində yarana biləcək nəqliyyat problemlərini həll etməklə, Çinin Avropaya ən qısa marşrutla yükləri çatdırmaq imkanı artacaq. 4256 kilometr dəmir yolu və 508 kilometr dəniz marşrutunu əhatə edən dəhliz Çin-Qazaxıstan sərhədindən Azərbaycana və Gürcüstandan Türkiyəyə qədər uzanır. Bakı-Tbilisi-Qars (826 km), Ədirnə-Qars (1388 km) dəmir yolu xətti layihəsi Orta Dəhliz çərçivəsində strateji əhəmiyyətə malikdir. Çin üçün Rusiyadan keçən Şimal dəhlizindənsə, Orta Dəhliz vasitəsilə öz mallarını Avropaya daşımaq daha asan və səmərəli olacaq. Çindən gələn mallar Trans-Sibir vasitəsilə 20 günə, Mərkəzi Dəhlizlə isə 12 günə Avropaya çatdırılır. Çindən Avropaya dəniz yolu ilə malların göndərilməsi 36 gün çəkir.

Digər tərəfdən, Zəngəzur dəhlizi həm də Naxçıvanın Azərbaycana olan məsafəsini azaldacaq. Təəssüf ki, hazırda Azərbaycanla Naxçıvanı yalnız İran və Türkiyədən keçən hava və avtomobil əlaqələri birləşdirir. Bu dəhliz vasitəsilə Naxçıvanla asan və problemsiz marşrut yaradılacaq və Naxçıvandakı sahibkarlıq subyektlərinin Şərq-Qərb dəhlizinə çıxışı təmin ediləcək. Təxminlərə görə, bu müəssisələrin Azərbaycan və Rusiyaya gediş məsafələrinin qısalması sayəsində daha da rəqabətədavamlı olacağı gözlənilir.

Digər tərəfdən, “Kəmər-Yol” layihəsi çərçivəsində Azərbaycanın Türkiyə ilə Çin arasında mövqeyi möhkəmlənəcək. Azərbaycan Orta Dəhlizdə qəbul edəcəyi tranzit marşrutları ilə əsas söz sahibinə çevriləcək. Ermənistan üzərindən nəzərdə tutulan nəqliyyatın inkişafı ilə Zəngəzur dəhlizi Asiya ilə Avropanı birləşdirə bilər. Bu, Orta Dəhlizdəki layihələr üçün böyük qələbə olacaq. Keçid müddətini azaldan bu yol Azərbaycan ilə Türkiyə arasında ticarət fəaliyyətini də yaxşılaşdıracaq. Bu kontekstdə Bakı-Tbilisi-Qars dəmir yolu (BTQ) və Gürcüstan ərazisindən keçən yollar artıq Türkiyə ilə Azərbaycanı birləşdirib.

Azərbaycan hökumətinin İqtisadi İslahatlar və Kommunikasiya Mərkəzinin araşdırmasına görə, daşımaların canlanması ilə ixracın həcminin 710 milyon dollara çatacağı təxmin edilir. Dəhlizin açılması həm də hökumətə Bakı-Naxçıvan aviareyslərinin subsidiyalaşdırılmasına hər il xərclədiyi 10 milyon dollara qənaət etməyə imkan verəcək. Zəngəzur dəhlizi sayəsində Azərbaycanın İran üzərindən Naxçıvana qaz tranzitinə görə köçürmə haqqı əvəzinə 15% kimi ödədiyi xərclər tədricən aradan qaldırılacaq. İran ilə Rusiya arasında dəmir yolu xətti üçün yeni imkanlar açılacaq və gələcəkdə bu dəhlizin verdiyi imkanlardan Ermənistan da yararlanacaq. Ermənistanın Zəngəzur dəhlizinə qarşı hazırkı etirazlarının zaman keçdikcə azalacağı, üçtərəfli saziş çərçivəsində öz maraqları baxımından qiymətləndirildikdə dəhlizin onun işinə mane olmayacağı proqnozlaşdırılır. Bundan əlavə, Rusiyanın regionun təhlükəsizliyini təmin etmək üçün 1960 əsgər, 90 zirehli transportyor və 380 ədəd texnika və xüsusi texnika yerləşdirməsi dəhlizin təhlükəsizliyini, eləcə də onun rahat işləməsini təmin edəcək.

Nəticə etibarı ilə Zəngəzur dəhlizi Asiya ilə Avropanı Azərbaycan üzərindən birləşdirən bir çox tranzit daşıma layihələri üçün yeni imkandır. Bu, Azərbaycanın Avrasiyanın logistika mərkəzi və nəqliyyat kimi mövqeyini gücləndirəcək. Dəmir və avtomobil yollarının tikintisi ilə Zəngəzur dəhlizinin regionda xüsusilə kiçik və orta sahibkarlıq üçün investisiya mühitinin yaradılması və bununla da ölkə iqtisadiyyatının inkişafına töhfə verəcəyi gözlənilir. Digər tərəfdən, bu iqtisadi töhfənin və nəqliyyat infrastrukturunun üstünlüyünün təkcə Naxçıvan və Azərbaycanla məhdudlaşmaması, həm də regional miqyasda əhəmiyyətli müsbət nəticələr verməsi bu layihənin əsas üstünlüyü olacaqdır. Bu baxımdan Zəngəzur dəhlizi region ölkələrinin, o cümlədən Ermənistanın iqtisadi inkişafına töhfə vermək potensialına malik olan dinc layihə kimi qiymətləndirilməlidir. Digər tərəfdən, region dövlətləri ilə yanaşı, müxtəlif beynəlxalq təşkilatlar və region dövlətləri ilə sıx əlaqələri olan regionun aparıcı dövlətləri də bu prosesə öz töhfəsini verməlidir. Beləliklə, çox güman ki, region ölkələri arasında gərginlik azalacaq və gücünü inkişaf edən iqtisadi əlaqələrdən alan əməkdaşlıq mühiti öz yerini tutacaq. Bundan əlavə, region ölkələrində

infrastruktur layihələrinin inkişafı üçün əhəmiyyətli imkanlar və yeni investisiya imkanlarının yaradılması gözlənilir.

Artıq SSRİ yox, biz müstəqil dövlətik. İndiki şəraitdə bütövlük prinsipi ilə bizdən zorla alınıb Ermənistana bağışlanmış torpaqların razılığımız olmadan və heç bir hüquqi əsas olmadan Azərbaycana qaytarılmasını tələb edə bilərik. Yəni 1920-ci il sovet işğalından əvvəlki sərhədlərimiz əsas götürülməli və Azərbaycan öz əvvəlki sərhədlərinə qayıtmalıdır. Həmin vaxta qədər olan sənədlərə görə, Zəngəzur və digər Qərbi Azərbaycan torpaqları Azərbaycan Xalq Cümhuriyyətinin tərkibində idi. Buna əsaslanaraq, sözügedən torpağın bütün tərəflərini iddia edə bilərik. Tarixin müxtəlif dövrlərində həmin rayonlarda yüzlərlə kəndimiz yandırılmış, əhali silah gücünə zorla köçürülmüş və ya evlərindən didərgin salınmışdır. Əgər söhbət böyük sülh müqaviləsindən gedirsə və Ermənistan Qarabağda ermənilərin yaşamasını istəyirsə, soydaşlarımızın öz ata-baba torpaqlarında rahat yaşamaq hüququ olmalıdır. Əks halda ədalətli sülh sazişindən danışmaq mümkün deyil. Yəni soydaşlarımız heç olmasa Zəngəzura, Göyçə mahalına və ölkəmizin başqa yerlərinə qayıtmalıdırlar.

**Ədəbiyyat siyahısı:**

1.Azərbaycan tarixi; VII cilddə VI cild
2. Akif Nağı; Qarabağ müharibəsi; Bakı –2014
3. A.T. Qarabağ: Qafqazda sülhə gedən yol; Bakı – 2020.
4. DR. Osman Nuri Aras, Dr. Bilal Dedeyev, Dr. Reha Yılmaz, Dr. Vefatdin İbayev; Karabağ savaşı; Bakü – 2008
5. Səlimbəyli, S.A. Azərbaycan tarixində qələbə salnaməsi. "Avropa" nəşriyyatı, Bakı – 2020, – s. 512.

---

**Tağıyev Cəmil Ənvər oğlu**
Azərbaycan Dövlət İqtisad Universiteti
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi
Dünya iqtisadiyyatı, qrup: 838
cemil.tagi@mail.ru

## Qarabağda kreativ iqtisadiyyat və ixrac potensialı

**Xülasə**

Müasir dövrdə qloballaşmanın və elmin inkişafı innovativ yeniliklərə səbəb olur. Məhdud xammal mənbələriylə artan tələbi ödəmək getdikcə çətinləşir. İqtisadi sabitliyi qorumaq üçün yeni iqtisadi sahələrin inkişafı labüddür. Bu baxımdan kreativ iqtisadiyyatın istər məşğulluğun təmini, istərsə də iqtisadi artım üçün müstəsna əhəmiyyəti var. Azərbaycanda iqtisadiyyatın hər sahəsinin inkişafı da əsas hədəflərdən biridir. Qarabağın işğaldan azad olunmasından sonra bərbası və iqtisadiyyata reinteqrasiyası ehtiyacı yarandı. Qarabağda yaşıl iqtisadiyyat, kreativ iqtisadiyyat kimi yeni iqtisadi sahələrin inkişafı üçün böyük potensial var.

**Açar sözlər:** Qarabağ iqtisadi rayonu, kreativ iqtisadiyyat, yaradıcı sənayelər, yaradıcı şəhər

**Giriş**

Öncə inkişaf etmiş ölkələrdə başlayan, sonradan inkişaf etməkdə olan ölkələrə də yayılan kreativ iqtisadiyyat qısa müddət ərzində dünya ÜDM tərkibində öz yerini aldı və məşğul əhalinin onda bir hissəsinə qədər təşkil etdi. 2030-cu ilə qədər məşğul əhalinin 10%-nin kreativ iqtisadiyyatda çalışacağı proqnozlaşdırılır. Azərbaycan iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı üçün potensialını reallaşdırmaq yolundadır. Müasir texnologiyaların inkişafı, xammalı insan zəkası olan saəhələrin yaranması bu sahədə də irəliləyişə nail olunmaq üçün insan kapitalından istifadə strategiyaları işlənir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i bu baxımdan önəmlidir. Bu prioritetləri gerçəkləşdirmək üçün qarşıya qoyulan məqsədlər, yol xəritələrinin önəmi xüsusilə vurğulanmalıdır. Yaradıcı cəmiyyətin qurulması üçün son dövrün təhsil standartlarından istifa edilməsi, xaricdə təhsil proqramları inkişafdan hər bir vətəndaşın bəhrələnməsinə səbəb olacaq və

böyük qayıdışdan sonra paytaxt ilə regionlar arasında tarazlıq qorunacaq. Qarabağ iqtisadiyyatının dirçəlməsi, regionlar arasında tarazlığı qorumaq, eyni zamanda iqtisadi artıma nail olmaq üçün Qarabağ iqtisadi rayonunda kreativ iqtisadiyyatın formalaşdırılması önəmlidir. Mövsümi və daimi iş yerləri baxımından kreativ iqtisadiyyatın əhəmiyyəti getdikcə artmaqdadır. Kreativ əmtəə və xidmətlərin dünya ticarətində artan səviyyəsini nəzərə alaraq Qarabağda da kreativ iqtisadi inkişafa nail olunması vacibdir. Məqalədə kreativ iqtisadiyyatın sahələr üzrə inkişafına nəzəri-metodoloji baxış həyata keçirilməklə yeni iqtisadi sahə kimi Qarabağda tətbiq edilməsi araşdırılıb.

**Kreativ iqtisadiyyata aid nəzəri və empirik ədəbiyyat xülasəsi**

2000-ci ilin əvvəlindən başlayaraq elmi-texniki tərəqqinin inkişafının təsirləri ilə “kreativ iqtisadiyyat”, “kreativ sənaye” anlayışları formalaşdı. İnkişaf etmiş ölkələrdə yüksəlişə başlayan kreativ iqtisadiyyat qloballaşma, rəqəmsallaşma, beyinlər axını nəticəsində inkişafda olan ölkələrə də yayılmağa başladı. UNCTAD (2018) hesabatına görə, 2002-ci ildə kreativ əmtəələrin ticarəti 208 milyard dollar idisə, 2015-ci ildə 509 milyard dollara çatmışdı [1, s. 9]. Kreativ iqtisadiyyatın inkişafı yeni iş yerlərinin açılması baxımından da önəmlidir. Yaradıcılığı və yeniliyi təşviq edən kreativ iqtisadiyyat getdikcə daha da inkişaf etməyə, yeni sahələrin formalaşmasına səbəb olur. UNESCO (2022) hesabatına görə, dünya ÜDM-nin 3.1 faizini, bütün işləyənlərin 6.2 faizini kreativ və mədəni sektor təşkil edir [2, s. 5].

Kreativ iqtisadiyyata 3 yanaşma mövcuddur. Birinci yanaşma Con Haukinsin irəli sürdüyü “Kreativ sənayeləşmə” yanaşmasıdır. Kreativ sənayeləşmə 1997-ci ildə İngiltərədə Mədəniyyət, Media və İdman Departamenti (DCMS) tərəfindən işlənmişdir. DCMS (2013) böyük kreativ sənaye qruplarına reklam və marketinq; memarlıq; dizayn; film, tv, radio və fotoqrafiya; İT, proqramlaşdırma və komputer xidmətləri; Nəşr; Musiqi, ifaçılıq və vizual incəsənəti aid edir [3, s.13]. Kreativ iqtisadiyyata dair bir çox model olsa da, ən çox UNCTAD ilə Con Houkinsin modellərindən istifadə edilir. UNCTAD (2008) hesabatında kreativ sənayelər 4 qrupda- irs; incəsənət; media və funksional yaradıcılıqda cəmləşir [4, s. 13].

**Cədvəl 1.** Kreativ sənayenin UNSTAD-a görə təsnifatı

| İRS | | İNCƏSƏNƏT | | MEDİA | | Funksional yaradıcılıq | | |
|---|---|---|---|---|---|---|---|---|
| Ənənəvi mədəni sahələr | **Mədəni Obyektlər** | **Vizual Sənətlər** | **İfaçılıq sənətləri** | **Nəşriyyat və Çap mediası** | **Audio-vizuallar** | **Dizayn** | **Yeni media** | **Kreativ Xidmətlər** |
| **Incəsənət və sənətkarlıq** | Arxeoloji sahələr | Rəssamlıq | Canlı musiqi | Kitablar | Film | İnteryer | Proqram Təminatı | Memarlıq |
| **Festivallar və şənliklər** | Muzeylər | Heykəltəraşlıq | Teatr | Mətbuat | Televiziya | Qrafika | Video oyunlar | Reklam |
| | Kitabxanalar | Fotoqrafiya Və antika | Rəqs | Digər nəşrlər | Radio | Moda | Rəqəmsal Yaradıcı Məzmun | Yaradıcı Tədqiqat və İnkişaf |
| | Sərgilər | | Opera | | | Zərgərlik | | Rəqəmsal Və digər əlaqəli xidmətlər |
| | | | Sirk | | | Oyuncaq | | |
| | | | Kukla teatrı | | | | | |

**Mənbə:** UNCTAD(2008)

Haukinsin təsnifatı da UNCTAD təsnifatına oxşayır. Getdikcə yaradıcı sənayeləşmənin əhəmiyyəti artır. Bunun nəticəsində yeni iş yerləri yaradılmaqla insanlarda ideyalarından və bacarıqlarından maksimum istifadə etməklə yeni dəyər formalaşdırılır.

İkinci yanaşma “Yaradıcı sinif” yanaşmasıdır. Riçard Floridanın 2012-ci ildəki “Yaradıcı sinfin yüksəlişi” əsəriylə ortaya çıxdı. Florida yaradıcı sinfi əsas yaradıcı, yaradıcı peşəkarlar və işləyən bohemlər olmaqla 3-ə ayırır [5, s.84].

**Cədvəl 2.** Yaradıcı sinfin təsnifatı

| Əsas yaradıcılar | Yaradıcı peşəkarlar | İşləyən bohemlər |
|---|---|---|
| **Alimlər, yazarlar, sənətkarlar, Memarlar, mühəndislər, İdmançılar, media və əyləncə Sektoru işçiləri** | Hakimlər, maliyyəçilər, Tibb işçiləri və.s daxildir. | Mədəni sahələrdə çalışan işçilər |

Üçüncü yanaşma "Yaradıcı Şəhər" yanaşmasıdır. UNESCO tərəfindən 2004-cü ildə Yaradıcı Şəhərlər Şəbəkəsi yaradıldı [6]. Məqsəd yaradıcılığı şəhərlərin davamlı inkişafı üçün strateji amil kimi müəyyən etmək və əməkdaşlığı təşviq etməkdir. 2021-ci ildə 90 ölkədən 295 şəhər bu şəbəkənin üzvüdür. Azərbaycandan 2017-ci ildə "Sənət və sənətkarlıq" tematikası üzrə Şəki, 2019-cu ildə "Dizayn" tematikası üzrə Bakı, 2021-ci ildə isə "Qastronomiya" tematikası üzr Lənkəran YŞŞ-ə qoşulub [7].

**Qarabağ iqtisadi rayonuna qısa baxış**

İşğalda olan ərazilərin azad edilməsindən sonra "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il tarixli fərmanı ilə Qarabağ iqtisadi rayonu yarandı.

**Cədvəl 3.**
Qarabağ iqtisadi rayonuna daxil olan rayonlar

| **1.** | **Xankəndi şəhəri** | **6.** | **Xocalı** |
|---|---|---|---|
| **2.** | Ağcabədi | 7. | Xocavənd |
| **3.** | Ağdam | 8. | Şuşa |
| **4.** | Bərdə | 9. | Tərtər |
| **5.** | Füzuli | | |

1 yanvar 2021-ci il tarixinə qədərki DSK-nın məlumatına görə, Qarabağ iqtisadi rayonunun əhalisi 904.5 min nəfərdir. Onlardan 422 mini iqtisadi fəal əhalinin sayıdır ki, onun da 392 mini məşğul əhali təşkil edir. Orta aylıq əmək haqqı 409.9 manatdır. İqtisadi rayonda 426 kütləvi kitabxana, 26 muzev var [8]. İqtisadi rayonda işğaldan öncəki dövrlərdə kənd təsərrüfatı, yüngül sənaye, yeyinti sənayesi, mədənçilik inkişaf etmişdi. Rayonun işğaldan azad edilən ərazilərində nəqliyyat infrastrukturunun sürətlə qurulması və logistika mərkəzinə çevrilməsi yönündə görülən işlər investorlar üçün əhəmiyyətini daha da artırır.

**Qarabağda kreativ iqtisadiyyatın inkişaf perspektivləri**

Azərbaycan Respublikasının Prezidentinin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in üçüncü milli prioriteti olan "Rəqabətli insan kapitalı və Müasir innovasiyalar məkanı"nı reallaşdırmaq üçün üç məqsəddən biri yaradıcı və innovativ cəmiyyətin qurulmasıdır [9]. Bu da özündə yaradıcı iqtisadiyyatın sahələrini əhatə edir. Göstərmişdik ki, yaradıcı iqtisadiyyatın inkişafı üçün xammal insan düşüncəsidir. Düşüncəni inkişaf etdirmək, ideyaları gerçəkləşdirmək üçün 21-ci əsrin tələblərinə uyğun təhsil olmalıdır ki, bu da həmin milli prioritetlərdə öz əksini tapıb. 4-cü milli prioritet işğaldan azad olunmuş ərazilərə böyük qayıdışdır. Bu prioriteti reallaşdırmaq üçün dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya etmək lazımdır. 44 günlük zəfər tarixi ilə işğaldan azad edilən Qarabağın Azərbaycan iqtisadiyyatına reinteqrasiyası böyük xərclər tələb edir. Erməni vəhşiliyi nəticəsində tamamilə dağıdılan mədəni obyektlər, yaşayış məskənləri, infrastruktur yenidən bərpa edilməsi üçün çoxlu maliyyə resurslarına ehtiyac var. Bu ehtiyacın qarşılanması üçün dövlətin imkanları var. 2021-ci ildən başlayaraq hər il üçün dövlət büdcəsindən bu məqsədlər üzrə maliyyə vəsaiti ayrılır. Paralel olaraq minalardan təmizlənmiş və bərpa edilmiş ərazilərin istifadəyə verilməsi

əlavə maliyyə vəsaitinin yaranmasına səbəb olacaq. Bu baxımdan iqtisadi dirçəlişə daha tez zamanda nail olmaq üçün iqtisadiyyatın yeni sahələrindən də istifadə edilməlidir.

Qarabağın maddi-mədəni abidələrinin olması, musiqinin tarixi inkişafı kreativ iqtisadiyyatın inkişafına təkan verir. Birinci bölmədə göstərdik ki, kreativ iqtisadiyyatın inkişafı üçün yaradıcı sənaye, yaradıcı sinif və yaradıcı şəhər olmalıdır. Şuşa şəhərinin musiqi beşiyimiz olması onun UNESCO Yaradıcı Şəhərlər Şəbəkəsinə "Musiqi" tematikası üzrə qoşulmasına zəmin yaradır.

Qarabağı yaradıcı sənaye yanaşması üzrə incələsək, tarixi abidələri, muzeyləri, kitabxanaları, yeraltı sərvətləri, təbiəti ilə yaradıcı sənaye üçün potensialı var. Şuşada Xarıbülbül musiqi festivalının keçirilməsi bu baxımdan önəmlidir. Tarixi abidələri, təbiəti, festivallarıyla turistlərin axını regionun iqtisadi dirçəlişinə öz töhfəsini verə bilər. Bilindiyi kimi, qısamüddətli dövr üzrə ən əlverişli sahələr turizm və kənd təsərrüfatıdır. Turizmin inkişafı üçün bölgənin potensialı, nəqliyyat infrastrukturunun qurulması, dollar ekvivalentində orta əmək haqqının 241.1 ABŞ dolları olması xarici investisiyalar üçün önəmlidir. Yaradıcı sinif yanaşması üzrə rayonun əhəmiyyəti böyükdür. Tarixən Qarabağ əsas yaradıcılar olan alimlərin, bəstəkarların, sənətkarların məskəni olub. Yaradıcı peşəkarlara daxil olan orta tibb işçilərinin sayı 3143 nəfərdir.

Yaradıcı şəhər yanaşması üzrə yuxarıda da qeyd etdik ki, Şuşa "musiqi" tematikası üzrə Yaradıcı şəhərlər şəbəkəsinə qoşulacaq. Böyük qayıdışdan sonra yaradıcı sinfin inkişafı, onların yaratdığı dəyərlər yaradıcı sənayenin inkişafına səbəb olacaq. Yaradıcı sənayenin inkişafıyla ixtisaslaşan rayonlar yaradıcı şəhərlər kimi formalaşacaq.

**Qarabağın kreativ əmtəə ixracı potensialı**

UNCTAD (2018) hesabatına görə, Azərbaycanın kreativ əmtəə ixracı 2014-cü ildə 3.95 milyon dollar, idxalı isə 138.04 milyon dollar olub. Kreativ əmtəələr əsasən audiovizuallar və dizayn sahələrinə aid olub (1b, s.64). İdxalda isə Sənətkarlıq, Audiovizuallar, Dizayn, Yeni media, İfa sənətləri, Nəşriyyat, Vizual incəsənət sahələri üzrə olub. Kreativ xidmətlər üzrə ixracda komputer xidmətləri 19.3 milyon dollar, informasiya xidmətləri 8.5 milyon, tədqiqat və inkişaf isə 7.3 milyon ABŞ dolları olub. Azərbaycanın işğaldan azad edilən ərazilərin inkişafı üçün "Smart city", "Smart village" strategiyası ilə Qarabağın kreativ əmtəə və xidmətlər ixracında çəkisinin artmasına səbəb olacaq. İnformasiya texnologiyalarının inkişafı, rəqəmsallaşma ilə yaradıcılığın təşviqi, kiçik və orta sahibkarlıq subyektlərinə dövlət dəstəyi, Qarabağda fəaliyyət göstərəcək firmalara vergi güzəştləri ilə idxal edilən kreativ əmtəə məhsullarına olan tələbatın ödənməsinə, eyni zamanda ixracın artırılmasına nail olunacaq.

**Nəticə**

Qarabağ iqtisadi rayonunda formalaşdırılacaq kreativ iqtisadiyyat məşğulluğun təmin olunmasında, ixracda kreativ əmtəə və xidmətlərin həcminin artmasında, davamlı iqtisadi artıma çatmaqda əhəmiyyətlidir. Əhalisinin yarıya qədərinin iqtisadi fəal əhali təşkil etməsi, eyni zamanda tarixən mədəni sahələrin inkişafı Qarabağın kreativ iqtisadiyyat quruculuğunda önəmini artırır. Mədəniyyətdən iqtisadiyyata keçid, mədəni və kreativ sektorların yaradılması turizmin də inkişafına təkan verəcək. Turizmin inkişafı ilə mövsümi məşğulluq da artacaq, eyni zamanda turistlərin maraqlarına uyğun olaraq sənətkarlıq nümunələri, kreativ əmtəələr yaranacaq. Şuşada musiqi və kulinariya festivalları təkcə ölkə daxilində deyil, ölkə xaricində də marağa səbəb oldu. Şuşanın UNESCO Yaradıcı şəhərlər şəbəkəsinə qoşulmasından sonra xarici turist axınları olacaq. Kreativ iqtisadiyyatın Qarabağda inkişafı nəticəsində kreativ industrilərin formalaşması prosesi tamamlanacaq və ixtisaslaşmış kreativ şəhərlər yeni tematikalar üzrə yaradıcı şəhərlər şəbəkəsinə daxil olacaq. Nəticədə mövsümi və daimi iş yerləri yaranacaq, iqtisadi artımda kreativ iqtisadiyyatın çəkisi artacaq, yaradıcı siniflər formalaşacaq.

**Ədəbiyyat siyahısı:**

1. UNCTAD(2018), Kreativ İqtisadiyyat Görünüşü, https://unctad.org/system/files/official-document/ditcted2018d3_en.pdf

2. UNESCO(2022), Yaradıcılıq üçün yenidən formalaşma siyasətləri hesabatı, https://en.unesco.org/creativity/publications/2022-global-report-reshaping-policies-creativity

3. DCMS(2013), Kreativ sənayeləşmənin təsnifatı və ölçülməsi. https://assets.publishing.service.gov.uk/government/uploads/system/uploads/attachment_data/file/203296/Classifying_and_Measuring_the_Creative_Industries_Consultation_Paper_April_2013-final.pdf

4. UNCTAD(2008), Kreativ İqtisadiyyat hesabatı, https://unctad.org/system/files/official-document/ditc20082cer_en.pdf
5. Habibe Günsel Doğrul və digərləri(2016). İllerin Ekonomik Gelişmişliği Üzerinde Yaratıcı Sınıfın Etkisi: Türkiye Örneği. Business and Economics Research Journal.
6. UNESCO Kreativ Şəhərlər Şəbəkəsi https://en.unesco.org/creative-cities/home
7. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi(2021). https://culture.gov.az/az/umumi-xeberler/13884
8. Azərbaycan Respublikasının Dövlət Statitika Komitəsi, Azərbaycanın regionları. https://www.stat.gov.az/source/regions/
9. Azərbaycan Respublikasının Prezidenti(2021). https://president.az/az/articles/view/50474

---

**Tural İsa oğlu Əliyev**
Azərbaycan Dövlət İqtisad Universiteti.
"İqtisadiyyat və idarəetmə" fakultəsi. (II kurs tələbəsi).
turalaliyevmain@gmail.com

## Şuşa şəhərinin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri

1988-1994-cü illəri əhatə edən, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin I aktiv fazası zamanı, və ya başqa sözlə ifadə etmiş olsaq, I Qarabağ müharibəsi dövründə Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal olunmuş bütün rayonlarımız, istər I Qarabağ müharibəsinin gedişatında, istərsə də I Qarabağ müharibəsinin sonunda (1994 cü ilin may ayı, Bişkek protokolu sonrası) xalqımızda böyük mənəvi sarsıntı, ordumuzda isə çox şiddətli demoralizasiya yaratması heç şübhəsizki, dəfələrlə bir sıra nüfuzlu təhlilçilər tərəfindən söylənilmiş, çoxsaylı nüfuzlu araşdırmaçı-ekspertlərin nitqindən öz təsdiqini tapmışdır. Lakin təəssüflər olsun ki, bu, müharibənin Azərbaycana vurduğu yeganə zərbə olmadı. Münaqişənin ilk fazasındakı məğlubiyyətimiz və iqtisadi cəhətdən olduqca əlverişli ərazilər olan Dağlıq Qarabağ və ətraf 7 rayonun işğal olunması Azərbaycanın iqtisadi potensialının böyük həcmdə azalmasına, ümumrespublikanın resessiyasına, müharibə xərclərinin hədsiz çoxalmasına görə başda respublikamızın rəsmi valyutası olmaqla bütün qiymətli səhmlərimizin kütləvi şəkildə dəyər itirməsinə səbəb oldu. Ən əsası və ən dəhşətlisi isə elə məhz işğal olunmuş ərazilərimizin iqtisadi, mədəni, turizm, logistika və s. bütün imkanlarının vandallığa və barbarlığa məruz qalması idi...

Təəssüflər olsun ki, təxminən 30 il ərzində mövcud olmuş atəşkəs dönəmində bir sıra beynəlxalq, sahəvi və regional təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində vasitəçiliklərinin effektiv olmadığını müşahidə etdik [1]. Məhz danışıqlar masasındakı qeyri-effektivlik, Ermənistan tərəfinin danışıqlar masasında daima "status-kvo" nun saxlanılmasına etdiyi cəhdlər və nəhayət ən əsası və ən dəhşətlisi isə, Ermənistan Respublikasının 26.09.2020 tarixində cəbhəboyu yerləşən ərazilərimizə hücumu, Azərbaycan tərəfini bu münaqişəni yenidən aktiv fazaya keçirməyə vadar etdi. Daha sonrakı proseslər isə, artıq bir çoxlarına məlumdur. 44 günlük müharibənin nəticəsində təxminən 30 ildir ki, işğal altında olan torpaqlarımız işğaldan azad edildi. Bu da sözsüz ki, azərbaycanlıların öz tarixi torpaqlarına qovuşması ilə yanaşı, həm də Azərbaycanın gələcək iqtisadi inkişaf potensialının yüksəlməsinə və bilavəsitə regionun (Qarabağın) və regiona bağlı olan digər inzibati rayonların sosial-iqtisadi inkişafının təmin olunmasına səbəb olacaq faktor idi.

Qarabağın tarixi və mədəni cəhətdən ayrılmaz parçası olan Şuşa şəhərinin işğaldan azad olunması da sözsüz ki, xalqımızın sevincinə səbəb olmaqla yanaşı eyni zamanda lokal miqyasda Qarabağ regionunun , orta miqyasda respublikamızın, regional miqyasda isə ümumiyyətlə bütün Cənubi Qafqazın inkişaf perspektivlərini artırmışdır.

Lakin hal-hazırda respublikamızın və dövlətimizin qarşısında elə ən azından torpaqlarımızın işğaldan azad edilməsi qədər mühüm və məsuliyyətli bir məsələ durur. Bu məsəslə başda Şuşa şəhəri olmaqla, bütün işğaldan azad edilmiş ərazilərimizin iqtisadi cəhətdən bərpa edilməsi və məcburi köçkünlərin yenidən həmin ərazilərə köçürülməsidir. Düzdür, müharibədən sonrakı təxminən 2 illik müddət ərzindən analoji ərazilərdə müəyyən işlər görülüb, lakin indi bir çox azərbaycanlını əhəmiyyətli 2 sual düşündürür: 1) "Nə etmək və necə etmək olar ki, bütövlükdə Qarabağın, ələlxüsus

da Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərinn sosial-iqtisadi inkişafının perspektivləri artsın?"; 2) Ümumiyyətlə Şuşa şəhərinin sosial-iqtisadi perspektivləri nələrdir? " Bu suallara cavab almaq üçün, ümumən Şuşa şəhərinin sosial-iqtisadi perspektivlərinin təhlilinə varmaq lazımdır. Buna görə də mən bu məsələyə, ardıcıl şəkildə yanaşaraq analoji perspektivləri sistemli olaraq təhlil etməyə çalışacam...

Şuşa şəhərinin turizm potensialı və bu potensialdan səmərəli şəkildə istifadə – Bildiyimiz kimi Şuşa şəhərinin hələ SSRİ zamanında nəinki, Azərbaycanda hətta bütün ittifaq miqyasında gözəl dağ-iqlim və balneoloji kurort zonası olub. Burada sanatoriyalar, pansionatalar və turist bazaları inşa edilib. Təəccüblü deyil ki, hətta ən uzaq keçmişdə müxtəlif xarici ölkələrdən ümumi zəiflik, qanazlığı, qapalı vərəm və digər xəstəliklərdən əziyyət çəkən insanlar Şuşaya gəlib , burada müalicə alırdılar. Ümumiyyətlə Şuşa şəhərinin işğalı ərəfəsində Sanator-Kurort birliyi binalarının sayı 18-ə çatmışdı. Burada 316 yerlik Şuşa istirahət evi və 1000 yerlik ümumittifaq əhəmiyyətli sanatoriyanın 6 yataq korpusu, müalicə korpusu, 400 yerlik yeməkxana və s. fəaliyyət göstərirdi [2]. Bütün bunları nəzərə alaraq onu deyə bilərik ki, Şuşada indi də istirahət yönümlü turzmin təşkili üçün kifayət qədər perspektiv mövcuddur.

Şuşada turizmin təşkil edilməsi bizim üçün təkcə üstünlük deyil, əfsuslar olsun ki, artıq həm də zərurətdir. Çünki, 2022-ci ilin Azərbaycan dövlət büdcəsinin icrasına dair Hesablama Palatasının yarımillik məlumatına nəzər yetirsək görmüş olarıq ki, cari ilin ilk 6 ayı ərzində ÜDM gəlirlərinin təxminən 52%-i birbaşa olaraq neft-qaz sektorunun payına düşür. Dövlət büdcəsinin təxminən 20-25% lik hissəsinin də müxtəlif növ vergilərdən təşkil olunduğunu, [3] bu vergilərin mənbəyinin isə bilavasitə ARDNŞ (SOCAR) olduğunu nəzərə almış olsaq , onda bizim qarşımıza daha da acınacaqlı mənzərə çıxmış olur. Belə ki, analoji vergi faktorundan sonra Azərbaycanın ÜDM gəlirlərinin təqribən 70-80% intervalında olan hissəsini (daha konkret ifadə etsək 72-77%) neft-qaz sektorundan gələn gəlirlər təşkil etdiyini görmüş oluruq. Müqaisə üçün deyə bilərik ki, bu rəqəm "banan respublikası" Nigeriyada təxminən 65-70% (daha konkret ifadə etsək 69%) həcmindədir [4]. Ümumiyyətlə gəlin, Azərbaycanda ÜDM-in və qeyri neft-qaz sektorunda ÜDM-in 2003-cü ilə nisbətən artım sürətlərinə (faizlə) nəzər yetirək:

**Cədvəl 1.**

**ÜDM-in və qeyri neft-qaz sektorunda ÜDM-in 2003-cü ilə nisbətən artım sürətləri, faizlə**

| İllər | ÜDM-in artım sürəti, faizlə. | Qeyri neft-qaz sektorunda ÜDM-in artım sürəti, faizlə. |
|---|---|---|
| **2004** | 110.2 | 113.6 |
| **2005** | 139.3 | 123.0 |
| **2006** | 187.3 | 137.7 |
| **2007** | 234.2 | 153.4 |
| **2008** | 259.5 | 177.7 |
| **2009** | 283.6 | 184.3 |
| **2010** | 297.8 | 198.9 |
| **2011** | 298.1 | 217.6 |
| **2012** | 304.6 | 238.7 |
| **2013** | 322.3 | 262.6 |
| **2014** | 331.3 | 280.9 |
| **2015** | 335.0 | 284.0 |
| **2016** | 324.6 | 271.2 |
| **2017** | 325.2 | 278.8 |
| **2018** | 330.1 | 284.4 |
| **2019** | 337.4 | 294.4 |
| **2020** | 322.9 | 288.1 |

**Mənbə: Müəllif Tural Əliyev tərəfindən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilmişdir. (www.stat.gov.az)**

Bütün bu rəqəmlərdən, statistikalardan, faktlardan sonra biz artıq rəsmən bu zərurətin miqyasını çox asanlıqla dərk etmiş oluruq. Lakin gəlin Şuşada turizm sektorunun bərpasınaın detallarına varaq:

İlk növbədə turizm sektorunun xammalının turist(lər) olduğunu nəzərə almış olsaq və Şuşanın turizm potensialının geniş miqyasda xarici turistəri qarşılamağa imkan verdiyini nəzər alsaq və eyni zamanda Prezident Əliyevin “Biz Azərbaycanı 2025-ci ilədək dünyanın 20 ən çox ziyarət olunan ölkəsindən birinə çevirmək istəyirik” [5] ifadəsinə əsaslansaq, onda ilk növbədə biz turistlərin Qarabağa və bu fonda həmçinin Şuşaya gəlişinin daha asan və daha münasib formada təşkilii mütəq şəkildə nəzərdən keçirməliyik. Bunun üçün ilk növbədə “AZAL”ın heç bir əndazəyə sığmayan təyyarə biletlərinin qiymətini ən azı 5-6 dəfə endirmək lazımdır. Nümunə üçün deyə bilərəm ki, hətta qonşu Türkiyə Respublikası ilə aramızda mövcud olan təyyarə reyslərinin , daha konkret desək Bakı-İstanbul-Bakı reysinin ən ucuz təyyarə biletinin qiyməti təxminən 1000 AZN-dir (974 AZN) [6]. (Ümumiyyətlə bunun özü ayrıca bir mövzu daha doğrusu ayrıca bir sualdır ki, niyə görə “AZAL”ın öz mövcudluğunu qoruması üçün dövlət büdcəsindən hər il milyonlarla vəsait ayrılır.) Əgər bu proses doğrudan da, dövlət büdcəsinin xərclərinin artmasına səbəb olacaqsa, (ki, absurddur. Səbəbləri çox primitiv olduğu üçün heç yazmadım.) bunun da həll yolları vardır. Misal üçün, ötən illər ərzində bir neçə dəfə məşhur “Wizz Air” havayolları şirkətinin Avropanın müxtəlif növ şəhərlərindən Bakıya təxminən 1 biletin qiyməti 20-30 avro olan reyslər təşkil etmişdi. Lakin Azərbaycan tərəfi analoji təklifi qəbul etməmişdi. Hətta daha sonra “Wizz Air” eyni təklifi Qəbələ hava imanı üçün təklif etsə də, yenə də eyni cavabı almışdı [7]. Yəni qısaca ifadə etsək təyyarə biletlərinin qiymətinin endirilməsi və ya hər hansısa başqa hava yolları şirkəti tərəfindən daha ucuz reyslərin təşkil edilməsi Qarabağın bərpasından sonrakı müddət ərzində nəinki, Şuşaya və Qarabağa, ümumilikdə bütün Azərbaycana gələcək turistlərin sayında ciddi artıma səbəb olacaq.

Gələk 2-ci vacib nüansa, Azərbaycan hökumətinin müxtəlif qurumlar üzrə rəsmi nümayəndələrinin müharibədən sonrakı 2 il ərzində Qarabağın bərpası haqda verdiyi açıqlamalar təxminən bu kontekstədir : “Biz Qarabağı demək olar ki, öz gücümüzə bərpa edirik”.

Bəli, bu ifadə ilk baxışdan nə qədər ambisiyalı səslənsə də, rasional şəkildə məsələni təhlil etdikdən sonra görünür ki, bərpa və quruculuq işlərinin məhz bu şəkildə aparılması, sadəcə bərpa işlərinin uzun vaxt aparmasına, dövlət büdcəsinin xərclərnin artmasına, büdcədə kəsr yaranmasına və ən pis halda ölkə iqtisadiyatının resessiyasına səbəb olacaqdır. Ona görə də bir mənalı olaraq ölkəyə sürətli şəkildə xarici investorlar dəvət edilməli və xarici investisiyalar yatırılmalıdır. Turizm sektorunda xarici investisiyaların cəlb edilməsi istiqamətində ən yaxşı addım isə fikrimcə qonşu Türkiyə Respublikasının təcrübəli turizm şirkətləri ilə əməkdaşlıq etmək olardı. Məsələyə bu aspektdən yanaşdığımızı nəzərə alsaq Dövlət Turizm Agentliyinin Qarabağda turizm resurslarının təhlili və turizm potensialının mövcud vəziyyətinin qiymətləndirməsi işləri ilə bağlı Türkiyənin “Dampo Danışmanlık Araştırma Mimarlık Planlama LTD.ŞTİ” şirkəti ilə bağladığı müqavilə müəyyən mənada müsbət hadisə hesab oluna bilər [8]. Ümumiyyətlə gəlin, Azərbaycanın 2010-2018-ci illərdə xarici turizm gəlirlərinə baxaq:




**Mənbə: Bu qrafik müəllif Tural Əliyev tərəfindən iqtisadçı Rövşən Ağayevin “Azərbaycanın xarici turizmdən qazancları: 2018-ci il niyə uğursuz oldu?” adlı məqaləsinə istinadən verilmişdir [9].**

Bu qrafikdən biz bir daha turizmin inkişaf etdirilməsinin və bunun müqabilində ondan gələn gəlirlərin nəinki Şuşa şəhərinin sosial-iqtisadi inkişaf perspektivləri üçün, bütövlükdə Azərbaycan və Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyətli olduğunu görmüş oluruq.

Bundan əlavə Şuşa şəhərinin mədəniyyət paytaxtı elan edib, orda regional və qlobal miqyasda müxtəlif növ mədəniyyət tədbirləri keçirməklə bu şəhərin regional və qlobal miqyasda cəlbediciliyini artırmaq olar. Məsələn, 2009-cu ildən bəri hər il Qəbələdə keçirilən musiqi festivalının analogiyasını Şuşada tətbiq edə və ya Şuşada "Qlobal Film Festivalı" kimi tədbirlər keçirmək olar.

**Ədəbiyyat siyahısı:**


1. Prezident Əliyevin Minsk qrupunun fəaliyyəti ilə bağlı açıqlamaları- https://musavat.com/news/ilham-eliyev-minsk-qrupunun-fealiyyetinden-danisdi-bu-ugursuzluq-idi_853284.html .
2. "Şuşa kurort və istirahət mərkəzi kimi"- 525-ci qəzet , Rövşən Ağayevin araşdırması- https://525.az/news/165367-susa-kurort-ve-istirahet-merkezi-kimi-arasdirma .
3. "Vergilər" sosial-iqtisadi onlayn qəzeti. 20 iyun 2019-cu il buraxılışı. - https://vergiler.az/news/taxes/2628.html .
4. "Amerikanın səsi" - "Neft qiymətlərinin düşməsi Nigeriyanı çətin vəziyyətə salıb". [Təhlil]. 13.02.2016 - https://www.amerikaninsesi.org/a/nigeriya-neft/3183543.html .
5. "Strateji yol xəritəsi" - https://azertag.az/xeber/Strateji_Yol_Xeritesi_Azerbaycan_2025_ci_iledek_dunyada_celbedici_turizm_mekanlarindan_birine_chevrilecek-1020270 .
6. "Wizz Air" rəsmisinin açıqlamaları - https://banker.az/baki-aeroportundan-istifad%C9%99-haqqi-yuks%C9%99kdir-wizz-air-r%C9%99smisi/ .
7. "Wizz Air" rəsmisinin açıqlamaları - https://banker.az/baki-aeroportundan-istifad%C9%99-haqqi-yuks%C9%99kdir-wizz-air-r%C9%99smisi/ .
8. Türkiyə şirkəti Qarabağın turizm potensialını qiymətləndirəcək. - 01.12.2021 https://banker.az/turkiy%C9%99-sirk%C9%99ti-445-min-manata-qarabagda-turizm-potensialini-qiym%C9%99tl%C9%99ndir%C9%99c%C9%99k/
9. Rövşən Ağayev - "Azərbaycanın xarici turizmdən qazancları: 2018-ci il niyə uğursuz oldu?"- https://bakuresearchinstitute.org/azerbaijans-earnings-from-foreign-tourism-why-was-2018-unsuccessful/ .


---


**Osmanova Nübar İlqar qızı**
Sumqayıt Dövlət Universiteti
Kurs: IV, Qrup: 827
Elmi rəhbər: b/m. Əsədova Aytən Vaqif qızı
n.osmanova21@gmail.com


## Şuşa – türk dünyasının mədəniyyət mərkəzi kimi

**Xülasə**


Cənubi Qafqaz coğrafiyasında XVIII əsrin sonlarında yaranan xanlıqlardan biri kimi yaranan Qarabağ xanlığı mövcud olduğu müddətdə bir çox mədəni əsərlər meydana çıxarmışdır. Xanlığın paytaxtı Şuşada formalaşan orijinal memarlıq üslubu bütün Qarabağ bölgəsinə təsir göstərmişdir. 19-20-ci əsrlərdə bölgədəki maraqların toqquşması nəticəsində böyük mədəni dağıntılar yaşayan Qarabağ XXI əsrə işğal altında qədəm qoyub. 2020-ci ildə Qarabağın işğaldan azad edilməsi ilə bölgədə mədəni irsin bərpası işlərinə sürətlə başlanılıb və beynəlxalq təşkilatlarla əlaqə saxlanılıb. "Qarabağın ürəyi" Şuşa 2021-ci ilin ilk günlərində Azərbaycan Respublikasının mədəniyyət paytaxtı elan edilib. Tədqiqatda Şuşa şəhərinin memarlıq irsi haqqında məlumat verilmişdir. Şuşada türk memarlıq irsinin qorunub saxlanıldıqdan sonrakı vəziyyəti haqqında ümumi məlumat verilmiş, günümüzə qədər gəlib çatmış mühüm abidələrin vəziyyəti ətraflı izah edilmişdir. İrs üzərində aparılması nəzərdə tutulan yeniləşdirmə işləri ilə bağlı Azərbaycan Respublikasının dövlət orqanları

tərəfindən verilən məlumatlar təhlil edilmiş, izləniləcək yanaşma ilə bağlı müəyyənləşdirilmiş və təkliflər verilmişdir.

**Açar sözlər:** Şuşa, maddi – mədəni irs, Gövhər Ağa məscidi, Xarı Bülbül, Azərbaycan.

Şuşa tarixən Azərbaycanın mədəni, ictimai-siyasi və iqtisadi həyatının mühüm mərkəzlərindən biri olub. Zəngin və şərəfli tarixə malik olan Şuşa Azərbaycan xalqının qədim tarixi ənənələrinin simvoludur. Şəhər Xocalı-Gədəbəy mədəniyyətinin mövcud olduğu ən qədim yaşayış məskənlərindən birində salınmış və insanların daimi yaşayış məskəninə çevrilmişdir. Şuşa ətrafında qədim yaşayış məskənləri bu rayonun Azərbaycanın ən qədim tarixi torpaqlarından biri olduğunu göstərir. İşğaldan azad edilmiş türk dünyasının qədim mədəniyyət paytaxtı olan Şuşa yenidən dirilib dünyanı valeh edəcək.

Şuşa şəhərinin cənub-şərq ucunda yerləşən Şuşa mağarasında məhdud imkanlarla aparılan arxeoloji tədqiqatlar zamanı paleolit, mezolit, son neolit, tunc, dəmir və orta dövrlərə aid qalıqlar aşkar edilmişdir. Mağaranın üstündəki Cıdır düzündə aparılan araşdırmalar ərazidə məskunlaşmanın 200-250 min il əvvəl başladığını ortaya çıxardı. 1971-1973-cü illərdə və 1975-ci ildə mağarada aparılan tədqiqatlar zamanı mağaraya yaxın ərazidə köhnə qala qalıqları da aşkar edilmişdir. [1, səh.72]. Tapıntılar sübut edir ki, Şuşa şəhəri çox qədim dövrlərdən bəri əhəmiyyətli mədəniyyət yığımına malikdir. Bu, Şuşa şəhərini təkcə Qarabağın deyil, bütün dünyanın mühüm qədim yaşayış məskənlərindən birinə çevirir.

Cənubi Qafqazda hökm sürən qeyri-sabitlik nəticəsində XVIII əsrdə yaradılmış aparıcı xanlıqlardan biri olan Qarabağ xanlığının yaradıcısı Pənah Əli xan Şuşanın yerləşdiyi yaylanı özünə mərkəz seçmiş və şəhərin əsasını qoymuşdur. Buranı "Pənahabad" adlandırmışdır. XIX əsrin ilk əvvələrində Rusiya bölgədə hökmranlıq qurduqdan sonra 1822-ci ildə Qarabağ xanlığı aradan qalxdı, paytaxt Şuşa şəhəri 1841-ci ildə quberniya mərkəzinə çevrildi. [2, səh.8]. Şəhərin əsasının qoyulduğu yayla təbii sərhəd təşkil etdiyindən şəhərin inkişafı 20-ci əsrdə dayanmış və şəhər son vəziyyətini almışdır. Qarabağın işğalı zamanı 1992-ci il, 8 mayda Şuşa işğal edilib və türk memarlıq abidələri dağıdılıb. İşğaldan əvvəl Şuşa şəhərində 549 tarixi tikili, o cümlədən 17 fəvvarə, 17 məscid, 6 karvansaray, 3 türbə, 2 mədrəsə, bir çox mədəni tikililər, o cümlədən Şuşanı formalaşdıran insanların daimi yaşayış yerləri olmuşdur. [4, səh.56]. Daşınmaz mədəniyyət fondu daxilində 248 tarixi əsər işğala qədər Azərbaycan Respublikası dövləti tərəfindən mədəniyyət sərvəti kimi müəyyən edilmişdir. Adı çəkilən Şuşa mağarasından əlavə, bu mədəni irsdən ən diqqət çəkənləri Şuşa qalası, Yuxarı və Aşağı Gövhər Ağa, Saatlı məscidləri, Qarabağ Xan Sarayı kimi göstərmək olar. Xan Sarayı istisna olmaqla, yuxarıda adı çəkilən digər tikililərin nisbətən daha yaxşı vəziyyətdə günümüzə qədər gəlib çatmasıdır. Azərbaycan Nazirlər Sovetinin 1977-ci il 10 avqust tarixli 280 nömrəli qərarı ilə sahə Şuşa Tarix-Memarlıq Mühafizəsi ərazisi elan edilərək mühafizəyə götürülüb. [7, səh.121].

Şuşa qalası yarandığı gündən yadellilərin hücumlarına inadla müqavimət göstərmiş, qanlı döyüşlərin şahidi olmuşdur. İngilis səyyahları və alimləri C.Maurye və R.Berterin də Şuşanın qədimliyi haqqında çox dəyərli fikirləri var. C.Morayene görə, Şuşa eradan əvvəl ilk yaşayış məskəni kimi yaranmışdır. R.Börter də öz növbəsində yazırdı ki, “Şuşada Avropa şəhərlərinə bənzər daş binalar, dar küçələr və tarixi Roma hamamlarını xatırladan hamam qalıqları var ki, bunlara Qafqazın heç bir yerində rast gəlinmir”. Bu dəyərli mülahizələr həm də Şuşanın qədim zamanlardan mövcudluğu haqqında düşünməyə əsas verir. Azərbaycan SSR EA hesabatlarının 1981-ci ildə nəşr olunmuş 7-ci buraxılışında bu baxımdan A.B.Şükürzadənin “Qarabağ xanlığının şəcərə cədvəli” məqaləsinə diqqət çəkilir. Pənah xan qədim Şuşanın yerində yaşamış, 1751-ci ildə monqolları məhv etmişdir. Buradan da görünür ki, Şuşa hələ XIII əsrdə Azərbaycanın şanlı şəhərlərindən biri olmuşdur. 19-cu əsrin birinci yarısında ətrafdan gələn peşəkarlar, alim və sənətkarlar sayəsində şəhərin əhalisi 20 min nəfərə çatmışdı. Şuşada 1500 dəzgah var idi ki, bu da ən azı 1500 sənət ustası olduğundan xəbər verir. Bəzi mənbələrdə göstərilir ki, XVIII əsrin sonu və XIX əsrin əvvəllərində Şuşada artıq bir çox fabrik və 2000-dən çox sənətkar fəaliyyət göstərirdi.

Şuşa qalası: Şuşa üç tərəfdən hündür və dik qayalarla əhatə olunmuş təbii qaladır. Bu səbəbdən şəhərin müdafiəsi üçün yalnız şəhərin şimal hissəsində istehkamlar tikmək kifayət idi. Qalanın tikintisinə Qarabağ xanı Pənah Əli xanın göstərişi ilə 1750 – 51 –ci illərdə başlanmış və 1756 – 57 – ci illərdə tamamlanmışdır. [8, səh.147]. Qalanın divarları İbrahim Xəlil xanın dövründə işlənmişdir.

Qala ümumi uzunluğu təxminən 2,5 kilometr, hündürlüyü 6 ilə 8 metr arasında dəyişən istehkam divarları və dayaqlarla tikilmişdir. Qalanın strateji nöqtələrində dördbucaqlı planlı, daxili həyətləri olan bürclər ucaldılmışdır. Bu qüllələrdən yalnız İbrahim Xan Qülləsi və Meydan Böyük Xanım Qülləsi günümüzə qədər gəlib çatmışdır. Meydan Böyük Xanım Qülləsinin kitabəsinə görə bina 1768-ci ildə tikilmişdir.

Yuxarı Gövhər Ağa məscidi: 1883 – 1884 –cü illərdə Qarabağlı memarı Kəlbəlayi Səfi Xan tərəfindən tikilmişdir. Ölçüləri 21,30 x 26,20 metr olan düzbucaqlı planlı tikilinin şimal girişində şimal-cənub xəttində yerləşən üçtağlı narteks var. Giriş fasadının hər iki tərəfində fasaddan yuxarı qalxan silindrik daş postamentlər üzərində minarə qoyulmuşdur. Minarələrin gövdələri hündürlüyünə görə üç hissəyə bölünərək bəzədilmişdir. Hər iki minarə tək eyvanlıdır və formaca eynidir. Minarə gövdələrinin eyvanlarla qovşağında gövdəni əhatə edən ornamental lent var. Lentin üzərində ağ fonda qırmızı kufi yazısı ilə ərəb dilində “Lə iləhə illəallah” yazılmışdır.

Şuşanın işğaldan azad edilməsi ilə məscidin açılışı olub və uzun fasilədən sonra ilk cümə namazı 13 noyabr 2020-ci il tarixində qılınıb. 16 noyabr 2020-ci il tarixində məscidə elektrik enerjisi verilib, işıqlandırma və səs sistemi işə salınıb.

Saatlı məscidi: Bina 1883-cü ildə Şuşanın Saatlı kəndində tikilmişdir. Məhz bu səbəbdən məscid “Saatlı” adını almışdır. Onun memarı Yuxarı Gövhər Ağa və Aşağı Gövhər Ağa məscidlərində olduğu kimi Kəlbəlayi Səfi Xandır. Tıxac və qəliblərdən başqa hörgü daşından hörülmüşdür. Təxminən şimal-cənub xəttində yerləşən məscidə giriş binanın şərq fasadında, şimal-şərq küncündə yerləşən giriş hissəsindən təmin edilir.

Binanın cənub-qərb küncündə yerləşən yeganə minarəsinin eyvanı istisna olmaqla, gövdə hissəsi günümüzə qədər gəlib çatmışdır. İşğaldan əvvəl məscid 1980-ci illərdə təmir olunub.

Şuşanın abidələr şəhəri olduğunu deyən Ümummilli lider Heydər Əliyev şəhərin Azərbaycan üçün fövqəladə əhəmiyyətini vurğulayaraq “Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan ola bilməz” deyirdi.

Şuşanı əbəs yerə “Qarabağın döyünən ürəyi” adlandırmırlar. Milli memarlıq üslubu ilə seçilən Şuşa orta əsrlər şəhər memarlığının dəyərli nümunəsidir. Azərbaycanın aşılmaz qalası və mədəniyyət məbədi olan bu qədim şəhər özü də tarixi abidədir. Hər biri dəyərli sənət nümunəsi olan Xan və Qahal mağaraları, Şuşa qalası, Xurşidbanu Natəvanın, General Mehmandarovun, şair və rəssam Mir Möhsün Nəvabın, İbrahim xan və qızı Qara Böyükxanımın qalaları, Gövhər Ağa məscidi, əsas ticarət mərkəzi olan Rastabazar, özünəməxsus memarlıq üslubunda tikilmiş möhtəşəm qala divarları və digər tikililər şəhərə gələnləri valeh edib.

Şuşa həm də təmiz havası və müalicəvi əhəmiyyəti ilə önəmli sayılır. Dəniz səviyyəsindən 1403 metr hündürlükdə salınmış bu gözəl şəhər həm də Turşsu adlı mineral suyu ilə tanınır, Ermənistanın işğalından əvvəl insanların istirahət və istirahət mərkəzlərində müalicə aldığı yer olub.

Şuşa toponimi haqqında çoxlu fikirlər mövcuddur. Deməli, Şuşa toponiminin mənşəyi haqqında ən çox yayılmış fikir onun şiş sözündən əmələ gəlməsidir. Şiş sözü sıldırım, iti zirvə deməkdir. Sonralar bu söz Şuşa şəklini almışdır. Bu fikrin tərəfdarları Şuşa şəhərinin adını onun coğrafi xüsusiyyətləri ilə əlaqələndirirlər. Belə ki, Şuşa şəhəri ərazi baxımından Kiçik Qafqazın ətəklərində dəniz səviyyəsindən orta hesabla 1420 metr yüksəklikdə yerləşir. Ərazisi dağlıqdır, ən böyük zirvəsi 2725 metr hündürlüyündə Böyük Kirs dağıdır. Şəhərin kənarında, Daşaltı dərəsindən bir qədər aralıda yerləşən Cıdır düzü Şuşanın əsas atributlarından biridir.

Şuşa toponimi haqqında başqa bir fikrə görə bu ad sak türkləri ilə bağlıdır. Beləliklə, bu fikrin tərəfdarları Şuşa sözünün iki komponentdən əmələ gəldiyini qeyd edirlər: şu və sa. Sak türklərində bu söz təmiz yer mənasında işlənir.

Başqa bir versiyaya görə, Şuşa qəsəbəsi qədim sak dilində mövcud olan şu terminindən əmələ gəlib. Belə ki, qədim türk mənşəli tayfalardan biri olan sak tayfaları e.ə. I minillikdə Orta Asiya və Qazaxıstan çöllərində yaşamış və xalqların formalaşmasında mühüm rol oynamışlar. Azərbaycan toponimlərinə nəzər saldıqda tarixi Sakasen vilayəti (Kür çayının sağ sahili), eləcə də Astara rayonu ərazisində yerləşən Sakaşon və Sakşon toponimləri müasir oykonimlərdən sak tayfaları ilə bağlıdır. Sak tayfalarının məskunlaşdığı əraziyə nəzər salsaq, onların maddi mədəniyyət abidələrinə Sırdərya, Talas, İli və Şu çaylarının sahillərində rast gəlmək olar. Burada adı çəkilən Şu çayı Qazaxıstan ərazisində yerləşir və toponimini sak tayfalarından götürüb. Şuşa sözünün saklara məxsus şu və sa

zərrəciklərinin birləşməsindən əmələ gəlməsinin tərəfdarları qeyd edirlər ki, saklara aid toponimlər dünyanın müxtəlif yerlərində oxşar və fərqli şəkildə işlənir. Bu fərziyyə həm də həqiqəti ehtiva edir, çünki onların yayılma ərazilərində saklarla bağlı tarixi və müasir xüsusi adlara rast gəlmək olar. Şu gün Qazaxstanda hidronim kimi mövcuddur, tarixdə Şu qalası olduğu kimi, Makedoniyalı İsgəndərə qarşı vuruşmuş Şun adlı igid sərkərdə Mahmud Kaşğarlının əsərlərində də bəhs edilir. Belə ki, öz cəsarəti ilə seçilən türk sərkərdəsi Şun adının əks-sədasını doğuran Şu qalasını tikdirir.

Şuşa toponiminin etimologiyası ilə bağlı başqa bir fikrə görə bu ad türk mənşəli dondar tayfaları ilə bağlıdır. Belə ki, Roma tarixçisi Publius Korneli Tasit Qafqazda Sosu şəhərinin mövcudluğu haqqında məlumat verir və bu şəhərin türk mənşəli dondar tayfasına aid olduğunu vurğulayır. Qeyd edək ki, latın dilində ş hərfi olmadığı üçün müəllif şəhərin adını Sosu şəklində verib.

Şuşa toponiminin etimologiyası ilə bağlı fərqli fikrin tərəfdarları: Ş.Bidlis, A.Dexuda, R.Əli, E.Vasiliev, İ.Rakşan öz tədqiqatlarında qeyd edirlər ki, müsəlman Şərqində alınmaz qalalar “Şuşa” adlanır. Avropa, Asiya və Sibirdə türklərin və müsəlmanların məskunlaşdığı ərazilərdə “Şuşa”, “Şiştər”, “Şuş” adını daşıyan qala və şəhər adlarına rast gəlinir.

Şuşa toponiminin etimologiyası ilə bağlı folklor və xalq rəvayətlərinə müraciət etsək, şəhərin belə adlandırılmasının səbəbi bu yerlərin havasının büllur və şüşə kimi saf olmasıdır. Zaman keçdikcə şüşə sözü şüşə havası olan şəhər mənasında Şuşa şəklini almışdır.

Qarabağın mirvarisi Şuşa ölkəmizin qədim tarixini əks etdirir. Bu şəhər milli mədəniyyətimizin mərkəzi, poeziyamızın, musiqimizin beşiyidir. Qarabağ xanlığının paytaxtı Şuşa "Kiçik Paris", "Qafqazın İncəsənət Məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərq Konservatoriyası" adlanırdı. Şuşa həm də dünya mədəniyyət sərvətinə böyük töhfələr vermiş bir çox görkəmli rəssamların, musiqiçilərin, memarların, rəssamların və yazıçıların, şəxsiyyətlərin yetişdirildiyi bir məkandır. Şuşalı dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin mühüm əsərləri ilə Azərbaycanda ilk dəfə olaraq peşəkar musiqi təhsilinin əsasları qoyulmuşdur.

Üzeyir Hacıbəyli Azərbaycan opera musiqisinin banisi kimi tanınmaqla yanaşı, həm də istedadlı jurnalist, dramaturq, pedaqoq və musiqişünas kimi Azərbaycan tarixində iz qoyub.

Bu füsunkar şəhər həm də Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov, Niyazi, Fikrət Əmirov, Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Süleyman Ələsgərov kimi sənətkarların vətənidir. Musiqisevərlər həmişə məşhur müğənnilərin ifalarını eşitmək və ya ifaçılıq dərsləri almaq üçün buraya axışıblar.

Mədəniyyət, incəsənət və təhsil ocağı olan gözəl Şuşa həmişə düşmənlərin diqqətini çəkmiş, xain hücumların hədəfinə çevrilmişdir. Ermənistan Azərbaycana hərbi hücumu nəticəsində 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal edərək, bu şəhərdə xalqımızın tarixi-mədəni irsini məhv etmək siyasətini sistemli şəkildə həyata keçirmişdir. Şəhərdə tariximizi əks etdirən minlərlə abidə dağıdılıb, tarixin təhrif olunmasına cəhdlər edilib.

Lakin Azərbaycan xalqı bu işğalla barışa bilməyib. Torpaqlarımızın qaytarılması, ərazi bütövlüyümüzün bərpası istiqamətində 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən Müharibəsi nəticəsində Qələbəli Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuz tarixi ədalətə qovuşdu və noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edildi. [3, səh.34].

Azərbaycan Prezidenti İlham Əliyev Şuşanın alınması ilə bağlı xalqa müraciətində demişdir: “Şuşa 28,5 ildir ki, işğal altındadır. Şuşa Azərbaycan tarixində xüsusi yer tutur. Şuşa bizim qədim şəhərimizdir. Şuşada əsrlər boyu azərbaycanlılar yaşayıb, qurub, yaradıblar. Şuşa təkcə Azərbaycanın deyil, bütün Qafqazın incisidir”.

Şanlı qələbədən sonra Prezident İlham Əliyevin 7 may 2021-ci il tarixli sərəncamı ilə Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edilib. Bundan başqa, prezidentin sərəncamı ilə 2022-ci il “Şuşa ili” elan edilib. [5].

Uzun fasilədən sonra, 2021-ci ilin may ayında Şuşanın hər bir azərbaycanlı üçün müqəddəs olan Cıdır düzündə “Xarı Bülbül” ənənəvi musiqi festivalı keçirildi. Festivalın açılış mərasimində

çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev Şuşaya olan duyğularını ifadə edərək dedi: “Biz 30 ildir bu günü gözləyirik, 30 ildir ki, Vətənimizin həsrətindəyik. Biz bu gözəl ənənəni davam etdirəcəyik. Bundan sonra biz bu gözəl ənənəni gələcəkdə də davam etdirəcəyik. İndi Şuşada hər il “Xarı Bülbül” festivalı keçiriləcək.” dedi. [6].

Eyni zamanda Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu bu tarixi şəhərdə 39 illik Vaqif Poeziya Gününü yenidən təşkil edib. 29 ildən sonra həmyerliləri dövrünün böyük şairi, mütəfəkkiri və dövlət xadimi Pənah Vaqifin ticarət mərkəzini ziyarətə gəliblər. Şairin məzarı bərpa olunduqdan sonra açılış mərasimi olub. Ölkə Prezidenti İlham Əliyev tərəfindən Şuşinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi, Xarı Bülbül adına musiqi festivalının və Vaqif poeziya günlərinin davam etdirilməsi təkcə Şuşanın deyil, bütün ölkəmizin mədəni həyatına mühüm töhfə verdi. Həmçinin torpaqlarımız işğaldan azad edilmiş və ərazi bütövlüyü təmin edilmişdir.

Mədəniyyət paytaxtı Şuşada Azərbaycan xalqının qanuni qürurunun, xalqımızın iftixar hissinin artırılması istiqamətində atılan çoxsaylı addımlardan biri kimi. Bu, Azərbaycan xalqının öz keçmişinə bağlılığının nə qədər güclü olduğuna dəlalət edir. Bu hadisələr dar mənada Şuşaya, geniş mənada isə Azərbaycanın bütün torpaqlarına, xüsusən də 30 ildir zülmət içində olan Cıdır düzünə işıq salır. Şuşanın azad edilməsi münasibəti ilə oğuz tayfalarının şənliklərinin dirçəldilməsi ölkənin kimliyini, adət-ənənələrini, zəngin tarixini zənginləşdirir, dəyərini artırır.

“Cıdır düzündə milli musiqi irsi və Qarabağ atları” musiqili kompozisiya bütün türk dünyasının tarixi-mədəni təntənəsi kimi qeydə alınıb. Mədəni çağırışlara qarşı qələbə və qəhrəmanlıq ruhunu əks etdirən bu bədii səhnələr təkcə Azərbaycanın deyil, bütün türk xalqlarının ortaq ruh yüksəkliyini və dəyərlərini əks etdirir.

Bu gün bütün azərbaycanlılar Şuşanı mənəvi paytaxt hesab edirlər. Bu baxımdan İlham Əliyevin bildirdiyi kimi, qısa müddət əvvəl Şuşada Dünya Azərbaycanlılarının V Qurultayının - Qələbə Qurultayının baş tutması tarixi əhəmiyyət kəsb edir.

Şuşa ilə bağlı daha bir sevindirici hadisə martın 31-də Bursada keçirilən Mədəniyyət Nazirliyi Daimi Şurasının iclasında Şuşanın 2023-cü il tarixində türk dünyasının ölkələrinin mədəniyyət paytaxtı elan edilməsi olub. 2023-cü ildə Azərbaycan müxtəlif tədbirlər təşkil etməklə ölkəmizin mədəni irsini bütün dünyaya olduğu kimi, digər türk dövlətlərinə də daha yaxından tanıdacaq. Qətiyyətlə inanırıq ki, bir zamanlar tarixi və mədəni sərvətləri ilə dünya şöhrəti qazanmış, 44 günlük müharibədə 28 illik erməni işğalından sağ çıxmış Şuşa şəhəri indi “Türk dünyasının mədəniyyət paytaxtı” missiyasını layiqincə yerinə yetirəcəkdir. Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa yenidən dirilib dünyanı valeh edəcək.

**Ədəbiyyat siyahısı:**


1. Əhməd.A.N.; Qarabağ – Qafqazda sülhə gedən yol. Bakı – 2020.
2. M.Nağısoylu, R.Kərimov, M.Rəhimov; Şuşa Azərbaycan mətbuatında (1875 – 1920); Bakı – elmin inkşaf fondu – 2017.
3. Səlimbəyli.S.A.; Azərbaycan tarixində qələbə salnaməsi; Bakı – 2020.
4. Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı, Biblioqrafiya; Bakı – 2021.
5. Şuşa şəhəri 2023 – cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilib: https://medeniyyet.az/page/news/61822/Susa-seheri-2023cu-il-ucun-Turk-Dunyasinin-Medeniyyet-Paytaxti-elan-edilib.html
6. “Xarıbülbül” festivalı xoş günlərin müjdəsidir: https://www.azerbaijan-news.az/posts/detail/xaribulbul-festivali-xos-gunlerin-mujdesidir-1621283937
7. Y.R.Hüseynov; Şuşa salnaməsi; Bakı – 2015.
8. Z.Abbasov; Şuşa Azərbaycanın mədəniyyə və tarix incisidir; Bakı – 2010.


---


**Təbriz İbrahimov**
Sumqayıt Dövlət Universiteti, III kurs tələbəsi
Tarix və Coğrafiya fakültəsı, Qrup: 835
celalzade.92@mail.ru


## Şuşa, sən azadsan!

Şuşa Azərbaycanın mədəniyyətini simvolizə edən gözəl şəhərlərdən biridir. Şuşa şəhərində təşkil olunan festivallar Azərbaycan mədəniyyətini dünya ölkələrinə tanıdılmasında misilsiz rol

oynayır. Təəssüf ki, bu şəhər 30 ilə yaxın faşist, vandal ermənilərin nəzarətin olub. Ermənilər işğal etdikləri Şuşa şəhərində ciddi dağıntılar törətmişdilər. Bu dağıntılar sırasına Molla Pənah Vaqifin məqbərəsi, Aşağı Gövhər ağa məscidi, Yuxarı Gövhər ağa məscidi, Pənahəli xan sarayı, Xurşidbanu Natəvanın evini və b. daxildir. Azərbaycanın tarixinə aid mədəniyyət nümunələrini dağıtmaqda, məhv etməkdə məqsədləri vardır. Məqsədləri Şuşa şəhərində Azərbaycan tarixinə aid izləri silib, tarixi saxtalaşdırmaq, Şuşa şəhərini erməni şəhərinə çevirib dünyaya tanıtmaq idi. Şükürlər olsun onların bu istəkləri bir arzu olaraq ürəklərində qaldı.

Şuşa şəhərindən danışıldığı zaman onun tarixinə nəzər salmaq, bilmək və insanları maarifləndirmək lazımdır. Şuşa şəhərini əhatə edən Şuşa qalasının əsasını 1752-ci ildə Qarabağ xanlığının əsasını qoyan Pənahəli xan (1748-1763) tərəfindən qoyulub. Şuşa şəhəri həmin vaxtdan etibarən Qarabağ xanlığının paytaxtı funksiyasını daşımağa başladı. Şuşa şəhərinin yerləşdiyi coğrafi mövqe əlverişlidir. Sıldırımlı qayalar Şuşa şəhərinə düşmən qüvvələrin hücumlarını dəf etmək imkan yaradırdı. Qarabağ xanlığı 1757-ci ildə Məhəmmədhəsən xan Qacarın, 1759-cu ildə Urmiya xanı Fətəli xan Əfşarın, 1780-1781-ci illərdə Quba xanı Fətəli xanın, 1795-ci ildə isə Ağa Məhəmməd xan Qacarın yürüşünə məruz qalmışdır. 1797-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşa şəhərini mühasirəyə aldı. 33 günlük mühasirədən sonra Şuşa şəhərinin ağsaqqalları müəyyən şərtlərlə şəhəri Qacara təslim edirlər. Şuşa şəhərinə daxil olan Ağa Məhəmməd şah Qacarın ömrü uzun olmur və sui-qəsd nəticəsində öldürülür. XIX əsrin əvvəllərində Qarabağ xanlığı coğrafi mövqeyi, təbii şəraiti kənar qüvvələrin diqqətini özünə cəlb edirdi. I Qacar- Rus müharibəsi gedişində 1805-ci ildə Qarabağ xanı İbrahimxəlil xan Qafqazdakı rus ordusunun komandanı Pavel Sisianovla Kürəkçay müqaviləsini imzalayır. Kürəkçay müqaviləsində ermənilərlə bağlı bir maddə yoxdu. Bu, ermənilərin “Şuşa şəhəri tarixi erməni ərazisi olub” iddialarının gerçək olmadığını sübut edən faktlardan biridir. 1822-ci ildə Qarabağ xanlığında xan idarəçiliyi ləğv olundu və Qarabağ əyaləti adı altında Çar Rusiyasının tərkibinə daxil olundu. 1828-ci ildə Qacarlarla bağlanan Türkmənçay müqaviləsinin XV maddəsinə görə, 1829-cu ildə Osmanlılarla bağlanan Ədirnə müqaviləsinə görə ermənilər Azərbaycanın qərb ərazilərinə - İrəvan və Naxçıvan xanlıqlarının ərazilərinə və Qarabağ xanlığının ərazilərinə kütləvi surətdə köçürülmüşdü. Bu, həmin ərazilərdəki demoqrafik göstəricilərə böyük təsir göstərmişdi. Həmin ərazilərdə ermənilərin sayı azərbaycanlıların sayına nisbətdə çoxluq təşkil etdi. Bu sonralar ermənilərin azərbaycanlılara qarşı ərazi iddialarının yaranmasına gətirib çıxardı.

Xan qızı. Azərbaycanın gözəl şairəsi. Xeyriyyəçi Xurşidbanu Natəvan. Xurşidbanu Natəvan Şuşa şəhərində “Məclis-i üns” ədəbi məclisini himayə etmişdir. 1873-cü ildə Şuşa şəhərinə su kəməri çəkdirmişdir. İndi bu su kəməri “ Xan qızı bulağı” adı ilə məşhurdur.

Şuşa şəhərində muğam sənəti inkişaf etmişdir. Şuşa şəhərində XIX əsrdən musiqi məktəbləri fəaliyyət göstərmişdir. Bunlardan biridə Kor Xəlifənin məktəbidir. Kor Xəlifənin məktəbi 1883-cü ildən 1893-cü ilə kimi fəaliyyət göstərmiş dini xarakterli musiqi məktəbi idi. Məktəb şəhərdə xəlifə vəzifəsində çalışan və dini işlərə nəzarət edən “Kor Xəlifə” ləqəbli Molla Əli Qarabaği tərəfindən açılmışdır. Burada dini elmlər geniş tədris olunsa da, Şərq şairlərinin və mütəfəkkirlərinin əsərləri, klassik muğamlar, onları oxumaq qaydaları, xanəndəlik sənətinin incəlikləri, musiqi nəzəriyyəsi və praktikası, muğam oxumaq, tar, kamança və digər musiqi alətlərində çalmaq da öyrədilir, klassik musiqi əhali arasında geniş tətbiq olunur, şagirdlər kamil musiqişünas, ədəbiyyatçı kimi yetişirdilər. Məktəbdə tez-tez poeziya və muğam müsabiqələri də təşkil edilir, daha çox istedadı olan gənclər üzə çıxardılır, onları həvəsləndirmək üçün mükafat verilirdi. Onillik fəaliyyəti dövründə Kor Xəlifənin məktəbi nəinki Qarabağda, həmçinin qonşu vilayətlərdə və İranda da tanınmışdı.

1969-1982-ci illərdə Azərbaycan Sovet Sosialist Respublikasına rəhbərlik edən Heydər Əliyevin fəaliyyəti dövründə Şuşa şəhərinin mədəniyyətinimizin simvollarından birinə çevrilmişdir. 1982-ci ildə Şuşa şəhərində Molla Pənah Vaqifin məqbərəsinin açılışı oldu.

1989-cu ildən 1991-ci ilə kimi Şuşa şəhərinin Cıdır düzündə “Xarı bülbül” festivalı keçirilmişdir. 1992-ci il mayın 8-də Şuşa şəhəri erməni silahlı qüvvələri tərəfindən işğal olunduğu üçün bu festivalı keçirmək mümkün olmadı.

2020-ci il sentyabrın 27-də erməni silahlı qüvvələrinin cəbhə xəttində törətdiyi təxribata cavab olaraq Azərbaycanın silahlı qüvvələri əks hücum əməliyyatına başladı. 44 günlük Vətən Müharibəsində rəşadətli ordumuz 8 noyabrda Şuşa şəhərini düşməndən xilas etdi. 8 noyabrda prezident İlham Əliyevin çıxışında qeyd etmişdir : Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Biz səni dirçəldəcəyik!

Müharibədən sonra Şuşanın dirçəldilməsi, inkişaf etdirilməsi məsələsi gündəmdədir:

1. Ərazi minalardan təmizlənərək şəhərin təhlükəsizliyi təmin edilməlidir. Bununlada, Şuşa şəhərində quruculuq işləri sürətlənər.

2. Şuşa şəhərində quruculuq işlərinin sürətlənməsi nəticəsində şəhərdə yaşayış məntəqələri (kənd, qəsəbə, məhəllə), tarixi memarlıq abidələri, turizm üçün şərait yenidən təşkil olunacaq.

3. Şuşa şəhərinin əhalisini öz doğma torpaqlarında yerləşdirmək və onların sosial rifahının yüksəldilməsi

4. Şuşa şəhərində turizmi canlandırmaq və bununlada milli gəlirlərin artırılması

5. Şuşa şəhərinin iqtisadiyyatının canlandırılması üçün tədbirlər görmək və bu, Azərbaycanın iqtisadiyyatını gücləndirəcək

6. Şuşa şəhərindəki təbii resurslardan səmərəli istifadə etmək, xarici bazara çıxartmaq.

7. Şuşa şəhərində yeni iş yerlərinə Azərbaycan vətəndaşlarını cəlb edib Azərbaycandakı işsizliyin faiz göstəricisini aşağı salmaq. Bu, Azərbaycanın sosial rifahının yüksəldilməsi sahəsində böyük addımlardan biridir.

8. Şuşa şəhərində Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılan tarixi memarlıq abidələrini bərpa etmək və Azərbaycanın milli tarixi dəyərlərinə sahib çıxmaq.

9. Şuşa şəhərinin yol infrastrukturunun təşkil edilməsi.

Turizm Şuşanın iqtisadiyyatında xüsusi yer tutur. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, Şəmilin bulağı, Cıdır düzü turizm baxımından xüsusi üstünlüyə malikdir. 1992-ci ilədək Turşsu istirahət və müalicə zonası fəaliyyət göstərirdi. Bu zona Laçın yolunun üstündə və Daşaltı çayının yaxınlığında yerləşir. Turşsu müalicəvi vannaları ilə də məşhur idi.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu Azərbaycan üçün strateji əhəmiyyət daşımaqla yanaşı, iqtisadi baxımdan da vacibdir. Bu yol Azərbaycanın digər ərazilərinin Şuşa şəhəri ilə birləşməsinə imkan verəcək. Xüsusən də Qarabağın dağlıq əraziləri ilə nəqliyyat əlaqəsinin formalaşmasına zəmin yaradacaq.

Ötən əsrin əvvəllərində Şuşada 1700-ə yaxın ticarət obyekti qeydə alınıb və bu da şəhərin hələ bir əsr öncə də xüsusi iqtisadi potensiala malik olduğunu göstərir. 20.9 min hektar yararlı torpağı olan Şuşada kənd təsərrüfatında heyvandarlıq daha çox inkişaf edib.

2021-ci ilin yanvarında Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın mədəniyyət naziri Anar Kərimovla görüşdə Şuşada Xarıbülbül festivalının dirçəldilməsinin zəruriliyini xatırlatmış və bu folklor festivalının ənənəsinin yaxın vaxtlarda yenidən yaradılmasının zəruriliyini qeyd etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etmişdir. Bu sərəncamla Vaqif Poeziya günləri və "Xarıbülbül" festivalı da bərpa olunmuşdur. 2021-ci il mayın 12-i və 13-də Heydər Əliyev fondunun təşkilatçılığı ilə festival baş tutmuşdur.

Festivalda Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi kollektivlərinin çıxışı, xalq və klassik musiqidən ibarət proqram təqdim edilmişdir.

Tədbirə dəvətlilər arasında bir sıra ictimaiyyət və mədəniyyət xadimləri, Qarabağdan, o cümlədən Şuşadan olan tanınmış şəxslər olmuşdur.

Prezident İlham Əliyevin müvafiq sərəncam və göstərişləri ilə artıq işğaldan azad edilmiş ərazilərdə ilk zəruri bərpa işlərinə başlanıb. Prezident Şuşaya səfəri zamanı yolüstü Füzuli beynəlxalq aeroportunun təməlqoyma mərasimində təntənəli surətdə bəyan etdi: “Şuşa şəhəri mənim tərəfimdən Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Şuşa şəhərinin bərpası və tarixi simasının özünə qaytarılması istiqamətində işlərə start verildi. Bütövlükdə, müharibədən cəmi iki ay vaxt keçib, ancaq böyük quruculuq işlərinə start verildi”.

Şuşa şəhərində binalar müasir memarlıq üslubunda tikilməli, turizmin inkişaf imkanları nəzərə alınmalı, şəhərin quru təmiz havası və müalicə-sağlamlıq mərkəzi kimi funksiyası qorunub saxlanmalıdır. Şəhərdə insanlara bütün xidmət növlərinin yüksək səviyyədə nümunəvi təşkili təmin olunmalıdır.

Şuşa şəhərində ölkəmizin incəsənət nümayəndələrinin, şairlərimizin ev muzeylərini, məscidlərimizi viran qoyublar. Amma Azərbaycan Qarabağı işğaldan azad etdikdən sonra orada sürətli quruculuq işləri aparmağa başladı. Xüsusilə Şuşa şəhərində ermənilərin dağıtdığı abidələr, ev muzeyləri, məscidlər sürətli şəkildə bərpa olunur. Sürətli yenidənqurma onun göstəricisidir ki, evin,

torpağın sahibləri geri dönüb. Prezident İlham Əliyev azad olunan ərazilərdə həyata keçirdiyi quruculuq işləri ilə dünyaya mesaj verir ki, Qarabağ Azərbaycan torpağıdır və biz oranı cənnətə çevirəcəyik. İndi dünya görür ki, torpağın həqiqi sahibi kimlərdir".

2022-ci ilin iyun ayının 15-də iki qardaş ölkə - Azərbaycan və Türkiyə arasında imzalanan müttəfiqlik sənədi - Şuşa bəyannaməsi həm də bu doğma, müqəddəs şəhərə verilən böyük dəyər mənasında simvolik məna kəsb edirdi.

Bəyannamədə Zəngəzur dəhlizinə yer ayrılması hər iki ölkə üçün əhəmiyyətlidir: "Təkcə bu il ixrac həcmini 15-20 faiz artırmağı planlaşdıran Türkiyə ticarət dövriyyəsi 6 milyard dollara çatan Mərkəzi Asiya və 21 milyard dollar olan Çinlə iqtisadi əlaqələrdə Zəngəzur dəhlizindən istifadə edəcək. Hətta Zəngəzur dəhlizi Türkiyə-Rusiya iqtisadi əlaqlərinin də güclənməsinə imkanlar aça bilər. İxracyönümlü Türkiyə iqtisadiyyatı üçün Zəngəzur dəhlizi ixrac marşrutlarının şaxələndirilməsi deməkdir".

Yuxarıda qeyd olunduğu kimi tarixi abidələrimiz işğal zamanı ermənilər tərəfindən dağıdılmış və yararsız vəziyyətə salınmışdı. Şuşanın işğalı dövründə dağıntıya məruz qalan tarixi abidələrdən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. Şuşa şəhərinin tarixi mərkəzində yerləşmiş bu saray həm də Pənahəli xanın iqamətgahı olmuşdur.

Erməni vandalizminin ağır nəticələrini özündə əks etdirən tarixi abidələrdən biri də Şuşa şəhərinin mərkəzi meydanında yerləşən, XIX əsrə aid Karvansaray tarix-memarlıq kompleksidir. Hazırda Şuşanın bu tarixi tikilisində də əsaslı bərpa işlərinə başlanılıb.

Şəhərdə erməni vəhşiliyi ilə üz-üzə qalan tikililərdən biri də Şuşa Dövlət Rəsm Qalereyasının binasıdır. Qalereya 1982-ci ildə yaradılıb və işğal dövrünədək - 1992-ci ilədək fəaliyyət göstərib. Tikili indi tamamilə yenidən bərpa ediləcək və yenə də rəsm qalereyası kimi fəaliyyət göstərəcək.

Şuşa şəhərinin genişmiqyaslı bərpa planına uyğun olaraq "Qarabağ" mehmanxanasında əsaslı təmir-bərpa işləri aparılacaq. "Qarabağ" mehmanxanası ötən əsrin 80-ci illərinin əvvəllərində inşa edilib. Lakin bina baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşüb. Burada görüləcək işlər nəticəsində mehmanxana müasir səviyyəyə çatdırılacaq və Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün bütün şərait yaradılacaq.

Hazırda Şuşada bərpa edilən mədəni mərkəzlərdən biri də Şuşa Xalça Muzeyidir. Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılan bu muzey də işğal zamanı ciddi ziyan görüb.

Tezliklə dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək Şuşa həm də xarici turistlərin diqqətini cəlb edəcək. Bu baxımdan şəhərdə "beş", "dörd" və "üç" ulduzlu otellərin tikilməsi zəruridir. Hazırda Şuşada yenidən qurulan Park oteldə işlər başa çatdıqdan sonra otel qonaqlarını müasir səviyyədə qarşılaya biləcək.

Beləliklə, yaxın gələcəkdə Şuşa özündə tarixiliklə müasirliyi əks etdirən, möhtəşəm tarixi zəfərimizin əsas rəmzi kimi dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

---

**Mirzəyeva Ayan Amar qızı**
Bakı Dövlət Universiteti, Kitabxanaçılıq-informasiya fakültəsi,
Kitabşünaslıq və Nəşriyyat işi kafedrası,
Nəşriyyat işi və redaktəetmə ixtisasının magistratura üzrə I kurs tələbəsi
ayanmirzaeva@gmail.com

## Şuşanın sosial-iqtisadi dirçəldilməsi – Azərbaycanın tərəqqisinin yeni zirvəsidir

XXI əsr Azərbaycan tarixində yeni bir intibah dövrünün başlanğıcı oldu. "Dəmir yumruq" siyasətinin uğurla həyata keçirilməsi nəticəsində rəşadətli Azərbaycan ordusunun əldə etdiyi qələbə ölkənin parlaq gələcəyi naminə atılan uğurlu bir addım idi. İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən hazırlanan inkişaf strategiyasına uyğun işlər həyata keçirilməyə başlandı. Bu strategiya nəticəsində Azərbaycanın iqtisadi qüdrəti dünya miqyasında daha da artdı.

Azərbaycanın şanlı tarixində xalqın mənəviyyat qoxusunu daşıyan, Qarabağın dəyərli incisi olan Şuşa ölkənin sosial-iqtisadi, mədəni o cümlədən bir çox aspektlərdə inkişafında böyük əhəmiyyətə malikdir. Şuşanın adı ilə bağlı bəzi məqamlara izah vermək istəyirəm:

"Şuşa" adının bir anlamı "şiş", "şişə" – uca yer, zirvə kimi izah olunur. Ancaq onun az yada düşən qədim kökü də var. "Şoş" qədim türkcədə "daş, qaya" anlamındadır. Tarixçilər qeyd edirlər ki, Daşkəndin qədim adı "Şoşkənd" olub, elə indinin özündə də orada daş döşənmiş yola "şoş yolu" deyirlər. "Şuşakənd", "Şuşa" bu yozumda "Qayaüstü, daşlı şəhər" anlamını verir. "Şuşa" bir yozumda "Qayaüstü, daşlı şəhər" anlamını verir.

Bəli, Şuşa şəhərinin azadlığına qovuşması haqqı və ədaləti daima müdafiə edən, sarsılmaz gücə malik Azərbaycan xalqının əbədi və əzəli missiyası idi. 8 noyabr 2020-ci il tarixində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusu tarixi, mədəni və strateji əhəmiyyətə malik, Şuşanı işğaldan azad edərək bu missiyanı həyata keçirdi. Vaxtilə Qarabağ xanlığının paytaxtı olan, "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan Şuşanı haqlı olaraq Azərbaycan mədəniyyətinin beşiyi adlandırmaq olar. Şuşa daima Qarabağın döyünən ürəyi olaraq diqqət mərkəzində olmuşdur. Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Şuşanın tarixini yaxşı bilən Ümummilli Lider şəhərə çox böyük qayğı göstərərək onun inkişafına çalışırdı. Dahi Lider Şuşaya adi bir şəhər deyil, zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. Ulu öndər Heydər Əliyev Şuşanın abidələr şəhəri olduğunu, diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumağın, qədim tikililəri bərpa etməyin vacibliyini qeyd edib və bundan sonra bu şəhərin simasının gözəlləşdirilməsi, tarixi abidələrin bərpası məqsədilə mühüm işlər həyata keçirilib.

Molla Pənah Vaqif, Xurşidbanu Natəvan, Üzeyir bəy Hacıbəyli, Bülbül, Xan Şuşinski, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev və başqa sənətkarların yaşayıb yaratdığı mədəniyyət qoxulu Şuşa azadlığını qazandıqdan sonra öz layiqi statusunu aldı. Cənab Prezident İlham Əliyev tərəfindən 2021-ci il 7 may tarixində Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsi rəhbər tutularaq "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" sərəncam imzalayıb. Bu sərəncamla "Vaqif poeziya günləri" və "Xarıbülbül" festivalı da bərpa olundu. Bununla yanaşı, 2022-ci il martın 31-də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçildi. 2022-ci il mayın 18-də İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak edən Türkiyə, Pakistan, İran, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan parlament nümayəndə heyətləri Şuşa şəhərinə səfər etdilər. Eyni zamanda, mayın 19-21-də isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada "Münaqişədən sonrakı humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfrans keçirildi. "Mədəniyyət naminə sülh" qlobal çağırışının əsas istiqaməti postmünaqişə dövründə olan ölkələrin işğaldan azad olunmuş ərazilərində mədəni infrastrukturu dirçəltmək, milli-mənəvi dəyərləri yenidən həmin torpaqlara qaytarmaq üçün davamlı sülhün təmin edilməsidir. Bu baxımdan, 2022-ci ildə keçirilən tədbirlər bir daha onu təsdiq edir ki, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa artıq siyasi fikir, ictimai düşüncə və diplomatiya mərkəzinə çevrilməkdədir.

Şuşa özünün əsrarəngiz təbiəti ilə yanaşı, ahəngdar və poetik mədəniyyət ilə də dünyaya səs salmışdır. Şanlı zəfərimizdən dərhal sonra Şuşada mədəniyyət iqtisadiyyatının inkişafı ilə bağlı tədbirlər görüldü, qədim Şuşanın daha bir həsrətinə son qoyuldu. Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı olan bu gözəl şəhər "Xarıbülbül" musiqi festivalına evsahibliyi etdi. İyirmi doqquz ildən sonra qədim mədəniyyət beşiyi olan Şuşa yenə öz doğmalarını, qonaqlarını qarşıladı. Tədbirdə Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi kollektivləri çıxış etdilər, xalq və klassik musiqi nümunələrindən ibarət proqram təqdim olundu. Tədbirə dəvətlilər arasında bir sıra ictimaiyyət və mədəniyyət xadimləri, Qarabağdan, eləcə də Şuşadan olan tanınmış şəxslər var idi. Festivalda İordaniya, İsrail, İraq, Estoniya, Latviya, Mərakeş, Niderland, Türkiyə, Ukrayna, Yunanıstan kimi 13 ölkədən mədəniyyət nümayəndələri iştirak edib. Həmçinin, Şuşa ISESCO tərəfindən "İslam Mədəniyyətinin paytaxtı" elan edilib. İtaliya mətbuatı festivalın Azərbaycanın çoxmədəniyyətli ölkə olduğunu nümayiş etdirdiyini diqqətə çatdırıb. "Giornale Diplomatico", "Agenzia Nova", "KmetroO"

kimi kütləvi informasiya vasitələrində mayın 12-13-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən "Xarıbülbül" musiqi festivalına həsr olunmuş məqalələr dərc olunub. Məqalələrdə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə festivalın 32 ildən sonra ilk dəfə qədim mədəniyyət beşiyi Şuşanın əsrarəngiz Cıdır düzündə baş tutduğu qeyd edilib. Bütün bunlar ölkənin dünyamiqyasında mədəniyyət iqtisadiyyatının dirçəlməsi sahəsində atılan mühüm addımlar idi.

2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə arasında Şuşa bəyənnaməsi imzalanmışdır. Bu bəyənnamə vasitəsilə hər iki ölkə Prezidenti beynəlxalq sənədlərə, 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq etmişlər. Bəyannamə mühüm əhəmiyyətli amilləri özündə birləşdirir. Sənəddə əksini tapan ən vacib məsələlərdən biri ölkələrimizin beynəlxalq müstəvidə birgə əməkdaşlığını davam etdirməsidir. İqtisadi-ticari əlaqələr, mədəniyyət, təhsil, idman, gənclər siyasəti və digər sahələrdə münasibətlərin daha da inkişafını nəzərdə tutan Şuşa bəyənnaməsi iki ölkənin sadiq dostluğunun göstəricisidir. Bəyənnamədə enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizi ilə bağlı məsələlərin qeyd edilməsi də diqqətə layiqdir. Bununla yanaşı, müdafiə sahəsində əməkdaşlıq, hərbi yardımla bağlı məsələlərə də toxunulmuşdur. Bu sənəd ölkələr arasında bütün sahələrdə əlaqələrin ən yüksək səviyyəyə çatdırılmasına zəmin yaradır. Misirin “Aldiplomasy” informasiya portalında Azərbaycan və Türkiyə Respublikalarının liderlərinin imzaladığı bu tarixi əhəmiyyətli Bəyənnamə ilə bağlı xəbər yayımlanıb. Macarıstanın “Hirado” nəşrində “Türkiyə və Azərbaycan prezidentləri müttəfiq münasibətlərə dair Bəyənnamə imzalayıblar” sərlövhəli məqalə dərc edilib. Məqalədə, Rəcəb Tayyib Ərdoğanın yaxın gələcəkdə Şuşada Türkiyənin baş konsulluğunun açılacağı ilə bağlı məlumat verdiyi də qeyd olunub. Bəyənnamə sərhədləri aşaraq dünya miyqyasında kütləvi informasiya vasitələrində yer alıb. Özbəkistanın “qalampir.uz”, “tnews.uz”, “kun.uz”, “darakchi.uz” və “abiq.uz” portallarında Şuşa bəyənnaməsinin əhəmiyyəti qeyd edilib. Yunanistan, Rumıniya, Bolqarıstanda da bu əlamətdar hadisə ilə bağlı xəbərlər yer alır. “G4media”, “Ziarelive” nəşrləri, Bolqarıstan Teleqraf agentliyi, Fokus xəbər agentliyi, “Blacksea news” xəbər portalı və digər kütləvi informasiya vasitələri Şuşanın tarixindən o cümlədən, mənfur düşmən üzərində şanlı qələbə qazanan Azərbaycandan yazır. Həmçinin Avstraliyanın “au.news.yahoo.com” saytı da bu barədə məlumat yayımlayıb.

2021-ci il avqustun 30-da Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşadakı Yaradıclıq Mərkəzində “Yaddaş. Fotoqrafik tarix”, Rəsm Qaleryasında “Yenidən doğma diyarda Qarabağın sənət inciləri” adlı sərgilər açıldı. Hər üç sərgidə nümayiş olunan dünənlə bu günün vəhdətini yaratmaqla yanaşı, xalqımızın bənzərsiz xüsusiyyətlərini nümayiş etdirdi.

Şuşa girintili-çıxıntılı, məhəlləsi, tipi, dalanı, meydanı çox və həm də memarlıq cəhətdən zəngin olan qədim şəhərlərdən biridir. Şuşadakı binalar inşaatın, memarlığın elə fəndlərindən istifadə edilməklə tikilmişdi ki, onlara hissiz, həyəcansız baxmaq olmurdu. Çox təəssüf ki, ermənilər bu gözəllikləri dağıdıb, məhv ediblər. İndi isə qədim Şuşa müasir yanaşma ilə qurulur, magistral kəmərlər çəkilir, su anbarları tikilir, şəhər dayanıqlı enerji ilə təmin olunur. Palçıqlı suyun asfalta yayılmaması üçün xüsusi drenajlar çəkilib. “Şuşa” yarımstansiyasında dəmir dirəklərə bərkidilmiş yüksəkgərginlikli elektrik xəttlərinin olması mədəniyyət paytaxtının gecə-gündüz mütəmadi şəkildə dayanıqlı enerji ilə təmin olunması deməkdir. Bu rəqəmsal yarımstansiya Şuşada istifadəyə verilən ilk obyektdir. Elektrik stansiyası ilə yanaşı Füzuli yarımstansiyasından yüksək sürətli kabel xətti çəkilib. Bu həmçinin sürətli internet şəbəkəsinin də təşkilidir. Bununla yanaşı yayda çaylarda suyun səviyyəsinin aşağı düşməsi ilə əlaqədar olaraq Daşaltı çayı üzərində yaradılan su anbarı Şuşanın daimi su ilə təmin edir. Zarıslı və Nəbilərdən çəkilən su borularının təzyiqqırıcı anbarda birləşməsi nəticəsində su təminatı ilə bağlı problem aradan qaldırılır. Cənab Prezidentin təşəbbüsü ilə 2021-ci ildə Şuşada Radio-Televiziya Yayım Stansiyasının da təməli qoyulub, Mehmandarovların malikanə kompleksində bərpa işləri aparılıb. 2022-ci ildə Şuşadakı inzibati binada və Şirin su hamamında, mənzil-kommunal və təmir xidmətinin binasında da bərpa işləri görülüb.

Prezident İlham Əliyev Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilişi ilə bağlı da göstəriş verib. Cənab Prezident yolun əhəmiyyətini qeyd edərək deyib: "Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır. Son illər ərzində ölkəmizdə bir çox yollar inşa edilib. Deyə bilərəm ki, 2004-cü ildən bu günə qədər 16 min kilometrdən çox avtomobil yolu

çəkilibdir və yollar keyfiyyətlidir. Bu göstəriciyə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir. Ancaq bu yolun xüsusi əhəmiyyəti var. Dediyim kimi, bu yol bizi Şuşaya aparır. Eyni zamanda, bu layihə işğaldan azad edilmiş torpaqlarda icra edilən birinci layihədir". Cənab Prezident İlham Əliyev 2021-ci il yanvarın 14-də Füzuli Beynəlxalq Hava Limanının təməli qoyulduğunu da vurğulayıb. "Hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər."

İşğal dövründə şəhərdəki tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılmışdır. Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa şəhəri Dövlət Qoruğu idarəsi yaradılmışdır.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, məşhur tarzən Sadıqcanın evində aparılan bərpa işləri, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə burdakı tarixi, dini və memarlıq abidələrinin yenidən bərpa edilməsi prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Qeyd edilməlidir ki, Ümumilli lider Heydər Əliyevin iştirakı ilə 1982-ci ildə Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin açılışı olub. Bununla yanaşı, Şuşada yeni məscidin də təməli qoyulub.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" 2020-ci il 3 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsində misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə 8 noyabr tarixinin – Şuşanın işğaldan azad olunduğu günü "Zəfər Günü" kimi qeyd edilməsi qərara alınmışdır.

Şuşa azad olunduqdan dərhal sonra ölkə başçısının xüsusi tapşırıqlarına əsasən şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır. Azərbaycan Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi də məhz Şuşa rayonuna təyin edilmişdir.

Şuşa qalasının bərpasına başlanılıb. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bərpa prosesinə 22 mütəxəssis cəlb olunub. İlkin mərhələdə görülən işlərin gələn ayın sonlarına yekunlaşacağı gözlənilir. İşlər yekunlaşdıqdan sonra növbəti mərhələdə daha geniş bərpaya başlanılacaq. Qeyd edək ki, Qarabağ xanı Pənahəli xan 1750-ci ildə Şuşa qalasının tikintisinə qərar verib və Qarabağ xanlığının mərkəzi bura köçürülüb. Qala sonra uzun müddət mənbələrdə Pənahabad adlandırılıb. Şuşa qalası Azərbaycan memarlığının ən gözəl incilərindən biridir. Qala Arran memarlıq məktəbi üslubunda inşa edilib. Qalanın tikilməsində əsasən yerli daşlardan və əhəng-yumurta sarısı qarışığından istifadə edilib. Qalanın üç qapısı var. Onlardan Gəncə qapısı öz yüksək memarlıq xüsusiyyətləri ilə seçilir. Qala dairəvi mühafizə bürclərinə malikdir.

Azərbaycanın baş tacı Şuşada XVIII əsrdə yaşamış Azərbaycan şairi və ictimai-siyasi xadim, Qarabağ xanının vəziri olmuş Molla Pənah Vaqifin büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin mənfur düşmən tərəfindən dağıdılan abidəsi yenidən bərpa edildi. Dünya musiqi mədəniyyətinin incisi, Azərbaycan musiqisinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəylinin dağıdılmış evinin bərpası ilə bağlı da göstəriş verildi. Bülbülün evinin açılışı oldu, "Qarabağ" oteli əsaslı təmir olunaraq yenidən fəaliyyətə başaldı. Yuxarı Gövhərağa, Saatlı, Aşağı Gövhərağa məscidləri təmirə başladı və bunların təmirini Heydər Əliyev fondu öz üzərinə götürdü. Natəvan bulağı bərpa edildi. "Xarıbülbül" oteli istifadəyə verildi.

Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın tarixi mərkəzinin UNESCO-nun Ümumdünya Mədəni İrs siyahısına salınması məqsədilə hazırda müvafiq işlərə başlanıb. 1997-ci ildən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan Şuşa Tarix-Memarlıq Qoruğunun 2001-ci ildə UNESCO-nun Dünya İrsinin İlkin siyahısına daxil edilməsi bu istiqamətdə atılan mühüm addımlardan biridir.

Azərbaycan xalqının tarixi qələbəsinin tədrisdə əks olunması məqsədilə Təhsil Nazirliyinin Fəaliyyət planı hazırlanıb. Hazırda Şuşa rayonunda 21 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Həmin məktəblərdə çalışan 480 nəfərə yaxın pedaqoji işçi 4 mindən artıq şagirdin təlim-tərbiyəsi ilə məşğul

olur. Bu gün Şuşa məktəbləri, Şuşa müəllimləri haradan olmalarından asılı olmayaraq uşaqların əsl vətəndaş kimi və vətənpərvər böyümələrinə, biliklərə yiyələnmələrinə məsuliyyətlə yanaşırlar. Təhsil sistemi cəmiyyətin, ölkənin inteqrasiyasında müstəsna əhəmiyyətə malikdir. İstər sosial-mədəni, istərsə də ictimai-siyasi, iqtisadi inkişafda təhsil sisteminin rolu böyükdür.. Bir fərdin cəmiyyətdə şəxsiyyətə çevrilməsində böyük rol oynayan təhsil sisteminə qayğı göstərilməsi həm də vətənpərvər ruhda, qəlbi Qarabağ, Şuşa sevgisi ilə döyünən parlaq Azərbaycan gələcəyinin yetişdirilməsi deməkdir.

Qeyd etməliyik ki, 2021-ci ildə görülən tədbirlər içərisində Şuşada 1 nömrəli ümumtəhsil məktəbinin təməlinin qoyulması da təqdirəlayiqdir.

Azərbaycanın mədəniyyət qoxulu şəhəri Şuşa gündən-günə inkişaf etməyə davam edir. Bu inkişaf uğurlu siyasətin nəticəsi olaraq ölkəmizin şanlı tarixində anban qeydə alınır. Azad Şuşa, ruhumuzun qidası Şuşa hər zaman şərəfli Azərbaycan tarixinin incisi olaraq qalacaqdır.

---

**Hikmət Məmmədov**
Sumqayıt Dövlət Universiteti
Tarix və onun tədrisi metodikası kafedrası,
Tarix və Coğrafiya fakültəsi, Magistr, M852
989876hikmet@mail.ru

## Şuşanın sosial-iqtisadi dirçəldilməsi - Azərbaycanın tərəqqisinin yeni zirvəsidir

"Qarabağ Azərbaycandı" bu ifadə 30 ilə yaxın idi ki, insanların qəlbində və ağlında idi. Nəhayət 2020-ci il 27 sentyabrda "İkinci Qarabağ müharibəsi" başlayanda bu ifadə bir şüara çevrildi. Xüsusiylə bu şüar xalqımızda və ordumuzda ruh yüksəkliyi yaratdı və qələbə bizimlə oldu. 2020-ci il 10 noyabrda Azərbaycan və Ermənistan arasında atəşkəs bəyanatı imzalandı. Bununla da Azərbaycan öz haqq savaşında qalib gəldi.

İkinci Qarabağ müharibəsinin ən gözəl anlarından biri tarixi Şuşa şəhərinin 2020-ci il 8 noyabrda işğaldan azad edilməsi idi. Bu xəbər ölkəmizdə böyük qürur hissi ilə qarşılandı. O qürurlu günlər üçün darıxıram və o günləri türkçülüyümün şanlı tarixi olaraq yadda saxlayacam.

Şuşa şəhəri işğaldan azad edildikdən sonra ona tarixi dəyəri Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev verdi. İlham Əliyev 2021-ci il may ayının 7-də "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" Sərəncam imzalamışdır. Biz bu sərəncamı oxuduqca onu abzas-abzas incələdikcə anlıyırıq ki, tarixi Şuşa şəhərinə necə dəyər verilib. Məsələn bir abzasda qeyd olunur "Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır." Biz bu abzasdan Şuşa şəhərinin keçmişinə necə dəyər verilərək, gələcək sosial-iqdisadi dirçəlişinin istiqamətlərini anlıyırıq və təsəvvür edirik. Növbəti bir abzasa diqqət yetirək "Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə qərara alıram: 1. Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilsin. 2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin." Bu abzasda öz növbəsində Şuşanın gələcək sosial-iqdisadi inkşafının prioritet istiqamətləri haqqında aydın fikirlər ifadə edir. Yəni biz Şuşa şəhərinin əvvəlki şöhrətini qaytarmaq istəyiriksə, onuda onun kecmişi haqqında məlumat toplamalı, bu məlumat üstündə düşünməli və Şuşanın gələcəyini formalaşdırmalıyıq.

Şuşa şəhərinin gələcəyni formalaşdırmaq üçün əvvəlcə onun keçmiş tarixi və gözəlliklərindən danışmalıyıq. Şuşa şəhərinin əsası XVIII əsrin 50-ci illərinin əvvəllərində görkəmli siyasi və dövlət xadimi Pənahəli xan Cavanşir tərəfindən qoyulmuşdur. İlk vaxtlarda Pənahəli xanın şərəfinə şəhəri "Pənahabad" adlandırırdılar. Bu şəhərdə 1751-ci ildə isə Şuşa qalası tikilmişdi. Bu qalanın əsasının

qoyulması ilə bağlı tarixçi Mirzə Camal bəy Cavanşir belə yazırdı: “Yeni qala tikdirmək üçün Pənah xan məmurlarla, din xadimləri və Qarabağa yaxşı bələd olan dünya görmüş yerli sakinlərlə xeyli məsləhətləşdikdən sonra qərara gəldi ki, “Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala inşa edək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daima açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz (bir an belə) kəsilməməlidir". Burdan da məlum olur ki, Pənahəli xan Şuşa qalasının tikintisinə necə diqqətlə yanaşıb. Şuşa qalası üç tərəfdən təbii istehkamla əhatə olunmuşdur. Bu barədə daha dəqiq məlumat Yunis Hüseynovun “Şuşa Salnaməsi” əsərində belə yazılıb: “Paytaxt üçün seçilmiş ərazi Şimal-şərq tərəfdən qayalı dağlarla, Cənub-Şərq tərəfdən ərazinin hər iki tərəfi hündürlüyü 250-300 sajendən (1 sajen 2 arşına, bir arşın isə Azərbaycanda tərqibən 75 santimetrə bərabər idi) və eni 100 sajendən artıq olan əzəmətli qayalı dərə ilə əhatəli idi. Ərazi Cənub tərəfdən Kirs dağı ilə əhatələnirdi. Ərazidə 2-3 şor bulaq var idi. Bu isə yeni salınacaq paytaxt qalanın əhalisinin içməli suya olan tələbatını ödəyə bilməzdi. Xanın göstərişi ilə kənkanlar ərazinin bir çox yerində quyu qazdılar və bu quyulardan bol içməli su çıxdı. İnsan yaşamadığı ərazi ağac və kol-kosdan təmizləndikdən sonra, 1750-ci ilin avqust ayında yeni paytaxt qalanın bünövrəsi qoyuldu”.

Bundan başqa qala tikildikdən sonra Pənahəli xanın əmri ilə gözəl binalar tikilmişdir. Bu barədə Mirzə Adıgözəl Bəy “Qarabağnamə” əsərində belə yazırdı: “Pənah xan öz ailəsi üçün uca imarətlər və geniş binalar saldırdı. Hünərli ustalar, sənət sahibi və iş bilən memarlar barı, hasar, bürc və divar çəkdilər”. 1753-cü ildən bəri Şuşa Qarabağın əsas şəhərinə çevrilmişdir. XIX əsrin ikinci yarısında isə Şuşa qalası zəngin mədəniyyət mərkəzi kimi, Cənubi Qafqazda Tiflis şəhərindən sonra 2-ci yeri tuturdu. Bir çox tarixi şəxsiyyətlər, mədəniyyət nümayəndələri bu şəhərin yetirmələridir. Məsələn: Qasım bəy Zakir, Xurşudbanu Natavan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Firidun bəy Köçərli, Əbdürrəhim bay Haqverdiyev, Əhməd bəy Ağaoğlu, Yusif Vəzir Çəmənzəminli, Üzeyir Hacıbəyov, Niyazi, Sadıqcan, Mehdi Məmmədov, Fikrət Əmirov, Süleyman Ələsgərov, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Əşrəf Abbasov, Məşədi Məhəmməd Fərzəliyev, Bülbül, Xan Şuşinski, Rəşid Behbudov, hərbiçilərdən Fərrux bay Azayev, Səməd bəy Mehmandarov və s.

Şuşa qalası 17 məhəllədən ibarət idi. Bu məhələlərin gözəlliyi barəsində Yunis Hüseynov “Şuşa Salnaməsi” əsərində belə yazırdı: “Məhəllə, küçələri, səkilər bütövlüklə parıltılı mərmər daşlarla döşənmişdi. Gecələr daşlar işıq verirdi. Şəhər təmizliyi, yaşıllığı ilə göz oxşayırdı. Küçələr ensiz, cazibədar və bir-birinə bənzəyirdi. Hər bir məhəllənin ərazisində meydan var idi. Meydanların böyüklüyü və kiçikliyi yaşayış binalarının və sakinlərin sayından asılı idi. Bayram şənlikləri və idman oyunları həmin meydanlarda keçirilərdi”. Bu sözlərdən aydın olur ki, Şuşa şəhəri neçə gözəliyə sahib idi. Bunlardan əlavə şəhərin müxtəlif sosial zümrəyə mənsub olan sakinlərinin tikdirdikləri mülklər də şəhərə xüsusi gözəllik qatırdı. Bunlara misal kimi Xan sarayı, İbrahim xanın oğlu Məhəmmədhəsən ağanın, Qara Böyük xanımın, Hacı Dadaşın, Hacı Qulunun, M.M.Nəvvabın, Nəcəfqulu ağanın, C.Qaryağdı oğlunun, Zöhrabbəyovların, Mehdiqulu xanın, Xurşudbanu Natəvanın mülklərini göstərmək olar.

Şuşanın 17 məhəlləsinin hər birində məscid və müqəddəs ocağ var idi. Məhəllə məscidlərindən əlavə 2 cümə məscidi də vardı. Ümumilikdə desək 19 məscid var idi. Yunis Hüseynov qeyd edir ki, “məhəllə məscidlərin üzərində bir, cümə məscidlərinin üzərində isə iki minarə vardı”.

Şuşanın tarixi gözəlliyi barəsində ingilis səyyahları və alimləri də müəyyən fikirlər söyləyirdi. Məsələn R.Burter yazırdı: "Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır”.

Şuşa şəhərinin görünüşü və iqtisadi inkşafı barəsində daha bir faktı Tiflis şəhərində 1903-cü ildə nəşr olunmuş “Vestnik Kavkaza” jurnalının 43 səhifəsində qeyd olunurdu. Qeyd: “Şuşanın görünüşü orta əsr Avropa şəhərlərini xatırladır. Bu şəhərin tacirləri ipək-barama alverində üstün mövqeyə malik olub, Tiflis, Moskva və Marsel şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırlar”. Bundan başqa qeyd edək Şuşa şəhərində “Pənahabadi” adlanan gümüş sikkə zərb edilirdi. Bu da önəmli bir məsələdi. Çünki pulun zərb edilməsi şəhərdə ticarətin , sosial-iqtisadi həyatın inkişaf etdiyni göstərir. Şuşada “Bazarbaşı” deyilən yerdən “Şeytanbazara” qədər uzanan üstüörtülü ticarət mərkəzi var idi. Şəhərin əsas küçəsi “Rastabazar” adlandırılırdı. Rastabazar küçəsi ibadətgah, ticarət

məqsədi tikililər, birmərtəbəli dükanlar, ikimərtəbəli karvansaraylar və qoşa minarəli gözoxşayan Cümə məscidindən ibarət idi.

XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik Şuşa şəhəri özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarlarına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. XVIII əsrin sonu XIX əsrin əvvəllərində isə Şuşa şəhərin iqtisadi cəhətdən yüksək səviyyədə inkişaf edirdi. Belə ki, Şuşada çoxlu sayda manufakturaların olduğu və bu manufakturalarda 2 mindən çox sənətkarın fəaliyyət göstərdiyi bildirilir. Şuşada 1809-cu ilin məlumatına görə 1500 toxucu dəzgahı fəaliyyət göstərirdi. Buda onu deməyə əsas verir ki, 1500-ə yaxın işini bilən sənətkar burada fəaliyyət göstəmişdir. XX əsrin əvvəllərində şəhərdə 1464 dükan qeydə alınmışdı. Bunların da bazarlarla birlikdə illik ticarət dövriyyəsi 6 milyon rubla çatmışdı. Şuşanın bu cür yüksək inkişafını sübut edən amillər də vardır. Bu amil 1873-cü ildə Vyana şəhərində açılmış beynəlxalq sərgidə Şuşanı təmsil edən nümayəndələr də iştirak etmişdi. Onların sərgidə nümayiş etdirdikləri eksponatlar xaricilərdə maraq oyatmışdı.

Bir məsələni də qeyd etməliyəm ki, 1920-ci il aprel ayının 28-də Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan, 1992-ci il mayın 8-i ermənilərin Şuşanın işğal etməsinə qədər vaxt aralığında erməni vandallar gələcəyə yönəlik planlar içində tarixi hadisələri özündə əks etdirən binaları, dini ocaqları darmadağın etmişdi. Məqsədləri bəlli idi tarixi sənədləri yox etmək və özlərinə uyğun tarix yazmaq. Lakin 1969-cu il iyul ayının 14-də Heydər Əliyev respublikamızda ali rəhbər vəzifəyə gəldikdən sonra bu vəziyyət dəyişdi. Belə ki, Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1977-ci ilin avqust ayında Azərbaycan SSR Nazirlər Soveti "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul etdi. Beləliklə Şuşadakı bu tarixi-memarlıq abidələri qorundu və Şuşanın sosial-iqtisadi həyatı inkişafa başladı. Bu inkişaf 1982-ci ilin dekabır ayına kimi davam etdi. 1982-ci ildə Ulu Öndər Heydər Əliyevin SSR Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin olundu. Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü nəticəsində Şuşa şəhərinin tarixi hissəsi xilas oldu.

Şuşanın təbiət gözəlliklərindən danışmağa gəldikdə isə biz ilk növbədə “Xarı bülbül” gülündən danışmalıyıq. Bu gül dünyada yalnız Şuşa dağlarında bitir. İkinci Qarabağ müharibəsində bu gülün rəsmi Qarabağın simvoluna, insanlar üçün isə bir ümüdə çevrildi. Neçə illərdən sonra Şuşa sakinləri, Qarabağ sakinləri yenidən evlərinə qayıtmaq bu gülü yenidən dünya gözü ilə görmə sevinci içində idilər. Şuşa şəhəri dəniz səthindən 1403 metr hündürlükdə yerləşir. Bu da onun təbiətinə fərqlilik və gözəllik qatır. Məhz belə bir yerdə “Xarı bülbül” kimi nadir və fərqli bir gül bitir. Klimatologların fikrincə Şuşa müalicəvi əhəmiyyətli bir şəhərdir. 1854-cü ildə Şuşa şəhərinin cənubunda müalicəvi əhəmiyyəti olan “Turşsu” aşkar edilmişdi. Şuşada və bir çox yerlərdə Turşsu istirahət və müalicə zonası kimi tanınırdı. Şuşa yaşıllığı, havasının təmizliyi, saflığı etibarilə kurort şəhəri idi. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, Şəmilin bulağı, əfsanəvi Cıdır düzü yerli camaatın və oraya təşrif buyuranların ən sevimli yeri idi. Bugünki gündə bu yerlərdə tarixi bərpa işləri aparılır və gələcəkdə Şuşanın bu istirahət yerləri bütün Azərbaycanda və onun hüdudlarından kənarda dünyada tanınacaq. Yenidən gözəl Şuşa insanların ən sevimli yerinə çevriləcək.

Şuşa ərazisinin 20 faizə qədəri meşə zolaqları ilə əhatə olunmuşdur. Şuşanın flora və faunası olduqca zəngindir. Belə ki, bu meşələr dadlı meyvəsi olan alma, xüsusi qulluq tələb etməyən sulu və çox şirin armud ağacları, bar gətirən əncir, zoğal, yemişan, soyuğa davamlı qovaq, ardıc, qara rəngə çalan şam, küknar, süddən səkkiz dəfə qidalı, “gələcəyin çörəyi” adlandırılan qırmızımtıl fıstıq, gövdəsi düz və sarıya çalan çətirli bəzək ağacı göyrüş, palıd, vələs, çinar, qaraçöhrə, sərv, cökə, ağcaqayın, qarağat və digər ağaclarla zəngindir. Bunlardan əlavə bu ərazidə Azərbaycan təbabətində istifadə edilə biləcək vitaminlərlə zəngin göyəm, həmərsin, itburnu, qarağat, moruq və giləmeyvələr də geniş yayılıb. Bu ərazidə müxtəlif kol cinsləri, fındıq, alça, göyəm, əzgil, itburnu, ağcaqayın, eyni zamanda Şərq fıstığı, Qafqaz vələsi, İberiya palıdı kimi bitkilər var. Bunlardan əlavə şəkillərdə, videolarda Şuşanın dağlarının bitki ötüyünə diqqət yetirdikdə oranın möhtəşəm gözəllikdə bir yer olduğunu aydın şəkildə söyləmək olar. Bir məsələni də qeyd edək, landşaft müxtəlifliyi baxımından əlverişli olan bu ərazilərdə işğala qədər 2000-dən çox bitki növü mövcud olub ki, bu da Azərbaycan florasının 42 faizini təşkil edirdi. Bölgədəki 50-yə yaxın fauna, 70-dən çox flora növü dünyanın, eyni zamanda Azərbaycan Respublikasının Qırmızı kitablarına salınıb. Lakin Şuşa və başqa işğaldan azad edilmiş Qarabağ ərazisində Qırmızı kitaba düşən 120-dək flora və fauna növündən əsər qalmayıb. Çox güman ki, erməni vandalları təkcə cansız abidələri deyil canlı təbiəti də məhv edirmiş. Bu

ərazilərin biomüxtəlifliyinə külli miqdarda zərər dəyib, qiymətli ağac və kol növləri ilə zəngin meşələrimiz qırılıb, məhv edilib. Meşə ilə örtülü sahələrin 25 faizi işğal altında olan ərazilərdə yerləşir və məlumata görə, qiymətli meşələrin əksəriyyəti erməni vandalları tərəfindən məhv edilib. Otuz ilə yaxın idi ki, biz bu gözəlliklərə həsrət qalmışdıq. Amma indi "Əziz Şuşa biz qayıtmışıq".

Bu gözəl mədəniyyət abidələrindən bu gözəl təbiətdən danışarkən insan kədərlənir. Çünki Şuşa şəhəri 30 ilə yaxın işğal altında qaldı və erməni vandalları bizim abidələrə zərər verdi, məhv etdi. Bunlara Xan mağarası, Qaxal mağarası, Şuşa qalası da olmaqla bütövlükdə 279 dini, tarixi və mədəni abidə daxildir. Bundan başqa 5 minə yaxın eksponatı olan Şuşa tarix muzeyi, Dövlət xalça muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, həmçinin Laçın rayonundakı Ağoğlan məbədi, dünyada tanınan ilk insan məskənlərindən bir paleolit dövrünə aid Azıx mağarası, Xocalıdakı Əsgəran qalası, Kəlbəcər tarix muzeyinin və digər mədəniyyət ocaqlarının, rəsm qalereyalarının bənzərsiz ekspozisiyaları dağıdılıb və talan olunub. Müqəddəs məbəd və məscidlər təhqir edilib, kitabxanalar yandırılıb, misilsiz əlyazma nümunələri məhv edilib. Bu yerlərin belə faciəvi həqiqətlərini biz Şuşa azad edildikdən sonra öz gözlərimizlə, video kadrlarla, şəkillərlə müqayisə etdiymizdə aydın şəkildə gördük. Bunlara baxmayaraq Ali Baş Komandan İlham Əliyev dediyi kimi "Əziz Şuşa biz qayıtmışıq" "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" məhz bu belə də oldu. Bu gün o tarixi binalar, məscidlər, küçələr, məhəllələr bərpa edildi və edilir. Şuşa keçmişindən danışdığım əvvəlki gözəlliyinə, əzəmətinə, şöhrətinə geri qayıdır. Şuşa təkcə Azərbaycan üçün deyil dünya üçün bir mədəniyyət incisidir. Şuşa gələcəkdə təbiət gözəllikləri, memarlığı, qonaqpərvər insanları ilə turistləri özünə cəlb edəcək və ölkəyə sərmayə gətirəcəkdir.

Bu gün bərpa işləri, Şuşanı dirçəltmək işləri onu dünyada tanıtmaq öz keçmiş şöhrətini ona qaytarmaq işləri davam edir. 2020-ci il 1 dekabrda Azərbaycan Milli Kitabxanası "Qarabağın incisi Şuşa" adlı Elektron məlumat bazasını virtual rejimdə istifadəçilərə təqdim etmişdir. Məhz bu məqaləni yazarkən bir qaynaq kimi mən də "Qarabağın incisi Şuşa" Elektron məlumat bazasından istifadə etdim. 2020-ci il Heydər Əliyev Fondunun dəstəyi ilə "Mənim ürəyim Şuşa" musiqi kompozisiyası təqdim edilmiş, Şuşa şəhərində ermənilərin törətdiyi vəhşiliklərdən bəhs edən "Şuşa həqiqətləri" adlı videoçarx hazırlanmışdır. Dövlət Rəsm Qalereyasında Şuşa qalasının 270 illiyinə həsr olunmuş rəssam Elturan Avalovun əsərlərindən ibarət virtual sərgi açılmışdır. Bu gözəl hadisələrdən mənim ən çox diqqətmi çəkən məsələ 2021-ci il 16 martda Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Üzeyir Hacıbəyli, Xan qızı Natəvan, Bülbülün güllələnmiş heykəllərinin Şuşaya gətirilməsi oldu. Bu xalqımız üçün qürurverici an idi. Çünki məhz bu an xalqımızın tarixi keçmişinə və mədəniyyətinə necə sahib çıxdığını göstərdi və məhz bu an bizim necə qeyri-etik davranışlı, psixoloji problemli bir xalqla mübarizə apardığımızı göstərdi.

Tarixi bərpa işləri sonrakı dövrdə işıq sürəti ilə davam edirdi. Buna misal olaraq 2021-ci ildə Şuşada "Xarıbülbül" oteli yenidən quruldu, yeni məscidin təməli qoyuldu,1 saylı ümumtəhsil məktəbinin təməli qoyuldu, "Xarıbülbül" musiqi festivalı keçirildi, Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəli qoyuldu, Xalq artisti Bülbülün Şuşa şəhərindəki ev-muzeyi bərpa edildi, Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksində təmir-bərpa və yenidənqurma işləri aparıldı, Şuşa şəhərində dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstü qoyuldu, Şuşa şəhərində yenidənqurma işləri yekunlaşan "Qarabağ" hoteli açıldı, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən Şuşanın işğaldan azad olunması münasibətilə "Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı" adlı biblioqrafiyanı nəşr etdirilmişdir. Ən mühümü isə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında "Şuşa Bəyannaməsi"nin imzalanması oldu. Bütün bunlar Şuşanın gələcəyi barəsində gözəl təssüratlar yaradır. Şuşa şəhəri həqiqətən Azərbaycanın mədəniyyət paytaxtı oldu. Gəlin bir daha söyləyək "Əziz Şuşa sən azadsan" "Əziz Şuşa, biz qayıtmışıq" "Əziz Şuşa, biz səni dirçəldəcəyik!".

Son olaraq bu qələbəni bizə bəxş edən, bu qürurverici hisləri bizə yaşadan həm Birinci Qarabağ, həm də İkinci Qarabağ müharibəsi şəhidlərimizə Allah rəhmət eləsin!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**Ədəbiyyat siyahısı:**


1. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 7 may 2021-ci il.
2. "Şuşa" Azərbaycanın mədəniyyət paytaxt. Biblioqrafiya, Bakı - 2021.

3. “Qarabağın incisi Şuşa” adlı Elektron məlumat bazası.
4. Yunis Hüseynov **“**Şuşa salnaməsi” BAKI -2015, səh: 3-33
5. Mirzə Adıgözəl Bəy “Qarabağnamə” əsr. Bakı, "Şərq-Qərb", 2006, 216 səh.
6. Mirzə Camal Cavanşir Qarabaği “Qarabağ Tarixi” Bakı, 1959, səh. 25, haşiyə 1
7. **“**Şuşanın strateji əhəmiyyəti” link:https://xezertv.info/gundem/sosial/8195-uann-strateji-hmiyyti.html
8. “Şuşanın gözəlliyinə gözəllik gətirən flora və faunası” link: https://azerbaijan-news.az/az/posts/detail/susanin-gozelliyine-gozellik-getiren-flora-ve-faunasi-1647117853
9. “İkinci Qarabağ müharibəsi” Vikipediya. link:https://az.m.wikipedia.org/wiki/İkinci_Qarabağ_müharibəsi
10. **“**Şuşa - tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhərdir.” link: http://www.shusha-ih.gov.az/az/news/459.html

---

**Hüseyn Rəyasət oğlu İsmayılov**
Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) doktorantı,
ismayılov199351@gmail.com

**Şuşa şəhərində turizmin inkişaf potensialının qiymətləndirilməsi**

**Giriş**

Şəhərin inkişaf layihələri həyat keyfiyyətinin yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılması, şəhərin torpaq və ya memarlıq baxımından dəyişdirilməsi və yenidən qurulması kimi aspektləri nəzrədə tutur (Holland, 2014). Beləliklə, şəhərin canlandırılması tənəzzülə uğramış ərazilərin çoxölçülü yenidən qurulmasına yönəlmiş bir prosesdir (Turala, 2005). Bu, təkcə bina strukturunun yenilənməsini nəzərdə tutmur, həm də şəhərin sosial, iqtisadi və mədəni sahələrini də əhatə etməlidir.

Şəhərin canlanmasında sosial aspektlərin əhəmiyyəti ictimaiyyət üçün yer hissi yaratmaqdır. Nəhayət, mədəni aspektdə ərazinin tarixi bütövlüyünün təmin edilməsidir. İnkişaf strategiyasının tərkib hissəsi olan tədbirlərin məqsədlərindən biri həyata keçirilən iri layihələrin əsas iqtisadi amillərindən faydalanmaqdır (İqtisadi Canlandırma Planı, 2011). Bundan əlavə, canlanma qlobal miqyasda daha çox perspektivlər yaradır və iqtisadi dayanıqlığı təmin edir. Əslində, şəhərin abadlaşdırılması bir çox cəhətdən iqtisadi imkanlar yaradır. O, davamlı iqtisadi, sosial, mədəni və icma inkişafı təmin etməyə kömək edir. Araşdırmalar turizm, incəsənət və mədəniyyət, təhsil, mənzil, qida sahələrində artım imkanlarını vurğulayır.

Bu məqalə Şuşa şəhərinin dirçəldilməsinin sosial-iqtisadi təsirinə yönəlmişdir. Beləliklə, bu məqalədə şəhərin müasir və canlı məkana çevrilməsi, eləcə də Şuşada mövcud ictimai yerlərin ümumi potensialından istifadəsi ilə bağlı məsələlərə baxılır.

**Canlandırma Konsepsiyasına İcmal**

Şəhərlərin canlandırılması ticarətin və şəhər inkişafının potensial sahələrini yaxşılaşdırmaq və yenidən inkişaf etdirmək üçün vacib strategiyalardan biridir. Bu həm də şəhər regenerasiyası kimi tanınır. Bu, ani çətinliklər üçün qısamüddətli tədbirləri və gələcək problemlərin qarşısını almaq üçün uzunmüddətli yanaşmaları nəzərdə tutan strateji fəaliyyətdir. Bu, bir sıra təşkilatlara, agentliklərə və icmalara fayda gətirmək niyyətində olan tərəfdaşlıq yolu ilə ən yaxşı şəkildə əldə edilən müdaxiləçi yanaşmadır. O, ayrı-ayrı bölgə, şəhər, qəsəbə və ya məhəllədəki spesifik ehtiyaclar və potensiallarla bağlıdır və digər müvafiq siyasət sahələri və proqramları ilə əlaqələndirilir (Roberts və Sykes, 2000). Müasir infrastrukturun əldə edilməsi həm tarixi, həm də mədəni ərazilərə ciddi təsir göstərə bilər. Şəhər idarəçiliyi səmərəli qərar qəbul etməklə düzgün təhlil edilməlidir. Bu prosesdə bir-biri ilə əlaqəli bir neçə amil rol oynamışdır: şəhərlərin tarixi mərkəzlərinin yenidən canlandırılması və bərpası zərurəti, daha geniş miqyaslı və daha çoxşaxəli mədəni axtarışlar, istehlakçıların irsə və şəhərin inkişafına marağı və onların abadlıq üçün axtarışlar etmək və vaxt sərf etmək imkanları (Galdini, 2007). Məsələn, köhnə binalar əraziyə emosional dəyərlər verən yerin yaddaşını təmsil edir (Fielden, 2003). Şəkil 1-də göstərildiyi kimi, Goodey (2013) mirasa sərmayə qoyuluşu ehtiyacını ehtiva edən irsə əsaslanan şəhər bərpası üçün nəzəri çərçivə yaratmışdır.

Qoruma-bərpaya qoyulan investisiyaya mülkiyyət, torpaq, kapital, insan və irs resursu daxildir.




**Şəkil 1. İrs əsaslı şəhər regenerasiyası üçün nəzəri çərçivə**
**Mənbə: Uyğunlaşdırılıb (Said, Syed Zainal, Thomas and Goodey, 2013, p.268).**

Canlandırmanın üç səviyyəli prosesini təsvir etmək olar:

1) strukturların yenidən funksionallaşdırılması;
2) ictimai məkanların yenidən qurulması;
3) hadisələrin istiqamətinin dəyişdirilməsi.

Eyni şəkildə şəhərin canlandırılmasını üç təsnifata bölmək olar; "insanlar", "işlər" və "yer" (Turok's, 2005). İnsanlar baxımından canlandırma bacarıqları, imkanları və istəkləri artırmaq məqsədi daşıyır ki, onların iştirak etmək və fürsətlərdən faydalanmaq imkanı verir.

Miles (2005) qeyd edir ki, mədəniyyətə əsaslanan şəhər regenerasiyasının uğurlu amilləri mədəni layihələrin insanların bir yerə aidiyyəti hissi ilə əlaqəli olub-olmamasından asılıdır. Məkan imici mədəni-məhsul sənayelərinin rolu baxımından əhəmiyyətlidir (Scott, 1997). Mədəniyyət şəhərlərinin təsvirləri yerli mədəniyyət məhsullarını qlobal turistlərə satmaqla qlobal və ya regional bazara çatdırılır (Lash və Urri, 1994). Yuxarıdakı təsnifatlar Scottun (1997) təklifi ilə eynidir və yer, mədəniyyət və iqtisadiyyatın birlikdə bir-biri ilə sıx əlaqəli olduğunu göstərir. Beləliklə, bu onu göstərir ki, davamlı, canlı və biznes yönümlü bir şəhərə sahib olmaq üçün şəhər bərpası iqtisadi, sosial və mədəniyyət ilə bağlıdır.

İqtisadi təsirlərə, məsələn, birbaşa və dolayı sərmayələrə, ziyarətçilərin və sakinlərin xərclərinə və biznesin yerləşdiyi yerə və s. təsir edən mədəniyyət sərmayəsini araşdıraraq, həmçinin sosial, yəni ərazi və insan qavrayışında inam və dəyişikliyə təsir göstərir (Douglas və Ennis, 2011).

**Şəhərlərin canlandırılmasının təsirləri**

Şəhərin canlandırılması müsbət nəticələr əldə etmək məqsədilə həyata keçirilir. Məsələn, müasir infrastrukturla birlikdə tarixi binaların qorunması, turizmin inkişafı, iş yerlərinin yaradılması və biznes imkanları baxımından şəhər və ya əraziyə fayda verə bilər. Turistlərin gəlişinin iqtisadi təsiri tarixi binaların və abidələrin qorunub saxlanmasına və bərpasına töhfə verir (Galdini, 2007). Bu proses uzunmüddətli prosesdir. Məsələn, ABŞ-ın Main Street-də son 22 ildə canlandırma səyləri nəticəsində 227 min iş yeri və 56 min müəssisə yaradılmış, 89 min tarixi bina bərpa edilmişdir (Retail Wire, 2002). Digər tərəfdən, Malayziyada Melaka hələ də inkişafını davam etdirir və əldə edilən faydalarla tarixi şəhər mərkəzi üçün perspektivli görünür (Ertan & Egercioglu, 2015). Melaka 2012-ci ildə 25 milyona yaxın turistin gəldiyi Asiya ölkəsində ziyarət edilməli olan yerlərdən birinə çevrilib (Ertan & Egercioglu, 2015). Müasir və tarixi ərazilərin birləşməsi şəhərin canlanmasında faydalı ola bilər.

Köhnə binaların həmişə əvvəlki funksiyalarını yerinə yetirməsinə ehtiyac yoxdur. Onlar yerli ictimaiyyət və turistlər tərəfindən qəbul edilən yeni funksional üsullarla birləşdirilə bilər. Turizm inkişaf etdikcə, investisiya, inkişaf və infrastruktur xərcləri üçün əlavə imkanlar yaranır (Galdini , 2007). Turizm ictimai nəqliyyat və kommunal xidmətlərin daha da yaxşılaşmasına səbəb ola bilər; bu cür təkmilləşdirmələr öz növbəsində turistlər və sakinlər üçün faydalıdır (Galdini, 2007). Digər mühüm müsbət təsir ətraf mühitdir. Zəngin təbii mühitə və möhtəşəm mənzərəli gözəlliyə malik olan

Şuşa təbiətlə emosional və mənəvi əlaqələr axtaran turistləri və yeni sakinləri cəlb edə bilər. Ətraf mühit, həmçinin torpaqdan istifadə və təmiz ətraf mühit kimi şəhərin canlandırılmasının iqtisadi aspektlərinin yaxşılaşdırılmasına kömək edir. Bu, daha cəlbedici, sağlam icma yaratmağa kömək edir və zaman keçdikcə icmanı dəstəkləmək üçün kifayət qədər obyektlər və infrastruktur təmin edilərsə, daha da böyüyür.

Mədəniyyət festivalları vasitəsilə mədəni və sosial töhfələr şəhər ərazisini canlandırmaq üçün mühüm elementlərdir (Quinn, 2005). Miles və Paddison (2005) daha sonra təklif edir ki, yerli hökumət mədəniyyətə əsaslanan regenerasiya layihələrinin yerli icmalar və mədəniyyətlərlə nə dərəcədə yaxşı əlaqə qurmalarından nə dərəcədə asılı olduğunu nəzərə almamalıdır. Uğurlu bir şəhər canlandırması, bu cür irsin qorunub saxlanması şəhər saytı istifadəçilərinin fikirlərini mühüm bir giriş kimi qəbul edən iqtisadi və sosial inkişaf planının bir hissəsidir (Ertan, Egercioglu, 2015). Əslində, şəhərin canlandırılması iqtisadi və sosial yenilənməni dəstəkləyə bilən daha yaxşı həyat keyfiyyətini təşviq edə bilər. Qloballaşmada şəhərlərin yaradıcı iqtisadiyyatları cəlb etməsi və gətirməsi vacibdir. Turizm həm də yaradıcı iqtisadiyyatların bir hissəsi olduğundan, şəhər iqtisadiyyatının mühüm hissəsidir və icmanın həyat səviyyəsinə töhfə verir (Galdini, 2007).

**Turizm canlanma üçün bir fürsət kimi**

Turizm bu gün dünyanın ən mühüm sosial və iqtisadi əhəmiyyət kəsb edən sahələrindən biridir. Gələn minlərlə ziyarətçi nəinki gəlir əldə etməyə imkan verir, həm də şəhəri yaxşıya və ya pisə çevirir. Şuşanın turizm aktivlərini inkişaf etdirmək üçün bütöv təbiət, zəngin mədəniyyət, ziyarətçilərin məmnunluğu kimi amillər davamlılığın təmin edilməsinə ehtiyac duyur.

Şuşanın Azərbaycan xalqının qəlbində özünəməxsus yeri və dəyəri var. Bu qədim şəhəri təsadüfən Azərbaycanın mədəniyyət paytaxtı adlandırmırlar. Şuşa musiqi, ədəbiyyat və xalçaçılığın mərkəzi, təbiət gözəllikləri və tarixi-mədəni irsin vəhdət tapdığı unikal məkandır. Burada Qala divarı (uzunluğu 8 km), Qala Divarları üzərində tikilmiş bürclər (17 ədəd), 17 qədim üslübda salınmış məhəllə, 17 məscid, 17 bulaq, 17 hamam mövcuddur. Bunlara misal olaraq, Şuşa qalası, Natəvanın evi, Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, İsa bulağı, Üzeyir Hacıbəyovun ev muzeyini və sair göstərmək olar. İşğal altında olarkən bu abidələr, dağıdılmış, talan edilmişdir.

Öz coğrafi mövqeyinə, təbii və tarixi xüsusiyyətlərinə görə, Şuşa yalnız Azərbaycanda deyil, dünyada az təsadüf oluna bilən şəhərdir. Ölkə Prezidenti İlham Əliyev bu şəhəri heç də təsadüfən Azərbaycan mədəniyyətinin paytaxtı elan etməyib. Buna gör də, Şuşa şəhəri Azərbaycanın yalnız tarixən formalaşmış mədəniyyətinin paytaxtına deyil, həm də müasir mədəniyyətin paytaxtına, daşıyıcısına və təbliğat mərkəzinə çevrilə bilər.

Şuşanın canlandırılmasında məqsəd şəhərin canlı olmasını təmin etmək, iqtisadiyyatı, sosial və mədəni vəziyyəti yaxşılaşdırmaqdır. Ona görə də yerli əhalinin və turistlərin ehtiyacları nəzərə alınmalıdır. Şuşanın tarixi dəyərinin qorunub saxlanması, eləcə də turizmi, sakinlərin təhlükəsizliyini və biznes imkanlarını inkişaf etdirmək üçün mövcud potensialdan tam istifadə edilməsini təmin etmək lazımdır. Hazırda Şuşada il boyu keçirilən milli tədbirlər və festivallar, yeni, cəlbedici və ruhlandırıcı tədbirlərə əlavə olaraq, daha çox insanı Şuşaya əylənmək və mədəniyyətləri yaşamaq üçün cəlb edə bilər.

**Nəticələr və tövsiyələr**

Canlandırma, şəhərin bərpasını təmin etmək, şəhəri canlandırmaq, gəlirli fəaliyyətləri genişləndirmək, torpaq və iqtisadi dəyərləri artırmaq və yeni biznes təşəbbüsləri yaratmaq üçün bir prosesdir. Bu, ticarətin və şəhər böyüməsinin potensial sahələrini yaxşılaşdırmaq və yenidən inkişaf etdirmək üçün vacib strategiyalardan biridir. Bir şəhərin fəaliyyətini və cəlbediciliyini geri qaytarmaq, eləcə də inkişafı qorumaq və yaxşılaşdırmaq üçün canlandırıcı tədbirlər tələb olunur, çünki bu, bir ərazinin iqtisadi, sosial və mədəni inkişafını artıra bilər. Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır və eyni zamanda ölkənin ən cəlbedici yerlərindən biridir. 1990-cı illərə qədər Şuşa əsas turizm mərkəzlərindən biri olmuşdur. Lakin, illər ərzində şəhərin işğalı nəticəsində çürümüş və tərk edilmiş binalar və cəlbediciliyin azalması ilə nəticələnmişdir edilmiş binalar və cəlbediciliyin azalması ilə nəticələnmişdir. azalması ilə nəticələnmişdir.




**Şəkil 2. Şəhər durğunluğu - canlandırma konseptual çərçivəsi**

Şuşanın bütün amilləri – sakinlərin, turistlərin və biznesin ehtiyaclarının müxtəlifliyini birləşdirən və dayanıqlı şəhər mühitini canlandıracaq konseptual çərçivənin hazırlanması zəruridir (şəkil 2). Şuşa şəhərinin turizm mərkəzi kimi inkişaf etdirilməsi üçün şəhərin müsbət imicinin yaradılması, mədəni irsin bərpası və qorunması, turizm sənayesinin zənginləşdirilməsi, infrastrukturun və mövcud təcrübələrin təkmilləşdirilməsi tələb olunur. Aydındır ki, Şuşa şəhəri xüsusilə ekoturizm baxımından böyük potensiala malikdir. Aydındır ki, Şuşa şəhərində müxtəlif istehsal və xidmət müəssisələri yerləşdirib, onun böyük şəhərə çevrilməsinə çalışmaq düzgün olmaz. Bu onun təbiətinə, kurort-sağlamlıq mərkəzi kimi əhəmiyyətinə ziyan verə bilər.

İşğaldan azad olunandan sonra bu ərazidə ilk növbədə aşğıdakı işləri yerinə yetirilir:

- ilk növbədə, bu ərazilərin minalardan təmizlənməsi;
- həmin ərazilərdə infrastruktur obyektlərinin inşası;
-insanların hissə-hissə o yerlərə köçürülməsi;
- yeni iş yerlərini açılması məsələlərinin həlli;

Şuşa şəhərində binalar tarixi memarlıq üslubunda tikilməli, turizmin inkişaf imkanları nəzərə alınmalı, şəhərin quru təmiz havası və müalicə-sağlamlıq mərkəzi kimi funksiyası qorunub saxlanmalıdır. Şəhərdə insanlara bütün xidmət növlərinin yüksək səviyyədə nümunəvi təşkili təmin olunmalıdır. Şuşada balneoloji mərkəzlər, kanat yolları potensialı vardır.

Şuşada turizm biznesinin potensialının artırılması və turizm müəssisələrinin fəaliyyətinin gücləndirilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

– turizmin inkişafı üçün konkret turizm layihələri hazırlanmalı və potensial investorlara təqdim olunmalıdır;

– regionda turizmin canlandırılması ilk 10 il üçün güzəştlər paketi hazırlanmalı, özəl turizm müəssisələrinə dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsi təmin edilməlidir.

Şuşada turizmin inkişafı ilə yanaşı ermənilər tərəfindən saxtalaşdırılan abidələrin də öz tarixlərinə qovuşması üçün tədbirlər görülməlidir. Ermənistanın işğalı nəticəsində talan edilmiş muzeylərin bərpası, yeni muzeylərin yaradılması, o cümlədən, Şuşada Azərbaycan ordusunun şanlı qələbəsini əks etdirən muzey kompleksinin təşkili əhəmiyyətli olardı.

**Ədəbiyyat siyahısı:**

1. Azmizam Abdul Rashid, Dahlia Rosly & Shamsaini Shamsuddin (2013). Revitalizing Urban Development in Malaysia through the Implementation of Urban Regeneration Programme.
2. Proceedings of Urban Affairs Association 43rd Annual Conference. Building the 21st Century City: Inclusion, Innovation and Globalization. April 3-6. San Francisco California. Urban Affairs Association. Universiti of Milwaukee.
3. Bassett, K. (1993). Urban Cultural Strategies and Urban Regeneration: A Case Study and
4. Critique. Environment and Planning, 1773-1788.
5. Bassett, K., Griffiths, R. and Smith, I. (2002). Testing governance: partnerships, planning and conflict in waterfront regeneration. Urban Studies, 1755-1777.
6. Bianchini, F. (1993b). Remaking European Cities: The Role of Cultural Policies. Manchester: Manchester University Press.

7. Bianchini, F., & Parkinson, M. (1993). Cultural Policy and Urban Regeneration: The West
8. European Experience. Manchester: Manchester University Press.
9. Brunei Darussalam Long-Term Development Plan: Wawasan Brunei 2035, Outline of
10. Strategies and Policies for Development (OSPD) 2007-2017, National Development Plan
11. (RKN) 2007-2012 (2007). Brunei Darussalam: The Government Printing Department, Prime Minister's Office.
12. Campbell, D. (2013). East Bay Bicycle Coalition: Oakland, Hayward Ready to Become
13. 'Green' Cities. Retrieved from https://www.ebbc.org
14. Cheung, S. C. H. (1999). The Meanings of a Heritage Trail in Hong Kong. Annals of Tourism Research, 570-588.
15. Colantonio, A., & Dixon, T. (2011). Urban Regeneration & Social Sustainability: Best
16. Practice from European Cities. Retrieved from
17. http://samples.sainsburysebooks.co.uk/9781444329452_sample_416350.pdf
18. Creswell, J. W. (2003). Research Design: Qualitative, Quantitative, and Mixed Methods
19. Approach. Thousand Oaks: SAGE Publications.
20. Department for Culture Media & Sport (DCMS). (2015). Official Statistics: Creative
21. Industries Economic Estimates January 2015 -Key Findings.
22. Douglass, G., & Ennis, N. (2011). Working Paper 48. Culture and Regeneration – What
23. Evidence is there of a Link and How can it be Measured? London: Greater London Authority Economic Revitalization Plan. (2011). Vancouver Agreement. Retrieved from
24. http://www.vancouveragreement.ca/wp-content/uploads/041100_dtesworkplan.pdf
25. Edmond, C. M. H. (2012). Renewing the Urban Regeneration Approach in Hong Kong.
26. Retrieved from http://ssweb.cityu.edu.hk/download/RS/EJournal/journal6.pdf
27. Ertan, T., & Egercioglu, Y. (2015). The Impact of UNESCO World Heritage List on Historic Urban City Centers and Its Place in Urban Regeneration: The Case of Melaka, Malaysia and Tire, Turkey. Procedia – Social and Behavioral Sciences, 591-602.
28. Fielden, B. M. (2003). Conservation of Historic Buildings (3rd ed). Oxford: Elsevier.
29. Francaviglia, R. V. (1996). Main Street Revisited. Iowa City: University of Iowa Press.
30. Galdini, R. (2007). Tourism and the City: Opportunity For Regeneration. International
31. Multidisciplinary Journal of Tourism, 2, 95-111.
32. Gehl, J., Gemzoe, L., Kirknaes, S., & Sondergaard, B. (2006). New City Life. Retrieved from http://www.pps.org/reference/howtorevitalizeacity/ Goksin and Muderrisoglu. (2005). Urban Regeneration: A Comprehensive Strategy for Creating Spaces for Innovative Economies. Proceedings at 41st Isocarp Congress, Istanbul.
33. Retrieved from http://www.isocarp.net/data/case_studies/619.pdf
34. Griffiths, R. (1995). Cultural Strategies and New Modes of Urban Intervention. Cities, 12(4), 253-265.
35. Hanaoke, K. (2007). Gentrification and Degentrification: A Case Study of Mount Pleasant
36. and the Woodland Cluster. (The American University). ProQuest Dissertations and Theses.
37. Retrieved from http://search.proquest.com/docview/304893634?accountid=14585.
38. Harvey, D. (1989). From Managerialism to Entrepreneurialism: The Transformation in
39. Urban Governance in Late Capitalism. Sweden: Geografiska Annaler, 3-17.
40. Harvey, D. (2001). Spaces of Capital: Towards a Critical Geography. New York: Routledge.
41. Hawkins, J. (2001). The Creative Economy: How People Make Money from Ideas. United
42. Kingdon: Allen Lane.
43. http://economics.com.az/index.php/kitabxana/bizim-s-rl-r/meqaleler/item/2070-zharabazhh-n-baerpa-vae-inkishaf-layihaelaeri-rezhionun-tarikhi-aenaenaelaerinae-vae-zhaelaedzaek-taelaebat-na-aesaslanmal-d-r.html
44. https://e-qanun.az/framework/41320
45. http://edf.gov.az/az/content/105

---

**Abdullayeva Fatimə Rəşid**
Biznes və Menecmet fakültəsi, Biznesin idarə edilməsi ixtisası, Qrup: 32
fatima-abdullayeva@unec.edu.az

## Qarabağ bölgəsində Şuşa şəhərinin rolu

*"Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa ,biz səni dirçəldəcəyik! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!*
*(Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev)*

Şuşa şəhəri Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşir. Şəhərin ərazisi dağlıqdır. Şuşa şəhərinin ən yüksək zirvəsi 2725 metr hündürlükdə yerləşən Böyük Kirs dağı göstərilir. Keçəldağ aşırımı da Şuşa rayonu ərazisindədir. Burada əsasən, Yura və Təbaşir çöküntüləri geniş yayılmışdır. Müxtəlif növ tikinti materialları yataqları və mineral su bulaqları (Turşsu, Şırlan) ilə zəngindir. Şuşa şəhərinin kənarında dərin Daşaltı dərəsinin yaxınlığında yerləşən Cıdır düzü xüsusilə məşhurdur. Cıdır düzündən aşağıda qırx pilləkan olaraq adlandırılan dik pilləli yol isə Daşaltı çayına aparır. Şuşa şəhərindən cənubda dəniz səviyyəsindən 1365 metr hündürlükdə yerləşən, uzunluğu 114 metr olan, əhəng daşları Triton əsrinə aid olan "Xan mağarası" 1992-ci ildə ermənilər tərəfindən darmadağın edilib. Şuşanın zəngin təbiətində Qafqaz qaş səhləbi və ya Xarıbülbülə, Şuşa vələsinə rast gəlmək olar.Şuşanın rəmzi olaraq sayılan xarıbülbül gülü ilə bağlı bir çox əfsanə və rəvayətlər də var. İqlim baxımından isə ərazisinin əksər hissəsi qışı quraq keçən mülayim isti və soyuq iqlim tiplərinə aid edilir. Orta temperatur yanvarda −4C-dən −1C-ə qədər, iyulda isə 16–19 °C, illik yağıntı miqdarı 700–800 mm qeyd edilib.

**MEMARLIQ:**

Şuşa şəhərinin memarlığı və memarlıq abidələri üzrə tədqiqatlar aparan Elturan Avalov şəhərin memarlıq-planlaşdırma inkişafını **üç mərhələyə** görə bölür:

**Birinci mərhələ** 1753–1754-cü illərdə Şuşa şəhərinin əsasının qoyulması dövründən başlayır. Həmin dövrdə Şuşa qalası, qala daxili qəsrlər və Xan sarayları inşa edilmiş, şərq sektorunun aşağı hissəsinin inşasına başlanılmış və 9 Aşağı məhəllə formalaşdırılmışdır.

**İkinci mərhələ** 1759–1806-cı illərdə İbrahimxəlil xanın hakimiyyəti dövrünü əhatə edir. Bu dövrdə şərq sektorunun yuxarı hissəsi inşa edilib və 8 Yuxarı məhəllə formalaşdırılıb.

**Üçüncü mərhələ** 1805-ci ildən Qarabağ xanlığının Rusiya imperiyasın ilə birləşdirilməsindən sonra şəhərin intensiv genişləndirilməsi ilə əlamətdardır. Bu dövrdə şəhərin qərb və yuxarı hissələri inşa edilmiş və bu ərazilərdə 12 məhəllə formalaşdırılmişdir.

Şuşanın Qarabağ müharibəsi işğalından əvvəl şəhərin ərazisi qədim abidələrlə zəngin idi. Ümumiyyətlə, şəhərdə ümumi uzunluğu 1203 metr daş döşənmiş küçələr, 549 qədim bina, 17 məscid, 17 məhəllə bulağı, 3 türbə, 6 karvansara, 2 qəsr, 2 mədrəsə və qala divarları mövcud idi. Həmçinin dövlət xadimlərinin və başqa tanınmış şəxslərin evləri, 72 mühüm sənət və tarixi abidələri olmuşdu. Bu abidələrin əksəri XIX əsrdə yaşamış memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən tikilmişdir. Şuşa 1977-ci ildə tarixi-memarlıq qoruğuna çevrilmişdi. Şuşa tarixi-memarlıq qoruğuna daxil olan abidələrə Qarabağ xan sarayı, Xan qızı Natəvanın evi, Mirzə Salah bəy Zöhrabbəyovun yaşayış evi, Vaqif türbəsi, Şuşa mağara düşərgəsi, Şuşa kurqanı, Şuşa qalası və s. qeyd edilib.

Həmçinin Şuşa Azərbayanın mədəniyyət paytaxtı olaraq da adlanır. Şuşa şəhəri Azərbaycanın ictimai-siyasi, tarixi-mədəni həyatının mühüm mərkəzlərindəndir. Ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 1977-ci ildə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Bu qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Azərbaycana qarşı başlanan hərbi təcavüz nəticəsində 1992-ci il 8 may tarixində Ermənistan Respublikası Şuşa şəhərini işğal etdi və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirdi.

Azərbaycan xalqının tarixinə 8 Noyabr 2020-ci il Zəfər Günü kimi qeyd olundu.

Azərbaycan ordusunun qeyri-adi hünəri, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və xalqımızın birliyi sayəsində Azərbaycanın "mədəniyyət paytaxtı" Şuşa 28 ildən sonra erməni işğalından azad olundu. Bununla "məğlubedilməz Ermənistan ordusu" mifi darmadağın oldu və düşmən diz çökərək kapitulyasiya aktını imzaladı.

Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyəri Şuşaya həssaslıqla və xüsusi qayğı ilə yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da genişləndirilməsi şəhərdə tarixi-mədəni irsin qorunub saxlanmasına və bərpasına xidmət etməklə yanaşı, onun daim inkişafın etməsinə şərait yaradacaqdır.

28 il bundan əvvəl dövlət rəhbərliyinin səriştəsizliyi və hakimiyyət davasının qurbanı olan torpaqlarımızın işğaldan azad edilməsi bütün dünyaya Azərbaycan həqiqətlərini sübut etdi. Bir sıra təşkilatlar, o cümlədən ATƏT- in Minsk qrupu belə fikir aşılayırdılar ki, Qarabağ məsələsi yalnız

danışıqlar yolu ilə həll oluna bilər. Lakin bu danışıqlar heç bir səmərə vermir, ermənilər vaxtaşırı atəşkəsi kobudcasına pozaraq tez-tez dinc əhalini və əsgərlərimizi qətlə yetirirdilər.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev 1993-2003-cü illərdə bu problemin siyasi yolla həlli istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirmişdir. Ulu öndər Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan Prezidenti ilə 25, ATƏT-in rəhbərliyi, Minsk qrupunun təmsilçiləri ilə 200-dən və 80 ölkənin dövlət başçıları ilə 500-dən çox, həmçinin işğal olunmuş rayonların ictimaiyyət nümayəndələri, qaçqın və məcburi köçkünlərlə 20-dən çox görüş keçirmişdir.

Məcburi köçkünlərin problemini özünün bir nömrəli problemi hesab edən Ümummilli lider qaçqınların sosial durumunun, yaşayış şəraitinin yaxşılaşması sahəsində genişmiqyaslı tədbirlər həyata keçirmişdir. Dövlət Neft Fondundan ayrılan vəsaitlə 18 şəhər və rayonda 25 qəsəbə, 400 min metr$^2$ mənzil sahəsi olan 6411 fərdi yaşayış evi, 18 uşaq bağçası, 3150 yerlik 18 məktəb, 2 tibb məntəqəsi, 2 xəstəxana tikilmiş, 197 km uzunluğunda asfalt yol, 350 km elektrik xətti, 170 km su xətti çəkilmiş və s. tədbirlər həyata keçirilmişdir. Məcburi köçkünlərin əksəriyyəti öz ata-baba yurdlarına yaxın yerlərdə məskunlaşmağı arzuladıqları üçün bir sıra rayonlarda onlar üçün yeni qəsəbələr, şəhərciklər salınmış, 31 500 məcburi köçkün evlə təmin edilmişdir. Bununla bağlı ötən 28 ildə Ağdamın işğal altında olmayan torpaqlarında 18 yeni qəsəbə salınaraq məcburi köçkünlərin ixtiyarına verildiyini qeyd etmək belə kifayətdir. Ulu öndərimiz tərəfindən başlanan və onun layiqli varisi İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu tədbirlər məcburi köçkünlərin həyat şəraitini xeyli yaxşılaşdırmağa kömək etsə də, vətənindən ayrı düşmüş soydaşlarımızın yurd həsrətinə son qoymadı. 2003-cü ildən etibarən hörmətli prezidentimiz İlham Əliyev məcburi köçkünlərlə hər görüşündə qətiyyətlə qeyd edirdi ki, siz öz doğma yurdunuza qayıdacaqsınız. İtirilmiş torpaqlarımızın geri qaytarılması dövlətimiz qarşısında həlli labüd olan bir problem kimi qalırdı və bu problem öz uğurlu həllini tapdı. Aprel döyüşlərində Cocuq Mərcanlıdan başlayan Böyük Qayıdış planı hazırda ən yüksək sürətlə davam etdirilir. İşğalından azad olunmuş ərazilərimizdə mənfur düşmənlər kəndlərimizi, şəhərlərimizi xarabalığa çevirmiş, bütün infrastrukturu məhv etmuşdir. Ən böyük problemlərdən biri də düşmənin hər addımbaşı torpağa basdırdığı mina xəritələrinin əlimizdə olmamasıdır.

AR Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə qeyd edildiyinə görə, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə qərara alıram:

1. Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***<br>
*Azərbaycan Respublikasının Prezidenti*<br>
*Bakı şəhəri, 7 may 2021-ci il*

Lakin dost ölkələr, ilk növbədə qardaş Türkiyə olmaqla, İtaliya, Pakistan, Belorus və s. elektrik stansiyalarının və kommunikasiya xətlərinin quraşdırılmasında, yeni yolların çəkilməsində, müasir standartlara uyğun tikinti və abadlaşdırma işlərində Azərbaycana yardım göstərmək haqqında öhdəliklər bunu göstərir ki, tezliklə Qarabağa böyük bir axın başlayacaq. Qayıdanlar arasında təkcə yaşlı nəsil yox, bu yurdu özünə vətən hesab edən hər kəs, o cümlədən gənclər öz ata-baba yurduna dönməyi, Qarabağda yeni bir cənnət yaratmağı arzulayırlar.

Bu gün Qarabağın yenidən dirçəldilməsi, orada müasir yaşayış komplekslərinin-ağıllı şəhər və kəndlərin salınması, məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması dövlətimizin qarşısında duran ən vacib məsələlərdəndir.

"2021-2025-ci illərə dair sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanması məqsədilə işğaldan azad olunmuş ərazilərə böyük qayıdış üzrə dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya üzrə alt İşçi Qrupu yaradılıb.

Azərbaycan Prezident Aparatının verdiyi məlumata görə, bu , Baş Nazir Əli Əsədovun "Azərbaycan 2030 sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında " Azərbaycan Prezidentinin 2 fevral 2021-ci il tarixli 2469 nömrəli Sərəncamında əksini tapıb. Sərəncamda Qarabağda görüləcək işlərlə bağlı İşçi qrupu yaradılmış və bu qrupun görəcəyi işlər

müəyyən edilmişdir. Sərəncama görə, logistikanın və infrastruktur təşkili Qarabağa qayıdışı sürətləndirəcək mühüm amil hesab olunur.

Azərbaycan Prezidenti Azərbaycan Diplomatik Akademiyasında (ADA) keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" konfransında Qarabağda mövcud vəziyyət və perspektiv planlarla bağlı geniş məlumatlar verərək qeyd etmişdir ki, biz məcburi köçkünləri mümkün qədər tez köçürmək istəyirik. Lakin biz indiki şəraitdə əhalini həmin yerlərə köçürə bilmərik. Bu məsələ ilə bağlı dəqiq vaxt demək çətindir. Böyük ehtimalla qayıdış gələn ildən başlayacaq və mərhələlərlə icra ediləcək. Füzuli, Ağdam və Cəbrayılda kommunikasiya xətləri, elektrik, su çəkmək daha asandır. Eyni zamanda biz Laçında hava limanı inşa etməyi düşünürük. Çətin dağ yollarında isə bizə çoxlu tunellər çəkmək lazımdır.

Qarabağın işğaldan azad edilməsi xalqımızın son 200 ildə əldə etdiyi ən böyük tarixi qələbədir. Doğrudur, işğaldan azad edilmiş ərazidə yeni ,müasir yaşayış kompleksləri inşa etmək, infrastruktur və iş yerləri yaratmaq çox böyük vəsait və zəhmət tələb edir. Bununla belə, şübhəsiz ki, bu qələbə Azərbaycan iqtisadiyyatına, sənaye və kənd təsərrüfatına, ticarətinə böyük imkanlar açacaq.

Qarabağın işğaldan azad edilməsi respublikamızın aşağıdakı sahələrdə inkişafına təkan verə bilər:

1. Son statistik məlumata görə, Azərbaycanda məcburi köçkün və qaçqınların sayı 1 milyon 200 min nəfərdir və onların ehtiyacları üçün dövlət tərəfindən təxminən 8 milyard manatdan çox

vəsait sərf olunub. Əhalinin öz doğma torpaqlarında məskunlaşması dövlətin bu sahəyə çəkilən xərclərini azaltmaqla həmin vəsaiti digər sahələrə yönləndirmək olar.

2. Qarabağda su mənbələri və münbit torpaqlar kənd təsərrüfatının inkişafına və beləliklə kənd təsərrüfatı məhsullarının bolluğuna gətirib çıxarır ki, buda kənd təsərrüfatı məhsullarının ixracının ölkəyə gələn gəlirin artmasına imkan yaradar.

3. Məcburi köçkünlərin öz vətənlərinə dönməsi iri şəhərlərdəki, ilk növbədə Bakıda ki əhali sıxlığına görə yaranan bir sıra problemlərin həllinə imkan yaradar.

4. Qarabağın əsrarəngiz təbiəti, müalicəvi suları, saf havası burada turizmin inkişafına, sanatoriya və kurortun inkişaf etdirilməsi ilə xarici və yerli vətəndaşların burada dincəlməsinə və müalicə olunması imkan yaradar ki, bu da ölkəmizin vəsaitlərini artırar.

5. 2020-ci il 10 noyabr tarixində Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən imzalanan bəyanata əsasən, Zəngəzur dəhlizindən keçən dəmiryolu və maşın yolu Azərbaycanla Türkiyə arasında, həmçinin Şərqlə Qərbi birləşdirən ən mühüm nəqliyyat dəhlizi kimi böyük əhəmiyyət kəsb edəcək.

Şübhəsiz ki, ermənilərin 30 ildə qurduğu istehkamları, keçilməz hesab etdikləri sədləri 44 gündə darmadağın edən Azərbaycan xalqı qısa müddətdə işğaldan azad edilmiş ərazilərdə ən müasir standartlara uyğun infrastruktur yaradacaq, əhali illərlə həsrətində olduğu doğma torpaqlarına qayıdaraq "cənnət" Qarabağımızda bizim nəyə qadir olduğumuzu bütün dünyaya göstərəcəkdir.

**ŞUŞA BƏYƏNNAMƏSİ:**

Artıq Azərbaycan və Türkiyə arasında münasibətlər sadəcə iki qardaş xalqın arasında uzun illər ərzində formalaşmış dostluq əlaqələrini əks etdirmir. Bu gün Azərbaycan-Türkiyə strateji müttəfiq olduqlarını bütün dünyaya nümayiş etdirirlər. Qeyd edək ki, Şuşa Bəyannaməsinin imzalanması ölkələrimiz arasında müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri beynəlxalq hüquqa uyğun qaydada tam rəsmiləşdirilmişdir. Əlbəttə ki, bu çox böyük tarixi nailiyyətdir. Əslində Şuşa Bəyannaməsi Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" ifadələrinin strateji müttəfiqlik konsepsiyasına çevrilməsini əks etdirir. Bundan sonra Azərbaycan və Türkiyə ordu quruculuğu işində və müdafiə sənayesi sahəsində daha sıx əməkdaşlıq edib, bir-birinin təhlükəsizliyini təmin edəcəklər. Bununla da həm Azərbaycanın, həm də Türkiyənin hərbi qüdrəti getdikcə daha çox təkmilləşəcək. Həmçinin ölkələrimiz arasındakı müttəfiqlik münasibəti siyasət, iqtisadiyyat, beynəlxalq müstəvidə birgə əməkdaşlıq, enerji təhlükəsizliyi, təhsil, nəqliyyat, mədəniyyət və bütün digər sahələri də əhatə edir. Təbii ki, Şuşa Bəyannaməsi iki ölkə arasındakı əməkdaşlıq çərçivəsində həm də iqtisadi hədəfləri nəzərdə tutur. Bu gün ölkəmizin işğaldan azad edilmiş ərazilərdə geniş miqyasda apardığı bərpa-quruculuq işlərində qardaş ölkə Türkiyənin rolu xüsusilə böyükdür. Həmçinin Şuşa Bəyannaməsinin faktiki olaraq Cənubi Qafqazda davamlı sülhün və sabitliyin təminatçısı olaraq çıxış etməsi regionun iqtisadi inkişafı baxımından çox əhəmiyyətli məqamdır. Belə ki, Azərbaycan və

Türkiyənin müttəfiq olaraq Cənubi Qafqazda əsas söz sahiblərinə çevrilmələri bu regiona investisiya qoyuluşun artımına imkan yaradır. Beləliklə bölgəyə və xüsusilə də Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə yeni sərmayə qoyuluşu prosesinə təkan verir. Nəticədə regionda getdikcə artan investisiya potensialı bu ərazilərdə daha mütərəqqi və səmərəli iqtisadi münasibətlərin formalaşmasını təmin edir.

Azərbaycanın Vətən müharibəsi nəticəsində əldə etdiyi tarixi Qələbə əsasında Cənubi Qafqazda yaratdığı yeni geosiyasi reallıqların heç bir qüvvə tərəfindən təhrif olunmasına icazə verilməyəcək. Bütün dünyaya ünvanlanan bu ciddi mesaj da Şuşa Bəyannaməsində Azərbaycanın müəllifi olduğu beynəlxalq yol-nəqliyyat layihələri ilə bağlı müddəaların yer almasında öz əksini tapıb. Həmçinin Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı son dərəcə açıq məlumatlarda öz əks olunub. Bu gün artıq Azərbaycan tərəfindən ölkəmizi Türkiyə ilə dəmiryolu və avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizinin yaradılması istiqamətində bir sıra işlər yerinə yetirilib və hal-hazırda da bu işlər davam etdirilir. Zəngəzur dəhlizi xüsusi geosiyasi əhəmiyyət kəsb edən beynəlxalq nəqliyyat layihəsidir və bu layihə ən qısa müddətdə reallaşdırılacaq. Beləliklə Şərqdən Qərbə hər kəsin istifadə edə biləcəyi yeni bir ortaq iqtisadi dəhliz yaradılacaq.

***Əsirlikdə olan mədəniyyət şəhərimiz Şuşa "BİZ QAYITDIQ"***

---

**Qasımova Röya**
Bakı Ali Neft Məktəbi, Biznesin idarə edilməsi, Qrup-BBA-21.1
roya.gasimova.std@bhos.edu.az

## Şuşanın sosial-iqtisadi dirçəldilməsi - Azərbaycan tərəqqisinin yeni zirvəsidir

*Şuşa... Hər birimizin döyünən ürəyi, ən əziz, ən doğma məkan.*

Əsası 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan bu şəhər həm strateji, həm ticari, həm də mədəni cəhətdən ən qədim zamanlardan həmişə diqqət mərkəzində olmuş və inkişaf etdirilmişdir. "Qafqaz" qəzetinin icmalçısının da dediyi kimi, "Şuşa gündən-günə yox, saatdan-saata böyüyür".

Ötən əsrin 70-ci illərində bu vəzifəni Ulu Öndərimiz Heydər Əliyev öhdəsinə götürüb və layiqincə yerinə yetirmişdir. Dahi rəhbərin 1970-ci ildə çoxmərtəbəli yaşayış binalarının, böyük mehmanxana komplekslərinin inşa edilməsi haqqında qəbul etdiyi xüsusi qərar, 1975-ci ildə şəhərdəki "Qala divarları"nın bərpası üçün vəsait ayrılmasını tapşırması onun Şuşaya - Qarabağın incisinə verdiyi dəyərin sübutudur. Heydər Əliyevin fikrincə, Şuşasız Qarabağ, Qarabağsız, ümumiyyətlə, Azərbaycan yoxdur.

Təəssüflər olsun ki, bu cür strateji əhəmiyyətə malik olan şəhər mənfur düşmənin diqqətindən də yayınmadı, 1992-ci il mayın 8-i - Şuşanın işğalı günü tariximizə qara hərişlərlə yazıldı. Ermənistan Silahlı Qüvvələri günahsız soydaşlarımızı qətlə yetirməklə, onları yurdlarından didərgin salmaqla kifayətlənməyib, dini, tarixi mədəni abidələrimizi, kinoteatrları, muzeyləri talan edib, bir sözlə, bütün dünyada kəskin şəkildə tənqid edilən vandalizm aktları törətdilər.

30 ilə yaxın Şuşa həsrəti igid əsgərlərimizin öz canı bahasına döyüşdüyü "44 günlük" müharibə dövründə 2020-ci il noyabrın 8-də, nəhayət ki, sona çatdı və həmin gün tariximizə "Zəfər günü" kimi həkk olundu. Ali Baş Komandanımız İlham Əliyevin də dediyi kimi:

**"Əziz Şuşa, sən azadsan!**
**Əziz Şuşa, biz qayıtmışıq!**
**Əziz Şuşa, biz səni dirçəldəcəyik!"**

Şəhərin azad edilməsindən dərhal sonra bərpa, quruculuq işləri başladı. Bu günə qədər çox qısa zaman keçsə də, doğma şəhərimiz gözlə görüləcək dərəcədə abadlaşdırılışmışdır. Bunun əsas səbəbi Şuşanın Azərbaycan Respublikasının iqtisadi inkişafı üçün əlverişli amillərə-təbiətə, tarixi abidələrə, dünyaca tanınmış görkəmli şəxslərə malik olmasıdır. Ekspertlərin proqnozuna görə çoxsaylı tədbirlər sayəsində ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa nəinki Azərbaycanın,türk dünyasının, Qafqaz coğrafiyasının, eləcə də dünyanın turizm mərkəzlərindən biri olacaq. Hətta qardaş ölkə Türkiyə Cümhuriyyətinin prezidenti – Rəcəb Tayyib Ərdoğan da Türkiyə Böyük Millət Məclisindəki qrup

toplantısında çıxışı zamanı Qarabağda və Şuşada ciddi "turizm partlayışı" baş verəcəyini bildirmişdir.

Dövlət Turizm Agentliyinin məlumatına görə, onların ilk prioritet istiqamətləri Şuşada festivallar və mədəniyyət tədbirlərinin keçirilməsidir. Həmin festivallardan biri "Xarıbülbül musiqi festivalı"dır. "Xarıbülbül musiqi festivalı" 1989-cu ildən "Şərq musiqisinin incisi" adlandırılan Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar "təbiətin möcüzəsi" kimi tanınan Cıdır düzündə keçirilməyə başlamışdır. Festival Şuşanın işğalına qədər hər il may ayında müxtəlif ölkələrin-Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, İtaliya, İspaniya, Avstriya iştirakı ilə keçirilmişdir. Hal-hazırda "Xarıbülbül festivalı" Azərbaycan prezidenti İlham Əliyevin 2021-ci il 7 may sərəncamı ilə bərpa olunmuş və artıq 2 dəfə 2021-ci il may ayının 12-13-də, 2022-ci il may ayının 12-14-də keçirilmişdir. Digər bərpa olunan mədəniyyət tədbiri isə "Vaqif poeziya günləridir". Böyük qayıdışın təntənəsi sayılan bu tədbir 39 ildən sonra 2021-ci il yanvarın 14-də Molla Pənah Vaqifin məqbərəsi qarşısında keçirildi. O Molla Pənah Vaqif ki, Şuşada yaxşı müəllim, istedadlı şair kimi tanınıb, Azərbaycanın Səməd Vurğun kimi görkəmli şairinə ilham mənbəyi olmuşdur. Hər iki tədbirdə turistlər, xarici iştirakçılar iştirak etmişdir ki, bu da Şuşamızın dünya səviyyəsində tanınmasında mühüm rola malikdir.

Əgər Şuşanın, bu əsrarəngiz şəhərin turizm potensialından danışılırsa, onun təbiətinə - yaşıl meşələrinə, müalicəvi xüsusiyyətli olan mineral su bulaqlarına mütləq nəzər yetirilməlidir. "Təbiətin ruha lay-lay dediyi şəhər" kimi də adlanan Şuşa qeyri-adi gözəllliyi ilə ölkəmizin dilbər guşələrindən biridir. Ərazisinin 20 faizi "dünyanın ağciyərləri" sayılan meşə zolaqları ilə örtülən Şuşanın heyvanat və bitki aləmi olduqca zəngindir. Qarabağ tarixinin tanınmış tədqiqatçısı Vasif Quliyevin də dediyi kimi, "İlin bütün fəsillərində yaşıl donunu əynindən çıxarmayan Şuşa meşələri sanki bir kəmər kimi qalanın belinə dolanaraq onun füsünkarlığını birə min artırır". Burada yerləşən Armudlu, Əylis, Malıbəyli, Şırlan və digərləri kimi meşələr bu yerlərə dünyanın heç bir yerində rast gəlinməyən gözəllik verir. Aralarında nadir sərvət sayılan Çaxmaq meşəsinin adının hekayəsi çoxmaraqlıdır. Keçmişdə meşənin yuxarı hissəsindəki qaya daşlarını bir-birinə sürtməklə qığılcım əldə edilir, ondan od alınırdı. Həmin sahədə çoxlu miqdarda çaxmaq daşı var idi, meşənin adının Çaxmaq olması məhz burdan qaynaqlanırdı. Şuşa meşələri təbii halda bitən, nadir ağaclarla-söyüd, gərməşov, dəmirağacı, saqqızağacı, havanı zəhərli bakteriyalardan təmizləyən ardıc, qara rəngə çalan şam, küknar, soyuğa çox davamlı qovaq, 1000 ilədək yaşayan palıd zəngindir. Həmin ağaclar sayəsində Şuşanın havası hər zaman təmiz olmuşdur. Təsadüfi deyil ki, bəzi yerli mütəxəssilər Şuşada yaşayanların ürək-damar xəstəliklərindən az əziyyət çəkdiklərini iddia edirlər. Ancaq, təəsüflər olsun ki,30 ilə yaxın işğal dönəmində Şuşa meşələri ermənilər tərəfindən dünyada istifadəsinə qadağa qoyulmuş ağ fosfor bombalarına hədəf olub böyük yaralara məruz qalmışdır. Hal-hazırda isə dövlətimiz qarşımızda duran Şuşanın təbiətinin bərpa edilməsi vəzifəsi üçün effektiv üsullar araşdırır. Millət vəkili Elnur Allahverdiyevin fikrincə, həmin üsullardan biri Şuşanın "ekoloji şəhər" elan edilməsidir. Onun fikrincə, ikinci bir Şuşa yoxdur və heç vaxt da olmayacaqdır, Şuşa bizə təbiətin əmanətidir, bu əmanətə sahib çıxmaq, onu qorumaq lazımdır. Məhz buna görə də o, "ekoloji şəhər" proqramının bu şəhərin təbiəti və ekologiyası üçün mühüm olduğunu düşünür.

Tektonik cəhətdən aktiv zonada yerləşən Şuşa müalicəvi xüsusiyyətli mineral su bulaqları ilə də zəngindir. Hətta XVIII-XIX əsrdən Şuşanı kurort şəhərinə çevirmək ideyası irəli sürülmüşdür. Şəhərdən cənubda, 18 kilometr aralıda yerləşən Turşsu deyilən yerdə çıxan mədən suyu ürək-damar sisteminin, mədə və bağırsaqların fəaliyyəti üçün faydalıdır. Elə həmin dövrdə həmin yerdə müalicə otaqlarından, su vannalarından ibarət hamam da tikilmişdi.Şuşa sovet dövründə də ümumittifaq kurortu kimi tanınırdı. Gələcəkdə ehtimal olunur ki, Şuşa bərpasından sonra Naftalan sanatoriyası, Duzdağ Fizioterapiya mərkəzi kimi ölkəmizdə sağlamlıq turizmin-hal-hazırda dünyada ən çox yayılan turizm tipinin inkişafında mühüm rol oynayacaq.

Şuşa deyəndə ağla gələn digər bulaq isə İsa bulağıdır. Yerli məlumata görə, Qarabağ silsiləsində, dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşən İsa bulağı 18-ci əsrdə ilk dəfə onu qalın meşəlikdə üzə çıxarmış İsa adlı biçinçinin adı iə bağlıdır. El arasında deyirdilər ki, İsa bulağında olmayan Şuşada da olmayıb. Poetik mənzərəli bu bulaq neçə-neçə musiqiyə, hekayəyə ilham mənbəyi olmuşdur.

Şuşa təkcə təbiəti ilə deyil, həmçinin öz memarlıq abidələri ilə də özünə heyran qoyurdu. Hətta Avropada belə bir fikir də yayılmışdı ki, əgər bu şəhərin təbiəti Allah vergisidirsə, onu əzəmətli,

vüqarlı edən abidələrini də məhz şuşalılar yaratmışdı. Vaxtilə Heydər Əliyev tərəfindən "Abidələr şəhəri" adlanan Şuşada 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcuddur. O cümlədən,72 mühüm sənət və tarixi abidələri, dövlət xadimlərinin və başqa tanınmış şəxslərin evləri olmuşdur. Şuşada qədim məscidlər də xüsusi yer tuturdu. Onlardan 19-cu əsrdə İbrahimxəlil xanın qızı Gövhərağanın sifarişi ilə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilən Yuxarı Gövhərağa və Aşağı Gövhərağa məscidləri öz görkəmləri ilə fərqlənir. Memarlıq üslubu ilə yanaşı minarələri də diqqət çəkən bu məscidlər erməni təcavüzü nəticəsində dağılmağa məruz qalmışdır. Ancaq, 2021-ci il yenidən təməli qoyulan məscidin ümumi görünüşü şəhərin azad olduğu günün - 8 noyabr tarixinin şərəfinə səkkiz rəqəmini, minarələri isə on biri xatırladacaq.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya mərkəzinin icraçı direktoru Vüsal Qasımlı memarlıq abidələrinin Şuşada mədəni turizmin inkişafı üçün böyük amil olduğunu demişdir. O, nitqində, xüsusilə, Xurşidbanu Natəvanın evini vurğulamışdı. Həmin Xurşidbanu Natəvanın evi ki, 1932-ci ildə Şuşanın görkəmli, istedadlı şəxslərindən olan Bülbülün təşəbbüsü ilə Şuşa Musiqi Məktəbi, 1987-ci ildə Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin filialı olmuşdur. Digər abidələr kimi vandalizm aktını məruz qalan "Xan qızı"nın evində hal-hazırda abadlıq işləri aparılır.

Qarabağın tacı olan, "Kiçik Paris", "Qafqaz sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan Şuşa eləcə də bir sıra görkəmli şəxsin vətəni olmuşdur. Necə deyərlər, Şuşa böyük sənətkarlar yetişdirib. Onlara Azərbaycanın, Şərqin ilk operasının banisi, milli bəstəkarlıq məktəbinin təməlini qoyan Üzeyir Hacıbəyovu (Hacıbəyli), opera müğənnisi, Azərbaycan professional vokal sənətinin banisi, mahir təsnif ifaçısı, "Bülbül" kimi tanınan Məmmədov Murtuzanı, bəstəkar, dirijor, Süleyman Ələsgərovu və digərlərini misal çəkmək olar. Onların hər birinin adının yaşadılması kimi bir vəzifəsini dövlətimiz layiqincə yerinə yetirir. 1985-ci ildə Üzeyir Hacıbəyov ucadılmış abidəsi erməni işğalı nəticəsində dağıdılmış,ancaq şəhər azad ediləndən sonra yenidən bərpa edilmiş, 2021 ci il avqustun 29-da rəsmi açılışı olmuşdur.

2021 avqustun 29-u yalnız Üzeyir Hacıbəyovun abidəsinin açılması ilə deyil, Şuşada "Qarabağ" hotelinin açılışı ilə də yadda qaldı. 1980-ci ildə inşa edilən hotelin binası 1992-ci ilin may ayında Şuşa şəhərinin işğalı nəticəsində öz fəaliyyətini dayandırıb və bu 30 ilə yaxın müddətdə tamamilə yararsız vəziyyətə düşüb. Şəhər azad edildikdən sonra 2021-ci ildə Prezident İlham Əliyevin tapşırığına əsasən, hoteldə təmir-bərpa, yenidən qurma işləri həyata keçirilməyə başladı. Burada Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün hər cür şərait-müxtəlif kateqoriyalı otaqlar, restoran, bar, işgüzar görüşlərin və tədbirlərin keçirilməsi üçün konfrans otağı, avtomobil dayanacağı yaradılıb. "Otel və Konfrans Mərkəzi"nin yaranmasının əsas səbəblərindən biri onun coğrafi mövqeyidir. Qədim dövrdə Şuşa Böyük İpək Yolunun əsas qovşaqlarından biri idi, Avropa və Şərq şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırdı. Bu şəhərlərdən davamlı gəlib-gedən tacirlərin gətirdikləri malları saxlamaq üçün karvansaralar tikilirdi. Karvansara konseptini əsas götürərək, Şuşa şəhərinin mərkəzində "Otel və Konfrans Mərkəzi" tikildi. Təkcə turizm üçün deyil, digər sahələr üçün də əlverişli olan bu şəhər onun dirçəldilməsinin nə qədər vacib bir məsələ olduğunu bizə bir daha sübut edir. Digər sahə dedikdə nəzərdə tutulanlardan biri kənd təsərrüfatıdır. Şuşada qədim zamanlardan heyvandarlıq inkişaf etmişdir. Firudin bəy Şuşinskinin dediyinə görə, Şuşada 234 min baş ev heyvanı olmuşdur,onların içərisində Qarabağ cinsindən olan qoyunlar xüsusilə seçiliblər, həmin qoyunların yunundan xalçaçılıqda istifadə edilirmiş. Şuşa dağlıq ərazidə yerləşdiyindən mal-qara üçün yaylaq rolunu oynayırdı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycandan səfərdən qayıdarkən jurnalistlərin suallarını cavablarkən bildirmişdi ki, Türkiyə ilə Azərbaycan arasında "ağıllı aqropark" deyilən sahədə əməkdaşlıq intensiv şəkildə həyata keçirilir. Hal-hazırda minalardan təmizlənmiş ərazilərdə heyvandarlıq üçün işlər başlayıb. Məlumata görə artıq 5-10 min baş iribuynuzlu heyvanın ora aparılması planlaşdırılıb. Bu da öz növbəsində ət idxalımızı minimuma endirəcək. Nəinki mal-qara, eləcə də subalp,alp təbii zonalarında yerləşdiyindən bu ərazidə arıçılığın inkişafı üçün də potensial var.

Kənd təsərrüfatının digər sahəsi bitkiçiliyə gəldikdə isə 1986-cı il statistikasına əsasən Şuşada o zamanlar 3,4 min ha əkin sahəsinin 41%-ə dənli və dənli-paxlalı bitkilər (buğda,arpa,qarğıdalı), 6%-də tərəvəz-bostan bitkiləri və kartof, 53%-də yem bitkiləri əkilirdi. Həmçinin meyvəçilik də inkişaf etmişdir. Həmin meyvələrə Şuşa meşələrində rast gəlinən gilas,nar,qarağat,böyürtkən,moruq kollarını,alma,xüsusi qulluq tələb etməyən sulu və şirin olan armudu,ənciri,tutu misal çəkmək olar. Eləcə də, Şuşa qozu, fındığı, süddən səkkiz dəfə qidalı, "gələcəyin çörəyi" adlandırılan qırmızımtıl

fıstığı ilə də məşhurdur. Bu məlumatlar əsasında deyilə bilər ki, əgər düzgün siyasət yeridilsə, Şuşa Azərbaycanda kənd təsərrüfatının inkişafında birinci yeri tutan bölgələrimizdən ola bilər.Ancaq ilk öncə,uzun illər istifadəsiz qalan torpaq sahələrinin yararlı hala gətirilməsi,deqradasiya proseslərinin aradan qaldırılmasına paralel olaraq meliorasiya və irriqasiya sistemlərinin qurulması olduqca vacibdir. Sonrakı mərhələdə isə torpaqların uçotu aparılmalı, kateqoriyaları hazırlanmalı, əkin, örüş və otlaq sahələri müəyyənləşdirilməlidir. Şuşanın Azərbaycan Respublikasının tərəqqisində danılmaz rola malik olacağı digər istiqamət isə ölkəmizdə əhali və onun yaşayış səviyyəsi ilə bağlıdır. Bildiyimiz kimi,bədxah qonşularımızın işğalından sonra doğma yurdundan didərgin düşmüş insanlar müxtəlif bölgələrdə məcburi köçkün kimi yaşamağa başlamışdır. Bərpa işləri və burada Azərbaycan Respublikasının iqtisadiyyatını inkişaf etdirmək üçün yerinə yetirilməsi planlanan layihələr sayəsində yeni iş yerləri yaradılacaq,bu da öz növbəsində həm regionda, həm də ölkəmizdə işsizlik səviyyəsini azaldacaq, iş yerlərinin açılması, vətəndaşların gəlir əldə etməsi onların yaşayış standartların yüksəldəcək. Digər bir müsbət cəhət isə burada tətbiq olunması planlanan “Ağıllı kənd” layihəsidir. Əhalini robotlaşdırılmış texnika, kommunal xidmətlərə fasiləsiz çıxış, elektron təhsil, elektron tibb, alternativ enerji, elektron ticarət və nəqliyyatla təmin edən bu kəndlər adi kəndlərdən daha üstün sayılır. Bu layihənin əsas məqsədləri təkcə vətəndaşların rifah səviyyəsin yüksəltmək deyil,həmçinin insanları “şəhərə qaçmaqdan” uzaqlaşdıracaq və hər bir bölgəmizin eyni sürətlə inkişafına, daha aydın deyilsə, ölkəmizdə sənaye sahələrinin Abşeronda təmərküzləşməsinin qarşısını alacaqdır. Bütün bu faktlar, fikirlər Şuşanın, doğrudan da, vətənin göz nuru olduğunu bir daha göstərir. Onu azad etmək ,bizi qalib xalq etmək üçün neçə-neçə igid oğlumuz şəhid oldu. Vətən oğullarının bizə əmanət qoyub getdiyi torpaqları qoruyub ailələrinə sahib çıxmaq, onlara daha gözəl həyat bəxş etmək bizim şəhidlərimiz qarşısında ən böyük vəzifəmizdir. Biz Şuşanı gündən-günə inkişaf etdirməli, bütn dünyaya Şuşanın Azərbaycansız ola bilməyəcəyini sübüt etməliyik. Məmməd İsmayılın da öz şeirində dediyi kimi:

*“Yurdun sinəsində Şuşa ürəkmiş*
*Yaşaya bilərmi ürəksiz ölkə?!”*

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikası Prezident İşlər İdarəsi Prezident Kitabxanası Azərbaycan tikinti kompleksinin ensiklopediyası
2. “Azərbaycanın Elm və Mədəniyyət Mərkəzi-Şuşa”Mövzusunda Beynəlxalq Elmi Konfransın Materialları
3.az.wikipedia.az
4. kaspi.az
5.abc.az
6.virtualkarabahk.az
7.dunya.az
8.vergiler.az
9.fed.az
10 azertag.az

---

**Qasımova Səadət**
Naxçıvan Dövlət Universitetinin Magistratura üzrə
“Gənclərlə iş” ixtisaslaşması üzrə magistrantı
seadetqasimova@gmail.com

## Şuşanın sosial-iqtisadi dirçəlməsi – Azərbaycan tərəqqisinin yeni zirvəsidir

### Xülasə

Məqalədə Şuşa şəhərinin sosial-iqtisadi inkişafını təmin etməyin yolları və bu inkişafın ümumilikdə Azərbaycanın iqtisadi inkişafında əhəmiyyəti araşdırılmışdır. Sosial-iqtisadi inkişafın makroiqtisadi səviyyədə önəmi bu inkişafın həm sosial, həm də iqtisadi tərəflərinin nəzəri cəhətdən əsaslandırılması ilə yanaşı onun praktiki baxımdan əlverişliliyi ilə də ölçülə bilər. Yeni inkişaf strategiyalarının tədqiq edilməsi və tətbiqi, innovativ texnoloji yeniliklərdən hərtərəfli istifadə

edilməsi və bütün bunların insanların həyat keyfiyyətini yüksəltməyinə nail olunması burada prioritet məsələlərdəndir. Məqalədə müəllifin fikirləri əks etdirilmiş, sonda isə bir neçə təklif irəli sürülmüşdür.

**Giriş**

Sosial-iqtisadi inkişaf müxtəlif ədəbiyyatlarda təkmilləşmə prosesinin sosial-iqtisadi sahədə təzahürü olaraq dəyərləndirilir. Digər inkişaf xüsusiyyətləri kimi, sosial-iqtisadi inkişafın da təyin edilməsi və qiymətləndirilməsi üçün müəyyənləşdirilən bir sıra göstəricilər vardır. Bu göstəriciləri aşağıdaki kimi qruplaşdıra bilərik:

- Cəmiyyətin ümumi həyat keyfiyyəti
- Asudə vaxt
- Sosial ədalət
- Ətraf mühitin mühafizəsi
- İnsanların malik olduqları imkanlar və s.

**Şuşa şəhərinin sosial-iqtisadi tərəqqisi**

Qarabağ iqtisadi rayonunun tərkibində yerləşən Şuşa şəhərinin sosial-iqtisadi tərəqqisi üçün də bu göstəricilərin nəzərə alınması və praktiki olaraq tətbiq edilməsi prioritet istiqamətlərdən olmalıdır. Bu məqamda, Şuşa şəhərinin sosial-iqtisadi inkişafını təhlil etmək üçün bu inkişafın iki əsas istiqamətdə həyata keçirildiyini diqqətdə saxlamaq önəmlidir:

1. İqtisadi inkişaf – onun əsas məqsədi insan inkişafının ən yüksək səviyyəsinə nail olmaq məqsədi ilə bütün fərdlərin və sosial institutların sosial və maddi rifahını yaxşılaşdırmaqdır. Əksər tədqiqatçılar öz araşdırmalarında Sosial-iqtisadi inkişafa iqtisadi və sosial inkişafın məcmusu kimi yanaşaraq bu iki anlayışın bir-birindən ayrı təhlil edilməməli olduğunu vurğulayırlar. Bu mənada iqtisadi inkişafı şərtləndirən amilləri təhlilini aparakən buna diqqət etmək vacib məqamlardan biridir. Sosial və iqtisadi həyatın keyfiyyətindəki irəliləyiş yalnız hüquqlara əsaslanan və təbii mühitə minimal təsir göstərdiyi, qorunduğu və ya yaxşılaşdırdığı halda irəliləyiş kimi qəbul edilməlidir.
2. Sosial iş – burada əsas məsələ sosial həyata təsir edən bir çox sahənin tədqiqatlarından əldə edilən nəticələrin təhili və onların praktikada tətbiqi yollarının araşdırılması kimi məqamlar öz əksini tapmış olur.

Mövcud sosial-iqtisadi probelmləri aradan qaldırmaq üçün sistematik olaraq həyata keçirilməli olan bir sıra addımlar var ki, onları aşağıdaki kimi göstərə bilərik:

- müəyyən dərəcədə islahatlara əsaslanan dərin köklü sosial-iqtisadi institutların mövcudluğu;
- əhalinin sosial ehtiyaclarını koordinasiya edə bilən vətəndaş cəmiyyəti institutlarının mövcudluğu.

Ümumi sosial-iqtisadi inkişaf nəzəriyyəsinin məqsədi xarici və daxili siyasi və iqtisadi qarşılıqlı təsir sferaları da daxil olmaqla, insan icmalarının quruluşunun strukturunu və dəyişikliklərini izah etməkdir. Təhlillərimiz göstərdi ki, yalnız coğrafi və ya institusional və ya mədəni amilləri nəzərə alaraq bu vəzifəni həll etmək cəhdləri uğur gətirmir. Üstəlik, yuxarıda qeyd edildiyi kimi, inkişafı yalnız geniş ictimaiyyətin iqtisadi ehtiyaclarının dərəcəsini səciyyələndirmək yolu ilə öyrənmək səmərəsizdir, çünki sosial ehtiyacların qarşılanmasının ümumi qitisadi inkişafa ən az digər amillər qədər təsiri vardır. Fərdlər və onların icmaları arasında qarşılıqlı əlaqə mexanizmlərinin təkamülünün daha yaxşı diferensiallaşdırılmış təhlilinə ehtiyacımız var.

**Regional sosial-iqtisadi inkişaf**

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübələrindən məlum olduğu kimi, ümumi sosial-iqtisadi inkişafda regional inkişafın əhəmiyyəti və zəruriliyi böyük əhəmiyyət kəsb edir. Regional inkişaf çoxşaxəli və çoxşaxəli prosesdir. Çox vaxt müxtəlif sosial və iqtisadi məqsədlərdən baxılır. Regional inkişafın dövlət tənzimlənməsinin zəruriliyi artıq bütün ölkələrdə etiraf edilmişdir.

Şuşa şəhərinin sosial-iqtisadi tərəqqisinin region üçün əhəmiyyəti bu məqamda öz önəmini ortaya qoymuş olur ki, Cənubi Qafqazın sosial-iqtisadi inkişafında son zamanlarda turizmin və incəsənətin rolu əvvəlki dövrlərə nisbətən artmaqdadır. Bu baxımdan mədəniyyət beşiyi olaraq bilinən Şuşa şəhərinin regionun mədəni inkişafında və quruculuğunda nümunəvi bir model ola biləcəyini deyə bilərik.

Müasir dövrdə regionların davamlı sosial-iqtisadi inkişafı üçün innovativ yanaşma mühüm əhəmiyyət kəsb edir. Beləliklə, onlar iqtisadiyyatda artımın əsas hərəkətverici qüvvəsinə çevrilir və innovasiya proseslərinin istiqamətini, sürətini, həyata keçirmə mexanizmlərini dəyişirlər. Beləliklə, iqtisadiyyatda bir sıra yeni tendensiyalar yaranır. Yaranan tendensiyalara misal olaraq aşağıdakıları qeyd edə bilərik:

a) Elmi, texnoloji və təşkilati innovasiyalar, tədqiqat və inkişaflara investisiyaların artması,
b) Kəskin tənəzzül və sürətlənmə, yüksək texnoloji sahələrin digərlərindən üstün olması nəticəsində yeni iqtisadi fəaliyyətin yaranması,
c) İnnovativ məhsul və xidmətlərin istifadəsində təcrübənin formalaşması və s.

**Nəticə və təkliflər**

1. Şuşanın sosial-iqtisadi inkişafına nail olmaq üçün şəhərin sosial struktrunu dərindən öyrənmək, insan kapitalının idarə edilməsində yeni metodların tətbiqinə açıq olmaq və dövrün tələblərinə cavab verən ən son innovativ texnoloji yeniliklərin tətbiqinin səmərəliliyini artırmaq lazımdır.
2. Şuşa şəhəri zəngin iqlim, mineral ehtiyatlar, tarixi-maddi mədəni irsə malik olduğu üçün sosial-iqtisadi inkişafın nəzəri əsaslarının praktikada tətbiqi mümkündür. Bu zaman şəhərin əsas maddi və qeyri-maddi mədəniyyət abidələrinin mühafizəsi ilə yanaşı yeni mədəni cərəyanların yaranmasına münbit şərait yaratmaq olduqca vacibdir.

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycanın regionları - 2021: statistik məcmuə / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi –Bakı, 2021.
2. Azərbaycan Respublikasının inzibati ərazi bölgüsü: məlumat toplusu – Bakı: Azərbaycan Respublikası Mili Məclisinin nəşri, 2013.
3. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidnetinin 7 iyul 2021-ci il tarixli fərmanı.
4. “Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında ” Azərbaycan Respublikası Prezidentinin sərəncamı, Bakı- 2021.
5. "Şuşanın tarixi və memarlıq abidələri". shusha.az. 2017-10-11 tarixində orijinalından arxivləşdirilib. İstifadə tarixi: 10 oktyabr 2017.


---


**Məmmədova Kəmalə Kamran qızı**
Bakı Dövlət Universitetinin Kitabxanaçılıq və informasiya fakültəsinin magistrantı
mmedovakemale@gmail.com
**Səmədova Aysel Mustafa qızı**
Bakı Dövlət Universitetinin Kitabxanaçılıq və informasiya fakültəsinin magistrantı
aysel.semeedova@gmail.com


## Tənəzzüldən tərəqqiyə aparan yol

**Xülasə**


**Tədqiqatın məqsədi:** Azərbaycanın baş tacı olan Şuşanın sosial-iqtisadi infrastruktur quruluşunun, tarixi əhəmiyyətinin, inkişaf və təraqinin vəhdətdə xarakterizə edilməsinin üsul və vasitələrinin tətbiqinin araşdırılmasıdır.

**Tədqiqatın metodologiyası:.** tədqiqat işində empirik (müqaisə, təfsir) və nəzəri (abstraktlaşdırma, analiz, sintez induksiya, deduksiya) metodların istifadə edilmişdir.

**Tədqiqatın qısa məzmunu:** Məqalənin süjet xəttindəki hadisələr 3 istiqamətdə cərəyan edir. İlkin istiqamət kimi Şuşanın işğaldan əvvəlki vəziyyəti işıqlandırılmış, onun milli kimlik statusu müəyyən edilmiş və estetik obrazı göz önünə gətirilmişdir. İkinci istiqamətdə Şuşanın erməni vandalizminin qurbanına çevrilərək işgal obyektinə çevrilməsi**,** Qafqazın sənət məbədi hesab edilən

Şuşanın başına gələn müsibətlərdən bəhs edir. Üçüncü istiqamət isə Azərbaycan xalqının dəmir yumruq kimi birləşərək göstərdiyi şücaət və qəhrəmanlıq salnaməsinə geniş yer verilmişdir. Belə ki, tarixi ədalətin bərpa olunduğu gün, bu günün mahiyyət və önəmi haqqında mülahizələr şərh edilmiş, artıq işğal altinda deyil azad Şusanın yazdığı tarix öz sözünü demişdir.

**Tədqiqatn nəticələri:** Şuşada görülən dirçəliş və yenidənqurma tədbirləri çərçivəsində şəhərin inkişaf tempinin yeni baxış prizmasımdan öyrənilməsi, görülən işlərlə tanışlıq və Şuşanın tədqiqata cəlb edilməsi.

**Tətqiqatın orjinallığı və elmi yeniliyi:** günümüzün müasir və aktual mövzusu olan "Qarabağ" və "Şuşa" öz status, nümayiş etdirdiyi mövqe sahəsində dünyanın diqqət mərkəzində olmaqla tədqiqat obyektinə çevrilmiş, elmi yeniliyi və orjinallığı ilə seçilmişdir.

**Açar sözlər:** Qarabağ, Şuşa, erməni vandalizmi, zəfər tarixi, sosial-iqtisadi dirçəliş, Ali Baş Komandan, Şuşa ili, Şuşa bəyannaməsi.

**Giriş**

Dünyada mədəni və siyasi səbəblərdən asılı olmayaraq müəyyən simvola çevrilən, tarixi iz qoyan bir çox şəhərlər vardır və onların sadəcə adlarını çəkmək kifayət edir ki, bizim təsəvvürümüzdə həmin şəhərin estetik obrazı yaransın. Dünyaya səs salan, dastana çevrilən, hər daşı, hər qayası bir tarix olan Şuşa da nəinki azərbaycanlıların, bütün türk dünyasının təsəvvüründə dərin iz qoymuş belə şəhərlərdən biridir. Mədəniyyətimizin nadir və təkrarsız incisi sayılan Şuşa bir gözəllik simvolu, qürur rəmzi olmaqla yanaşı, həm də bir milli kimlik məsələsidir. Hansı ki, bu kimlik özünü bütün məqamlarda təsdiq edir. İstər beynəlxalq arenada, istərsə də milli mövqelərimizdə konseptual baxışların yeni inkişaf pəncərəsinə çıxışını təmin edir.

Azərbaycan intibahının beşiyi hesab edilən Şuşa öz milli və mədəni ənənələri ilə seçilən, tarixi köklərə malik bir şəhər kimi XVIII əsrdən etibarən inkişaf və tərəqqi yoluna qədəm qoymuşdur. Şuşanın sosial tarixi infrastrukturuna nəzər yetirdikdə, burada belə bir zəngin tarixi mənzərənin şahidi oluruq. Belə ki, mənfur erməni quldurlarının hərbi cinayətindən əvvəlki dövrdə Şuşanın sosial iqtisadi vəziyyəti öz zənginliyi ilə diqqəti cəlb edirdi. Qarabağın baş tacı Şuşada ümumən 250-dən çox tarixi abidə və muzeylər, Şuşanın özündə isə 50-yə qədər tarixi abidə mövcud idi [4]. Qeyd etdiyimiz tarixi faktlardan belə bir nəticəyə gəlmək olar ki, həmin dövrlərdə Şuşa adətən tarixi muzeyi xatırladırdı.

İşğala qədər olan dövr ərzində Şuşanın inciləri sırasında kitabxanaların, mədəniyyət evlərinin, təhsil müəssisələrinin, habelə, xan sarayının, qala divarlarının, məscid və müqəddəs dini ocaqların da adlarını xüsusi qeyd etmək lazımdır. Belə mədəni irsə, zəngin resurslara malik olan Qarabağın gözü Şuşa müxtəlif tarixi dövr ərzində "Kiçik paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi", "Şərqin konservatorisyası" adlandırılması da təsadüfi deyil. Çox böyük təəssüf hissi ilə qeyd etmək istərdik ki, belə bir göz oxşayan gözəllik məftun etdiyi kimi, Azərbaycan xalqının bu gözəllikdən məhrum olmasına da gətirib çıxardı. Belə ki, vandalizim siyasətinin təbliğatçısı və icraçısı olan erməni daşnakları gözlərini doğma yurdumuzun əsrarəngiz diyarına dikdilər. Bu məqamda V.L. Veliçko- nun fikrindən sitat getirmək tam yerinə düşərdi: "Əgər erməni tarixinin üz qabığı üçün "uydurma" sözündən başqa bir söz axtarsaydıq, "xəyanət" sözündən heç vəchlə yayına bilməzdik" [3]. Bu fikir bir daha sübut edir ki, Şuşa şəhəri xəyanətin qurbanına çevrilmişdir. Ermənilərin bu cür vəhşi siyasətinin bir sıra səbəbləri kimi xarici ölkələrdə güclü erməni diasporunun mövcudluğu və erməni ünsürünün folklorunun olmamasını göstərə bilərik ki, ele bu səbəblər Şuşanın işğal obyektinə çevrilməsinin təməl qaynağı rolunu oynadı.

**Tətqiqatın əsas məzmunu**. Qarabağın incisi Şuşanın işğalı təsadüfi deyil, əksinə düşünülmüş siyasətin nəticəsi idi. Mənfur düşmənimiz çox yaxşı bilirdi ki, Şuşanın işğalı bütövlükdə Dağlıq Qarabağa girişin pasportu hesab edilir. Ümumilli Lider Heydər Əliyevin də dediyi kimi "Şuşasız Qarabağ, Qarabağsız da Azərbaycanı təsəvvür etmək mümkün deyil". Alınmaz qala olan Şuşa ötən əsrin doxsanıncı illərinin əvvəllərində - 1992-ci il 8 may tarixində AXC-"Müsavat" cütlüyünün xəyanəti nəticəsində süqut etdi və 28 il ermənilərin işğalı altında qaldı. Qarabağın döyünən ürəyi Şuşa bədnam ermənilərin məkrli siyasəti nəticəsində darmadağın edilmiş, bütün tarixi və mədəniyyət abidələri yerlə yeksan edilmişdir. İşğal nəticəsində Şuşanın 25 məktəb, 31 kitabxana, 20 səhiyyə müəssisəsi, 8 mədəniyyət evi, Şuşa dövlət dram teatrı, Şuşa televiziyası, dövlət rəsm qaleriyası, uşaq sağlamlıq məktəbi talan edilib yandırılmış, 170 yaşayış binası, 160 qədər mədəniyyət və tarix abidəsi

məhv edilmişdir [2]. Habelə, Şuşa mədəniyyətini əsrlər boyu qoruyub saxlayan, mühafizə edən, gələcək nəsillərə çatdırılmasına xidmət edən Şuşa Şəhər Kitabxanasının fondu dağıdılmış, 150 min

nüsxədən artıq mənbə məhv edilmişdir. Bu rəqəm sadəcə bir kitabxanaya vurulan zərbə kimi yox, ümumilikdə, Azərbaycan tarixinə qarşı törədilən zorakılıq və tariximizin mənimsənilməsi yolunda atılan addım kimi qiymətləndirilməlidir.

Ötən 28 il ərzində də işğalçı erməni quldurları öz məkirli siyasətlərindən əl çəkməmiş, Azərbaycan xalqına qarşı törətdiyi təcavüzkar əməllərini davam etdirmiş, dəfələrlə atəşkəsi pozaraq silahlı insidentlər törətmişdir. Dərdi Şuşa olan, qəlbi Şuşa ilə döyünən Azərbaycan xalqı mütəşəkkil diplomatiyanın siması Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə, nəhayət ki, işğalçı siyasətə son nöqtəni qoydu. Artıq xəyanətlə təslim edilmiş şəhərin dəyanətlə geri alınması vaxtı çatmışdır. Azərbaycan xalqı Ümummilli Liderimiz H.Əliyevin dediyi: "Tarix həmişə hər şeyi öz yerinə qoyur" fikrini rəhbər tutaraq əzm və mübarizəsini bütün dünyaya nümayiş etdirdi. Bu nümayişin nəticəsi kimi tarix də öz sözünü dedi. Belə ki, bu şanlı qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. 27 sentybar 2020-ci il bu tarixi zəfərin ilk addım səsləri idi. Mənim fikrimcə, böyük reformasiya və yenilənmə həmişə böyük şəxsiyyətlərin sayəsində aparılır. Necə ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin göstərdiyi rəşadət və yeritdiyi siyasət Şuşanı yenidən Azərbaycana qaytardı. Bu tarixi qələbə "Dəmir Yumruq" əməliyyatının nəticəsi kimi 8 noyabr 2022-ci il tarixində Şuşanın dolğun mədəni həyatına qovuşması yolunda atılan təqdirə layiq addım hesab edilirdi. Biz artıq məğlub deyil məğrur bir xalq kimi, müzəffər xalqımızın birliyinin məsudluğunu yaşayırıq.

Bu gün Qarabağ dirçəliş dövrünün özünəqayıdış dönəmini yaşayır. Bizim üçün Şuşa Azərbaycanın inkişafının yeni mərhələsini ifadə edir. Bu yeni mərhələ Şuşanın timsalında əks-qütblərdə dayanan iki nümunə kimi özünü göstərir. Bir tərəfdə dağıdıcı erməni vandalizminin izlərini görürük, digər tərəfdə isə Azərbaycan xalqının Şuşaya rəğbətinin, məhəbbətinin şahidi oluruq. Tarixlə müasirliyin vəhdətini özündə birləşdirən Şuşada hər gün tərəqqi və inkişafla bağlı bir addım daha atılır. Bu addımlar Şuşanın tarixi əzəmətinin göstəricisi ,milli ideologiyanın formalaşmasının təməl prinsipidir.

İşğal dövründə Şuşada törədilən erməni vandalizmi bütünlükdə Azərbaycanın tarixi simasına vurulan zərbəni özündə əks etdirir. Ancaq bu tənəzzülə baxmayaraq Şuşa öz ruhunu saxlaya bildi, qəhrəman xalqın məğrur və sarsılmaz qalası kimi tarixin amansız sınaqlarından üzü ağ çıxdı, biz öz ərazi bütövlüyümzü və milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqının yaradıcılıq dühası kimi formalaşmaqda olan azad Şuşa, abad Şuşaya çevrilməkdədir. Ali Baş Komandan İlham Əliyev postkonfilikt dövründə yeni nəsil struktur və instisional islahatların, eləcə də, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinin inteqrasiyasında yeni hədəfləri gerçəkləşdirmək əzmi istiqamətində əsaslı işlər görmüşdür.

Böyük qayıdış strategiyasında başlıca prioritetlərdən biri kimi, "Azərbaycan mədəniyyətinin Panteonu" statusuna malik Şuşada beynəlxalq təcrübəyə və innovativ yanaşmaya əsaslanan bərpa quruculuq layihələri xalqımızı tərəqqiyə, daha parlaq gələcəyə aparır. Bu tərəqqi Azərbaycan xalqına hazırda özünün ən şərəfli, məsuliyyətli və tarixi dövrünü yaşadır. Dövlət başçısının titanik fəaliyyəti və praqmatik mövqeyi Qarabağın bərpasına, mədəniyyət paytaxtımızın öz əvvəlki şöhrətinə qayıtmasına, xalqımızın ən ümdə amal və arzularınının həyata keçirilməsinə öz töhfələrini verir. Bu fəaliyyətin son nəticəsi kimi, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə əsasən hər bir azərbaycanlının sarsılmaz vüqarının ayrılmaz hissəsi olan Şuşanın tarixi görkəminin bərpası, onun əvvəlki şöhrətinin qaytarılması və zəngin mədəni həyatına qovuşması ilə bağlı qərar qəbul edildi [8]. Şuşanın sosial-iqtisadi dirçəlişi ilə əlaqədar həyata keçirilən tədbirlər bir tərəfdən dövlətin gücünü, digər tərəfdən də Prezident İlham Əliyevin həyata keçirdiyi islahatların effektivliyini, yüksək praktiki nəticələr verdiyini göstərir. Bu gün İlham Əliyevin postmüharibə dövrü üçün hazırladığı inkişaf strategiyasına uyğun olaraq çox vacib addımlar atılır və real nəticələr əldə edilir.

Çevik mexanizimlər əsasında qurulan, sosial ədalət, şəffaflıq, ünvanlılıq prinsiplərinin reallaşdırılması istiqamətində ardıcıl tədbirlər sırasında Azərbaycan Prezidenti İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" də bir sıra vacib məsələlər yaxın onilliyin əsas strateji istiqaməti kimi göstərilib. Sözügedən strategiya layihəsinin istiqamətləri müvafiq olaraq "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2022–

2026-ci illər üzrə bərpası və dayanıqlı inkişafı üzrə dövlət proqramı “ modelinə əsaslanır. [7] Bu

yüksək iqtisadi potensial yeni milli sosial-iqtisadi inkişaf modelinin uğurla həyata keçirilməsinin təminatıdır.

Azərbaycan xalqı üçün güc və məğlubedilməzlik simvolu olan Şuşanın hər daşı, hər qayası bu tarixi anlara şahidlik edir. Azadlığımızın hər bir dəqiqəsini sonsuz bir qürurla yaşadığımız bu tarix hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. 1752–ci ildə Pənahəli xan tərəfindən təməli qoyulmuş, başı bəlalar çəkmiş doğma yurd üç əsrə yaxın dövr ərzində öz sarsılmaz gücünü bir an belə itirməmişdir. Şuşa öz sahibini gözləyirdi, artıq biz əzəli və əbədi torpağımızda azad və firavan yaşayacağıq. Azərbaycan xalqının Zəfər tarixinə öz adını “LİDER SƏRKƏRDƏ” olaraq həkk etdirən Ali Baş Komandanın nitqində səsləndirdiyi “Əziz Şuşa sən azadsan, Əziz şuşa biz səni dirçəldəcəyik” fikri bu gün öz yerini layiqincə tapır. Biz bu dirçəlişin ilk addımlarını 14 yanvar 2021 ci il tarixindən atılmış planlı, uğurlu siyasətin davamı kimi görürük. Artıq Şuşa zəngin mədəniyyətimizin memarlıq və şəhərçilik ənənələrinin incisi kimi öz tarixi görkəminin bərpasına, əvvəlki şöhrətinə və zəngin mədəni həyatına qovuşmasına başlamış və türk dünyasının mədəniyyət mərkəzinə çevrilmişdir.

Bu dirçəlişin ilkin təzahürü kimi azad Şuşada festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir. Bu gün Şuşa müxtəlif tətbirlərə ev sahibliyi etməklə dünyanın diqqətini özünə yönəldib. Qısa müddət ərzində Şuşada başladılan su, elektrik enerjisi təminatının bərpa edilməsi, Şuşaya Füzuli istiqamətindən yeni yolların çəkilməsi, “Xarıbülbül”, “Qarabağ” hotellərinin istifadəyə verilməsi kimi sosial- iqtisadi dirçəlişin tərəqqisini özündə etiva edən əsaslı tədbirləri qeyd etməsək olmaz. Bununla yanaşı, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşaya bir neçə dəfə ardıcıl səfərlər etmiş, Şuşaya son səfərləri çərçivəsində yeni təməlqoyma mərasimləri keçirilmiş, şəhərdə yeni yaşayış kompleksinin təməl qoyma işləri çərçivəsində kompleksin Şuşanın Baş planı əsasında inşa edilməsi və burada 25 yaşayış binasının inşası nəzərdə tutulmuşdur. Adları çəkilən bu kompleks tədbirlər çərçivəsində Şuşanın dirçəldilməsi sürətlə davam edir və artıq şuşalılar Şuşaya qayıdırlar. Belə bir faktı da qeyd etmək istərdik ki, görülən tədbirlərin yekun nəticəsi kimi gələn ilin sonuna qədər Şuşada 2500 insan yaşayacağı nəzərdə tutulmuşdur .Bu da tərəqqinin və inkişafın sürətlə getdiyinin bariz nümunəsidir.

Böyük qayıdışımızın daha bir təntənəsi kimi, Azərbaycan prezidenti İlham Əliyev 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhərini ölkənin “Mədəniyyət paytaxtı” elan etdi. Bu sərəncamla Azərbaycanın “Mədəniyyət paytaxtı” kimi Şuşada Vaqif poeziya günləri və Xarıbülbül festivalı da bərpa olundu. Belə ki, 2021 ci il may ayının 12- 13 də Cıdır düzündə ilk Xarıbülbül Beynəlxalq folklor festivalı keçirilmiş, [5] 2021 ci il avqustun 29-da isə Şuşa şəhərinin görkəmli mədəni şəxsiyyətləri Ü.Hacıbəylinin, M.P.Vaqifin, Bülbülün büstlərinin açılışı olmuşdur. Həmçinin həmin il 18-21 sentyabr tarixlərində Ü.Hacıbəyli adına XIII Beynəlxalq musiqi festivalı keçirildi, tarixi ədalətin bərpası öz sözünü dedi .Qəlbi Şuşa ilə döyünən Azərbaycan xalqı bu təntənənin, bir dastana çevrilən bu zəfərin şüarını bütün dünya ictimayətinə elan etdi. Tarix bir daha, Qars müqaviləsindən 100 il sonra 2021 ci il iyun 15 də- Milli Qurtuluş günündə Azərbaycan və Türkiyənin müttəfiqliyini təsdiqləyən Şuşa Bəyannaməsinin imzalanmasına şahidlik etdi. Şuşa Bəyannaməsi Türkiyə Prezidenti Rəcəb Tayib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə bütün beynəlxalq sənədlərə sadiq olduqlarını sübut edən iki ölkə və onun xalqları arasındakı dostluq və qardaşlığı, habelə bu iki ölkə arasındakı əzəli və əbədi müttəfiqlik münasibətlərini bir daha bütün dünyanın diqqətinə çatdırdı [1].

Postmüharibə dövründə Şuşanın həyatında 39 illik tarixi olan “Vaqif Poeziya Günləri”nin təşkili böyük mədəni hadisəyə çevrildi. Təməli 1982-ci il yanvarın 14-də Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan “Vaqif Poeziya Günləri”nin bərpası, onun yolunu layiqi ilə davam etdirən Prezdentimiz İlham Əliyev tərəfindən həyata keçirildi. 30 avqust 2022-ci il tarixində təşkil olunmuş “Vaqif Poeziya Günlər”i öz zəngin resurs təminatı, milli ənənələri, tarixi əhəmiyyəti ilə seçilmiş, sosial – iqtisadi dirçəlişin yeni mərhələsi kimi yaddaşlarda dərin iz qoydu. Şuşanın bu cür inkişaf tərəqqisi TÜRKSOY tərəfindən xüsusi qiymətləndirilmiş və Şuşa 2023-cü il üçün türk dünyasının mədəniyyət paytaxtı elan edilmişdir [8].

Beynəlxalq arenada milli kimliyimizin tanınması və təqdim edilməsi istiqamətində özünü layiqincə təsdiq edən Ali Baş Komandanın atdığı siyasi addımlar bununla sonlanmır. Müdrik

siyasətçi kimi o , sözü ilə silahı bir olan ölkəni layiqlə təmsil edir, milli mədəniyyətimizin inkişafına misilsiz töhfələr verir. Bu siyasətin məntiqi davamı olaraq, Prezident İlham Əliyevin 5 yanvar 2022-ci il tarixli sərəncamını xüsusi qeyd etmək lazımdır. Şübhəsiz ki, 2022-ci ilin "Şuşa ili" elan olunması ilə bağlı imzalanmış bu sərəncam Şuşanın Türk dünyasının kültür mərkəzinə çevrilməsi ideyasının başlanğıcı hesab edilməlidir."Şuşa ili" kimi qeyd edilən bu il həm də Şuşanın tərəqqisində ən öncül addımlar sırasında öz yerini tutur. Habelə, 2022-ci il 22 aprel tarixində təşkil olunmuş Dünya Azərbaycanlılarının V Qurultayı da belə addımlardan bir digəri hesab edilir. Qurultayda 65 ölkədən 400 yaxın diaspor nümayəndəsi iştirak etmiş, [6] Şuşanın yeni inkişaf istiqamətləri və tanınması konteksində məsələlər müzakirə edilmişdir. Düşünülmüş və qətiyyətli siyasəsin nəticəsi kimi biz bu qurultayı Zəfər Qurultayı adlandırsaq tam doğru bir bənzətmə etmiş olarıq. Qeyd etdiyimiz olduqca vacib işlər sırasına 18 mart 2022 ci il tarixində Şuşa şəhərində Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantını da böyüik məmnuniyyətlə hallandırmaq istərdik. Belə ki, bu toplantı ilə mədəniyyətin ünvanı olan Şuşa Azərbaycanın BMT-yə üzvlüyünün 30-cu il dönümü ilə bağlı tətbirlərə ev sahibliyi etdi**.**

6 oktyabr 2022-ci il tarixində Praqada "Avropa Siyasi Birliyi" liderlərinin iştirakı ilə keçirilən zirvə toplantısının yekun nəticəsi kimi tərəflər: Azərbaycan və Ermənistanın bir-birinin ərazi bütövlüyünü və suverenliyinin tanınması ilə bağlı bəyanat qəbul etdi. Və şübhəsiz ki, bu bəyanatın qəbul edilməsində Şuşanın hazırki mövqeyinin, tarixi rol və əhəmiyyətinin habelə, ictimai statusunun mövcudluğunun üstünlüyünün şahidi oluruq.

**Yekun.** Qeyd etdiyimiz bütün bu sosial tədbirlər, sosial iqtisadi dirçəlişin tərəqqisinə, yeni baxış prizmalarının inkişaf edərək tendensial və informativ baza prinsiplərinin komminikativ əlaqəsinə gətirib çıxarmışdır. Azərbaycan xalqı bu gün vüqarlıdır, yenilməzdir, çünki qalib bir ölkənin vətəndaşı kimi bütün platforma və mövqelərdə özünü təsdiq etmə gücünə malikdir. Nitqi ilə bir orduya bərabər olan Ali Baş Komandanın istər döyüş meydanında, istərsədə informasiya cəbhəsində göstərdiyi şücaət və qorxmazlıq bu gün bir tarixi yenidən bərpa etdi. Sözü ilə gücü, silahı bir olan ölkə heç vaxt əyilə bilməz, elə Azərbaycan kimi. Biz tarixi ədaləti bərpa etdik, biz bizim olanı geri aldıq, indi isə dirçəliş və təşəkkül zamanıdır. Doğma yurdumun zəfər mayakı-Şuşanın zəfəri bizə qələbə şüarını səsləndirdi.Yaddaşlarda silinməz iz qoymuş, şərəflə yazılan bu tarix bir qəhramanlıq səlnaməsidir. Bütün meydanlarda qələbə bizimdir, qələbə bizimlədir.

Nə gözəl və ürək oxşayan mənzərədir ki, Qarabağın hər qarışında Azərbaycan bayrağı dalğalanır, Qarabağ şikəstəsi səslənir, xarıbülbülün qoxusu yayılır. Sonsuz qürur hissi ilə demək istəyirəm ki "Biz artıq qalib bir ölkənin vətəndaşı, vahid bir torpağın parçasıyıq". Əlbəttə ki, son olaraq biz bu qürurverici hislərin müəllifi, bizi daim bu qələbəyə inandıran müdrik siyasi lider İlham Əliyevə və bu qələbəni bizə yaşadan rəşadətli ordumuzun əsgərlərinə, torpaq, vətən uğrunda canından keçən şəhidlərimizə öz minnətdarlığımzı bildiririk.

**Var olsun Azərbaycan əsgəri!**
**Şuşa, işğalın bizə tənəzzülü yaşatdı, azadlığın isə tərəqqini !**

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti Qarabağ Azərbaycandır (Zəfər epopeyası).- Bakı: Azəri poliqrafiya mərkəzi, 2021, 599s.
2. Hüseynov Y.R. Qarabağ tarixi mənbələrdə// Mahmudov Y.M. Bakı, 2012, 245 s.
3. Hüseynov Y.R. Şuşa salnaməsi// red: Quliyev V.X.- Bakı, 2015, 150 s.
4. Hüseynov.C.H Yeni Qarabağnamə.-Bakı, Təhsil, 2021.
5. Şuşa- Tarixi mənbələrdə: biblioqrafiya./ tərt.ed. X.Abbasova , elmi red K.M.Tahirov-Bakı, 2022, 632 səh.
6. https://www.azerbaijan-news.az/az/posts/detail/dircelis-unvani-susa-1654979669
7. https://sia.az/az/news/politics/950644.html
8. https://xalqqazeti.com/mobile/az/news/93451

**Abdullayeva Aynur Natiqovna**
Azərbaycan Dövlət İqtisad Universiteti
aynur_abdullayeva@rambler.ru

## Şuşa şəhərinin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri

"Şuşa" adı doğulduğu, böyüyüb başa çatdığı məkandan asılı olmayaraq istənilən azərbaycanlı üçün xüsusi əzizlik, doğmalıq və məğrurluq hissi yaradır. İllər, qərinələr keçsə də Ümummilli liderimiz Heydər Əliyevin "Şuşa bütün azərbaycanlılar üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir. Şuşa Azərbaycanın gözüdür" sözləri öz dəyərini saxlayacaq və nəsildən-nəslə ötürəcəkdir. Ölkəmizin şanlı tarixinə qızıl hərflərlə yazılan 2-ci Qarabağ savaşı, böyük qələbə kimi də adlandırılan 44 günlük müharibənin nəticəsi olaraq Şuşanı geri qaytarmağa nail olduq. Bununla da tariximizdə yeni səhifə açıldı və yeni hədəflərimiz müəyyən olundu. Yeni hədəflərimizdən biri Şuşa şəhərinin sosial-iqtisadi inkişafının prioriet istiqamətlərinin müəyyən olunması, bu istiqamətdə əsaslı işlərin aparılması, layihələrin həyata keçirilməsi və ümumilikdə ölkənin strateji yol xəritəsinin müəyyən olunmasıdır.

Azərbaycanın dilbər guşələrindən biri olan Şuşa yerləşdiyi mövqeyinə, məxsus olduğu yeraltı və yerüstü resurslarına görə xüsusi iqtisadi əhəmiyyətə malik olan bir şəhərdir. Şuşanın resurslarından istifadə olunaraq onun iqtisadiyyatı dirçəldilməsinə, sosial yönümlü inkişafa nail oluna bilər. Şuşa şəhərinin iqtisadi inkişafını təmin etmək üçün əsas aşağıdakı istiqamətlərdə addımlar atılmalıdır:

- aqrar sektorda emal müəssisələrinin yaradılması;
- aqropark və fermer təsərrüfatlarının yaradılması;
- heyvandarlıq komplekslərinin yaradılması;
- logistik mərkəz, soyuducu və taxıl anbarı kompleksləri, fermer mağazalarının yaradılması;
- turizm sektorunun inkişafı;
- heyvandarlığın inkişafı;
- əkinçiliyin inkişafı;
- yüngül və yeyinti məhsulları istehsal sahələrinin salınması;
- xalçaçılıq sahəsinin inkişaf etdirilməsi.

Şuşa tarixən şəfalı məkan hesab olunur. Burada turizm dörd istiqamətdə inkişaf etdirilə bilər:

- ✓ müalicəvi kurort – xüsusi rekreasiya tipli
- ✓ sanatoriya tipli
- ✓ ekskursiya turizmi
- ✓ toy turizmi

Kurort - xüsusi rekreasiya tipli turizmin inkişafı üçün Şuşa şəhərində kifayət qədər resurs mənbələri mövcuddur. İnsan orqanizminə faydaları ilə dünyaya səs salmış "Turşsu" resursundan istifadə edərək təkcə Azərbaycanın deyil, eləcə də digər ölkələrin əhalisinin diqqəti cəlb oluna bilər. Bundan əlavə olaraq Şuşa şəhərində Daş altı, İsabulağı, Şırlan, Zamanpəyəsi və s. bulaqları da mövcuddur ki, onların da faydası heç də Turşudan geridə qalmır. Bu resursdan istifadə edərək bu ərazidə müalicəvi kurort – xüsusi rekreasiya tipli ölkə hüdudlarından kənardan da əhalini cəlb etmək olar.

Şuşa öz füsunkar təbiəti ilə istənilən insanı valehetmə iqtidarına malikdir. Orada Şuşanın ümumi arxeologiyasına xələl gətirmədən xüsusi dizaynda kotec tipli otellər salınmaqla ilin bütün fəsillərində bu resurslardan istifadə oluna bilər.

Şuşa öz qədim və zəngin tarixi ilə həmişə diqqət mərkəzində olmuş və məkrli düşmənlər tərəfindən dağıdılmışdır. Əldə olunan statistik məlumatlara əsasən, Şuşada Qala divarı (uzunluğu 8 km), Qala Divarları üzərində tikilmiş bürclər, 17 qədim üslübda salınmış məhəllə, 17 məscid, 17 bulaq, 17 hamam mövcud olmuşdur. Müvafiq tarixi abidələrin bərpa olunması istiqamətində təmir-bərpa işləri aparıla bilər və ondan sonra öncədən hazırlanmış plan əsasında ekskursiyalar təşkil oluna bilər.

Bildiyimiz kimi, hal-hazırda ölkə iqtisadiyyatında toy və bu kimi xeyir işlərin əsas “indikatorlar”dan biri olduğunu nəzərə alaraq Şuşanın ekologiyasına mənfi təsir etmədən həmin işlərin kiçik miqyaslı təşkili və keçirilməsi , o cümlədən fotosessiyaların təşkili aparıla bilər.

Bir sıra mənbələrdə qeyd olunan məlumata əsasən Şuşa işğal olunanadək onun iqtisadiyyatında heyvandarlıq əsas yer tuturdu və 5 sovxoz mövcud idi. Hal-hazırda Şuşanın malik olduğu yay və qış otlaqları orada iribuynuzlu və kiçikbuynuzlu ev heyvandarlığının inkişaf etdirmə imkanını özündə saxlayır. Bu həm əhalinin məşğuliyyətinə, həm də qidaya olan tələbatı ödəməyə imkan yaradacaqdır. Heyvandarlıq sahəsində iribuynuzlu və xırdabuynuzlu heyvandarçılıqdan ziyadə atçılıq da inkişaf etdirilə bilər. Belə ki, dünyaya səs salmış Qarabağ atları üçün şərait yaradıla və çoxillik ənənə ilə burada atçılıq festivalları həyata keçirilə bilər. Bu festivalların ölkəmizin dünyamiqyasında tanınmasına vəsilə ola bilər.

Biz eyni sözləri əkinçiliyə də şamil edə bilərik. Belə ki, münbit torpaqlar, iqlim şəraiti həmin sahələrdə paxlalı, meyvə və bostan bitkilərinin əkilməsinə şərait yaradacaqdır.

Şuşada müxtəlif aqrar sektorda emal müəssisələrinin yaradılması üçün bir sıra zəruri amillər və resurslar mövcuddur. Belə ki, ətlik və südlük heyvandarlığın, əkinçiliyin inkişafı dolayısı ilə ət və ət məhsulları, konserva məhsullarının istehsalına zəmin yarada bilər. Bundan əlavə olaraq qədim tarixi irsimizdən istifadə edərək xalçaçılıq, ipəkçilik istehsalı, Şuşada olan mineral sulardan istifadə edərək həmin suları qablaşdırıb həm ölkədaxili bazarda, həm də ölkəxarici bazarda satışını həyata keçirmək olar.

Şuşa yerləşdiyi coğrafi mövqeyə əsasən orada logistik mərkəz, soyuducu və taxıl anbarı kompleksləri yaradıla bilər.

**Əldə olunan məlumatlara əsasən 2019-cu ildə Şuşa şəhərində əkınçilik sahəsi üzrə əldə olunan məhsulların statistik hesabatı onu göstərir ki, Şuşada əkinçiliyin inkişafı üçün kifayət qədər yüksək şərait var (Şəkil 1).**




**Şəkil 1.**
**Mənbə :** http://www.shusha-ih.gov.az/az

Qədim tarixə malik Topxana meşəsi Şuşanın, o cümlədən ölkəmizin nadir və misilsiz sərvətlərindən biridir. Şuşa ətrafındakı torpaqların 20 faizini əhatə edən meşədə palıd, fıstıq, qarağac kimi ağaclar vardır. Bu resurslardan da istiafadə edib yeyinti sahəsində

Şuşada elm sahələrinin – orta və yüksək təhsil sahələrinin salınması, elmi laboratoriya və digər sınaq məkanlarının tikilməsi həmin regionda yaşayan əhalinin təhsilinə, məşğulluğuna və o cümlədən, Şuşada elmi araşdırmaların aparılması yolu ilə Şuşanın sosial – iqtisadi inkişafına təsir göstərə bilər.

Yuxarıda qeyd olunan sahələrin inkişaf etdirilməsi üçün ilk öncə həmin ərazilərdə təmir və bərpa işləri həyata keçirilməli, həmin ərazilər minalardan təmizlənməlidir. Müvafiq istiqamətdə artıq işlərin surətlə aparıldığına şahid ola bilərik. Növbət addımlar isə yuxarıda sadalanan iqtisadi sahələrin inkişafı üçün investiyalar qoyulması və ya cəlb olunmasıdır.

Müvafiq sahələrin inkişaf etdirilməsi üçün maliyyələşdirilməsi üçün aşağıdakı yollardan istifadə oluna bilər:

1. Dövlət büdcəsindən ayırmalar
2. Azərbaycan dövlət Neft Fondundan ayırmalar
3. Qarabağ Dirşəliş fonduna ödənilən könüllü ianələr
4. Yerli, eləcə də xarici investorların cəlb olunması
5. İstiqrazların buraxılması yolu ilə maliyyə vəsaitinin cəlb olunması
6. Daxili və ya xarici banklardan kreditlərin alınması

Bilindiyi kimi iqtisadiyyatın sahələri birbiri ilə zəncirvari əlaqədə inkişaf edir və fəaliyyət göstərirlər. Bir sahənin inkişafı digər sahənin yaranmasına və inkişafına zəmin yaradır. Nümunə olaraq əkinçiliyin, heyvandarlığın inkişafı öz növbəsində aqrar sektorda emal və istehsal sahələrinin yaradılmasına və inkişafına təkan verəcəkdir. Turizmin inkişafı yüngül və yeyinti sahəsinin inkişafına təkan verəcəkdir. Ümumiyyətlə, sahələrin yaradılması və inkişafı həmin regionda və ətraf regionlarda əhalinin məşğulliyyətinə səbəb olacaqdır.

Şuşada sosial-iqtisadi inkişafa nail omaq üçün maliyyə sektorunun əsas dayaq institutlarından sayılan bankların da əvəzsiz rolu ola bilər. Belə ki, onları aşağıdakı kimi şərh etmək mümkündür:

Birinci istiqamət
Özünə məşğulluq layihəsinin həyata keçirilməsi

**İkinci istiqamət**
Güzəştli şərtlərlə ipoteka kreditlərinin verilməsi

**Üçüncü istiqamət**
kənd təsərrüfatı kreditlərinin verilməsi

**Birinci istiqamət** – "Özünə məşğulluq layihəsinin həyata keçirilməsi – Bildiyimiz kimi, aztəminatlı və gəliri az olan ailələrin yaşayışını maddi təmin etmək üçün banklar tərəfindən həyata keçirilən bu layihə hal-hazırda bir sıra rayonlarda öz müsbət nəticələrini göstərməkdədir. Elə bu proqram çərçivəsində işğaldan azad olunmuş torpaqlarda mikrobiznesi canlandırmaq məqsədilə həmin ərazilərdə yaşayan əhaliyə maliyyə vəsaiti ayrıla bilər. Əhalinin maddi vəziyyətinin yaxşılaşması nəticəsində də dolayısı ilə banklar da müsbət təsirlənəcəklər.

**İkinci istiqamət** – Güzəştli şərtlərlə ipoteka kreditlərinin verilməsi – bu istiqamətin təmin olunması üçün biraz uzun müddətin keçməyinə ehtiyac vardır. Çünki ilk öncə əhalinin orada yaşaması üçün normal şərait yaradılmalı, infrastruktur qurulmalı, iş yerləri açılmalıdır. Daha sonra,

əhali əlavə ehtiyaclarını ödəmək üçün güzəştli ipoteka kreditlərindən yararlana bilərlər. Bu istiqamətdə veriləcək kreditlərlə bağlı təklifim odur ki, həmin kreditləri uzunmüddətli (cari verilən ipoteka kreditlərinə nisbətən) və daha az faizli (maksimum 3.5%) olsun.

**Üçüncü istiqamət** – kənd təsərrüfatı kreditlərinin verilməsi – İşğaldan azad olunmuş ərazilərin bərəkətli olmasını nəzərə alaraq həmin ərazilərdə kənd təsərrüfatı kreditləri müxtəlif istiqamətli ola bilər. Onları ümumiləşdirərək kənd təsərrüfatı sahəsi üzrə kreditləri aşağıdakı seqmentlərdə qruplaşdırmaq olar:

1. Heyvandarlığın inkişafı – buradaya iribuynuzlu,xırdabuynuzlu, arıçılıq və s. kimi sahələrini nümunə gətirmək olar.
2. Aqrotexniki xidmətlər, toxum, gübrə, baytarlıq və s. kimi təchizat bazasının yaradılması istiqamətində kreditlərin verilməsi.
3. İşğaldan azad olunmuş sahələrin münbit torpaqlarını nəzərə alaraq və həmin sahələrdə aqrobiomüxtəlifliyin bərpası və inkişaf etdirilməsi istiqamətində atılan addımları nəticəsi olaraq həmin sahələrdə pambıqçılıq, üzümçülük, buğdaçılıq və s. sahələrə kreditlərin verilməsi mümkündür.

**Dördüncü istiqamət** - “güzəştli şərtlərlə biznes kreditlərin verilməsi” – Biznes kreditlərinin verilməsi çox sadə səslənsə də hər sahəyə uyğun düşünülmüş mexanizm tətbiq olunmalıdır. Hasilat sənayesinin, turizm sektorunun inkişafı istiqamətində biznes kreditlərin verilməsi alternativ bir istiqamət hesab oluna bilər. Ümumiləşdirsək, həmin ərazilərdə istehsal olunmuş məhsulların tədarükü və ticarəti üzrə logistika infrastrukturunun yaradılması, aqro-emal, o cümlədən hasilat, ictimai-iaşə müəssisələrinin yaradılması və s. istiqamətdə kreditlərin verilməsi də öz müsbət nəticələrini göstərə bilər.

Dövlət tərəfindən həmin ərazilərdə ölkəmizin aparıcı universitetlərinin filialları açıldıqdan sonra tələbə, təhsil kreditlərinin verilməsi də bankların kredit portfelinin diversifikasiyası üçün alternativ bir alət ola bilər.

İşğaldan azad olunmuş regionlarda bank sektorunun inkişafı dövrünə həmin ərazilərdə Azərbaycan Respublikasının Mərkəzi Bankının Dağlıq Qarabağ regional mərkəzinin yaradılması nəticəsində Mərkəzi Bankın müvafiq qanunvericiliklə müəyyən edilmiş funksiyalarının, o cümlədən nağd pul tədavülünün təşkilinin effektiv həyata keçirilməsinə yardımçı ola bilər.

Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işlərinin sürətlə getdiyini nəzərə alaraq həmin sahədə bank sektorunun da qurulması və inkişaf etdirilməsi zəruri hala çevriləcəkdir. Çünki ən azından turizmin (aqro turizm, sanatoriya və s.) inkişafı həmin sahədə nağdsız hesablaşmaları və nağdsız ödənişləri labüd edəcəkdir.

Şuşa şəhəri üçün ilkin 5 illik strateji hədəflərdə Şuşa şəhərinin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri müəyyən olunmaqla inkişaf etdirilməsi Azərbaycanın tərəqqisinin yeni zirvəyə qaldırılması üçün xüsusi strateji əhəmiyyətə malikdir.

---

**Vəlieva Aytac Rüstəm**
MDU I kurs tələbəsi, İqtisadiyyat və İdarəetmə fakultəsi.
bextiyar35@mail.ru

## Şuşa şəhəri Azərbaycanın əsrarəngiz mədəniyyət incisi

Şuşa şəhəri Azərbaycanın əsrarəngiz mədəniyyət incisi hesab olunur. Bir vaxtlar “Qafqazın sənət məbədi”, “Azərbaycanın musiqi beşiyi”, “Şərqin konservatoriyası” adlanan, Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olan, bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət mərkəzi və Qafqazın baş tacı olan Şuşa Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan ordusunun əks- hücum əməliyyatı nəticəsində işğaldan azad edildi. Xalqımızın müstəqillik tarixi şəhidlərimizin adı ilə bağlıdır. Şəhidlər bizim nisgilimiz, qürurumuz, vüqarımız, fəxrimiz, ölməzliyimiz və örnəyimizdir. Ruhunuz şad olsun!

Cənab İlham Əliyevin: “ İyirmisəkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azadır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq!” Cümlələri Azərbaycanın son yüz illik tarixinin ən möhtəşəm qələbəsidir. Cənab İlham Əliyev Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birgə Şuşaya səfəri uzun zaman Şuşanın həsrəti ilə odlanmış qəlbimizə məlhəm oldu. Prizdent İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən şəhərdən yenidənqurma, abadlaşdırma diqqət mərkəzində saxlanıldı. Yolların, tarixi abidələrin bərpasına şəhərdə su, elektrik təchizatının qaydaya salınmasına xüsusi önəm verirdi. Ali mühəndislik düşüncəsinin, yüksək texnoloji imkanlardan istifadə olunan bu layihə ilin bütün fəsillərində, çətin relyef şəraitində, keçmiş dağ yolları parçalanaraq həyata keçirilir. Belə bir qısa vaxtda gerçəkləşən və dünyada analoqu olmayan layihə Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası Prezident İlham Əliyevin qətiyyətinin bütün dünyaya sübutudur. Bu layihə həm də ona görə müstəsna əhəmiyyət daşıyır ki, o, ilk növbədə, öz doğma yurdlarına qayıdacaq insanların yüksək səviyyədə həyat və yaşayış standartlarının yaradılmasına xidmət göstərir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi: “Biz nəinki torpaqları abadlaşdırır, keçmiş məcburi köçkünlərin geri qayıtması üçün müasir infrastruktur yaradırıq.” Ötən il ərzində Azərbaycan, Avstriya, İtaliya, Latviya və Türkiyədən olan ekspertlər tərəfindən məscidlərdə qiymətləndirmə işləri aparılıb. Mühüm mədəni-tarixi memarlıq abidəsi olan Mehmandarovların malikanə kompleksində bərpa işlərinin Heydər Əliyev Fondu həyata keçirir. Şuşa radio- Televiziya Yayım Stansiyasında radio-televiziya yayımları bərpa olunub. Yeni layihəyə əsasən, tikiləcək 130 metrlik metal qüvvənin və texniki binanın inşası Azərbaycanın telekommunikasiya sisteminin inkişaf etdiyi ölkələrin birinə çevriləcəyinin sübutudur. Bugün artıq Azərbaycan həqiqətlərini ortaya çıxarıb.Nəhayət, dünya birliyi tərəfindən sərgilənən ədalətsiz və haqsız mövqelərə rəğmən məğlubedilməz və qürurlu Azərbaycan xalqı işğalla barışmayacağını, ədalətsizliyə boyun əyməyəcəyini ortaya çıxadı. Bugün biz azad Şuşada həyatı dirçəldirik. Artıq sürətlə quruculuq və abadlıq işlərinin aparıldığı bu gözəl şəhərdə, eyni zamanda festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər keçrilir. Xalqımız üçün mədəniyyət qibləgahı olan müqəddəs Şuşanın içki məclisləri ilə murdarlayan, yallı gedərək “ Qarabağ ermənistandır və nöqtə” “ Yeni ərazilər uğrunda yeni müharibə” kimi hədələyici sərsəm həqiqətlərə zidd və məsuliyyətsiz bəyantalar səsləndirən, onu “təbliğ edən” azğınlaşmış düşmən öz layiq olduğu cavabı “Dəmir yumruq” vasitəsilə aldı.

Hazırda post-münaqişə dövründə bütün işğaldan azad olunan ərazilərdə sürətli şəkildə böyük bərpa və quruculuq işləri davam etdirilir. Əsas məqsəd bölgələrdə iqtisadi ingişafa nail olmaq, ən yaxın gələcəkdə Qacqın və Məcburi köçkünlərin öz doğma yurd-yuvalarına geri dönməsini təmin etməkdən ibarətdir. Bu məqsədlə işğaldan azad olunan ərazilərdə yenidən qurma və bərpa üçün 2001-ci ilin dövlət büdcəsindən 2 milyard manat sərf edilmiş, cari ilin dövlət büdcəsindən isə 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Ən əsas şərt ondan ibarətdir ki, bütün bu görülən işlər və gələcəkdə icrası nəzərdə tutulan tədbirlər, zəruri layihələr xarici yardım olmadan ölkəmizin bugün ki, iqtisadi gücünə əsaslanan real maddi imkan hesabına həyata keçirilir. Bu isə əsası Ümumimilli Lider Heydər Əliyev tərəfindən qoyulan siyasi- iqtisadi kursun möhtəşəm təməllər üzərində qoyulduğunun və Prezident İlham Əliyev tərəfindən düzgün və uğurlu şəkildə davam etditrildiyinin sübutudur. İşğaldan zad olunan ərazilərdə ilk bərpa və quruculuq işlərinin məhz Şuşada həyata keçirilməsi isə Qarabağın tacı olan Şuşanın xalqımız üçün nə qədər önəmli, müqəddəs və əziz olduğunun göstəricisidir. Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olmağı Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını vacib edir. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 7 may 2021-ci il tarixli, 2632 nömrəli Sərəncamı ilə Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsirlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynalxaq aləmdə təbliği məqsədilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir. Öz doğma el-obasında abadlıq-quruculuq işlərinə başlnılıb. İşğaldan azad olunmuş Şuşada yeni işlər həyata keçrilir. Azərbaycan mədəniyyətinin paytaxtı olan Şuşada həyata keçrilən bu tədbirlər tarixlə müasirliyin vəhdəti üzərində qurulub. Bütün bunlar Şuşanın dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəyinə şübhə yaratmır. Hazırlanmış baş planda Şuşanın qarışıq, orta, yüksək yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzlərinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar,həmçinin abidə yerlərində öz əksini tapacaq. Bütün bunlar Şuşanın inkişaf dinamikasını, orada görülən və görüləcək işlərin nə dərəcədə vacib olduğunu

göstərir. Azərbaycanın siyasi, mədəni, ədəbi, elmi ictimaiyyəti Şuşada həyata keçrilən tədbirlər sayəsində bilinir. Şuşa bütün elmi-mədəni tədbirlərin keçirilməsində əsas mərkəz rolunu oynayacaq. Həmçinin bərpa və quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliyi təmin etmək üçün Azərbaycan Respublikası Prezidentinin işğalıdan azad olunmuş ərazilərdən ilk xüsusi nümayəndəni də məhz Şuşa şəhərinə təyin edilmişdir. Sözsüz ki, Şuşada məlahətli, valehedici muğam səsləri, musiqi, ədəbiyyat istedadları yenidən pöhrələyəcək və Şuşanın Qarabağın tacı, mədəniyyət beşiyi kimi nüfuzu bütün dünyaya yenidən yayılacaq. Hazırda Ali Baş Komandan cənab İlham Əliyevin tapşırığı ilə Şuşanın yeni yolunun tikintisi sürətlə davam etdirilir. Ən yaxın zamanda qəlbimizin simvoluna çevrilən bu yol hazır olacaq. Bu yolun təməli noyabrın 16-da qoyulmuşdur. Fizuli şəhərindən Şuşa şəhərinə birbaşa avtomobil yoludur. Bundan başqa İlham Əliyev işğaldan zad olunmuş ərazilərin sosial-iqtisadi ingişafı üçün dərhal tapşırıq verdi. 17 noyabr 2000-ci il tarixində İlham Əliyev Əhmədli- Fizuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzaladı. Yeni tras üzrə hazırlanan layihəyə əsasən Şuşanın İsa bulağınadək əlavə iki km-lik yolun inşasına daxıldir. İsa bulağı başlanğıcını Fizuli-Şuşa avtomobil yolunun təqribən 82-ci km-dən götürəcək və Laçın-Şuşa-Xankəndi avtomobil yolunun uzunluğu 900 km olan tunel vasitəsilə keçməklə inşa olunacaq. Cənab Prezidentin "Şuşa ili" ilə bağlı imzaladığı sərəncamlar ümumiyyətlə, Azərbaycan mədəniyyətinin dünyaya tanıdılmasında həlledici rol oynayır. Buda bütün dünyada həm siyasi, həm mədəni, həmdə itisadi baxımdan özümüzü tanıtmaqda böyük əhəmiyyət kəsb edir. Azad edilmiş torpaqlarda Heydər Əliyev Fondunun təşəbbüsü ilə dini abidələrin əsaslı təmiri, bərpası və inşası, Şuşada Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidlərinin, yeni məscidlərin tikinti-bərpa işlərinə başlanılması, habelə digər dini abidələrin, mədəniyyət ocaqlarının təmiri Azərbaycanın Birinci vitse-prezitenti Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin inkişafı sahəsində misilsiz xidmətlərini bariz nümunəsidir. Xalqımız, bütün təhsil işçiləri tam əmindir ki, ölkə rəhbərinin müvafiq tapşırıq və tövsiyələri ilə Şuşada aparılan abadlıq və quruculuq işləri nəticəsində Şuşanın öz əvvəlki gözəlliyi və şöhrəti tezliklə yenidən bərpa olunacaq.

Hazırda bir çox əcnəbi turistlərin diqqət mərkəzi olan Şuşada abadlaşdırma, yüksək səviyyədə quruculuq işləri, magistral yolların çəkilməsi işləri həyata keçrilir. Ötən ilə müqaysədə Şuşaya turist axını 84,4% çoxalıb. Buda onu göstərir ki, Şuşa nəinki Azərbaycanda, hətta bütün dünyada insanların daimi maraq mərkəzində olub və Qarabağın zəngin turizm potensialı olduğunun əyani sübutudur. Dövlət Turizm Agentliyinin məlumatına əsasən ilk planda mədəniyyət tədbirləri və festifallar keçiriləcək. Turizm sahəsində əsasən bu istiqamətdə prioritet addımlar atılacaq. Fizuli, Zəngilan və Laçın rayonlarında beynəlxaq hava limanı tikintisi Şərq-Qərb nəqliyyat dəhlizinin, həmçinin, yükdaşımanın və turizmin inkişafına müsbət təsir göstərəcək. Bütün bunlar nəinki Şuşanın dirçəlməsinin, hətta bütün türk və islam dünyasının, Qafqaz coğrafiyasının, eləcə də dünyanın əsas turizm mərkəzlərindən birinə çevriləcək. Son zamanlarda bir sıra ciddi addımlar atılsada, bu sahədə Böyük potensiala malik Qarabağımız, Şuşamız mənfur düşmən taptağı altında idi və bugün artıq Şuşa azadır!

Hazırda Şuşada mədəni quruculuq işləri həyata keçrilir. 2001-ci ilin yanvarın 14-də isə Ali Baş Komandan İlham Əliyevin azad olunmuş Şuşaya ilk səfəri reallaşdı ki, bununlada azad Şuşanın dirçəliş dövrü başladı. Eyni zamanda, Şuşa zəfərdən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliyin təmin olunması üçün burada dövlət idarə etməsinə böyük diqqət yetirilmiş, Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2021-ci il tarixli, 1375 nömrəli Fərmanı ilə Şuşa Şəhər Dövlət Qoruğu İdarəsi yaradılmışdır. O Şuşanın ki, həmişə şanlı tariximizin, mədəniyyətimizin, ruhumuzun incisi hesab edilib, qəhrəmanlıq salnamələrimizin hünər meydanı olub. Ali Baş Komandanın Şuşaya "Zəfər yolu" ilə səfəri zamanı didərgin həyatı yaşayan Natəvanın, Bülbülün, Üzeyir bəyin güllələnmiş büstlərini də öz doğma yerlərinə qovuşdurdu. Beləliklə, azad Şuşanın bərpa- quruculuq və inkişaf fonunda qürurla bəyan edə biləri ki, vaxtilə düşmən taptağı altında inildəyən müqəddəs vətən torpaqlarının, o cümlədən, mədəniyyətimizin incisi, qədim, tarixi şəhərimiz olan Şuşamızın dağılmış və xarabalığa çevrilmiş mənzərəsi üzərində dolaşan Molla Pəna Vaqifin, Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün və digər böyük mədəniyyət xadimlərimizin narahat ruhları bugün azad, firəvan və günü-gündən çiçəklənən, müasirləşən, Şuşanı gördükcə sevinir və rahatlıq tapırlar. Şuşa sanki yenidən doğulur, yenidən yaranır. İlham Əliyevin Şuşaya növbəti səfəri zamanı Vaqifin məqbərəsinə də tezliklə yenidənqurma işlərinin, məsçidlərin bərpasının başlayacağının, otuz il ərzində ermənilərin

qurutduğu bütün bulaqların bərpa ediləcəyinin və digər möhtəşəm planların xoş xəbərini verdi. Şuşa şəhərində istilik təchizatı sisteminin layihələndirilməsi, tikintisi və quraşdırılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 8 may 2021-ci il tarixli, 2642 nömrəli Sərəncamı verdi. Sərəncama əsasən Şuşa şəhərində növbəti istilik mövsümündə 31 binanın isitmə və isti su ilə təmin edilməsi üçün qazanxanaların, binadaxili sistemlərin layihələndirilməsi, tikintisi, quraşdırılması məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinə ilkin olaraq 1 milyon manat vəsait ayrılmışdır. Bugünə qədər imzalanmış bütün bu Sərəncamlar, Şuşanın əvvəlki statusunu və şöhrətini bərpa etməklə yanaşı, onun tarixi və əzəli Azərbaycan torpağı olduğunu, xalqımızın bu ərazilərdə çoxəsirlik mədəniyyətə sahib olduğunun, milli- mədəni və tarixi irsimizin dərin köklərə malik olduğunu bütün dünyaya nümayiş etdirmiş olacaqdır. Ali Baş Komandan mayın 12-də Şuşada, Cıdır düzündə keçirilən Xarıbülbül festifalından dünyaya qürurla bəyan etdi ki, biz bu ənənəni bərpa etdik və bundan sonra Xarıbülbül musiqi festifalı Şuşada hər il təşkil olunacaq. Bu layihələr azad olunan ərazilərin, inzibati tarixi və mədəni abidələrin bərpası ilə yanaşı həmdə tarixi torpaqlarımızda illərdi keçirilməyən mədəni tədbirlərimizin, ənənələrimizin bərpasını əhatə edir. Beləliklə, işğaldan azad olunan Şuşa günü-gündən dahada dirçəlir. Mayın 12-13 də Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festifalı bunun əyani təstiqidir. Bununla yanaşı, 2022-ci il martın 31-də Beynalxaq Türk Mədəniyyət Təşkilatına ( TÜRK SOY) üzv ölkələrinin Mədəniyyət Nazirliyinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasda Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçildi. İyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayibb Ərdoğanın təkbətək görüşündən sonra "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibəti haqqında Şuşa Bəyannaməsi" imzalandı. Həmçinin 2022 aprelin 22-23 də dünyanın 65 ölkələrindən 400-dən çox soydaşımızı bir araya yığan Dünya Azərbaycanlılarının V Zəfər Qurultayının Şuşada keçirilməsi bir daha sübut etdi ki, Şuşa bizim üçün böyük siyasi məna kəsb edir. Xüsusi qeyd etmək olar ki, Zəfər Qurultayında 230-a yaxın xarici vətəndaş, 36 alim və 36 iş adamı iştirak etmişdir. Cənab İlham Əliyevin Zəfər Qurultayında konseptual xarakter daşıyan nitqi postmünaqişə dövründə ölkəmizin mövqeyi ilə yanaşı, diazpor fəaliyyətinin inkişafı üçün də əsas hədəfləri aydın göründü. Əlavə olaraq, qeyd etmək olar ki, 18 mart 2022- ci ildə Şuşa şəhərində keçirilən Azərbaycan- BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantıda Azərbaycanın yeni prioritetləri və imkanları müazkirə olundu. Bu baxımdan, 2022-ci ildə keçirilən tədbirlər bir daha sübut etdi ki, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa artıq siyasi fikir, ictimai düşüncə və diplomatiya mərkəzinə çevrilməkdədir. Qısa zaman ərzində Qarabağda, o cümlədən Şuşada aparılan yenidənqurma, bərpa- quruculuq işləri mədəniyyət paytaxtına gələnləri heyran qoyur. Dövlət başçısının mesajları dünyanın digər aparıcı kütləvi informasiya vasitələrinin diqqət mərkəzindədir. Şuşanın bərpası ilə bağlı dövlət başçısı tərəfindən verilən lazimi göstərişlərə əsasən qısa müddət ərzində çox böyük işlər görülüb. Əminliklə demək olar ki, Şuşa tezliklə əvvəlkindən daha da abad olacaq. Hər bir azərbaycanlı üçün milli fəxarət və qürur mənbəyi olan azad Şuşanın keçmişini gənc nəsilə çatdırmaq təhsil müəssisələrimiz və hər bir təhsil işçilərinin qarşısında duran vacib vəzifələrdən biridir. İndi Şuşalılar həm qurup-qurup öz doğma şəhərinə gəlib ziyarət edirlər, həm də burada artıq açılmış obyektlərdə işləyirlər. Belə ki, cari il çərçivəsində Şuşada quruculuq daha geniş vüsət alacaq. Bütün bunlar bizim üçün çox qürurvericidir. Bir sözlə 2022-ci ildə Qarabağımızın gözü olan Şuşa şəhərinin bərpası və yenidən qurulması davam edəcək. Milli- mədəni irsin qorunması prosesinin davamı olacaq. Xalqımız üçün müqəddəs olan bu şəhərə çoxsaylı səfərlər təşkil olunacaq. Şuşa öz tarixi keçmişini qaytaracaq və bütün dünya bu şəhərdə baş verən möhtəşəm hadisələrin şahidi olacaq. Vətən uğrunda canlarından keçmiş qəhraman şəhidlərin əziz xatirəsinə həsr edilmiş möhtəşəm "Xarıbülbül" musiqi festifalı düşmənə, bu müqəddəs şəhərə yad olan ünsürlərə həmdə cavab oldu. Nəticədə, Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtını, Xarıbülbül Qarabağın azadlıq simvoluna çevrildi.

**Elchin Huseyn Mammadzada**
Azerbaijan State Economic University
International Master's and Doctoral Centre (BMDM), Group 640
elchin.mamedzade110@gmail.com

## Cultural Importance of Shusha and its Socio-economic Revitalization

### Abstract

Shusha, Karabakh. Culturally and historically, one of the most important fortresses of Azerbaijan. It has graced us with many musicians, artists, sculptors, and philanthropists. Being a socio-economic powerhouse since its establishment, Shusha played a major role in terms of expanding and enriching the Azerbaijani cultural heritage, safeguarding it against foreign cultural influences. Sadly, the Armenian occupation of 28 years has wreaked havoc and demolished many influential cultural, religious, and economic sites of the region. In this article, we will be looking at the history and culture of Shusha city, its former economy – before, during, and after the Armenian occupation, and the outcome of the Second Karabakh War. We will be analysing analogous cities that were destroyed or affected by wars, their rebuilding strategies and regaining their former elegance, to compose a roadmap of logical steps for the restoration and resettlement of Shusha. This article will also cover the socio-economic conclusions of the 2020 war that resulted in the liberation of occupied territories, and the future policies necessary to rebuild a safe and self-sustained community.

**Keywords**: Shusha, Cultural heritage, Socio-economic analysis, Development strategy, Second Karabakh War, Self-sustaining economy.

The city of Shusha – the cultural capital of Azerbaijan. Being one of the most charming places in the country, it is, without a doubt, a significant part of the Azerbaijani identity. Dating back to the khanate era of the country's history, the city played an important role in not only enriching but also preserving the Azerbaijani culture that was against ever-growing Perso-Russian cultural influence. Shusha was founded in 1752 by Panah Ali Khan Javanshir, the khan of Karabakh khanate. Initially named "Panahabad" after its founder, the city historically had a crucial geostrategic position, situated 1600 metres above sea level in the mountainous region of Karabakh. Given its defensive and hard-to-invade position, the fortresses of Bayat and Shahbulag were also built in the years 1748 and 1752, respectively.

Shusha is considered one of the cradles of Azerbaijani cultural heritage, being the birthplace of many well-known composers, writers, painters, and all things art related. From the famous names of Uzeyir bey Hajibayli, Murtuza "Bulbul" Mammadov and Yousif Vazir Chamanzaminli to prominent female figures of the East, such as Khurshidbanu Natavan, daughter of the last Karabakh khanate, a poetess and philanthropist, and Surayya Agaoglu, Shusha-born attorney of Azerbaijani descent who became the first female lawyer of Türkiye. Countless distinguished aristocrats and artists of Shusha have contributed to the cultural and economic prosperity of not only the region but Azerbaijan as a whole throughout history.

One of the most notable aspects of Karabakhi culture is the art of carpet-weaving, also known as rug-hooking. Azerbaijani carpets and rugs are traditionally divided into four distinct types called "schools", with Karabakh school being the pride and joy of national rug-making. Thus, rug production is not merely a cultural aspect but is also an economic backbone of the region. Certainly, this was the case throughout antiquity, proven by preservation attempts of the traditions country's officials and noblemen strived for. Hence, Shusha Carpet Museum got established on the 19$^{th}$ of May 1987, beginning its activity in the 18th-century mansion belonging to General Samad bey Mehmandarov.

The carpet-weaving itself in this part of the country is remarkable compared to other schools. Due to the specifics of the local sheep breeds, the Karabakh rugs are known for their dense and fluffy pile. They are distinguished by their artistic and technological ways of production and their size. These rugs are known for their vivid and flamboyant colours, symbolizing the nature of Karabakh. The ornaments widely utilize flower and vegetative motives made in a geometrically symmetric manner. Some rugs feature "tamgha" ornaments – emblems of the Turkic tribes, clans, and families.

In particular, the tamgha of the Bayandur tribes can be seen on various rugs. The rugs are also usually bigger in size compared to their counterparts from other regions, and have an oblong shape, because people in Karabakh, especially Shusha, traditionally lived in big, oblong rooms. They were placed on floors and walls not only for aesthetics and decoration but also to protect from the harsh winter of the mountains. Indeed, settled at an altitude higher than a kilometre, it is certain that the carpeting culture in Shusha was flourishing partly because of obvious necessity.

The carpet-weavers of Shusha are also known on the international stage since the 19th century. Notable names of Meshedi Bayram Gurban-oglu, Djabbar Haji Akber-oglu, Fatima Aga Sherif-gizi and Ahmed Dashdamir-oglu, participants of “Exposition Universelle” were awarded prizes in the international show of 1867 that took place in Paris.

It is also noteworthy that Khurshidbanu Natavan participated in the same international show of 1867 with the famous breed of horses of Karabakh. “Khan” the horse won a silver medal in the international show. Natavan continued to participate in international shows and exhibitions, winning various medals, forever cementing the legacy of the Karabakh horse breed. Indeed, this horse breed is well known for its speed and calm temperament. In the earlier days of the breed’s history, the main farm was situated in Karabakh khanate. Karabakh horses were purebred, were not offered for sale and would only be granted as presents. The tradition is followed to this day. On the 16th of May 2022, a Karabakh horse named Shohrat (Glory) was presented to the late Queen Elizabeth II as a gift from President Ilham Aliyev of Azerbaijan. Despite holding the status of an exquisite gift, the breed was nevertheless exceedingly sought-after by foreign nobles. Being especially popular in Europe, a large sale of 60 mares by an English company was documented back in the 19th century.

Regrettably, much of the Shusha’s cultural heritage was endangered by the barbaric invasion of Armenian ravagers. An unreasonable number of cultural items and elements, influential historical and religious sites, economically significant points of interest including diverse workshops and plenty of stud farms, were either relocated, displaced, destroyed, misappropriated, or outright lost to time because of the illegitimate occupation of Armenian forces. From using minarets of mosques as shooting targets to their Generals glorifying the Armenian tradition of burning locals’ houses on media, believing this would intimidate, demoralise, and dishearten natives from returning to their motherland. All these preposterous attempts at erasure and misappropriation of Azerbaijani cultural prosperity were accurately documented by both local and global governments. In 1997, the methodical eradication of Azerbaijani gravestones of Shusha was documented by British journalists. As of 2002, more than 80% of the city was in ruins.

Casual attempts were made by the government of Armenia and its diaspora to “revitalise” the region by creating the “Hayastan All Armenian Fund”, which would rebuild major infrastructures damaged in the wars of the ‘90s and invest in local businesses. However, surface-level research presents us with the reality, that the “tax-exempt” and “non-political” fund based in the United States of America has only donated a fraction of the raised funds that are in the hundreds of millions, in the 28 years of occupation. Hardly helping the economy, Shusha witnessed little to no development in the years of invasion – a few renovations and the building of a handful of small offices. The only notable contribution of the “Armenia Fund” was the construction of hotels in the city.

After the Second Karabakh War, taking place in the autumn of 2020, the condition of Karabakh and Shusha was witnessed by the global governments. The city was in a state of decay and disrepair, with ruins everywhere, and burning houses of fleeing illegal Armenian settlers in the background. Seizing control from the occupiers on the 8th of November, the Azerbaijani government achieved control over the city of Shusha, which in turn forced Armenia and the pseudo-regime of Karabakh to capitulate. Signing a ceasefire agreement on the 10th of November, the Armenian forces were tasked with the withdrawal of the armed forces and handing over the remainder of the illegally occupied territories.

Entering the city, the condition of the infrastructure and native settlements were in grievous neglect and collapse. Attempts at the systemic erasure of the local culture were evident. Reconstruction and repair projects were launched as soon as the war ended, such as building crucial motorways leading to and from Shusha and providing a constant and reliable source of fresh water to the city. An evaluation of physical and ecological damage was issued to observe and document the extent of the destruction, and plan future stages of the restorative processes accordingly. The current

position Azerbaijan is in is comparable to the Ally forces of World War II – having cities razed to the ground with no infrastructure left to repair, everything must be reconstructed from the ground up.

The outcome of near 30 years of unsanctioned occupation of Shusha reminds us of the condition of London in the ‘40s, which was a bomb-shelled husk of itself due to the fascist Nazi regime. The death toll exceeded 30,000 people, with a further 50,000 injured. The city’s lifeline infrastructure points were devastated and hindered useless due to the constant aerial bombardment of the war times. Nearing the end of the war, rebuilding plans were already in the making as the Allies were turning the tides against the oppressors. The Greater London Plan of 1944 had been prepared as a blueprint for the reconstruction of the war-torn city and relocation of displaced Londoners, supplying them with jobs in new towns in and around the city. The city had experienced substantial deindustrialization by this time, with old industries that had been installed in Victorian times collapsing and many newer industries, dating from the interwar years sharing the same fate. London’s economy had become increasingly geared to financial transactions and many other kinds of service activity. These sectors of the economy were strengthened by legislative changes in the mid-‘80s affecting financial dealings. In consequence, the townscape of many parts of the city was transformed as vast new office complexes were constructed, supplying jobs to many citizens. For a strategic revival of the local cultural heritage and economy, the planning of Shusha city’s recovery phases has to follow in the steps of formerly war-affected cities, analogous to post-war London. As a major city – the capital of a G7 country, the scale of both cities must be taken into account when composing sound policies for Shusha’s reconstruction.

Similar to Shusha in scale, Ilfracombe, the United Kingdom is another example of a region flourishing economically despite its size. Being a seaside resort with an attractive panoramic view of the sea, Ilfracombe is a glorious town beloved by tourists, locals and foreigners alike. The progress of the local economy relies on tourism and maritime activities. The town gradually developed into a tourist resort served by ferries along the Bristol Channel. The opening of the railway accelerated this development. This, in turn, facilitated the growth of the local population. A seasonal passenger ferry connects the harbour of the town with a nearby island. Pleasure boats operate seasonal cruises from Ilfracombe, including crossings to a close by Welsh town. A catamaran-based ferry service was also developed as a tourist attraction. The town was also provided with major investments by engineering and maritime companies.

Analysing the implemented policies in the mentioned cases gives a clear path towards economic prosperity in the cultural capital of Azerbaijan. Arrangements towards demining and further demilitarisation of the region should take utmost priority in the development of Shusha. Unexploded shells and munition are a danger and a limiting factor towards a steady reconstruction of the city. Fortunately, countries around the globe are observing and acknowledging the unfathomable amount of mining in civilian areas of the region. On September 11$^{th}$ of 2022, the US government allocated 2 million USD in assistance for demining operations in areas affected by the conflict. A further attraction of investment is also a top priority in terms of the safety and security of the region.

Subsequently, a general construction plan for the city must be made in order to preserve and secure the city’s culturally important heritage sites. The rich legacy of Shusha consists of streets and squares, stronghold walls, palaces, churches and mosques, mausoleums, springs, and houses of city aristocracy. The invaluable historical importance of Azerbaijani architecture of the XVIII-XIX centuries must be preserved. It is for this reason that in 1977 was declared a historical and architectural reserve of the Azerbaijan Republic. Modern design plans for new constructions and buildings should be composed in a way to not clash with the pre-existing pinnacle of the architectural brilliance of the city.

Economically critical components of the city must be brought to the forefront. Reconstruction of historical workshops, stud farms and animal pastures is necessary, alongside the building of new plants and factories in the textile industry. Specialisation in such parts of the industry will provide work for local citizens, restore culturally important economic sectors, and reliably boost the development of not only the city but also the whole region. This, in turn, will invite many investment opportunities to the region and the country overall. Rug-hooking is one of the most alluring sectors, given the fact that it is profoundly developed throughout the whole country and has deep historic values to Shusha itself. Indeed, the Karabakh school of carpetmaking is one of four centres of

traditional rug-weaving in Azerbaijan. “Azerkhalca” OJSC, the leading company in traditional rug-weaving is spearheading the plans for the industrialisation of the liberated territories. The planned factories will facilitate in economic self-sustainability of the region. They also emphasise and secure the safety of Azerbaijani cultural heritage from being harmed and misappropriated by foreign influences. Practising and further enhancing the art of rug-weaving in tandem with the industrialisation of the company will lead to a prosperous future for the region. Employing local female citizens who have inherited the arts of handcrafting rugs from generation to generation, and engineers who will incorporate those skills, increasing the output of the industrial machines and promoting the amount of production, resulting in the expansion of the economy. With a corresponding approach, both foreign and local investors will be interested to work in the region, and Shusha being the heart of the liberated territories, will be the main headquarters of economic plan-making.

All the efforts are focused on safeguarding the Karabakhi cultural heritage and creating a self-sustaining economy for the displaced who are eagerly waiting to return to their hometown. Restoring the demolished museums and broken-down statues used as target practice, cleaning up and renovating religious places – mosques, utilised as barns to mock Azerbaijani religious identity, and churches, exploited as a “cultural genocide” playing card to the pseudo-regime to put a veil over the eyes of global observers. The indicated socio-political commentary and policy of self-destruction was in vain though, as it only made the situation worse, endangering the cultural and historical significance of the region.

Similarly, another exceptional path to cultural recognition and security of Shusha is the expansion of the tourism sector. Having similar characteristics to the abovementioned English town of Ilfracombe, it is discernible that tourism has a lot of potential in Shusha. Shusha’s touristic potential is tremendous, for the city is charming in all seasons. The lush plains of Jydyr in the spring, the clear skies of the city in summer, the golden “khezan” of falling tree leaves in autumn, and the snowy hilltops of winter – there is always interest in tourism when it comes to Shusha. Constructing hotels and services to the virtuous standards of Azerbaijani hospitality will show the true colours of the country’s beauty. This will further contribute to the local economy by establishing more jobs for natives to work at, additionally lengthening the economic chain of self-sustainability.

The city of Shusha remains a culturally important part of Azerbaijan as it historically was. Current socio-political advancements are mainly focused on the secure and stable development and safety of the territories. Economic growth is focused on the region to turn the war-torn hometowns of near a million displaced people into habitable places, that would be self-sufficient and bring all the comforts they had. The steadfast development of the region is being observed and praised globally, prompting interested countries to sign deals and invest in the Azerbaijani economy, further elevating Azerbaijan to be a nation worthy of international applause and commendation, and solidifying the progress of our nation.

**References:**


1. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 7th May 2021.
2. Journal “Коммерсантъ Власть”, “Весеннее оживление в Нагорном Карабахе”, 6th April 1992.
3. UNESCO World Heritage Convention, Tentative lists, “Shusha historical and architectural reserve”, 24th October 2022.
4. https://karabakh.org/karabakh-culture/carpets/karabakh-carpets/
5. https://karabakh.org/karabakh-culture/architecture/karabakhs-cult-architecture/
6. www.virtualkarabakh.az
7. Armenian barbarism towards Shusha’s mosques, modern.az, 19th April 2012.
8. https://supremecourt.gov.az/en/static/view/305
9. Encyclopædia Britannica, "Azerbaijan" Cultural life, Online Academic Edition, 2007.
10. Mattew O'Brien. “Uzeir Hajibeyov and His Role in the Development of Musical Life in Azerbaijan” – Routledge, 2004. – С. 211. – ISBN 0-415-30219-6, 9780415302197.
11. “Newspaper: Armenia government to continue funding “Hayastan” Fund”, 5th October 2015.

12. Institute for War and Peace Reporting, "Shusha Armenians recall their bittersweet victory", 10th May 2002.
13. https://www.britannica.com/place/London/Reconstruction-after-World-War-II
14. "About TDK-Lambda UK", 18th October 2020.
15. Bowring, Ilfracombe, 1931 p.16.
16. Ilfracombe Official guide, 1935. p.1.
17. "Bomb-Damage Maps Reveal London's World War II Devastation", nationalgeographic.com.au. 18 May 2016.
18. The Karabakh horse breed, "Конный мир".
19. Naroditskaya, Inna (2000). "Azerbaijanian Female Musicians: Women's Voices Defying and Defining the Culture". Ethnomusicology. Ethnomusicology, Vol.44, No.2.44 (2): 234-256.
20. "US allocates $2 mln for demining operations in Karabakh", report.az, 12th September 2022.

---

**Quluzadə Yasəmən Əlövsət qızı**
Azərbaycan Kooperasiya Universitetinin dissertantı
yasamanquluzada@gmail.com

## Azərbaycan xarici ticarət əlaqələrinin milli iqtisadiyyata təsirinin səmərəliliyinin qiymətləndirilməsi

**Xülasə**

Məqalədə Xarici ticarət əlaqələrinin milli iqtisadiyyata təsiri ilə bağlı müxtəlif yanaşmalar araşdırılmışdır. Hətta beynəlxalq səviyyədə belə bu əlaqələri ölçmək, qiymətləndirmək üçün ölkələr üzrə reytinqlər tərtib edilmişdir. Azərbaycan xarici ticarət əlaqələrinin milli iqtisadiyyata təsirinin səmərəliliyini yüksəltmək üçün qlobal bazarlarda baş verən prosesləri də nəzərdən keçirilmişdir. Xarici ticarət ölkə iqtisadiyyatının "güzgüsü" olduğu üçün ixracın və ya idxalın strukturu ilə yaxından tanış olunmuş bunlarla bağlı məlumatlar əyani şəkildə təqdim edilmişdir.

**Açar sözlər:** xarici ticarət, milli iqtisadiyyat, səmərəlilik, ixrac, səmərələliyin qiymətləndirilməsi.

**Резюме**

**Оценка эффективности влияния внешнеторговых отношений азербайджана на национальную экономику**

В статье были рассмотрены различные подходы, связанные с влиянием внешнеторговых отношений на национальную экономику. Даже на международном уровне для стран были составлены рейтинги для измерения и оценки этих отношений. В целях повышения эффективности влияния внешнеторговых связей Азербайджана на национальную экономику были также рассмотрены процессы, происходящие на мировых рынках. Поскольку внешняя торговля является «зеркалом» экономики страны, информация о структуре экспорта или импорта представлена в наглядной форме.

**Ключевые слова:** внешняя торговля, национальная экономика, эффективность, экспорт, оценка эффективности.

**Summary**

**Assessment of the effectiveness of the impact of azerbaijan's foreign trade relations on the national economy**

In the article, various approaches related to the influence of foreign trade relations on the national economy were examined. Even at the international level, rankings have been compiled for countries to measure and evaluate these relations. In order to increase the efficiency of the influence of Azerbaijan's foreign trade relations on the national economy, the processes taking place in the global markets were also reviewed. Since foreign trade is a "mirror" of the country's economy, the information related to the structure of export or import is presented in a visual way.

**Keywords:** foreign trade, national economy, efficiency, export, efficiency evaluation.

Xarici ticarət əlaqələrinin milli iqtisadiyyata təsiri ilə bağlı müxtəlif yanaşmalar var. Hətta beynəlxalq səviyyədə belə bu əlaqələri ölçmək, qiymətləndirmək üçün ölkələr üzrə reytinqlər tərtib edilir. Belə yanaşmalardan biri də iqtisadiyyatın mürəkkəbliyi indeksidir (economic complexity index). Əslində bu indeks birbaşa ölkə iqtisadiyyatının və xarici ticarət əlaəqlərinin səmərəliliyini xarakterizə edən göstəricilərdən biridir. İqtisadi müərəkkəblik indeksi (ECI) ölkə ixracının müxtəlifliyini, (ixrac etdiyi məhsulların sayı) və məhsullarının hər yerdə olması (həmin məhsulu ixrac edən ölkələrin sayı) haqqında məlumatları birləşdirərək, ölkənin istehsal strukturunun mürəkkəbliyini ölçür. İqtisadiyyatın mürəkkəbliyi indeksi təkcə ölkənin ixrac olunan mallarının mürəkkəbliyini xarakterizə etmir, eyni zamanda ixracın diversifikasiyasını da xarakterizə edir. Bu baxımdan Azərbaycanın iqtisadiyyatının xüsusilə də ixracın nə dərəcədə diversifikasiya olunduğunu bilmək üçün aşağıdakı cədvələ nəzər salaq.

**Cədvəl 1**

**Ölkə ixracının müəkkəbliyi indeksi**

| Rang | Ölkələr | İqtisadiyyatın müəkkəbliyi indeksi (Economik complexity index) (ECİ) | Son beş ildə dəyişiklik |
|---|---|---|---|
| 1 | Yaponya | 2.43 | = (dəyişməyib) |
| 2 | İsveçrə | 2.17 ⇧ | 1(bir pillə irəlləyib) |
| 3 | Cənubi Koreyya | 2.11 ⇧ | 4(dörd pillə irəlləyib) |
| 4 | Almaniya | 2.09 ⇩ | **2** (iki pillə geriləyib**)** |
| 5 | Sinqapur | 1.85 | = (dəyişməyib) |
| **Daha mürəkkəb yüksək sıralama** | | | |
| ...... | ...... | ...... | ...... |
| 123 | Yemən | -1.31 ⇩ | **1**(bir pillə geriləyib**)** |
| **124** | **Azərbaycan** | **-1.37** ⇧ | **1(bir pillə irəlləyib)** |
| 125 | Konqo | -1.42 ⇧ | 3(üç pillə irəlləyib) |
| 126 | Qabon | -1.43 ⇧ | 4(dörd pillə irəlləyib) |
| ...... | ...... | ...... | ...... |
| 133 | Nigeriya | -1.92 ⇩ | **2** (iki pillə geriləyib**)** |

**Mənbə:** Economik complexity index

Göründüyü kimi, 133 ölkə arasında Azərbaycanın iqtisadiyyatının və ixracının mürəkkəblik əmsalı olduqca aşağıdır. Ölkə ixracının uzun müddətdir ki, xammal və aralıq məhsullardan ibarət olması, eləcdə ixracın strukturunda daha çox neft və neft məhsullarının olması eləcədə, ölkənin xarici ticarət əlaəqlərinin səmərəliliyini qiymətləndirmək üçün apardığımız müxtəlif aspektli təhllilər onu deməyə əsas verir ki, ölkənin ticarət əlaəqləri elə də cəmərəli formalaşmayıb.

Xarici ticarət ölkə iqtisadiyyatının "güzgüsü" olduğu üçün ixracın və ya idxalın strukturu ilə yaxından tanış olduqda belə mənzərəni əyani şəkildə təqdim edir.

Azərbaycan xarici ticarət əlaqələrinin milli iqtisadiyyata təhsirinin səmərəliliyini yüksəltmək üçün qlobal bazarlarda baş verən prosesləri də nəzərdən keçirməlidir. Başqa sözlə, qlobal bazarlarda gedən proseslərin də milli iqtisadiyyata təsirinin nəzərə alınması məqsədəuyğundur. Belə ki, Dünya Bankının (DB) əmtəə və xidmətlər bazarları ilə bağlı son hesabatında 2021-ci ildə enerjinin qiymətləri 68%, qeyri-enerji qiymətlərin 15%, ərzaq qiymətləri 12.7% artağını qeyd etmişdir. Əhalinin tələbatı üçün zəruri olan ərzaq məhsullarının bahalaşması BMT-nin Ərzaq və Kənd Təsərrüfatı təşkilatının (FAO) illik hesabatlarından da görmək mümkündür. Xatırladaq ki, qlobal bazarlarda daha çox bahalaşan kənd təsərrüfatı məhsulları içərisində yağ, şəkər, un və ət məhsullarının qiymətlərinin yüksəldiyini göstərmək olar.

Qlobal aləmdə baş verən COVİD-19 riskinin azalması və peyvəndləşmə proseslərinin müsbət nəticələri neftindən də qiymətlərinəmüsbət təsir etməyə başlamışdır. Belə ki, 2021-ci ilin əvvəlindən pendemiyaya qarşı peyvənd, müalicə və iqtisadi inkişafa dəstəyin davam etməsi iqtisadi canlanmanın bərpasını sürətləndirmişdir. Bu dövrdə əmtəə qiymətləri indeksinin yüksəlməsi əmtəə istehsalçıları

arasında iqtisadi aktivliyin güclənməsinə səbəb olmuşdur. Bu dövrdə qlobal dəyər zənciri katalizator rolunu oynaya bilmişdir.

Hazırda valyuta məzənnəsi ixrac və idxalın gəlirlilik həddinə, daxili qiymətlərin səviyyəsinə, ayrı-ayrı müəssisələrin və bütövlükdə ölkənin maliyyə vəziyyətinə, onun sabitliyinə və əhalinin həyat səviyyəsinə fəal şəkildə təsir göstərməyə başlayıb. Buna görə manatın məzənnəsinin milli iqtisadiyyata təsiri ilə bağlı vəziyyəti nəzərdən keçirək. Bunun üçün ilk növbədə nominal və real effektiv məzənnəyə nəzər salaq.




**Şəkil 1. Nominal və real effektiv məzənnə**

Şəkil 1-dən göründüyü kimi 2012-2021-ci illərdə demək olar ki, bütün dövrlərdə manatın nominal effektiv məzənnəsi ilə real effektiv məzənnəsi arasında ciddi fərqlər olmuşdur. Nəzəri baxımdan nominal effektiv məzənə ilə real effektiv məzənnə arasında fərq nəq qədər az olsa bir o qədər səmərəlidir. Təhlil üçün götürülən bütün dövrlərdə real effektiv məzənnə nomial effektivdən çox olmuşdur.




**Şəkil 2. Qeyri nominal və real effektiv məzənnə**

Deməli, Mərkəzi Bank valyuta bazarına müdaxilə edərək valyuta məzənnəsini tənzimləməyə çalışmışdır. Qeyri-neft sektoru üzrə nominal və real effektiv məzənnənin dinamikasını da nəzərdən keçirmək məqsədəmüvafiq olardı.

Qeyd edək ki, nominal valyuta kursu dedikdə iki ölkənin valyutalarının nisbi qiyməti nəzərdə tutulur. Daha doğrusu bir valyutanın digər valyuta vahidi ilə qiymətidir. Bir qayda olaraq valyutaların dəyişmə kursu termini nominal valyuta kursunun işarə edilməsi üçün istifadə edilir.Real valyuta məzənnəsi dedikdə iki ölkədə istehsal edilən malların nisbi qiyməti başa düşülür. Belə ki, real valyuta məzənnəsi bir ölkənin mallarının başqa ölkənin mallarına dəyişməsini xarakterizə edən nisbətdir. Real valyuta məzənnəsi bəzən ticarət şərti indeksi kimidə müəyyən olunur.

Valyuta kurslarının dəyişməsi nəticə etibarilə milli pul vahidləri arasındakı nisbətin dəyişməsi ilə əlaqədar olsada nəticə etibarı ilə valyuta kursu ilə ticarət balansı arasında müəyyən bir əlaqənin olduğu artıq nəzəri baxımdan sübut olunmuşdur. Buna görə də hər hansı bir ölkənin milli pul vahidinin nominal və real məzənnəsinin formalaşmasında xarici ticarətdə tərəf müqabili olan ölkələrin təsiri böyükdir. Belə ki, əgər hər hansı bir ölkə tərəf müqabili ölkələrlə idxal-ixrac əməliyyatlarında mənfi saldoya malikdirsə, deməli onda idxal əməliyyatları üçün ödənilən pul vəsait-ləri ixrac əməliyyatlarından daxil olan vəsaitlərdən azdır. Bu isə milli valyutanın məzənnəsinə mənfi təsir edərək ölkədə inflyasiya prosesinin baş verməsi üçün əsaslı şərait yaradır. Belə olan halda dövlət özünün milli valyutasının məzənnəsini tənzimləmək zərurəti ilə üzləşir. Milli valyutasının məzənnəsini tənzimləmək üçün dövlət adətən özünün valyuta ehtiyatlarından istifadə edir. Valyuta ehtiyatlarının azalması öz növbəsində milli valyutanın məzənnəsinin aşağı düşməsinə səbəb olur. Milli valyutanın məzənnəsinin aşağı düşməsi ona görə baş verir ki, ölkə hüdudları çərçivəsində sərbəst dönərli valyuta milli valyutaya nisbətən adətən məhdud olur. Milli valyutanın məzənnəsinin aşağı düşməsi idxalı bahalaşdırır. Bu da ölkə daxilində qiymətlərin qalxmasına, inflyasiyaya və bir sıra mənfi halların baş verməsinə səbəb olur. Milli valyuta kursunun məzənnəsinin yüksəlməsi isə ölkənin valyuta ehtiyatlarının artmasına və milli valyutanın dəyərinin artmasına səbəb olur.

**Ədəbiyyat siyahısı:**

1. Yadulla Həsənli “Statistika” (Praktiki nümunələrlə) Bakı-2014 s.564
2. https://www.stat.gov.az/
3. https://www.economy.gov.az
4. doingbusiness.org
5. worldbank.org.
6. Elsevər Kərimov, Bəşir Osmanov İqtisadi nəzəriyyə (Mikro-Makroiqtisadiyyat) Bakı-2010 səh.634.
7. G.Ə.Gənciyev, Ə.R.Ələkbərov, Ə.A.Qurbanova Dünya iqtisadiyyatı tarixi və ölkələrin müasir durumu Bakı 2013 səh. 414

---

**Günel Rəhimli**
Baki Ali Neft Məktəbi
Kimya mühəndisliyi (4-cü kurs (KM19.2)
gunelrahiml4@gmail.com

## Şuşada mədəniyyət iqtisadiyyatının inkişaf etdirilməsi yolları

**Xülasə**

Mədəniyyət, Atçılıq, Xalçaçılıq, Memarlıq, Qoruqlar

Şuşa Azərbaycann ən qədim mədəniyyət incilərindən biridir. Azərbaycan mədəniyyətinin köklərindən biri olan Şuşa şəhərini "Kiçik Paris", “Qafqazın sənət məbədi”, “Azərbaycan musiqisinin beşiyi”-də adlandırırlar. Şuşa haqqında belə bir kəlam vardır ki, "Şuşada körpələr belə bəlkə də muğam üstündə ağlayarlar." Şuşa şəhəri dahi bəstəkarlar və müğənnilər yetişdirmişdir onlardan Xarrat Qulunun, Sadıxcanın, İslam Abdullayevin, Bülbülün, bəstəkarlardan Üzeyir Hacıbəyovun, Niyazinin, müğənni Rəşid Behbudovun adını böyük fəxarətlə qeyd edirik.

Şuşa musiqisi, bayatıları və xalq yaradıcılığı Azərbaycan milli mədəni tarixində xüsusi yer tutur. Ölkənin daim bu musiqilərə göstərdiyi dəyər onların günümüzə qədər gəlib çıxmasına səbəb olmuşdur. Şuşa tarixinə nəzər salsaq görə bilrək ki, toxuçuluq, boyaçılıq, maldarıq xüsusilə də atçılıq regionun iqtisadiyyatında böyük yer tuturdu. Qarabağ, xususi ilə də Şuşa və Ağdam atları, öz dözümlülüyü və qaçış sürətinə görə bütün Qafqazda və Avropada şöhrət qazanmışdır. Şuşanın xususi relyefinə uyğun yetişdirilmiş bu atlar təkcə təsərüfat və minik vasitələrini əvəz etmir, həmçinin yarış və satış məqsədləri üçündə böyüdülürdü. Şuşa atları öz xususiyyətləri və görünüşünə görə cins atlar hesab edilirdi və tarixi mənbələrə əsasən, onların dəyəri təmiz qanlı ərəb köhlənləri ilə bir tutulurdu. Bu atların xarakterik xüsüsiyyətləri möhkəm əzələli bədən quruluşuna, nisbətən kiçik başları, daha iri gözləri və nazik dəriyə sahib olmaları hesab edilir [5].

Qeyd etmək lazımdır ki, tarixi və etnoqrafik mənbələrdə Qarabağ atlarının Şahmar, Qarnı yırtıq, Əlyetməz, Ceyran, Səlminaz, Maymun (Xoşbəxt) və digər növləri qeydə alınmışdır. Həmçinin, yerli şəraitə tam uyğunlaşa bilən, sürətli yerişi ilə seçilən və yorulmaq bilməyən bu minik atlarının təşəkkül tapmasını və cins kimi formalaşmasını burada yaşayan insanların yalnız maddi-təsərrüfat ehtiyacları ilə deyil, əsrlərdən bəri onların həyat tərzi, mədəniyyəti və milli adət-ənənələrindən irəli gələn amillərlə sıx bağlı olduğunu vurğulanır [2].

Öz şöhrəti ilə dünyada tanınan Qarabağ atlarının Polşa, İngiltərə, Fransa və Avropa ölkələrindən xususilə də qonşu ölkə Rusiyadan bir çox həvəskar müştəriləri var idi. Bu cinsdən olan ayqırlar yalnız minik və yarışlar üçün deyil həmçinin xaricdə olan atçılıq zavodları üçün döl məqsədi ilə də satın alınır və çoxaldılırdı. O vaxt Böyük Britaniyaya səfər edən Sovet höküməti rəhbəri Nikita Xruşşov İngiltərə kraliça II Elizabetə Ağdam Atçılıq Zavodundan olan "Zaman" adlı Qarabağ atı da bağışlayıb və bu hədiyyə cinsin tarixində önəmli hadisələrdən hesab edilir.

XIX yüzilliyin sonlarında ölkənin çar Rusiyasının tərkib hissəsinə çevrilməsi, feodal sosial-iqtisadi münasibətlərin süquta uğraması və həmin dövrlərdə maydanların əksəriyyətinin xarici dövlətlərə xususilə İngiltərə, İran və Avropa ölklərinə satılması Qarabağ atlarının zəifləməsinə səbəb

oldu. XX əsrin əvvəllərində baş verən bəzi hadisələr nəticəsində Qarabağ atlarının kökü kəsilmək təhlükəsiylə üzləşməkdə idi.

Lakin 1946-cı ildən etibarən Qarabağ atlarını xilas etməyə cəhdlər göstərilmişdir. Həmçinin, 8 oktyabr 2007-ci ildə "Atçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 580 nömrəli Fərmanının 1.4-cü bəndinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti "Atçılığın inkişafı üzrə Proqram"ı təsdiq etmişdir [4].

Hal-hazırda Azərbaycanda atçılığın inkişafı üzrə dövlət proqramında həmçinin qeyd olunur ki, hazırda dünya üzrə 260 cins atın ikisi Azərbaycana məxsusdur. Program üzrə qeyd olunan məlumatlara əsaslansaq, Azərbaycanda yetişdirilən 69 984 baş atin 20-22% - i "Qarabağ", 14%-i "Dilbaz", 8-10% "Quba yorğası" və "Kiçik Qafqaz", həmçinin "Şirvan" atları, 1%-i əsil "ingilis" və "ərəb" cins atlarına məxsusdur. Geridə qalanlar isə cins hesab olunmasalarda onların da yetişdirilməsinə xususi diqqət yetirilir [1].

8 noyabr 2020-ci ildə Şuşanın işgaldan azad olunmasından sonra atçılığın bu ərazilərdə bərpası və həmçinin Cıdır düzündə at yarışlarının geniş yayılması ərazidə Qarabağ mədəniyyətinin və iqtisadiyyatın inkşafina müsbət təsir göstrərəcəyi planlana bilər.

XVIII əsrin ikinci yarısından etibarən Qarabağda ən məşhur xalçalar Şuşa şəhərində toxunurdu. Həmin xalçalar həm gözəllikləri həm də keyfiyyətləri ilə dünyada məhşurlaşmışdılar və dünyanın ən məşhur müzeylərində bu gün də nümayiş etdirilirlər. Bu müzeylərə "Viktoriya və Albert", "Ermitaj" müzeyləri də daxildir. Şuşa xalçaları çox nazık, incə xüsusən də "dəst xalı-gəbə" kimi iri ölçülü olması ilə seçilirdi. Şuşa xalçalarının digər xalçalardan ayıran xüsüssiyyətlərindən biri də təbii boyaq maddələrindən istifadə olunması idi. Azərbaycanda yetişən 1500 növ boyaq bitkisinin böyük bir hissəsi Qarabağda mövcuddur və xalçaların toxunmasında istifadə olunan ipəklər bu boyaq vastələri ilə boyanırdı. İncəliyi, zərifliyi, rəngarəngliyi ilə seçilən "Ləmpə", "Qoca", "Bulud", " Bağçada güllər", "Saxsıda güllər" xalçaları və "Dəst xalı-gəbə" kimi xalçalar burada toxunub [6].

Həmin dövrlərdə xalça ticarəti böyük gəlir mənbəyi idi və bu da regionda iqtisadiyyatın inkişafına böyük təsir göstərmişdir. Hal-hazırda da bu sahədə böyük gəlir əldə etmək mümkündür. Yeni xalçaçılıq zavodları inşa edərək, bu xalçalar dünya bazarlarında satışa çıxarılarsa iqtisadi cəhətdən böyük gəlir əldə oluna bilər. Günü-gündən inkişaf edən ölkəmizdə tarixi dəyərlərimizə çox böyük əhəmiyyət verilir. Bu tarixi dəyərlərimizdən biri də xalçaçılıqdır. Bizim borcumuz bu dəyərlərimizi qoruyub saxlamaq və gələcək nəsillərə ötürməkdir.

Şuşanın mədəniyyətinə öz töhfələrini vermiş sahələrdən biri də memarlıqdır. Belə ki, şəhərin əsası Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşir (1693-1763) tərəfindən XVIII əsrin 50-ci illərinin əvvəllərində qoyulmuşdur. Qarabağ xanlığının yadelli hücumlarından qorunması üçün tikilən Şuşa qalası hər üç tərəfdən sıldırım qayalarla çevrələnmiş və coğrafi mövqeyinə görə dəniz səviyyəsindən təxminən 1400-1800 metr hündürlükdə yaylada yerləşirdi. Qalanın tikintisində Ərdəbilin və Təbrizin məhşur daş ustaları və memarları fəaliyyət göstərmişdirlər. Qalanın müdafiə divarları 2.5 km uzunluğunda daş və əhəng məhlulları ilə inşa edilmişdir. Memarlıq-konstruksiya tərəfdən hesablamalar zamanı artilleriyadan istifadə də nəzərə alınmışdı ki, bu da qalaya xususi strateji əhəmiyyət verirdi [2].

XVIII əsrin sonlarında Şuşa qalasının müdafiəsində iştirak etmiş tarixçi Yakov Zaxaryantsın sözləri bu məlumati bir daha təsdiqləyir: "Saat altıda, döyüşçülər Dövtələbdə toplaşdıqdan sonra isə bütün tərəflərdə yerləşdirilmiş 30 topdan atəş açılmağa başlandı. "Lakin, 1826-cı ildə Qacar ordusunun Şuşaya hücumu zamanı şəhərə çox saylı ziyanlar dəymişdir ki buna müdafiə divarlarını da aid etmək olardi. "Həmin dövrdə Şuşa qalası çox bərbad vəziyyətdə idi: bir çox yerlərdə onun müdafiə divarları dağılmışdı, bir hissəsi isə yerli sakinlər tərəfindən sökülmüş və ev inşası üçün daşları daşınmışdı; xəndəklər demək olar ki, dolmuşdu… Şuşanı müdafiəyə bacarıqlı vəziyyətə gətirmək lazım idi. "Mühasirəyə alınmış şəhər 10 günlük sülh razılaşmasından istifadə edərək "qala divarlarını elə bərpa edir ki, perslərin çoxsaylı döyüşçülərinin hücumlarını asanlıqla dəf edir." [1].

Qala uğurla bərpa edildiyinə görə, onun divarlarını hətta bu mühasirə zamanı istifadə edilmiş ingilis topları da dağıda bilmir. 1992 ci ildə Şuşanin ermənilər tərəfindən işğalından sonra şəhərdə yenidənqurmaya ehtiyac yarandı. 8 noyabr 2020 cı ildə işgaldan azad olunan Şuşada yenidənqurma işləri davam edir. Qalanın strateji və tarixi mövqeyini nəzərə alaraq, onu Şuşa şəhərinin ən görkəmli mədəni memarlıq abidələrindən biri hesab etmək olar. Bu onun gələcəkdə mədəni-mənəvi irsimizin

qorunmasında və həmçinin turistik məkanlardan biri olaraq iqtisadiyyata böyük təsir göstrəcəyini danılmaz edir.

Meşə sahələri Şuşa şəhərinin ətrafındakı torpaqların 20 faizini əhatə edir. Meşədə Palıd, Fıstıq, Qarağac və digər ağaclar bitir. "Qarabağnamə" lərdə qeyd olunub ki, 1975 Ağa Məhəmməd şah Qacarın Şuşaya ikinci yürüşü zamanı toplarını həmin meşədə yerləşdirib və şəhər divarlarını ordan vurumuş. Bir versiyaya görə şahın ordusu geri çəkilən zaman bir neçə yolunu bu meşədə unudur. Sonradan İbrahimXəlil xan bir dəstə süvari ilə Topxanaya hücum edib həmin topları məhv edib. Bu hadisədən sonra meşənin adı "Topxana" olaraq qalıb. Topxana meşəsi 1981-cı ildə yaradılan 450 hektar sahəni əhatə edən Daşaltı Yasaqlığının ərazisinə daxildir. Meşənin heyvanat aləmi canavar, ayı,dovşan quşlardan kəklik, Turac, göyərçin kimi gözəl heyvanlardan ibarətdir. Meşədə subalp-alp çəmənləri olub [5].

Bu meşənin Ağaclarının 1988-cı ildə Ermənilər tərəfindən kəsilməsi Azərbaycan Antisovet mitinqlərinə səbəb olub. Noyabrın 17- də yüzminlərlə Azərbaycanlı azadlıq meydanına toplaşaraq qırılan Topxana meşəsi ərazisində «Ermənistanın Kanaker alüminium zavodu"nun işçiləri üçün pansionatın tikilməsinə etiraz edib. Qarabağın işğalı zamanı topxana meşəsi də ermənilərin girovuna çevrilmişdir. Meşənin minlərlə qiymətli ağacı qırılıb və Ermənistana daşınıb. Topxananın bitki örtüyü və heyvanat aləmi də məhv edilib.

44 günlük vətən müharibəsi zamanı ermənilər meşəni fosfor silahları ilə yandırılıb Azərbaycan üçün böyük mənəvi əhəmiyyəti olan Topxana meşəsi də erməni əsirliyindən xilas edilib.

Qarabağ işğaldan azad ediləndən bəri bərpa işləri aparılır. Şəhərlərlə kəndlərlə yanaşı meşələrin də bərpası iqtisadiyyatimıza da çox böyük təsiri olacaqdır. Bizim təbii sərvətlərimiz təkcə mədəniyyətimizə deyil iqtisadiyyatımıza da çox böyük töhfələr verir.

**Ədəbiyyat siayhısı:**

1. Avalov, E. V. Şuşi şəhərinin memarlığı və onun tarixi görkəminin qorunması problemləri. Bakı: Qarağac. 1977, səh. 17

2. Avalov, E. V. Şuşa şəhərinin memarlığı və onun tarixi görkəminin qorunması problemləri. Bakı: Qarağac. 1977, səh. 28

3. K. A. Diteriks. "Qarabağ atçılığına bir baxış". "Konnozavodstvo" jurnalı, 1866.

4. "Azərbaycan Respublikasında Qarabağ atı cinsinin inkişafına əlavə dəstək haqqında"

5. Firidun Şuşinski. Şuşa. Bakı, "Azərbaycan Dövlət Nəşriyyatı", 1968, 163 s.

6. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi Şuşa filialı. 2016

---

**İsgəndərova Lalə Əsgər qızı**
Azərbaycan Dövlət İqtisad Universiteti
Biznes və menecment / Marketinq / 916
isgandarova17@gmail.com

## Şuşa

Yazıya ulu öndərimiz Heydər Əliyevin Şuşa haqqında fikirləri ilə başlamaq istərdim: "Şuşa Azərbaycanın incisi, Qarabağın gözüdür, bizim qədim abidələrimiz olan, qədim dövlətçiliyimizin şəhəridir. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaş üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir". Şuşa Qarabağın mədəniyyət ocağıdır. Nəinki Qarabağın, bütün Azərbaycanın. Çünki istər torpağı, istər abidələri, istər də sənətkarları ilə məşhurdur Şuşa. Lakin bildiyimiz üzrə Şuşa 08.05.1992-ci ildə erməni təcavüzü nəticəsində dağıntılara məruz qalmış və 30 il erməni təcavüzünə uğramışdı. 2020-ci ildə isə rəşadətli Azərbaycan ordusunun və ali baş komandanımızın səyi ilə Şuşa düşmən əsarətindən azad olunmuşdur. Və Azərbaycan öz qədim, ecazkar mədəniyyətinə qovuşmuşdur. Ancaq düşmən tapdağı altında olduğu illərdə Şuşanın tarixi abidələri, qoruqları deformasiyaya uğramış, istehsal sənayesi məh olmuşdur. Hal-hazırda isə Şuşanın məhv olmağa məruz qoyulan mədəniyyətini, turizmini dirçəltmək yönündə müvafiq islahatlar çərçivəsində tədbirlər planı həyata keçirilir. Bəs görək Şuşa şəhərinin sosial-iqtisadi inkişafı üçün hansı perspektivlər vardır? Elə isə gəlin bu şəhəri təhlil edək.

Şuşa şəhərinin təhlilinə ilk öncə mən resurs potensialına baxışla başlamaq istərdim. Şuşanın ərazisi əsasən dağlıqdır. Ən yüksək zirvəsi 2725 metr olan Böyük Kirs dağıdır. Bura da müxtəlif növ tikinti materialları yataqları və mineral bulaqlar mövcuddur. Mineral bulaqlara Turşsu və Şırlanı

nümunə göstərmək olar. Şəhərin kənarında dərin Daşaltı dərəsinin yaxınlığında yerləşən Cıdır düzü xüsusilə məşhurdur. Cıdır düzündən bir qədər aşağıda qırx pilləkan deyilən dik pilləli yol Daşaltı çayına aparır. Şuşanın həmçinin meşələri də göz oxşayandır. Ərazisinin 20%-ini meşələr təşkil edir. Bu meşələrdə müxtəlif növ müalicəvi əhəmiyyətli bitkilər yetişir. Bu da Şuşanın torpağının necə münbit, məhsuldar olduğunun göstəricisidir. Bəs bu resurslardan Şuşanın iqtisadiyyatını dirçəltmək üçün necə istifadə edə bilərik?

Yuxarıda qeyd etdiyimiz kimi Şuşa Cıdır düzü ilə məşhurdur. Cıdır düzü işğaldan öncə də Şuşanın ən aktiv istirahət mərkəzi idi. Adın etimologiyasına diqqət yetirsək görərik ki, Cıdır düzü yarış meydanı deməkdir. Tarixən burada bayramlarda, şənliklərdə at və dəvə yarışları keçirilmişdir. Hal-hazırda isə Şuşanın iqtisadiyyatının dirçəldilməsi və şəhərin tanıdılması məqsədilə Cıdır düzündə tədbirlər keçirilir. Fikrimcə, bununla yanaşı Cıdır düzündə at yarışlarının, təlimlərinin keçirilməsi də məqsədəuyğun olardı. At yarışlarının ən böyük həvəskarları əsasən Şimali Amerika, Yeni Zellandiya, Avstraliyada olması da, Şuşaya xarici qonaqların cəlb edilməsinə zəmin yaratmış olar. Bundan əlavə Qarabağ atlarının da xüsusi günlərdə tanınmış peşəkar təlimçilərin müşaiyəti ilə xarici qonaqlara göstərilməsi uğurlu olardı. Məşhur Qarabağ atlarını dünyaya bir daha tanıtmış olarıq.

Gələcəkdə Cıdır düzündə həmçinin dünyaca məşhur, İstanbul, Kapadokya, Amsterdam kimi şəhərlərdə keçirilmiş AFWEU / fashion week-i keçirmək mümkündür. Bu da xarici influnserləri Şuşaya cəlb etmənin ən məqsədəuyğun variantı ola bilər.

Az öncə qeyd etdiyimiz kimi meşələrində müxtəlif növ müalicəvi bitkilər yetişir. Bu bitkilər vasitəsilə biz öz istehsalımız olan yeni növ dərmanlar istehsal edə bilərik. Meşələrində tut, qoz, fındıq, fıstıq, vələs, çinar, sərv, cökə, ağcaqayın ağaclarına rast gəlmək mümkündür. Azərbaycanda rast gəlinən 12 növ palıd ağacının hər birinə Şuşa meşələrində rast gəlmək olar. Palıd ağacı isə tikinti və sənaye əhəmiyyətli yararlı olan oduncağa malikdir. Qozasından qəhvə düzəltmək mümkündür. Bütün bunları nəzərə alaraq, palıd ağacında da Azərbaycanın iqtisadiyyatını oyatmaq üçün istifadə edə bilərik. Münbit, məhsuldar torpağının olmasını və iqlimini nəzərə alaraq Şuşa alma, armud ağaclarının əkilməsi üçün də əlverişlidir. Meşələrdən turizm məqsədli də istifadə etmək mümkündür. Burada milli parklar yaradaraq turistlərin buraya gəlməsini təmin etmək mümkündür. Milli parklarla yanaşı bulaqlarından da turizm məqsədilə istifadə etmək olar. Şuşa şəffaf, təmiz, soyuq sulu bulaqları ilə məşhurdur. Bunlara İsa bulağını, Daşaltı bulağını, Soyuqbulağı və digərlərini nümunə göstərmək olar. Bu bulaqların yaxınlığında meşələrə zərər vermədən otellərin, kotec evlərin tikilməsi də məqsədəuyğundur.

Soyuq bulaqları ilə yanaşı Şuşanın mineral bulaqlarından da yuxarıda bəhs etmişdik. Mineral bulaqlardan olan Turşsu bulağının suyu faydalı mikroelementlərlə, əsasən, karbon qazı, hidrogen-karbonad, maqnezium, natruim, kalsiumla zəngindir. Minerallaşma dərəcəsi 2,4 qr/l, temperaturu 5-10 dərəcə C-dir. Suyu həm içilə bilər, həm də mədə-bağırsaq, öd, qaraciyər, qan azlığı xəstəliklərinin müalicəsində istifadə oluna bilər. Şuşanın digər məşhur mineral bulağı – Dəmir bulağının suyu isə qazlıdır. Qazlılıq etibarı ilə Narzandan daha yüksəkdir, Bəzən “Azərbaycan Narzanı” da adlandırırlar. Bu suda dəmir qarışığı olduğundan “Dəmir su” adlanır. Dəmir bulağın suyundan isə qan azlığına və dəri xəstəliklərinə müalicə üçün istifadə oluna bilər. Digər bir müalicə məqsədli bulağa Qotur bulağı nümunə göstərmək olar. İlin bütün fəsillərində soyuq və duru olan bulağın suyunun müalicəvi əhəmiyyəti var. Tərkibi minerallarla zəngin olan Qotur bulağın suyu bədəndəki qoturu, dəmrovu, ləkələri müxtəlif yaraları sağaldır, duzlaşmanı aradan qaldırır. Qotur xəstəliyinin dərmanı olduğuna görə isə bulağa bu ad verilib. Bütün bu müalicə məqsədli istifadə olunan bulaqların yaxınlığında sanatoriyalar yaradaraq, xəstəliklərin müalicəsini həyata keçirmək mümkündür.

Turşsu və Dəmir bulağın suyundan sanatoriya məqsədli istifadədən əlavə olaraq, “Sirab”, “Borjomi” kimi, mineral bulaq sularını xüsusi üsulla təmizləyib qablaşdırıb, yerli və dünya bazarına “Made in Azerbaijan” brendi altında çıxarmaq olar.

Şuşa resurslarından əlavə stratejik olaraq da əhəmiyyətlidir. Buradan Qarabağın böyük hissəsinə nəzarət etmək mümkündür.

Şuşa xalçaları ilə də tanınır. Xalçalar üzərində xüsusi ornamentlərlə Şuşanı təsvir edilməsi, Azərbaycanın tarix və mədəniyyətini təsvir edilməsi yerli və dünya bazarında kifayət qədər marağa səbəb ola bilər. Bununla yanaşı, Şuşa əhalisinin müəyyən hissəsini baramaçılığa cəlb etdikdən sonra ipək xalçaların toxunması da həyata keçirilə bilər ki, hal-hazırda ipək xalçalara dünya bazarında xüsusi bir maraq vardır.

Əhalinin rifahının yüksəldilməsi və tükənən enerji mənbələrindən istifadəni azaltmaq məqsədilə Zəngilanda tətbiq olunan "Ağıllı Şəhər və Kənd" layihəsini Şuşaya da tətbiq etmək uğurlu olardı.

Şuşa dedikdə ağlımıza gələn ilk şey Xarı bülbüldür. Xarı bülbül dünya da nəsli kəsilmək ehtiyatında olanlar kateqoriyasına daxil bitkidir. Azərbaycanda el arasında Xarıbülbül adlanan bitki əsas Ophrys caucasica növü olsa da çox güman ki, ofris bitkisinin bütün növləri xalq arasında Azərbaycanda bu adla adlanır. Nəslinin kəsilməsinin qarşısının alınması məqsədilə isə yayılma yerlərində antropogen təsirlərin azaldılması, yasaqlıqların təşkil edilməsi və toxumlarının toxum bankında saxlanılması, bərpasının təmin edilməsi, yeni yayılma yerlərinin müəyyənləşdirilməsi kimi tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur. Xarı bülbülün toxumları bərpa edildikdən sonra nəslinin kəsilməsi təhlükəsi aradan qalxdıqdan sonra bu bitkidən müəyyən xəstəliklərin müalicəsi üçün də istifadə etmək mümkündür. Hətta müəyyən bir müddət sonra bu bitki ilə xüsusi dərmanlar hazırlayıb dərmanları qlobal bazara da yeritmək mümkündür.

Xarı bülbül Şuşanın simvolu olmaqla yanaşı, ikinci Qarabağ müharibəsində Şəhid olan əsgərlərimizin xatirəsinin rəmzinə çevrilmişdir. Həmçinin Azərbaycan ordusunun zəfər simvolu kimi də tanınır.

Şuşa həmçinin Azərbaycan mədəniyyətinin beşiyi, bir çox görkəmli sənətkarların, musiqiçi, memar, rəssam və ədiblərin, dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermiş şəxsiyyətlərin vətənidir. Bu şəxsiyyətlərə nümunə olaraq, Xurşidbanu Natəvanı, Xan Şuşinskini, Azərbaycan opera musiqisinin banisi, dahi bəstəkar Üzeyir bəy Hacıbəylini, Fikrət Əmirovu, Niyazini, Əfrasiyab Bədəlbəylini, Soltan Hacıbəyovu, müğənni Rəşid Behbudovu, xanəndəlik sənəti ilə əlaqədar olaraq tarzən Sadıqcanı, Məşədi Zeynalı, müasir rəssamlardan Cəlal Qaryağdını, Əmir Hacıyevi, Nadir Əbdürrəhmanovu və digərlərini göstərmək olar.

Musiqi beşiyi olan Şuşada palıd, fıstıq ağaclarından öz yerli musiqi alətlərimizi istehsal edərək, dünya bazarına çıxara bilərik.

Şuşanın iqtisadiyyatının dirçəlməsi yalnız turizm ilə deyil, yerli xalqın köməyi ilə də mümkündür. Mədəniyyətin və musiqinin beşiyi sayılan Şuşada Azərbaycan Milli Konservatoriyasının, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Azərbaycan Musiqi Akademiyasının filiallarının açılmasını təmin etmək mümkündür. Bununla da gənclərin, müəllim heyətinin Şuşanın dirçəlməsinə, yenidən qurulmasına kömək etmələrinə şərait yaratmaq mümkündür.

Musiqisi ilə məşhur olan Şuşada Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən bəri Xarıbülbül Beynəlxalq festivalı keçirilirdi. Lakin 1992-ci ildə ermənilərin Şuşanı işğal etməsi ilə festivalın keçirilməsi ləğv edilmişdir. 2020-ci il noyabrın 8-də Şuşa azad edildikdən sonra prezident İlham Əliyev Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etmişdir və bu sərəncamla Xarı Bülbül Beynəlxalq Festivalı bərpa olunmuşdur.

Fikrimcə, Üzeyir bəy Hacıbəylinin doğum günü şərəfinə keçirilən 18 sentyabr Musiqi Gününün musiqi beşiyi olan Şuşada keçirilməsi və bu gün ilə əlaqədar keçiriləcək tədbirlərdə Şuşa əsilli sənətkarların çıxış etməsi daha uyğun olardı.

Bundan əlavə Üzeyir bəy Hacıbəylinin adına opera və balet teatrının Şuşada tikilməsi və həmin teatr da Ü.Hacıbəylinin əsərlərinin nümayiş olunması da mədəniyyətin inkişafına xüsusi zəmin yaradar.

Musiqi festivalı ilə yanaşı Şuşanın tarixi abidələrinin xarici dövlətlərə tanıdılması fikrimcə zəruridir. Şuşadakı Azərbaycanın tarixinin qədimliyi turistlərə tanıdıldıqdan sonra ermənilərin "Qarabağ bizimdir" yalanları bir daha əsassız olmuş olar. Bu abidələrə nümunə olaraq, İkimərtəbəli karvansarayı, Şuşa qalasını, İbrahimxəlil xan sarayını, Qarabağ xan Sarayını, Natəvanın evini, Üzeyir Hacıbəyovun ev muzeyini, hamamları, məscidləri göstərmək olar.

Bütün bu abidələrə ilk öncə səfirlərin gəlişini təmin etmək daha uyğundur ki, Azərbaycanın, Qarabağın, Şuşanın tarixi ilə tanış olsunlar. Daha sonra isə hal-hazırda əksər gənclərin həyatında müəyyən yer tutmuş yerli və xarici influnserlərin Şuşaya gəlişini təmin etmək vacibdir ki, həm tarix haqqında tam məlumatlı olmayan bəzi vətəndaşlar, həm də xarici vətəndaşlar Qarabağ tarixi, mədəniyyəti ilə yaxından tanış olsunlar. Bununla yanaşı məktəb və universitetlərdə şagird və tələbələrin Şuşaya ekskursiyasını təşkil etmək öz mədəniyyətimizi və tariximizi öyrənmək barədə əhəmiyyətli addım olardı.

Bəs gəlin görək niyə məhz Şuşa?

Çünki yuxarıda qeyd olunanlardan da göründüyü üzrə Şuşa tarixi, mədəni və strateji əhəmiyyətli şəhərdir. Prezident İlham Əliyevin imzaladığı sərəcamda da Şuşanın əhəmiyyəti belə vurğulanır: "Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır." Hətta sovet dövründə görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanda Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də, erməni iddiaları hər zaman iflasa uğramışdı. Ümummilli lider Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Heydər Əliyev Şuşaya zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. Heydər Əliyev XX əsrin 70-ci illərində Şuşa şəhərində Azərbaycan xalqının tarixi abidələrinin qorunmasına xüsusi qayğı göstərilməsi barədə tapşırıq vermişdi. Ulu öndər, eyni zamanda, Şuşada aparılan tikinti-quruculuq işləri ilə də yaxından maraqlanmış, Azərbaycan poeziyasının klassikləri M.P.Vaqifin və Xurşidbanu Natəvanın yaşayıb yaratdığı yerlərlə tanış olmuşdu. Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edilmişdi. Həmin il şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edilmiş, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar inşa olunmuşdu. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdi. Şəhərdə azərbaycanlılar üçün əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, azərbaycanlıların milli ruhu güclənirdi. Keçmiş SSRİ-nin müxtəlif yerlərindən Şuşaya istirahətə gələnlər, eyni zamanda, Azərbaycanın tarixi, mədəniyyəti və incəsənəti ilə yaxından tanış olurdular. 1977-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdi. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Heydər Əliyev Şuşa ictimaiyyəti ilə keçirdiyi görüşdə demişdi: "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır". Həmin illərdə ümummilli lider Heydər Əliyevin Şuşaya göstərdiyi diqqət və qayğı daha da artmış və geniş quruculuq işləri vüsət almışdı. Ulu öndər Üzeyir bəy Hacıbəylinin və Bülbülün Şuşadakı ev muzeylərindəki eksponatlarla da tanış olmuş və onların qorunmasına dair tövsiyələrini vermişdi. Bu tarixi səfər zamanı Şuşadakı abidələrin bərpası ilə maraqlanan Heydər Əliyev müvafiq göstərişlər verərək, işlərin davam etdirilməsinə dair bir sıra təkliflərini də söyləmişdi. Ümummilli liderin, eyni zamanda, Şuşa məscidinə getməsi bir tərəfdən, onun dini dəyərlərə olan ehtiramının və dərin bağlılığının göstəricisi idisə, digər tərəfdən azərbaycanlı əhalinin milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə olan nümunə idi. Heydər Əliyev erməni millətçilərinin ona müxtəlif böhtanlar atdığı bir zamanda məscidə getməklə yerli əhaliyə dini inanclarını qorumağı da tövsiyə etmişdi. Qeyd etmək lazımdır ki, Heydər Əliyev Şuşaya gedərkən ailəsi ilə birlikdə yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparırdı. Bu addımı ilə ümummilli lider ziyalıları Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, Şuşaya tez-tez səfərə gəlmələrini tövsiyə edirdi.

Günümüzdə isə ali baş komandan, prezident İlham Əliyev 2022-ci ili Şuşa ili elan edərək, Şuşanın iqtisadiyyatının dirçəldilməsi barədə silsilə tədbirlər həyata keçirir. Prezident İlham Əliyevin uğurlu dövlət idarəçiliyi sayəsində Azərbaycan cəmiyyətində yaşından, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, hər kəs vahid amal uğrunda "dəmir yumruq" kimi birləşir. Prezident İlham Əliyev qeyd edir ki, Şuşanın Azərbaycan tarixində xüsusi yeri var və Şuşanın bərpası, dirçəlməsi hamımızın işidir: "Əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol vermək olmaz". Dövlət başçısı bildirmişdir ki, mütəxəssislər, memarlar, tarixçilər, şuşalılar özləri deyəcəklər ki, bu şəhəri necə görmək istəyirlər, çünki bu, onların şəhəridir. Şuşanın əsl tarixi simasının və qədim mədəni abidələrinin bərpası Azərbaycan memarlıq üslubunu əks etdirməli, çox zəngin mədəni həyat olmalı və Şuşada yaşayacaq soydaşlarımız da bütün işlər görüləndən sonra oraya qayıtmalıdırlar".

**Şəhanə Əsgərova Rizvan qızı**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
“Xarici Dillər Mərkəzinin” müəllimi
Azərbaycan Dillər Universiteti
“Fransız dilinin leksikologiyası və
üslubiyyatı kafedrasının qiyabi doktorantı
shahanaasgarova@gmail.com

**Şuşa şəhərində mədəniyyət iqtisadiyyatının inkişafı**

Mədəniyyətimizin, musiqimizin beşiyi Şuşa şəhərinin əsası 1750-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulmuş və buna görə də şəhər o dövrlərdə Pənahabad adlandırılmışdır. “Şuşa” ad ilə bağlı mənbələrdə müxtəlif məlumatlar mövcuddur. Deyilən görə şəhər şiş qayaların əhatəsində yerləşdiyinə görə onu “Şişə” yaxud “Şuşa” adlandırmışlar. Başqa bir versiyaya görə şəhərin suyun o qədər saf və təmiz olub ki, sakinlər onu “şüşə” ilə müqayisə ediblər və şəhərin adı buradan formalaşıb. Pənahəli xan Şuşanı qədim və orta əsrlər memarlıq ənənələrinə uyğun inşa etdirmişdir. 1756 – 1757-ci illərdə Sıldırım dağ üzərində Şuşa qalasının tikintisi başa çatmışdır. Bu qala şəhərin yadelli işğalçılardan qorunmasında mühüm əhəmiyyətə malik olmuşdur. Hələ 1795–ci ildə Ağa Məhəmməd şah Qacar Şuşaya hücüm etmiş, bir ay Şuşa qalasını mühasirədə saxlamış lakin şəhərə daxil ola bilməmişdir. Rayonda 1 şəhər, 1şəhər tipli qəsəbə, 12 kənd ərazi dairəsi, 37 kənd yaşayış məntəqəsi vardır. Torpağının altı da, üstü də sərvət olan Şuşa elm, incəsənət, ədəbiyyat, musiqi mərkəzi olmuş Azərbaycana dəyərli şəxsiyyətlər bəxş etmişdir. Qasım bəy Zakir, Xurşudbanu Natəvan,Əhməd bəy Ağayev, Nəcəf bəy Vəzirov, Bülbül, Rəşid Behbudov, Xan Şuşinski və b. Şuşada dünyaya göz açmışdılar. Əlverişli təbii – coğrafi mövqeyə, mülayim iqlimə, münbit torpaqlara, zəngin meşələrə malik olan bu ərzi Qarabağ hökmdarlarının da istirahət yeri olmuşdur. Dillərə dastan Şuşanın gözəlliyi belə vəsf edilir:

“Dağ başında yazı, yayı yaşıllığa, payızı, qışı dumana və qara bürünmüş bir şəhər (Şuşa) təsəvvür ediniz. Bu, mənim şəhərimdir.

*Yusif Vəzir Çəmənzəminli*
*Dövlət xadimi və yazıçı*

Hələ o dövrdə Şuşada yüksək səviyyədə memarlıq abidələri inşa edilmişdir və bu şəhər heç də Avropa şəhərlərindən geri qalmırdı.

1873–cü ildə Xan qızı Xurşudbanu Natəvan Şuşa sakinlərinin suya olan ehtiyacını ödəmək üçün Şuşaya su çəkdirmişdir (Xan qızı bulağı). 1874–1875–ci illərdə Memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən “ Aşağı Gövhərağa “ məscidi tikilmişdir. Bu məscid İbrahimxılil xanın qızı Gövhərağanın sifarişi ilə tikilmişdir. Şuşada yerləşən, memarlıq üslubi ilə seçilən məscidlər, digər abidələr kimi erməni təcavüzü nəticəsində dağıdılmışdır. 1894 –cü ildə Şuşada qadın ibtidai məktəbinin əsası qoyulmuşdur. 1864–cü ildə Mirzə Rəhim Fənanın təşəbbüsü ilə “Məclisi–üns” və 1872–ci ildə Mir Mövsüm Nəvvabın təşəbbüsü ilə “Məclisi fəramuşun” adlı ədəbi məclislər yaradılmışdır. Şuşa özünün zəngin mədəni həyatı ilə şöhrət qazanmışdır. Səməd Vurğun deyirdi ki, Azərbaycanın bütün məşhur müğənni və musiqiçiləri şuşalıdır.

Şuşa hər zaman ulu öndər Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. 1977 ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə Şuşa şəhərinin tarixi hissəsinin, “tarixi – memarlıq qoruğu elan etmək haqqında” qərar qəbul edilmişdir. 1982–ci il yanvarın 14 də Azərbaycan KP MK – nin birinci katibi Heydər Əliyevin iştirak ilə məşhur şair və ictimai – siyasi xadim Molla Pənah Vaqifin Şuşada yerləşən muzey məqbərə kompleksinin açılışı olmuşdur. 1982–ci il iyulun 29 da Azərbaycan KP MK - nin birici katibi Heydər Əliyev Şuşada Poeziya evinin açılışında və Vaqif poeziya günlərində iştirak etmişdir. 1989–cu ildə Cıdır düzündə “Xarıbülbül” ümumittifaq muğam festivalı keçirilmişdi.

Şuşa həsrəti bütün şairlərimiz, yazışılarışızı, bütün xalqı yaralamışdı. Hər bir azərbaycanlının ən ümdə arzusu Şuşaya qayıtmaq olmuş və bu mövzudə çoxsaylı mahnılar bəstələnmiş, şerlər, əsərlər yazılmışdır.

*Qurban olum torpağa da, daşa da,*
*Sən verdiyin ümid ilə yaşada.*
*Görəydik ki, "Sarı bülbül" Şuşada*
*Avazlanır, çıxıb yasdan oxuyur.*

*Mahirə Nağıqızı*

"Əlahəzrət, olmaya rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay–küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpaqlarımızdır". A.S.Qribayedov.

Bu füsünkar mədəniyyət şəhəri 8 may 1992–ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. 28 il yarım işğal altında qalan Qarabağın incisi erməni vandalları tərəfindən qarət olunmuş, maddi – mədəniyyət abidələri dağıdılmışdır. Muzeylərin qiymətli eksponatları, qədim xalçalar, heykəltəraşlıq əsərləri və başqa dəyərli əşyalar Ermənistana aparılmışdır. Şuşada yerləşən 32 kitabxana, 8 muzey, 8 mədəniyyət evi, 17 klub, 25 orta məktəb, 40 tibb müəssisəsi, 241 tarixi abidə erməni vandalları tərəfindən məhv edilmişdir. İşğala qədər Şuşa rayonunda 7 məktəbəqədər uşaq tərbiyə müəssisəsi, 22 ümumtəhsil mərkəzi var idi. Rayonda 2 musiqi məktəbi, 1 tibb məktəbi, 1 kənd təsərrüfat texnikomu, 1 mədəni maarif texnikomu, 1 orta texniki peşə məktəbi, 6 mədəniyyət evi, 12 klub, 26 kitabxana, 22 kinoqurğu fəaliyyət göstərirdi. Şuşa şəhəri eyni zamanda Azərbaycan xalçaçılıq sənətinin qədim mərkəzlərindən olmuşdur. Burada toxunan əsrarəngiz xalçaların şan – şöhrəti uzaq ölkələrə qədər gedib çıxmışdı.

Ali baş komandanın düzgün siyasəti, Azərbaycan ordusunun uğurlu əməliyyatları nəticəsində Şuşa şəhəri 8 noyabr 2020–cil ildə azad olunmuşdur. Azad olunması ilə də dillərə dastan oldu bu şəhər çünki rəşadətli ordumuz şəhəri top-tüfənglə deyil, canları, qanları bahasına aldılar. Bu şəhər təkcə şuşalıların deyil hər birimizin qəlbindədir. Torpağının hər qarışında şəhid qanı olan Şuşaya daha həssas yanaşmalıyıq. Şuşanın azad olunması 44 günlük Vətən müharibəsinin həlledici anı oldu. Belə ki, Azərbaycan ordusu strateji üstünlük əldə etdi. Bununla da tarixi ədalət bərpa olunmuşdur. İndi isə qarşıda duran əsas məsələlər Şuşanın o cümlədən işğaldan azad olunmuş digər yaşayış məntəqələrinin dirçəldilməsi olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şəhidlər Xiyabanındakı çıxışı ilə də Şuşa şəhərinin dirçəldilməsinin qarşıda duran əsas məsələ olduğu vurğulanmışdı.

*Əziz Şuşa, sən azadsan!*
*Əziz Şuşa, biz qayıtmışıq!*
*Əziz Şuşa, biz səni dirçəldəcəyik!*
*Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!*
***İlham Əliyev***
***Şəhidlər Xiyabanı***
***8 noyabr 2020***

İşğaldan azad olunan şəhərdə dərhal quruculuq işləri aparılmağa başlayır. Dilbər güşənin resurs potensialı, strateji üstünlüyü, coğrafi mövqeyi böyük əhəmiyyət kəsb edir. İşğaldan əvvəl olduğu kimi, işğaldan sonra da Şuşa mədəni tədbirlərə ev sahibliyi edir. 2021–ci il 16 martda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada Cıdır düzündə bayram tonqalını alovlandırmış, bu yurdun bizim əzəli - əbədi torpaqlarımız olduğunun mesajını bütün dünyaya vermişdilər. 2021–ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə Üzeyir Hacıbəyli, Bülbül və Xan qızı Natəvanın güllələnmiş heykəlləri Şuşaya gətirilmişdir. Bununla da Şuşanın əbədi sakinləri öz evlərinə geri dönmüşdür.

Bir mədəniyyət şəhərinin dirçəldilməsi, tərəqqisi elə mədəni tədbirlərin təşkili ilə də mümükündür. Bu yolda ilk addım Şuşanın mədəniyyət paytaxtı elan edilməsi oldu.

"Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilsin"

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri 7 may 2021.

Qeyd edək ki, bu, Prezident İlham Əliyevin Şuşaya aid ilk sərəncamıdır.

Mədəniyyət şəhəri öz sakinlərinə qucağını açdı və yenidən mədəni tədbirlərə ev sahibliyi etdi.

12-13 may 2021–ci ildə Şuşada “Xarıbülbül” musiqi festivalı keçirilmişdir. 30 avqustda Şuşada böyük Azərbaycan şairi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin önündə Vaqif poeziya günlərinin açılışı keçirildi.

2022–ci il Şuşa ili elan olunması ilə əlaqədar olaraq genişmiqyaslı tədbirlər həyata keçirilir, Şuşanın resurs potensialı, sosial-iqtisadi inkişaf yolları öyrənilir. Gələcəkdə də Şuşada beynəlxalq tədbirlərin keçirilməsi, yüksək səviyyəli festivalların təşkil olunması gözləniləndir.




Dünyaşöhrətli fotoqraf Reza Deqati Şuşa haqqında paylaşımında qeyd edir: “Ermənistan silahlı qüvvələri tərəfindən 30 illik işğaldan və dağıntılardan sonra Qarabağda, Şuşada həyat yenidən canlanır. Fransa da Beynəlxalq Kulinariya Festivalında iştirak etdi”. Xarici medya nümayəndələri də işğaldan azad olunan Şuşaya gedərək bu gözəl təbiət incisinə erməni vandallarının vurduğu ziyanı öz gözləri ilə görüb, füsünkar təbiətə malik şəhərə valeh olublar.




Şuşanın azad olunması hər bir azərbaycanlıda ruh yüksəkliyi yaratdı. Dilbər güşəmizin bütün dünyaya tanıdılmasında hər bir Azərbaycan vətəndaşı əlindən gələni əsirgəməməlidir. Şuşa eyni zamanda dağ iqlimli kurort yeridir. Şuşa mədəniyyət şəhəri olmaqla yanaşı, həm də çox möhtəşəm istirahət zonası olaraq da özünü dünyaya tanıdacaqdır.

Biz inanırıq ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Şuşa əvvəki qüdrətini və gözəlliyini bərpa edəcək, möhtəşəm mədəni tədbirlərə ev sahibliyi edəcək, yazıçılarımızın, şairlərimizin ədəbi–bədii tədbirlərinin keçirildiyi məkana çevriləcəkdir.

Açar sözlər: Şuşa, mədəniyyət, dirçəliş
Keywords: Shusha, culture, revival
Ключевые слова: Шуша, культура, возрождение

**Ədəbiyyat siyahısı:**

1. Mahirə Nağıqızı “Salam olsun” Bakı 2020
2. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı. Biblioqrafiya. Bakı 2021
3. Yunis Hüseynov “Qarabağ” Bakı 2018
4. Zahid Abbasov “Şuşa Azərbaycanın mədəniyyət və tarix incisidir” Bakı 2010

---

**Cəmilə Əliyeva**
Bakı Ali Neft Məktəbi
3-cü kurs neft-qaz mühəndisliyi (NQM.20)
jamila.aliyeva.std@bhos.edu.az

**“Şuşanın sosial-iqtisadi dirçəldilməsi – Azərbaycanın tərəqqisinin yeni zirvəsidir”**

**Giriş**

Azərbaycanın ən dilbər guşələrindən biri olan Şuşa şəhəri həmçinin Dağlıq Qarabağ bölgəsinin “döyünən ürəyi” adlanır. Bu bölgə qədim tarixə və mədəniyyətə malikdir. Təsadüfi deyildir ki, Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı kimi də adlandırırlar. Şəhərin təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub və ilk çağlarda şəhəri Şuşa adı ilə yanaşı xanın şərəfinə Pənahabad da adlandırırdılar. Şuşa mədəniyyətinə başda musiqi olmaqla kino, teatr və kitabxanalar daxildir və bu mədəniyyətin inkişafında şair, musiqişünas, xəttat, memar və xanəndələr xüsusi rol oynamışdır. XVIII əsrdə Şuşa şəhəri Azərbaycanın ən mühüm şəhərlərindən birinə

çevrilmişdi. IX əsrin sonu və XX əsrin əvvəllərində isə artıq Şuşa Qafqazın musiqi mərkəzi sayılırdı. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar. Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəzəf bəy Vəzirov, Bəhram bəy Axuundov, Şəmsi Bədəlbəyli, Barat Şəkinskaya, Süleyman Sani Axundov, Nəriman bəy Nərimanbəyli, Münəvvar Rzayeva, Məcid Behbudov və İslam Abdullayev Şuşanın tanınmış sakinləri olmuşdurlar.

Bölgənin coğrafiyası haqqında isə dağlıq əraziyə malik olduğunu qeyd etmək olar. Ən yüksək zirvəsi Böyük Kirs dağıdır (2725 metr) və şəhərin kənarında dərin Daşaltı dərəsinin yaxınlığında yerləşən Cıdır Düzü xüsusilə məşhurdur. Rayonda əsasən təbaşir çöküntüləri, tikinti materialları yataqları və mineral su bulaqları yayılmışdır. Ərazinin əksər hisssəi iqliminə görə isə qışı quraq keçən isti və soyuq iqlim tiplərinə aiddir.

1988-ci ildən Azərbaycan və Ermənistan arasında münasibətlərin pozulmasından sonra düşmən Qarabağı işğal etməyə başlayır. 8 may 1992-ci ildə Şuşanı işğal edən erməni vandalları azərbaycanlıların tarixi izlərini silmək məqsədilə 600-ə yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xan sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidini, Xurşidbanu Natəvanın evini və Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmişdirlər.

Ancaq 30 il sonra 2020-ci ildə Azərbaycan tarixində yeni bir səhifə açılır. Belə ki, şanlı Azərbaycan ordusu 44 günlük İkinci Qarabağ müharibəsində böyük şücaət göstərdi və torpaqlarımızı mənfur düşməndən azad etdilər. Şuşanın azad edilməsi 8 noyabr 2020-ci il tarixinə təsadüf edir.. Müharibə bitəndən bir müddət sonra dövlət Qarabağın yenidən dirçəldilməsi üçün bir sıra addımlar atmağa və layihələr həyata keçirməyə başladı. Bu tədbirlər hal-hazırda davam edir və gələcək üçün daha geniş miqyaslı layihələr də təklif olunur. Belə ki, növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair reallaşdırılmalı olan beş Milli Prioritetdən biri də işğaldan azad olunmuş ərazilərə böyük qayıdışdır. Xalqımızın çoxəsrlik tarixində ölkəmizin ərazi bütövlüyünün təmin olunması möhtəşəm yer tutur. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Bu “Böyük Qayıdış” vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır. Dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya kimi iki məqsədə nail olmaqla bu prioriteti uğurla həyata keçirmək olar. 2021-ci il avqustun 29-da Prezident İlham Əliyev Şuşa şəhərinin baş planını təqdim edərək bildirdi ki, Şuşa şəhərinin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Təqdim olunan baş planda Şuşanın orta, yüksək və qarışıq sıxlıqlı olan yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapıb. Həmçinin şəhərin baş planında ictimai dayanacaqların da yerləşmə yerləri müəyyən olunub. Bu dayanacaqlar elə qoyulacaq ki, şəhərin küçələrinə giriş-çıxışa mane olmasın. Dayanıqlı məskunlaşma üçün Şuşada ümumi sahəsi 46.765 kvadratmetr olacaq yaşayış massivi tikilib və bu massiv 6 məhəllədən ibarətdir. Belə ki, məhəllələr üzrə 2020 nəfərin yaşayışı nəzərdə tutulur. İlk məhəllənin təməli 29 avqust 2021-ci ildə qoyulmuş və bütün binaların Şuşaya xas memarlıq üslubunda tikiləcəyi nəzərdə tutulmuşdur. Ümumiyyətlə Şuşanın bərpası 2021-ci il yanvarın 14-dən başlanmışdır və indiyə kimi çox böyük işlər görülmüşdür. Şəhəri inkişaf etdirmək üçün ilk olaraq buraya elektrik və su xətləri çəkildi. Həmçinin 2022-ci il Azərbaycanda prezident İlham Əliyev tərəfindən “Şuşa ili” olaraq elan edildi. Şuşa ili hal-hazırda Yer kürəsində yaşayan 50 milyondan artıq soydaşımızın deyil, həm də Şuşa arzusu gözündə dünyadan köçən insanlarımızın, millətimizin ən böyük diləyi, daha böyük idealı olmuşdur. Deməli, Qarabağımızın, onun baş tacı olan Şuşamızın azad edilməsi təkcə Prezidentimizin dediyi kimi ata vəsiyyəti olmayıb, eyni zamanda vaxtilə işğal altında olan torpaqlarımıza görə gözü arxada dünyadan köçən həmvətənlərimizin arzusu, vəsiyyəti və təmənnilərinin gerçəkləşməsi anlamına gəlir. Prezidentimizin də dediyi kimi:

**Əziz Şuşa, sən azadsan!**
**Əziz Şuşa, biz qayıtmışıq!**
**Əziz Şuşa, biz səni dirçəldəcəyik!**

Bəli, hazırda Şuşanı dirçəltmək və inkişaf etdimək üçün dövlət lazımi tədbirlər görür və davam etdirir.

**Şuşa-Azərbaycanın mədəniyyət paytaxtı**

Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır. Hələ qədim zamanlardan Şuşa Azərbaycanın mühüm, strateji əhəmiyyətli şəhərlərindən birinə çevrilmişdi. Pənahəli xanın dövründə şəhərdə böyük tikinti işləri aparılmış, sonra İbrahimxəlil xanın (1763-1806-cı illər) dövründə isə Qarabağ xanlığı daha da güclənmişdi.




Prezident İlham Əliyev bildirib ki, Şuşanın Azərbaycan tarixində xüsusi yeri var və Şuşanın bərpası, dirçəlməsi hamımızın işidir: “Əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması





saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol vermək olmaz”. Dövlət başçısı bildirmişdir ki, mütəxəssislər, memarlar, tarixçilər, şuşalılar özləri deyəcəklər ki, bu şəhəri necə görmək istəyirlər, çünki bu, onların şəhəridir. Şuşanın əsl tarixi simasının və qədim mədəni abidələrinin bərpası Azərbaycan memarlıq üslubunu əks etdirməli, çox zəngin mədəni həyat olmalı və Şuşada yaşayacaq soydaşlarımız da, bütün işlər görüləndən sonra oraya qayıtmalıdırlar”. Şuşa mədəniyyətinin bərpası ilə bağlı artıq bir sıra işlər görülmüşdür.

Bu gün işğaldan azad olunmuş ərazilərimizdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən nəhəng yenidənqurma işləri, o cümlədən Şuşada aparılan bərpa və quruculuq prosesi şəhərin tarixi simasının bərpa edilməsi məqsədilə, Şuşanın orijinal memarlıq üslubuna uyğun olaraq gerçəkləşdirilir. Şuşanın mədəni ruhu geri qayıdır, tarixi görkəmi bərpa edilir. Şəhərin Azərbaycan mədəniyyət tarixinin çox vacib örnəklərinin bərpa olunması, şübhəsiz ki, öz tariximizə, mədəniyyətimizə, abidələrimizə sahib çıxmağımızın nümunəsidir.




Pezidentin sərəncamı ilə 2022-ci ilin ölkəmizdə "Şuşa ili" elan edilməsi də əlamətdar hadisə oldu. Bu münasibətlə ölkəmizdə, eləcə də mədəniyyət paytaxtımız Şuşada silsilə tədbirlər təşkil edilir. Buna bütün dünyaya səs salan 2022-ci il may ayının 12-14 də keçirilən V Xarıbülbül Beynəlxalq Folklor Festivalını misal çəkmək olar. "Xarıbülbül" Beynəlxalq Festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlamış və 1990-cı ildə beynəlxalq status almışdır. Festival beynəlxalq status daşıyıb və təkcə Azərbaycanda deyil, SSRİ-də mühüm mədəniyyət tədbirlərindən biri hesab olunub. 2022-ci ildə keçirilən bu festivalda konsert təşkil olunub və müxtəlif xalq mahnıları ifa edilib. Eləcə də müxtəlif ölkələrdən olan rəqs qrupları çıxış ediblər.



Şuşada həmçinin Milli Musiqi Günü də keçirilib. Sentyabrın 18-də ilk dəfə Şuşada Milli Musiqi Günü qeyd edilib və Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının ilk konserti keçirilib.Tədbirdə iştirak edən nümayəndə heyəti əvvəlcə Üzeyir Hacıbəyli, Xurşudbanu Natəvan və Bülbülün 1992-ci ildə Şuşanın işğalı zamanı erməni vandalizminin qurbanı olmuş və tarixdə “güllələnmiş heykəllər” kimi qalacaq büstlərinin önünə gül dəstələri qoyublar. Prezident İlham



Əliyev hələ illər öncə qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Üzeyir bəyin, Natəvanın, Bülbülün büstləri Şuşaya qaytarılacaq. Azərbaycan Prezidentinin sözləri Vətən müharibəsindən sonra, 2021-ci ilin yanvarında reallığa çevrildi. Dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən bu qədim şəhərə gələn qonaqları salamlayır. Xatırladaq ki, 1985-ci ildə Üzeyir Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada bəstəkarın heykəli ucaldılmışdı. Abidə 1992-ci ildə erməni vandalizminə məruz qalaraq məhv edilib. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq bəstəkarın yeni heykəli hazırlanıb. Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev azad Şuşada ilk dəfə Milli Musiqi Gününün qeyd olunmasının tarixi hadisə olduğunu vurğulayıb və bildirib ki, Şuşada ilk dəfə qeyd olunan Milli Musiqi Günündə dahi bəstəkarın adını daşıyan festivalın da ilk konserti keçirilir. Nazirin birinci müavini Şuşanın Azərbaycan mədəniyyətinin paytaxtı olaraq bundan sonra da bir çox tədbirlərə ev sahibliyi edəcəyini vurğulayıb. Böyük qayıdışımızın daha bir təntənəsi isə Vaqif Poeziya Günləri olmuşdur. Bu il 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilənədək Şuşa şəhərində hər il düzənlənən daha bir tədbirin yenidən keçirilməsinin sevincini yaşadıq. Belə ki, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşada Vaqif Poeziya günləri bu şəhər işğaldan azad edildikdən sonra ilk dəfədir ki, keçirildi. Xatırladaq ki, Vaqif poeziya günlərinin keçirilməsinə başlanması və bu tədbirin ənənəvi xarakter alması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan xalqının ümummilli liderinin iştirakı ilə 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya Evinin təntənəli açılışı olub. Məhz bu səfər çərçivəsində ümummilli lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verib. Müasir Azərbaycan ədəbiyyatı tarixində öz bənzərsizliyi ilə seçilən Vaqif Poeziya Günləri həmin tarixdən etibarən 1991-ci ilədək hər il şairin vətəni Qazaxdan başlayıb, Şuşanın əsrarəngiz Cıdır düzündə yekunlaşardı.

Qədim şəhərimiz və mədəniyyət mərkəzimiz kimi Şuşa, şübhəsiz ki, hər il milyonlarla turist tərəfindən ziyarət ediləcək, bu da şəhərimizin daha da gözəlləşdirilməsi və innovativləşdirilməsi ehtiyacını bərabərində gətirir. Bu zaman həm yerli sakinlərin, həm də turistlərin rahatlığı təmin olunmalı, həm də dünya təcrübəsinə istinad edilməlidir. Şuşada populyasiyanın sayı artdıqca bu ürəkaçan təbiətə, əvəzedilməz möhtəşəmlikdə olan havaya dəyən ziyan artacaq və təəssüf ki, ikinci Bakımıza çevriləcək. Bu konteksdən çıxış edərək velosiped nəqliyyatının populyarlaşdırılması vacibiyyət kimi görünür. Bu tip layihənin parklanma, uyğun zolaqlanma, infrastruktur kimi elementləri var, bunlar təmin olunduqda, bir şəhərin yaradıcılıq səviyyəsini artıracağına şübhə yeri qalmır. Atmosferə ziyansız olması ilə yanaşı, avtomobil zəncirindən xilas yolu kimi də dəyərləndirilə bilər, bununla yanaşı, şəhəri daha rahat kəşf etmək imkanı tanıyır. Təbii ki, bu layihə sıravi vətəndaşlara da faydasız ötüşməyəcək.

Belə ki, velosipedlərin kirayəsi, satışı, təmiri yeni biznes növünün yaranmasını və inkişafını tətikləyəcək. Digər innovativ üsullara da diqqət yetirsək, tikililərlə təbiətin inteqrasiyasını vurğulamasaq, olmaz. İnsanlar həmişə təbiətə dəyər verib və onun üzərində tikinti aparmağı seçən memarlar bu diqqət və qayğını göstərməlidirlər. Təbiətin tikintiyə daxil olması binanın enerji səmərəliliyinə təsir etməklə yanaşı, insanları bir parçası olduğu torpaqla əlaqələndirir.

"Yaşıl dam" kimi adlandırılan innovasiya dünya təcrübəsində özünəməxsus yer tutur. Spesifik olsaq, "Yaşıl damlar" kimi tanınan xüsusi dam örtükləri sistemləri damlarda otlar, bitkilər, çiçəklər, kollar və digər yaşıllıq növləri kimi bitki örtüyünün böyüməsinə imkan verir. Yaşıl dam texnologiyasının şəhər yerlərində istifadəsi bir sıra üstünlüklərə malik ola bilər. Məsələn, yaşıl dam binanın soyutma və isitmə enerjisi tələblərini minimuma endirə bilər. Yüngül çəkisi, aşağı qiyməti və aşağı texniki xidmət tələbləri sayəsində geniş yaşıl dam sistemləri getdikcə daha çox populyarlaşır. Yaşıl damlar davamlı tikinti üçün ekoloji "yaşıl" tələbi asanlıqla ödəyir. Yuxarıda qeyd olunanları xülasələşdirsək, yaradıcılıq, memari peşəkarlıq və dünya təcrübəsinin öyrənilməsi kimi komponentləri birləşdirərək Şuşamızın mədəni-sosial-iqtisadi inkişaf üçbucağına əhəmiyyətli dərəcədə təsir edə bilərik.

**Ədəbiyyat siyahısı:**
1. Hüseyn Kürdoğlu. Dördlüklər// Qarabağ dastanı. Otuz ilin həsrəti – 44 günün zəfəri. Bakı, ―Təhsil‖, 2021. 528 səh.
2. Zəlimxan Yaqub. Bu gecə yuxuma girmişdi Şuşa // https://1905.az/bu-gecə-yuxumagirmisdi-susa-zəlimxan-yaqub/
3. Həmidov V.V. Azərbaycanda movcud siyasi-coğrafi problemlər və onların həlli yolları. Bakı: 2009, 184 s.
4. https://blog.senseware.co/top-10-retrofit-methods-for-sustainable-buildings
5. https://www.culturepartnership.eu/en/article/nine-ideas-to-make-your-city-a-creative-city
6. https://ikisahil.az/post/244330-boyuk-qayidishimizin-daha-bir-tentenesi-vaqif-poeziya-gunleri

---

**Məlikov Elbəyi Mehman**
Azərbaycan Texnologiya Universiteti
elbeyimelikov06@gmail.com

## Regionlarin inkişafina dair dövlət proqramları

Azərbaycan Respublikasında regionlarda davamlı və tarazlı inkişafının təmin olunması dövlətin qarşıya qoyduğu məqsədlərdəndir. Məhz buna görə dövlət proqramlarının tətbiqinə ehtiyac yarananmışdır. Belə ki, yerlərdə dayanıqlı inkişafa əsaslanan yüksək rəqabət qabiliyyətli və beynəlxalq standartlara cavab verən sosial rifahın yaxşılaşdırılması, təbii resursların səmərəli istifadə edilməsi, ətraf mühitin və ekoloji təhlükəsizlik sisteminin formalaşması ciddi ehtiyac yaradır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən başlayaraq Azərbaycanda yeni iqtisadi siyasət strategiyası həyata keçirilməyə başlanmışdır. Dövlət başçısının prezidentlik fəaliyyəti zamanında verdiyi ilk fərmanlar məhz regionların sosial-iqtisadi inkişafı haqqında və sosial-iqtisadi inkişafın sürətləndirilməsi barəsində olmuşdur. Bu proqramlar ardıcıl xarakter almışdır. I Dövlət Proqramı Azərbaycanın bölgələrində inkişafın yeni əsaslarını yaratdı və tərəqqi prosesini daha da uğurlu mərhələyə keçirdi. Daha sonra II Dövlət Proqramı "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" dövlət başçısı tərəfindən təsdiq edildi. Yeni proqramın hazırlanmasında əsas məqsəd ölkədə kommunal xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılması və əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəldilməsinə nail olmaq idi. Bu proqramın uğurlu icrası nəticəsində ölkədə qeyri-neft sektorunun davamlı inkişafı, yeni müəssisələrin və iş yerlərinin yaradılması, sahibkarlıq mühitinin yaxşılaşdırılması, ÜDM-nin artımı, əhalinin məşğulluq səviyyəsinin artırılması və yoxsulluğun azaldılması ilə bağlı əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur [1].

**Qrafiq 1: Qeyri neft, neft və ümumi ÜDM-in artımı** *Mənbə:* (AMB, 2003-2011*-ci illər)



1-ci qrafikdə 2003-2011-ci illər ərzində neft ÜDM-nin artımı, qeyri-neft ÜDM-nin artımı və ÜDM-nin artımı göstərilmişdir. [5].

Dövlət proqramlarının icra olunması 2010–2021-ci illər ərzində ilkin məlumatlara əsasən 2021-ci ildə ölkədə 92857,7 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,6 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur. İqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 7,2 faiz, neft-qaz sektorunda isə 1,8 faiz artmışdır. ÜDM istehsalının 42,5 faizi sənaye, 10,1 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,9 faizi tikinti, 1,8 faizi informasiya və rabitə, 1,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 17,2 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 8,4 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 9269,3 manata bərabər olmuşdur [2]. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır. Bu məqsədlə regionların inkişafına dair dövlət proqramları qəbul edilərkən qeyri-neft sənayesi ölkənin gələcək iqtisadi inkişafının prioritet istiqamətlərindən biri kimi seçilmişdi. Bu siyasət sonrakı illər də davam etdirildiyi üçün, 2014-cü il Azərbaycanda “sənaye ili” elan edilmişdi.

Son 17 il ərzində ölkədə yüzlərlə müasir sənaye müəssisəsi, müxtəlif bölgələrdə sənaye parkları yaradılıb, daxili tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixrac imkanları genişlənmişdir. Sumqayıtda yaradılmış bütün müəssisələr son illər ərzində ekoloji standartlara cavab verir. Coğrafi şəraiti istehsalat üçün əlverişli hala gətirilmişdir. Memarlıq baxımdan göz oxşayan Sumqayıt, SSSR dövründəki “Qara şəhər” adını üstündən götürərərək nisbətən ekoloji cəhətdən təmiz şəhərə çevrilmişdir. Gözəl bulvarı və görünüşü ilə turistləri cəlb edir.

Sovet vaxtı tikilmiş və istismar müddətini başa vurmuş çoxsaylı müəssisələrin yerində 500 hektar sahəni əhatə edən Sumqayıt Kimya Sənaye Parkı ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi ilə yaradılmışdır. Sənaye zonalarında istehsal olunan məhsulun 80 faizindən çoxu Sumqayıt Kimya Sənaye Parkının payına düşür.

Dövlət Proqramları əsasında ölkənin Hacıqabul, Masallı, Neftçala, Sabirabad bölgəsində sənaye zonalarının yaradılması sənayeləşmə prosesinə təkan verib.

1) Hacıqabul Sənaye Məhəlləsi 60 hektar ərazini əhatə edir;
2) Masallı Sənaye Məhəlləsi 10 hektar ərazini əhatə edir;
3) Sabirabad Sənaye Məhəlləsi 20,3 hektar ərazini əhatə edir;
4) Neftçala Sənaye Məhəlləsi 10 hektar ərazini əhatə edir.

Sahibkarlar tərəfindən indiyə qədər sənaye zonalarına 6,4 milyard manatdan çox investisiya yatırılıb və 10 mindən çox daimi iş yeri yaradılıb [3]. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 400 milyon manatadək investisiyanın yatırılması və 2600-dən çox yeni iş yerinin yaradılması gözlənilir. Sənaye zonaları üzrə indiyədək ümumilikdə 6,5 milyard manatdan çox məhsul istehsal edilib, bunun 2,1 milyard manatı təqribən 32 faizi ixrac olunub. Statistik göstəricilərə əsasən, 2021-ci ilin I rübündə sənaye zonalarında 373 milyon manatlıq məhsul istehsal edilmişdisə, 2022-ci ilin I rübündə 82,6 faiz 681 milyon manat həcmində məhsul istehsal olunub. İxrac isə 2021-ci ilin analoji dövrü 119,9 milyon manat ilə müqayisədə təqribən 2,7 dəfə artaraq 318 milyon manat təşkil edib. 2022-ci ilin I rübündə 681 milyon manat həcmində məhsul istehsalı ilə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 14,8 faiz, qeyri-neft sənaye məhsullarının ixracında 36,3 faiz 318 milyon manat olub. Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 40-dan çox ölkəsinə ixrac edilib.[3].

Hazırda Azərbaycan öz istehsal etdiyi məhsulları digər ölkələrə satmaqla öz ixrac coğrafiyasını genişləndirmək imkanlarını araşdırır. Burada əsas məqsəd yüksək keyfiyyət standartlarına malik olan yerli məhsulların “Made in Azerbaijan” brendi adı altında xarici bazarlara çıxışını genişləndirməkdir. 2019-cu ildə kənd təsərrüfatı emal müəssisələrinin ixracı Dövlət proqramlarının uğurlu icrası nəticəsində əvvəlki illə müqayisədə ümumilikdə 14 faiz artıb. Ölkənin aqrar sektorunun inkişafı üçün yerli fermer və aqropark təsərrüfatının yaradılması istiqamətində işlər davam etdirilir.

Regionların sosial-iqtisadi inkişafına dair yeni müəssisələrin və iş yerlərinin açılması, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynamışdır.

Bunlarla yanaşı iqtisadiyyatın digər sahələrində də dövlət proqramları qəbul olunmuşdur. Azərbaycan Respublikasında çay və çəltik istehsalı, sitrus meyvələrinin istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında 2017-ci ildə Dövlət Proqramı qəbul edilmişdir. Ölkəmizdə sitrus meyvəçiliyinin inkişafına dövlət dəstəyinin gücləndirilməsinə, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsinə, sitrus meyvələrinin istehsalının stimullaşdırılmasına yönəldilmişdir. Çayçılığın inkişaf etdirilməsi, çay məhsullarına tələbatın yerli istehsal hesabına təmin olunması, çayçılığın ixrac potensialının artırılması, kənd əhalisinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədi ilə 2018–2027-ci illər üçün Dövlət Proqramı təsdiq edilmişdir [4].

Dövlət proqramlarının həyata keçirilməsi nəticəsində Azərbaycan Respublikası özünü dünya miqyasında stabil, dayanıqlı inkişaf dinamikasına malik ölkə kimi tanıtmış və beynəlxalq iqtisadi meyarları təyin edən qurumların reytinqində mövqe tutmağa başlamışdır. Nəticədə beynəlxalq investorların ölkəyə marağını xeyli artmışdır.

Bu proqramların həyata keçirilməsi regionlarda güclü sosial-iqtisadi inkişafa böyük təsir göstərir.

**Ədəbiyyat siyahısı:**

1. www.Azerbaijans.com;
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi;
3. Azərbaycan Dövlət İnformasiya Agentliyi;
4. Report İnformasiya Agentliyi;
5. www.Azerbaijans.com;

---

**Məmmədov Amil Mübariz**
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: amilmammadov.m@gmail.com

## Blokçeyn texnologiyası

**Xülasə**

Günümüzdə sosial media, bank tətbiqləri və başqa təkminləşən texnologiyalar avadanlıqların böyük həcmdə məlumat yaratmasına şərait yaradır. İdarəetmə, nəzarət, məlumatların təhlükəsiz paylaşılması və texniki xidmət prosesləri gün keçdikcə daha əhəmiyyətli hala gəlir. Maliyyə sektorunun rəhbərliyi altında məlumatların idarə edilməsi və məlumatların saxlanması axtarışlarına hər gün yeni bir texnologiya və yaxud perspektiv əlavə edilir. Bunun məşhur nümunələrindən biri Blokçeyn texnologiyasıdır. Bu tədqiqat Blokçeyn texnologiyası ilə dərindən məşğul olur, onun arxitekturasını, iş prinsipini, növlərini, istifadə sahələrini araşdırır və bu texnologiyanı ənənəvi verilənlər bazası idarəetmə sistemləri ilə müqayisə edir. Tədqiqatlardan görünür ki, mərkəzi strukturu bitirən və təhlükəsizliyi prioritetləşdirən bu texnologiyanın qısa zamanda uyğunlaşdırılması lazımdır.

Blokçeyn 2008-ci ildə yaradıldı və 2009-cu ildə Bitcoin virtual valyuta vasitəsiylə tanınmağa başladı. Blokçeyn texnologiyası paylanmış reyestr kimi təsvir olunur. Geniş mənada, Blokçeyn paylaşılan, paylanmış, geri dönməz, şifrələnmiş və pozulmaz məlumat ambarıdır [4]. Blokçeyn şəbəkə vasitəsiylə sistemdən istifadə edən istifadəçilər arasında əməliyyatları saxlayan və təsdiqləyən sistemdir. Əməliyyatlar Blokçeyn sistemində bloklarda saxlanılır və zəncir yaratmaq üçün bu bloklar bir-birinə bağlanır. Müəyyən olunmuş qaydalar çərçivəsində yaradılmış bloklar sistemə yazılır. Daha sonra blok yayılır və bütün paylanmış kitablara əlavə edilir. Yeni blok yaradılan zaman öncəki blokun xülasəsi alınır və ikinci blok yaradılaraq zəncirə əlavə olunur. Əməliyyat baş verdikdə, mövcud şəbəkə vasitəsiylə yayımlanır və cari əməliyyatı şifrələmə alqoritmləri vasitəsiylə yoxlayaraq blok meydana gətirilir. Sistemdəki hər bir qovşaq hər iki şəxs tərəfindən həyata keçirilən əməliyyatı təsdiq edir və öz qeydini saxlayır. Nəticədə blok yoxlanılır və bu məlumat heç vaxt silinə və yaxud dəyişdirilə bilmir. Hər yeni blok bir-birinə zəncirlənərək əlavə edilməyə davam edir və

başqası onları heç vaxt dəyişdirə bilmir. Hər istifadəçi sistemdə bir qovşağı təmsil edir. Sistemdə olan hər bir node Blokçeynin öz nüsxəsinə, yəni reyestrinə, başqa sözlə, verilənlər bazasına malik olur. Bu kitab ucdan-uca protokolundan istifadə edərək başqa qovşaqlarla sinxronlaşdırılır. Bu zaman vasitəçi aradan qaldırılır və mərkəzi orqan öhdəliyi tələb olunmur [4]. Bir qovşaq fəaliyyətini dayandırarsa, digər qovşaqlar bütün əməliyyat təfərrüatlarını saxlayır. Nəticədə, sistem real vaxt rejimində məlumat verir və əməliyyatların uğursuzluq və yaxud səhv dərəcələrini azaldır [5].

Blokçeyn sisteminin bəzi xüsusiyyətləri aşağıda qısaca təsvir olunmuşdur.

Paylanmış: Blokçeynin ən vacib xüsusiyyəti məlumatların bir yerdə saxlanılmaması, paylanmış şəkildə qeydə alınması və yenilənməsidir.

Şəffaf: Hər bir qovşaq üçün məlumatların qeydə alınması şəffafdır. Ona görə də Blokçeyn etibarlı hesab edilir.

Müstəqil: Konsensus strukturu vasitəsiylə Blokçeyn sistemindəki hər bir qovşaq məlumatları təhlükəsiz şəkildə ötürə bilir və bu zaman mərkəzi sistemə ehtiyac duymur.

Dəyişməz: Blokçeynə əlavə olunmuş qeyd heç vaxt silinə və yaxud yenilənə bilməz və qeyd daimi olaraq saxlanılır [7]. Müxtəlif hücumlar istisna olmaqla, qeydlərin dəyişdirilməsi mümkün deyil.

Şəxsiyyət məxfiliyi: Blokçeyn sistemində qovşaqlar məlumatları anonim şəkildə ötürə bilər. Bu prosesi reallaşdırmaq üçün şəxsin blok zənciri ünvanını bilmək kifayətdir.

İcazə mexanizminə görə Blokçeyn üç növdən ibarətdir: açıq, gizli və konsorsium Blokçeyn.

Açıq Blokçeyn şəbəkəsində hər kəs şəbəkəyə qoşula bilər. Bu sistem tamamilə mərkəzi səlahiyyətsiz və müstəqil Blokçeyn sistemi hesab edilir. Bu sistemə nümunə kimi, ağıllı müqavilələrin istifadə olunmasına icazə verən və tərtibatçılara paylanmış proqramları dərc etməyə imkan verən proqramlaşdırma dilləri və platformalar təqdim edən Bitcoin və Ethereum-u göstərmək olar [8,9].

Gizli Blokçeyn sistemində yalnız icazəli istifadəçilər şəbəkəyə qoşula bilər. Gizli Blokçeyn sistemində səlahiyyətli olan və sistemdə məskunlaşanlar icazəsiz konsensus strukturuna daxil olarsa, bu sistemlərə qismən icazə tələb edən sistemlər deyilir. Belə şəbəkələrdə mərkəzi orqan tələblərə əsasən əməliyyatları geri qaytarmaq və qaydaları dəyişdirmək səlahiyyətinə malikdir. Xərcləri azaltmaq, səmərəliliyi artırmaq və xüsusi sistemlər qurmaq üçün istifadə edilir. Bu sistemə nümunə olaraq Eris Industries və Multichain verilənlər bazası provayderlərini göstərmək olar [8].

Konsorsium Blokçeyn şəbəkələri açıq və gizli Blokçeyn şəbəkələrinin birgə qarışığı hesab edilir. Bu, qovşağın səlahiyyətli qurum və yaxud şəxs tərəfindən öncədən seçə biləcəyi sistemdir. Bu Blokçeyndəki məlumatlar açıq və yaxud gizli ola bilər. Bu Blokçeyndə yazmaq və oxumaq qabiliyyəti müəyyən qədər genişləndirilə bilər. Buna nümunə olaraq IBM-in Hyperledger layihəsini göstərmək olar.

Blokçeyn əməliyyatları ayrı-ayrı bloklarda saxlanılır və bloklar birləşərək zəncir təşkil olunur. Bloklardakı zəncir müxtəlif xüsusiyyətlərə malikdir və müəyyən olunmuş qaydalarla bir araya gəlir. Bununla əlaqəli əsas anlayışlar aşağıdakı kimi izah olunur. Blok - Blokçeyn sistemində məlumatların saxlanmasına deyilir. Bloklar zəncirvari şəkildə birləşdirilir. Bu strukturunda ilk bloka başlanğıc blok deyilir. Hər blok başlıq hissələrdən ibarətdir [10]. Bu blok başlığının dəyişməsi Blokçeynin ən əhəmiyyətli təhlükəsizlik elementi olan başlıq heşlərində münaqişəyə şərait yaradır[11]. Blokdakı əməliyyatların sayı əməliyyatlardakı blokların sayına və əməliyyatların ölçüsünə görə dəyişir. Hər növbəti blokda öncəki blok haqqında məlumat saxlanılır [12] və blokda təxminən 350-dən 500-ə qədər əməliyyat məlumatı olur [13]. Hər istifadəçinin iki müxtəlif açarı var, açıq və gizli açar. Açıq açar yerinə yetirilən əməliyyatları imzalamaq üçün istifadə edilir. İmzalanmış bütün əməliyyatlara hər kəsin daxil ola biləcəyi formada açıq açarlardan istifadə olunur. Bu imza iki mərhələdən ibarətdir: yoxlama və imzalama. Məsələn, imzalamaq istəyən Əhmədin əməliyyatı üçün əməliyyatdan əldə olunan ümumi dəyər formalaşdırılır. Sonra bu hash dəyəri açıq açardan istifadə olunmaqla şifrələnir və bu şifrələnmiş hash məlumatı Həsənə çatdırılır. Həsən, Əhmədin göndərdiyi açıq açarla şifrələnmiş məlumatı açır və mesajın xülasəsini yaradır. Əhmədin mesajından əldə olunan hash dəyəri arasında müqayisə yolu ilə alınan proses tərəfindən nəzarət prosesi həyata keçirilir. Blokçeyn şəbəkəsindəki məlumatlar bütün registrlərdə sinxron şəkildə mövcud olmalıdır. Bunun reallaşması üçün şəbəkə üzrə konsensus tələb edilir. Vaxt məlumatı və kriptoqrafik Hashing blokların Blokçeyn sistemində etibarlılığı barədə məlumat vermək üçün istifadə edilir. Blok başlığında məlumatlarım

hashing vasitəsiylə işlənməsi hash məlumatını (blok hash) aşkar edir. Bu blok əvvəlki blokun xülasə məlumatını özündə ehtiva edir. Bu üzulla zəncirin davamlılığı yoxlanılır [6]. Blockchain platformaları bu mövzuda müxtəlif yanaşmalar tətbiq edirlər. Bu yanaşmalar arasında daha çox istifadə edilən iki alqoritm aşağıdakı qeyd olunmuşdur [10]:

Proof of Work-POW: Bu alqoritm Blokçeyn şəbəkəsinə yeni bir blok əlavə etmək üçün tapmaca həlli formasında işləyir, onu həll etmək kifayət qədər çətindir, amma həllin düzgünlüyünü yoxlamaq prosesi asandır. Belə sistemdə əhəmiyyətli olan əsas məsələ blokun ümumiləşdirilməsinin müəyyən qaydaya uyğun olmasıdır. Bu uyğunluq müəyyən ardıcıllıqla başlamaq və yaxud müəyyən bir diapazonda olmaq kimi kriteriyalara uyğun olmaqla təmin olunur. Təxminən hər on dəqiqədən bir bitcoin strukturunda iş sübutu bloku yaradılır. İş sübutunun yaradılması prosesinə mədənçilik deyilir [6].

Proof of Stake (POS): İşin sübutu metodu çoxlu elektrik enerjisi istifadə edir. Bu alqoritm blok zəncirində blok yoxlama və yaratma prosesini zəncirdə blok istehsal edən düyünün payı ilə əlaqələndirir. Kriptovalyutalar başlanğıcda bütün sistemə qoyulan investisiyalara uyğun olaraq paylanır. Sonrakı blokun yaradılmasında təsadüfi funksiyadan istifadə edilir. Bu formada yüksək paya malik olan qovşaq üçün seçilmə şansı artır. Bu qovşaq müvafiq blok yaratmırsa, bu hüquq sonrakı node-a verilir. Digər bir yanaşmada, müəyyənləşdirilmiş pay həll ediləcək tapmacanın çətinlik dərəcəsinə təsirli olur [6].

İstifadəçilərin ünsiyyətini daha təhlükəsiz həyata keçirmək üçün ağıllı müqavilə 1994-cü ildə meydana çıxan bir anlayışdır. İdeyanın ən vacib nümunəsi müəyyən qədər Bitcoin-də tapılsa da, məhz Ethereum 2014-cü ildə meydana çıxdı və insanlara kod yazaraq müqavilələrin necə yaradıldığını göstərdi [11]. Ağıllı müqavilədə iştirak edən tərəflərin qəbul etdiyi qaydalar var və bu qaydalar həyata keçirildikdə fərqli tədbirlər həyata keçirilir. Bu müqavilələr imzaladıqdan sonra kriptoqrafiyadan istifadə olunaraq Blokçeynə əlavə edilir[12]. Ağıllı müqavilədəki bütün kodlar qısa, aydın və hamı tərəfindən rahatlıqla anlaşılan şəkildə olmalıdır.

Səhiyyə sektorunda ən vacib problemlər dərman əsaslı dərmanların və saxta dərmanların nəzarətsiz şəkildə satışıdır. Dərmanın istehsal edildiyi andan xəstəyə çatdırıldığı vaxta qədər yoxlanılmalıdır. Blokçeyn texnologiyası vasitəsiylə bu proses asanlaşdırılıb və sistemləşdirilib.

Dövlət qurumları ictimai verilənləri özündə saxlayan paylanmış verilənlər bazasına eyni vaxtda və ani daxil olmaqdan böyük fayda əldə edə bilərlər. Sürücülük vəsiqələri və ya pasportlar Blokçeynə daxil oluna bilər ki, bu da birdən çox agentə real zamanda daxil olmağa, şəxsiyyəti paylaşmağa və təsdiqləməyə imkan verir. Hazırda bir çox maliyyə institutları və bank Blokçeyndə şəxsi və korporativ maliyyə əməliyyatlarının təşkili üzərində çalışırlar. Maliyyə əməliyyatlarında, yerinə yetirilən hər bir əməliyyat müvafiq olaraq vergi orqanlarına göründüyü üçün və mühasibat kitabçası aktivlərin köçürülməsini izlədiyi üçün avtomatik olaraq vergiyə cəlb oluna bilər. Bu da vergilərin yoxlanılması və verilməsi baxımından prosesdə müxtəlif vasitəçilərə ehtiyacı və yükü azaldır [4].

Ən böyük təbii ehtiyat sənayelərindən biri almaz sənayesidir və xüsusilə Afrika ölkələrində ixracın böyük hissəsini təşkil etməkdədir. Almaz sektorunun ən mühüm problemi qaçaqmalçılıqdır. Daşlar kiçik olduğu üçün onları daşımaq və gizlətmək asandır. Həyata keçirilən əməliyyatların məxfiliyi cinayətkarlar üçün vacib amildir. Terrorizmin maliyyələşdirilməsində və brilyant pulların yuyulmasında geniş miqyasda istifadə edilir. Bu cür hadisələrdən xilas olmaq üçün Everledger şirkətinin Blokçeyn proqramından istifadə olunur. Şirkət bütün istiqamətlərdə istehsal və marketinq mərhələlərində almazın toxunduğu hər bir seqmentə əməliyyatların yoxlanılması və almazın identifikasiyası üçün dəyişdirilə bilməyən kitab təqdim edir. Everledger şirkəti hər bir almaz üçün "rəqəmsal pasport" təyin edir və hər bir daşı izləyən unikal barmaq izi yaradır [8].

Blokçeyn texnologiyasının ən böyük üstünlüklərindən biri olan məlumatların dəyişdirilə bilinməyəcəyi imkanı seçkilərdə hökumətlərin diqqətini cəlb edir. Səslərin dəftərlərə paylanması və şifrələnməsi vasitəsiylə təhlükəsizlik və şəffaflıq təmin olunacaq. Bəzi səlahiyyətli şəxslərdən onların səslərinin hesablandığını və kimə səs verdiklərinin təsdiq olunması tələb oluna bilər. Bu zaman həm də hökumətlər üçün pula qənaət edilir.

Blokçeyn açıq mənbəli bir layihədir. Bu layihədən sonra bir çox sektorlarda, xüsusilə maliyyə sahəsində tətbiqlər və layihələr meydana çıxdı. Bunlardan ən populyarlarını nəzərdən keçirək.

Bitcoin mərkəzləşdirilməmiş rəqəmsal valyutadır. 2009-cu ildə meydana çıxmışdır. Bitcoin Blokçeyn üzərində qurulmuş və bu şəkildə formalaşmağa başlamışdır. Yerinə yetirilən hər bir əməliyyat düyünlərdə saxlanılır. Kitabda həyata keçirilən hər bir hərəkətin tarixi qeyd edilir və mədənçilik prosesi ilə bloklar əlavə olunur. Bitcoin, mərkəzləşdirilmiş nəzarət tələb etmir və hər kəs tərəfindən istənilən yerdən istifadə oluna bilər [15].

Ethereum, mərkəzləşdirilməmiş proqramları istifadə etmək, qurmaq və idarə etmək üçün istifadə olunan açıq Blokçeyn platformasıdır. Bu platformanın dizayn olunmasında səbəb kimi onun sürətli inkişaf müddəti, təhlükəsizliyi və rahat qarşılıqlı əlaqə qurmaq xüsusiyyətlərini göstərmək olar. Ethereum tərtibatçıları Ethereum sistemində işləyən proqramlar yaratmağa şərait yaradan "Turing complete" proqramlaşdırma dilindən istifadə edir [13]. Ethereum-da həyata keçirilən bütün əməliyyatlar Ether adlı kriptovalyutadan istifadə olunaraq ağıllı müqavilə hesablamalarının aparıldığı Ethereum Virtual Machine "EVM" köməyi ilə həyata keçirilir.

Bitcoin sistemi ən şəffaf sistemlərdən biridir. İstəyən hər kəs istifadəçi ID-dən başqa bütün əməliyyat məlumatlarına daxil ola bilər. Bu proses, şəffaflığa can atan sistemlərdə üstünlük təşkil etsə də, bankçılıq kimi məxfiliyin böyük əhəmiyyət kəsb etdiyi sistemlərdə ciddi problemlər yarada bilər. Bəzi Blokçeyn sistemlərində bu problemi həll etmək üçün əməliyyat şifrələmə alqoritmləri (SHA-256) ilə şifrələnmədən öncə göndərilir. Blokçeyn daha gizli struktura malik olsa da, şifrələmə prosesləri vaxt və yüksək emal gücü tələb edir. Ona görə də ənənəvi verilənlər bazaları bir addım irəli gedir.

Blokçeynin digər xüsusiyyəti "Anonimlik"dir. Blokçeyn şəbəkəsində qovşaqlar tərəfindən həyata keçirilən əməliyyatlar gizli şəxsiyyətə malikdir. Bu da, əməliyyatı həyata keçirən şəxslərin daha rahat hərəkət etmələrini və məxfi qalmasını təmin edir.

Məlumatların təhlükəsizliyi üçün ənənəvi verilənlər bazası sistemlərində bir sıra sistematik tədbirlər görülür. Yüksək təhlükəsizlik xərcləri səbəbindən bu tədbirlərdən qaçınmaq kimi risklər vardır. Əlavə olaraq, bu sistemlərin ən mühüm problemlərindən biri də DDoS hücumu vasitəsiylə məlumatlara müdaxilə edib dəyişdirmək və yaxud sistemi qeyri-funksional vəziyyətə salmaqdır. Paylanmış strukturu vasitəsiylə DDoS hücumuna qarşı sistem elastikliyinə malikdir. Xidmətdən kənar qovşaq olsa da, qalan nodelar məlumat itkisi olmadan fəaliyyətini davam etdirir. İstifadə olunan hashing parolları vasitəsiylə sistemdən kənardakı qovşaqda məlumatlar dəyişdirilsə belə, razılaşmada iştirak edə bilməyəcək və digər qovşaqlar tərəfindən təsdiqlənməyəcək. Əlavə olaraq, sistemlərin əksəriyyətində istifadəçilər ağıllı müqavilələrin işləməsi və əməliyyatları emal etmək üçün şəbəkəyə kiçik bir əməliyyat haqqı ödəyirlər. Bu ödənişlər təkcə Blokçeynin saxlanma xərclərini deyil, eyni zamanda pis niyyətli insanlardan qoruyur [4].

Əksər ənənəvi verilənlər bazaları müəyyən bir zamanda aktual olan məlumatları saxlayır. Çox köhnə məlumatlar silinir. Blokçeyn verilənlər bazaları isə qurulduğu andan etibarən bütün əməliyyatları saxlayır. Blokçeyn texnologiyası öz tarixi vasitəsiylə verilənlər bazası yarada bilər. Blokçeyn şəbəkəsinə daxil olduqda, bütün tarixi məlumat dəstini qeyd etməlidir. Çünki hər yeni əməliyyat öncəki bloka əlavə olunacaq [14].

Məlumat əlavə olunduqca, zəncir yavaş-yavaş böyüməyə başlayır, köhnə məlumatlar kilidli qalır və müdaxilədən effektiv şəkildə qorunur. Sistem audit üçün açıqdır və ciddi uyğunluq qaydalarına malik olan təşkilatlar üçün son dərəcə faydalıdır [14]. Ənənəvi verilənlər bazası ilə müqayisədə bu həm çatışmazlıq, həm də üstünlükdür. Çünki məlumatlar əlavə olunduqca mövcud verilənlər bazası böyüyəcək və nəhəng ölçülərə çatdıqda müxtəlif çətinliklər yarada biləcək. Həmçinin, yeni əlavə olunmuş qovşaqlar üçün böyük verilənlər bazası nüsxəsini əldə etmək çətin olacaq.

Blokçeyn texnologiyasının çatışmazlıqları və üstünlükləri qiymətləndirildikdə, hər zaman ənənəvi sistemləri əvəz etmək mümkün olmur. Məlumat ötürmə, davamlılıq və təhlükəsizlik meyarları baxımından çox uğurlu nəticələr əldə olunur. Qeyd olunan meyarlar gələcəkdə böyük üstünlük əldə etmək üçün istifadə edilə bilər. Sorğu meyarları, performans və yoxlama hazırda əsas çatışmazlıqdır.

Blokçeyn texnologiyası son zamanda populyarlaşan müasir texnologiyadır. Fərqli sahələrdə yüksək transformasiya potensialına malikdir. Başqa texnologiyalarda olduğu kimi, Blokçeyn texnologiyasında da yeni layihələrlə eksperimentlər aparılır, boşluqlar bağlanaraq sistem inkişaf etdirilir. Sürətlə inkişaf edən texnologiya, inkişaf və innovasiyanın yayılmasını və böyüməsini

pozmadan sistemin idarə olunmasını, çevikliyini və təhlükəsizliyini təmin etmək üçün düzgün tarazlıq yaradılmalıdır. Effektiv idarəetmə Blokçeyndə uğurun ən mühüm səbəblərindən biridir. Bu, sistemin kibertəhlükəsizlik və məxfilik risklərinə qarşı dayanıqlığını artırır.

Blokçeyn texnologiyası üçün layihə investisiyaları maliyyədən daşınmaz əmlaka, səhiyyədən zərgərlik sektoruna qədər bir çox sahədə başlamışdır. Blokçeyn texnologiyası indi böyük şirkətlər tərəfindən də yoxlanılır. Tranzaksiya təhlükəsizliyini artırmaq və manipulyasiya riskini azaltmaq üçün ağıllı müqavilələr potensial cəlbedici olsa da, tənzimləyici çatışmazlıqlar səbəbindən texnologiyanın tətbiqi çətinləşir. Yaranmış vəziyyətdən çıxmaq və ondan sui-istifadə hallarının qarşısını almaq üçün əsasən kripto pul sektorunda həm kommersiya, həm texnoloji, həm də hüquqi standartların müəyyən olunması və inkişaf etdirilməsi lazımdır. Məlumat mübadiləsi üçün etibarlı və sürətli sistemin axtarışı verilənlər bazası menecerlərinin və informasiya texnologiyaları infrastrukturu üçün ən böyük problemlərdəndir. Blokçeyn bu məsələlərin ilk hallərdən biri kimi meydana çıxır. Kadr çatışmazlığı hazırda Blokçeyn texnologiyasına keçidi ləngidir.

**Ədəbiyyat siyahısı:**


1. İnternet: S. Nakamoto. Bitcoin: A peer-to-peer electronic cash system (Technical Report). www.bitcoin.org, 15.02.2020.
2. Y. Vural, Ş. Sağıroğlu, “Veritabanı Yönetim Sistemleri Güvenliği: Tehditler ve Korunma Yöntemleri”, Politeknik Dergisi, 13(2), 71-81, 2010.
3. E. Önder, Yönetim Bilişim Sistemleri Kapsamında Web Tabanlı İlişkisel Veritabanı Yönetim Sistemleri ve Bir Uygulama, Yüksek Lisans Tezi, İstanbul Üniversitesi, Sosyal Bilimler Enstitüsü, 2005.
4. G. R. Nair, S. Sebastian, “Blockchain Technology Centralised Ledger to Distributes Ledger”, International Research Journal of Engineering and Technology (IRJET), 4(3), 2823-2827, 2017.
5. İnternet: H. Kakavand, N. Kost De Sevres, B. Chilton, The Blockchain Revolution: An Analysis of Regulation and Technology Related to Distributed Ledger Technologies, https://ssrn.com/abstract=2849251, 03.01.2019.
6. U. Mukhopadhyay, A. Skjellum, O. Hambolu, J. Oakley, L. Yu, R. Brooks, “A brief survey of Cryptocurrency systems”, 2016 14th Annual Conference on Privacy, Security and Trust (PST), 745– 752, 2016.
7. İnternet: T. Wan, H. Max, Bitcoin: Fact. Fiction. Future, https://www2.deloitte.com/insights/us/en/topics/emergingtechnologies/bitcoin-fact-fiction-future.html, 04.01.2019.
8. H. Watanabe, S. Fujimura, A. Nakadaira, Y. Miyazaki, A. Akutsu, J. J. Kishigami, “Blockchain contract: A complete consensus using blockchain”, 2015 IEEE 4th Global Conference on Consumer Electronics (GCCE), 577–578, 2015.
9. Z. Zheng, S. Xie, H. Dai, X. Chen, H. Wang, “Blockchain Challenges and Opportunities: A Survey”, International Journal of Electric and Hybrid Vehicles, 14(4), 1–23, 2017.
10. İnternet: P. Kovary, F. Zhou, M. Adoul, Blockchain - Technical Details, http://www.doc.ic.ac.uk/~ma7614/topics_website/ tech.html, 07.01.2019.
11. İnternet: Y. Chu, J. Ream, D. Schatsky, Getting smart about smart contracts, https://www2.deloitte.com/tr/en/pages/finance/articles/ cfo-insights-getting-smart-contracts.html, 10.12.2019.
12. İnternet: F. İstanbul, F. H. Fork, Mecburi Çatallaşma nedir?, http://fintechistanbul.org/ 2016/07/30/hard-fork-sert-catal-nedir/, 10.12.2019.
13. İnternet: B. Yazıcı, Soft Fork ve Hard Fork Nedir? Temel Farkları Nelerdir?, http://www.burcinyazici.com/soft-fork-ve-hard-forknedir-farklari-3599.html/, 20.12.2018.
14. İnternet: Qtum, What is a blockchain fork?, https://blog.qtum.org/what-is-a-blockchain-fork-16cef86c0ad8, 23.12.2019.

**Əmrahova Ayşə**
Sumqayıt Dövlət Universiteti
Tarix və coğrafiya Fakültəsi, Kurs: IV, Qrup: 821
Elmi rəhbər: dosent Sona Məhərrəmova
emrahovaayse.12@gmail.com

## Şuşanın mədəniyyət tarixinə Cıdır düzündən məğrur baxışla...

*Sən dağların başında mirvarisən,incisən,*
*Şəhərlər sırasında dünyada birincisən!*
*İbrahimin qılıncı,Pənah xanın taxtısan,*
*Bugün artıq ölkənin mədəni paytaxtısan!! [4]*

Qəhrəmanları yetirən,dahiləri yetişdirən, Azərbaycanın tarix səhifələrində qırmızı hərflərlə həkk olunan şəhərdir Şuşa.Uğrunda müharibələr aparılmış,şəninə mahnılar bəstələnmiş,qüdrətinə şeirlər yazılmışdır.

Bugün Azərbaycanın nadir incisi hesab edilən Şuşa şəhərinin təməli Şuşa qalasının tikilməsi ilə qoyulmşdur. 1752-1783-cü illərdə Qarabağ xanlığının paytaxtı olan Şuşa qalasının yaranma tarixi ilə bağlı tarixçi və mütəxəssislərin təzadlı fikirləri vardır.Bəzi tarixçilər qalanın yaranma tarixini 1750-ci ilə,bəzi tarixçilər isə 1752-ci ilə aid edirlər. Tarixçi Mirzə Camal qeyd edir ki,qalanın tikintisi 1754-cü ildə başa çatmış və həmin ildə də Şahbulaq qalasınn sakinləri buraya köçürülmüşdür. Lakin vurğulamalıyıq ki,bu fikri sübut edən əsaslı arqumentlər yoxdur. Tarixçilər ümumi bir fikrə gələrək qalanın yaranma tarixini 1750-1752-ci illərdə qeyd edirlər.

Qalanın strukturu da heç sadə deyildi. Pənahəli xanın Təbriz, Ərdəbil və Azərbaycanın digər şəhərlərindən gətirdiyi görkəmli sənətkar və memarların əməyi sayəsində mürəkkəb və əsrarəngiz quruluşlu bir qala tikildi. Qalada “İrəvan” və ya “Xəfəli”, “Ağoğlan” və ya “Muxtar qapısı”, “Gəncə” və ya “Ciləbörd” adlanan üç qapı var idi. “Йллюстрацйя” qəzetində çap olunan məqalə də sübut edir ki, bu qapılar XIX əsrin 60-cı illərində Şuşa qalasının ictimai həyatında və onun işğalçılar tərəfindən mühafizəsində böyük rol oynamışdır. Qalanın tərkibində iç səhər və ətrafında 17 məhəllə, həmçinin, məscid, mədrəsə, hamam, dükan və bulağı da var idi. Bu həmin dövrdə Azərbaycanın malik olduğu memarlıq ənənələrinin göstəricisi idi.

İran tarixçisi Ə. Pakrəvan Şuşa şəhərinin gözəlliyi haqqında əsərində yazırdı: “Ağa Məhəmməd xan Şuşanın gözəlliyi qarşısında heyran qalmışdı. Şuşa o zaman Qacar imperatorluğunun paytaxtı Tehrandan daha böyük və şəhər mədəniyyəti baxımından daha İrəli səviyyədə idi. Bütün ordu mənsubları da dağların qoynunda və ormanlıqda yerləşən bu şəhərin gözəlliyinə heyran olmuşdular” [1].

Ümumiyyətlə insanla, millətlə təbiət arasında daxili,fitri bağlılıq və harmoniya var. Buna görə də, Şuşa şəhəri boşuna mədəniyyət beşiyi adlandırılmır. O gözəl və doğma vətən torpağı neçə-neçə şair, sənətkar, alim, rəssam, yazıçı, elm xadimini və s. Azərbaycan mədəniyyətinə bəxş edib. Azərbaycan Milli Elmlər Akademiyasının alimlərinin verdiyi məlumata əsasən, hələ XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 18 memar, 42-ə yaxın müəllim və s. olmuşdur. Molla Pənah Vaqif (1717-1797), Xurşidbanu Natəvan (1835-1897), Əbdürrəhim bəy Haqverdiyev (1870-1933), Mir Möhsün Nəvvab (1833-1918), Qasım bəy Zakir (1784-1857), Süleyman Sani Axundov (1875-1939), Nəcəf bəy Vəzirov(1854-1926), Əhməd bəy Ağayev (1869-1939), Yusif Vəzir Çəmənzəminli (1887-1943), Həmidə xanım Cavanşir (1873-1955), Bədəl bəy Bədəlbəyli (1875-1932), Üzeyir Hacıbəyov (1888-1948) və qardaşı Ceyhun Hacıbəyov (1891-1962), Xan Şuşinski (1901-1979), Cabbar Qaryağdıoğlu (1861-1944), Səməd bəy Mehmandarov (1856-1931), Fərəc bəy Ağayev (1814-1891), Murtuza Muxtarov (1865-1920), Arif Babayev(1938) və daha neçə-neçə saymaqla bitməyəcək dahilər bəxş etmişdir o füsunkar torpaq bizlərə.

Qarabağ mədəniyyət nümunələrini sadaladığımız zaman memarlıq abidələri sırasında Şuşanı bəzəyən Pənahəli xanın qəsri (XVIII əsr), Gəncə qapısı (1750-1770-ci illər), Qara Böyükxanımın qəsri (XVIII əsrin ikinci yarısı), İbrahim Xəlil xanın qəsri, Xan sarayı, Saatlı məscidi, Mehmandarovların mülkü (XVIII əsr), Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər Ağa məscidi

(XVIII-XIX əsrlər), Xurşudbanu Natəvanın evi (XIX əsr), Xurşudbanu Natəvanın tikdirdiyi karvansara (XIX əsr), Xan qızı bulağı (XIX əsrin ortaları), Molla Pənah Vaqifin məqbərəsini (1982-ci il) aid etmək olar.

XVIII əsrdə yeni milli şeir məktəbinin əsası da məhz Qarabağda qoyulmuşdur. Onun başçısı, Qarabağ xanının vəziri haqqında məhşur bir ifadə də var: "Hər oxuyan Molla Pənah olmaz". [2] Həmin dövrdə Azərbaycanın müxtəlif bölgələrində şeir məclisləri keçirilir.Bu məclislərdən biri də 1865-cü ildən başlayaraq Hacı Abbasın,1872-ci ildən isə Xurşudbanu Natəvanın mənzilində fəaliyyət göstərən "Məclisi-üns" idi ki,bütün Qarabağın bədii qüvvələrini özündə birləşdirib, məclisə toplaşan şair, musiqiçi, yazıçı, alimlər ilə birgə fəlsəfə, incəsənət, ədəbiyyat, tarix və s. elmlər barədə müzakirələr aparmaqla məclisə toplananların ruhunu oxşayırdı.

Şuşa həmçinin orada doğulmuş, şöhrətləri bütün dünyaya yayılmış bəstəkarların vətəni kimi də məşhurdur. Dahi bəstəkarımız Üzeyir bəy Hacıbəyov tərəfindən yazılan Azərbaycandan və eləcə də, Şərq dünyasında ilk opera olan "Leyli və Məcnun" operası Şuşada Əbdürrəhim bəy Haqverdiyev tərəfindən hazırlanmış "Məcnun Leylinin məzarı üstündə" tamaşasından ilhamlanaraq, tamaşanın onda yaratdığı təsir əsasında yazmışdır. Hətta, maraqlı bir faktı da qeyd etməliyik ki, həmin vaxt Üzeyir Hacıbəyov gözəl səsi olduğuna görə tamaşanın xorunda oxuyurdu.Bu hadisədən illər keçdikdən sonra dahi bəstəkar öz operasını yaratdı, bütün Azərbaycanın və Şərqin bəstəkarına çevrildi. Məşhur tədqiqatçı V.Vinoqradov 1938-ci ildə Üzeyir Hacıbəyli haqqında kitabında belə qeyd edirdi: "Şuşa musiqiçiləri" Azərbaycan musiqisinin tarixini yaradırdılar və onu yalnız Vətənlərində deyil, digər Şərq ölkələrində təqdim edirdilər" [2].

Şuşa təkcə Azərbaycanın deyil dünyanın incisinə çevrilmişdi. Dünya səyyahları Şuşanı gördükdən sonra füsunkarlığını uzun zaman unuda bilməyir, onu "Şərqin İtaliyası" adlandırırdılar. 1868-ci ildə nəşr olunan "Qafqaz" qəzetinin 24 may buraxılışında qeyd edilirdi: "Şuşa gündən-günə yox, saatdan-saata böyüyür, onun ticarəti inkişaf edir, şəhər əhalisi varlanır. Buraya dünyanın hər yerindən insanlar axın etməkdədir...". Bu sözlər həmin dövrdə Şuşanın dəyərinin böyüklüyünün, mədəni mühitinin zənginliyin, ictimai həyatının canlılığını, güclü iqtisadiyyata və möhkəm idarəetməyə malik olduğunun göstəricisidir.

Şuşa şəhəri 1977-ci ildə Azərbaycan Respublikasının tarix-memarlıq qoruğu elan edilmişdir. Şuşa şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2021-ci il Fərmanı ilə təsdiq edilmişdir. Fərmana əsasən Şuşa Dövlət Tarix-memarlıq qoruğuna daxil edilən abidələr sırasına Yuxarı və Aşağı Gövhərağa məscidləri, Xan qızı Xurşudbanu Natəvanın evi, Vaqif türbəsi, Şuşa qalası, Qarabağ xan sarayı, Mehmandarovların evi və s.in adını çəkmək olar.

Bugünün müstəqil Azərbaycan dövlətinin memarı, müstəqil və güclü siyasətinin banisi, Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyevin hakimiyyəti dövründə də Şuşa göz bəbəyi kimi qorunmuşdur. Heydər Əliyev Vətəninə, mədəniyyətinə və xalqına, tarixi irsinə bağlı insan olmuşdur. Sovet dövründə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi zamanlarda (1969-1982) Qarabağa göstərdiyi qayğı, şəhərin hər bir sahədə inkişaf etdirilməsi üçün gördüyü tədbirlər göz önündədir. O, Qarabağa ,o cümlədən, Şuşaya çox böyük qayğı və diqqət göstərmiş, eləcə də Onun parlaq və kəskin diplomatik siyasəti nəticəsində erməni iddiaları iflasa uğramış, bədnam əməlləri ürəklərində qalmışdır. Ulu öndərin fəaliyyətinin başlıca istiqamətlərindən biri də, məhz Qarabağda milli və mədəni ruhun dirçəldilməsi olmuşdur. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə XX əsrin 70-ci illərinin ikinci yarısında bir neçə qərar qəbul edilmişdir. Heydər Əliyevin şəxsən rəhbərlik etdiyi bu tədbirlər sırasına tarixi abidələrin bərpası, hündürmərtəbəli binaların təmiri və yenidən tikilməsi, ayrı-ayrı inzibati və ictimai binaların inşası,yeni mədəniyyət mərkəzləri və mehmanxana komplekslərinin və s. inşası həyata keçirilmişdir.

1977-ci ildə Ulu öndərin əmrinə əsasən "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdi.Qəbul edilən bu qərar nəticəsində abidələrin qorunması, milliliyinin və tarixiliyinin saxlanılması, mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi sahəsində əhəmiyyətli addımlar atılmış, tədbirlər həyata keçirilmişdir.

Hər zaman xalqın arasında olan ,öz sadəliyi və qayğıkeşliyi ilə seçilən Ulu öndər Heydər Əliyev ictimaiyyət ilə keçirdiyi görüşlərdən birində demişdir: "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq,qədim tikintiləri bərpa etmək lazımdır" [ 3].

Heydər Əliyevin imzaladığı fərmana əsasən görkəmli Azərbaycan şairi,Qarabağ xanının vəziri olmuş, Azərbaycanın siyasi və mədəni həyatında əvəzsiz xidmət göstərmiş Molla Pənah Vaqifin

məzarı üzərində 1980-1981-ci illərdə abidə,məqbərə tikildi.1982-ci ildə yanvarın 14-də güclü qar yagmasina rəğmən Heydər Əliyev Şuşada şairin məqbərəsini təntənəli şəkildə açmışdır. Həmçinin, Ulu öndər səfərlərinin birində Vaqif Poeziya Günlərində iştirak etdi. Təbii ki, həyata keçirilən tədbirlər bunlar ilə yekunlaşmır. Şuşaya eyni ildə ikinci səfəri 29 iyul – 2 avqust aralığında baş tutdu.Səfəri zamanı ümumilli lider Heydər Əliyev Şuşada Xurşudbanu Natəvanın abidəsinin açılışında iştirak etdi.

Qarabağın bu qədər çiçəklənməsi, Şuşaya göstərilən bu diqqəti gözü götürməyən qonşularımız da var idi. Tarix boyu özünə topraq tapa bilməyən,xalq adını belə qazana bilməyən,hər zaman öz mənfur əməlləri ilə başqa xalqların mədəniyyətini, ədəbiyyatını, tarixini və hətta torpağını oğurlamağa çalışan erməni barbarları yenə də öz əməllərindən geri qalmırdılar. XX əsrin 80-ci illərinin sonu-90-cı illərinin əvvəllərində erməniləri SSRİ rəhbərliyi tərəfindən göstərilən dəstəyin artırılmasından özündə cəsarət tapan ermənilərin əməlləri nəticəsində vəziyyət daha da mürəkkəbləşdi. İllər boyu açıq çıxış etməyə özlərində güc tapa bilməyən ermənilər birazca kənardan dəstək görən kimi özlərində formalaşdıra bilməyib başqalarının vasitəsilə əldə etdiyi “cəsarətləri” ilə Azərbaycan ərazilərinə qarşı açıq təcavüzə başladılar. 1992-ci ildən başlayaraq, həmin dövrdə Azərbaycanın rəhbər vəzifələrində duran şəxslərin səriştəsizliyi, hakimiyyətdə olan çəkişmələr,mürəkkəb siyasi vəziyyətdən istifadə edərək Dağlıq Qarabağda Azərbaycanlılar yaşayan yaşayış məntəqələrini işğal etdi. Heç bir insan qanunlarına sığmayacaq tərzdə 1992-ci ilə may ayının 8-də Şuşa işğal olundu. İşğal nəticəsində 27 məktəb, 31 kitabxana, 8 mədəniyyət evi, 17 klub, 4 texnikum, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, dağılmış və yandırılmışdır. Bunlardan əlavə Şuşada olan tarixi mədəniyyət abidələri və yaşayış məskənləri-Şuşa və Şuşakənd daş qutusu qəbirləri, XVIII əsrə aid Şuşa qalasının divarları, Gəncə qapısı, Pənahəli xanın saray və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Molla Pənah Vaqifin mədrəsəsi və türbəsi, Xan sarayı və kravansara,Yuxarı məscid mədrəsəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşudbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamaya bəyin evi, məscidi və bulağı, Üzeyir bəy Hacıbəyovun, Bülbülün ev muzeyləri, Xan Şuşinskinin və Sadıqcanın evləri, Realnı məktəbin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunələrimiz erməni vandalları tərəfindən talan edilmiş, dağıdılaraq məhv edilmişdir.

Bu işğal nəticəsində gözəlliyi və füsunkarlığı ilə dünyaya səs salan Şuşamızın qəlbi qırıldı, sadəcə Şuşaya məxsusluğu ilə seçilən, Şuşanın simvolu sayılan xarı bülbülün boynu büküldü. Mədəniyyət ocağımızın istisindən ayrı düşdük sanki. Uzun illər xarı bülbülün ətrinin və gözəlliyinin həsrəti ilə yaşadıq. Cıdır düzündə “Xarı bülbül” festivallarını keçirə bilmədik, Qarabağın meşəsindən, gözəl havasından, könül oxşayan təbiətindən, qoynunda neçə-neçə qəhrəman və əcadad uyudan torpağından ayrı düşdük. Bu müddət ərzində abidələrimiz talan edildi, mədəniyyət ocaqlarımız məhv edildi. Şuşanın həsrətinə şeirlər yazıldı. Qarabağın həsrəti ilə yaşayan görkəmli Azərbaycan şairi Zəlimxan Yaqub yazırdı :

*“Gözündə yaş gördüm, yanağında nəm,*
*Cıdır düzündəki “Xarı bülbülün”.*
*Dərdin sinəsində dağlandı sinəm,*
*Didərgin olmuşdu yarı bülbülün..” [6].*

*“Əziz Şuşa,sən azadsan!!!*
*Əziz Şuşa,biz qayıtmışıq!!!”.....*

Bəli, Azərbaycan xalqı bu həsrətə daha çox dözə bilmədi və bu qisas yerdə qalmayacaq deyib səfərbər olaraq öz ata-baba torpaqlarını almaq uğrunda Vətən müharibəsinə başladı. 2020-ci il sentyabrın 27 başlanan döyüşlər 44 gün davam etdi. Ulu öndər Heydər Əliyevin dövlətçilik ənənəsinə və vəsiyyətinə sadiq qalan, öz cəsarətli siyasəti ilə hər zaman xalqının yanında olan Ali baş komandan, cənab prezident İlaham Əliyevin siyasəti və ordumuzun gücü, oğul və qızlarımızın qəhrəmanlığı sayəsində Qarabağ erməni tapdağından azad edildi. Biz öz torpaqlarımıza qayıda bildik. Biz hər il mayın 8-ni Şuşanın işğal günü kimi anırdıq. İndi isə bu günü tam fərqli ovqatda, nikbin

əhval-ruhiyyə ilə qeyd edirik. Bundan sonra 8 noyabr – Zəfər Gününü bayram edəcəyik. Oktyabrın 4-ü təqvimə Cəbrayılın, oktyabrın 9-u Hadrutun, oktyabrın 17-si Füzulinin, oktyabrın 20-si Zəngilanın, oktyabrın 25-i Qubadlının, noyabrın 8-i Şuşanın, noyabrın 20-si Ağdamın, noyabrın 25-i Kəlbəcərin və dekabrın 1-i Laçının azad olunduğu gün kimi yazıldı. Noyabr ayının 8-də Şuşa erməni təcavüzkarlarının əlindən azad edildi. Azərbaycan Respublikasının cənab prezidenti İlham Əliyev bu gözəl xəbəri Şəhidlər Xiyabanından öz xalqına çatdırdı.

"Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"

Şanlı qələbənin ardınca cənab prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərin bərpa olunması, yeni yaşayış komplekslərinin salınması, mədəniyyət və tarixi abidələrin bərpa edilməsi, yenidən qurulması, sənaye müəssisələrinin yaradılması və sənaye sahələrinin inkşaf etdirilməsi sahəsində tədbirlər planı hazırlanması barədə əmr verdi.

2021-ci ilin yanvarın 14-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və ailə üzvləri – ölkəmizin birinci vitse-prezidenti Mehriban xanım Əliyeva və qızı Leyla Əliyevanın Şuşaya səfəri baş tutdu. Artıq biz qalib xalq olaraq məğrur addımlarla öz torpaqlarımıza geri döndük. Qeyd etmək lazımdır ki, 2010-cu ildə Şuşa qalasının 260 illiyi qeyd edilmişdi. Lakin o zaman Şuşamız işğal altında idi. Amma artıq Şuşa qalasonin növbəti onilliklərini yenidən bərpa edilmiş Şuşa şəhərində qeyd edəcəyik.

2021-ci ilin yanvar ayında prezident İlham Əliyevin Azərbaycanın mədəniyyət naziri Anar Kərimovla görüşündə "Xarıbülbül" festivalının dirçəldilməsinin əhəmiyyəti və zəruriliyi haqqında danışdıqdan sonra, 2021-ci il 7 may tarixində imzaladığı sərəncamı ilə Şuşa şəhərini ölkəmizin "Mədəniyyət paytaxtı" elan etmişdir. Bu sərəncama əsasən Vaqif Poeziya günləri və "Xarıbülbül" festivalı da bərpa olunmuşdur.

2021-ci il mart ayının 16-da işğaldan azad olunduqdan sonra Şuşa şəhərinə ikinci dəfə səfər edən cənab prezident İlham Əliyev Molla Pənah Vaqifin məqbərəsinin bərpa işləri ilə də yaxından tanış oldu. Bu onun Ulu öndərdən əmanət qalan dövlətçilik və millətçilik ənənələrinə sadiqliyinin, ümumilli liderin layiqli davamçısı olduğunun sübutudur.

2021-ci ilin may ayının 12-i və 13-ü tarixlərində Heydər Əliyev fondunun təşkilatçılığı ilə "Xarıbülbül" festivalı baş tutmuşdur.

"Xarıbülbül" beynəlxalq musiqi festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlamışdır. Festival hər il may ayında bir sıra dünya və türk dövlətlərinin (ABŞ,Türkiyə, Yaponiya və s.) iştirakı ilə keçirilib. Sonuncu "Xarıbülbül" festivalı 1992-ci ildə qeyd edilmişdir. Sonra Şuşa şəhəri işğal altında olduğundan festivalı qeyd etmək mümkün olmamışdır. Lakin artıq biz 28 il sonra festivalı məhz elə Şuşada qeyd etdik. Festivalda Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi kollektivlərinin çıxışı, xalq və klassik musiqidən ibarət proqram təqdim edilmişdir. Tədbirə dəvət edilənlər içərisində bir sıra ictimaiyyət və mədəniyyət xadimləri, Qarabağdan, o cümlədən Şuşadan olan tanınmış şəxslər də iştirak edirdilər. Festivalın ilk gününün açılışı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı ilə başlanmışdır. Müxtəlif illərdə Şuşada lentə alınan Seyid Şuşinski, Bülbül, Rəşid Behbudov, Xan Şuşinski, Şövkət Ələkbərova və başqa sənətkarların ifası göstərilən səs yazıları və videolari nümayiş etdirilməsidir. İkinci günü qala-konserti baş tutmuş, "Koroğlu" operasından üvertura ilə açılış edilmişdir. Elçin Əzizov, Dinarə Əliyeva, Yusif Eyvazov, Azərin Tağıyeva, Samir Cəfərov, Sahib Paşazadə (tar), Ceyla Seyidova (skripka), Azər Zadə, Selcan Nəsibli və başqaları səhnədə çıxış etdilər. May ayının 13-də qala-konserti ilə festival başa çatmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 yanvar 2022-ci ildə verdiyi qərara əsasən 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan edildi. Azərbaycan bir çox dövlət idarələrində, mədəniyyət mərkəzlərində, orta və ali təhsil müəssisələrində silsilə tədbirlər həyata keçirilmişdir.

2022-ci il mayın 12-də Şuşada V Xarıbülbül Beynəlxalq Folklor Festivalına start verildi.Festivalın açılışında prezident İlham Əliyev və ailə üzvləri, mədəniyyət və ictimaiyyət

xadimləri, həmçinin xarici qonaqlar da iştirak etdilər. Festivalın açılış konserti Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının ifasında "Vətən süitası" ilə başlayıb. Reslublikmazın gözəl xanəndələri Babək Niftəliyev, Səbinə Ərəbli və İlkin Əhmədovun ifasında "Qarabağ şikəstəsi" səsləndirilib. Azərbaycanın xalq rəqsləri növbə ilə nümayiş etdirilib. Festivalda başqa dövlətlərin də incəsənət və mədəniyyət nümunələrinə yer verilmişdir. Malinin Tidiane Sek etno-caz qrupu "Sanqa Bo" kompozisiyasını, Melitassi Gürcü Folklor Rəqs Ansamblı "Svanuri" rəqsini təqdim etdilər. Sonra isə əməkdar mədəniyyət işçisi olan aşıq Samirə Əliyeva və aşıq Əli Tapdıqoğlu "Qarabağ qaytağısı" saz havasını ifa etdilər. Üç gün davam edən festival "Mənim Azərbaycanım", "Qaytağı" və s. rəqslərin ifası ilə başa çatıb.

Şuşanın abadlaşdırılması istiqamətində görülən tədbirlər silsiləsi "Xarıbülbül" festivalı ilə yekunlaşmır.

2022-ci il may ayının 12-də Şuşa şəhərində yeni məscidin təməli qoyuldu. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri - birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva da iştirak ediblər.

Eyni zamanda, Şuşada bəzi infrastruktur layihələrinin həyata keçirilməsi nəzərdə tutularaq ölkə prezidenti tərəfindən bir sıra mühüm əhəmiyyətə malik sərəncamlar imzalanmışdır:

Şuşa Rayon Mərkəzi Xəstəxanasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2021-ci il tarixli 2988 nömrəli Sərəncamı.

Şuşa Radio-Televiziya Yayım Stansiyasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2021-ci il tarixli, 2989 nömrəli Sərəncamı.

Şuşa şəhərində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 8 may 2021-ci il tarixli, 2643 nömrəli Sərəncamı.

Ümumiyyətlə vurğulamalıyıq ki,Şuşanın bərpası, inkişafı ilə əlaqədar bütün işlərin sistemli qaydada aparılması, şəhərin tarixi simasının saxlanılması, burada Şuşaya yad olan hər hansı bir tikiliyə yol verilməməsi dövlət rəhbərimizin qarşıya qoyduğu əsas vəzifələrdir. Bu məqsədlə artıq bir müddət bundan əvvəl Şuşaya mütəxəssislərdən ibarət böyük bir qrup ezam edilmişdir. Bu məqsədlə işğaldan azad olunmuş ərazilərin infrastrukturunun bərpası, yenidən qurulması üçün 2021-ci ilin dövlət büdcəsindən 2 milyard manat sərf edilmişdir. Cari ilin dövlət büdcəsindən isə 2,2 milyard vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Diqqətə çatdırılmalı məqam ondan ibarətdir ki, həyata keçirilməsi nəzərdə tutulan bütün layihələr üçün maddi vəsaitin hamısını Azərbaycan Respublikasının öz büdcəsi, xarici yardımlar olmadan həyata keçirmişdir.

İşğaldan azad olunmuş ərazilərin bərpası işinə məhz Şuşadan başlanması Qarabağın ürəyi sayılan, mədəniyyətin beşiyi olan şəhərimizin inkişaf etdirilməsi yolunda əvəzolunmazdır. Şuşaya öz gözəlliyini qaytarmaq üçün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev və Azərbaycan xalqının hər bir nümayəndəsi əlindən gələni əsirgəmir. Hər bir vətəndaş öz öhdəliyini yerinə yetirməyə çalışır.

Biz gənclər də bu siyasətin əsas hissəsini təşkil edərək həm cəmiyyətdə fəaliyyətimiz, həm də ölkənin beynəlxalq arenalarda təmsil edərək öz gücümüzü və dəstəyinizi göstərməyə çalışırıq. Bundan əlavə olaraq hər zaman sosial şəbəkələrdə arxa cəbhə olaraq düşmənlərimizə "Dəmir yumruq"un gücünü göstəririk.

Son olaraq deyiləcək tək bu söz var :

***ƏZİZ ŞUŞA, SƏN AZADSAN!***
***ƏZİZ ŞUŞA, BİZ QAYITMIŞIQ!***
***ƏZİZ ŞUŞA, BİZ SƏNİ DİRÇƏLDƏCƏYİK!***

**Ədəbiyyat siyahısı**:

1.https://m.facebook.com/dr.samirhasanov/photos/a.112981686869169/467043808129620/?type=3

2.Azərbaycan Respublikası Təhsil Nazirliyi Sumqayıt Dövlət Universitetinin Konfrans Materialları,2022,№1

3.https://science.gov.az/az/news/open/20088

4.https://kulis.az/xeber/senet/Susa-haqda-mshur-seirin-mullifindn-colorredQlb-Seiricolor-37576

5.https://www.trt.net.tr/azerbaycan/az-rbaycan/2021/05/08/ziz-susa-s-n-azadsan-bu-8-may-susadayiq-1636320
6. https://ustacaz.wordpress.com/2020/05/09/susa-haqqinda-8-seir/

**Həmzə Balayev**
Azərbaycan Dövlət Aqrar Universiteti
Aqrobiznes və idarəetmə, magistr
hbalayev00@gmail.com

**Şuşa iqtisadiyyatı: 30 illik həsrətdən çiçəklənən reallığa..**

Kiçik Qafqazın döyünən ürəyi, ölkəmizin mədəniyyət beşiyi, hər qarışı gələcəyə miras olan – Şuşa dərin tarixə, zəngin yeraltı və yerüstü sərvətlərə və xüsusi təbiətə sahib qədim Azərbaycan şəhəridir. Hələ tarix boyu xüsusi strateji əhəmiyyətə malik, Qarabağ xanlığının paytaxtı olan Şuşa, bugün də öz logistik imkanları və regionda iqtisadi qovşaq olma potensialı ilə seçilir. Şairlər məskəni, Xarı bülbülün vətəni sayılan Şuşa şəhəri 28 ildən artıq müddəti əhatə edən dövrdə işğal altında olmasına, mənfur düşmənin özününküləşdirmə siyasətinə və vandalizminə məruz qalmasına baxmayaraq öz milli mənsubiyyətini itirməmişdir.

2020-ci ilin 8 noyabr tarixində igid və rəşadətli Azərbaycan ordusu tərəfindən azad olunaraq aid olduğu torpaqlara birləşdirilən Şuşa şəhəri həmin tarixdən etibarən həm sosial -iqtisadi həm də mədəni cəhətdən yeni bir nəfəs qazanmışdır. Bütün bunların fonunda isə ölkə siyasətinin xüsusi diqqət və qayğısı nəticəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən verilmiş 5 yanvar 2022-ci il sərəncamı ilə həmin il ölkəmizdə “Şuşa ili” kimi elan olunmuşdur. Artıq Şuşa şəhəri öz inkişaf dövrünün yeni başlanğıc mərhələsindədir. Müxtəlif xarici ölkə şirkətləri tərəfindən doğma Şuşamızın yenidən qurulmasına göstərilən maraq, şəhərin turizminin inkişafı və mədəniyyətinin tanıdılması məqsədi ilə təşkil olunan yarmarkalar, konsertlər, düşərgələrin təşkili, xarici diplomatların və media nümayəndələrinin buraya səfəri, sürətlə davam edən yenidənqurma və infrastruktur işləri bunların bariz nümunəsidir.

Şuşanın bərpası, milli simasının qaytarılması və mövcud perspektivlərindən istifadə həm də öz növbəsində Qarabağ regionunun mədəniyyət mərkəzinin yenidən dirçəldilməsi və ölkə iqtisadiyyatının qeyri-neft sektorunun yeni inkişaf mərhələsinin təməli deməkdir. Post-neft dövründə olan ölkəmiz üçün bu məsələlər öz aktuallığını daim qoruyub saxlayır. Bunun üçün Şuşada kifayət qədər resurs potensialı və inkişaf etdirilməsi vacib olan perspektiv sahələr mövcuddur. Bu nöqteyi-nəzərdən inkişaf etdirilməsi vacib olan mühüm sahələrdən biri də turizm sahəsidir. Füzuli Beynəlxalq Hava Limanının tikintisi və Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun, həmçinin yol boyu tunellərin inşası, müxtəlif hissələrdə torpaq yatağının, körpülərin, yeraltı keçid və suötürücü boruların tikintisi də öz növbəsində Şuşa şəhərinə əlçatanlığı artıracaq, bu sektorun inkişafı üçün böyük təkan verəcək, şəhərin sosial - iqtisadi inkişafında mühüm rol oynayacaqdır. Yolun uzunluğu 81,6 kilometr, hərəkət zolaqlarının sayı 4-6, hərəkət zolağının eni isə 3,5 metrdir. Yolboyu 7 tunelin tikintisi aparılır. Bir neçə tuneldə qazma işləri artıq tamamlanıb, digərlərində isə qazma, partlatma və qırma üsulları ilə qaya -qruntlardan ibarət hissələrin kənarlaşdırılması işləri davam edir. Bundan başqa, tunellərdə havalandırma və izolyasiya sistemləri də quraşdırılır. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

Pənahəli xanın sarayı, Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi, Şuşa mağara düşərgəsi, Şuşa qalası kimi tarixi abidələr və muzeylər ziyan görsə də, sürətlə aparılacaq bərpa işləri şəhərin ən görkəmli, görməli və turistlər üçün cəlbedici yerlərindən olacaqdır. Şuşa kənd turizmi, sağlamlıq və mədəni turizm üçün də böyük imkanlara malikdir. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, Şəmilin bulağı, Cıdır düzü və s. turizm üçün geniş perspektivlər vəd edir. Turşsu şəfalı və müalicəvi suyu isə sağlamlıq turizminin inkişafına gətirib çıxaracaqdır. Şuşada həmçinin həyata keçirilən tədbirlər nəticəsində 700 nəfərlik “Şuşa” dağ iqlimi sanatoriyası və onun 330 nəfərlik pansionatı, vanna binası, 100 nəfərlik meşə sağlamlıq məktəb kompleksi istifadəyə verilmişdir. Bütün bunların Şuşanın inkişafına sözsüz ki,

müsbət təsirləri olacaqdır. Bunlardan başqa, Şuşada yarmarka və sərgilərin təşkil edilməsi də prioritet istiqamətlərdən biridir. Xüsusilə şəhərin mədəniyyətinin, mətbəxinin, tarixinin və kənd təsərrüfatı məhsullarının tanıdılması məqsədilə burada təşkil olunacaq yarmarkalar və sərgilər sözsüz ki, müsbət fayda və geri dönüşlər əldə edəcəkdir. Bütün bu sadalanan xüsusiyyətlər həm də yerli turistlər üçün də kifayət qədər maraq kəsb edir. İllərdir Şuşa həsrəti ilə yaşayan həmyerlilərimiz həmin səfalı torpaqları, zəngin təbiəti, tarixi irsimizi görmək üçün 30 ildən çoxdur ki, səbirsizliklə gözləyirlər. Şübhəsiz, qədim Şuşamız həm yerli həm də xarici turistlərin ölkəmizin turizminə olan müsbət təkanında əvəzsiz rol oynayacaqdır.

Şuşa həm də Qarabağ xalçaçılıq sənətinin mərkəzlərindən biri kimi geniş inkişaf xüsusiyyətlərinə malikdir. XVIII əsrin ikinci yarısında ölkə üzrə xalça istehsalına və keyfiyyətinə görə birinci yerdə olan Şuşa şəhəri hələ qədim zamanlardan xalçaçılığın ölkə ərazisində, burada ixtisaslaşmasından xəbər verir. Xüsusi naxışları, toxunuşu, rəngarəngliyi və zərifliyi ilə seçilən “Ləmpə”, “Qoca”, “Bulud” xalçaları və “Dəst xalı-gəbə” kimi Qarabağın qədim xalça dəstləri burada toxunub. Hər biri tariximizdən və mədəniyyətimizdən xəbər verən bu xalçaların dünya miqyasında Azərbaycan brendi adı altında tanıdılması və gələcək nəsillərə ötürülməsi qarşımızda dayanan ən vacib məsələlərdən biridir. Bu məsələlər xalçaçılıq sahəsi üzrə kifayət qədər ixtisaslaşan Şuşa şəhərində, irəliləyən zamanlarda toxuculuq fabrikinin tikilməsini də zəruri edir. Məhsulların dünya bazarına gələkdə ixracının təmin edilməsi isə, şübhəsiz Qarabağın incisi olan Şuşa xalçalarının brendləşməsi yolunda böyük təkan olacaqdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Şuşa şəhərinə Azərbaycanın Mədəniyyət Paytaxtı statusu verilməsi və Şuşanın ölkəmizin mədəniyyət paytaxtı seçilərək bu il 270 illiyinin təntərahla qeyd olunacağı isə, bir daha sübut edir ki, Şuşa Azərbaycan mədəniyyətinin ayrılmaz və əvəzsiz hissəsidir. Gələcəkdə bu şəhərin yenidən qurulmasının və dövlət tərəfindən göstəriləcək qayğının təməli olan həmin sərəncam həm də tarixi reallığın və obyektiv gerçəkliyin ifadəsidir.

Şuşa şəhərində inkişaf etdirilməsi vacib olan əsas istiqamət sahələrindən biri də kənd təsərrüfatı sahəsidir. Zəngin torpaq və bitki örtüyünə, geniş sulama imkanlarına, kənd təsərrüfatı sahəsi üçün yararlı torpaq və iqlimə malik olan Şuşada bu sahənin ölkəmizdəki inkişafı üçün geniş imkanlar mövcuddur. Post-neft siyasəti dövründə olan Azərbaycan üçün bu əvəzsiz imkandır. İşğal nəticəsində illərdir istifadə edə bilmədiyimiz torpaqların yenidən becərilməsi və buradakı mövcud əkin sahələrinin artırılması mütləqdir ki, ölkə əhalisinin ərzaq təminatında müsbət təsirləri olacaqdır. Ancaq uzun müddət işğal altında olmuş kənd təsərrüfatına yararlı torpaqların istifadəsiz qalması, işğalçılar tərəfindən çirkləndirilməsi, strukturunun dağıdılması nəticəsində torpağın yararsızlıq səviyyəsi artmış, kənd təsərrüfatı istehsalında birbaşa istifadəsi mümkünsüz olmuşdur. İlk növbədə həmin torpaqların tərkibinə yenidən baxılmasına, sonra isə bərpa edilməsinə ehtiyac vardır. Daha sonra isə burada salınacaq yeni meyvə bağlarının, müasir innovativ texnologiyalar ilə becəriləcək torpaqların, arıçılıq və baramaçılıq təsərrüfatlarının sayları artırılacaqdır. İntensiv əkinçilikdən istifadə edilərək doğma Şuşamızdan gələkdə kifayət qədər aqrar sahə məhsulları əldə edə bilərik. Pilotsuz uçuş aparatları ilə dərman və pestisidlərin səpilməsi vaxta, damcı suvarma sistemləri texnologiyasının tətbiqi isə, suya qənaətlə istifadə etməyə kömək edəcəkdir. Bütün innovativ vasitələrin, kənd təsərrüfatı sahəsi üzrə yeniliklərin Şuşanın bərəkətli torpaqlarında tətbiqi həm də bu sahə üzrə ixtisaslaşmanın zəminini yaradacaq əsas vasitələrdən biri olacaqdır. Həmçinin ət, süd, yun və barama istehsalı üzrə Şuşanın işğaldan əvvəlki dövrdə fərqlənməsi hal - hazırda bu istiqamətdə işlərin aparılmasını vacib edir. Bu səbəbdən də artıq həmin torpaqlarda kənd təsərrüfatının inkişafı ilə bağlı işlərə başlanılıb. Vaxtilə Qarabağda, həmçinin Şuşada təsərrüfat sahibi olan sakinlər qayıtdıqdan sonra görəcəkləri işlərin planını qururlar. Ümumilikdə isə, işğaldan azad edilən ərazilərimiz hesabına növbəti illərdə əkin balansı xeyli artırılacaqdır. Məskunlaşma prosesi başlayandan sonra isə Şuşa və ümumilikdə Qarabağ regionunda kənd təsərrüfatı ilə məşğul olacaq sakinlərin aqrar texnika, toxum, gübrə və digər lazımi vasitələrlə təmin edilməsinə dair planlar hazırlanıb. Sözügedən ərazilərdə kənd təsərrüfatının inkişafı ilə bağlı dövlət başçısının tapşırıqlarına uyğun olaraq artıq işlərə başlanılıb. Kənd Təsərrüfatı Nazirliyi “Azərkosmos” ASC ilə birlikdə faktiki əkinaltı torpaqların da peyk təsvirləri əsasında xəritələşməsini aparmağa başlayıb. Bütün bunların nəticəsində dövlət siyasətinin xüsusi diqqəti bir daha sübut edir ki, Şuşa ölkəmizin ayrılmaz və əbədi hissəsidir. Artıq atılacaq növbəti əsas addımlardan biri də elə məhz doğma Şuşamızda yetişdirilən məhsulları brendləşdirilərək, xüsusi dizaynda dünya bazarına çıxarılmasıdır. Özündə həm

ölkəmizin ixrac potensialını artırmaq, həm də Şuşanın bir brend olaraq dünyaya tanıdılması düşüncəsini birləşdirən bu missiya heç şübhəsiz ki, irəliləyən dövrlərdə həyata keçiriləkdir.

Dünya miqyasında hər bir ərazini bir-birindən fərqləndirən və yerləşdiyi ölkənin sosial – iqtisadi inkişafına təsir edən əsas məsələlərdən biri də həmin ərazinin resurs potensialıdır. Ərazisi dağlıq olan Şuşa şəhərində kifayət qədər yeraltı və yerüstü sərvətlər mövcuddur. Həmin dağlıq ərazilərin 20 faizini meşələr təşkil edir. Sözü gedən meşə və həmçinin dərələrdə müxtəlif müalicə əhəmiyyətli mineral sular, dərman bitkiləri və çiçəklər geniş yayılmışdır.

Həmçinin Şuşada təsdiq edilmiş ehtiyatları 1143 min kubmetr olan və işğala qədər istismara cəlb edilən Şuşa üzlük daşı yatağı, ehtiyatları 397 min kubmetr olan kərpic - kirəmid istehsalına yararlı Keçeldağ gil yatağı, istismar ehtiyatları 50 min kubmetr/gün olan Şuşa yeraltı şirin su yatağı, müalicəvi əhəmiyyətə malik 60 min kubmetr/gün və 25 min kubmetr/gün olan Şırlan və Turşşu mineral su yataqları da vardır. Şəhərin ətrafında isə karbon turşulu – hidrokarbonatlı - natriumlu “Narzan” tipli çoxsaylı mineral su mənbələrinin olması Şuşanın zəngin təbiətindən bir daha xəbər verir. Bu müalicəvi sudan işğaldan əvvəlki dövrdə Şuşanın sanatoriyalarında həm süfrə suyu kimi həm də vanna qəbulu zamanı müvəffəqiyyətlə istifadə olunurdu. İşğaldan sonrakı dövrdə isə, həmin sanatoriyaların yenidən istifadəsi və müasir tələblərə cavab verən strukturda qurulması Şuşa səhərinin sosial – iqtisadi inkişafında əvəzsiz rol oynayacaqdır. Həmin sular nəfəs yolu xəstəlikləri, həzm, sinir sisteminin pozulması, qanazlığı kimi xəstəliklərin də müalicəsi zamanı çox xeyirlidir. Beləliklə, Şuşa kurortunda bu cür xəstəliklərin müalicəsi də mümkündür. İndi isə görülməsi ən vacib işlərdən biri də həmin kurortların bərpası və yeni strukturda qurularaq buraya insanların cəlb olunmasıdır. Bütün bu istiqamətlərdə aparılacaq işlərin özü də Şuşaya yeni bir nəfəs qatacaqdır.

Şuşanın meşələri də özünəməxsus xüsusiyyətlərə və zəngin bitki örtüyünə malikdir. İlin bütün fəsillərində yaşıl donunu əynindən çıxarmayan Şuşa meşələrinin gözəlliyi və bir kəmər kimi şəhərin ətrafına dolanması onun füsünkarlığını birə min artırır. Kirs, Şırlan, Armudlu, Əylis, Çınqıllı, Quşçular, Malıbəyli meşələri bu yerlərin yaşıl örpəyi, əvəzsiz bəzəyi kimi göz oxşayır və onun hüsnünə gözəllik qatır. Nadir ağaclar diyarı olan həmin meşələrdə yetişən ən mühüm ağac növlərindən biri də palıd ağacıdır. Azərbaycanda bitən 12 növ palıddan demək olar ki, hamısına Qarabağ meşələrində rast gəlmək mümkündür. Bu iti gövdəli və uzunömürlü ağaclar 1000 ilədək yaşayır. Palıd, meşələrdəki ağacların çoxundan gec çiçəkləyir və mühüm iqtisadi əhəmiyyətə malikdir. Bu ağac tikinti üçün çox yararlı və sənaye əhəmiyyətli olan möhkəm oduncağa malikdir. Gön-dəri sənayesində və kənd təsərrüfatı alətlərinin hazırlanmasında ondan geniş istifadə olunur, qozasından qəhvə düzəldilir, tərkibindəki maddələrdən xalq təbabətində müxtəlif dərmanlar hazırlanır. Şuşanın faunası da florası kimi zəngindir. Burada meşələrin və dağların mövcudluğu, təbii ehtiyatların çox olması həmçinin quşlara və heyvanlara da sığınacaq verir.

Bir digər tərəfdən də bütünlüklə Şuşa hidroenerji, günəş, külək, bioenerji və geotermal enerji kimi bərpaolunan enerji mənbələri ilə zəngindir, və bu resurslardan səmərəli istifadə edilməsi qarşıda duran əsas məsələlərdəndir. Son illərdə qlobal enerji siyasətində əsas istiqamətlərdən biri enerji keçididir. Enerji keçidi ən müasir texnologiyalar tətbiq edilməklə ənənəvi enerji resurslarının bərpaolunan enerji mənbələri ilə əvəz edilməsini, yəni “yaşıl enerji” - ni özündə ehtiva edir. Bu gün dünya ölkələrinin qarşıya qoyduqları iqlim hədəflərindən biri “yaşıl enerji” keçidini sürətləndirməkdir. Ölkəmiz də Şuşanın bizlərə bəxş etdiyi bu əvəzsiz zənginliklərlə dünya ölkələrinə öz töhvəsini verə bilər. Dünyada ekoloji cəhətdən təmiz “yaşıl enerji” - yə keçidi sürətləndirən bir çox amil var ki, bunlardan biri də texnologiyanın inkişaf etməsi və qiymətinin ucuzlaşmasıdır. Ölkə Prezidenti İlham Əliyevin müəyyən etdiyi müasir inkişaf kursunda Qarabağın “yaşıl enerji” zonasına çevrilməsi mühüm yer tutur. Hələ 2020-ci ilin yekunlarına həsr olunan müşavirədə dövlət başçısı işğaldan azad edilmiş ərazilərdə “yaşıl enerji” zonasının yaradılması ilə bağlı qarşıya mühüm vəzifələr qoymuşdur.

Ümumilikdə isə, Qarabağda aparılan araşdırmalara görə, bəzi rayonlarda günəş, bəzi rayonlarda isə, külək enerjisi potensialı daha çoxdur. Bu potensialın hesablanılması və qiymətləndirilməsi üzrə aidiyyatı dövlət qurumları tərəfindən araşdırmalar aparılır. Günəş enerjisi potensialı Şuşa və ətraf ərazilərdə, əlverişli mənbələrdən biri hesab olunan alternativ enerjisi üçün müvafiq imkanlara sahibdir. Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə, Qarabağın düzənlik hissəsi Naxçıvan Muxtar Respublikasının ərazisindən sonra isə, ikinci yerdədir. Burada bir kvadrat metr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kVt/saat təşkil edir. Bundan əlavə,

günəş panellərinin sadəcə quru ərazilərdə deyil, eyni zamanda su hövzələri üzərində qurlaşdırılmasını ehtiva edən pilot layihələr də planlaşdırılır. Belə ki, su üzərində qurlaşdırılmış günəş panellərinin quruda qurlaşdırılmış günəş panellərindən faydalılığı bir qədər yüksək olur, çünki su təbii soyutma funksiyasnı yerinə yetirir.

Külək enerjisi potensialı da mühüm mənbədir. Şuşanın dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin 7-8 m/s olduğu geniş ərazilər mövcuddur. Torpaqlarımız düşmən işğalından azad edildiyi üçün Qarabağın, həmçinin Şuşanın enerji ehtiyyatlarının hesablanması məqsədi ilə ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə külək enerji potensialının dəqiq hesablanması həyata keçiriləcəkdir. Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 500 meqavatdan yüksək qiymətləndirilir. Bununla yanaşı Şuşada 412 $m^3$ termal su ehtiyatları da mövcuddur. Termal mənbələrdən enerji məqsədli istifadənin mümkünlüyünün də mütəxəssislər tərəfindən tədqiq edilməsinə ehtiyac vardır.

Yeni bir həyatın qurulacağı Şuşa şəhəri ilə bağlı qarşıda duran əsas və ən vacib hədəflərdən biri də doğma sakinlərinin geri qaytarılması, əhalinin burada dayanıqlı şəkildə məskunlaşdırılmasıdır. Hər bir Şuşalı sözsüz ki, onlar üçün əbədi olan, ata – baba torpaqlarına qayıdacaqları günü səbirsizliklə gözləyirlər. Bunun üçün Şuşa şəhərində Prezident İlham Əliyevin göstərişi ilə böyük abadlıq və quruculuq işləri görülür. Tikinti işləri təxirəsalınmaz və sürətli şəkildə davam etdirilir. Yeni tikililər sırasında əsasən xəstəxana, məktəb və bir çox iaşə obyektləri var. Yaşayış binası olaraq ilkin mərhələdə 24 ədəd dördmərtəbəli bina tikiləcəkdir. Əhalinin köçürülməsi məsələsində isə məcburi köçkün statusu almış və qəzalı binalarda yaşayan ailələrin ilkin olaraq köçürülməsi daha məqsədəuyğundur. Həmçinin, Şuşaya köçürüləcək əhalinin məşğulluğunu təmin etmək, yeni su, işıq və qaz xəttlərinin çəkilməsi prosesi də görüləcək işlər və planlar arasındadır. Ancaq ümulikdə isə, burada xidmət göstərən əməkdaşların yaşaması və gələcəkdə Şuşa əhalisinin buraya köçürülməsi üçün hələ xeyli işlər görülməlidir.

Şuşaya əhalinin köçürüləcəyi tarixə qədər isə, burada beynəlxalq tədbirlərin, konfransların, festivalların, yarışların keçirilməsi və turistlik marşurutların hazırlanaraq, tur operatorların xüsusi təlimlərdən sonra buraya cəlb olunması və erməni vandalizminin izlərinin dünya ictimaiyyətinə çatdırılması çox vacib məsələlərdən biridir. Bu nöqteyi-nəzərdən Cıdır düzündə “Xarıbülbül” musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır. Məhz həmin proseslərin nəticəsində bir daha deyə bilərik ki, hələ tarix boyu zəngin inkişaf yolu keçmiş Şuşa şəhəri, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynayır. Həmin zəngin inkişaf yolunda əvəzsiz rolları olan, Şuşa mədəniyyətinin müasir dövrdə müsbət keyfiyyətləri ilə bu qədər dərindən tanınmasına görə Cəlil Məmmədquluzadə, Qasım bəy Zakir, Üzeyir bəy Hacıbəyli, Süleyman Sani Axundov, Xurşudbanu Natəvan, Firidun bəy Köçərli kimi görkəmli şəxsiyyətlərimizə, müasir, işıqlı Azərbaycan siyasətinə və doğma, ayrılmaz parçamız olan Şuşamızı bizə geri qaytaran igid vətən oğullarımıza borcluyuq.

Bir sözlə, doğma Şuşamız öz ilahi əzəməti, ecazkar gözəlliyi ilə təbiətin bizə əmanətidir. Bu əmanətə sahib çıxmaq, onu qorumaq bir seçim məsələsi deyil, bir borcdur. Biz bu borcu vicdanla, tam şəkildə, ən xırda təfərrüatını belə gözardı etmədən yerinə yetirməliyik. Unutmayaq ki, ikinci bir Şuşa yoxdur və heç vaxt da olmayacaq!

---

**Həşimzadə Həmid**
Bakı Ali Neft Məktəbi
Biznesin İdarəedilməsi Kafedra, Kurs: 2.
hamid.hashimzada.std@bhos.edu.az

**Şuşa şəhərinin dirçəldilməsinin Azərbaycanın tərəqqisinin yeni zirvəyə qaldırılmasında strateji əhəmiyyəti**

“Azərbaycan”, “Qarabağ”, “Şuşa” sözləri və “Qarabağ bizimdir!”, “Qarabağ Azərbaycandır!” devizləri istər 44 günlük müharibədən öncə, istərsə də postmüharibə dövründə, istər Qarabağlı olaq,

istərsə də yox, istər Şuşanı öz gözlərimizlə görən yaşlı nəsli təmsil edək, istərsə də yalnız deyilənləri təsəvvüründə canlandıran gənclər olaq, hər birimizin dilində əzbərdir. Erməni vandalizminin nəticəsi olaraq nəinki maddi, mənəvi, mədəni, iqtisadi resurslarımız məhv edildi, həmçinin bizdən öncəki nəslin uşaqlığı da əlindən alınmışdı. Şuşa şəhəri başda olmaqla, bir sıra doğma şəhərlərimiz, kəndlərimiz tanınmaz hala salınmışdı və bunun nəticəsi kimi biz 30 ilə yaxın bir müddət qədər öz haqqımız olan sərvətlərimizdən uzaq düşdük.Şuşanın əvvəlki vəziyyətinin canlı şahidi olmamış bir nəslin nümayəndəsi və Prezident təqaüdçüsü olaraq Şuşanın tarixi şöhrətini geri gətirmək üçün əlimdən gələni edəcəyəm.

"... Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir". Bu sözlər Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Şuşa şəhərinin tarixi və gerçək sahiblərindən bəhs edən çıxışındandır. Heydər Əliyev tarixi çox yaxşı bilirdi. Bilirdi ki, Şuşaya sahib olmaq, Şuşada yaşamaq və onun maddi-mənəvi sərvətlərindən istifadə etmək Tanrı tərəfindən bizə verilmiş üstünlükdür, şansdır. Ona görə də Azərbaycan SSR dövründəki hakimiyyəti zamanı da, müstəqil Azərbaycan Respublikasının Prezidenti olduğu dönəmdə də, Şuşa, Qarabağ məsələləri onun siyasi xəttinin ayrılmaz hissələri idi. O özü də dəfələrlə müxtəlif konfranslarda, iclaslarda, yerli və xarici televizyalara müsahibələrində qeyd etmişdi ki, Şuşa ümumdünya mədəni və tarixi irsinin iddialı hissədarıdır. Bu bütün dünya ölkələrinə açıq olan bir faktdır.

Lakin bu fakta baxmayaraq, XX əsrin sonunda, 1980-ci illərdən başlayaraq erməni qüvvələrinin və ona dəstək duran havadarlarının çirkin siyasətinin nəticəsi olaraq, bizim Şuşa və Dağlıq Qarabağdakı təbii sərvətlərimiz, turistik zonalarımız, iqtisadi potensialımızın olduğu, Bülbül, Üzeyir Hacıbəyli, Qasım bəy Zakir, Xurşudbanu Natəvan, Xan Şuşinski kimi mədəniyyət xadimlərimizin, Pənahəli xan, Əhməd bəy Ağaoğlu kimi tarixi simalarımızın doğulub-böyüdükləri yurdumuzun əvvəlki qüdrəti sarsıldı.

Şuşanın iqtisadi potensialı dedikdə onun yalnız bugünkü iqtisadi mənzərəsinə istinad etmək doğru olmaz. Çünki ötən əsrin əvvəlinə baxdıqda Şuşada 2000-ə yaxın müəssisənin fəaliyyət göstərmiş olduğu barədə məlumat almaq olar.Əsrin ikinci yarısında Şuşada şərq musiqi alətləri fabriki, istehsalat kombinatı, çörəkbişirmə müəssisəsi, məişət xidməti kombinatı, rayon istehlak cəmiyyəti, kurort ticarəti idarəsi, Bakı "Radioqurma" istehsalat birliyinin 1 №-li istehsalatı, Qarabağ ipək kombinatının 3 №-li toxuculuq sexi, elektrik şəbəkəsi, rayon maddi-texniki təchizat bazası, abidələri bərpa idarəsi, Şuşa tikinti birliyi, təsərrüfatlar arası tikinti idarəsi, təmir tikinti idarəsi, təsərrüfatlar arası təmir tikinti müəssisəsi, yol istismar idarəsi və s. var idi.Hələ bir əsr öncə, sənaye və texnologiyanın digər sahələrinin yüksək inkişaf etmədiyi bir dövrdə o qədər böyük bir sayda istehsalat yerlərinin fəaliyyəti nəzərəçarpan bir nəticədir və şəhərin özəl bir potensiala sahib olduğunu göstərir.

Şuşa dağlıq bir şəhərdir ona görə də buranın kənd təsərrüfatının gücü bu gün sənayedən daha çoxdur.Yararlı torpaqların ümumi sahəsi son hesablamalara görə 21 min hektara yaxındır və bu torpaqların böyük bir hissəsi heyvandarlıq üçün istifadə olunur.Bu kimi hesablamalarla məşğul olan Azərbaycan Dövlət Statistika Komitəsinin 2019-cu il analizlərinə görə, həmin il Şuşada 14 milyon manatdan çox məhsul istehsal olunub və təbii ki, bu kəmiyyətin çox hissəsi kənd təsərrüfatının hesabına əldə edilib.

Dağlıq relyefi və zəngin təbii sərvətlərə sahib olmanın digər bir üstünlüyü isə turizmdir və bu sahə kənd təsərrüfatından sonra Şuşa iqtisadiyyatında ikinci ən mühüm yeri tutur. Qarabağla əlaqəli yazılmış əsərlərdə tez-tez adına rastlaşdığımız və əhalinin sosial həyatında özünəməxsus əhəmiyyəti olan İsa bulağı, Cıdır düzü, Üçmıx təpələri, Şəmilin bulağı və s. yerlər iqtisadiyyatın dirçəlməsinə dəstəkdir.Bu sahəin tarixi də bir əsr öncəyə gedib çıxır. Belə ki, 1936-cı ildə Şuşada ilk istirahət evi, 1964-cü ildə ilk pansionat yaradılıb. Altı il sonra bu pansionat sanatoriyaya çevrilib və mədə-bağırsaq xəstəliklərinin müalicəsi və profilaktikası üzrə ixtisaslaşıb. Şuşanın quru və saf havası ağciyər, astma, nəfəs borusu xəstəliklərindən əziyyət çəkənlər üçün əvəzsiz idi.Şuşanın ən çox turist cəlb edən və nəinki Azərbaycanda, bütün Cənubi Qafqaz və SSRİ məkanında məşhur olan, 1970-ci ildə istifadəyə verilən Turşsu istirahət və müalicə zonası Laçın yolunun üstündə, Daşaltı çayının yaxınlığında yerləşir. Bunlardan əlavə 1971-ci ildə Xankəndində, 1984-cü ildə isə Şuşada SEB

(Səyahətlər və Ekskursiyalar Bürosu), 1972-ci ildə isə 136 yerlik Şuşa "Şəfa" turist bazası fəaliyyətə başlayıb.1980-cı illərdə şəhərdə daha 200 nəfərlik yeni istirahət binası istifadəyə veriləcəkdi, lakin Qarabağ münaqişəsinin başlanması pu planın həyata keçirilməsinə mane oldu. Bütün bunlarla yanaşı, şəhərdə məktəblilər üçün nəzərdə tutulmuş istirahət düşərgələri də fəaliyyətdə idi. Onun ikisi 500 və 300 yerlik respublika səviyyəsində, digəri isə vilayət məktəblilərinə xidmət göstərirdi.

O dövrün Turizm və Ekskursiyalar Şurasının təqdim etdiyi hesabatlara əsasən, təkcə 1990-cı ildə Şuşa Turist Bazası 1.178.910 rubl, Şuşa SEB 106.357 rubl həcmin turizm-ekskursiya xidməti göstərib.Bu rəqəmlər o dövr üçün kifayət qədər iddialı səslənir.

İşğaldan azad olunan zamandan bu günə kimi Cənab Prezidentin Şuşa və ətraf rayonlarla bağlı verdiyi sərəncamlar, büdcədən ayrılan vəsaitlər onu göstərir ki, növbəti illərdəazad olunan torpaqlarımızda turizm inkişaf edəcək və bu sahənin həmin ərazilərin dirçəlməsində önəmli rolu olacaq. Hal-hazırda Dövlət Turizm Agentliyi Şuşanın turizm potensialını araşdırır, dəyərləndirir və ona uyğun turizm konsepsiyaları hazırlayır. Şuşa şəhərində artıq iki hotel – "Xarıbülbül" və "Qarabağ" hotelləri fəaliyyət göstərir. Ümumi proqnozlara əsasən, yaxın 2025-ci ilə qədər o ərazilərə bir milyona yaxın yerli və xarici turist səfəri reallaşdırılacaq.

Şuşanın təbii resurslarına gəlincə isə, ərazisinin ümumi sahəsinin 20 faizindən çoxunu meşələr örtür.Ətrafdakımeşə və dərələrdə müxtəlif növ təbii daşlar, çiçəklər və dərman bitkiləri var. Şuşa şəhərindəa təsdiq edilmiş ehtiyatları 1143 min m3 olan və işğala qədər istismara cəlb edilən Şuşa üzlük daşı yatağı, ehtiyatları 397 min m3 olan kərpic-kirəmit istehsalına yararlı Keçəldağ gil yatağı, istismar ehtiyatları 50 min m3/ gün olan Şuşa yeraltı şirin su yatağı, müalicəvi əhəmiyyətə malik 60 min m3/gün və 25 min m3/gün olan Şirlan və Turşsu mineral su yataqları var.

Şuşada yaşayan Hacıbəyovlar nəslinin yalnız soyadı bəsdir ki, onların həm Azərbaycan, həm də dünya musiqində necə iz qoyduqlarını xatırlayaq. Bu nəslin ən görkəmli üzvü olan Üzeyir bəyin yaradıcılığı bir əsr keçsə belə, hələ də xalqımızın dilində əzbərdir. Şərqdə ilk Operanın yazılması, 1908-ci il "Leyli və Məcnun", 1938-ci il "Koroğlu" operalarının yazılması məhz onun adı ilə bağlıdır. Hacıbəyovların digər nümayəndələrinə Zülfüqar Hacıbəyov və iki oğlu – Niyazi və Çingiz Hacıbəyov; Ceyhun Hacıbəyov, Soltan Hacıbəyov, Osman Hacıbəyovu göstərmək olar.

Azərbaycanda professional vokal sənətinin banisi və xalqımıza Polad Pülbüloğlu kimi sənətkar miras qoymuş Bülbül 1897-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Xanəndə Xan Şuşinski 1901-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Xan Şuşinskinin ifasında "Qarabağ şikəstəsi", "Arazbarı" muğamları bugünkü sənətimizdə də önəmli material kimi istifadə olunur.

Yuxarıda qeyd edilən hər üç sənətkarın və qeyd etmədiyim yüzlərlə Şuşalı mədəniyyət xadimlərimizin ev muzeyləri, yaratdıqları əsərlərdən bəziləri erməni qəsbkarları tərəfindən məhv edilmişdi. Lakin biz inanırıq ki, burada musiqi məktəbləri, konservatoriya, musiqi alətləri sənayesi, müxtəlif mədəni tədbirlərin keçirilməsi üçün geniş potensial var. Mədəniyyətdən söz açarkən Şuşa Xarıbülbül festivalını qeyd etməmək düzgün olmaz.Bu festival 1989-cu ildən başlayaraq hər ilin may ayında Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan kimi ölkələrin və SSRİ respublikalarının iştirakı Şuşanın Cıdır düzündə keçirilirdi. 1992-ci il işğalına qədər keçirilən festivalın fəaliyyəti Prezidentimizin 2021-ci il 7 may tarixli sərəncamı ilə bərpa edildi.bu sərəncamla Şuşa Azərbaycanın "Mədəniyyət paytaxtı" elan edildi və Vaqifin Poeziya Günləri və Xarıbülbül kimi festivallar bərpa edildi. 2021-ci il mayın 12-i və 13-də 29 illik fasilədən sonra ilk dəfə "Xarıbülbül" festivalı keçirilmişdir. 2022-ci il may ayının 12-14-də isə Şuşa şəhərində V Xarıbülbül Beynəlxalq Folklor Festivalı baş tutub. Bu hadisələr şəhərin potensialının düzgün dəyərləndirilməsi siyasətinin bari nümunəsidir.

Tarixi memarlıq abidələri də bu diyarın həm turizmində, həm də tarixi-mədəni memarlıq səhifəsində önəmli yer tutur.Şuşa şəhərinin əsası 1750-ci illərdə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulmuş və paytaxt seçilmişdi.paytaxt mövqeyində olduğu üçün şəhərin memarlığına xüsusi diqqət ayrılmış və bir sıra qalalar tikilmişdi. İlk qala Şuşa qalası şəhərlə birlikdə 1750-ci illərin əvvəlində yaradılmağa başlamış və 1756-1757-ci illərdə tikintisi sona çatmışdı. O dövrlərdən başlayaraq şəhər xarici səyyahların diqqət mərkəzində olmuşdu. İngilis tarixçi-səyyahları Morye və Burter Şuşaya səfərlərindən sonra bu şəhər barədə önəmli fikirlər səsləndirmişlər.Moryenin dediyinə görə, Şuşada məskunlaşmanın tarixi bizim eradan öncəyə də gedib çıxır. Burter isə yazır ki, "Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş

küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır". Bütün bu təəssüratlar Şuşanın turizm potensialının aydın nümunəsidir.

Bir xalq olaraq hamımız inanırıq ki, Şuşa şəhərinin dirçəldilməsi ilə Azərbaycan Respublikası yeni bir mərhələyə qədəm qoyacaq.İqtisadi və mədəni tərəqqimiz mütləqdir! Özgüvən və inam bütün növ inkişafların kökündə dayanır. Vaxtilə ümummilli lider Heydər Əliyev "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" kəlamı ilə başlayan Şuşa məsələsi onun siyasətini davam etdirən və prinsipial mövqeyi ilə seçilən Prezidentimiz İlham Əliyevin "Şuşanın əsl sahibləri qayıdıb, biz qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!" çıxışı ilə öz ədalətli həllini tapdı.Artıq Azərbaycanın daha bir intibah dövrü başladı!

---

**Firuzə Quliyeva İslam**
Tələbə (ISE – 1087)
guliyevafiruza0@gmail.com

## "Şuşanın sosial-iqtisadi dirçəldilməsi – Azərbaycanın tərəqqisinin yeni zirvəsidir"

*Əziz Şuşa, sən azadsan.*
*Əziz Şuşa, biz qayıtmışıq.*
*Əziz Şuşa, biz səni dirçəldəcəyik.*

Qarabağın qəlbi səndə döyünür, xarıbülbülün sənin torpağından bəsləndikcə böyüyür, gözünü dağlarının qoynunda açıb, nəfəsini sənin pak, təmiz havandan alan hər canlı sənə özəl, sənə bağlı olur. Bu necə möcüzədir? Vətən bizə, sən Vətənə anasan. Bilirdik, sən azad olmasan, bağlanmayacaq vətənin yarası, dinməyəcək ana həsrəti. Bitkisi torpağından ayrıla bilməyən diyarın, balası torpağından ayrı idi... Heç bağlanardımı? Deyil bağlanmaq, qaysaq belə tutmurdu yarası. Hər gün düşmən tapdağı keçirdi üzərindən.. Bəlkə cismi orada deyildi, ruhu ki anasından bir parçaydı.. Kim dözərdi bu acıya, bu dərdə? Vətən...Vətən, dözürdü.. Axı o da ana idi... Ahı, naləsi cahanı titrətsə də, onun yaralı, incik, kövrək övladlarını Vətəndən başqası bağrına basmayacaqdı. Bir gün anasına qovuşacağına balasından çox kim inanacaqdı? Axı inancın kökü sevgidən gəlir, bircə qorxu onu yox edə bilir - itirmək qorxusu. Vətənsə bilirdi, ananı baladan yalnız ölüm ayırardı, fəqət onun anası əbədiyaşardı. Bir an inanc adlı silahını qoymadı yerə, düşünmədi məğlubam deyə. Bəlkə qalibiyyətin tarixi ona məlum deyildi, nə olsun, qalibiyyətin imzası ki qəlbində idi! O imza bu dünyanın qanunudur – məzlumun nə qanı, nə də haqqı yerdə qalar. Qanı su yerinə axıdan düşmən qalib sayılmaz. Madam ki, dünya döndükcə bir gün haqq gəlib öz yerini tapır, o günə hazır olmaq lazımdır. Ana Vətən elə övladlar böyütməli idi ki, zamanı yetişəndə, ədalət öz sahibinə dönəndə daha Vətənin ürək yanğısı deyil, igidlərinin cəsur, möhkəm addımları titrətsin cahanı.

30 il gözü yolda, qulağı səsdə gözlədi xalqım. Hər səhər "Bəlkə bu gün yurdum azad olar?" deyə keçirdi ürəyindən. Bu necə dəhşətdir axı?! Öz doğma yurdunun bir qarış torpağını belə sənə çox görürlər. Sənin olanı səndən alıb bu mənimdir, əzəldən də mənim olub deyirlər. Qarabağım, adındaki "qara" mı yazdı bu taleyi alnına? Sandılar, bəxtin qaradır, halbuki sən böyük, səfalı bağ deməksən. Əzəldən bəri hürr türklərin diyarısan sən. Lakin onlar tarixi inkar edib, öz yalandan gerçəklərini dünyaya elan edirlər. Hamıdan öncə özləri bu yalana o qədər ürəkdən inanırlar ki!!! Bir kəs də düşünmür, bəlkə elə yalan bizdədir? Ola bilər, insanlar özünə sərf edəni seçir, ona tərəf çıxırlar, dünya isə tərəfsizdi. Sahib kimdirsə, haqq da onundur, bilir və ən əsası bunu qəbul edir. Amma haqqı sahibinə nə zaman verir, bax bunu bir Allah bilir. Görünür, dünyanın bir günü bizim 30 ilimizə bərabər imiş, çünki ədaləti yerinə 30 il sonra qaytarmışdı.

II Qarabağ müharibəsinin başladığı o gecə mənfur düşmən bilsəydi ki, silahından çıxan mərmi ədaləti yuxusundan oyadacaq, nəinki atəş açmaq, onu əlinə belə almazdı. Biz ümidləri səhərə bağlamışdıq, unutmuşduq arzular ən gözlənilməz anda gerçək olar. İndi azad olunurdu yurdumun hər qarış torpağı.. Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan.. Vətənin yaraları sağalırdı anbaan. Amma Kəlbəcər, Laçın, Ağdam, Şuşa vardı hələ.. Vətənim ağlayırdı Şuşa, Şuşa deyə.. Bilirdi, Şuşa Qarabağın ürəyidir, onun torpağında Azərbaycan bayrağı dalğalanmadıqca, bu müharibə bitməyəcəkdir.

8 mayda ayırmışdı düşmən Vətəni Şuşasından, yenə bir 8-i seçdi dünya o qayıdanda da. 8 noyabr günü eşitdik Ali Baş Komandandan "Əziz Şuşa, sən azadsan" cümləsini. Öncə son nəfəsinəcən ürəyi Qarabağla döyünən Ulu Öndər atasına, sonra bizə verdi şad xəbəri. Səslədi Şuşanı, biz qayıtmışıq, sevin, qürurlan deyə.

Övladların düşmənə sipər etdi özünü, təki sən azad ol, Şuşa. Biz səni səslədik, sən də Xarıbülbülünə de, o artıq dustaq deyil, hər nəfəsdə azadlığı hiss etsin. Cıdır düzünə söylə, torpağında gəzib, gözəlliyini seyr edən bizlərik. İsa bulağın eşitsin, göz yaşı kimi dumduru suyunu vətən övladları içir daha. Şuşa, dağlarının havasıyla yaşayan Vətəndir, sən həyatsan Vətənini yaşadan.

Sənə alınmaz qala deyirdilər, axı bilirdilər, səni bizdən heç kim ala bilməz. Sən Pənahəli xanın qalasısan, Şuşam. O qala övladlarını ondan didərgin salan düşmənə yurd olmaz. Olmadın da, sıldırımlı qayaların balalarına yol, mənfur düşmənə pusqu oldu. Aldıq qisasımızı, sancdıq üçrəngli bayrağımızı. Əziz Şuşa, biz qalib olduq, sən qalibiyyətin rəmzi. Xarıbülbülün sənə sadiqliyi ilə dillərə dastandır, inan mənə övladların da xarıbülbültək əbədi sənə sadiq qalacaqdır və s.

---


**Heydərova Səbinə Emil qızı**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
TÜDİFAK, qrup 260İ
sebine.heyderova0706@gmail.com


## II Qarabağ müharibəsi: Azərbaycan-Türkiyə birliyinin regionda yaratdığı yeni geosiyasi vəziyyət


**Xülasə**

İkinci Qarabağ müharibəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqlarını azad edən Azərbaycan Respublikasının qələbəsi ilə başa çatmışdır. Bu 44 günlük müharibə təkcə bölgənin hərbi-siyasi həyatı üçün deyil, həm də beynəlxalq təhlükəsizliyin təmini üçün müsbət nəticələnmişdir.

Türkiyə hərbi əməliyyatların ilk günündən Azərbaycanı ədalətli mübarizəsində dəstəkləmiş, ona siyasi və diplomatik dəstək göstərmişdir. Son hadisələr bir çox regional vəzifələrin həllində Azərbaycanın, Rusiyanın və Türkiyənin qarşılıqlı əməkdaşlığının effektliyini bir daha göstərmişdir.



**Açar sözlər:** Türkiyə, Qafqaz regionu, əməkdaşlıq, Qarabağ. təhlükəsizlik



**Heydarova Sabina Emil**
Azerbaijan State University of Economics (UNEC)
TUDIFAK, group 260I
sebine.heyderova0706@gmail.com


## The Second Karabakh War: the new geopolitical situation created by the Azerbaijan-Turkey union in the region


**Summary**

The Second Karabakh War ended with the victory of the Republic of Azerbaijan, which liberated its lands occupied by the armed forces of Armenia. This 44-day war resulted positively not only for the military and political life of the region, but also for ensuring international security.

From the first day of the military operations, Turkey supported Azerbaijan in its just struggle and provided political and diplomatic support to it. Recent events have once again shown the effectiveness of mutual cooperation between Azerbaijan, Russia and Turkey in solving many regional tasks.



**Keywords:** Turkey, Caucasus region, cooperation, Karabakh

**Гейдарова Сабина Эмиль**
Азербайджанский государственный экономический университет (UNEC)
ТУДИФАК, группа 260И
sebine.heyderova0706@gmail.com

## Вторая карабахская война: новая геополитическая ситуация, созданная Азербайджано-Турецким союзом в регионе

**Резюме**

Вторая Карабахская война завершилась победой Азербайджанской Республики, освободившей свои земли, оккупированные вооруженными силами Армении. Эта 44-дневная война положительно сказалась не только на военно-политической жизни региона, но и на обеспечении международной безопасности.

С первого дня военных действий Турция поддерживала Азербайджан в его справедливой борьбе и оказывала ему политическую и дипломатическую поддержку. Последние события еще раз показали эффективность взаимного сотрудничества Азербайджана, России и Турции в решении многих региональных задач.

**Ключевые слова:** Турция, Кавказский регион, сотрудничество, Карабах. безопасность

**Giriş.** Azərbaycan və Türkiyə Avrasiya regionunun eyni dil, din, irq və mədəniyyətə malik iki mühüm qardaş türk dövlətidir. Türkiyə ilə Azərbaycan arasında münasibətlərin arzu olunan səviyyədə inkişaf etdirilməsi və artırılması hər iki ölkənin arzusudur.

1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra bir sıra iqtisadi, siyasi və mədəni fəaliyyətlər həyata keçirsə də, Türkiyə ilə münasibətlər gözlənilən səviyyədən aşağı qaldı. Azərbaycan müstəqillik əldə etdikdən sonra bir sıra sosial, siyasi və iqtisadi problemlərlə üzləşdi. O zamanlar maddi və mənəvi gücü olmayan Azərbaycan qardaş ölkəyə üz tutsa da, xüsusilə iqtisadi baxımdan neft ehtiyatlarının müəyyən edilməsi və çıxarılmasında Qərb dövlətlərindən maliyyə dəstəyi almaq üçün beynəlxalq neft müqavilələri bağlamalı olub. Digər tərəfdən, ermənilərin Azərbaycan torpaqlarının ədalətsiz işğalı, bölgədə beynəlxalq güc çəkişmələri, Rusiyanın bölgədə nəzarəti əldən vermək istəməməsi Türkiyə-Azərbaycan münasibətlərinin inkişafına mənfi təsir göstərdi.

Birinci Qarabağ müharibəsindən sonra Ermənistanın Qarabağla bağlı haqsız tələbi və işğalı göründü və bu məsələdə Rusiya Ermənistanla birgə hərəkət etdi. 27 sentyabr 2020-ci il tarixində Azərbaycan ordusu Ermənistanın yeni hücumu üçün hərəkətə keçdi və 44 günlük müharibə zamanı mülki əhalini hədəfə almadan 27 il ərzində nəzarətli şəkildə işğal etdiyi ərazilərin əhəmiyyətli hissəsini ələ keçirib. 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya arasında üçtərəfli Bəyannamə imzalanıb və Dağlıq Qarabağ Ermənistanın işğalından azad edilib. İkinci Qarabağ müharibəsinin qələbəsi ilə sülh şəraitini müəyyən edən Azərbaycan Respublikası oldu. Bu prosesdə Türkiyə Cümhuriyyəti siyasi və hərbi imkanları ilə Azərbaycanın yanında oldu. Qarabağ zəfərindən sonra Türkiyə ilə Azərbaycan arasında yeni dövr başladı və bu vəziyyət ABŞ və Avropa dövlətlərini təşvişə saldı.

27 sentyabr 2020-ci il Azərbaycan-Türkiyə münasibətlərinin gələcəyi üçün mühüm dönüş nöqtəsi oldu. Bundan sonra Azərbaycan və Türkiyə üçün Cənubi Qafqazda daha mühüm investisiya layihələrinin reallaşması gözlənilir. Bu dönüş nöqtəsinin Türk dünyası üçün çox daha geniş və əhatəli iş birliyinə səbəb olacağı da düşünülür. Azərbaycan və Türkiyə birlikdə hərəkət etdikcə, bir-birini dəstəklədikcə, iqtisadi və siyasi problemlər qarşısında daha güclü olacaqları şübhəsizdir.

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında nəzərə alınmalı olan məqamlardan biri də ortaq mədəniyyətin, tarixin ön plana çıxarılmasıdır.

Qafqaz coğrafiyasının mühüm bölgəsi olan Qarabağın tarixinə dair Azərbaycan-Ermənistan yanaşmaları məsələni regional problem olmaqdan beynəlxalq mövqeyə daşımış və bu xəbər mənbələrində yer almağa başlamışdır. Türkiyə mətbuatı kimi Avropa və Amerika mətbuatı da xəbər mənbələrində bu mövzulara yer verib.

Qərb mətbuatı Azərbaycan və Qarabağ tarixində ilk növbədə zəngin neft və iqtisadi sərvətlərə malik regiona diqqət yetirdi, sonra isə inkişaf edən hadisələr nəticəsində Azərbaycan Ermənistanla münaqişələrə biganə qala bilmədi.

Qərb mətbuatının bölgəyə yanaşmalarını təhlil etmək həm də Qərbin regiona baxışını anlamaq baxımından əhəmiyyətlidir. Bu istiqamətdə aparılacaq daha həcmli tədqiqatlara giriş xarakteri daşıyan bu qısamüddətli analitik tədqiqat bu baxımdan ədəbiyyata sistemli bir perspektiv təqdim edəcəkdir.

Aparılan araşdırma iki qardaş ölkə olan Azərbaycan və Türkiyə arasında olan iqtisadi əlaqələri əhatə edir. Araşdırmada 1990-cı ildən bu günümüzə qədər ölkələr arası iqtisadi əlaqələr araşdırılmış, əldə olunan rəqəmlər illər üzrə təhlil olunmuşdur. Tədqiqatın aparılmasında gələcək dövr üçün iqtisadi proqnozlar verilmiş, növbəti illər üçün hədəflər hesablanmışdır. Tədqiqatın aparılması zamanı bir sıra statistik metodlarından geniş istifadə olunmuşdur. Azərbaycanın yerləşdiyi coğrafi mövqeyi hələ qədim zamanlardan Asiya və Avropa qitələri arasından keçən bütün ticarət yollarının üzərində yerləşməsi Azərbaycana ciddi iqtisadi üstünlüklər yaratmışdır. Qədim tarixi iqtisadi əlaqələrə malik olan bu iki ölkə arasında güclü iqtisadi və siyasi əlaqələrin qurulmasına əsas səbəb kimi bir sıra faktorları qeyd edə bilərik:

- Azərbaycan və Türkiyə birbaşa nəqliyyat-kommunikasiya üçün əlverişli mövqeyə malikdir. Bunu da qeyd etməliyik ki, bu iki ölkə arasında birbaşa əlaqə yalnız Naxçıvan Muxtar Respublikası vasitəsilə mümkündür;
- Hər iki ölkə yeni geniş təbii resurslarla zəngindir;
- Regionun əsas ticarət yolları Azərbaycan-Gürcüstan-Türkiyəni və Azərbaycan-İran-Türkiyəni əhatə edir;
- Həmçinin Azərbaycanın Avropaya çıxışının Türkiyə, Türkiyənin mərkəzi Asiyaya çıxışının Azərbaycan olması bu iki ölkə arasında iqtisadi əlaqələrin daha da güclənməsinə səbəb olmuşdur.

Bütün bu qeyd olunanlarla yanaşı hər iki ölkənin türk dövləti olması, eyni dil və eyni dinə mənsub olması da böyük əhəmiyyət kəsb etmişdir. Həmçinin Türkiyənin regionda hegemon sayılan 3 dövlətdən biri olması (Rusiya, İran, Türkiyə) keçmiş Sovet ittifaqında olmuş türk dövlətlərinin ittifaqını yaratmaq istəyi Türkiyənin yürütdüyü xarici siyasətdə mühüm yer tutur. Lakin son illərdə Türkiyənin Avropa ölkələri ilə yaxınlaşması, həmçinin İranın türk amilini zaman-zaman qısqanması Türkiyə ilə İran arasında müəyyən soyuqluq yaratmışdır. Onu da qeyd etməliyik ki, Sovet ittifaqı dağıldıqdan sonra Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlət məhs Türkiyə olmuşdur. Bu zaman Azərbaycanın iqtisadiyyatının, kənd təsərrüfatının inkişafı üçün ilk kreditlər də məhz Türkiyə tərəfindən verilmişdir. Türkiyənin göstərdiyi bütün bu hallar Türkiyənin Azərbaycan üçün nəinki dost ölkə, eyni zamanda qardaş ölkə olmasına səbəb olmuşdur.

İki qardaş ölkə arasındakı digər bir ortaq cəhət də hər iki ölkənin təbii ehtiyyatlarla zəngin olmasıdır. İki ölkə arasındakı uğurlu layihələrdən biri də məhz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin və Trans Anadolu Təbii Qaz Xəttinin də çəkilməsidir. Ümumilikdə Azərbaycanın son 30 ildəki xarici ticarət dövriyyəsinə nəzər saldığımız zaman artan dinamikanın müşahidə olunduğunu görə bilərik. Belə ki, 1991-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsi 4 milyard dollar olduğu halda bu rəqəm 2005-ci ildə 8,5 milyard dollar, 2015-ci ildə 21 milyard dollar, 2020-ci ildə isə 24 milyard dollar olmuşdur.

Qrafik 2-ə baxsaq görərik ki, Azərbaycanın xarici ticarət dövriyyəsinin ölkələr üzrə bölgüsünə də baxdığımız zaman Türkiyənin bu bölgüdə böyük pay sahibinin olduğunu da görə bilərik. Ümumilikdə Azərbaycanın xarici ticarət dövriyyəsində Türkiyənin pay faizi də son 10 ildə demək olar ki, o qədər də kəskin fərq etməmişdir. Belə ki, 2011-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsində Türkiyənin payı 13.%, 2016-cı ildə 14 %, 2020-ci ildə isə 15 % olmuşdur.




**Qrafik №2:** Azərbaycanın xarici ticarət dövriyyəsi




**Qrafik №3:** Azərbaycanın xarici ticarət dövriyyəsində Türkiyyənin pay faizi.

Son 1 ildə regionda Azərbaycan ilə Ermənistan arasındakı müharibə və Azərbaycanın müharibə zamanı Türkiyədən gördüyü mənəvi dəstək iki ölkə arasında olan “qardaşlıq bağlarını” daha da gücləndirmişdir. 10 noyabr qələbəsi ilə iki ölkə arasında bağlanmış müqavilə ilə müharibənin sona çatması və əzəli Azərbaycan torpaqlarının düşmən tapdağından azad edilməsi regionun inkişafına, gələcək nəqliyyat-kommunikasiya yollarının açılmasına səbəb olacaqdır. Belə ki, bu müqavilə şərtlərində də əks olunduğu kimi yaxın bir neçə il ərzində Zəngəzur ilə yeni kommunikasiya yollarının açılması Azərbaycanın Türkiyəyə birbaşa çıxışını təmin edəcəkdir. Belə ki bu yolların açılması iki ölkə arasındakı ticarət əlaqələrinin daha da genişlənməsinə nəqliyyat xərcləri isə kəskin şəkildə azalmasına səbəb olacaqdır. 2020-ci ildə Azərbaycan ilə Türkiyə arasında bağlanmış sazişləri də nəzərə alaraq yaxın iki il ərzində iki ölkə arasında olan ticarət dövriyyəsinin həcmini 15 milyard dollara çatdırılması nəzərdə tutulmuşdur.

Azərbaycan-Türkiyə dostluq münasibətlərinin analoqu olmayan bir əməkdaşlıq ənənəsindən xəbər verirsə, digər tərəfdən də, bu münasibətlərin yüksələn xətlə artmasının bəzi böyük gücləri çox ciddi narahat etdiyinin də göstəricisidir. Eyni dil, din və tarixi köklərə malik olan iki ölkənin həm də hərbi-siyasi əməkdaşlığı, iqtisadi əlaqələri və diplomatik gücü təkcə

Cənubi Qafqaz bölgəsində deyil, böyük bir Avrasiya coğrafiyasında Azərbaycan-Türkiyə amilinin möhkəmlənməsi deməkdir. Azərbaycanın Avropa İttifaqının enerji və kommunikasiya layihələrində aparıcı rola sahib olması, Türkiyənin isə Yaxın və Orta Şərqdə son onillikdə üstünlük qazanması, Bakı – Tiflis – Ceyhandakı iştirakı onu etibarlı tərəfdaşlarından biri halına gətirmişdir. Əlbəttə, İkinci Qarabağ müharibəsinin mühüm məqamları və müharibə ətrafında gedən beynəlxalq əhəmiyyətli hadisələri bir məqalə çərçivəsində təhlil etmək çətindir. Bu məqalədə biz müharibədən keçən az müddətdə əldə edilmiş hərbi və diplomatik-siyasi zəfərlərin fonunda Azərbaycan Respublikasının Türkiyə ilə dostluq münasibətlərinin qısa icmalını verdik. Bu münasibətlərin yüksələn xətlə inkişafı və təkcə iki ölkə arasında deyil, regional səviyyədə də böyük perspektivlərə malik olması tarixçilərin və politoloqların gələcək araşdırmaları üçün həm də elmi əhəmiyyət daşıyan mövzu obyekti olacaqdır.

Azərbaycanın Cənubi Qafqazda geosiyasi mənzərəni kökündən dəyişməsi bütün qlobal güclərin regiona istiqamətlənmiş siyasətinə düzəlişlər edilməsi zərurətini ortaya qoydu. Avropa İttifaqı isə buna daha çox ehtiyac duyur. Həmin səbəbdən müharibə bitdikdən bir qədər sonra Brüssel bu və ya digər üsullarla regiondakı vəziyyətə müdaxilə etməyə çalışdı. Hətta öncə müəyyən inkarçılıq mövqeyi hiss olunurdu. Sonra ATƏT-in Minsk qrupu vasitəsilə Dağlıq Qarabağda varlığını təmin etməyə cəhd göstərdi. Ancaq aydın oldu ki, bu da asan məsələ deyil və Rusiya ilə yanaşı, regionun lideri Azərbaycanla da hesablaşmaq lazım gəlir.

Bu məqam Aİ-Azərbaycan münasibətlərinin hazırkı mərhələsi üçün əhəmiyyət kəsb edir. Azərbaycanla hesablaşmağın iki aspekti vardır. Birincisi, Brüssel nəzərə almalı idi ki, Azərbaycan təkbaşına BMT və ATƏT-in Minsk qrupunun həyata keçirməyə məsul olduğu, lakin yerinə yetirə bilmədiyi çətin vəzifənin öhdəsindən gəlib. Bu, qarşılıqlı münasibətlərdə Azərbaycan faktoruna daha böyük diqqət göstərilməsini tələb edir. İkincisi, Azərbaycan Prezidenti İkinci Qarabağ müharibəsindən sonra da vurğulayırdı ki, rəsmi Bakı Aİ ilə yeni sazişin imzalanmasına önəm verir. Yəni qalib Azərbaycan Avropa İttifaqını mühüm tərəfdaş sayır və onunla əlaqələri inkişaf etdirmək niyyətindədir.

**İstifadə olunmuş ədəbiyyat**


1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Xarici İqtisadi Əməkdaşlıq Komitəsində çıxışı //Azərbaycan.-1994.-5 noyabr.-S.2.
2. Türkiyədə yaşayan soydaşlarımızla görüşdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı //Azərbaycan.-1994.-5 noyabr.-S.2.
3. Türkdilli dövlətlərin İstanbul şəhərində keçirilən ikinci Zirvə toplantısının açılışında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi//Azərbaycan.-1994.-21 oktyabr.-S.2
4. www.stat.gov.az/
5. www.ankara.mfa.gov.az 128



**Mirzəcanzadə Fərid Ceyhun oğlu**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),
İqtisadiyyat fakültəsi, qrup 170
feridmirzecanzade@mail.ru


## Zəngəzur dəhlizinin açılmasının iqtisadi və siyasi əhəmiyyəti

**Xülasə**


Bu məqalədə 2020-ci ilin payızında Azərbaycanın qələbəsi ilə başa çatan 44 günlük müharibədən sonra Cənubi Qafqazda yeni geostrateji vəziyyət və iqtisadi və mədəni əməkdaşlıq vəd edən Zəngəzur dəhlizinin perspektivləri araşdırılır. Zəngəzur dəhlizinin açılışı Azərbaycanın yeni

işğaldan azad edilmiş torpaqlarının təhlükəsizliyində mühüm rol oynayacaq. Bu, noyabr razılaşmasının həyata keçirilməsini gücləndirəcək və keçmiş status-kvonun bitdiyinə işarə edəcək. Bu, sonradan Bakıya son illərdəki ən iddialı öhdəliyini - dağıdılmış Qarabağ bölgəsinin bərpasını həyata keçirməyə kömək edəcək.

**Açar sözlər:** Zəngəzur dəhlizi, Qarabağ bölgəsi, hüquqi perspektivləri, sərhəd problemləri.

**Mirzajanzade Farid Jeyhun**
Azerbaijan State University of Economics (UNEC),
Faculty of Economics, gr. 170
feridmirzecanzade@mail.ru

## The economic and political significance of opening the Zangezur Corridor

**Summary**

This article examines the prospects of the Zangezur corridor, which promises a new geostrategic situation and economic and cultural cooperation in the South Caucasus after the 44-day war, which ended with the victory of Azerbaijan in the fall of 2020. The opening of the Zangezur corridor will play an important role in the security of the newly liberated lands of Azerbaijan. This would strengthen the implementation of the November agreement and signal the end of the former status quo. This will later help Baku realize its most ambitious commitment in recent years - the reconstruction of the devastated Karabakh region.

**Keywords:** Zangezur corridor, Karabakh region, legal perspectives, border problems.

**Мирзаджанзаде Фарид Джейхун**
Азербайджанский государственный экономический университет (UNEC),
Экономический факультет, группа 170
feridmirzecanzade@mail.ru

## Экономическое и политическое значение открытия Зангезурского коридора

**Резюме**

В данной статье рассматриваются перспективы Зангезурского коридора, обещающего новую геостратегическую ситуацию и экономическое и культурное сотрудничество на Южном Кавказе после 44-дневной войны, закончившейся победой Азербайджана осенью 2020 года. Открытие Зангезурского коридора сыграет важную роль в обеспечении безопасности вновь освобожденных земель Азербайджана. Это укрепило бы выполнение ноябрьского соглашения и означало бы конец прежнего статус-кво. Это впоследствии поможет Баку реализовать свое самое амбициозное обязательство за последние годы – восстановление разрушенного карабахского региона.

**Ключевые слова:** Зангезурский коридор, Карабахский регион, правовые перспективы, пограничные проблемы.

**Giriş.** Zəngəzur dəhlizi Azərbaycan Respublikasının regional və beynəlxalq hüquqi əlaqələrində mühüm rol oynayır. Zəngəzur dəhlizinin eyni zamanda iqtisadi və siyasi əhəmiyyəti də aktual bir amildir. Dəhliz, İkinci Qarabağ müharibəsindən sonra hüquqi əhəmiyyətini daha da artırmışdır. Hazırda Azərbaycan və Ermənistan arasında bu dəhliz ilə bağlı razılıq tam şəkildə icra edilməyib. Buna səbəb olaraq Ermənistanın hüquqi və siyasi münasibətlərinin icrasında öz öhdəlikləri olan məsələləri yerinə yetirməməsidir. Günümüzdə Zəngəzur dəhlizi ilə bağlı hüquqi və siyasi müzakirələr getdikcə aktiv hal almağa başlamışdır. Buna əsas səbəb olaraq İkinci Qarabağ müharibəsindən sonra ortaya çıxan reallıqlar fondunda şanlı ordumuz, xalqımızın milli iradəsi və cənab ali baş komandamız İlham Əliyevin siyasi görüşü ilə qazandığımız zəfərin təşəbbüsü nəticəsində hazırda Ermənistanın nəzarətində olan Qərbi Zəngəzur bölgəsindən Zəngəzur dəhlizinin çəkilməsi perspektivləridir. Tarixən Azərbaycan ərazisinə daxil edilən Zəngəzurla bağlı Ümummilli

lider Heydər Əliyevin 1998-ci il, yanvar ayının 14-ü Azərbaycan Respublikasının Konstitutusiya Komissiyasının iclası zamanı çıxışında Sovet Hakimiyyəti təzə qurulan zaman Azərbaycana qarşı ədalətsizlik edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 103-cü ilində baş verən və 44 gün davam edən İkinci Dağlıq Qarabağ müharibəsindən sonra Cənubi Qafqaz regionunda geosiyasi tənlik yenidən formalaşdı. Azərbaycanın qələbəsi regional əməkdaşlıq üçün yeni sahələr, yeni dəhlizlər və əlaqə nöqtələri açıb.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov Azərbaycanla Ermənistan arasında sərhəd problemini həll etmək və onlarım yurisdiksiyasını məhdudlaşdırmaq məqsədilə bu ilinin iyun ayında Bakıya səfərdə olmuşdur. Ermənistan Azərbaycan sərhəd pozuntusunda ittiham etdikdən sonra Rusiya da sərhəd danışıqlarında vasitəçiliyini irəli sürmüşdü. Eyni zamanda Rusiya Moskvanın məsləhətçi və vasitəçi qismində iştirak edəcəyi birgə Azərbaycan-Ermənistan Komissiyasının yaradılmasına və yurisdiksiya sahələrinin müəyyənləşdirilməsinə yardım etməyi təklif etmişdir.

Ermənistanla mövcud sərhəd problemlərinin həlli üçün izlənilən "Track-II diplomatiyası" Azərbaycanın rəhbərliyi altında həyata keçirilməlidir. Bəzi iqtisadi və coğrafi addımlar İrəvanın diplomatik təsdiqini asanlaşdıra bilər.

Üç tərəfin və zaminlərin konstruktiv münasibəti yaxın günlərdə bütün münaqişə tərəfləri üçün uyğun təklifin irəli sürülməsinə imkan verə bilər. Ziddiyyətli reallıqlar və yaranan dəhlizlər haqqında milli rəvayətin yenidən qiymətləndirilməsi və qurulması vacibdir. Bu kontekstdə dəhlizin iqtisadi potensialını və regional sülhə töhfəsini üzə çıxaran səylərin həyata keçirilməsi bütün aktorların maraqlarına uyğundur. Bu kontekstdə İrəvan dəhlizin yaratdığı imkanları görsə, Azərbaycanın ərazi bütövlüyünə hörmət edərək sülh sazişi imzalaya bilər.

Qeyd edək ki, Ermənistanın işğalçı siyasəti regionda sülh asayişi yaratmadı; əksinə, sosial yaralara, inzibati bölgülərə və iqtisadi qeyri-sabitliyə səbəb olmuşdur. Bu, Ermənistanın beynəlxalq aləmdən təcrid olunmasına gətirib çıxarıb. Amma Zəngəzur dəhlizi iqtisadi mühasirə vəziyyətinə son qoya bilər. Başqa sözlə, Zəngəzur dəhlizi Ermənistana qəzəbdən qurtulmaq və firavanlıq əldə etmək imkanı verir.

Bir sözlə, regional nəqliyyat şəbəkələrini daha da genişləndirəcək yuxarıda qeyd olunan dəhliz Cənubi Qafqaz ölkələrinə mühüm imkanlar açır. Bu dəhliz Şimal-Cənub Beynəlxalq Dəhlizinin və Orta Dəhlizinin əhəmiyyətini artıracaq, regional əməkdaşlıq isə sülhü bərpa edəcək, hadisələri azaldaraq münaqişəsiz mühiti önə çıxaracaq. Azərbaycanın regional siyasətindən əsas gözləntisi də budur. Yəni Ermənistan Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşarsa və Türkiyəyə qarşı qondarma soyqırım iddialarından əl çəkərsə, regional əməkdaşlıqda iştirak edə və ciddi iqtisadi qazanc əldə edə bilər. Bu səbəbdən də İrəvanın zamanla Zəngəzur dəhlizinin təqdim etdiyi imkanların əhəmiyyətini anlayacağını proqnozlaşdırmaq olar.

Zəngəzur dəhlizinin hüquqi müstəvidə perspektivliyi aktual bir məsələdir. Belə ki, Zəngəzur dəhlizi Türk dünyasını birləşdirən tək quru sərhəddir. Bu dəhliz Azərbaycanın maraqları daxilində açılarsa hüquqi aspektdən ölkəmiz və digər türk dövlətləri üçün siyasi, iqtisadi və yeni əməkdaşlıqlar ilə yeni bir çağın başlanğıcının təməlini atacaq. Zəngəzur dəhlizinin türk dünyası üçün ortaya qoyduğu məsələlərin həll yolları hüquqi formada aşağıda ardıcıllıqla qeyd edilibdir:

- Hərtərəfli və tarazlaşdırılmış iqtisadi artım, sosial və mədəni inkişaf məqsədi təqdim etməsi,
- Qanunun aliliyinin təmin edilməsi, idarəçilik və insan hüquqlarının müdafiəsi məsələlərinə ortaq tərəfdaşlıq,
- Ticarət və investisiya üçün əlverişli şəraitin yaradılması,
- Regionda və regiondan kənarda sülhün qorunması,
- Tərəflər arasında qarşılıqlı etimadın gücləndirilməsi,
- Beynəlxalq terrorizm, separatizm, ekstremizm və transsərhəd cinayətkarlıqla mübarizə üzrə fəaliyyətlərin əlaqələndirilməsi əhəmiyyəti var.

Zəngəzur dəhlizi məsələsi ilə əlaqədar hüquqi müstəvidə Ermənistan hazırda Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizində (INSTC) iştirakı ilə bağlı problemlərlə üzləşir. Rusiya Ermənistana ultimatum qoyub ki, əgər Azərbaycan və Türkiyə ilə blokadanın aradan qaldırılması üçün üzərinə düşəni etməsə, o zaman INSTC-dən faydalanmayacaq.

INSTC Rusiyanı Mərkəzi Asiya vasitəsilə Hindistanla birləşdirən layihədir. Rusiya, İran və Hindistan dəhlizin üç qurucu dövləti olub. Azərbaycan, Ermənistan, Qazaxıstan və Belarus layihədə

iştirak edən digər ən mühüm oyunçulardır. Bu layihə ilə bağlı özəlliklərdən biri rəsmi olaraq rəsmi üzv olmayan, lakin dəhlizlə əlaqəsi olan Türkmənistanın roludur.

Azərbaycan və İran arasında INSTC-nin bir hissəsi olan və Ermənistanın tanımadığı bəzi dəmir yolu əlaqələri nəzərə alındıqda, vəziyyət daha mürəkkəbləşir. Çünki onlar rəsmi olaraq iki ölkənin heç birinə aid olmayan, lakin hər ikisi bunu iddia edən Dağlıq Qarabağın mübahisəli ərazisində yerləşir.

Zəngəzur dəhlizinin daxil olduğu bu xətlərin yenidən açılması türk dünyasını yenidən birləşdirmək niyyəti ilə Türkiyə tərəfindən irəli sürülüb. Türkiyə bu dəhlizi Ermənistanın 2020-ci ildə ikinci Qarabağ müharibəsi nəticəsində Türkiyə və Azərbaycana qoyduğu blokadanın həlli kimi qiymətləndirir.

Dəhlizin canlanması Azərbaycanla Türkiyə arasında "körpü" rolunu oynayan və ondan qazanc əldə edən Gürcüstanı narahat edə bilsə də, hərtərəfli regional sülh və əməkdaşlıq mühitinin yaradılmasından bu ölkə də faydalanacaq. Bundan əlavə, Gürcüstan ərazisindən keçən Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum təbii qaz kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu xətti kimi layihələr bu ölkəyə öz töhfəsini verməkdə davam edəcək. Digər tərəfdən, Zəngəzur dəhlizinin reallaşmamış Gürcüstanın diskomfortunu daha da artırması və bu ölkəni fərqli meyillərə sürükləməsi ehtimalı cüzidir.

Dəhlizdən ən çox narahat olan ölkə İrandır. İran öz narahatlığını "sərhədlərin dəyişdirilməsi" (Zəngəzurun Azərbaycana qaytarılması) ehtimalı üzərində qurmağa çalışsa da, aydındır ki, onun narahatlığının əsas mənbəyi 44 günlük müharibənin nəticələri, Türkiyənin bölgədə güclənməsidir. və onun prosesdən demək olar ki, tamamilə kənarlaşdırılması məsələsidir.

Zəngəzur dəhlizinin hüquqi müstəvidə regional olaraq bir çox üstünlükləri vardır. Bu həm Qafqaz, həm də Asya bölgəsində olan ölkələr üçün böyük bir imkandır. Belə ki, Zəngəzur dəhlizi təkcə siyasi aspektdə rol oynamır, eyni zamanda hüquqi və iqtisadi məsələlərin həlli olaraq müzakirə edilə bilər. Zəngəzur dəhlizinin regional perspektivləri aşağıda yer almışdır:

- Beynəlxalq nəqliyyat əlaqələrinin genişlənməsi aktuallığı artır.
- Regional olaraq inteqrasiya əlaqələrinə zəmin yaradır.
- Regiona yeni dividendlər və investisiyalar gətirir.
- Yeni geostrateji mövqelər yaradır.
- Bölgədə çokvektorlu iş əməkdaşlıqları imkanı yaradır.
- Regionda suveren əməkdaşlıq yeni bir aspektdə genişlənir.

Zəngəzur dəhlizi suverenliyin yeni bir addımıdır. Bu dəhlizin həyata keçirilməsi ortaya çıxmış bir çox problemlərin həllinə yol açacaqdır.

İndiyə qədər olan məlumatlara əsasən, Zəngəzur dəhlizinin sərhəd dəyişikliyi layihəsi deyil, regional sülh və əməkdaşlıq mühitini gücləndirəcək nəqliyyat layihəsi olduğunu söyləmək mümkündür. Bu layihənin böyük ölçüdə Rusiyanın nəzarətində olması, erməni icmasındakı anti-türk əhval-ruhiyyəsi, bəzi xarici güclərin mənfi münasibəti və bəzi digər səbəblərə görə, onun reallaşması asan olmaya bilər. Lakin reallaşarsa, nəinki Azərbaycan və Ermənistan, yaxud Azərbaycan, Ermənistan, Türkiyə, Rusiya dördlüyü, hətta təkcə türk dünyası deyil, Şərq-Qərb ticarətinin demək olar ki, bütün iştirakçıları qazanacaq.

**Nəticə.**

Zəngəzur dəhlizi hüquqi və beynəlxalq əlaqələr baxımından mühüm funksionallıq təqdim edir. Zəngəzur dəhlizinin perspektivliyinin aktuallığı Azərbaycanın maraqları üzərinə regional inkişafın davamıdır. Bu dəhlizin regional bir güc təqdim etməsi ilə bərabər nəqliyyat məsələlərinin həllinə də zəmin yarada bilməsi əsas üstünlükdür. Dəhlizin funksional məsələlərin həllində aparıcı rol oynaması bir çox ölkələrin gözündə perspektivliyini artırır. Lakin Ermənistan və onun tərəfdaşları bu dəhlizin perspektivlikləri ilə bağlı məsələləri göz ardı edərək öz siyasi maraqlarını ön planda tutur və bu da dəhlizin regional inkişafına xələl gətirir.

Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin bu dəhlizin həyata keçirilməsi ilə bağlı fikirləri üst-üstə düşür. Bu dəhlizin perspektivliyini artıran digər bir məsələ türk dövlətlərinin birlik və bərabərliyinə atılacaq mühüm addım olmasıdır. Təbii ki, bu da Ermənistan başda olmaqla qonşu dövlətlər tərəfindən xoş qarşılanmır. Azərbaycan Respublikasının Qafqazda günü-gündən güc

qazanması və doğru addımlarla siyasi və hüquqi müstəvidə addımlaması Zəngəzur dəhlizi ilə daha da artacağı şübhəsiz bir faktdır.

Zəngəzur dəhlizinin perspektivliyi baxımdan ortaya qoyduğu imkanlar, bir çox dövlətlərin siyasi maraqları ilə bir müstəvidə yer alır. Belə ki, dəhlizin fəaliyyəti regiona gələcək iqtisadi dividendlərin sayını artıracaq, bölgənin rifahına zəmin yaradacaq. Bu təkcə logistik olaraq deyil, eyni zamanda regionda yaranacaq çoxvektorlu iş imkanların əməkdaşlıqlarına bir təkan olacaq.

Zəngəzur vasitəsilə Naxçıvana, oradan da Qars şəhərinə qədər uzanacaq bu dəhliz BTQ dəmiryolu ilə müqayisədə məsafəni 340 km azaldır. Belə olan halda yüklərin daşınması, o cümlədən kənd təsərrüfatı məhsullarının ixracı ölkəmiz üçün daha əlverişli olur. Beləliklə respublikamızda yüksək standartlara malik aqrar – sənaye məhsulları istehsalı və ixracı potensialının formalaşdırılması mümkündür. Bunun üçün artıq ötən dövr ərzində irimiqyaslı nəqliyyat – infrastruktur layihələri həyata keçirilmişdir. Bakı – Tbilisi – Qars (BTQ) dəmiryolu layihəsi dövlətimizin resursları hesabına uzunmüddətə tikilib 2017-ci ildə artıq istifadəyə verilmişdir. Layihənin həyata keçirilməsinin uzunmüddət tələb etməsinin səbəbi ABŞ və Aİ – nin Ermənistanın layihədən kənarda qalmasına razılıq verməməsi və Bakı – Tbilisi – Gümrü – Qars dəmiryolunun açılmasını tələb etməsi idi. Buna görə ölkəmizin təşəbbüskarı olduğu layihəyə beynəlxalq maliyyə institutları tərəfindən heç bir vəsait ayırılmamışdır və 10 il müddətinə ölkəmizin maliyyə resursları hesabına Ermənistandan kənar keçməklə BTQ dəmiryolu layihəsi tikilib istifadəyə verilmişdir.

Qarabaq və Şərgi Zəngəzur iqtisadi rayonunun sosial-iqtisadi inkişafının sabit və tarazlı dinamikası, turist biznes resurslarının potensialı, onlardan istifadə, ərzaq təhlükəsizliyi qlobal səviyyədə aktual olan məsələlər sırasındadır. Bu kontekstdən dövlətimizin II Qarabağ müharibəsindən sonrakı mərhələdə Qarabağ iqtisadi rayonunda yenidənqurma və bərpa işləri dövründə ən aktual olan məsələ qeyd edilən sahələrin sıfırdan necə qurulmasıdır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**


1. Asker, Ali & Zeynep Gizem Özpınar. "Azerbaycan'ı Zafere Götüren Büyük Taarruz: 44 Günlük Savaşın Anatomisi." Avrasya İncelemeleri Dergisi, no. 10.1 (2021): 83-106.
2. Aydın, Mustafa. Üç Büyük Gücün Çatışma Alanı: Kafkaslar (1800-1830). İstanbul Gökkubbe Yayınları, 2008. Aznevi, Ferhat, Hukuksal Boyutuyla Türkiye ve Azerbaycan'ın Ortak "Ermeni Sorunu", Yukarı Karabağ ve 10 Kasım 202 Ateşkes Antlaşması. Ankara: Türkiye Barolar Birliği Yayınları, 2021.
3. Bayramova, Ulviyya. "October-2021 Analysis The Impact of the Opening of Zangezur Corridor on Regional." (2021), https://policycommons.net/artifacts/1851479/october-2021-analysis-the-impact-of-the-opening-of-zangezur-corridor-onregional/2599000/ (Erişim tarihi: 8 Nisan 2022).
4. Bilge, M. Sadık. Osmanlı Devleti ve Kafkasya. İstanbul: Eren Yayınları, 2005. Çapraz, Hayri. "Rusya İmparatorluğu'nun Güney Kafkasya İdari Düzenlemelerinde Karabağ (XX. Yüzyıl)." Karabağ, Dünü, Bugünü, Yarını, ed. Okan Yeşilot & Bihter Gürışık Köksal içinde, İstanbul: Selenge Yayınları, 2021.
5. BİLGİN, Mustafa Sıtkı, "Karabağ Zaferine Giden Süreç ve Jeopolitik Sonuçları", ULİSA, 2020, Sayı 8, 14-19.
6. Çeliksoy, Emine, "İkinci Karabağ Savaşı'nda Şuşa'nın Rolü ve TürkiyeAzerbaycan İşbirlikleri." Al Farabi Uluslararası Sosyal Bilimler Dergisi, no. 6.4 (2021): 129-130.
7. Deveci Bozkuş, Yıldız. "Time for a Solution for the Armenian Question." An Anti-Türkiye Narrative: The Events of 1915 içinde, Ankara: Presidency's Directorate of Communications, 2022:133-144.


---


**Hacıyeva Lamiyə Bəşir qızı**

Azərbaycan Dövlət İqtisad Universiteti, tədqiqatçı

lamiyahaciyeva88@mail.ru


**"Şuşada mədəniyyət iqtisadiyyatının inkişaf etdirilməsi yolları"**

**Xülasə:** Məqalədə Şuşanın mədəniyyəti, iqtisadiyyatı, sənətkarlığı tarixi aspektdən araşdırılmış, Şuşanın tarixinə nəzər salınmış, eləcə də, bir sıra yerli və xarici alimlərin mənbələrinə, fikirlərinə istinad edilmişdir. 30 illik işğal dövründə erməni vandalları tərəfindən Şuşada məhv edilmiş, Şuşa şəhərinə dəymiş maddi və mənəvi ziyan iqtisadi cəhətdən hesablanmaqla hərtərəfli işıqlandırılmış və məqalədə bu barədə ətraflı şəkildə təhlillər aparılmışdır.

**Açar sözlər:** Şuşa, mədəniyyət, XIX əsr, sənətkarlıq, iqtisadiyyat

**Abstract:** In the chosen article, the culture, economy and moral values of the Susha city of Azerbaijan has been investigated from the prism of history by referring to the Susha's historical values and traditions. The author used the various sources including local and foreign publications and articles of scholars to provide the specific answers to the questions arose in the paper. During the course of Armenian occupation for 30 years, the illicit appropriation of natural resources, damage to the historical places, properties, as well as cultural monuments in the city of Susha were scrutinized by the author to shed light on the conditions.

**Keywords:** Susha, culture, XIX century, moral values and economy

**Резюме**

В выбранной статье культура, экономика и нравственные ценности города Щуша в Азербайджане исследованы с точки зрения истории путем обращения к историческим ценностям и традициям Щуши. Автор использовал различные источники, в том числе отечественные и зарубежные публикации и статьи ученых, чтобы дать конкретные ответы на поставленные в статье вопросы. В ходе армянской оккупации в течение 30 лет автор подробно рассмотрел незаконное присвоение природных ресурсов, ущерб историческим местам, имуществу, а также культурным памятникам в городе Щуша, чтобы пролить свет на ситуацию.

**Ключевые слова:** Щуша, культура, XIX век, нравственные ценности и хозяйство.

## Giriş

30 illik müharibə ərzində Azərbaycana vurulmuş maddi-mənəvi zərər çox böyükdür. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən hərbi işğalı ölkədə ağır humanitar böhran vəziyyətinin yaranması, çoxsaylı sosial-iqtisadi obyektlərin məhv edilməsi və ölkə iqtisadiyyatına ciddi ziyanların vurulması ilə yanaşı, Azərbaycan xalqının tarixi, maddi-mədəniyyət abidələrinə də ağır zərbələr vurulmuşdur.

Beş minə yaxın eksponatı olan Şuşa Tarix muzeyi, Dövlət Xalça Muzeyinin filialı və Xalq tətbiqi sənəti muzeyi, Qarabağ Dövlət Tarixi Muzeyi, Ağoğlan Məbədi, Xocalıdakı Əsgəran qalası, Kəlbəcər Tarix Muzeyinin və digər mədəniyyət ocaqlarının, rəsm qalereyalarının bənzərsiz ekspozisiyaları da dağıdılmış və talan olmuş, müqəddəs məbəd və məscidlər təhqir edilmiş, kitabxanalar (927) yandırılmış, misilsiz əlyazma nümunələri (4600.000 kitab fondu) məhv edilmişdir. Belə ki, talan olunmuş və məhv edilmiş mədəni-tarixi abidələr təkcə Azərbaycanın yox, həm də dünya sivilizasiyasının çox dəyərli mədəniyyət nümunələri idi.

8 noyabr 2020-ci ildə II Qarabağ müharibəsi zamanı Şuşa işğaldan azad edilmişdir. Lakin bu gözəl torpağı azad etmək heç də asan başa gəlmədi. Şuşa topla, tüfənglə, tankla deyil, Azərbaycan oğullarının cəsarəti, mərdliyi, canları, qanları hesabına düşmən tapdağından qurtulmuşdur.

Mədəniyyətə dair dövlət siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi önəm verdiyi əməli fəaliyyət sahələrindəndir. Postmüharibə dövründən ilk təqvim ili Azərbaycan Respublikasında mədəniyyət ili kimi xarakterizə olundu. 2021-ci ilin ilk ayında ölkə başçısı Şuşanı mədəniyyət paytaxtı elan etməsi, 2022-ci ili "Şuşa İli" elan etməsi Şuşanın bu günü gələcəyi ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi üçün böyük təkan verdi. (7)

Şuşada Xarı Bülbül festivalı, Vaqif Poeziya Günləri bərpa olundu və yüksək səviyyədə keçirildi. "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanunu parlamentdə qəbul edildi. Prezidentin qanunvericilik təşəbbüsü ilə irəli sürülmüş qanun Şuşa şəhərinin qorunmasının, bərpasının, öyrənilməsinin, inkişafının və təbliğinin hüquqi və təşkilati əsaslarını müəyyən etdi. Şuşaya və işğaldan azad edilmiş digər torpaqlarımıza mədəniyyət qayıtdı, quruculuq, abadlıq süreci başlandı. Vaqifin məqbərəsinin bərpası bu sürəcin şah əsərlərindən biri

oldu.İl ərzində sərgilər, konsertlər, müsabiqələr, təqdimatlar, ard-arda düzüldü. Bir neçə dəfə mədəniyyət, incəsənət xadimləri ilə bağlı sərəncamlar verildi, təltiflər oldu.

Şuşa şəhəri Azərbaycanın mədəniyyət beşiyi, bir çox ziyalıların, şairlərin, yazıçıların, memarların, rəssamların və xüsusən musiqiçilərin evi olmuşdur. Şuşa dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermiş şəxsiyyətlərin vətənidir!

Tarixi mənbələrdən öyrənilir ki, eramızın II əsrində yaşamış qədim Roma tarixçisi Gains Cornelius Tacitus (Tasit) Qafqaz ərazisində dondar türk tayfasına məxsus Sosu şəhərinin olması haqqında məlumat verilmişdir. Xalq əfsanəsinə görə bu yerlərin havası büllur kimi saf və şəfalı olduğu üçün onu "Şuşa" (şüşə) adlandırılıb. (3)

Coğrafi təhlillərə görə dəniz səviyyəsindən 1300-1600 metr yüksəklikdə yerləşən Şuşa şəhərinin cənubunda Qafqazın ən qədim yaşayış məskənlərindən biri yerləşir. XX əsrin 70-ci illərində Şuşa mağara düşərgəsində aparılan qazıntılar zamanı burada paleolit dövrünə aid daş alətləri aşkar olunub. Bu ərazilər tarixi Azərbaycan torpaqlarının Midiya dövlətinin, Qafqaz Albaniyasının, Qarabağ xanlığının hərbi-strateji əhəmiyyətli və iqtisadi, siyasi, mədəni mərkəzi kimi yaranıb və inkişaf edib.

Mənbələrə nəzər saldıqda görünür ki, Qarabağın, Şuşanın tarixi həmişə dünya səyyah və alimlərinin diqqətində olub. Bu alimlərin fikrinə nəzər yetirsək, İngilis alimi və səyyahı C.Morye və R.Burter Şuşanın qədimliyi ilə bağlı dəyərli mülahizələri vardır. C.Moryenin fikrincə, Şuşa hələ eramızdan əvvəl insan məskəni olmuşdur. R.Burter isə yazırdı: "Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır". Bütün bunlar Şuşanın hələ çox qədimdən mövcud olması haqqında fikir söyləməyə əsas verir.

Şuşa şəhəri XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan tərəfindən Şuşa kəndinin yaxınlığında abadlaşdırılaraq yenidən salınıb. İlk çağlarda şəhər Şuşa adı ilə yanaşı, xanın şərəfinə Pənahabad adlandırılıb.

Şuşanın bir şəhər kimi formalaşması üç mərhələdən keçmişdir. Birinci mərhələ qeyri-sabit şəraitdə 1763-cü ilə qədər davam etmiş, tikinti işləri bir qədər tələsik aparılmışdır. Bu dövrdə şəhərin şərq hissəsində doqquz məhəllə salınmışdır. Pənahəli xan hakimiyyət dövrünü əhatə edən birinci mərhələdə şəhərin ən qədim məhəlləsi sonralar şəhərin relyefinə uyğun olaraq "Aşağı məhəllə" adlandırılmışdır. Şuşanın bu ilk məhəlləsi aşağıda adları çəkilən küçələrdən ibarət idi: Çuxur, Qurdlar, Culfa Seyidli, Quyular, Hacı Yusifli, Dördlər qurdu, Dördçinar və Çöl qala.

İbrahimxəlil xanın hakimiyyət illərinə (1763-1806) təsadüf edən ikinci mərhələdə Şuşada aparılan tikinti işləri daha keyfiyyətli və möhtəşəm olmuşdur. Bu mərhələdə "Yuxarı məhəllə" adlanan ikinci məhəllə formalaşmışdır. Şəhərsalma üçün əlverişli olan "Aşağı məhəllə"nin yerindən fərqli olaraq, buranın ərazisi nisbətən dağlıq olub sıx meşə ilə örtülmüşdür. Elə buna görə də tələbat yarandıqca ərazi meşələrdən təmizlənir və yerində küçələr salınırdı. Təxminən 40 il ərzində formalaşan "Yuxarı məhəllə"də 8 yeni küçə salınmışdır. Həmin küçələr aşağıdakılar idi: Xanlıq, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçi, Hamamqabağı, Təzə.

XIX əsri əhatə edən üçüncü mərhələdə şəhərin dağlıq – qərb hissəsində yeni məhəllələr salınmış və əslində, bununla Şuşanın bir şəhər kimi formalaşması dövrü başa çatmışdır. Şəhərin dağlıq ərazidə salınmış "Qazançalı" adlanan üçüncü məhəlləsinin tikintisi 1805-ci ildə Qarabağ xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra salınmağa başlamış və bütün XIX əsr ərzində davam etmişdir. On iki küçədən ibarət olan bu məhəllə Şuşanın ən çox əhali yaşayan məhəlləsi olmuşdur. Öz inkişafının sonrakı mərhələsində şəhərin kənar hissələri istisna olmaqla, ilk salınan məhəllələrdə əsaslı surətdə yenidənqurma işləri aparılmamışdır. Buna görə də ilkin vaxtlarda yaradılmış memarlıq-planlaşdırma quruluşu müasir dövrümüzədək qorunub saxlanılmışdır.

Şuşa şəhəri XVIII əsrin sonlarından başlayaraq bütün Cənubi Qafqazın mühüm ticarət mərkəzlərindən birinə çevrilmişdir. Əsas ticarət və sənətkarlıq obyektləri şəhərin mərkəzi rolunu oynayan Aşağıbazar və Meydan adlandırılan ərazidə cəmləşmişdir. Burada çoxlu ticarət dükanı və sənətkar emalatxanası ilə yanaşı, bir neçə karvansara tikilib istifadəyə verilmişdir. Çoxlu karvan yollarının kəsişdiyi bu yerdə on karvansara var idi. 1841-ci ildən isə şəhər Rusiya bazarına cəlb olunmuşdur. Tacirlər Şuşaya Dərbənddən qızıl boya, Şəkidən silah, ipək, mahud, Bakıdan neft və zəfəran, Naxçıvandan duz və bez parça, Gəncədən zəy və meyvə gətirirdilər. Şuşanın ticarət əlaqələrində Cənubi Azərbaycan və İran şəhərləri, habelə Osmanlı imperiyası, Rusiya, Hindistan və

Avropa ölkələri mühüm rol oynayırdılar. Şuşalı tacirlər Almaniyanın məşhur Leypsiq, Rusiyanın Nijni-Novqorod yarmarkalarının daimi iştirakçıları idilər. Onlar İstanbul, Təbriz, Tehran, Tiflis, Moskva kimi şəhərlərə məhsul ixrac edirdilər.(4,s89)

Şuşa şəhəri özünün sənətkarlıq məhsulları ilə şöhrət qazanmışdır. XIX əsrin əvvəllərində şəhərdə 50-dən artıq sənət sahəsi üzrə ixtisaslaşmış böyük sənətkarlar ordusu fəaliyyət göstərirdi. Onların arasında toxucular, papaqçılar, çəkməçilər, dərzilər, dülgərlər, həllaclar çoxluq təşkil edirdi. Şəhərdə toxuculuq və xalçaçılıq xüsusilə yüksək inkişaf səviyyəsinə çatmışdı. XIX əsrin əvvəllərində burada müxtəlif növ parçalar istehsal edən 500 toxucu dəzgahı işləyirdi. Kapitalist münasibətlərinin sürətli inkişafı Şuşada ipəkçiliyin fabrik-zavod istehsalı səviyyəsinə yüksəlməsinə gətirib çıxardı. Artıq XIX əsrin 60-cı illərində illik istehsal gücü 78 min rubla bərabər olan 16 ipəksarıma fabriki fəaliyyət göstərirdi.

Şəhər Azərbaycanda xalça istehsalının da mühüm mərkəzlərindən biri idi. XIX əsrin sonlarında dünya bazarlarında Azərbaycan xalçalarına tələbatın artması Şuşada xalçaçılığın daha da inkişaf etməsinə səbəb oldu. Bu dövrdə şəhərdə hər il ümumi dəyəri 50 min rubla bərabər olan xalça məmulatı istehsal edilirdi. Şuşa xalçaları bədii xüsusiyyətlərinə görə iki böyük qrupa – ornamentli və süjetli xalçalara bölünürdü. Əsasən XVIII-XIX əsrlər üçün xarakterik olan ornamentli Şuşa xalçalarında nəbati ünsürlər üstünlük təşkil edirdi. Burada boyaqçılıq, gön-dəri məmulatı istehsalı və metalişləmə sənətləri də yüksək inkişaf səviyyəsinə çatmışdı. Şuşalı boyaqçılar müxtəlif növ bitkilərdən istifadə edərək 50-yə yaxın rəng və rəng çaları almağı bacarırdılar. XIX əsrin sonu – XX əsrin əvvəllərində Şuşada fəaliyyət göstərən 8 boyaqxananın illik istehsal gücü 69500 rubla çatırdı. Elə həmin dövrdə şəhərdə 200 nəfərə yaxın sənətkar gön-dəri məmulatı istehsalı ilə məşğul olurdu. Şuşada istehsal olunan yəhərlər, başmaqlar, ayaqqabılar, çarıqlar yüksək keyfiyyəti ilə seçilirdilər. XIX əsrin sonlarında Şuşada 78 nəfər zərgər müxtəlif növ baş, boyun, sinə, qulaq, bel, qol və barmaq üçün zərgərlik məmulatları hazırlayırdılar.

Şuşada ağac üzərində oyma və şəbəkəçilik də geniş yayılmışdır. Şuşalı sənətkarlar mütəlif sərgilərdə də iştirak edirdilər. 1872-ci ildə Moskvada açılmış sərgidə Şuşa xalçası gümüş medala layiq görülmüşdü. 1873-cü ildə Vyana şəhərində açılmış beynəlxalq sərgidə Şuşanı təmsil edən nümayəndələr də iştirak etmiş və onların sərgidə nümayiş etdirdikləri eksponatlar xaricilərdə dərin maraq oyatmışdı. 1903-cü ildə Tiflisdə nəşr olunmuş “Vestnik Kavkaza” jurnalının 43-cü səhifəsində göstərilirdi ki, “Şuşanın görünüşü Orta əsr Avropa şəhərlərini xatırladır. Bu şəhərin tacirləri ipək-barama alverində üstün mövqeyə malik olub, Tiflis, Moskva və Marsel şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırlar”. (4,s91)

XIX əsrin 40-cı illərindən başlayaraq Şuşada incəsənətin müxtəlif sahələri inkişaf edirdi. Yerli teatr həvəskarları tərəfindən teatr tamaşaları göstərilirdi. Mədəniyyətdə Tiflislə rəqabət aparan Şuşada ilk teatr tamaşaları 1848-ci ildə göstərilmişdi. 1891-ci ilin yazında Şuşada şəhər varlılarından H.A.Xandəmirov tərəfindən teatr binası tikildikdən sonra şəhərdə teatr tamaşalarının sayı artmağa başladı. Şəhər əhli bu tamaşalara böyük maraq göstərirdi. Təsadüfi deyildir ki, böyük Şekspirin məşhur “Otello” faciəsi ilk dəfə Şuşada oynanılmışdı.

XIX əsrin birinci yarısından başlayaraq Şuşada incəsənətin müxtəlif sahələri ilə birlikdə xanəndəlik sənəti də sürətlə inkişaf edirdi. Xanəndəlik sənəti Azərbaycanın başqa yerlərinə nisbətən Qarabağ mahalında, daha çox və xüsusilə Şuşa şəhərində inkişaf etmişdi. Bu, şübhəsiz, təsadüfi bir hal olmayıb, Şuşanın coğrafi şəraiti, digər tərəfdən isə şəhərin geniş mədəni-iqtisadi münasibətləri ilə əlaqədar idi.

XIX əsrin təkcə 70-ci illərində Şuşada 70 nəfərə yaxın xanəndə fəaliyyət göstərirdi. 80-90-cı illərdən isə xanəndə dəstələri teatr tamaşalarının fasilələrində çıxış edərdilər. Qafqazda ilk dəfə teatr tamaşalarının fasilələrindəki çıxışlar Tiflisdə və Şuşada olmuşdur. Xanəndələrin teatr tamaşalarındakı çıxışları Azərbaycanda musiqili teatrın meydana gəlməsinə təkan verirdi.

XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Bu böyük ziyalı təbəqəsi Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə, burada elmi və mədəniyyəti inkişaf etdirməkdə çox böyük rol oynamışdır.

XIX əsrin 90-cı illərində Şuşada bir sıra ədəbi, musiqi və incəsənət məclisləri olmuşdur. Bu məclislərdən “Məclisi-üns” adlı ədəbi-şeir məclisi, musiqişünaslar məclisi, xəttatlar məclisi, xanəndələr məclisi, nüsxəbəndlər məclisi, nəqqaşlar məclisi, memarlar məclisi və s. məclislər

olmuşdur. Şübhəsiz ki, bu məclislərin fəaliyyəti nəticəsində Şuşa şəhəri böyük incəsənət və musiqi mərkəzinə çevrilmişdir.

Şuşa özünün füsunkar təbiəti və gözəl mənzərələri ilə bütün dünyada şöhrət tapdığından hamı bu şəhəri görməyə, onun göz yaşı kimi şəffaf, buz kimi soyuq bulaqlarından içməyə, Cıdır düzündə at çapmaq yarışına baxmağa, İsa bulağında Qarabağ quzusunun ətindən kabab, Kəblə Məhərrəmin dadlı pitisindən, Molla oğlunun papiros kağızı kimi nazik olan lavaşından, Kəblə Mehdinin paxlavasından yeməyə və məşhur Qarabağ tut arağından dadmağa can atardı. Xüsusilə, yay aylarında şəhərdə həyat lap qaynayırdı. Yerli həvəskarlardan Azad bəy Əmirov, Əhməd bəy Ağdamski və başqaları Üzeyir Hacıbəylinin opera və operettalarını tamaşaya qoyub öz yerlilərinə estetik zövq verərdilər. Beləliklə, Şuşa XIX əsrin sonu XX əsrin əvvəllərində "Qafqazın konservatoriyası", "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" idi. O zaman Qafqazın hansı yerinə getsəydin, orada çalıb-oxuyanların içində şuşalının da olduğunu görərdin. (1)

Şuşada yetişən istedadlı şəxsiyyətləri dünyanın heç bir şəhəri yetişdirə bilməyib. Bəli, Şuşa Azərbaycan milli mədəniyyətində, musiqisində, incəsənətində, ədəbiyyatında dərin iz qoymuş şəxsiyyətlərin vətənidir: Xan qızı Xurşidbanu Natəvanın, Xarrat Qulunun, Hacı Hüsünün, Mir Möhsün Nəvvabın, Qasım bəy Zakirin, Cabbar Qaryağdıoğlunun, Keçəçioğlu Məhəmmədin, tarzən Sadıqcanın, Xan Şuşinskinin, Seyid Şuşinskinin, Nəcəf bəy Vəzirovun, Firudin bəy Köçərlinin, Əhməd bəy Ağaoğlunun, Süleyman Sani Axundovun, Qurban Pirimovun, Üzeyir bəy Hacıbəylinin, Zülfüqar Hacıbəylinin, Yusif Vəzir Çəmənzəminlinin, Ceyhun Hacıbəylinin, Əfrasiyab Bədəlbəylinin, Soltan Hacıbəyovun, Bülbülün, Zülfi Adıgözəlovun, Vasif Adıgözəlovun, Rəşid Behbudovun, Süleyman Ələsgərovun, Fikrət Əmirovun, Niyazinin, Lətif Kərimovun, Barat Şəkinskayanın, Münəvvər Rzayevanın və başqalarının. Bu xanzadə şəhər təkcə təbii gözəlliyi ilə deyil, kübar cəmiyyəti, mədəni mühiti, yüksək təhsili ilə də hər zaman fərqlənib. Yetirdiyi dahiləri, ziyalıları, şairləri, yazıçıları, musiqiçiləri, bəstəkarları saymaqla bitirmək olmaz.

Şuşa şəhəri memarlıq siması üçün şəhərin yerləşdiyi ərazinin özünəməxsus dağ peyzajı ilə səsləşən mənzərəsi göz oxşayır. Şəhərin daha qədim olan şərq tərəfi sakit relyefə, sonradan məskunlaşmış qərb tərəfi isə amfiteatr xüsusiyyətinə malikdir. Şuşanın inşası zamanı onun ətrafında geniş yayılmış ağ-qaya daşlarından da istifadə edilmişdir.

Əlavə olaraq Şuşanın tarixi mədəniyyət abidələri haqqında danışmaq da yerinə düşər. Qeyd edək ki, Şuşa şəhərinin ərazisi qədim abidələrlə zəngin idi. Ümumiyyətlə, şəhərdə 549 qədim bina (bunlardan 72-i Azərbaycan tarixində iz qoymuş şəxslərin yaşayış evləri və ya ev muzeyləridir), ümumi uzunluğu 1203 metr olan daş döşənmiş küçələr, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcuddur.

Bu abidələrin çoxu XIX əsrdə yaşamış memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib və həmin dövrün ən məşhur nəqqaşı Kərbəlayi Səfərəli tərəfindən bəzədilib.

Tarixi memarlıq və şəhərsalma abidəsinin yüksək bədii əhəmiyyəti nəzərə alınaraq, xalqımızın Ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 1977-ci ildə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmiş, Şuşa tarixi-memarlıq qoruğuna çevrilmişdir.

Hal-hazırda Şuşada bərpa və quruculuq işləri davam etdirilməkdədir. 30 illik işğal ərzində talan olunmuş, erməni tapdağı altında qalmış maddi-mədəniyyət abidələrimiz, iqtisadiyyatımız yenidən bərpa edilir. Ümidvarıq ki, yeni Şuşa şəhəri, onun mədəni abidələri dünya mədəni irsinə öz töhfəsini verəcəkdir.

**Ədəbiyyat siyahısı**


1. Sarıyeva İrada, Bakı xəbər, 17 iyul 2014-cü il, səh.15
2. Xalq qəzeti, 07 yanvar 2022-ci il, səh.2
3. Bakı xəbər, 17 iyul 2014-cü il, səh.15
4. Səmədzadə Ziyad, Qarabağ İqtisadiyyatı 100 ildə, Bakı 2022, səh.852
5. Müzəffərli (İmanov) Nazim; Əliyev Təbriz, Azərbaycanda mədəniyyətin iqtisadiyyatı: reallıqlar və perspektiv inkişaf. Analitik icmal. (Bakı 2022) "Elm və Bilik" səh.114
6. X.Abbasova, K.M.Tahirov, E.R.Nəciyev, Şuşa-Azərbaycanın mədəniyyət paytaxtı: biblioqrafiya. Bakı 2021, səh.600
7. Bakı xəbər, 13 sentyabr 2022-ci il, səh 7.

**Aysel Faiq qızı Əbdüləzimova**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Maliyyə və Mühasibat fakültəsi
Maliyyə ixtisası, SABAH qrupunun tələbəsi
abdulaysel2004@gmail.com

# İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı təhlili və qiymətləndirilməsi

## Xülasə

Azad edilmiş ərazilərdə tərəflərin təkbaşına inkişaf layihələri hazırlamaq, planlaşdırmaq və təşkil etməkdə dövrümüz üçün aktual məsələdir. Sektoral inkişaf istiqamətlərinin bir çox addımlar atılmışdır ki, bu layihələrdən bəziləri uğurla həyata keçirilib, bəziləri isə ilkin mərhələdədirlər. Bununla əlaqədar olaraq, azad edilmiş bölgələrdə inkişaf mütəxəssisləri arasında bu inkişaf layihələrinin davamlı olaraq necə müzakirə edilməli və planlaşdırılmalı olduğu, sərmayələrin qoyulması üçün qərarların necə qəbul edilməli və kimin qəbul edilməsi ilə bağlı intensiv müzakirələr aparılır.

**Açar sözlər: Şuşa, iqtisadiyyat, resurs, sənaye**

## Анализ и оценка экономического потенциала регионов, освобожденных от оккупации

## Резюме

Это актуальный вопрос для нашего времени при подготовке, планировании и организации самостоятельных проектов развития сторон на освобожденных территориях. Сделано много шагов в направлении отраслевого развития, некоторые из этих проектов успешно реализованы, а другие находятся в начальной стадии. В связи с этим среди специалистов по развитию в освобожденных районах ведутся интенсивные дискуссии о том, как эти проекты развития должны постоянно обсуждаться и планироваться, как принимать решения и кем делать инвестиции.

**Ключевые слова:** Шуша, экономика, ресурс, промышленность.

## Analysis and assessment of the economic potential of the regions liberated from occupation

## SUMMARY

It is a topical issue for our time in preparing, planning and organizing independent development projects of the parties in the liberated territories. Many steps have been taken in the direction of sectoral development, some of these projects have been successfully implemented, while others are in the initial stage. In this regard, intensive discussions are taking place among development experts in the liberated regions on how these development projects should be continuously discussed and planned, how decisions should be made and by whom to make investments.

**Key words:** Shusha, economy, resource, industry

2020-ci ilin payızı Azərbaycan üçün mühüm və tarixi hadisə ilə yadda qaldı. Belə ki, də ölkə hərbi yolla öz ərazi bütövlüyünü erməni işğalından xilas edə bildi. Bu münaqişə Azərbaycan müstəqillik əldə etdikdən bir qədər sonra başlamış və 2020-ci ilin sentyabr ayına qədər davam etmişdir. Azərbaycanın işğal olunmuş əraziləri azad olunandan sonra indi həll edilməli olan başlıca vəzifə həmin ərazilərin bərpası və məcburi köçkünlərin öz evlərinə qaytarılmasıdır. Bu ərazilərdə məcburi köçkünlərin geri qaytarılması üçün müvafiq mühit, o cümlədən sabit və rahat şərait yaradılmalıdır. Azad edilmiş ərazilərin iqtisadi tərkib hissəsi həyati əhəmiyyətli rol oynayacaqdır. Bu

məqsədlə indi tamamilə Azərbaycanın suveren nəzarətində olan torpaqların iqtisadi potensialına yenidən baxılması vacibdir.

30 ilə yaxındır ki, Azərbaycanın cənub-qərb bölgəsindəki torpaqlar Ermənistan tərəfindən işğal olunub. Bu səbəbdən bu torpaqların azad edilməsi AR-ın həm daxili, həm də xarici siyasətinin əsas prioriteti idi. Azərbaycan uzun illər ATƏT-in Minsk qrupunun həmsədr ölkələri (Fransa, Rusiya Federasiyası və ABŞ) vasitəsilə danışıqlar apararaq problemi sülh yolu ilə həll etməyə çalışıb, lakin Ermənistan-Azərbaycan münaqişəsinin həllini bilərəkdən ləngitməklə, Ermənistan 1994-cü il atəşkəs sazişindən sonra yaradılmış status-kvonu qoruyub saxlamağa çalışıb (https://www.bbc.com/azeri/azerbaijan-57859747, 2021). Həmin vaxt Ermənistan təkcə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) ərazisini deyil, həm də ona bitişik yeddi rayonu işğal etmiş, bununla da bütün yerli əhalini öz ev-eşiyini tərk edərək öz ölkəsinə köçürməyə məcbur etmişdi. Ermənistan ordusu tarix ərzində Azərbaycan xalqının mədəni sərvətlərinə də ziyan vurduğu halda, ümumilikdə 950 kitabxana, 44 məbəd və 9 məscid dağıdılmışdır. Beynəlxalq hüquqa məhəl qoymayaraq işğalını davam etdirən Ermənistanın regionda vurduğu maliyyə itkisinin ümumilikdə 320 milyard dolları ötdüyü təxmin edilir [10]

Noyabrın 9-da Rusiyanın vasitəçiliyi ilə hərbi əməliyyatlar başa çatana qədər Azərbaycan təkbaşına Füzuli, Cəbrayıl, Qubatlı, Zəngilan və (qismən) Xocavənd rayonlarını və Şuşa şəhərini azad etdi. Noyabrın 10-da tərəflər atəşkəs elan etdikdən sonra Ermənistan silahlı qüvvələri daha üç rayonu - Ağdam, Kəlbəcər və Laçını tərk edib. Cəmi 13198 km2 ərazi(Azərbaycanın 86600 km2 ərazisi) azad edilib (https://azertag.az/xeber/Isgaldan_azad_edilmis_seher_ve_kendlerimiz-1622227, 2020). Hazırda Azərbaycan təxminən 10 min km2 əraziyə tam nəzarət edir və hazırda Qarabağ ermənilərinin məskunlaşdığı qalan 3100 kvadrat kilometr əraziyə Rusiya sülhməramlıları beş il müddətinə yerləşdirilib. Azərbaycanın bu torpaqlar üzərində nəzarətinin tədricən gücləndirilməsi sonrakı mərhələlərdə baş verəcək.[8]

İşğal olunmuş ərazilər azad edildikdən sonra onların bərpası və azərbaycanlı məcburi köçkünlərin öz vətənlərinə qaytarılması məsələsi əsas vəzifədir. Ümumilikdə 890 yaşayış məntəqəsi (şəhər, qəsəbə və kənd) erməni hərbi təcavüzkarı tərəfindən dağıdılıb. Həmçinin, ərazini minalardan və partlamamış hərbi sursatlardan təmizləmək çox vaxt aparacaq. Hesablamalara görə, bu, təqribən 3-5 il çəkə bilər və bütün bu cür tədqiqatların tamamlanması təxminən 10 il çəkəcək.

Azərbaycanın ərazi bütövlüyünün bərpası böyük iqtisadi əhəmiyyət kəsb edir, öz növbəsində, işğal iqtisadiyyat sektoruna böyük ziyan vurub. Azərbaycanın 30 il ərzində bu torpaqlardakı sərvətlərə çıxış imkanı yox idi. 1994-cü ildə Ermənistandan olan Azərbaycanlı qaçqınların ümumi sayı 243.682 nəfər idi. Orta Asiyadan 49239 nəfər, o cümlədən Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı nəticəsində 611293 nəfər məcburi köçkünlər olmuşdur. Beləliklə, 900 mindən çox qaçqın və köçkün uzun müddət tam iqtisadi fəaliyyət göstərmək imkanı tapa bilməyib (Hüseynov Y., 2013: s.129). Büdcə gəlirlərinin bu cür qeyri-standart sosial yönümlü olması həm də ölkənin iqtisadiyyatı üçün ciddi yük idi, baxmayaraq ki, onların bir çoxu işlə təmin olunmuş və aylıq dövlət müavinəti almışdı. Ölkə əhalisinin bu sosial təbəqəsini təmin etmək üçün külli miqdarda vəsait ayrılmışdı.[5]

Belə ki, hökumət 496557 məcburi köçkünə aylıq müavinət verir . İşıq, təbii qaz, su və məişət tullantıları kimi kommunal xərcləri də dövlət ödəyir, tibbi yardım və müalicə pulsuz həyata keçirilir. Bundan əlavə, ali təhsil müəssisələrində təhsil alan məcburi köçkün ailələrindən olan tələbələrin təhsil xərclərini dövlət öz üzərinə götürür və eyni qrupdan olan məktəbliləri pulsuz dərsliklərlə təmin edirdi. Əmlak alqı-satqısı zamanı emissiya və notariat rüsumlarından azad olmaq kimi pulsuz olan digər xidmətlər də var. Həmçinin, dövlət vəsaiti hesabına məcburi köçkünlərin həyat şəraitinin nisbətdə yaxşılaşdırılması üçün çoxlu evlər tikilib. Beləliklə, Azərbaycan 2007-ci ildə məcburi köçkünlərin ən ağır şəraitdə yaşamalı olduğu sonuncu çadır şəhərciyini də dağıda bildi. O vaxtdan bəri dövlət proqramına uyğun olaraq onlar üçün yüzdən çox şəhərcik salınıb. Məcburi köçkünlərin problemlərinin həllinə ümumilikdə 7 milyard manata yaxın (təxminən 4,12 milyard ABŞ dolları) vəsait xərclənib.

Bərpa olunan ərazilər faydalı qazıntılarla da zəngindir. Bu ərazilərdə 155 faydalı qazıntı yatağı var, onlardan beşi qızıldır (işğaldan əvvəlki illərin hesablamalarına görə, bu yataqlarda 132 tona yaxın qızıl var). Azərbaycanın ən böyük qızıl yatağı Zod-Söyüdlü Ermənistanla Azərbaycanın Kəlbəcər rayonu arasında sərhəddə yerləşir (torpağın 74%-i və ya 219 hektar Azərbaycan tərəfində,

26%-i isə Ermənistan tərəfindədir). Kəlbəcər rayonundakı Zod-Söyüdlü yatağının ümumi sənaye ehtiyatının həcmi 112,5 ton, bu yataqdan minimum filiz hasilatı isə bir ton üçün 0,8 qramdır [10]

Qeyd edək ki, Kəlbəcər rayonu qaytarılmamışdan əvvəl erməni qəsbkarları orada qeyri-qanuni qızıl ehtiyatlarını çıxarıblar. Rusiyanın "GeoPro Mining Ltd" şirkətinin törəmə şirkəti olan GPM Gold 2007-ci ildən Söyüdlü kəndində filiz hasilatı ilə məşğuldur (Omarov V., 2020). Daha əvvəl Kanadanın Birinci Dynasty Mines şirkəti Söyüdlüdə oxşar fəaliyyətlər aparmağa çalışmışdı; 1998-ci ildə Ermənistanın "Ararat Gold Recovery Company" şirkətinin qalan 50%-lik səhmlərini alıb və səhm paketini 100%-ə çatdırıb. GPM Gold-un bu yataqdan ümumi qızıl hasilatı 130000 unsiya təşkil edib. Ermənilər həmçinin Kəlbəcər rayonunda yerləşən və ehtiyatı 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqlarını da istismar ediblər[11]

Azad edilmiş ərazilərdə civə (1900 ton), qurğuşun (40 000 ton), mis və sink kimi əhəmiyyətli yataqları da mövcuddur. Ötən illərin hesablamalarına görə, təkcə Kəlbəcər rayonu ərazisində Aqatağa, Levçay və Çorbulaqda mövcud civə yataqlarının ümumi həcmi 850 ton, Həmişli və Ağqayada 200 tondan çoxdur. Çilqazçay və Narzanlı iri civə yataqları isə Laçın rayonunda yerləşir. Bu yataqlardan bir çoxu Ermənistan tərəfindən qanunsuz istifadə edilmişdir. Bununla əlaqədar olaraq, Azərbaycan hökuməti beynəlxalq auditor şirkətlərini Ermənistandan kompensasiya tələbi üçün beynəlxalq məhkəmələrə təqdim oluna biləcək ümumi zərərin hesablanması məqsədilə müstəqil audit aparmaq üçün dəvət etmək niyyətindədir [4].

Bundan əlavə rayonda sement xammalı, tikinti daşı, pemza və vulkan külü, gil, tikinti qumu, perlit, obsidian, vermikulit, gips, anhidrit və gil kimi tikinti materiallarının istehsalı üçün yararlı olan müxtəlif üzlük daşları və digər yataqlardan ibarət 19 yataq var. Məsələn, Cəbrayıl rayonunda tikinti üçün lazım olan hər şey demək olar ki, mövcuddur: ehtiyatları 2296 milyon m3 hesablanan Tuluza yatağında kub daş hasil edilə bilər. Qaracalıda 4,672 milyon m3 gil, həmçinin Gəyarçın-Veysəllidə ümumi ehtiyatı 6,644 milyon m3 olan ən azı dörd sement xammalı yatağı var. Rayonda qum, çınqıl, gips və digər tikinti materialları yataqları da var.

Bütün bunlar işğaldan azad edilmiş torpaqların bərpa olunduğu dövrdə xüsusi əhəmiyyət kəsb edəcəkdir. Tikinti materiallarının bilavasitə regionda istehsalının mümkünlüyü yenidənqurma üçün lazım olan tikinti materiallarının maya dəyərini aşağı salacaq və yeni iş yerləri yaradacaq. Bundan əlavə, yerli tikinti materiallarından istifadə rayonun orijinal memarlıq üslubunun bərpasına öz töhfəsini verəcək.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin iqtisadi potensialına nəzər saldıqda, təkcə burada yerləşən təbii yataqların, yeraltı və yerüstü sərvətlərin iqtisadiyyata necə böyük töhfə verəcəyini anlamaq mümkündür.

Azərbaycan Respublikasının mineral sularının ümumi geoloji ehtiyatının (müxtəlif tərkibli və müalicəvi əhəmiyyətə malik 120 bulaq) 39,6%-ə yaxını işğaldan azad edilmiş torpaqlardadır. Bu ərazilərdə yerləşən mineral su yataqlarının potensial ehtiyatı sutkada 7800 m3 civarındadır (http://www.ecoreform.az/contact-us, 2020). Onların arasında Turşsu (Şuşa şəhərindən bir qədər aralıda), İstisu (Kəlbəcər rayonu), və Sırlan (Şuşa şəhəri) bulaqları xüsusi əhəmiyyət kəsb edir. Həmin mineral sular kimyəvi tərkibi ilə seçilir və bir çox xəstəliklərə təbii dərmandır. Münaqişədən əvvəl İstisu bulağındakı böyük kurort və sanatoriya və mineral su qablaşdırma zavodu işğal zamanı tamamilə dağıdılıb. Turşsu və Sırlan bulaqlarının suyunun müxtəlif daxili xəstəliklərə dərman olduğuna inanılır.[7]

Bu bölgədə çoxlu mineral suların olması mövcud turizm potensialı ilə birlikdə müalicəvi turizm məkanını inkişaf etdirməyə imkan verir. Din, yemək, ekoturizm və müalicə kimi digər yerli elementləri aktivləşdirməklə bölgədə daha çox turizm növlərini inkişaf etdirmək mümkün olacaq. Sonuncu üçün təkcə Azərbaycan vətəndaşlarını deyil, həm də xarici turistləri cəlb edəcək xəstəxana və sanatoriyaların bərpası və yenilərinin tikintisi lazımdır. Nəzərdə tutulan investisiya axınları uğurlu olarsa, yaxın gələcəkdə Qarabağ və Şərqi Zəngəzur regionu turizm sahəsində dünyada tanınacaq və ümumilikdə ölkə iqtisadiyyatına böyük təkan verəcəkdir. Turizmin gəlirli və rentabelliyi yüksək olan sahə olması Qarabağ və Şərqi Zəngəzur regionunun iqtisadi potensialını yüksək qiymətləndirməyə imkan verir.

Bu rayonlarda müəyyən neft və təbii qaz ehtiyatlarının olması da məlumdur. Bir sözlə, onların azad edilmiş ərazilərdə təxmini ehtiyatları müvafiq olaraq 200 milyon ton və 250 milyard m3 olaraq qiymətləndirilir (https://interfax.com.ua/news/economic/709809.html, 2020). Bu ərazilər əngəlli,

dağlıq ərazilərdən ibarət olsa da, onların çıxarılması yeni texnologiyalar sayəsində mümkün və iqtisadi cəhətdən sərfəli ola bilər ki, bu da yeni iş yerlərinin açılmasına, regiona əlavə enerji resurslarının verilməsinə və karbohidrogen ehtiyatlarının ixracının artmasına səbəb olacaq. Qarabağın iqtisadi inkişafı üçün aşağıdakı işlərin aparılması məqsədəuyğundur:

**Cədvəl 1: Qarabağın iqtisadi inkişafı üçün görülməli işlərin siyahsı [9]**

| № | İşlərin siyahsı |
|---|---|
| 1. | Torpaq islahatı yolu ilə minalardan təmizlənmiş kənd təsərrüfatı torpaqlarının bu ərazilərə köçürüləcək ailə təsərrüfatlarına paylanması |
| 2. | Yeni aqroparkların və eyni zamanda soyuducu anbarların tikintisi |
| 3. | Kənd təsərrüfatı ilə məşğul olan ailə təsərrüfatlarına dövlət tərəfindən güzəştli kreditlərin verilməsi |
| 4. | ənaye qovşaqlarının tikintisi |
| 5. | Təbii bərpa olunan enerji mənbələrindən istifadə obyektlərinin tikintisi |
| 6. | ənaye parklarının yaradılması |
| 7. | Yerli bələdiyyələrin formalaşdırılması üçün dövlət büdcəsindən bələdiyyələrə maliyyə vəsaitinin ayrılması |
| 8. | İşğaldan azad olunmuş rayonarda fəaliyyət göstərən müəssisələrə vergi güzəştlərinin tətbiqi |

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı çox böyükdür. Onların Ermənistan iqtisadiyyatı üçün nə qədər əhəmiyyətli olduğunu nəzərə alsaq, görünən odur ki, Azərbaycan bərpa olunan imkanlardan maksimum istifadə edəcək. Bəzi hesablamalara görə, əvvəllər Ermənistan tərəfindən işğal olunmuş torpaqlarda təbii sərvətlərin istismarı Azərbaycana ÜDM-in 30%-dən çoxunu çıxarmağa imkan verəcək. İndi bu ehtiyatlar Azərbaycan iqtisadiyyatına böyük təkan verəcək, həm də yerli sakinlərin (keçmiş məcburi köçkünlərin) vətənlərinə tez qayıtmasına töhfə verəcək.

Əslində bu regionların inkişafı Ermənistan üçün müsbət imkanlar yaradacaq. 10 noyabr tarixli Bəyanatda qeyd olunur ki, regional əməkdaşlığın inkişafına müsbət təsir edəcək, ölkələr arasında qarşılıqlı asılılıq yaradacaq və buna görə də gələcəkdə mümkün münaqişə ehtimalını azaldacaq layihələr var. Bəyanatın doqquzuncu bəndinə əsasən, regionda bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa olunacaqdır. Müstəqillik əldə etdikdən sonra ilk dəfə olaraq Ermənistan köklü regional iqtisadi sistemin bir hissəsi olmaq imkanı əldə etdi. Konstruktiv yanaşma və intiqamçı ideyalar rədd edilərsə, Ermənistan yeni tənzimləmələrdən öz iqtisadiyyatı üçün əhəmiyyətli faydalar əldə edəcək.

Bundan əlavə, bəyanata görə bu regionların inkişafı Naxçıvan Muxtar Respublikası üçün müsbət imkanlar yaradacaq. Belə ki, Ermənistan Respublikasının ərazilərindən keçən nəqliyyat yollarının bərpası üçün işlər görüləcəkdir. Əslində, 10 noyabr tarixli Bəyanatda qeyd olunur ki, Qarabağ regionunun geri qaytarılması regional əməkdaşlığın inkişafına müsbət təsir edəcək, ölkələr arasında qarşılıqlı asılılıq yaradacaq və buna görə də gələcəkdə mümkün münaqişə ehtimalını azaldacaq.

Ərazi bütövlüyünün bərpası Azərbaycana bu regionun iqtisadi potensialından tam istifadə etməyə imkan verəcək ki, bu da onun vətəndaşlarının rifahına müsbət təsir göstərəcək, həmçinin

Ermənistanın davam edən münaqişə illərində məqsədli şəkildə təcrid olunduğu Cənubi Qafqazda regional əməkdaşlıq üçün əlavə stimul olacaqdır.

2020-ci ilin payızında hərbi münaqişədə qazanılan qələbə nəticəsində Azərbaycan Qarabağda infrastrukturun yenidən qurulmasına və bu bölgələrin inkişafına başlayıb. Artıq azad edilmiş ərazilərin mina və digər partlayıcı qurğulardan təmizlənməsi prosesinə başlanılıb. Şuşa növbəti dəfə mədəniyyətimizin paytaxtı elan edildi. Prezident İlham Əliyev münaqişədən sonrakı yenidənqurma üçün əsasları müəyyən etdi. Azərbaycanın işğaldan azad edilmiş torpaqlarının inkişafı, beynəlxalq inkişaf tərəfdaşları və investorların iştirakı ilə yenidənqurma, tikinti və humanitar tədbirlər, dövlət və özəl sektor arasında əməkdaşlıq, məcburi köçkünlərin qayıdışı və sosial kapitalın inkişafı, xüsusi dövlət proqramları ilə sektoral inkişaf tətbirləri nəzərdə tutulmuşdur. İşğaldan azad edilmiş torpaqlarda sektoral inkişafın istiqaməti üçün mədənçıxarma sənayesi, metallurgiya, emal sənayesi, yeyinti sənayesi, turizm və istirahət, yaradıcı sənaye, tibb, taxılçılıq, tərəvəzçilik, pambıqçılıq, üzümçülük, meyvəçilik və heyvandarlığın inkişaf potensialın iqtisadi vəziyyəti təhlil olunmuşdur. Bundan əlavə, bu sahələrə sərmayə qoyuluşu həm qeyri-neft ixracının artması, həm də idxalın əvəzlənməsi və dəyər zəncirlərində iştirak üçün işi vacib edir.

## NƏTİCƏ

Fikrimcə, azad edilmiş rayonlarda turizm və rekresiya, qida sənayesi, mədənçıxarma, tikinti sənayesi, tibb, metallurgiya, sənaye, taxılçılıq, heyvandarlıq, arıçılıq, üzümçülük, pambıqçılıq, meyvəçilik, quşçuluq, tərəvəzçilik, tikinti və s. kimi bir çox sektorlar üzrə potensial mövcuddur. Qeyd edilən sahələrin inkişafı üçün investisiyaların cəlb olunması istər qeyri-neft idxalın və ixracının artırılması, istərsə də dəyər zəncirlərinin birləşməsi üçün əhəmiyyətli olacaqdır.

İşğala qədər Azərbaycanın Qarabağ bölgəsində bir çox beynəlxalq ekspertlər və tanınmış alimlərin iştirakiylə çoxsaylı ekspedisiyalar keçirilib. Alimlərin tədqiqatlarının nəticələrinə əsasən, bu bölgələr biomüxtəlifliyin genetik ehtiyatlarında olan zənginliyinə əsasən ümumi Qafqaz regionunda xüsusilə seçilir. Azərbaycanın Qarabağ bölgəsi bir sıra efiryağlı, dərman, aromatik, bəzək və digər bir çox qeyri-ənənəvi bitkilərin vətəni sayılır. Şuşa şəhərimizdə bitən xarı bülbül isə Qarabağın rəmzi hesab edilir. Unikal sayılan bu bitki artıq Vətən müharibəsində şəhidlərimizin ruhuna ehtiram simvolu olaraq anılır.

Dövlətimizin Şuşa şəhərində keçirdiyi və bundan sonra keçirəcəyi beynəlxalq tədbirlər də Qarabağın qlobal arenaya tanıdılması və bunun nəticəsində xarici investorların cəlbi üçün atılan müsbət addımlardan biri kimi hesab edilir.

## ƏDƏBİYYAT


1. Daşsalahlı R.,(5 Mart 2021). "Qarabağ -inkişaf, tərəqqi meydanı", Azərbaycan qəzeti, səh.2.
2. Hüseynov Y., (2013). "Şuşa şəhərinin tarixi", Bakı: "Şuşa" nəşriyyatı, 156 səh.
3. Xalq qəzeti, (8 Avqust, 2021), "Prezident İlham ƏLİYEV: Qarabağın bərpası ilə Azərbaycan qüdrətli dövlət olduğunu bir daha bütün dünyaya nümayiş etdirir", səh 1.
4. Xudiyev N., (16 Sentyabr 2021). "Qarabağ iqtisadi rayonunun maliyyə potensialı onun iqtisadi artım və inkişaf strategiyasının əsasıdır", İqtisadiyyat qəzeti, səh.4.
5. Musayev A., Zeynalov M., (27 Yanvar 2021) **"**Qarabağın bərpası və inkişafı prosesində xarici dəstək mühüm amildir", Azərbaycan qəzeti, səh 9.
6. Rəşid L., (9 Dekabr, 2020), "İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri", Xalq qəzati, səh.9.
7. Salayev N.,(10 Fevral 2021). "İşğaldan azad olunmuş ərazilərə beynəlxalq investisiya axını başlayır", Bakı Xəbəri qəzeti, səh.4.
8. Sarıyeva İ., (28 Dekabr 2021). "Qarabağ turizmi - bölgələrin sosial-iqtisadi inkişaf mənbələrindən biri". Bakı Xəbəri qəzeti, səh.10.
9. Tağıyev T., (7 Fevral 2020). "Azad ərazilərimizə xarici şirkətlərin yeni axını başlanır". Bakı Xəbəri qəzeti, səh.1.
10. AA.com.tr, (29 Sentyabr 2020). "Azerbaycan'ın işgal altındaki toprakları Karabağ", https://www.aa.com.tr/tr/azerbaycan-cephe-hatti/azerbaycanin-isgal-altindaki-topraklari-karabag/1989594 (giriş tarixi: 21 fevral 2022).

11. Allahverdiqızı F., (10 Dekabr 2020). "Azad edilən ərazilər yerli və xarici investorlar üçün cəlbedici olacaq". https://vergiler.az/news/economy/11072.html. (giriş tarixi: 21 fevral 2022).

# TƏDBİRDƏN FOTOŞƏKİLLƏR




ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ!




UNEC
UNEC
UNEC
"Truth"
The Lord is my Light
LSE




«8 NOYABR – ZƏFƏR GÜNÜ» və
«ŞUŞA İLİ»nə həsr olunmuş
«ŞUŞANIN SOSİAL-İQTİSADİ DİRÇƏLDİLMƏSİ
AZƏRBAYCANIN TƏRƏQQİSİNİN
YENİ ZİRVƏSİDİR»
MƏQALƏ MÜSABİQƏSİ


MƏQALƏ MÜSABİQƏSİ


«8 NOYABR – ZƏFƏR GÜNÜ»
«ŞUŞA İLİ»nə həsr olunmuş
«ŞUŞANIN SOSİAL-İQTİSADİ DİRÇƏLDİLMƏSİ
AZƏRBAYCANIN TƏRƏQQİSİNİN
YENİ ZİRVƏSİDİR»
MƏQALƏ MÜSABİQƏSİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
1930




SERTİFİKAT


SERTİFİKAT


SERTİFİKAT










1918






**BAKI- UNEC – 2022**